Məmməd Səid Ordubadi

# HƏYATIM VƏ MÜHİTİM

0.48

MƏMMƏD SƏİD ORDUBADİ

# HƏYATIM VƏ MÜHİTİM

114432

M.S.Ordubadi adına
Naxçıvan Muxtar Resp. Milli
KİTABXANASI

Toplayanı, tərtib edəni, çapa hazırlayanı və ön sözün müəllifi: **İsa HƏBİBBƏYLİ**
*Naxçıvan Dövlət Universitetinin rektoru, akademik*

Redaktoru: **Yavuz AXUNDLU**
*Naxçıvan Dövlət Universiteti Azərbaycan ədəbiyyatı kafedrasının professoru, Prezident təqaüdçüsü*

Məsul redaktor: **Hikmət MEHDİYEV**
*filologiya üzrə fəlsəfə doktoru, dosent*

*Kitabda görkəmli yazıçı və ictimai xadim Məmməd Səid Ordubadinin (1872-1950) «Həyatım və mühitim» memuarı, «Qanlı sənələr» əsəri və «İki çocuğun Avropaya səyahəti» romanı, habelə ilk mənzum əsərləri toplanmışdır.*

*«İki çocuğun Avropaya səyahəti» kiçik romanı (1908) ilk dəfədir ki, çap olunur.*

*«Həyatım və mühitim» memuarının 1996-cı il nəşrindəki ixtisarlar bərpa olunmuşdur.*

*XX əsrin əvvəllərində Cəlil Məmmədquluzadənin rəhbəri olduğu «Qeyrət» nəşriyyatında çapdan çıxmış Məmməd Səid Ordubadinin «Qəflət» (1906), «Vətən və hürriyyət» (1907) kitablarındakı şeirlər müqəddiməsi ilə birlikdə tam halda ilk dəfə oxuculara təqdim edilir.*

***Məmməd Səid Ordubadi. "Həyatım və mühitim".*** *"Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyi, Naxçıvan-2012. 336 səh.*

4700000000
053-2012

© "Əcəmi" 2012.

## BÖYÜK ƏDƏBİYYAT NƏHƏNGİ

Dünyada böyük ədəbiyyatların geniş şöhrət qazanmış böyük və nəhəng yaradıcıları vardır. Görkəmli yazıçı və ictimai xadim Məmməd Səid Ordubadi də çoxəsrlik tarixi və davamlı ənənələri olan Azərbaycan ədəbiyyatının nəhəng ədəbi simalarından biridir.

Keçmiş Sovetlər İttifaqının dövründə Azərbaycanın görkəmli yazıçıları ilə dünyanın digər ölkələrinin böyük ədibləri arasında müqayisələr aparılarkən ədəbi meyarlardan daha çox ideoloji tələblər yada düşürdü. «Azərbaycan ədəbiyyatının Şekspiri», «Azərbaycan ədəbiyyatının Qoqolu», «Azərbaycan ədəbiyyatşünaslığının Belinskisi» kimi ifadələr işlədilən zaman bənzədilən yazıçının, yaxud alimin sənətinin və ya elminin böyüklüyü, qüdrəti deyil, Qərb, yaxud rus ədəbiyyatının adı çəkilən görkəmli nümayəndəsindən Azərbaycan ədibinin geniş ölçüdə təsirlənməsi, faydalanması yada salınırdı. Halbuki həmin məqamlarda təsirlənmək, öyrənmək məsələnin çox az bir qismini təşkil edirdi və ya əslində əksər təsadüfi məqamlarda səslənmə üst-üstə düşürdü. Beləliklə, ölkəmizin adlı-sanlı, orijinal yaradıcılığa malik olan elm və ədəbiyyat xadimlərinin böyük xidmətlərinin müqabilində onların təsirləndikləri (əgər təsirləniblərsə) amil ictimai mühitin diqqət mərkəzində dayanırdı. Bu isə öz növbəsində Azərbaycan yazıçıları və alimlərinin yaradıcılıq özünəməxsusluğunun, bənzərsiz sənət aləminin arxa plana keçirilməsi, bəzən hətta kölgədə saxlanılması ilə nəticələnirdi. Halbuki elm və sənət adamlarının bir-birlərindən öyrənmələri, birinin digərinə istinad etməsi, qarşılıqlı təsir məsələləri konkret epoxanın ədəbi mühitinin təbii bir prosesi sayılmalıdır. Keçmiş sovet ideologiyası dövründə bu müqayisə birtərəfli qaydada aparıldığı və hakim ideologiyanı təmsil edən tərəfin təsir imkanları qat-qat şişirdildiyi üçün elmi əsaslardan məhrum idi və ona görə də sovet hökuməti hələ dağılmamışdan bu tip müqayisələr demək olar ki, elmi dövriyyədən çıxarılmışdı.

İndi, müstəqillik dövründə həmin qəbildən olan müqayisələrə ehtiyac qalmamışdır. Hazırda belə müqayisələr aparılarsa, müəyyən elmi əsaslara malik olmalı, heç cür ideoloji mahiyyət daşımamalıdır. Bu baxımdan biz elm yönlü daha bir müqayisə tipli təqdimata ehtiyac duyuruq. Fikrimizcə, bir çox cəhətdən görkəmli Azərbaycan yazıçısı Məmməd Səid Ordubadini bəzi cəhətlərinə görə dahi rus ədibi Lev Nikolayeviç Tolstoyla müqayisə etmək olar. Bizə görə Məmməd Səid Ordubadi Azərbaycan ədəbiyyatının

Tolstoyudur. Biz bu müqayisə və ya bənzətmə ilə nələri nəzərdə tuturuq?

Məlumdur ki, ötən yüz il ərzində Məmməd Səid Ordubadini rus ədəbiyyatının dünya mədəniyyətinə və ictimai fikrinə bəxş etdiyi Lev Nikolayeviç Tolstoyla müqayisəsi hadisəsinə təsadüf etməmişik. Lev Tolstoyla (1828-1910) Məmməd Səid Ordubadinin (1872-1950) yaşayıb-yaratdıqları dövrlər də tam olaraq üst-üstə düşmür. Dahi Tolstoy dünyasını dəyişəndə Məmməd Səid Ordubadi hələ əsasən şeirlər yazır, satirik publisistika ilə məşğul olurdu. Məmməd Səid Ordubadinin «Dumanlı Təbriz», «Qılınc və Qələm» romanları yazılanda Lev Tolstoyun məşhur əsərlərini, xüsusən «Anna Karenina» və «Hərb və sülh» romanlarını Azərbaycan dilində oxumamışdı. Məmməd Səid Ordubadinin Lev Tolstoyla müqayisəsində istinad etmək, təsirlənmək motivləri nəzərə çarpmır. Biz bu müqayisədə aşağıdakıları nəzərdə tuturuq:

Böyük Lev Tolstoy rus ədəbiyyatının tarixində malik olduğu səviyyə etibarilə hansı yeri tutursa, Məmməd Səid Ordubadi də Azərbaycan ədəbiyyatında həmin mövqeyə sahibdir. Məmməd Səid Ordubadinin məşhur tarixi romanları, xüsusən, «Dumanlı Təbriz», «Qılınc və qələm» özünün monumentallığına, əzəmətinə görə, epoxanın eposunu yaratmaq xüsusiyyətlərinə görə Lev Tolstoyun «Hərb və sülh» romanı ilə müqayisə oluna bilər. Fikrimizcə, bu məqamda şərtilik mənası ifadə edən «müqayisə oluna bilər» ifadəsini işlətmək yerinə düşür. Doğrudur, ayrı-ayrılıqda «Dumanlı Təbriz» romanı ilə, yaxud da «Qılınc və qələm»lə Lev Tolstoyun «Hərb və sülh» romanı yanaşı qoyulduqda Tolstoyun əsəri daha üstün görünür. Bütün reallıqlarla bərabər, bu, həm də ona görədir ki, bizlərin təsəvvürlərində gerçək bir Lev Tolstoy ucalığı, əlçatmazlığı mövcuddur. Məmməd Səid Ordubadi özü də hələ 1908-ci ildə «Molla Nəsrəddin» jurnalında çap etdirdiyi bir məqaləsində etiraf etmişdi ki, «yer üzündə indiyədək heç bir kəs yazıçılıqda qraf Tolstoy kimi hörmət və şöhrət qazanmayıb». Həmin möhtəşəmliyi ilk növbədə ədəbiyyat sahəsindəki qeyri-adi böyük xidmətləri ilə Lev Tolstoy özü parlaq, ölməz əsərləri ilə qazanmışdır. Bundan başqa, Lev Tolstoyun böyük ədəbi şöhrətində onun çoxmilyonlu rus xalqının qüdrətli təmsilçisi olması amili də mühüm yer tutur. Bununla belə, Lev Nikolayeviç Tolstoyun dünya şöhrəti qazanmasında rus elminin də danılmaz böyük xidmətləri vardır. Lev Tolstoyun həyatı və yaradıcılığı haqqında Rusiyada və dünya ölkələrində yazılmış elmi əsərlərdən geniş bir kitabxana yaratmaq mümkündür. Tolstoyşünaslıq artıq təkcə rus ədəbiyyatşünaslığının deyil, dünya elminin əsas tədqiqat obyektlərindən birinə çevrilmişdir. Bundan başqa, Rusiyada Lev Tolstoyun əsərlərinin dünyanın aparıcı xalqlarının dillərinə tərcümə olunması sahəsində də bir əsrdən çoxdur ki, ardıcıl və səmərəli iş aparılır. Rus dili özü də beynəlxalq dil statusunda olduğu üçün Lev Tolstoyun əsərlərinin

Yer kürəsinin müxtəlif qütblərində orijinaldan oxunub qiymətləndirilməsinə şərait yaradır. Heç şübhəsiz ki, bu müqayisəyə Lev Tolstoyun əsərləri əsasında çəkilmiş filmləri, hazırlanmış səhnə əsərlərini də cəlb etsək, bizim bir çox qüdrətli sənətkarlarımıza, o cümlədən Məmməd Səid Ordubadiyə nə qədər borclu olduğumuz ciddi fərqlə nəzərə çarpar. Məmməd Səid Ordubadiyə münasibətdə isə tamamilə fərqli mənzərənin şahidi oluruq. Əvvəla, Məmməd Səid Ordubadinin tam külliyyatı hələ ki, çap edilib xalqa çatdırılmamışdır. Böyük ədibin 1964-1967-ci illərdə kiril əlifbası ilə nəşr olunan səkkizcildliyi yazıçının əsas əsərlərini əhatə etsə də, onun arxivlərdə saxlanılan və ya XX əsrin birinci yarısının dövri mətbuatında çap olunmuş əsərlərinin çox hissəsi hələ ki, kitablara çevrilməmişdir. Apardığımız müşahidələrə əsasən deyə bilərik ki, XX əsrin əvvəllərinin dövri mətbuatında Məmməd Səid Ordubadinin az qala hər gün, hətta bəzən bir gündə bir neçə məqaləsi, şeiri, felyetonu çap olunmuşdur. Böyük ədibin publisistikası bir neçə cild kitab üçün material verə bilər. Bundan başqa, Məmməd Səid Ordubadinin Azərbaycan Milli Elmlər Akademiyasındakı Əlyazmaları İnstitutunun fondundakı şəxsi arxivində onun çap olunmamış saysız-hesabsız əlyazmaları mövcuddur. Ümumiyyətlə, Məmməd Səid Ordubadinin dram əsərləri, çoxsaylı publisistikası, memuarları, şeirlərinin əksəriyyəti, ədəbi-tənqidi məqalələrinin böyük bir qismi, hətta bəzi yeni üzə çıxarılmış nəsr əsərləri kitab halında nəşrini gözləyir. Fikrimizcə, məktubları da daxil olmaqla Məmməd Səid Ordubadinin tam külliyyatının 15 cilddə nəşrinə ehtiyac vardır. Reallıq belə olduğu halda, indiki vəziyyətdə Məmməd Səid Ordubadinin latın qrafikası ilə yalnız «Qılınc və qələm», «Qanlı sənələr» əsərlərinin çap edilib oxuculara çatdırılması ilə böyük ədibi nəinki dünya miqyasına çıxarmaq, heç Azərbaycanda da layiq olduğu səviyyədə tanıtmaq mümkün deyildir. Azərbaycanda ilk dəfə olaraq milli tarixi roman məktəbi yaratmış Məmməd Səid Ordubadi oçerkinin də on illər bundan əvvəl orta məktəb dərsliklərindən çıxarılması yeni nəslin bu görkəmli yazıçıdan az qala xəbərsiz olmasına gətirib çıxaracaqdır. Ədibin əsərlərindən yalnız bəzi örnəklərin rus və fars dillərinə tərcüməsindən başqa dünya dillərinə tərcümə baxımından əlimizdə heç bir fakt yoxdur. Məmməd Səid Ordubadinin zəngin və çoxcəhətli irsi ilə müqayisədə ədəbiyyatşünaslıq sahəsində aparılan tədqiqatlar da yetərincə deyildir. Son yüz ildə Azərbaycan ordubadişünaslığı əsasən tanınmış ədəbiyyat-şünaslardan Yavuz Axundlu, Fəridə Vəzirova, Tofiq Rüstəmov, Əkbər Məftun, Bəxtiyar Əsgərov, Nuridə Bağırovanın və başqalarının tədqiqatlarından ibarətdir. Həmin araşdırmaların isə əksəriyyəti kiril əlifbası ilə kitab halında nəşr olunduğundan və keçmiş sovet ideologiyası dövrünə təsadüf etdiyindən demək olar ki, hazırda elmi dövriyyədən kənarda qalmışdır. Artıq iyirmi ilə yaxındır ki, Azərbaycan or-

dubadişünaslığını Prezident təqaüdçüsü, Əməkdar müəllim, filologiya elmləri doktoru, professor Yavuz Axundlu təmsil edir. Professor Yavuz Axundlu Azərbaycan ədəbiyyatşünaslığında tarixi romanın elmini yaratmış görkəmli tədqiqatçıdır. Azərbaycanda tarixi roman janrının inkişaf yolunun sistemli şəkildə öyrənilməsi və elmi-nəzəri tədqiqi Yavuz Axundlunun adı ilə bağlıdır. Tarixi romanlara həsr etdiyi tədqiqatları ilə o, bu janrın elmi epopeyasını yaratmışdır. Yavuz müəllimin tarixi romanlara həsr olunmuş tədqiqatlarında Məmməd Səid Ordubadinin həmin janrda yazılmış sanballı əsərlərinə də geniş yer ayrılmış, obyektiv elmi qiymət verilmişdir. Bundan başqa, professor Yavuz Axundlu 2007-ci ildə Bakıda nəşr etdirdiyi «Məmməd Səid Ordubadi» monoqrafiyası ilə böyük ədib haqqında ədəbiyyatşünaslıq elmində mövcud olan boşluğun qismən də olsa aradan qaldırılmasına imkan yaratmışdır. Yavuz Axundlunun 2012-ci ildə Bakıda «Elm və təhsil» nəşriyyatında təkmilləşdirildikdən sonra yenidən nəşr olunmuş «Məmməd Səid Ordubadi» monoqrafiyası müstəqillik dövrü Azərbaycan ədəbiyyatşünaslıq elmində Məmməd Səid Ordubadiyə həsr olunmuş yeganə sanballı monoqrafik tədqiqat kimi mühüm əhəmiyyətə malikdir.Təqdim olunan monoqrafiya Azərbaycan cəmiyyətində, xüsusən, yeni nəsillər arasında Məmməd Səid Ordubadi haqqında əhatəli elmi fikrin yenidən formalaşdırılmasına, mövcud təsəvvürlərin daha da dərinləşdirilməsinə və genişləndirilməsinə uğurla xidmət edir. Professor Yavuz Axundlunun «Məmməd Səid Ordubadi» monoqrafiyasında tədqiqatçılıqla, araşdırma ilə elmi təhlilin sintezi bu monoqrafik əsərin qiymətli ədəbiyyatşünaslıq nümunəsinə çevrilməsini səciyyələndirir. Bu, yaşı doxsana doğru gedən professor Yavuz Axundlunun həyat eşqinin, axtarış ruhunun, yorulmaz elmi fəaliyyətinin, fədakarlıq nümunəsi olan zəhmətkeşliyinin də sanballı bir göstəricisidir.

Bir daha yazımızın əvvəlindəki Məmməd Səid Ordubadinin böyük sənət dühası Lev Tolstoyla müqayisəsi məsələsinə qayıdıram. Heç şübhəsiz, belə bir müqayisə yalnız şərti mənada başa düşülməlidir. Lev Nikolayeviç Tolstoy hələ sağlığında ikən dünya ədəbiyyatının qüdrətli təmsilçilərindən biri kimi qəbul olunmuşdu. Məmməd Səid Ordubadini isə Azərbaycanda unudulmaması üçün, dünyaya tanıtmaqdan ötrü hələ çox iş görməliyik. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin «Görkəmli Azərbaycan yazıçısı Məmməd Səid Ordubadinin anadan olmasının 140 illiyi haqqında»kı 10 aprel 2012-ci il tarixli sərəncamı qüdrətli sənətkarın milli ədəbi-ictimai fikirdə yüksək xidmətləri səviyyəsində mövqeyini daha da möhkəmləndirmək və bu ədəbiyyat nəhəngini yaxın və uzaq xaricə təqdim etmək baxımından geniş meydan açır.

Məlum olduğu kimi, Məmməd Səid Ordubadi bədii yaradıcılığa hələ XIX əsrin axırlarında şeirlə başlamışdır. Daha doğrusu, böyük ədib hələ

XIX əsrin sonlarından etibarən ömrünün axırına qədər şeir yaradıcılığı ilə məşğul olmuş, çoxsaylı ictimai məzmuna malik lirik şeirlər və satirik şeir nümunələri yaratmışdır. Lakin çox təəssüf ki, Məmməd Səid Ordubadinin publisistikası kimi, şeirləri də yazıçının vəfatından sonra toplanılaraq ayrıca kitablarda nəşr olunmamışdır. 1964-cü ildə çıxan «Seçilmiş əsərləri»nin birinci cildində verilmiş şeirlər isə Məmməd Səid Ordubadinin zəngin şeir yaradıcılığını tam əhatə etmir.

Heç şübhəsiz, Məmməd Səid Ordubadinin şeir yazmaqla bədii yaradıcılığa başlamasında dövrünün tanınmış şairlərindən olan, divan yaratmış atası Hacağa Fəqir Ordubadinin böyük təsiri olmuşdur. Doğrudur, Məmməd Səid atası Fəqir Ordubadinin şeirlərinə ictimai mühitin haqsız münasibətindən mütəəssir olmuşdu. Atasının şeirlərinin «palçıq içinə atılması», Fəqirin «şeir sənətindən nə kimi fəlakətlər çəkməsi» Məmməd Səidin uşaq qəlbinə çox təsir etmişdi. Ancaq, fikrimizcə, elə bu acı hadisələrin sərt təsiri Məmməd Səiddə şeir yazmağın ilkin həyəcanlarını doğurmuşdur. Sonralar övladın cavan yaşlarından yazdığı şeirlər və bütövlükdə Məmməd Səid Ordubadinin çoxcəhətli yaradıcılığı həm də «ağlar qələm əlimdə» deyib fəryad çəkən, qəlbi «samovar kimi» alışıb-yanan atası Fəqirə olan haqsız münasibətlərə ədəbiyyat dili ilə ifadə olunmuş ədəbi bir cavabdır.

Bundan başqa, XX əsrin axırlarından Ordubadda fəaliyyət göstərən «Əncüməni-şüəra» ədəbi məclisinin fəaliyyətinə həmin məclisin üzvü olan atası Fəqir Ordubadinin timsalında gənclik illərindən maraq bəsləməsi də Məmməd Səidi şeirlər yazmağa həvəsləndirmişdir. Eyni zamanda, dövrünün görkəmli şairi və böyük maarifçisi Məhəmməd Tağı Sidqinin Ordubad şəhərindəki «Əxtər» məktəbində təhsil alması da geniş mənada onun ədəbi dünyagörüşünün inkişafında mühüm rol oynadığı kimi, cavan ədəbiyyat maraqlısının şeir yaradıcılığına istiqamətləndirilməsinə də ciddi təkan vermişdir. Diqqət edilsə, «Həyatım və mühitim» memuarında nümunə kimi öz əksini tapmış şeir parçalarının əksəriyyəti XIX əsrin ikinci yarısının ədəbi məclis şeirlərinin ənənəsində qələmə alınmışdır. Hətta memuarından aydın olur ki, Məmməd Səid Ordubadi özü də gənc yaşlarında Ordubad mədrəsəsində keçirilmiş bir şeir müsabiqəsinin qalibi olmuşdur. Müəllimi axund Mirzə Baxışın Məmməd Səidin özündən söylədiyi şeirin hər hansı bir kitabda olub-olmamasına dair müsabiqə zamanı yaranmış mübahisəni kəsmək üçün dediyi aşağıdakı sözlər əslində mədrəsə şagirdinin şairlik istedadına verilmiş yüksək qiymətin ifadəsidir: «Madam ki, şeirdə məzmun vardır, madam ki, qafiyə, ölçü vardır, madam ki, şeirə bədii şəkil verə bilmişdir, o halda şeirin bir kitabda olub-olmamasının əhəmiyyəti yoxdur».

XX əsrin əvvəllərindən etibarən Məmməd Səid Ordubadinin şeirlərində bu epoxanın ədəbiyyatda gücləndirdiyi maarifçi ideyalar və milli düşüncə

üstünlük qazanmağa başlamışdır. Cavan ədibin 1903-cü ildə, 31 yaşında ikən yazıb «Kərbəlayi Məhəmməd Hacağazadə təxəllüsi Səid Ordubadi» imzasıyla çap etdirdiyi «Şərqi-Rus» qəzetinə» adlı şeir onun ilk mətbuu əsəri kimi də mühüm əhəmiyyət kəsb edir. Şeirdəki xabi-qəflətdən qurtuluşa çağırış sədaları, «etməz tərəqqi elmsiz millət» nidası Məmməd Səidin artıq tədricən yeni əsrin şeir ənənələri üstündə kökləndiyini nümayiş etdirir. Böyük ədibimiz Cəlil Məmmədquluzadənin Tiflisdə açdığı «Qeyrət» nəşriyyatında Məmməd Səid Ordubadinin çap etdirdiyi «Qəflət» (1906) və «Vətən və hürriyyət» (1907) adlı şeir kitablarındakı bədii nümunələr əsasən klassik şeir formalarında olsa da, yeni əsrin çağırışlarının ifadəsindən yoğrulmuş şeirlər kimi ədəbi mühitin diqqətini cəlb etmişdir. Dövrünün tanınmış ziyalılarından Ömər Faiq Nemanzadənin «Qeyrət» nəşriyyatında çıxan «Qəflət» kitabına kiçik də olsa «Bir-iki söz» adlı bir müqəddimə yazması təsadüfi olmayıb, kitabda toplanan şeirlərin timsalında yeni əsrin ədəbiyyatını yaratmağa çağırışın ifadəsi idi. Müqəddimədə ifadə olunan aşağıdakı sözlər Məmməd Səid Ordubadinin «Qəflət» kitabının nümunəsində ədəbi prosesdə başlanmış tənqidi-realist hərəkatın ana xətlərinin bəyannaməsi kimi səslənirdi: «Bu günkü halımızda camaatı oxumağa həvəsləndirməyin ən böyük yolu bizcə açıq dil ilə yazılan kiçik-kiçik faydalı kitablardır». Ömər Faiq bu fikirdə idi ki, Məmməd Səid Ordubadinin «Qəflət» kitabı bu qəbildən olan kitabların, «nəşri-savad qəsdilə çıxarılan əsərlərin əvvəlincisidir». Bu mətndəki «əvvəlinci» ifadəsi «Qəflət» şeir toplusunun Məmməd Səid Ordubadinin çap edilən birinci kitabı, hətta «Qeyrət» nəşriyyatının ilk çap məhsullarından biri olmasını bildirməkdən başqa, həm də həmin kitabdakı şeirlərin ideya-bədii dəyərinə verilmiş qiymətin ifadəsi idi. Həqiqətən, «Qəflət» kitabı bütün orta əsr boyu da nəzərə çarpan, fəqət, XIX əsrdən başlanıb, XX əsrin əvvəllərinə qədər daha da qüvvətlənən «dadi-qəflət» motivinin yeni ədəbi-ictimai mərhələyə keçid səviyyəsində təqdimatı idi. Əvvəlki əsrlərdəki cəhalətdən didaktik şikayətlər motivi «Qəflət» kitabında bir qədər ciddi şəkildə qəflətdən qurtuluşun zərurəti notları ilə əvəz olunmuşdur. Məmməd Səid Ordubadi «Qəflət» kitabında geniş mənada artıq qəflət fəlakətindən qurtuluşun açarının hürriyyətdə olduğu barədəki düşüncələrini gündəmə gətirmişdir. Bu, XX əsrin əvvəllərində Azərbaycan ədəbiyyatında qəflət əleyhinə yönəlmiş cəsarətli kitablardan biri idi:

Dur, ey qafil yatan könlüm, oyan bu xabi-qəflətdən,
Sənə yoxdur səmər hərgiz bica bu istirahətdən.
...Gözün var isə hürriyyət ziyasından götür hissə,
Yaşa insanca, insanlartək azad ol əsarətdən.
Təlaş əyyamı, hürriyyət zamanı, iş məqamıdır,
Mənə söylə görüm kim müstərih olmuş səfalətdən?

Nə yatdın ey müsafir? Sübh açıldı, karvan köçdü,
Özüntək pürxətər mənzil, səmər yoxdur bu rahətdən.
... Gəl, qardaş, ataq qəfləti bilmərrə kənarə,
Bir az da qəflət qala, olmaz dəxi çarə...
Hər bir işimiz getdi, qalıb qəlbdə həsrət,
Avarə qoyan bizləri qəflətdi, bu qəflət.

«Qəflət» kitabı 32 səhifədən ibarət olub, «Bismillah-tala» müqəddiməsindən başqa, «Xabi-qəflət» adlı 362 misralıq mənzum bir əsər əsasında hazırlanmışdır. «Bismillah-tala» müqəddiməsi orta əsr klassik Şərq və Azərbaycan poeması ənənəsindən gəlmə bir meylin ifadəsi kimi daha çox poemaların başlanğıcındakı «əsərin yazılma səbəbi» bəndinin funksiyasını daşıyır. Bu, «Xabi-qəflət» əsərinin yığcam və mənalı bir müqəddiməsidir. «Xabi-qəflət» əsəri isə heç də indiyə qədər yazıldığı kimi şeir yox, XX əsrin əvvəllərində ön mövqeyə çıxan ictimai-fəlsəfi poemadır. Məhəmməd Hadinin «Əlvahi-intibah» poeması bu janrda yazılan əsərlərin zirvəsini təşkil edir. «Əlvahi-intibah»dan təxminən 12 il əvvəl yazılmış «Xabi-qəflət» poeması Məmməd Səid Ordubadinin ilk əsərlərindən olmasına baxmayaraq, ideya-məzmun və sənətkarlıq cəhətdən Azərbaycan ədəbiyyatındakı mükəmməl ictimai-fəlsəfi poemalardan biridir. Konkret bir süjet xəttinə və surətlərə malik olmayan ictimai-fəlsəfi poemalarda müəyyən olunmuş mətləbin mahiyyətinin poetik baxımdan açılması və mənalandırılması əsasında dərin və əsaslandırılmış ümumiləşdirmələrin aparılması nəzərdə tutulur. Məmməd Səid Ordubadinin «Qəflət» poemasında da əsərin adında ifadə edilən ictimai-mədəni geriliyin səbəbləri, acı təzahürləri, yaratdığı böyük çətinliklərin doğurduğu kədərli vəziyyətlər və müəyyən qurtuluş yolları poetik baxımdan olduğu kimi, ictimai cəhətdən də əsaslı şəkildə ifadə olunmuşdur. İlk kitabı olmasına baxmayaraq, Məmməd Səid Ordubadi «Qəflət» kitabı ilə yetkin və geniş dünyagörüşə və kamil poetik təcrübəyə malik qələm sahibi olduğunu isbat etmişdir. Beş hissədən ibarət olan «Qəflət» poemasındakı başlıca qayə, əsas mətləb qəflət anlayışının dərin qatlarını açmaqdan, qəflətin meydana çıxardığı ağır ictimai-mənəvi əsarətin fəlsəfəsini aydınlaşdırmaqdan ibarətdir. Poemanın indiyədək «Xabi-qəflət» adı ilə şeir şəklində cəmi 22 misrası çap olunmuş birinci hissəsindəki 84 misranın (42 beytin) hamısı xabi-qəflətin, dadi-qəflətin ictimai-fəlsəfi dərkinin şeirlə sərrast ifadəsindən ibarətdir. Əsərin 60 misradan təşkil olunan ikinci, 90 misralıq üçüncü hissəsində elmsizlik və maarifdən uzaq düşmək qəfləti yaradan, cəhaləti doğuran əsas amillər kimi nəzərə çarpdırılmış, Avropa maarifçiliyindən nümunə götürmək tövsiyə olunmuşdur. Cavan ədib qəti olaraq bu fikirdədir ki, «asayişimiz, sənətimiz qəflətimizdir, qəflət yuxusu əldə olan sənətimizdir». Məmməd Səid Ordubadi «Qəflət» poemasının sonrakı hissələrində qəflətdən xilas üçün düşünülmüş çarələri, bəslənilən

ümidləri diqqət mərkəzinə çəkmişdir:

Biz qəflətə dil verdik, edib nitqdə mahir,
Qəflət biz ilən oldu bu aləmlərə zahir.
Biz qəfləti pirayə qılıb xalqa tanıtdıq,
Qafil ilə bərk-bərk yapışıb ağlı unutduq.
...Hər kəs edə öz fikrinə təmkin ilə xidmət,
Ağıl onda yəqin verməyəcək qəflətə fürsət.
Hər kəsdə ki, ağıl etdiyinə olmasa talib,
Ondan sora ağlına olur qəfləti qalib.
Vay ol kəsə kim, ağlı olur qəflətə məğlub,
Daim görəcək zilləti öz boynuna mərkub.
...Ağıl indiyədək eylədi çox evləri abad,
Qəflətdi edən xanəyi-milliyyəni bərbad.
Ağıl istəyir olsun kişi hər anda rahət,
Qəflət də xəyalında qoyub verməyə zillət.
...Ağıl ilə verilmişdi bu beş qitəyə vüsət,
Qəflətdə qoyub çoxları bir ölkəyə həsrət.

Göründüyü kimi, Məmməd Səid Ordubadi xalqının inkişafı, ölkəsinin dirçəlişi üçün qəfləti hədəf seçmiş, cəhalətdən xilas olmaq üçün ağıla, idraka, elmə, maarifə əsaslanmağı önə çəkmişdir. Bunŋla belə, «Xabi-qəflət» poemasında hələ də məsələyə didaktik yanaşmanın əlamətləri görünməkdədir. Cəmi bir il sonra «Qeyrət» nəşriyyatında çap olunmuş «Vətən və hürriyyət» şeir kitabında (1907) qəflətdən qurtuluş motivi açıq şəkildə istiqlal mövzusu ilə əvəz olunmuşdur. «Qəflət» kitabında epizodik cizgilər şəklində nəzərə çarpan hürriyyət düşüncəsi adından göründüyü kimi «Vətən və hürriyyət» kitabının sərlövhəsinə, manşetinə çıxarılmışdır. XX əsrin əvvəllərində böyük demokrat ədib Cəlil Məmmədquluzadənin «İranda hürriyyət» (1906) hekayəsindən dərhal sonra azadlıq, hürriyyət anlayışları Məmməd Səid Ordubadinin «Vətən və hürriyyət» kitabında açıq-aydın şəkildə, həm də milli istiqlal səviyyəsində bədii sözün obyektinə çevrilmişdir.

«Vətən və hürriyyət» şeir kitabında Azərbaycanın istiqlalı uğrunda qəhrəmancasına həlak olmuş Cavad xan «hübbülvətənlik» nümunəsi kimi tərənnüm olunmuşdur. «İfadeyi-məram», «Qeyrəti-millət», «Vətənimizə bir neçə söz» şeirlərindəki vətənpərvərlik ruhu yüksək ideya-bədii keyfiyyətlərə malik olan and miqyasında marş kimi səslənir. Bütövlükdə «Vətən və hürriyyət» kitabı XX əsrin əvvəlləri Azərbaycan şeirində milli istiqlal düşüncəsinin manifesti təəssüratı yaradır:

Baş götürmək taki, insanlar tək olsun sayəmiz,
Qırmızı qan olsun hürriyyət üçün pirayəmiz.
Ölməyi lay-lay desin gəhvarə içrə dayəmiz!

Gör nə icraatlar etməkdədir həmsayəmiz.
Şu keçən əyyami-müzlim bəs ki istibdadmış,
Bizdən əksəndaz olan əflakə boş fəryadmış!

Məmməd Səid Ordubadinin Vətən şeirləri sadəcə tərənnümdən ibarət olmayıb, kitabın adında ifadə olunduğu kimi, hürriyyət ideyası ilə, istiqlal düşüncəsi ilə bir yerdə vətənnaməyə çevrilmişdir. Xüsusən, «Vətən və hürriyyət» kitabındakı şeirlərdə Vətən anlayışı ədəbiyyatda milli istiqlal cəbhəsinin bayrağı kimi təqdim olunur:

Başdan keçib, ölməklə Vətən qədrini bilmək,
Ölmək deyil, əlbəttə, odur bir də dirilmək.
Bu tərz ilə düşmənlər ayağında əzilmək,
Tarixdə müstəqbəl üçün ibrət edilmək.
Ölmək budu, bişəkk, əgər olsan da səlamət,
İnsanlara fərz olmalıdır qeyrəti-millət!

...Yatdıq nə qədər naz ilə, şimdisə ayılmaq,
Başdan keçib, heysiyyəti-milliyyə qazanmaq.
Can ilə təlaş eyləyibən qana boyanmaq,
Bir əmri-müqəddəsdi Vətən qeydinə qalmaq.
Qoy qanını töksünlər, qıl isbati-şəhadət,
İnsanlara fərz olmalıdır qeyrəti-millət!

Cavan ədibin 34 səhifədən ibarət olan «Vətən və hürriyyət» kitabının sonunda oxuculara təqdim etdiyi Cavad xanın arvadı Bəyimxanımın ərinin dəfn mərasimindəki nitqinin surəti Azərbaycan vətənpərvərlik ədəbiyyatının və ümumən ictimai fikrin nida işarəsidir.

Məmməd Səid Ordubadinin XX əsrin başlanğıcında meydana çıxmış «Vətən və hürriyyət» şeirləri bu mövzuda yazılmış milli ideyaya malik təsirli, qüvvətli əsərlərin əvvəlincilərindəndir. Bu kitab Məmməd Səid Ordubadinin əsrin özünü ədəbiyyatın sözünə çevirmək istedadının nümunəsidir. «Qəflət»dən «Vətən və hürriyyət»ə keçid cəmi bir il çəksə də bu kitab Məmməd Səid Ordubadinin ümummilli ideallara xidmət edən, vətəndaşlıq cəsarətini əsas götürən mübarizə ruhlu ədəbiyyatın layiqli yaradıcılarından biri olduğunu təsdiq etmişdir. Buna görədir ki, Məmməd Səid Ordubadi «Vətən və hürriyyət» şeirlər kitabı ilə ədəbiyyat tarixində öz yerini müəyyən etmək, özünəməxsus iz salmaq imkanı qazana bilmişdir.

Məşhur «Molla Nəsrəddin» jurnalı «Vətən və hürriyyət»in müəllifinin milli istiqlalı tərənnüm edən şeirlərdən istiqlal uğrunda mübarizəyə həsr olunmuş ictimai satiraya keçidi üçün mühüm sənət körpüsünə çevrilmişdir. Ədib əsasən «Molla Nəsrəddin» jurnalında və XX əsrin əvvəllərində çap olunan digər mətbuat orqanlarında təxminən dörd mindən çox şeir və felyeton çap etdirmişdir. O, böyük demokrat yazıçı Cəlil Məmmədqulu-

zadənin başçılıq etdiyi «Molla Nəsrəddin» ədəbi məktəbinin, sənət cəbhəsinin ən görkəmli və fəal üzvlərindən biri idi. Həyatının müəyyən dövründə Cəlil Məmmədquluzadə ilə aralarında müəyyən fikir ayrılığının olmasına baxmayaraq, Məmməd Səid Ordubadi ardıcıl olaraq, axıradək «Molla Nəsrəddin» jurnalında yaxından iştirak etmiş, mollanəsrəddinçi realist-satirik ədəbiyyatın sənətdə tənqidi-realist düşüncənin inkişafı sahəsində böyük xidmətlər göstərmişdir. «Biz ona xatircəm idik və bilirdik ki, bu məcmuə yaşayacaqdır» deyən Məmməd Səid Ordubadi «Molla Nəsrəddin» məktəbi zəminində yetişib formalaşmış, lakin Azərbaycan romançılığı sahəsindəki xidmətləri ilə böyük şöhrət qazanmışdır. Bununla belə, «Qəflət», «Vətən və hürriyyət» kitablarındakı vətənpərvərlik ruhunda yazılmış şeirlər geniş mənada Məmməd Səid Ordubadinin böyük ədəbiyyata gəlişinin ilkin qüvvətli ədəbi tezisləri kimi mühüm əhəmiyyət kəsb edir. Axtarsaq, yazıçının sonrakı yaradıcılıq yolunda müxtəlif janrlarda meydana çıxan əsərlərində bu motivlərdən həmişə yaradıcı şəkildə istifadə olunmuşdur. Əslində Məmməd Səid Ordubadinin yaradıcılığı bütövlükdə «Vətən və hürriyyət» notu üstündə köklənmişdir. Buna baxmayaraq, «Qeyrət» nəşriyyatının XX əsrin əvvəllərində çap etdiyi kitablardakı şeirlərin çox az bir qismi, cəmisi onun iki-üç şeirindən kiçik parçalar adibin külliyyatına daxil edilmişdir. Ona görə də «Qəflət», «Vətən və hürriyyət» kitablarını aradan bir əsrdən çox vaxt keçəndən sonra ilk dəfə olaraq tam halda, müqəddiməsi ilə birlikdə indiki bircildlikdə oxuculara təqdim etməklə biz Məmməd Səid Ordubadi yaradıcılığının dərin kökləri ilə daha aydın şəkildə təsəvvür olunmasına işıq salmaq vəzifəsini həyata keçiririk.

Məmməd Səid Ordubadi XX əsr Azərbaycan realist nəsrinin qüdrətli yaradıcılarından biridir. «Bədbəxt milyonçu, yaxud Rzaquluxan firəngiməab» (1914) keçən əsrin əvvəllərində meydana çıxmış «kiçik roman» formatındakı Azərbaycan romanının böyük nümunəsidir. Bu əsər Azərbaycan ədəbiyyatında artıq Şərq tipli gedişatın mümkünsüzlüyünü, qərbləşmə meyllərinin çətinliklərini, bütövlükdə yeniləşmə proseslərinin zəruriliyini meydana qoyan ilk romandır. Mirzə Fətəli Axundovun «Kəmalüddövlə məktubları»nda və «Aldanmış kəvakib» əsərində zamanına görə dərin qatlarda ifadə olunan məntiqi gerçəklik XX əsrin əvvəllərində zəmanənin yaratdığı şəraitə əsasən Məmməd Səid Ordubadinin «Bədbəxt milyonçu» romanında xeyli dərəcədə açıq şəkildə ifadə olunmuşdur. Fikrimizcə, romandakı Rzaquluxan-Balacaxanım xətti əsərə real həyat materialının gətirilməsi ilə yanaşı, müəllifin izlədiyi əsas siyasi qayənin məişət motivi fonunda zahirən arxa plana keçirilməsi məqsədinə də xidmət edir. «Bədbəxt milyonçu» əsərində yazıçının mövqeyi heç də firəngiməablığın birmənalı şəkildə müdafiə olunmasından və ya tənqid

edilməsindən ibarət olmayıb, Azərbaycan mühitinin Qərb meylli inkişafının real gerçəkliyi, milli psixologiyanı, təkamül proseslərini nəzərə almadan mümkün olmamasını önə çəkməsi ilə bağlıdır. Bu isə öz növbəsində həm milli ədəbiyyatda, bundan qabaq isə həm də bütövlükdə Azərbaycan ictimai mühitində yeni inkişaf mərhələsinin başlanmasının ifadəsi demək idi.

Görkəmli yazıçı Məmməd Səid Ordubadi Azərbaycan tarixi roman məktəbinin banisidir. Məmməd Səid Ordubadinin tarixi romanları ilə Azərbaycanda milli tarixi romançılıq ənənəsinin əsas prinsipləri də formalaşmışdır. Böyük tarixi romançı Məmməd Səid Ordubadinin romanlarından hər biri əhatə etdiyi epoxanın kamil sənət güzgüsüdür. «Qılınc və qələm» tarixi romanı (1946) Azərbaycan tarixinin Nizami dövrünün ədəbi salnaməsidir.«Qılınc və qələm» tarixi romanında Məmməd Səid Ordubadi qılıncın məsuliyyətini və şərəfini qələminin qüdrəti ilə isbat etmişdir. Böyük sənətkarlıqla yazılmış bu möhtəşəm bədii əsər Azərbaycan ədəbiyyatında tarixi roman janrının zirvəsində dayanır. Əsərdəki obrazlar tarixiliklə bədii təfəkkürün vəhdətindən yoğrulmuş parlaq, bənzərsiz surətlər kimi Azərbaycan ədəbiyyatını zənginləşdirir. «Qılınc və qələm» tarixi romanı XII əsr tarixinin də misilsiz zəngin mənbəyi sayılmağa layiqdir. «Qılınc və qələm» tarixi romanı ədəbiyyatşünaslar üçün olduğu qədər tarixçilərdən ötrü də əhəmiyyətli qaynaqdır. «Qılınc və qələm» Nizami Gəncəvinin və müasirlərinin romanı, Nizami epoxasının ədəbiyyat üslubunda yazılmış tarixidir. Məmməd Səid Ordubadi hələ keçən əsrin 30-40-cı illərində keçmiş sovet ideologiyasının xalqa soykökünü, tarixini unutdurmaq, manqurtlaşdırmaq vəzifələrini dövlət səviyyəsində həyata keçirdiyi bir zamanda «Qılınc və qələm» tarixi romanını yazmaqla Azərbaycanda milli-mənəvi özünüdərk proseslərinin tarazlığını qoruyub saxlamağa, dərinləşdirməyə şərəflə xidmət göstərmişdir.

«Dumanlı Təbriz» tarixi romanı (1933-1938) Azərbaycanda milli azadlıq hərəkatının tarixini və ideallarını əks etdirən və yaşadan böyük ədəbi hadisədir. Məşrutə hərəkatı dövrünün tarixi də, ədəbiyyatı da son yüz ildə özünün ən parlaq əksini «Dumanlı Təbriz» əsərində tapmışdır. Məmməd Səid Ordubadi sadəcə Səttarxan hərəkatına rəğbət bəsləməklə qalmamış, həmin hərəkatın fəal iştirakçısı, bir çox hallarda görkəmli sərkərdənin silahdaşı olmuşdu. «Dumanlı Təbriz» şəxsi həyatı fərqli ideoloji hədəflərə yönəlik mübarizələrin içərisində keçən Məmməd Səid Ordubadinin özünün də keşməkeşli taleyinin romanıdır. Məmməd Səid Ordubadinin təsvirində Səttarxan hərəkatının açılmamış mərmilərinin də səsi eşidilməkdədir. Sözün böyük mənasında bu qiymətli roman Azərbaycan ədəbiyyatında Məşrutə hərəkatına həsr olunmuş möhtəşəm əsərdir. Səttarxan obrazı özünün bütün əzəməti ilə ilk dəfə «Dumanlı Təbriz» romanında

canlandırılmışdır. Azərbaycanda bir neçə nəsil Sərdari-milli Səttarxanı qüdrətli bir sərkərdə kimi tarixdən çox «Dumanlı Təbriz»dən tanımışdır. Eyni zamanda, Məmməd Səid Ordubadinin «Döyüşən şəhər» (1938) və «Gizli Bakı» (1940) əsərləri də Azərbaycan tarixi romanının yaddaqalan nümunələridir. Yazıldığı dövrün sərt ideoloji tələbləri, yazıçının cəmiyyətdə tutduğu mövqe Məmməd Səid Ordubadiyə bu romanlarında qələmə alınan dövrün – XX əsrin əvvəllərinin gerçək ictimai-siyasi mühitini tam əks etdirməyə şərait yaratmasa da, müəllif imkan daxilində birtərəfli şəkildə olsa da, əhatə etdiyi epoxanın ana xətlərini təqdim edə bilmişdir. Xüsusən, bu əsərlər həyat materialının zənginliyi ilə bir sıra tarixi proseslərə işıq salmaq baxımından da əhəmiyyətlidir. Bütövlükdə Məmməd Səid Ordubadi Azərbaycan ədəbiyyatında tarixi roman ənənəsini formalaşdırmış, özünün həmin janrda yazılmış monumental əsərləri ilə milli tarixi roman məktəbi yaratmağa müəvəffəq olmuş qüdrətli sənətkardır. Artıq yarım əsrdən çoxdur ki, Azərbaycan tarixi romanı Məmməd Səid Ordubadi ənənəsinin işığında ədəbiyyatdakı yolunu uğurla davam etdirməkdədir. Lakin etiraf edilməlidir ki, sonrakı mərhələlərdə yeni, maraqlı, əhəmiyyətli, cəlbedici tarixi romanlar yaranmışdır, ancaq bu janrda Məmməd Səid Ordubadi zirvəsindən sonrakı axırıncı aşırım hələ ki, keçilmiş yolun davamı olaraq qalır.

Qüdrətli romançı Məmməd Səid Ordubadinin tarixi romanları dünya tarixi romanının da qiymətli nümunələri sayılmağa layiqdir. Heç şübhəsiz, «Dumanlı Təbriz», «Qılınc və qələm» tarixi romanları mükəmməl tərcümə edilərək dünya dillərində nəşr olunarsa, Şərq səviyyəsində də, Qərb miqyasında da həm öz müəllifinə, həm də ümumən Azərbaycan ədəbiyyatına böyük şöhrət qazandıra bilər.

Məmməd Səid Ordubadinin nəsr əsərlərində tarixiliklə bədiiliyin və müasirliyin ahəngdar əlaqəsi səciyyəvi cəhət olaraq diqqəti cəlb edir. Ədib müasirlik amilini həmişə vətəndaşlıq andı ilə üzvi əlaqədə təqdim edir. Tarixilik və müasirlik paralelləri Məmməd Səid Ordubadinin bədii nəsrində publisistikanın da mətndaxili iştirakını şərtləndirir. Məmməd Səid Ordubadi «Molla Nəsrəddin» ədəbi məktəbində mükəmməl bədii publisistika məşqləri keçdiyindən onun nəsr əsərlərindəki publisistika əlamətləri bədiiliklə qaynayıb-qarışır. Beləliklə, Məmməd Səid Ordubadi nəsrdə publisistikadan və ya tərsinə, publisistikada bədiilikdən istifadə etməyin qiymətli örnəklərini göstərmişdir. Ədibin «Qanlı sənələr» əsəri (1911) publisistikanın «dili» vasitəsilə tarixi prosesləri roman təfəkkürü səviyyəsində əks etdirməyin nümunəsidir. «Qanlı sənələr» Azərbaycan ədəbiyyatında ilk və mükəmməl publisist romandır. Məmməd Səid Ordubadinin «1905-1906-cı illərdə Qafqazda baş verən erməni-müsəlman davasının tarixi» kimi təqdim etdiyi «Qanlı sənələr» əsəri yazıçının gələcək

tarixi romanlarının ciddi publisistik məşqidir. Çoxsaylı dövri mətbuat materiallarından, 245 məktubdan, 400-dən çox məlumatdan istifadə əsasında yazılmış «Qanlı sənələr» sənətkarın hadisələri «zərif duyğularla», hebelə «düzgün və qərəzsiz» şəkildə əks etdirməsi yolu ilə formalaşdırılmış «vətən fəryadnaməsi»dir. Üslub etibarilə «Qanlı sənələr»lə səsləşən «Həyatım və mühitim» əsəri də publisistik təsvirin aparıcılığı ilə qələmə alınmış nəsr nümunəsidir. «Həyatım və mühitim» əhatə dairəsi etibarilə konkret tarixi dövrün – 1872-1920-ci illərin memuarıdır. Bu əsərdə yarım əsrlik bir epoxanın geniş və gerçək tarixi və ictimai-siyasi mənzərəsi salnamə ciddiliyi ilə əks etdirilmişdir. «Həyatım və mühitim» Məmməd Səid Ordubadinin tərcümeyi-halının memuarı, mühitinin romanıdır. Bu, Azərbaycanda orijinal bir memuar ədəbiyyatı nümunəsi olmaqdan başqa, həm də mükəmməl tərcümeyi-hal romanı olaraq da dəyərlidir. «Familiyamız» adlı müqəddimə ilə başlayan «Həyatım və mühitim»dən Məmməd Səid Ordubadi nəslinin dəqiq şəcərənaməsini öyrənmək mümkündür: «Atam Hacağa Məhəmməd oğlu yeddi arxa keçdikdən sonra Şah Abbasın yanında böyük mərtəbə qazanmış məşhur şair Mirzə Hətəm Ordubadinin nəvəsidir. Mirzə Hətəmdən atam Hacağaya qədər familiyamızda şairliklə məşğul olan yalnız ikinci Mirzə Ağacan olmuşdur. Atam Hacağanın təxəllüsü «Fəqir»dir. Onun böyük divanı vardır.

Anam İranın Qaradağ tərəflərindən – Dizmar mahalındandır. Üştibin kəndindən Pənah adlı bağbanın qızıdır. O, Tovuz xanım vasitəsilə məşhur Üştibin şairi Nəbatiyə mənsubdur. Anam öz ailələri ilə bərabər, Həsənabad xanlarının qarət və qırğınlarından qurtulub qaçmışdı. Atam böylə mühitdə yaşadığı və şair olduğu üçün təxəllüsünü «Fəqir» qoymuşdu. Mən 1972-ci ildə doğulduğum vaxt Ordubadın mühiti daha bərbad hala düşmüşdü».

«Həyatım və mühitim» memuarı tərcümeyi-hal göstəricilərindən başqa, «Rus məktəbi və rus idarəsi»ni, İranın Xoy şəhərini, Tiflis həbsxana həyatını, Həştərxan-Teymurxanşura sürgün mühitini əks etdirməklə böyük bir coğrafiyanın tarixi-siyasi gedişatına işıq salır. XIX əsrin sonunda və XX əsrin əvvəllərində Azərbaycanda, Rusiyada, Qafqazda, İranda ictimai-siyasi mühitin dərk olunmuş gerçək mahiyyətini dərindən öyrənmək baxımından «Həyatım və mühitim» ibrətamiz bir həyat dərsliyidir. Bədii əsərlərində ictimai motivlərə, tarixi proseslərin təsvirinə xüsusi diqqət yetirməsi ilə fərqlənən Məmməd Səid Ordubadi «Həyatım və mühitim»də yetkin bir siyasi xadim kimi diqqəti cəlb edir. «Həyatım və mühitim» memuarı nəzərə alınmadan Məmməd Səid Ordubadinin dünyabaxışına, yaradıcılıq özünəməxsusluğuna qiymət vermək çətindir. «Həyatım və mühitim» Ordubadi dünyasına girişin açarıdır. Zəngin tarixi məlumatlarla, mürəkkəb siyasi proseslərin təsviri ilə «Həyatım və mühitim» əks edildiyi dövrün də açarı sayıla bilər.

Məmməd Səid Ordubadinin geniş oxucu auditoriyasına çatdırılmamış əsərlərindən biri də «İki çocuğun Avropaya səyahəti»dir. Əsər 1908-ci ildə Bakıda Haşımbəy Vəzirovun redaktorluğu ilə nəşr edilən «Təzə həyat» qəzetində əski əlifba ilə çap olunmuşdur. Yəqin ki, Qərb həyat tərzini əks etdirdiyinə, Avropaya rəğbətlə yazıldığına görə bu əsər sovet hakimiyyəti illərində nəşr edilməmişdir. Elmdə isə Məmməd Səid Ordubadi irsinin tədqiqatçılarından Fəridə Vəzirova və Yavuz Axundlu, ədəbiyyatşünaslardan İman Cəfərli «İki çocuğun Avropaya səyahəti» əsərindən bəhs etmişlər. Xüsusən, professor Yavuz Axundlu «Məmməd Səid Ordubadi» monoqrafiyasında (2012) «İki çocuğun Avropaya səyahəti» əsərindən bir qədər geniş söz açmışdır. Lakin bu əsər indiyədək nə kiril, nə də latın əlifbaları ilə çap olunmamışdır.

İranlı iki gəncin Avropaya səfəri zamanı yazdıqları məktubları keçmiş tələbə yoldaşlarından Ordubadda alıb «Təzə həyat» qəzeti vasitəsilə cəmiyyətə təqdim etmək üsulu üzərində qurulmuş bu səyahətnamədə Məmməd Səid Ordubadinin Şərq-Qərb müqayisəsi yolu ilə milli oyanışa və dirçəlişə çağırışı motivi öz əksini tapmışdır. «İki çocuğun Avropaya səyahəti» əsəri XX əsrin əvvəllərində Azərbaycan oxucusunda Avropa mühiti, Qərb ölkələrinin inkişaf səviyyəsi barədə gerçək təsəvvürlərin formalaşmasına imkan yaratmaq qayəsini izləmişdir. Bu əsər Məmməd Səid Ordubadinin öz ölkəsinin də qərbyönlü istiqamətdə inkişaf etdirilməsinin zəruriliyi, yaxud əhəmiyyəti haqqındakı baxışlarını da əks etdirir.

Müxtəlif Avropa ölkələrindən göndərilmiş 10 məktub əsasında qurulmuş bu əsərdə hər ölkənin paytaxtının ümumi mənzərəsi ilə yanaşı, həm də məmləkətlərin ən səciyyəvi xüsusiyyətləri nəzərə çarpdırılmışdır. Paris şəhərini «dünyamızın bir ümumi mədrəsəsi» adlandıran Məmməd Səid Ordubadi Fransa cəmiyyətində hürriyyət məsələsinin öndə olduğunu diqqət mərkəzinə çəkmişdir. Ədibin Brüsseldən yazdığı 2 məktubda Belçika ticarət və dəmiryolları ölkəsi kimi səciyyələndirilmişdir. Yazıçının fikrincə, «ticarətdə Belçika xalqı dünyaya güzgü misalındadır... Belqiyalılar dünyanın hər tərəfində dəmiryolları, tramvaylar, elektrik, qaz əməliyyatı icra etməkdədirlər». Avstriyadan yazılmış 2 məktubda Vyana şəhəri elm və mədəniyyət mərkəzi olmaqla bərabər, həm də bənzərsiz parkları, xiyabanları, kanalları, adalardakı restoranları ilə xarakterizə olunur. Məmməd Səid Ordubadiyə görə bütövlükdə Avstriyada «dünya içində bir dünya yaradılmışdır».

Məmməd Səid Ordubadinin «İki çocuğun Avropaya səyahəti» əsərində Almaniyaya daha çox yer ayrılmışdır. Əsərdə Almaniya həyatı Berlindən yazılmış 3 məktubda öz əksini tapmışdır. Avropaya səyahətə çıxan iki gənc- Məhəmmədhəsən Tehranlı və İsfəndiyarxan Şirazlı öz səyahətlərinə

18 noyabr 1907-ci ildə Berlindən başlamışlar. Cəmi 26 gün davam edən Almaniya səyahətinin 15 günü Berlində keçmiş, 11 günü isə Maqdenburq, Manhaym, Buxem, Köln şəhərlərini əhatə etmişdir. Berlindən başlanıb Brüsseldə, sonra Parisdə və Vyanada davam edən, nəhayət, 20 fevral 1908-ci ildə İstanbulda tamamlanan 94 günlük səyahətin vaxt etibarilə ən çoxu Almaniyada keçmişdir. Məmməd Səid Ordubadinin səyahətnaməsində Almaniya XX əsrin əvvəllərində hərtərəfli inkişaf etmiş bir ölkə kimi təsvir olunmuşdur. Yazıçı bu fikirdədir ki, Almaniyada «tərəqqi yoluna çox cəsarətlə addım atılmışdır». Səyahətnamədə Almaniya həyatı, xüsusən də Berlin şəhərinin ecazkarlığı «Min bir gecə» nağılları ruhunda təqdim edilmişdir. Hiss olunur ki, poçtxanadan tutmuş universitetlərə qədər, kənd təsərrüfatından sənayeləşməyədək, təbabət, memarlıq və muzeylər də daxil olmaqla Almaniyanın çoxcəhətli inkişafı yaxşı mənada müəllifi heyrətləndirmişdir.

«İki çocuğun Avropaya səyahəti» əsərində Məmməd Səid Ordubadi İstanbuldan da inkişafına görə Avropa şəhərləri səviyyəsində bəhs etmişdir. Ədibin fikrincə, «Yevropada nə vardırsa Türkiyədə də mövcuddur». Bundan başqa, coğrafi baxımından da İstanbula Avropa şəhəri kimi yanaşılmış, hətta bu şəhərin Yevropanın şəhərlərini üstələdiyi qeyd edilmişdir. Məmməd Səid Ordubadi İstanbuldakı bir çox nəhəng binaların Avropadakı tikililərdən də gözəl və üstün olduğunu da qeyd etmişdir. Əsərdə həmçinin İstanbuldakı Asiya həyat tərzi, camelər, Osmanlı rejimi, mədrəsələr haqqında da əhəmiyyətli məlumatlar verilmişdir. Aşkar görünür ki, Avropa şəhərlərindən fərqli olaraq Məmməd Səid Ordubadi İstanbulu əhəmiyyətli bir Avrasiya şəhəri kimi təqdim etmişdir. İstanbulun, qədim Konstantinopolun XX əsrin əvvəllərindəki əhalisi və məşğuliyyəti kimi məsələlər də «İki çocuğun Avropaya səyahəti» əsərində real surətdə əhatə olunmuşdur. Bütövlükdə Məmməd Səid Ordubadinin «İki çocuğun Avropaya səyahəti» əsərinin qəhrəmanlarının dilindən 18 fevral 1908-ci il tarixdə yazıb, 21 mart 1908-ci ildə Bakıda çıxan «Təzə həyat» qəzetində çap etdirdiyi onuncu məktub İstanbulun 104 il bundan əvvəlki mənzərəsini və vəziyyətini, inkişaf səviyyəsini bütün yönləri ilə əks etdirir. Bu, İstanbul haqqında çox mühüm bir elmi-ədəbi qaynaqdır. «İstanbuldan məktub» bölməsi o zamankı Türkiyə haqqında da aydın təsəvvür yaradır. Bütövlükdə «İki çocuğun Avropaya səyahəti» əsəri Şərq-Qərb müqayisəsinin, Avrasiya düşüncəsinin reallıqlarını da meydana qoyur. Bu əsər Azərbaycan ədəbiyyatına Avrasiya düşüncəsini gətirən ilk geniş həcmli bədii əsərdir. «İki çocuğun Avropaya səyahəti» ədəbiyyatda Qərb-Şərq müqayisəsinin ordubadnaməsidir.

Elmi fikirdə Məmməd Səid Ordubadinin Avropa ölkələrində olması, Qərbə hər hansı bir səfəri barədə heç bir qeyd belə yoxdur. «İki çocuğun



M.S.Ordubadi adına
Naxçıvan Muxtar Respublika

Avropaya səyahəti» əsərində isə Avropa ölkələrinin paytaxtı olan şəhərlərin küçə və meydanları, elm və təhsil müəssisələri, mədəniyyət mərkəzləri o qədər real, dəqiq təsvir edilmişdir ki, oxucu əsərin müəllifinin həmin yerlərdə olmadığına asanlıqla inana bilməz. Heç şübhəsiz, əsərin yazılmasında Məmməd Səid Ordubadi tarixi-coğrafi mənbələrdən, dövrü mətbuat materiallarından faydalanmışdır. Tarixi və coğrafi məlumatları incəliklərinə qədər öyrənmək və əks etdirmək bacarığı yazıçının digər əsərləri üçün də səciyyəvidir. Bütün bunlarla bərabər, əsərdə o qədər gerçək təsvirlər vardır ki, «İki çocuğun Avropaya səyahəti» əsərinin yaranmasında Məmməd Səid Ordubadi ilə Avropa ölkələri arasında Qərbdə olmuş əlaqələndirici bir şəxsin olduğunu düşünmək lazım gəlir. Və yaxud da ola bilsin ki, ədibin müasirlərindən kimsə Avropada səfərdə olmuş, ona məktublar göndərmişdir və yazıçı həmin məktubların əsasında ədəbi səyahətnaməsini formalaşdırmışdır. Hər halda «İki çocuğun Avropaya səyahəti» əsəri bədii təxəyyüllə yanaşı, gerçək tarixi-coğrafi reallıqları da əks etdirir. Məmməd Səid Ordubadi irsinin tədqiqatçıları məsələnin bu cəhətinin aydınlaşdırılmasına ayrıca diqqət yetirməlidirlər.

Mövzu və ideya etibarilə «İki çocuğun Avropaya səyahəti» əsəri «Bədbəxt milyonçu, yaxud Rzaquluxan firəngməab» romanının müqəddiməsi təsiri bağışlayır. «İki çocuğun Avropaya səyahəti»ni gənc Rzaquluxanın səyahətnaməsi kimi də təsəvvür etmək olar. Bu əsərlə dərin daxili qatları etibarilə İran coğrafiyasından bəhs etmək mənasında Məmməd Səid Ordubadinin «Dumanlı Təbriz» romanı arasında da müəyyən yaxınlığın, bağlılığın mövcudluğunu da müşahidə etmək mümkündür. Ona görə də «İki çocuğun Avropaya səyahəti» əsəri Məmməd Səid Ordubadi romançılığının, yazıçının bədii nəsrinin mənalı bir proloqudur. İlk dəfə 1908-ci ildə «Tazə həyat» qəzetində hissə-hissə çap olunan «İki çocuğun Avropaya səyahəti» əsəri, nəhayət indi 104 ildən sonra oxuculara çatdırılmaqla ünvanına yetişmək baxımından səyahətnaməsini tamamlayır.

«İki çocuğun Avropaya səyahəti» əsərinin janrı haqqında da bir neçə söz deməyə ehtiyac vardır. Mövcud ədəbiyyatşünaslıq əsərlərində bu əsərin roman janrında yazıldığı qeyd edilmişdir. XX əsrin əvvəllərində Azərbaycan ədəbiyyatında roman janrının hələ təzəcə formalaşmaqda olduğunu nəzərə alsaq, bu nəsr əsərinin də roman alandırılmasını başa düşmək olar. Həmin kontekstdə roman Azərbaycan ədəbiyyatında hekayədən böyük həcmə malik olan nəsrlə yazılmış əsərlərə verilən ümumi ad idi. Bu dövrün romanları ideya-məzmunca dərin ictimai mövzulara həsr edilmiş, formaca yığcam əsərlərdən ibarət idi. Ona görə də Azərbaycan romanşünaslığında XX əsrin əvvəllərinin romanlarının janrı təyin edilərkən «kiçik roman» formatına da istinad olunmuşdur. Məsələn, Nəriman Nərimanovun «Bahadır və Sona» əsəri kiçik roman kimi meydana çıxmışdır.

Fikrimizcə, «İki çocuğun Avropaya səyahəti» əsəri həcm etibarilə kiçik romana uyğun gələn əsərlərdən də kiçikdir. Lakin bizə görə «İki çocuğun Avropaya səyahəti» əsəri heç bir halda hekayə sayıla bilməz. Əsərdəki bir neçə məktub, yaxud da konkret olaraq ayrı-ayrı ölkələrə həsr olunmuş məktublar cəlbedici bir hekayə təəssüratı yaradır. Əsər sanki eyni kompozisiya içərisində yerləşdirilmiş, biri digərini tamamlayan hekayələr silsiləsi əsasında yazılmışdır. Lakin bu hekayələrin cəmindən yoğrulmuş «İki çocuğun Avropaya səyahəti» əsəri roman hüdudlarına çatmamışdır. Əslində yazıçının mövzuya geniş epik meydan açmaq niyyətində olduğu da görünmür. «İki çocuğun Avropaya səyahəti» əsəri yalnız və yalnız əhatə etdiyi coğrafi hüdudların genişliyinə və diqqət mərkəzinə çəkdiyi problemin əhəmiyyətinə görə roman təsəvvürü doğura bilər. Əsərdə roman üçün zəruri olan çoxplanlı süjet və kompozisiya da yoxdur. Eyni zamanda, «İki çocuğun Avropaya səyahəti» əsəri surətləri etibarilə də roman janrının tələblərinə cavab vermir. Bütün bunları nəzərə alaraq, Məmməd Səid Ordubadinin «İki çocuğun Avropaya səyahəti» əsərini səyahətnamə-povest, yaxud da sadəcə olaraq povest adlandırmaq daha doğru olar. Əsər mövzusu, əhatə dairəsi, süjet və kompozisiyası, surətləri etibarilə povestdir.

Qeyd etdiyimiz kimi, «İki çocuğun Avropaya səyahəti» povesti ilk dəfə 1908-ci ildə «Təzə həyat» qəzetində əski əlifba ilə hissə-hissə çap olunmuşdur. Qərb həyat tərzini, Avropanın inkişafını təsvir etdiyi üçün sovet ideologiyası ilə uyğun gəlmədiyinə görə bu əsər kiril əlifbası dövründə çap üzü görə bilməmişdir. «İki çocuğun Avropaya səyahəti» povesti əski əlifba ilə nəşrindən sonra ilk dəfədir ki, latın əlifbası ilə oxuculara çatdırılır. Bu, müstəqillik dövrü Azərbaycan elmi-ədəbi mühitinin nailiyyətlərindən biridir. Və «İki çocuğun Avropaya səyahəti» povesti müstəqil dövlətçilik dövrünün Azərbaycan oxucusu üçün də Avropa ölkələri ilə daha yaxından tanışlıq baxımından geniş imkanlar yaradır. Bu povest-səyahətnamə Azərbaycan-Avropa əlaqələrinin tarixini öyrənmək üçün də əhəmiyyətli mənbədir. «İki çocuğun Avropaya səyahəti» povesti hazırda ölkəmizdə milli-mənəvi dəyərləri qorumaq və yaşatmaq zəminində qərbyönlü inkişaf proseslərinin tənzimlənməsinə də kömək edən, işıq sala bilən əsər kimi də böyük müasirlik imkanlarına malikdir.

İlk dəfə 1908-ci ildə «Təzə həyat» qəzetində əski əlifba ilə hissə-hissə çap olunan «İki çocuğun Avropaya səyahəti» povesti, nəhayət, indi oxuculara çatdırılmaqla öz səyahətnaməsini tamamlayır. Əsərin latın əlifbası ilə nəşri Məmməd Səid Ordubadi romançılığının səyahətnaməsini də bir növ başa çatdırır.

Böyük ədibimiz özünün çoxcəhətli istedadını incəsənət sahəsində də isbat etmişdir. Məmməd Səid Ordubadinin dahi Üzeyir Hacıbəyovun

məşhur «Koroğlu» operasına yazdığı libretto sənətkarın tarixi-qəhrəmanlıq mövzusunu şeirlə mənalandırmaq və musiqi ilə uzlaşdırmağı bacarmaq istedadının göstəricisidir. Bundan başqa, «Nizami», «Nərgiz», «Şəfa», «Dəmirçi Gavə» operalarına yazdığı libretto mətnləri onun ədəbiyyat və sənət qavrayışının bütövlüyünü nümayiş etdirir. Həmçinin «Beş manatlıq gəlin» və «Ürəkçalanlar» musiqili komediyalarının libretto mətnlərinin müəllifi kimi də o, ədəbiyyatın, səhnənin və musiqinin harmoniyasını ifadə etmək dünyagörüşünə malik geniş masştablı bir sənətkar kimi görünür. Eyni zamanda,Məmməd Səid Ordubadi «Bağı-şah, yaxud Tehran faciəsi», «Əndəlisin son günləri, yaxud Qrenadanın təslimi», «Teymurləng və İldırım Bəyazid» və sair tarixi faciələrin də müəllifidir. Bədii nəsrində olduğu kimi, Məmməd Səid Ordubadi dramlarında da tarixilik və müasirlik prinsiplərinə üstünlük vermiş, həmişə bədiilik amilini böyük ədəbiyyatda xüsusi bir tarazlıqda saxlamağı bacarmışdır.

Ümumiyyətlə, Məmməd Səid Ordubadinin əsərləri mənsub olduğu xalqın milli-mənəvi bütövlüyünün, birliyinin, mübarizə ruhunun, oyanış və azadlığının böyük ədəbiyyat səviyyəsində dolğun əks-sədasıdır. Ayrı-ayrı xalqların qüdrətli yazıçıları ümummilli vəzifələrin həyata keçirilməsinin təkamül proseslərini, keçid dövrlərini, dəyişmə və dönüş məqamlarını ədəbiyyatda canlandırmaqla tarixi epoxalar və nəsillər arasında varisliyin qorunub saxlanılmasına, gələcəyə əmanət edilməsinə xidmət etmişlər. Belə məsuliyyətli və şərəfli tarixi missiyanı Rusiya üçün Lev Tolstoy rus ədəbiyyatında böyük dahiyanəliklə yerinə yetirmişdir. Məmməd Səid Ordubadinin tarixi romanları da, ümumiyyətlə müxtəlif janrlarda yazılmış qiymətli əsərləri də Azərbaycan xalqının çoxəsrlik tarixinin və keşməkeşli taleyinin ədəbiyyatı olaraq ümummilli mənafelərin ədəbi yaddaşda həkk olunması ilə yanaşı, həm də gələcəyə işıq salmaq missiyasına xidmətin ifadəsidir. Yəni Lev Nikolayeviç Tolstoyun öz xalqı üçün gördüyü işi Azərbaycanda XX əsrdə bir neçə görkəmli sənətkarlarla birlikdə həm də Məmməd Səid Ordubadi gerçəkləşdirməyi bacarmışdır. Görüntüdə keçmiş sovet rejiminin Azərbaycanındakı rəhbərləri ilə münasibətləri haqqında əfsanələr yaşayan Məmməd Səid Ordubadi idealının ədəbiyyatdakı ifadəsi milli-mənəvi bütövlüyə, tarixi yaddaşın yaşadılmasına xidmətin nümunəsi kimi ədəbiyyatı tarixi əhəmiyyətli işə çevrilməyin gerçəkliyini canlı və real şəkildə əks etdirir. Bu gün böyük ədəbiyyat nəhəngi Məmməd Səid Ordubadini öyrənməyin və öyrətməyin zəruriliyi həmişə olduğundan daha aktual görünür.

**İsa HƏBİBBƏYLİ**
***Naxçıvan Dövlət Universitetinin rektoru, akademik***

# HƏYATIM VƏ MÜHİTİM

*1872-ci ildən 1920-ci ilə qədər*

## FAMİLİYAMIZ

### I

Atam Hacağa Məhəmməd oğlu yeddi arxa keçdikdən sonra Şah Abbasın yanında böyük bir mərtəbə qazanmış məşhur şair Mirzə Hətəm Ordubadinin nəvəsidir.

Mirzə Hətəmdən atam Hacağaya qədər familiyamızda şairliklə məşğul olan yalnız ikinci Mirzə Ağacan olmuşdur. Atam Hacağanın təxəllüsü «Fəqir»dir. Onun böyük divanı vardır.

Anam İranın Qaradağ tərəflərindən – Dizmar mahalındandır. Üştibin kəndindən Pənah adlı bağbanın qızıdır. O, Tovuz xanım vasitəsilə məşhur Üştibin şairi Nəbatiyə mənsubdur. Anam öz ailələri ilə bərabər, Həsənabad xanlarının qarət və qırğınlarından qurtulub qaçmışdı. Atam evləndiyi vaxt çox fəqir idi. Bunun üçün də şeirlərində «Fəqir» təxəllüsü ilə məşhur olmuşdur.

Zatən 1838-ci ildən başlayaraq, yalnız Ordubad şəhərində deyil, ümumiyyətlə Naxçıvan mahalında böyük qarışıqlıq başlamışdı. Əvvələn, məzhəb-təriqət mübarizələri şiddət etmiş, ikinci də İran qanunlarının yeni istilaçı rus qanunlarına dəyişdirilməsi camaatın dağılıb İrana qaçmasına və yoxsul bir vəziyyətə düşməsinə səbəb oldu.

Hələ həmin bu ildən İranda olan ermənilərin Zaqafqaziyaya köçürülməsi, xüsusən, Marağa və Təbriz tərəflərindən gətirilən 266 evin Ordubad kimi torpağı az olan yerlərə yerləşdirilməsi səbəbindən iqtisadi, siyasi və ictimai vəziyyət tamamilə bərbad bir hala qalmışdı.

Bu ildə 12 min əhaliyə malik olan Ordubad şəhəri iqtisadi vəziyyətin pərişanlığına baxmayaraq, öz boynunda məhəlli istismarçıların ağır yükünü çəkməyə məcbur idi.

Burada Ordubadın fəqir və yoxsul olduğu haqqında rus məxəzlərinin verdiyi məlumat daha aydındır.

1838-ci ildə Ordubad şəhərinin istismarçıları bunlardan ibarət idi:

Molla – 75 nəfər
Axund – 3 nəfər (müctəhid və vaiz)
Seyid – 30 nəfər
Xan – 1 nəfər (Bu idarəedici xandır. Başqaları bura daxil deyildir).
Bəy və sair əyan sinfi – 60 nəfər
Xan nökəri – 10 nəfər

Yuxarıda göstərdiyimiz 179 nəfərdən ibarət olan ali təbəqə 12 000

fəqir və yoxsul əhalini istismar edirmiş. Burada çox maraqlı bir şey varsa, o da 12 000 əhalinin nə kimi sərvətə malik olmasından ibarətdir. Burada birinci olaraq maldarlıq işini götürək:

Dəvə – 100 baş
At – 200 baş
Qatır – 60 baş
Eşşək – 500 baş
İri buynuzlu heyvan 1 200 baş
Qoyun, keçi – 10 000 baş

Bu göstərilən rəqəmlərə gəldikdə bunların 70 faizi şəhərin xanı Naib Şıx Əlibəy, Ağalar Soltan, Fəxrəddin bəy, İskəndər ağa və Əli xanların ixtiyarında idi.

Ordubad şəhərinin yer məhsulu işinə gəldikdə torpağının azlığından və əhalinin mədəni olmadığı üzündən daha dənsiz bir halda imiş. Məsələn, 1838-ci ilin taxılını götürmüş olsaq, görə bilərsiz ki, bütün Ordubad okruğunda 500 xalvar un, 10 000 pud buğda olmuşdur ki, bu da okruğda yaşayan xəlqin hər bir nəfərinə ildə 30 girvənkədən artıq düşmür. Halbuki buğdanın da hamısı rəiyyətin deyildir. Heç olmasa 50 faizi xanın anbarına tökülürmüş.

Əhalinin ağac meyvəsinə gəldikdə, onda da əksəriyyəti üzüm məhsulu təşkil edir. Üzüm məhsulundan isə Ordubad müsəlmanları ermənilər kimi istifadə edə bilmirdilər. Onlar üzümlərini Naxçıvana və İran kəndlərinə daşıyıb taxıla və başqa yemək şeylərinə dəyişməyə məcbur idilər. Bu isə hamıya mümkün olmadığı üçün bəzən üzüm bağlarını ermənilərə icarəyə verirdilər.

1838-ci illərdə Əylis kəndində yaşayan yerli ermənilər müsəlmanların əlində olan üzüm bağlarını icarəyə götürürdülər. Üç yüz pud üzüm verən bağları 60 manatdan artığa götürmürmüşlər. Halbuki pudu 20 qəpiyə mal olan üzümdən erməni icarədarları 12 butulka şərab hazırlaya bilirdi.

Bəzən mollalar müsəlmanların bağı şərab üçün icarəyə verməsinə mane olduğundan, icarədar erməni vaxtikən mollaları görüb razı salmağa məcbur olurmuş.

Atam belə mühitdə yaşadığı və belə bir mühitdə şair olduğu üçün təxəllüsünü fəqir qoymuş və şeirlərində mühitinin yoxsul vəziyyətini əks etdirmişdir.

1872-ci ildə doğulduğum vaxt Ordubadın vəziyyəti daha bərbad halda imiş. Bu vaxt məzhəb mübarizələri, təriqət çıxışları qanlı vuruşmalara qədər varıb çıxırmış.

# MƏZHƏB VƏ TƏRİQƏT MÜBARİZƏLƏRİ
## II

Mən doğulduğum vaxt necəki bütün İran, elə də İran ilə həmcəvar olan Ordubad şəhərini məshəb və təriqət mübarizələri boğmuşdur. XVIII əsrdə böyük bir şöhrətlə aralığa çıxan və Kərbəla şəhərində dini bir cəmiyyətin təşkilinə müvəffəq olan Şeyx Əhməd Əhsan şagirdlərindən birisi də Ordubada gəlmişdi. Bu adam Ağa Əli müctəhiddən ibarət idi.

Ağa bir tərəfdən Şeyxi təriqətini müdafiə edərək, Üsuli təriqəti ilə vuruşur, o biri tərəfdən də Babın şagirdləri olan molla Sadıq Vənəndli və Ağa Mir Kərimlə mübarizə edirdi.

Bab, İranda öz təriqətini elan etdiyi vaxt molla Sadıq da Ordubadın Vənənd kəndində eyni təriqəti elan edir, on minlərlə əhalini ətrafına toplamağa müvəffəq olur.

Bu zaman Ordubad xalqı daha bir böyük qorxunun qarşısında qalır. Rusiya hökuməti Behbudov adlı generalı 5 min nəfərlik ordu ilə molla Sadığın həbsinə məmur edir. Əhali qorxuya düşür. Culfa adamları evini, malını buraxıb, ailəsi ilə bərabər İrana tərəf qaçırmış.

Bu vaxtlar Ağa Əli müctəhid öz rəqiblərini məhv etmək üçün Behbudov general ilə anlaşır və molla Sadığın həbs edilməsinə müvəffəq olur. Behbudov və başqa rus məmurları Şeyx Əli bəy Nayib Şeyxi təriqətinin qalib gəlməsi üçün böyük hümmət sərf etmiş olurlar. Xüsusən, Naxçıvanın xanı və onun Nayibi Şeyx Əlibəy də Şeyxi təriqətini daşıyırdı. Ağa Əli müctəhid bu qalibiyyətdən sonra bu yoxsul şəhərdə öz nüfuzunu genişləndirib və Üsuli təriqətilə ciddi mübarizəyə girişir. Belə ki, məscid qapılarında vuruşmalar olur, hər iki tərəfin mollası bir-birinin qanının halal olmasına fitva verir. Ordubadın böyük kəndi qala olan Yaycı və Vənənd kəndləri Üsuli olduqlarından Şeyxi tərəfdarları həmin kəndlərə dolana bilmirdilər.

Din və təriqətə arxa vermiş şəhər əyanları aşağı təbəqəni istədiyi kimi istismar etməyə başlamışdı. Bu üzdən də əyanları terror etmək üçün bütün Naxçıvan mahalında yalnız Əbutalıb adlı bir gənc aralığa çıxır. Əbutalıb Müəzzədin bəy adlı zalım bir bəyin pusqusunda durub güllə ilə vurur. Bəy ayağından yayralanır. Bunun üçün də Əbutalıbı Ordubadın məşhur Ərəsə meydanında dara çəkirlər. Camaat qorxuya düşür. Bir neçə günlər heç kəs bayıra çıxmayır. Yenə də mollalar əhalini sakit edir. Əyanlar, xanlar və mollaların əlində oyuncaq olan Ordubadın haqqında Fəqir öz şeirlərində belə yazır:

> Əzzəl şikayətim ol çərxi bi vəfadandır.
> İkincisi iki üz yare-aşinadandır.
> Libas faxiri hər kəs geyib sayalla kişi,

Neçünki köhnə geyən firqey gedadandır.
Verəllə müdamə həm qeyri müstəhlia təam
Fəqirlər qalır ac yəni bu səxadəndir.
Hacı təkiyyə tutubdur Hüseynə ağlamağa
Evinin dövlətini göstərir bəxadandır.
Ziyafət eylər adı çıxmağa verər ehsan
Qəbul olmaya bu xeyrilər xətadandır.
Pilov yeyənləri yeksər yığıb, qalıb aclar
Görüm evi yıxıla boylə rəzadandır.
Kələm başında axundun keçib yuxarı başa
Kəsib buxarı başın bu nə müddadandır.
Geyib qəbali, salıbdır əba, alıbdır əsa
Çəkibdir boynunu yəni ki iddiadandır.
Axund gəlibdi Nəcəfdən, edib əcəb təhsil[1]
Yığıb mürid başına sidqilə səfadandır.
Sözündə yoxdur əsər vaizin degil amin
Axundların bu hamı etdiyi havadandır.
Əgərçi qazi ağa əgləşib qəzavətdə
Xilafdır hamı fitvası «hökm ağadandır».[2]

Bu kimi şeirləri yazan şair «xalqın» nəzərindən düşürdü. O, təmin edilməyəcək bir yoxsulluğun içərisində idi. Buna baxmayaraq, şeirə çox həvəsli idi. Ordubadda şairlər əncümənini düzəltmişdi.

**Əncümündə iştirak edənlər:**

Bikəs təxəllüslü molla Hüseyn
Sidqi təxəllüslü Məhəmməd Tağı
Müznib təxəllüslü Kəblə Əliqulu
Şəmi təxəllüslü Əhməd ağa
Nəqqaş təxəllüslü Nəqqaş Zeynəlabdin

**Əncümündə iştirak edən şeir maraqlıları:**

Mehti Həsən Dəbbax
Seyid Möhsün Saatsaz
Kərim Mehti Həsən oğlu
Ağarasul Ətdar

Və sairləri idi.

Son zamanlar Fəqirin gözləri kor oldu. Daha məktəbdə dərs verə bilmirdi. Halı daha da ağırlaşdı. Məni, bir də böyük bacımı əmim öz yanına aparmışdı. Çünki, atamın heç bir şeyi qalmamışdı. Hətta, ölməmişdən

*1. «Axund» sözü Ağa Əli müctəhidə işarədir*

*2. «Hökm ağadandır» kəlmələri qazıların hökumət quyruğunda olması deməkdən ibarətdir.*

əvvəl şairin üst paltarlarını da satmışdılar. Mən 9 yaşında idim. Onun görüşünə getdim. Atam papiros qutusunu mənə verdi və tapşırdı: «Oğlum, bunu 15 qəpiyə də olsa satarsan. Pulunu isə qəndə və çaya verib gətirərsən».

Mən qışın günü saat 12-dən axşama qədər dolaşdım, qutunu istəyən olmadı. Çünki qardondan qayrılmış qutunun rəngi artıq saralmağa başlamışdı. Qapağı da bağlanmırdı. Axşam evə qayıdanda əmim rast gəldi. Ona söylədim, o ağladı, əlimdən tutub çolaq Nəsrullanın ətdar dükanına gətirdi. Çay və qənd alıb verdi.

## ŞEİR VƏ ƏDƏBİYYATIN QİYMƏTİ
## III

Günün birisində atam məni yanına çağırdı. Bir yazılmış kağız verdi və tapşırdı: «Bu kağızı aparıb, Mənsur ağa adlı bir cavan vardır, onu tapıb verərsən, cavabını alıb gələrsən».

Mən bazarı çox dolaşdım. Nəhayət Mənsur ağa qapan dibindən gəldiyi vaxt əllaf Hacı Mirzə ağa Babanın dükanının qabağında məktubu ona verdim. Alıb oxudu. Diqqətlə baxırdım, axıra qədər oxudu. Oxuyub qurtardıqdan sonra mənə heç bir söz demədi. Kağızı palçığın üstünə atıb basladı və keçib getdi. Mən kağızı palçığa batmış bir halda yerdən qaldırdım. Onu arxalığımın qolu ilə təmizləyirdim. Bu halda atamın səmimi rəfiqi və əncümən üzvlərindən Məşədi Həsən dəbbax gəldi. Kağızı məndən aldı. Ağa Rasul ətdarın dükanında ucadan oxudu. Onların hər ikisi ağladılar. Mən sonra bildim ki, atamMənsur ağaya tərif yazıb və aclığını bildirmişdi.

Dəbbax Həsən bir dəsmalın ucuna kağız pul düyünlədi və məni evimizə qədər yola saldı.

Atam bu cür məktublardan bir çoxuna göndərirdi. Lakin yardım ala bilmirdi.

Atam işdən düşdüyü və ehtiyac içində yaşadığı illərdə (1882-ci ildə) Ordubad şəhərinin vəziyyəti qismən dəyişmişdi. XVIII əsrin ortalarına nisbətən burada müsəlmanlar arasında ticarət əhli və böyük varlılar tapılırdı. Lakin buna baxmayaraq, bu tacirlərin əlaqəsi yalnız İran ilə idi. Rus fabriklərindən çıxan malları isə Ordubad tacirləri yenə də Əylis ermənilərі vasitəsilə əldə edə bilirdilər. Hər halda ticarət ermənilərin əlində idi. Çünki Ordubad İran vaxtından əyan şəhəri olduğundan, hətta, şahın nəzərindən düşən əyanlar Ordubada göndərilib burada kök saldıqlarından müftəxorluq və tənbəllik şəhərdə olduqca dərin kök salmışdı. Bunun üçün mülkdən və kənd gəlirindən dolananların ticarətlə maraqlanmayacaqları şübhəsizdir.

Nəhayət, ermənilərin ticarətlə böyük paralar qazanması bunlarda ticarətə böyük maraq oyandırmışdı.

Əyanlardan Hacı Əbütalib, Hacı Rasul, Hacı Molla Hüseyn və daha bir çoxları ticarət işinə başlamışdı. Bunlar çox az vaxtda varlanmışdılar. Çünki Ordubad xalqı kimi dinc xalqı istismar etmək o qədər çətinlik tələb etmirdi. Atam bunların hamısına yazır və ehtiyacını bildirirdisə də, heç birisindən yardım almırdı. Nəhayət, ehtiyac içərisində öldü.

Əmim də ixtiyarlaşmışdı. Ailə saxlamaq mümkün deyildi. Anam işləməyə məcbur olmuşdu.Atam öldükdən sonra onun şeir marağlısı olan tanışları da,Dabbax Hüseyndən başqa, fəqirləşmişdilər. Heç birindən yardım almaq mümkün deyildi. Yalnız işləmək lazım idi. Xüsusən, qadınların işləməsi üçün nə fabrika, nə zavod yox idi. Bir fabrika varsa, o da erməni Qarapet Babayevin idi.

## İPƏK TİCARƏTİ
## IV

Ordubadda ipək ticarətinin tarixi çox qədimdir. Hələ 1838-ci illərin hesabına görə yalnız Ordubad okruqunda yüz min tut ağacı mövcud idi. Lakin İran dövründən başlayıb ipək işində çalışan Ordubad müsəlmanları onu mədəni bir şəklə sala bilməmişlərdi. İpək və barama ticarəti əksəriyyətlə Əylis ermənilərinin əlində idi. Nəhayət, birinci olaraq Qarapet Babayev[1] Marseldən bir ipək zavodu gətirdi. İpək zavodu əvəlcə 48 çarxdan ibarət idi. Bu zavodun açılması Ordubadda barama toxumu bəsləmək işinə böyük maraq oyadırdı. Çünki indiyə qədər mədəni üsulda işlənilməyən Ordubad ipəyi yalnız Təbrizin qanauz fabriklərinə gedirdi. Buna görə də barama o qədər məqbul qiymətə satılmırdı. O vaxtkı yaş barama 9 manatdan 10-a qədər satılırdı. Lakin Qarapet Babayevin zavodundan çıxan ipək, Rusiya fabriklərinin rəğbətini qazandığından artıq qiymətə satılırdı. Bunun üçün də Qarapet Babayev baramanı artıq qiymətə almağa və kustarları aralıqdan çıxarmağa başladı. Çünki Təbriz fabrikləri Moskva fabrikləri alan qiymətə mal ala bilmirdilər.

Qarapet Babayev varlanırdı. Qarabağ əyanlarından Ordubada təbid edilmiş şair Məhəmmədbəy Aşiqin evlərini aldı və orada ikinci bir ipək zavodu açdı. Bu vaxtlar Əylisdə də bir zavod tikdilər. Baramanın qiyməti daha da yüksəldi. Kustarlar aralıqdan çıxmağa başladı. İpək ticarəti ermənilərin əlində mərkəzləşdi. Qarapet Babayevin ipək zavodunun yanında digər bir zavod da var idi. Bu zavodda birinci zavoddan çıxan ipəyi qoşalaşdırıb eşir və toxucu fabriki üçün hazırlayırdılar. Bu zavodda çalışanlar tamamilə qadınlar idi. Qarapet Babayev müsəlmanların rəğbətini qazanmaq üçün bu zavoda müsəlman qadınlarından da qəbul edəcəyini söylə-

*1. Rusların Əndəmiç kəndində yerləşdirdikləri Təbriz mahalı ermənilərindəndir.*

yirdi. Lakin mütəssib müsəlmanlar buna heç vəchlə yol vermirdilər.

Anam gedib işləmək istədiyini bildirdikdə, xüsusən, onun kimin qadını olduğunu anladıqda məmnuniyyətlə qəbul etmişdi. Bundan sonra başqa qadınlar da həmin zavoda daxil olmağa başladılar. Lakin Ordubadda buna çox pis nəzərlə baxırdılar. Şəhərin qolçamaq seyidlərindən Mirətdar Ağaseyid uşaqları və sairləri qadınlarını erməni zavoduna buraxanları namussuz deyə çağırırdılar. Lakin buna baxan yox idi. Ehtiyac işləmək və harada olursa, işləmək tələb edirdi.

Qadınların erməni zavodunda işləmələrinə maneçilik törədən ən əsas səbəb müsəlman kustarçılığının Qarapet Babayevlə apardığı rəqabətdən ibarət idi. Seyidlər və başqaları isə daima olduğu kimi xırda burjuaziyanın əlində alət idilər. Müsəlmanlardan Məşədi Cəfər də ipək zavodu hazırladı. Bunun dalınca Fərəcovlar zavod tikdirdi. Rzayev, Nağıyev, İsmayıl Məhəmməd Hüseyn oğlu və Ərəbov Hacı Kərim zavod açdı. İpək alverçiləri arasında ciddi rəqabət başlandı. Rzayev şəhər qlavası seçildikdə rəqabətdə qalib gəldi. Bütün baramanı əlində topladı. Zavod sahibi olan Fərəcov da Rzayevin rəqabətindən qurtarmaq üçün onun bacısını oğlanlarına aldılar. Ərəbov da öz qeydinə qaldı. O da şəhər qlavası ilə qohum olmaqla öz iqtisadi vəziyyətini möhkəmlətməyə çalışdı. Rzayevin qızını öz oğluna aldı.

Nağıyev Hacı İsmayıl isə Anbaras məhəlləsinin qolçamaqlarından qəssab məşədi Hüseynin qızını aldı. Ona qolu qüvvətli bir adam lazım idi. Barama bazarında qalib gəlmək lazım idi. Buna görə də üç qadını olduğuna baxmayaraq, qəssab məşədi Hüseynin qızını dördüncü qadın olaraq aldı. Müsəlman ipək tacirləri birləşdi.

Birinci ipək taciri olan Qarapet Babayev kənarda qaldı. Çünki onun nə ərə verməyə bacısı, nə də qızı yox idi. O, məğlub oldu. Daha öz zavodunu işlətməkdən aciz oldu. Bu adam aralıqdan çıxandan sonra birləşmiş qurdlar baramanı istədikləri qiymətə aldılar.

Buna baxmayaraq, Qarapet Babayev zavodunu az da işlətsə, maaş az da versə, yenə də müsəlmanların onun zavodunda işləməyə rəğbətləri var idi. Çünki o, öz haqq-hesabına təmiz, işçisini çox istismar etməyən bir adam idi. Çünki onun geniş istismara imkanı yox idi. Erməni olduğundan qorxurdu.

## MƏNİM BİRİNCİ İŞLƏMƏYİM VƏ BİRİNCİ DƏRSİM
## V

İpək zavodlarının, xüsusilə, kustar zavodlarının böyük bir xüsusiyyəti vardı ki, o da kiçik yaşlı uşaqların zəhmətindən istifadə edilməsi məsələsidir.

İpək zavodlarında yaşlılardan artıq gənclər və azyaşlılar da çalışır-

lardı. İpək işinin quruluşu da bunu tələb edir. Burası ipək zavodları sahibləri üçün də əlverişlidir. Çünki azyaşlıları az maaşla işlətmək mümkündür. Mən Qarapet Babayevin fabrikinə girdiyim vaxt 14 yaşım var idi. Bir il ipək mövsümü manat yarım maaşla işlədim. Mən mövsümün altı ayını çalışıb, altı ayı dərs oxudum. Şəhərdə rəsmi olaraq rus məktəbi 1839-cu ildə açılmışdı. Yalnız ermənilər oxuyurmuş. Türkcə məktəblər yox idi. Mövcud məktəbin bəzisində qadın, bəzisində isə kişilər dərs verirdi.

Mən dərs oxuduğum il (1886-cı ildə) şəhərdə aşağıdakı məktəblər var idi.

**Məktəblər**

1. Mirzə Baxşı; 2. Kərbəlayi Əli; 3. Axund Sara (qadın); 4. Şəban axund (qadın), yaxud Şəhrəbanı; 5. Molla Lütfəli; 6. Molla Kazım

Bunlardan başqa, mədrəsədə dərs verənlər çox idi:

1. Hacı Mir Mahmud; 2. Hacı Molla Əli Kəttami; 3.Molla Məhəmmədhəsən; 4. Hacı Məmməd Tağı ağa və s. Bunlar ərəbcə dərs verən mollalar idi.

Mən əvvəlcə Şəhrəbanıxanım (axund), sonradan isə Mirzə Baxşının məktəbində oxudum. Məni şeir sənətinə təşviq edən həmin bu Mirzə Baxşı oldu. Mirzə Baxşı şeir maraqlısı idi. Ona görə də məktəbdə hər cümə axşamı şeirləşmə adət idi.

Cümə axşamları uşaqların hər birisi 2 qəpik aparıb Mirzə Baxşı axunda verərdi. O, pulları şeirdə qalib gələn uşaqlara paylayırdı.

Uşaqlar sıra ilə düzülüb şeir oxuyardı. Əlifba sırası ilə oxunan şeirlərə qarşı cavab verə bilməyən uşaqlar məğlub hesab olunub, gətirdikləri 2 qəpik şeirdə qalib gələnlərə verilərdi. Bunun üçün də uşaqların şeir oxumağa çox böyük rəğbətləri var idi.

Mən 15 yaşında ikən Sədinin «Bustan»ını tamamilə əzbərləmişdim. Cümə axşamları şeirləşdiyimiz vaxt əsnaf və əyandan bir çoxları gəlib şeir oxumağımıza qulaq asardılar.

Mən şeirləşdiyim müddətdə bir kərə müşkülat qarşısında qaldım. Bir sıra baş hərfi «z», axır hərfləri «t» ilə qurtaran şeirləri oxuyuruq. Şeirləşmə axşam saat 6-ya qədər çəkdi. Mən Nicab, Sədi başqa kitablardan öyrəndiyim bütün şeirləri oxuyub qurtarmışdım. Əvvəli «z» axırı «t» hərfi ilə qurtaran beyt tapa bilmədim. Burada birinci olaraq farsca bir şeir inşa etdim:

Zənbəq məşam ruye tu dərbər nəşidəst
Nəqqaş nəqşe-surətət əzbər kəşidəst.

Uşaqlar etiraz etdilər. Şeirin hansı kitabda olduğunu göstərməyi tələb etdilər. Mirzə Baxşı axund bu etirazları qəbul etməyərək dedi: «Madam ki, şeirdə məzmun vardır, madam ki, qafiyə var, madam ki, şeirə bədii şəkil verə bilmişdir, o halda şeirin bir kitabda olub-olmamasının əhəmiyyəti yoxdur», - sözlərindən sonra mən qalib gəldim.

Mirzə Baxşı şeir işində olan qalibiyyətimi görüb, mənə artıq dərəcədə əhəmiyyət verdi. Məndən dərs haqqı da almırdı.

Mən 15 yaşında ikən azsavadlıların dərsini mənə tapşırdı.

Mən şeir yazmaq və yazıçı olmağa heç də həvəslənmirdim. Atamın yazdığı şeirlərin palçıq içinə atılması heç də yadımdan çıxmırdı. Bir çox zamanlar anam da buna mane olurdu. Çünki atamın şeir sənətindən nə kimi fəlakətlər çəkdiyi onun gözünün qabağında idi. Lakin məktəb və şeirləşmə işi özüm hiss etmədiyim bir surətdə məni şeir yazmağa öyrətdi. Əvvəldən yazdığım şeirlərin bir çoxu farsca idi. Türkcə şeir yazmağa heç də rəğbətim yox. Çünki oxuduğumuz dərslərin hamısı farsca idi. Şəhərdə türkcə məktub yazmağı belə heç kəs bacarmırdı. Türkcə kitab da yox idi. İrandan gələn kitablar içərisində türkcə kitablar var idi. Lakin bunlar mərsiyə kitabları idi. Raci, Dəxil, Pürqəm, Dilsuz və başqalarının türkcə şeirlər də var idi. Bu kitablardan başqa türkcə kitabların oxunmasına ixtiyar verilmirdi.

Mollalardan Hacı Molla Əli Kuhtami və sair böyük mollalar türkcə əsərləri təkrar edirdilər. Türkiyədən gələn bəzi kitabları həm türkcə olduğu, həm də şiə tərəfindən yazılmadığı üçün oxumaq olmazdı. Hacı Hüseynqulu Hacı Əkbər oğlunda türk tarixçilərindən Məhəmməd Muradın bəzi əsərləri var idi. Bu kitabları yığılıb xəlvətcə oxuyurdular.

## BİRİNCİ VƏ AXIRINCI SEVGİM
## VI

Mən Babayevin zavodunda ikinci il idi ki işləyirdim. Qadınlar işləyən şöbənin bazarlığına getmək və sularını gətirmək, eyni zamanda, kişi ustalarının qarşısında buğla bişmiş barama böcəklərini təmizləmək, lasları didib qurutmaq, bir neçə sair işlər də mənim öhdəmdə idi. O zamanlar maaşım iki manat yarım olmuşdu. Ustabaşı Məşədi Həsən və onun müavini usta Ağababa mənim xatirimi çox istəyirdilər. Sağlam bədənim var idi. Yorğunluq bilmirdim. Hər kəsdən əvvəl işə gəlib, hər kəsdən sonra gedirdim. Zavod sahibi Qarapet Babayev də «sağ ol» deyib fəaliyyətimi tərif edirdi. Mən də bundan xoşlanırdım. Çünki istismarın və istismarçının nə olduğunu bilmirdim. Hətta, mən və başqaları özümüzə verilən maaşın qanun üzrə verildiyini və artıq-əksik verməyin mümkün olmadığını zənn

edirdik.

Qadınlar şöbəsində bir çox erməni qızları çalışırdı. Onların içində mənim zehnimə görə iki gözəl qız var idi. Onlardan birisi «Nanik»ın qızı Sofiya, ikincisi onun xalası «Teltel» qızı Varvara idi.

Sofiya ucaboy, ağ və gülərüz qız idi. Sofiya hər gün məni gördükdə sözü də olmasa bir söz bəhanə edib danışardı. O, məndən üç yaş böyük idi. O deyirdi ki, «mən erməniyə getməyəcəyəm». Bunu doğru deyirdi. Çünki verilmiş üzüyü dalı qaytarmış və ərə getmək istəməmişdi. O, hər gün məni sevdiyini və ölsə də mənim ilə yaşamağa çalışacağını söyləyirdi.

Bizim bu sevgi söhbətlərimiz Varvaranın diqqətini cəlb etmişdi. Varvara Sofiya ilə nə danışdığımız haqqında məndən məlumat almağa çalışırdı. Günlərin birində mən Sofiya ilə danışdıqda Varvaranın ağlamasını gördüm. Onun məni sevdiyini bu gündən anladım. Nədənsə mən də Varvaranı Sofiyadan artıq sevirdim. Zənnimcə, ikimizin bir yaşda olduğu üçün idi. Mən sevgi sözlərini Varvara kimi çox da açıq deyə bilmirdim. O, sevgisini bir şair kimi təsvir edir, hətta, gecələri mənim haqqımdakı xülyalarını belə nəzərində canlandıra bilirdi. Mən ikimizin arasında olan sevginin biri-digərindən artıq olduğunu ancaq onun göz yaşları və titrəməsi, həyəcanı ilə təyin edə bilirdim. Məndə bunların heç birisi yox idi. Lakin sevdiyimi təğyir etdiyimiz bir sevgiyə malik olduğumu bilmirdim. Bizim Varvara ilə yoldaş olacağımıza iki böyük manеə var idi.

Manеənin birisi analarımız, ikincisi isə ictimai vəziyyətimiz idi.

Anam deyirdi ki, Varvara Hacı Məhəmməd Tağıağanın yanına gedib müsəlmanlığı qəbul etməlidir. Çünki hələ indiyədək müsəlmanın erməni qızına evlənməsi görülməmişdi. Varvara buna razı idi. O deyirdi ki, hər nə deyirsən olaram. Lakin onun anası «Teltel» buna razı olmurdu. Çünki müsəlmanlardan bir çoxu, müsəlman olmaq istəyən erməni qızlarını aldadıb, namuslarına toxunub buraxırdılar. Buna baxmayaraq, yenə də kəndlərdən müsəlman olmaq üçün erməni qadınları gəlirdi.

Nə isə, bizim Varvara ilə yoldaşlığımıza hər iki analar maneçilik törədirdilər. Bu, birinci manеə idi. İkinci manеə daha böyük idi.

Varvara ilə Sofiya arasında böyük düşmənçilik başlamışdı. Onlar daha bir yerdə, bir makinada işləyə bilmirdilər. Vuruşur, döyüşürdülər.

Tam bu günlərdə Varvaranın sevgisini daşıyan digər bir gənc aralığa çıxdı ki, bu da zavod sahibi Qarapetin qayını Mirzə Pedo idi. Lakin nə Varvara buna ərə getmək istəyir, nə də anası ona verməyə razı olur. Teltel Mirzə Pedonun əxlaqsız gənc olduğunu deyib, qızını vermirdi. Mən Varvaranın mənim sevgimdən daşınacağını və bunu əvəz edəcəyini heç də düşünmürdüm. Çünki gəncliyimin o dövrlərində sevən ürəklərin hamısı-

nın öz qəlbim kimi sarsılmaz olduğunu düşünürdüm. Mən onu da qanmırdım ki, bir qəlbə girməyə yol tapan sevgi, oradan çıxmaq üçün də özünə yol tapa bilər.

Mən onu da bilmirdim ki, gözü olan və adamların birindən digərinə fərq qoymağı bacaranların sevgini sevgiyə, adamı adama dəyişməsi mümkündür.

Mən hələ o vaxtlar ictimai vəziyyəti də nəzərə almağı bacarmırdım. Hətta, sevginin iqtisadi vəziyyətdən asılı olduğunu da xəyalıma gətirməkdən qorxurdum. Məncə sevgi müstəqil bir şey imiş. Onun üzərində heç bir şeyin təsiri olmazmış. Mən indiki gənclər kimi də düşünmürdüm. Elə bilirdim ki, hər qızın sevgisi bir oğlan üçün yaranmışdır.

Mən elə bilirdim ki, Varvaranın qəlbindəki sevgi yalnız mənim fikrim, mənim həvəsim, mənim məhəbbətim üçün doğulduğundan başqa zatın təsiri altına düşməz.

Mən bu səhvimi tez anladım. Bakıdan Ordubada İsrail adlı bir alışverişçi gəldi. O, Ordubadın Kəkəbet mahalından Əgərəkkəndindən idi. O, çox gözəl və bahalı paltarlar geyinmişdi. Qızıl suyuna çəkilmiş gümüş kəməri var idi. Lakin özü dedikcə çirkin idi. O, Varvaranı görən kimi sevmişdi.

Mən Varvaranın ona ərə getdiyini eşidəndə inanmadım. Bundan sonra onu bir neçə kərə gördüm. Birinci kərə salamımı başı ilə aldı. İkinci kərə olduğum tərəfə baxmadan qayıdıb getdi. Bundan sonra mən sevgidən küsdüm. Onunla əbədi olaraq barışmamağa söz verdim.

Varvaradan sonra mən Babayevin zavodunda işləməkdən xoşlanmırdım. Əvvəlinci sevgilim Sofiyanın tənəli sözlərinə dözə bilmirdim.

Zavoddan çıxdım. Üç manat yarım maaşla Fərəcovların kustar ipək zavodlarına girdim.

Mən ikinci farsca şeirimi Sofiya haqqında yazmışdım:

Xoşa aman ke didare-vəsnət namral kərdəd
Zeabe-zendəqi nuşənd-dər piri cavan kərdəd.

Varvaraya türkcə şeir yazmışdım. Bu mənim türkcə birinci şeirimdi:

Səfae-gülşənə çıxma, bahara görsənmə!
O gül camalı qızıl gül görüb xəcalət olur.

Hazırda nə o sevgilər qəlbimdə, nə də o sevgilərə yazdığım şeirlər dəftərimdədir. Çünki mən indi də sevginin adamı gülünc vəziyyətdə qoyduğuna inanıram.

## RUS MƏKTƏBİ VƏ RUS İDARƏSİ
## VII

Ordubadda rus kulturası yerləşməyə başladı. Məktəb səhv etmirəmsə, 1839-cu illərdə açılmışdı. Deyilənlərə görə, bu məktəbə əvvəlcə heç kəs getməmişdi. Yalnız ermənilər oxuyurmuş. Birinci ildən sonra ermənilərin hökumət işlərinə təyin olunduqlarını görüb, müsəlmanlarda rus məktəbinə maraq oyanmışdı. Müsəlmanlardan birinci oxuyan Ağarəzi oğlu Mirzə Mehdi, Soltan bəy Abbasqulu bəy oğlu, Nəcəf bəy Bala bəy oğlu, Mirzə Sadıq, Mənsur ağa, Bala Soltan Kəngərli, Rzaqulu Hacı Məmmədhüseyn oğlu idi. Müsəlmanlar rus məktəbini bitirdikdən sonra, yenə də birinci dərəcəli işlərə qəbul edilmirdilər. Məsələn, 1880-ci ildə şəhərdə poçt-teleqraf idarəsi düzəldikdə müdiri, müdir müavini Rusiyadan gəldi. Şəhərin əyanlarından Abbasqulu bəyin oğlu Soltan bəy isə dəftərxana qulluqçusu götürüldü. Mirzə Mehdi pristav dilmancı, Mirzə Sadıq qlava mirzəsi təyin olundu. Məktəbin qulluqçularına qədər Rusiyadan gəldilər. Elmi-ilahi müəllimi Miryəhya Mirməmməd oğlu idi.

Rus qulluğuna girmək üçün şəhərin bəyləri və əyanları can atırdılar. Desyatnik deyilən polis qulluqçuları ləğv olunub, yerlərinə qaradovoy qoyulanda Ordubad əyan və bəylərindən bir çoxu ərizə vermişdi. Desyatnik deyilən yerli müsəlmanlar polisin işlərini yerbəyer edirdi. Bunlardan əlavə, ayda atı ilə özü 14 manata qulluq edən polis atlıları da var idi. Bunların vəzifəsi poçt aparmaq, qaçaq dalınca getmək, kəndlərdən cəbri vergiləri toplamaq, cəza qanunlarını həyata keçirməkdən ibarət idi. Bəylərin hamısı bu vəzifədə idi. Maaşın az olduğuna baxmayaraq, gəlirləri çox idi. Çünki daima kəndlərdə olurdular. Məsələn, Fərəc bəy, Şükür bəy, Baxşəli bəy, Rasul bəy, Canbəxiş bəy, Ənnağı bəy kimilər polis atlısı idi. Bu vaxtlarhökumət qulluğunda olmayan əyanın şəhərdə etibarı yox idi. Hacı Məmməd Sadıq kimi böyük mülkədar və varlı adamın oğlu Əliqulu ağa həbsxana müdirinin müavini olmuşdu. Müdir ola bilməzdi, çünki müdir Rusiyadan gəlirdi. Qaradovoylar da vaxtını bitirmiş rus əsgərlərindən təyin olunurdu. Lakin son vaxtlar şəhərin məşhur bəylərindən Məmməd bəy Ağalarov qarodovoy olmağa müvəffəq olmuşdu.

Bununla bərabər, imtiyaz tamamilə bəylərin və əyanların əlində idi. Bunlardan əsgərlik vergisi və sairə vergilər alınmadığı kimi, məktəblərə girməkdə də çətinlik çəkmirdilər. Məktəbdə oxuyanlar tamamilə bəy uşaqları idi. Əmimgil məni neçə dəfə rus məktəbinə sala bildilərsə də, axıra qədər davam eləmədim. Çünki bütün skamyaları bəylərin və tacir ermənilərin uşaqları doldurmuşdu.

1885-ci ildə bəylərin arasında təmizlik aparmaq üçün bir əmrnamə

gəldi.Çünki əsgərlik vergisindən qurtarmaq və imtiyazları mənimsəmək üçün yerindən qalxan bəy olmuşdu. Bəylərdən bir çoxları təmizliyə düşdü. Bununla belə, tarixi sənədlər də meydana çıxdı. Nəsrabad bəylərindən bəylik vəsiqəsi istənildikdə Kufə hakimi Abdulla ibn Ziyadın möhrü və imzası ilə verilmiş bəylik vəsiqəsini göstərdilər.

Bu kimi vəsiqələr aralığa çıxdıqdan sonra yavaş-yavaş bəylərdən pristav müavinləri də aralığa çıxdı. Buna baxmayaraq, böyük qulluqçular yenə də Rusiyadan gəlirdilər. Yerli camaata lazımi işlər verilmirdi. Məhkəmə pristavı, həbsxana müdiri, polis atlılarının başçısı da (buna «atlı vəkili» deyirlərdi) Rusiyadan gəlirdi.

Məktəb müəllimləri də ruslar idi. Bu cür müəllimlər müsəlmanların dillərini təhqir etdiklərindən avam camaatın nifrətini qazanırdılar. Gözü açıq bəylərə, əyanlara gəldikdə, bunlar dini işə əhəmiyyət vermirdilər. Onlar üçün elm və mənsəb hamıdan əhəmiyyətli idi. Ordubad bəylərindən bir çoxu mülkədar olduqlarına baxmayaraq, özləri işlərdi. Rəncbər saxlasa da, özləri onlarla bərabər çalışardı. Bunlar Ağalarov familiyada olan Rəsul bəy, İsgəndər bəy və Razi bəylər idi. Ordubada çox çəyirtkə gəlirdi. Evlərə dolub əhalinin yorğan-döşəyinə qədər tələf edirdi. Hökumət çəyirtkə ilə mübarizə üçün Ordubada 10 min manat pul və bir çox bez və sair şeylər göndərmişdi. Göndərilən pulları Mehdixan ilə pristav öz aralarında bölüşüb, çəyirtkəni camaata yığdırırdılar.

Rasulbəy bu məsələni açdı. Qubernatora yazdı. Ordubada komisyon gəlib işi yerində təhqiq etdirmək istədikdə, Rasulbəyi gecələrin birində öz bağını suvardığı yerdə öldürdülər. Öldürənlər Məşədi Kərim Həsən oğlu və onun oğlu Kəblə Zeynal Yusifov və sairləri idi. Fəqət, pristav bir nəfəri də olsa həbsə salmadı.

Rus hökuməti hər yerdə olduğu kimi Ordubad şəhərində də deputat təyin edirdi. Deputat xalqın nümayndəsi olaraq, hökumət yanında təşəbbüsdə bulunurdu. Bundan əlavə, xalqdan bir də «mirab» (suyun əmrini verən) seçilərdi.

Ordubadda bütün mənim yaşadığım zamanda iki nəfər deputat olmuşdu. Birisi Hacı Rəhim, o birisi Hacı İsgəndər ağa. Bunun üstündə çox böyük mübarizə gedirdi. Deputat seçkisində çox vuruşmalar olurdu. Buna baxmayaraq, Hacı İsgəndər ağa həmişə deputat seçilirdi. Çünki onun qardaşı Mirzə Mehdi pristav müavini idi. Camaat onun qorxusundan başqa adama səs verə bilmirdi.

Mirablığı da bu öz əlinə almışdı. Çünki Ordubadın suyu yayda az olduğundan bu işdən yaxşı qazanc götürmək olurdu. Hacı İsgəndər ağa çox hörmət sahibi idi. O, bazardan keçəndə ayağa qalxmamış adam tapılmazdı.

Çar Hökuməti ona böyük qızıl medal vermişdi. Həmişə şəhərə qubernator gələndə Hacı İsgəndər ağa nişanını vurub qubernatorun görüşünə gedərdi. Mən özüm bir neçə kərə qubernator gələndə Hacı İsgəndər ağanın gözlərinə sürmə çəkdiyini gördüm. Hacı İsgəndər ağa deputatlıq və mirablıqdan bir çox dükanlar tikdirmişdi ki, o dükanlar indi də qalır. Bu dövrdə şəhərin əyan və nücəbası bunlardan ibarət idi:

1. Hacı İsgəndər ağa
2. Məşədi Zeynalabdın
3. Hacı Mirhaşımağa
4. Ağa Lətif
5. Hacı Əliqulu ağa Əbutalıbov
6. Əhməd ağa Şəmi təxəllüs
7. Hüseyn Soltan
8. Kəngərli
9. Hacı Məmmədqulu Hacı Abdulla oğlu
10. Abbasqulu bəy Məğzələddin bəy oğlu
11. Məşədi Yusif Hacı Əbutalıb oğlu

Bunlardan əlavə, şəhərdə mötəbər seyidlər və mollalar da var idi. Bu saydıqlarımın bir çoxu ayda bir həftə də olsa, öz evlərində çörək yeməzdilər. Bütün xeyirdə, ehsanda yemək siyahısının əvvəlində bu adamlar yazılardı.

Ordubadda başqa şəhərlərə görə dərviş də çox idi:

1. Şükür dərviş
2. Hacı (yaxud Qara) dərviş
3. Talibi dərviş
4. Əli dərviş
5. Dərviş Abbas və s.

Çox təəccüb ediləcək bir şey var idi ki, o da bütün dərvişlərin Mingiz məhəlləsindən çıxmasıdır. Bunların içində ən savadsız, ən də kamallısı dərviş Şükür idi. Ordubad pristavı Fanzayski zavodun döngəsində öz balaları ilə durub çaya baxdığı zaman dərviş Şükür yetişib ona bu şeiri oxumuşdu:

Əl nəzər, həq nəzər kəl nəzər
Sək becaqanən dərin rəh gözər.

Pristav Xorasanda rus konsulxanasında xidmət etdiyindən farsca kamil bilirdi. Ona görə də dərviş Şükürə bir manat bağışlayıb bir daha bu kimi şeirlər oxumamasını tövsiyə etmişdi. Bu pristav çox zalım idi. Buna görə də şəhər camaatı yığılıb evini daşladılar. Pristavın özü yığışıb, Ordubaddan getməyə məcbur oldu. Bu da hökumət əleyhinə birinci çıxışdan ibarət oldu 1882-ci ildə.

## BÖYÜK MƏSCİDLƏR
## VIII

1. Sərşəhr məscidi
2. Şoturləngə məscidi
3. Əngəc məscidi
4. Mingis məscidi
5. Yəhya bəy məscidi
6. Kürdətal məscidi
7. Yuxarı Ənbaras məscidi
8. Came məscidi

## KİÇİK MƏSCİDLƏR

1. Həkim məscidi
2. Hacı Sadıq məscidi
3. Ağa Lətif məscidi
4. Şükür bəy məscidi
5. Fəqrə məscidi
6. Boyaqçılar məscidi
7. Molla Lütfəli məscidi
8. Məzzələtdin məscidi
9. Bazar məscidi
10. Başmaqçı bazar məscidi
11. Hacı Molla Hüseynin məscidi
12. Balabəy məscidi
13. Hacı Əli məscidi
14. Pireyvəz məscidi
15. Aşağı Anbaras məscidi
16. Mirzə Baxşı məscidi
17. Çayüstü məscidi
18. Qarahovuz məscidi
19. Yetimlər məscidi
20. Naharbaşı məscidi
21. Hacı Əbutalıb məscidi
22. Bala Ağa məscidi
23. Dilbər məscidi

Bunların bir çoxu əyanların özlərinə məxsus məscidlərdir. Burada gündüzləri müəllim uşaqlara dərs verərdi. Gecələr isə tanışları yığılıb söhbət edərdilər.

QOÇULAR VƏ ADAM ÖLDÜRƏNLƏR

1. Teymur Ələsgər oğlu
2. Musa Qulu oğlu
3. Məhərrəm başmaqçı
4. Məmməd Hüseyn xərrat
5. Kəblə İsgəndər çayçı
6. Məşədi Müseyib Həsən oğlu
7. Məşədi Cavad Varsanlı
8. Qəssab Məşədi Hüseyn
9. Nəzər Şturləngəli

**Seyidlər və onların gəzib seyid malı topladığı mahallar:**

1. Hacı Mir Haşım ağa - (Zəngilan, Mincivan tərəflərini gəzirdi)
2. Mir Məmmədağa (Ağ seyid) - Sisyan mahalını
3. Mirmahmud ağa - Ordubadı, Yuxarı Əndəmiç kəndini
4. Mir Mehdi ağa -Yəhya bəy məscidində para toplar və xalqı bazarda döyüb pul alardı.
5. Mir Mühid ağa – Yaycı kəndini, Aşağı Aza kəndini
6. Mir İsmayıl ağa-Sumbatan və Qoşadizə kəndini
7. Mir Yusif ağa (div ləqəbli) – Yuxarı Dizə, Vənənd və s.
8. Seyid Mir ağa – Qarabağ
9. Seyid Kazım Çavuş – Ordubad
10. Mir Tüca – Bist və Tivi mahalını
11. Kilsə seyidi – diləncçi idi
12. Mir Adil (seyidliyi davalı idi)
13. Mir Mövsüm (seyidliyi davalı idi)
14. Nalbənd seyidlər – Yuxarı Dizələr
15. Bala ağa – Cəhri kəndi
16. Mir Rasul – Kilit, Kotam kəndləri
17. Mir Sadıq – Yaycı və Kərimqulu Dizə

Çox qəribə burasıdır ki, Ordubad seyidləri Ordubad mahalını öz aralarında lazımi qədər təqsim etmişdilər. Bu seyid gedən kəndə o biri seyid daha getməzdi.

1883-cü ildə çar hökuməti nigah və talaq işinə müdaxilə etdiyi vaxt, Mir Müfid ağa «məmləkəti küfr tutdu, daha burada yaşamaq olmaz», - deyə öz ailəsi ilə yığışıb, Xorasana getdi. Onu yola salmaq üçün Ordubad şəhərinin xalqı və kəndlərdən gələnlər üç gün tamam məscidlərdə və küçələrdə vaxtlarını keçirdilər. Üç gün bütün dükanlar bağlandı. Ağanı 10

minə qədər kəndlilər və şəhərlilər yola saldı. Ağaya o zamanın pulu ilə 20 min manat nəzir verdilər.

### Şəhərin məzhəkəçi və zarafatçı adamları

1. Mirzə Əbdül Kərim
2. Abbas Hacı Tağı oğlu
3. Məmməd Əli Hacı Tağı oğlu
4. Hacı ağa Abbas oğlu
5. Həsən dəyirmançı Rəcəb oğlu
6. Həsən Əli Nadir oğlu
7. İdili Haşım
8. Həsən Məşədi Məmməd oğlu
9. Bic Həsən

### Şəhərin həkimləri

1. Fətəlibəy həkim
2. Hacıbəy həkim
3. Mirzə Fəttah həkim

### Mərsiyəxanlar

1. Hacı Molla Hüseyn tacir
2. Hacı Rasul tacir
3. Hacı Molla Rasul tacir
4. Molla Cabbar
5. Məşədi Haşım
6. Molla Məcid
7. Molla Ağa
8. Mir Yəhya Ağa Seyid oğlu

### Ordubadda ləqəblər

1. Zəvvarbaşı Kəblə Yusif
2. Şəhrəbanı oğlu Hüseyn
3. Nənəxanım oğlu Abbas
4. Şafar oğlu Hacı
5. Şəkərin oğlu Hüseynalı
6. Cingiş Əhməd
7. Şair Hacı Ağa

8. Ərbab Rzaqulu
9. Soltan Ağababa
10. Atlı Məşədi Həsən
11. Şatır Məmməd Həsən
12. Hamamçı Əli
*13. Şatır Yusif -*
*14. Saldat Hüseynəli -*
*15. Andıro ofiserMəşədi Abbas -Bunlar bir qardaşdırlar*
*16. Toyuq Həsən -*
*17. Cücə Rza -*
18. Şahsənəm oğlu Tağı
19. Qaz Hacı
20. Təxtirəvan Məşədi Kərim
21. Ayı Məmməd
22. Rişli Cabbar
23. Dəllək Baxşı(vəkilidi)

Ordubadda ləqəbsiz adam yox idi. Hər kəsi bir adama tanıtdırmaq üçün onun ləqəbini deməli idilər. Hələ qadınların ləqəbləri daha maraqlı idi. Çünki bu ləqəblər qadınların xasiyyətindən və simasından alınmışdı.

**Qadın ləqəbləri**

1. Cibdi Fatma
2. Nərdivan Sara
3. Güdül Rüxsara
4. Çığırqan Püstə
5. Atbalaxanım
6. Keçəl Tutu
7. Diliuzun Şokət
8. Dılğır Güllü
9. Qazı Fatma (mərsiyəxan idi)
10. Sözbaz Nazan
11. Cin Xanım
12. Dəllal Mələk
13. Zırtı Sadat (əri həllac olduğu üçün bu ləqəbi vermişdilər)
14. Qız Tutu (bunun qardaşı bic Məmi idi. O, bacısının ərə getməsini namussuzluq bilirdi. Qız 75 yaşında öldü).
15. Sarı Gülsüm
16. Ağzısulu Xiyran
17. Kəlfirdiş Suğra və s.

**Ərzağın qiyməti**

Buğda – 75 qəp.
Arpa 46 – qəp.
Süd – 45 qəp.(pudu)
Pendir (təzə) – 1 manat 60 qəp.
Qatıq – 80 qəp.
Yağ – 6 manat
Bal – 18 qəp. (girvənkəsi)
Ət (qoyun) – 8 qəp. (girvənkəsi)
Keçi əti – 5 qəp. (girvənkəsi)
Öküz əti – yalnız saldatlar üçün satılırdı. Budu 2 manat 50 qəp.
Qaymaq – 10 qəp. (girvənkəsi)
Qənd – 17 qəp. (girvənkəsi)
Çay – 50 qəp. (girvənkəsi)
Kibrit – ikisi 1 qəp.
Sabun – girv. 10 qəp.
Yumurta – ikisi 1 qəp.

Yuxarıda göstərilmiş ərzağın ucuzluğunu nəzərə almayaraq, şəhərdə dilənçi həddindən artıq idi.Xalqda alıcılıq imkanı olmadıqda şeylərin qiyməti ucuzlaşırdı. Məsələn, Cəfər və Zəki kimi dilənçilər meyvə ilə dolu olan şəhərdə yerə atılmış alma və heyva köşəyi ilə yaşayırdılar. Qovun vaxtı gəldikdə onlar bayram edərdi. Yerə atılan qovun toxumları və qarpız qabıqlarını yığıb yeyərdilər. Fəqirlər, dilənçilər saf meyvə yemək istəsəydi oğurluğa getməyə məcbur idi. 1877-ci illərdə şiddətli bahalıq olduğundan camaatın bir çoxu dağılmışdı. Hələ o zamandan bəri törəmiş dilənçilərin nəsli bu son illərədək yaşayırdı. Çünki şəhərin bütün gəliri 4-5 nəfərin əlində olduğundan, aşağı təbəqənin dirçəlməsinə imkan yox idi. Hələ bağ sahiblərinin 4-5 nəfər quru mal (xoşkibar) tacirlərinə əsir olduğu və mallarını ən aşağı bir qiymətə satmağa məcbur olduğu da burada qeyd edilməlidir. Məsələn, bütün şəhərin quru malı 4 adama baxırdı:

Hacı Məmmədəli Kərim oğlu (Utu Kərim oğlu)
Hacı Qasım (Eşşək Məmmədin oğlu)
Ağa Muxtar (Balyeməz Muxtar)
Məşədi Qulam Əli (Hacı Qulam Əli oldu)

## KƏNDLİLƏR VƏ MÜLKƏDARLAR

Ordubad kəndlərindən bir çoxu ağalıqdır. Ağaların kəndlilərdən vergi almaq qanunları tamamilə İranda olduğu kimi idi. Taxıl və yaxud pambıq

vaxtı ağanın adamları tarlanın kənarına gəlib, onu gözdən keçirib və ondan nə qədər məhsul çıxacağını təxmini olaraq yazır. Kəndli o hesabdan ağanın vergisini verməyə məcburdur. Çox vaxt təxmini məhsul təyin edənlər kəndli ilə düşmən olduğu, yaxud rüşvət ala bilməsi səbəbindən 50 pud pambıq verə biləcək tarlaya 100 pud məhsul yazırlar. Nəticədə kəndli bütün topladığı pambığı ağanın vergisinə verib, əliboş qalırdı. Bunun kimi də arpa, buğda məhsulu idi. Kəndlilərdən bir çoxu qəlbir və şana götürüb evinə boş getməyə məcbur olurdu. Buna görə 1885-ci ildən başlayaraq, Ordubad kəndlərində mülkədarlara qarşı hərəkat başlandı. Bu hərəkat birinci kərə Dəstə kəndində Hacı Əbutalıb vərəsələrinə qarşı başlamışdı. Onlar bu ixtilafı yatırmaq üçün güzəştə getdilər. Məhsul götürüldükdə onlar öz adamlarının nəzarəti altında olaraq, hazır olan məhsulu gözdən keçirib vergilərini aldılar. Eyni hərəkat həmin ildə Yaycı kəndi sahibi Məmməd xana qarşı başlanmışdı. Lakin o, Dəstə kəndi sahibləri kimi güzəştə getmək istəmədi. Hərəkat böyüdü, xanı kənddən qovdular, o, yığışıb Ustupu kəndinə getdi. Vergi vermədilər. Məmməd xan iflas dərəcəsinə gəlmişdi. Nəhayət, hökumət hərəkatın başında duranları cəzalandırdı və Məmməd xanın istədiyini kəndlilərə qəbul etdirdi. Bu məcburiyyətə baxmayaraq, kəndlər hökumət hesabına götürülənə qədər yenə də bu hərəkat davam edirdi.

Kəndlər hökumət hesabına götürüləndən sonra kəndlilərlə ağalar arasında daha ciddi mübarizə başlamışdı. Çünki kəndlilərin torpağının böyük hissəsi yenə də ağa torpağı namı ilə mülkədarların əlində qalmışdı.

Təsərrüfat qüvvəsi yüksək olan və arxasında hökumət görən köhnə ağalar kəndliləri istədiyi kimi boğurdu. Xüsusən, kəndin suyunu zorlayıb alırdılar. Hökumət heç vaxt kəndlilərin şikayətinə baxmır və köhnə ağaların qarşısını almırdı. Ağalar təzədən kəndlilərin torpaqlarını almağa başladı. Bununla da hökumət hesabına alınmış kəndlər parça-parça ağalara satılırdı. Çünki kəndlilər onlarla mübarizə apara bilmirdilər.

## ORDUBUDDA İKİ ÜSULDA MƏKTƏB

## X

İsmayıl bəy Qasprinski Baxçasarayda yeni məktəb kitabları çap edib, «Üsuli-cədid» deyilən təzə üsulda məktəb açılmasına başlamışdı.Ordubad tərəqqipərvər əyanları, xüsusən varlılardan bəziləri Ordubadda bu kimi məktəbin açılmasına çalışırdılar. Çünki qonşu ermənilərdə bu kimi məktəblər çoxdan açılmışdı. İşin başında Hüseyn Soltan Kəngərlinski idi. Hüseyn Soltan çox varlı mülkədar idi. Dizə kəndi və Dəstə kəndinin çox hissəsi Hüseyn Soltanın əlində idi. Bundan əlavə, ticarət edər və pul müa-

miləyə verərdi. Hüseyn Soltan ermənilərlə çox böyük mübarizə aparırdı. Hər bir şeydə onlarla müsabiqəyə başlardı. Onun bu məktəbi açması da həmin mübarizə ilə əlaqədar idi. Hüseyn Soltan tərəfinə ziyalılardan və xırda varlılardan bir çoxunu toplamışdı. Kupeç Əhməd İsmayılov və Hüseyn Mirzə Xəlil Salehzadə, Soltan Hacıbəyzadə, Əsgər Hüseynzadə və sairləri məktəbin rəhbərləri sayılırdı.

Birinci kərə olaraq, Ordubad məktəbli çocuqları 1895-ci ildə skamya üstündə oturub dərs oxudular. Məktəb üçün müəllim axtarırdılar. O vaxtlar Ordubad şairlərindən Məmmədtağı Sidqinin çayçı dükanı var idi. O, gənc vaxtından İran səyahətində olduğu, hətta Səbzivar şəhərində yaşadığından farsca, ərəbcə, türkcə, savadı var idi. Bütün şairlər onun dükanına toplaşırdı. Məmmədtağı Sidqi məktəbə müəllim təyin edildi. Məktəb əski üsulda dərs keçilən zöhruddövlə[1] İbrahimxanın mədrəsəsində açılmışdı. Məktəbi açan Hüseyn Soltan öz cibindən bir qəpik də olsa, məktəbə sərf etmirdi. Məktəb xalqın hesabına saxlanırdı. Hüseyn Soltan belə bir qərar qoymuşdu. O, camaatın aldığı hər bir ticarət malından məktəbin nəfinə bir faiz götürərdi. Faizə verdiyi adamlardan da məktəb nəfinə pul alırdı. Bunun üçün də məktəb lazımınca təmin olunurdu. Bu məktəbdə inqilabi bir ruh var idi. Məktəbə daxil olan bu inqilabi ruh Rusiya və Qafqaz yolu ilə deyil, İran yolu ilə daxil olurdu. Müəllim Sidqi Misirdə «Pərvəriş» və sair qəzetləri İran təriqi ilə gətirirdi. Bunlardan əlavə, Təbriz ilə ticarət edən Əsgər Hüseynzadə oradan əcnəbi qəzetləri gətirib məktəbə verirdi. Məktəbin inqilabçılığı İran azadlığı üzərində başlamışdı. Çünki xaricdən gələn qəzetələr tamamilə İran azadxahları, məsələn: Mirzə Əli Məhəmmədxan Kaşani, Əliqulu xan Əxtər və bu kimiləri tərəfindən nəşr edilirdi.

Məşədi Əli Əsgər Hüseynzadə, Təbriz inqilabçılarından Hacı Əli davaçı, Siqqətül-İslam, Tağızadə ilə əlaqədar olduğundan o məktəbdə inqilabi ruhun yayılmasına daha artıq xidmət edərdi. İnqilabi duyğular İran ruhunda gedirdi. İbrahim Əbilov yoldaş ilə mən ən birinci sırada otururduq. Sidqi bizə çox əhəmiyyət verirdi. İmtahanlarda, yaxud məktəbi görməyə gələnlərin yanında oxumaq üçün əvvəlcə bizə söz verilirdi. Hökumət məktəbə böyük diqqət verirdi. Hər ayda bir neçə dəfə pristav məktəbi tamaşa etmək bəhanəsi ilə gəlib oradakı vəziyyəti öyrənməyə çalışardı. Ara-sıra Naxçıvan uyezd naçalniki də öz mütərcimi Mirzə Əliqulu ilə bərabər məktəbə gələrdi.Xüsusən mollalar məktəblə çox mübarizə aparırdı. Mübarizə aparanların başında Hacı Mirmahmud dururdu. Onlar təzə üsulda açılan və dərsləri türkcə gedən məktəbin mədrəsədə yaramadığını söyləyib binanı təmizləməyi tələb edirdilər. Məktəbin müəssisi Hüseyn Soltan isə buna heç

*1. Mədrəsə Nadir şahın əsrində tikilmişdi. İbrahimxanın nəvələri Ordubadda yaşayırlar. (Müəllifin qeydi)*

də əhəmiyyət vermirdi. O, mollaların hər bir təşəbbüsünü rədd edirdi.

Hökumət məktəbin proqramını gözdən keçirib, orada dini dərslərin artırılmasını təklif edirdi. Xüsusən türkcə çıxan dini kitablardan dərs verilməsini tapşırırdı. Hüseyn Soltan bunun ziddinə getmirdi. Məktəbdə Axund Əbdülsəlam şeyxül-islamın yazdığı «Zübdətül-əhkam» və rus misionerləri tərəfindən düzəlmiş «Vətən dili» adında ibtidai dərs kitabları keçilirdi.

Üsuli-din, firui-din və başqa dini dərslər verilirdi. Qurandan dərs verilmirdi. Bu barədə də edilən etirazları Hüseyn Soltan rədd edirdi. Məktəb mənfəətverici məktəb idi. Burada elmi-hesab, coğrafiya, tarix, ədəbiyyat, hüsnxətt dərsləri birinci yeri tuturdu.

Mən bu məktəbdən artıq qalan vaxtlarımı mədrəsədə sərf-nəhv, məntiq dərslərini oxuyub, ərəbcə və farscanı öyrənirdim. Məktəbin dörd il davamından sonra Ordubadda şiddətli vəba xəstəliyi düşdü. Məktəbin müəssislərindən Hüseyn Soltan və Hüseyn İsmayılov ikisi də bir gündə öldülər. Bunlardan sonra Salman Əsgərov məktəbi yalnız bir il davam etdirə bildi. Sidqi maaşsız qaldı. Onu naxçıvanlılar çağırıb Naxçıvana apardılar.

Ordubad məktəbinin müəllimi, istərsə də onun rəhbərlərindən bir neçəsi dinçi deyildilər. Buna baxmayaraq, dini dərsləri məktəbin proqramından çıxara bilmirdilər. Birinci olaraq Ordubadda bu məktəbin uşaqları şərqi oxuyurdular. Şərqilərdən birisini Sidqi özü yazmışdı:

Əcəb xoşbəxt olur hər kəs, tuta məva bu məktəbdən,
Bir az vaxtda kamallana, olur dara bu məktəbdə.

Bundan başqa, Hafizin də şərqi havalarına uyğun qəzəllərindən oxuyurduq:

Çəndanke qoftəm ğəm batəbiban,
Dərman nəkərdənd, məskini-qəriban.
Hafez, nəgəşti, rusvayi-giti
Gər mişənidi, həndəz ədiban[5].

Bundan əlavə, uşaqlara dini mahnılar da öyrədilirdi. 1899-cu ildə böyük vəba xəstəliyi zühur etdiyi vaxt bütün şəhər qəbristanda müsəllaya çıxmışdı. Uşaqlar da sıra ilə mahnı oxuyaraq qəbristana getmişdi. «Bizi bu barədə zari-pərişan eyləmə, yarəb!» kimi sözlər oxunurdu.

## MƏN İPƏK ZAVODUNDA
## XI

Mən 1901-ci ildən Rzayevin zavodunda çalışırdım. Bu zavodda çalışmaq üçün əməkçilər çox çalışırdı. Çünki Rzayev ipək ticarətində öz rə-

qiblərinə qalib gəldiyindən onun zavodu bütün ili işləyirdi. Hər yerdən yaxşı barama gəlirdi, hamısını Rzayev almalı idi. Onun bir sözü iki olmazdı. Həmin bu ildə Ordubad hammalları başda kor Bağır olmaq üzrə Rzayevi baykot etdilər. Onun baramasını daşımaq istəmədilər. Çünki o, həm az para verirdi, həm də onun adamları hammalları adam yerinə qoymayıb söyürdülər. Nəhayət, pristav Filipovu çağırıb, hammalları döydürdü. Onlar baykotdan əl çəkdilər. Bu, birinci hərəkat hesab olunurdu. İndiyə qədər hammalların varlı əleyhinə çıxdığı görülməmişdi. Rzayev çox böyük istismarçı idi. İşi illik olduğundan bütün əziyyətlərə dözməyə məcbur olurduq. Cümə günü tətillərini belə onun bağından zavod üçün ağac daşımağa məcbur olurduq.

Zavod işçiləri bu istismarın ağırlığını hiss etmirdilər. Rzayev çox mahir bir istismarçı idi. O, hər ayda zavod işçilərinə bir kərə öz bağında qonaqlıq verərdi. Qonaqlıq 50 manatdan artıq olmazdı. Bunun əvəzində işçilər gündə bir saat artıq işləməyə razı olurdular.

Bu barədə mən bir şeirdə yazmışam:

Qorxuruq küləkdən, qorxuruq yeldən,
Ruzumuz asılmış incə bir teldən.[1]
İşə çağırarlar ulduz batmamış,
İşdən buraxmazlar şəhər yatmamış.

Mən 1904-cü ilə qədər Rzayevin fabrikində çalışdım. Zavod işçiləri ilə etdiyim söhbətlərin birinci nəticəsi məni çox sevindirdi.

Rzayev təzə imarət tikdirməyə başladığından bir çox ağac almışdı. Cümə axşamı işdən çıxana bir az qalmış ustabaşı Nağı bizə xəbər verdi ki, sabah işləməyəcəyiz. Səhər saat 9-dan zavodun qarşısında toplanın. Fərəcovun çay bağından kəsilmiş ağacları gətirməyə gedəcəyik. İşçilər heç bir söz demədən çıxıb getdilər. Səhər saat 9-da mən Dalıcarsudan gəlib zavod qabağına baxmağa başladım. Fəqət, ağac gətirməyə dördcə nəfər gəlmişdi.Rzayev məndən şübhəyə düşmüşdü. Mayın axırlarında Əylis tacirlərindən və şair maraqlısı olan Abbasqulu Rəhimov tərəfindən mənə göndərilmiş «Şərqi-Rus» qəzetəsini zavodda oxuduğum yerdə ustabaşı Nağı gəlib onu aldı və cırıb atdı. Bu, mənə qarşı olan birinci çıxış idi. Lakin burası məni daha da həvəsləndirdi. Mən 1904-cü ilin noyabr ayında birinci şeirimi «Şərqi-Rus» qəzetəsində çap etdirdim. Burası mənim üçün bir müvəffəqiyyət olmuşdu.

1. *Tərcüməsi: Təbiblərə qəmimi nə qədər danışdım,*
*Miskin qəriblərə dərman etmədilər.*
*Hafiz! Dünyada rüsvay olmazdı,*
*Əgər ədiblərdən nəsihət eşitsəydin. (Müəllif)*

Gözüm, dur xabi-qəflətdən, çıxıb gün aşkar oldu,
Behəmdullah, şəbi-yelda gedib nisfün-nahar oldu.
Dolubdur səfheyi-aləm şüayi-«Şərqi-Rus» ilə,
Qaranlıq könlümün zülmət sərasir Zərnigar oldu.

Şeirim «Şərqi-Rus» qəzetəsində çıxdığı vaxt fabrika sahibi Rzayev qəzetəni gətirib fabrikada mənə göstərib dedi:

- Çox şadam ki, Ordubaddan da qəzetəyə yazan vardır. Lakin fabrika sahibinin razılığına baxmayaraq, mən 4-cü ilin payızında fabrikadan qovuldum. Payız girdikdə maaşları 40% azaltdılar. Mən, bir də Baxışın oğlu Yusif ustaların tərəfindən nümayəndə sifətilə maaşların artırılması üçün Rzayevin yanına getdik. Sözümüz qəbul edilmədi. «Zavodu bağlamaq lazımdır. İpəklər Moskvada ucuz satılır» deyib bizi qaytardı.

Bir gün sonra mən işdən çıxdıqda ustabaşı Nağı mənə yaxınlaşıb: «Sabah get haqq-hesabını kontordan al!» -deyə mənim qovulduğumu xəbər verdi. Bu kimi bir xəbər Yusif üçün də verilmişdi. Lakin onun qolu zorba qohumları vasitəçi düşüb işini düzəltdilər.

Rzayev mollaların düşməni idi. Onları görmək istəməzdi. Onun anası öldükdə Ordubad mollaları basdırmağa getmədilər. Kəndlərdən molla gətirdi. Bu iş qubernatora yazıldı. Mollaları çağırıb həbs ilə qorxutdular.

Mən həmən payızı Fərəcovların ipək zavodunda çalışmağa məcbur oldum. Bunlar çox ucuz işlədirdilər. Gündə 20 qəpik verirdilər. Hər gün Abdulla adlı işçi bazara gedib işçilərin 20 qəpiyini Hacı Mahmuddan alırdı. Onun 4 qəpiyini nahar çörəyinə verib gətirir, 16 qəpik pulu da qabağına qoyurdu. Günlərin birində bazarçı pulları alıb itirdi. Haman günü bütün işçilər ac və pulsuz çalışırdılar.

1905-ci illərdə yeznəmizin vasitəsilə onun qohumu olan Ərəbovun ipək zavoduna daxil oldum. Burada işləmək çox çətin idi. Sabah azanı çəkiləndə işə gəlmək lazım idi. Hacı Kərimin özü azan deyilən kimi ağ tuman əynində olaraq zavodun qapısında durub işə gec gələnləri söyərdi. Onun ümumi söyüşü bundan ibarət idi: «Allahın lənəti gözünə toxunsun!».

Hacı Kərim başqa zavodlara nisbətən daha da istismarçı idi. Bu, işçini həm çox işlədər, həm az maaş verər, həm də hesabına artıq yazardı. Mənim hesabıma görə zavod bağlananda Hacı Kərimdən 6 manat yarım pul almalı idim. Bu pulu qoyun alıb qış üçün qovurma hazırlamaqdan ötrü yığmışdım. Zavod bağlanandan sonra haqq-hesab almağa getdikdə 2 manat yarım borclu çıxdım. Hacı isə «bunu da gələn ilin maaşından çıxarız»- deyib məni yola saldı. Hacı Kərimdən umudumu kəsəndən sonra Hacı İsmayıl Nağıyevin zavodunda çalışdım. Bu adam haqq-hesabına düz idi. Danışdığı puldan kəsməzdi. Amma bunu da demək lazımdır, hər yer-

dən qovulan işsiz və ac qalan bunun zavoduna gəlirdi. Bu zavodda yayda 12 saatlıq iş günü olmaq şərtilə yuxarı maaşlar 10 manatdan ibarət idi. Qış və payız maaşları 4 manat yarım, 5 manatdan ibarət idi.

Hacı İsmayıl çox qənaətcil idi. Kibritləri yarı bölmək üçün xüsusi puçağı var idi. Qardaşı Hacı İbrahim öldükdən sonra «qadınlar irs aparmasınlar» - deyə onun da iki qadınını aldı. Anası da sağ idi. Qardaşının iki, özünün də bir qızı var idi. 9 nəfərlik ailə üçün gündə 600 qram ət alan bu Hacı işçiləri daha da ucuz işlətmək üçün vasitələr tapardı.

## QƏFLƏT
## XII

«Şərqi-Rus» qəzetəsində şeirlərim çap olunduqdan sonra mənim şeirə və yazıçılığa olan marağım gündən-günə çoxalırdı. Dördüncü illərdə «Qəflət» adlı əsərimi yazırdım. Əsər 6-cı ilin yanvarında Tiflisdə açılmış «Qeyrət» mətbəəsində çap olundu.

«Qəflət» əsərində mollalardan, müsəlmanların elmsizliyindən bəhs etdiyim bir səhifədə:

Səd heyf ki bu xəlqi-dəmi vermədi fürsət
Sözdən götürdüm pərdəni kəşf olsun həqiqət –

yazıldığından Ordubad mollaları mənim bəhayiliyi «təbliğ etdiyimi» məscidlərdə camaata deməyə başladılar. Hacı molla Əli Dəstəqi «Qəflət» əsərini əlinə alıb Yəhya bəy məscidində mənbərə çıxdı və yuxarıda göstərdiyim iki misranı oxudu. Ağ Seyidin oğlu Mir Yusif Cümə məscidində, Mir Mürtəza Vaiz isə Mədrəsə məscidində bu şeirimi əldə alət edib küfrümə fitva verdilər.

Bu vaxt məhərrəmlik ayı idi. Mən məscidə getmirdim. Lakin anam və yeznəm məni tənqid edirdi. Onlar da mənim dindən çıxdığımı və bahayi olduğumu deyib məni məzəmmət edirdilər. Mən onları heç vəchlə sakit edə bilmirdim. Onlar mən dediyimi anlamırdılar. Bəzən anlamaq da istəmirdilər. «Hərgah deyilənlər doğru deyilsə, nə üçün məscidə getmirsən?» - deyə məhərrəmin altıncı gecəsi məcburən Mingis məscidinə apardılar.

Mən Məşədi Cəlil adlı bir nəfər ilə yan-yana oturmuşdum. Bu adam şair Sidqinin yeznəsi idi. O qədər də avam deyildi. Mənə nifrət etmirdi. Biz danışdıq. Bizim qarşımızda məşhur qolçomaq Mirağa oturmuşdu. O, mənim üzümə ciddi bir surətdə baxırdı. Mən üzümü yenicə təraş etdirmişdim. Nəhayət, Mirağa danışdı: «Səid, o bığların, saqqalın hanı?» - deyə soruşdu. Cavab vermədim. Bu zaman məscidin qulluqçusu və azançısı Məşədi Əkbər çay paylamağa başladı. Əvvəlcə Məşədi Cəlilin qabağına çay qoyub mənə çay vermədən keçib ikinci stəkanı miskər Əsgərin oğlu

Allahverdinin qabağına qoydu. Mən məsələni anladım. Məni murdar bildikləri üçün çay verilməməsini Məşədi Əkbərə tapşırmışdılar. Məşədi Cəlil: «Səidə nə üçün çay vermədin?» - dedikdə o: «Səid çay içmişdir» - deyib keçdi. Mən Məşədi Cəlili sakit etdim. Nəhayət, məclis qurtardıqda məscidin xəlfəsi Dana Kərimin oğlu Hüseyn mənə yanaşıb bir daha məscidə gəlməməyimi tapşırdı. Söz yoxdur ki, bu onun öz sözü deyildi. Onu yenə də Seyid Mirağa ona tapşırmışdı. Bu vaxt mən özüm üçün əyləncə yeri tapmışdım. Daha gecələri məsciddə keçirməyə ehtiyac yox idi.

Kiçik bir cəmiyyət düzəltmişdik. Cəmiyyətin üzvləri Mirzə Sadıq, Mirzə Salman, Mirzə Əsgər oğlu Məmməd, Məşədi Əsgər Həsənzadə, Mirzəxəlil Salehzadə və sairlərindən ibarət idi. Bu cəmiyyətin işləmək və yığıncaq yeri də yox idi. Nəhayət, Miradilin evlərində kiçik bir qiraətxana düzəltdik. Buna icazə verilmirdi. Lakin pristav Terpelovski bu cəmiyyətə tərəfdar olduğundan qiraətxananın açılmasına yardım verdi. Biz «Naşa ciznğ» və sair inqilabi qəzetlər alıb oxuyurduq. Terpelovski bizə 5-ci il inqilabının gedişi haqqında həftədə bir kərə söhbət edirdi. Hökumətin inqilabı boğmaq haqqındakı gizli qərarlarını və polis idarələrinə verilən təlimat haqqında da bizə danışırdı.

O, bizə sosial-demokratların çap etdirdiyi əsərləri də verirdi. Məşədi Əsgər Hüseynzadənin Təbriz ilə əlaqəsi olduğundan oradan əcnəbi qəzetləri də gətirirdi.

Cəmiyyət üzvlərinin heç birisi sosialist deyildi. Biz doğrudan da Marks tərəfindən aralığa atılmış bu geniş fikri əhatə edə bilmirdik. İçimizdə sosialist bircə Terpelovski idi. Bizim bütün mühakimə və düşüncələrimiz millətçilik ətrafında dolaşırdı. Bu vaxt erməni-müsəlman qırğınları hər tərəfdə şiddət edirdi. Şəhərin ətrafında hər gün ölüm və qarət hadisələri üz göstərirdi. Pristav Terpelovski bu qırğınların mahiyyəti və hökumətin bu qırğında iştirak etməsi haqqında inandırıcı bir surətdə məruzələr edirdi. Buna görə də ermoni-müsəlman qırğını Naxçıvana nisbətən Ordubad mahalında o qədər də genişlənmirdi. Çünki vaxtında işin qabağı alındı və qırğın salmaq istəyənlər həbsə alındılar.

Çox sakitlik keçirdi. Buna baxmayaraq, general Əlixanov (Məsudbəy Avarski) 400 kazak ilə Ordubada gəldi. Rzayevin evində qonaq oldu. Dırnıs və Unus kəndliləri gəlib qonşu ermənilərdən şikayət etmək üçün Rzayevin balkonunun altında toplandılar. Əlixanov balkona çıxdı. Kəndlilər sözlərini dedi, şikayətlərini qurtardı.

Mən Əlixanovun nə deyəcəyi ilə maraqlanırdım. Nəhayət, o, sözünü belə başladı:

«Aciz köpək uşağı! Mən dört yüz kazakı kimin üçün gətirmişəm?! Da-

lımca Kərbəlaya qədər gəlmiş olsanız, yenə bircə söz deyəcəyəm. Birinizi öldürsələr, beşini öldürün!»- deyib içəri girdi. Camaat dağılıb getdi. Biz bu vaxt pristav Terpelovskinin bütün dediklərinin bir həqiqət olduğunu bir daha anladıq.

Erməni-müsəlman qırğınından sonra Ordubada çox qəzetlər gəlməyə başladı. Miradilin mülkündə açılmış qiraətxananın yanında bir də dərnək təşkil olundu. Bura toplananlar üçün qəzetlər oxunurdu. «Hümmət», «Yoldaş», «Təkamül», «İrşad», «Nur» «Həblül-mətin» və sairə qəzetlər gəlirdi. Burada yavaş-yavaş hektoqrafiya üsulu ilə vərəqlər də çap olunurdu. Qəzet oxumaq işinə yerlilərin həddindən artıq rəğbəti var idi. Poçta gələn vaxtı bütün işçilər, hətta bağbanlar da bilirdi. Onlar bu vaxtları İbrahim çayçının dükanının qabağında əyləşib qəzeti dinləyirdilər. Burası rota komandiri Prixniyanın diqqət-nəzərini cəlb etdiyindən bu üsulda qəzet oxumağı, xüsusən , xalqı inqilabçı qəzetələrlə tanış etməyi qadağan etmişdi. Şəhərin mollaları da bundan geridə qalmırdı. Hələ 1906-cı ildə mən İsgəndər bəyin qızını basdırmaq üçün İsgəndərbəygilin evində oturduğum vaxt yavaşca cibimdən qəzetəni çıxardıb baxdım. Bunu tez Yusifağa gördü. «Xalqın ölüsünü hörmətsiz etmə!» - deyə məni məzəmmət elədi.

## 1905-ci il İNQİLABINDAN SONRA
## XVIII

Beşinci il inqilabının boğulması və əslində bu inqilabın nə məqsəd daşıdığı işləri mənim fikrimdə ciddi bir təsir buraxmışdı. Mən özüm də millətçilik, məzhəb, dini əqidə işlərinin söndüyünü hiss edirdim. Lakin yenə də məndə sosializm fikri doğmamışdı. Mən bu zamanlar özümü tamamilə bir vətənçi kimi hiss edirdim. Mən çar hökumətinə qarşı belə bir fikir yürüdürdüm: «Qanuni-əsasi verilməsi və Qafqazın istiqlaliyyət alması». Bu fikir üçün də sünni-şiə məsələsinin həll olunması və vahid bir qüvvətlə də çar hökumətinin Qafqazdan dışarı atılmasını təklif edirdim. Bu zamanlar mənzum olaraq «inqilabi-pərişan» adlı bir əsər yazdım. Faiq Əfəndi vasitəsilə təbb olunmaq üçün Tiflisə göndərdim. Senzor müavini Mirzə Yəhya Şərifzadə alıb yandırdı. Mən bunun təsiri ilə də «Vətən və hürriyyət» adlı mənzum əsərimi yazmağa başladım.

Əsər 7-ci ildə Tiflisdə «Qeyrət» mətbəəsində təbb edildi. Senzor mane olmadı. Sonradan jandarm rotmistri Pepel Ordubada gəlib evimizi axtardı və məni həbsə aldı.

Lakin bu həbsim evimdən aparılan kağızları gözdən keçirib qurtarana qədər davam etdi.

Jandarm evi axtarmaq üçün gəldikdə pristav Terpelovskini də özü ilə bərabər almışdı. Onlar içəri girən kimi sandığın dalında revolver və İran inqilabına dair intibahnamələr olduğunu pristav Terpelovskiyə işarə etdim. Ona görə də pristav haman sandığın üstündə oturub axtarış qurtarana qədər ayağa qalxmadı. Evdən bir şey çıxmadı. Lakin ev axtarıldıqda Aşura günü olduğundan, evimizin məscidin yaxınında bulunduğundan qapımıza yüzlərlə camaat toplanmışdı. Bu axtarışı cürbəcür təbir edirdilər. Bəziləri saxta para xərc etdiyimi və hökumətin bundan xəbər tutduğunu deyib danışırdı.

Oğurluq mal aldığımı deyənlər də var idi. Ancaq ümumi söhbət və ümumi fikir bundan ibarət idi: «İmam Hüseyn qəzəb eylədi!»

Məni bu səslərin içərisində evdən çıxarıb polis idarəsinə apardılar. Dalımca qorxusundan bir nəfər də olsun gələn olmadı. Ancaq polis dairəsindən buraxıldıqda kefdar Əlzünzünün tələbəlrindən Firuzbəy Ordubadski və Mirhidayət Seyidovun yolda durub məni gözlədiklərini gördüm. Onlar Ordubada jandarm gəldiyindən və məni axtardıqlarından, həm də azad olduğumdan şadlanırdılar. Çünki onlar bununla Ordubadın siyasətlə məşğul bir şəhər olduğunu zənn edir və fəxr edirdilər.

Bu vaxtlar mən bir tərəfdən Bakıda çıxan «İrşad», «Tərəqqi», «İttifaq» qəzetlərində, o biri tərəfdən «Molla Nəsrəddin» məcmuəsində ciddi bir surətdə yazırdım. «Molla Nəsrəddin»də birinci olaraq «Hərdəmxiyal» imzası ilə yazırdım. Mənim «Molla Nəsrəddin»də ciddi iştirak etməyimin mühüm səbəblərindən birisi də mənim Faiq Nemanzadə ilə tanışlığım idi. Faiq Əfəndi «Qəflət» və «Vətən və Hürriyyət»i çap etdirdikdən sonra mənə çox səmimiyyət bəsləyir və sevirdi. Mən onun hər bir məktubunu alıb oxuduqda yeni bir duyğu, yeni qüvvət qazanırdım. Molla Nəsrəddinin özü ilə də tanış idim. Hətta o, Naxçıvanda xidmət elədiyi və Nehrəm kəndində müəllim olduğu vaxt dəfələrlə görüşürdük. Biz Nehrəmdə Mirzə Mehdi adlı çayçının dükanına toplanır, orada yığılanlarla danışırdıq. Çayçı dükanının yuxarı başında Hacı Qəmbər adlı bir nəfər qolçomaq oturardı. O, Məsnəvini, Hafizi, Sədini əzbər oxuyardı. Mollalardan Molla Əli, Molla Ələsgər orada söhbət eyləyərdi. Mirzə Cəlil ilə Seyid Aqil adlı İmamzadənin qəbrinə gedib orada kəndlilərin danışdıqları söhbətlərə qulaq asardıq. Mirzənin o vaxtlar yazmağa heç də marağı yox idi. Bir şey də yazmamışdı. Onun yazı işinə olan marağı Tiflisə gələndən sonra başladı.

Biz İran inqilabına çox əhəmiyyət verirdik. Mən inqilabın gedişi ilə çox yaxşı tanış idim. Bu inqilabdan başqa bir nəticə gözləmirdim. Mən bu inqilabdan ancaq torpaq məsələsinin həll olunması, maarifin irəli getməsi,

bir də qadınların açıq gəzməsini gözləyirdim. Bu təsir altında olaraq iki əsər yazdım. Birisi «İslam qadınları», digəri isə «Bədbəxt milyonçu», yaxud «Rzaqulu xan firəngimaab» sərlövhəli əsərdən ibarət idi. Əsərlərim artdıqca, xüsusən «Molla Nəsrəddin» məcmuəsindəki iştirakım çoxaldıqca düşmənim də artırdı. Artıq mənə çayçı dükanlarında çay da verilmirdi.

Türkiyə və İranda başlamış inqilabın Ordubadda da heç bir təsiri ola bilmirdi. Ordubaddan Nəcəf şəhərinə gedib dərs oxuyub qayıdan Mirzə Lütfullah adlı müctəhidin Ordubada gəlməsi xalqın gözünü daha da qapadı, avamlıq daha da artdı.

Xüsusən, bunun varlı və qolu zorba bir familiyadan evlənməsi bizim vəziyyətimizi daha da ağırlaşdırdı. Müctəhid Ordubada gələn kimi Hacı Ağa Baba ilə Hacı Abbas Ağa öz qızlarını müctəhidə vermək üçün rəqabətə başladılar. Axırda Hacı Abbas güc gəlib qızını müctəhidə verdi. Buna arxa verən müctəhid təzə fikirli adamları minbərdə açıqdan-açığa söyməyə və fitva verməyə başladı. Ordubadın məşhur adam öldürənlərindən kəblə Zeynal isə məni öldürmək üçün təyin edilmişdi, fəqət bu sirr tez açıldı. Günlərin birində mən öz yoldaşlarımdan Qulu bəy Əlixanov, Hüseyn Həsənov, Abbas Mustafa oğlu ilə Kəblə Kazımın mehmanxanasında şam etdiyimiz vaxt Kəblə Zeynalın o tərəf-bu tərəfə keçdiyini gördüm.Kəblə Zeynal pulsuz idi. Yanımda oturanlar ona əhəmiyyət vermədilər və süfrəyə dəvət etmədilər. Mən ayağa qalxıb onu süfrəyə əyləşdirdim. Və şərab sifariş verdim. O, içdi və öz xəncərini belindən çıxarıb ayağının altında əzmək istədi. Mən onu tutdum. Xəncəri əlindən almaq istədim. O, ağladı və sözünü bu cür başladı: «Seyid, sən bilmirsən, bu xəncər böyük bir xətaya hazırlaşırdı. Səni öldürmək üçün vəzifəni mənə tapşırmışdılar. Bunda mənim qardaşım, Mehtixan, Orucəli Nəcəfov və sairləri də iştirak edirdi. Mən səni bir həftə əvvəl körpü başında «Qaspər»in balkonunun altında öldürmək istədim, mümkün olmadı. İki gün əvvəl evinizdə yatdığın yerdə doğramaq istəyirdim, sən evdə olmadın. Bu gecə isə son gecə idi. Mən səxavətli və səmimi bir adamı məhv edəcəkdim. Lakin sənin bu günkü alicənablığın buna mane oldu. Ancaq buradan çıxıb getməyi sənə məsləhət görürəm».

Onsuz da Ordubadda yaşaya bilmirdim. Xalq daha da avamlaşmışdı. Yenə də qızını Qayib İmamə siğə etdirən, yenə də səhər tezdən atını yəhərləyib imamın zühurunun intizarında olanlar var idi.

Culfaya köçməyi qərara aldım. Çünki orada Bəxşəli Ağa Şahtaxtlı, Ağaməhəmməd Hüseyn İrəvanlı, Nəsrulla Şeyxov və Nağı İsmayılov kimi səmimi tanışlarım var idi.

Mən Mir Adilin karvansarasında faytona oturub Culfaya köçmək is-

tədikdə heç kəs, hətta qohumlarım və tanışlarım da məni yola salmaq üçün gəlmədilər. Fayton Babayevin zavodunun qabağından keçdikdə, kor Qasımın oğlu Cəbrayıl faytonu saxlatdırıb mənə yaxınlaşdı. Mən elə bilirdim ki, görüşmək, vidalaşmaq üçün gəlir. Amma belə deyildi. O, mənə yaxınlaşaraq dedi: «Bir-iki il bundan əvvəl cəhənnəm olub buradan getsəydin şəhərdəki dinsizlərin miqdarı azalardı». Mən buna yalnız «çox sağ ol» - deyərək Məhərrəm faytonçudan faytonu sürməsini və daha heç yerdə saxlamamasını tələb etdim.

## CULFADA

Mən Culfaya bir neçə dəfə gəlmişdim. Bu dəfə gəlib Hacı Yusifovun və Əsgər Nağıyevin mənzillərində qonaq qaldım. Yarın Baxşəli Ağa Şahtaxtlı, Nəsrulla Şeyxov, Nağı İsmayılov, Ağa Məhəmmədhüseyn Hacıyev və Əliqulu Qəmküsar (təxəllüs) ilə görüşdüm. Onlar mənim həmişəlik Culfaya köçməyimdən şadlandılar, zatən onlar məni bir neçə kərə Culfaya çağırmışdılar. Culfadan Orucov qardaşlarına, «Molla Nəsrəddin»ə, «Səda», «Sədayi həqq» və sairə qəzetələrə yazmağa başladım. Bunlardan aldığım para mənə yetişmirdi. Ehtiyacımı Culfada İran inqilabının əvvəlindən təşkil edilmiş kiçik bir cəmiyyət təmin edirdi. Bu cəmiyyəti maliyyə cəhətindən təmin edən zat İran tacirlərindən Səttar Zeynalabdinov idi. Bu adam xalqın gözündə çox xəsis göründüyünə baxmayaraq, nəhayət də - rəcədə fədakar və səxavətli idi. Mənim Culfada yaşamağım Culfa pristavı Jeşşoltun şübhəsini qazanmağa başladı.

Bunun üçün də İran inqilabında iştirak edən cəmiyyət Əsgər Həsənovun mehmanxanasını aldı. Mehmanxananı Səfərov saxladı. Mən orada bir otaqda yerləşirdim. Cəmiyyətin bütün iclası da həmən mehmanxanada çağrılırdı.

Bütün İran ziyalıları və İran inqilabçıları burada toplanmağa başladı. Məşhur yazıçılardan Mirzə Cəbrayıl Fətəliyev ilə burada tanış olduq. Vaxtımın çoxunu İran tərəfində keçirirdim. Orada bir çoxları ilə tanış oldum. O cümlədən poçt-teleqraf rəisi Mirzə Şükrulla xan və «Dəxil» təxəllüslü şairin oğlu Mirzə Hüseyn Xan, «Əxtər» qəzetəsi müdiri Mirzə Əliqulu Xan, Əxtərin oğlu Rüstəm, İran inqilabçılarından Ələkbər Şücaili və sairləri ilə yaxından tanış oldum. Mən burada İran inqilabı ilə yaxından tanış olur və ən ciddi işlərdə iştirak edirdim. Mən «Dumanlı Təbriz» adlı romanımın materiallarını toplamaqla bərabər, «Sevgilər» adlı mənzum əsərimi də Culfada yazırdım. Təbrizə tez-tez gedir və İran inqilabçıları ilə əlaqə saxlayırdım. Doqquzuncu illərdəki Təbriz inqilabı demək olar ki, tamamilə gözümün qabağında gedirdi. Mən Culfaya gəldikdən sonra

özümdə böyük bir dəyişiklik hiss edirdim. Mənim din-mövhumat xadimlərinə qarşı olan nifrətlərim burada dinə və mövhumata qarşı çevrilirdi. Məndə dinsizlik duyğuları artırdı. Çünki mənim Culfada tanış olduğum adamlar içərisində dinə və mövhumata inananlar çox az idi. Mən vətənçilik və millətçilik sözlərindən də danışırdım. Çünki ətrafımda olanlar bu fikirlərdən çox uzaq idi. Culfa mühiti yalnız məni deyil, bir çoxlarını dəyişmişdi.

Doqqucuncu ildə Təbriz inqilabının çar Rusiyası tərəfindən boğulması məni inqilab mübarizəsində ciddi iştirak etməyə sövq etdi. Çar agentlərinin İrandakı sərbəst hərəkəti bizi çox düşündürürdü.Xüsusən, çar təbəələri hər tərəfdə İran kəndlilərini istismar edir, yerlərini, torpaqlarını əllərindən almağa başlayırdı. Böyük mülkədar və çar təbəəsi olan gəncəlilər hüdud kəndlərini, hüdud şəhərlərini bir-bir zorlayıb alırdı. İran hökumətinin bunlar ilə danışmağa qüvvəti yox idi. Onlar Culfa, Şüca, Kərgər kəndlərini sahiblə̈ndikdən sonra sərhəddən bir neçə kilometr məsafədə olan Ələmdar adlı kiçik bir şəhərə soxulmağa başlamışdılar. Biz bununla mübarizə aparır və Ələmdar xalqına yol göstərirdik. Lakin burası heç də mənfəət vermədi. İran yoxsul və İran kəndlilərinin istismarı gündən-günə artırdı. Gəncəlilərin vədlərinə aldanmış İran ağsaqqalları kəndlilərdən gəncəli rəiyyəti olmaq üçün imza toplayırdı. Hacı Salman adlı bir nəfər Daran kəndinin ağsaqqalını biz terror etdirmək istədik. Onu altı ay müddətə Rusiya sahilinə keçməyə qoymadıq. Bir neçə kərə İran sahilində də onu döydürdük. Lakin o, öz gələcək ağalarının sayəsində olaraq yenə də xəyanətindən əl çəkmədi.

İstismarçılar özlərini çar işğal ordusunun himayəsinə vermişdilər. Tacirlərin bir çoxunun cibində çar mandatı var idi. Onlar rus ordusunu təchiz etmək üçün alınan vəsiqələrlə İran kəndlisini istədiyi qədər qarət edə bilirdi. Nəhayət, İran xalqı yenə də bu zülmə qarşı çıxışda bulundu. Təbrizdə Əmir Həşəmətin ruslara qarşı çıxışı çar zülmünün nə qədər böyük və çəkilməyəcək bir zülm olduğunu göstərdi. Təbrizə rus orduları getməyə başladı. Biz Fətəliyev[7] Mirzə Cəbrail ilə dəmir yolunu söküb İrana qoşun aparan qatarı dağıtmaq istədiksə də, müvəffəq ola bilmədik. Rus orduları Təbrizi işğal etdi. Siqqətül İslam və Hacı Əli Davafüruş, Abbas Əli Qəndfüruş və sairləri asıldıqdan sonra İran bir rus müstəmləkəsi şəklini aldı. İran Culfasında oturan çar konsulluğu agenti Jarski İran təbəəsi olan Hacı Hüseyn Ağa və Hacı Mir Məhəmmədağa Kəlpəri öz əli altına alıb, yerli hökumət vəzifəsini daşımağa başladı. Hər iş, hər şikayət, bütün siyasi-iqtisadi məsələlər bu adamlar tərəfindən həll olunurdu. Rus Culfasında isə Naxçıvan uyezd naçalniki polkovnik Zençinkonun əmrinə görə müəyyən

bir casus qrupu düzəldi. Bu qrup Naxçıvanlı Məhəmməd Cəfər Rzayev və qardaşları Məşədi Abbas Xarratov İrəvanlı, İranın Culfa konsulu Raufbəy Səfərəlibəyov, bir də polis qulluqçusu Rzaqulubəy Teymurbəyovdan ibarət idi. Bu casus qrupunu Culfa pristavı Jeşşolt idarə edib, jandarm polkovniki Ştraube ilə əlaqə saxlayırdı.

Bizim qrupumuz ciddi surətdə təqib edilirdi. Məni Culfadan köçürmək üçün Jeşşolt bir neçə kərə təşəbbüs etdi. Nəhayət, onunla açıqdan-açığa danışdım. Ayda 25 manat verib yaxamı qurtardım. Ayda 10 manatdan başlayıb, 5 manata qədər də Rzaqulubəy Teymurbəyova verirdim.

Ruslar sərhəd şəhərlərini tamamilə işğal etdikdən sonra bizi təqib etmək məsələsi qismən azalmışdı. Buna baxmayaraq, biz yenə də iclas çağırır və çar hökumətinin İranda apardığı işləri müzakirə edirdik. Tam belə bir zamanda da İran əksinqilabında iştirak və Təbrizdə böyük xərabəliklər yaratmış Hacı Musaxan Mərəndli Culfaya gəlib Fransa otelində mənzil etmişdi. Biz əvvəlcə onu terror etdirmək istədiksə, mümkün olmadı. Zaman buna müsaidə vermədi. Onun Fransa otelinin yay salonunda nahar edəcək vaxtını bilirdik. Mirzə Əli adlı bir gənci oraya göndərdik, özünü sərxoşluğa vurub Hacı Musaxanı baş-gözü dağılıncaya qədər döydü. Hacı Musaxanı xəstə ikən İrana keçirdilər.

1912-ci ilin iyun ayında rus ordusunun İranda olan dağınıq hissələri Türkiyə sərhəddi olan Xoy şəhərinə toplanırdı.

Mühüm bir hadisə zühurunu hər kəs bilirdi. Ayın 15-də Culfada çox isti küləklər var idi. İstidən və tozdan heç bir kəs bayıra çıxa bilmirdi. Həmişə olduğu kimi, axşam saat 11-də külək dayandığından əhali təmiz hava almaq üçün dəmiryol stansionuna toplanırdı.

Tiflisdən sərnişin qatarı gələcək idi. Başqa gecələrə nisbətən bu gün stansionda bir fövqəladəlik nəzərə çarpırdı. Stansiondakı çar rotasında jandarm polkovniki Ştraube və yuxarı dərəcəli zabitlər toplanmışdı. Jandarm nəfərləri öz üst-başlarını düzəldib stansionda o tərəf-bu tərəfə dolaşırdı. Mühüm bir müsafirin gələcəyi şübhəsiz idi.

Mən, Bəxşəli Ağa, Abdulla Şeyxov, Səttar Zeynəlabdinov birinci sinif bufetin qapısında durub danışırdıq. Biz bu vəziyyətdən çox maraqlandıq. Jandarm onbaşçısı Xramsov yanımdan keçdikdə dayandırıb nə kimi hadisə olduğunu soruşdum. Xramsov bizdən həmişə para aldığından bəzən lazımi sirləri verməkdən boyun qaçırmazdı. «Bu dəfə mühüm və hörmətli bir adam gəlir» - deyə keçdi.

*1. Mirzə Cəbrayılın Tiflisdə Şeytanbazarda baqqal dükanı var idi. Yeddinci illərdə Fətəliyev «İrani» imzası ilə «Təzə həyat» və sairə qəzetlərdə yazardı. Sonra İrana gəldi. Sərhəddə ticarət edirdi.*

Zəng vuruldu. 15 dəqiqədən sonra sərnişin qatarının Culfa burnundan verdiyi islıqın səsi eşidildi. Bufetdən və çar odasından hər kəs bayıra çıxdı. Jandarm polkovniki, pristav və polis nəfərləri birinci sinif vaqonlar duran yerdə toplandılar. Qatar dayandı. Gödək boylu, başında xurmayı dəridən papaq, adi əlbəsəli bir adam əlində kiçik bir çamadan olaraq göründü. O, vaqondan düşərkən jandarm polkovniki qolundan tutdu. Tanış oldu. Onunla birlikdə faytonlar duran yerə gəldilər. Çamadanı Xromsov götürmüşdü. Həsən molla Ağababa oğlunun faytonuna oturdular. Çünki Culfada bundan yaxşı fayton yox idi. Mən bir az gözlədim. Həsən yenə də müsafir aparmaq üçün stasiona gəldi. Müsafiri harada düşürdüyünü soruşdum. Fransa otelinə endirdiyini söylədi. Bu otel birinci dərəcəli otellərdəndir. Varlı müsafirlər burada mənzil edirlər. Xüsusən onun yay salonu gecələr ətrafdan gələn müsafirlər ilə dolu olur. İran sərhəd qulluqçuları bəzən gecələri səhərə qədər həmin salonda keçirirlərdi. Yanımdakı yoldaşlar yeni müsafiri öyrənmək lazım olduğunu qərara aldılar. Vəzifəni mənə tapşırdılar. Yoldaşlarla birlikdə stasiondan qayıtdıq. Baxşəli Ağa, Səttar və Zeynəlabdinov otel sahibi Qriqor ağanı çağırıb müsafir haqqında bəzi tapşırıqlar verdilər. Qriqor ağa Culfada olan bu kiçik qrupun bir çox əmrlərini yerinə yetirməkdən boyun qaçırmazdı.

Mən mənzilimə gəlib paltarlarımı dəyişdim. Gecə ilə Ələkbər dəlləyi çağırıb təraş olundum.

Mən Fransa otelinin yay salonuna girdikdə bütün masalar tutulmuşdu. Yeni müsafirin masası ilə yan-yana duran masa isə vaxt ikən tapşırıldığından mənim üçün saxlanmışdı. Yeni müsafir başındakı xurmayı dəridən papağını salonun məhəccəri üstünə qoyub araq içmək üçün əlindəki təzə xiyarı təmizləyirdi.

Məni bir neçə masadan öz yanlarına çağıranlar var idi. Xavarqovski qənd firması agenti Mezgirin qadını və qızları məni öz yanlarında oturtmaq istədilər. Oturmadım. «Qonağım vardır, indi gələcəkdir» - deyib yaxamı onlardan qurtardım. Mirzə İbrahim Ələkbərov və Seyid Məmməd Bərar dəxi məni yanına çağırdı. Yenə də yuxarıdakı bəhanə ilə özümü qurtardım. Öz masamın başında oturdum. Qriqor ağanın özü və bir neçə xörək verənləri ətrafımda düzüldülər. Yeni gəlmiş müsafir mənə diqqətlə baxırdı. Mənə göstərilən hörmət onu lazımınca məşğul etmişdi.

Mən hələ bir şey sifariş vermədən tanışlarımdan Artarovun qadını məni qaldırıb öz masasına aparmaq istədi. Bu vaxt Qriqor ağanın qadını Sonya xanım qayət zərif bir paltarda salona daxil oldu. Düz doğru gəlib arxasını yeni müsafirə çevirməklə masanın yanında oturdu. Artarovun qadınına da oturmasını təklif etdim. Fəqət, oturmayaraq, getdi. Və əvvə-

linci kampaniyasına qoşuldu. Mən yemək vərəqəsini Sonyanın qarşısına qoydum. Sonya isə «Mən yemək üçün yox, sizi məşğul etmək üçün gəldim» - deyə yeməkdən imtina etdi. Nəhayət, xörək sifariş verdim.Qulluqçulardan biri gedib, digəri gəlirdi. Bəzi şeyləri Qriqor ağanın özü gətirirdi.

Bu vaxt yeni müsafir diqqət-nəzərini məndən götürərək Sonya ilə məşğul olmuşdu. Lakin o, Sonyanı lazımınca görə bilmirdi. O, nə cür olursa-olsun, kürsüsünü dəyişmək, heç olmasa gənc və gözəl Sonyanı yandan görmək imkanı əldə etməyə çalışırdı. Onun boynu daima o tərəf-bu tərəfə burulur və bir vəsilə arayırdı. Nəhayət, yeni müsafir yeni düşüncəsini həyata keçirməyə başladı. Qalxıb hara isə getdi.

Mən bunu Sonya xanıma anlatmağı artıq hesab edirdim. Çünki onun özü də bunu anlamışdı. O, kişilərin bu cür hərəkətini gündə bir kərə deyil, yüzlərcə kərə görmüşdü. Sonya kişilərə daima gülür və onların gülünc xasiyyətlərindən söhbət edirdi. O, öz həyatının qısa tarixində şəhvətpərəst kişilərə dair bir çox məlumat toplamışdı. Müsafir qayıdıb gəldi. Mənim düşüncəm doğru çıxdı. Müsafir yan kürsüdə oturdu. Və gözlərini Sonyanın bir yanlı (profil) çöhrəsinə tikdi. Sonya ara-sıra müsafirə baxır, o baxdıqca da müsafir öz vəziyyətini – üstünü, başını, yaxalığını düzəldirdi. Müsafir bir saatdan bəri içdiyi arağın nəticəsində vücuda gələn sərxoşluğu gizlətməyə çalışırdı. Sonya xanım onun bu vəziyyətinə xəfif gülüşlərlə baxdıqca o, qadında özünə nisbət bir sevgi hissi doğduğunu hiss edərək nazlanır, bığlarını düzəldir və məğrur bir vəziyyət alırdı.

Lakin yeni müsafirdə həyatı doğru bir surətdə anlayan və kişilikdən bir qadın kimi ləzzət almağı sevən qadınların sevə biləcəyi heç bir xüsusiyyət nəzərə çarpmırdı.

Boyca çox güdək idi. Zatən güdək adam az da yoğunladıqda öz təbii tənasübünü tamamilə itirmiş olur.

Alnı çox dar və başqa kişilərə nisbətən qırışıqlıqları da olduqca dərin idi. O, Sonya xanıma baxdıqda tez-tez əllərini başına çəkirdi. Lakin onun başında düzələcək heç bir şey yox idi. Başının tüksüzlüyünə, alnının qırışıqlarına baxmayaraq, o, çox da yaşlı deyildi. Gözləri qara deyildi. Üzünün hər iki tərəfindəki sümüklər həddən artıq dikəlmişdi ki, bu da onun gözlərini nəhayət dərəcədə çuxurdan baxdırırdı. Vilhelmin bığlarına oxşayan bığları hənа rəngində idi. Dodaqları təbii halında olmadığından qabaqdakı qoşa dişləri daima bayırda idi. Dişləri olduqca təmiz idi. Çənəsinin ucu bir fındıq yerləşəcək qədər çuxur idi. Üzündə olan çillikdən boynunda, əllərində, hətta barmaqlarında belə gözə çarpırdı. Əlbəttə, bu saydığım xüsusiyyət gənc qadınların xoşuna gələcək şeylərdən deyildir.

Bunu Sonya xanım da təsdiq edirdi.

İndi müsafir üçün iki yol qalırdı birisi özünü qadına qarşı məğrur, etinasız göstərmək, ikincisi isə danışığında gözəl şivə və ifadə işlətməkdir ki, bu da qadınların ən sevə biləcəyi xasiyyətlərdən birisidir. Yeni müsafir özünü məğrur və etinasız tutmağı bacarmırdı. Gözlərini Sonyadan götürə bilmirdi.

Biz Sonya ilə danışdıq. O, öz kürsüsünü dəyişib yeni müsafirin onu görə bilməyəcəyi bir vəziyyət alacaq idi. Kürsü dəyişildi. Müsafir çıxılmaz bir vəziyyətdə qaldı. Bu vaxt həm müsafirə, həm də bizim masaya yemək verilmişdi. Salon qızğın bir vəziyyət almışdı. Masaları qadınlar, kişilər əhatə etmişdi. İrana gedən, İrandan qayıdan çar zabitləri o tərəf-bu tərəfə gedirlərdi. Bunların zərli paqonlarına aşiq olan və oteldə yalnız bunun üçün yaşayan qadınlar da bunların arxasınca sürünürdülər. Şərab içilməyən masa yox idi.

Hər masanın ətrafında bir səhnə açılmışdı. Bizdən bir az o biri tərəfə rus konsulunun Maku agenti əlini cibinə salıb bir yığın çar yüzlüklərini masanın üstünə tökmüşdü. Qadınlar buna gülür, o isə yüzlüyü qaldırıb «bir qadın!», digərini qaldırıb «iki qadın!», «üç qadın, dörd qadın!» - deyə bir tərəfə yığırdı. Digər bir masada oturan gənc öz yanındakı qadınlara özünün şikara getməsindən, dörd dağ keçisini bir qurşuna vurduğundan və sair möcüzələrindən danışırdı. Bir masada oturanın birisi yaxşı oxuyan olduğunu, yaxın dostları üçün xüsusi surətdə oxuduğunu, oxuyan zaman qadınların aqoşkadan, bacadan, pəncərədən, pərdə dalından baxdığını, onun cibinə məhəbbət kağızlarını buraxdığını deyib şadlanırdı. Digər bir masada oturan gənc özünü yüzlərcə qadınlar tərəfindən sevildiyini və heç birisinə etina etmədiyini, küçədə getdiyi vaxt qadınların «adamın bir belə əri olaydı» demələrindən danışırdı. Yanındakı qadınlar isə «doğrudan da sənin kimi gözəl kişilərə çox az-az təsadüf olunur» - deyə gülürdülər. Lakin yeni müsafirdən bir səs eşidilmirdi. Yanında kimsə yox idi. Sonyanı isə danışdırmağı heç vəsilə əldə edə bilmirdi. O, bir siqara çıxartdı. Ucunu dişləyib masanın yanına tüpürdü. Lakin yandırmadı. O, oxuyurdu. Sözlərindən ancaq bunu anlaya bildim:

Deyəməm dərdimi həmdərdim olan ahə belə,
Əhli dil söyləyəməz dərdini Allaha belə.

Oturmuşdu. Lakin tikan üstündə oturmuş bir adama bənzəyirdi.Son - yanın yanına yaxınlaşıb baxmağa hazırlanırdı. Məndən kibrit istəmək bəhanəsi ilə masaya yaxınlaşdı. Əli şalvarının cibində olaraq mənə söylədi:

- Lütfən, bir kibrit verə bilərmisiniz? – dedikdən sonra mən bir kibrit yandırdım. Siqarasına tutdum. Lakin onun gözləri nə məndə, nə də siqa-

rada deyildi. Ancaq ikinci kibritdə siqarasını yandırıb çəkildi.

Sonyanın gözəlliyi yeni müsafiri məşğul edəcək qədər yüksək idi. Sonya 1902-ci illərində Gürcüstanın Samdireti tərəfindən Culfaya iş üçün gəlmiş bir kəndli qızı idi. Bu vaxt mülkədar və knyazlar tərəfindən talanmış kəndlilərin qızları dəstələrlə Qafqaz şəhərlərinə dağılırdılar. Xüsusən, Rusiya-İran sərhədləri bu kimi qız dəstələri ilə dolmuşdu. Sonyanı 18 yaşlarında ikən Qriqor Ağa götürüb saxlamışdı.

Sonyanın bir gürcü qızı kimi qara saçları, şəvə kimi gözləri, buğdayı çöhrəsi yox idi. O, şəkil və simaca tam mənası ilə bir şimal qızı idi. Onun gürcü qızı olması yalnız ifadə və şivəsindən bəlli olurdu. Onun cəlbedici xüsusiyyətlərindən bir neçəsi ifadəsində olan şirinlikdən ibarət idi. O, daima təbəssüm etdiyindən bir çoxlarını özü haqqında şübhəyə düşürərdi. Odur ki, onun bütün gözəllikləri ilə bərabər, mavi gözlərinin rəqsan gilələri yeni müsafirin qəlbinə bir çox şübhələr atmışdı.

Gecə saat iki idi. Masaların başında yatanlar da var idi. Otel qulluqçuları bir çoxlarının qoltuğuna girib aparırdı. Biz də yeməyi bitirmişdik. Masanın üzərində alça və gilasdan başqa bir şey qalmamışdı. Sonya vidalaşıb getdi. Mən dəxi müsafirə bildirmək üçün yığışıb getmək hazırlığında idim. Müsafir isə bir araq daha sifariş vermişdi. O, əlində bir qədəh olduğu halda:

- Əfv edərsiniz, siz türkmüsünüz? – dedi.

- Türkəm! Siz də türksünüz? – deyə soruşduğuma cavabla:

- Türkiyəliyəm, fəqət, türk deyiləm söylədi.

- Şivənizdən türk olmadığınızı anladım. Hər halda hansı qövmə mənsub olduğunuzu bilmirəm.

- Mən kürdlərə mənsubam.

- Heç fərqi yoxdur, - dedim. O, əlindəki piyaləni qaldırıb:

- Sizin şərəfinizə nuş edirəm, deyib içdi. Yeni müsafir durdu. Yanındakı araq şüşəsi ilə piyalə və bir də soyulmuş xiyarları götürüb mənim masama keçdi.

- İcazə verin tanış olaq! – dedikdən sonra mən əlimi uzatdım. Adımı, familiyamı söylədim. O, dəxi:

-Xeyrəddinbəy Bərazi – deyə tanış oldu və bərazilərin kim olduğunu bilirsinizmi? – deyə soruşdu.

- Bilirəm – dediyimə o çox təəccüb edərək soruşdu:

- Bərazilərin harada yaşadığını bilirsinizmi?

- Bilirəm, onlar müxtəlif yerlərdə yaşayırlar.Dəyadin, Alışkərd, Hekkari, Muş, Bitlis, Hələb, Orxa tərəflərində bir çox bərazilər yaşamaqdadır. Köçəbə halında yaşayanlar da vardır. Sizin harada yaşadığınızı bilmirəm

– dedim. O güldü. – Məlumatınız mücəmməm məlumat deyildir. Mən Bitlis bərazilərinə mənsubam – dedikdən sonra əlavə etdi: - Bir neçə gün burada qalacağam. Bu tanışlığımızdan məmnun qaldım.

Xeyrəddinbəy Culfada 20 günə qədər qaldı. O, daima Sonyanı göstərərək «bu qadın məni bəng edərək burada saxlamışdır» - dediyinə inanmırdım. Mühüm bir işdən ötrü İrana getmək istəyən bu müsafirin Sonyadan ötrü burada qaldığına inanmaq olmazdı. Halbuki 20 gün müddətində bir kəlmə də olsa Sonya ilə danışa bilməmişdi. O, tez-tez jandarm idarəsinə gedir və hər dəfəsində pasport üçün getdiyini söyləyirdi. Nəhayət, son günlərdə müsafirin bütün vəsiqələrini yoxlamaq bizə mümkün olmuşdu. O, Türkiyədə jandarm minbaşısı olmuş və Sabahəddin firqəsinə mənsub bir «ədəmi-mərkəziyyət»çi idi. İrana nə üçün gedəcəyi bəlli deyildi. O, yığışıb getmək istəyirdi. Məni də bir neçə günlüyə özü ilə bərabər aparmağa çalışırdı. Mən bunu yoldaşlara söylədikdə, onlar bunun təhlükəli bir iş olduğunu söylədilər. Lakin mən özüm bu müsafirətdən maraqlanırdım. Bunun üçün polis idarəsindən bir həftəlik «Üburi mürur» vəsiqəsi aldım. Bu vəsiqə ilə yalnız sərhəd boyundakı kəndlərə getmək mümkün idi. Buna baxmayaraq, bu vəsiqə ilə Təbrizə və sair şəhərlərə də gedirdik.

İran Culfasında Xoy şəhərinə getmək üçün fayton danışdıq. Faytonçu Evoğlu kəndindən Mahmud adlı bir gənc idi.

Yollar dərələrin, təpələrin içərisi ilə getdiyinə baxmayaraq, bir qorxu hiss edilmirdi. Çünki yolların ətrafında olan bütün kəndlilər məcburi qanunlarla işə çıxarılıb yolları qayırırdılar.

Kəndlilər Rus araba və toplarının keçirilməsi üçün körpülər və şoselər qayırmaqla məşğuldurlar. Bütün dar keçidlərdə, dərələrdə, çayların kənarında əsgəri qaraul postları və telefon stansionu düzəlmişdi. Mən yolda işləyən kəndlilərin bir neçəsi ilə danışdım. İşə çıxmalarının səbəbini soruşdum. İran məmurları kəndliləri siyahıya alıb rus zabitlərinin tələbi üzərinə nöbət ilə işə çıxarırmış.

Gündüz saat ikinin yarısında Evoğlu kəndinə yetişdik. Faytonçu bizi öz evinə təklif etdisə də, biz razı olmadıq. O, bizi molla Hüseyn adlı bir mərsiyəxanın evinə düşürdü. Gecəni biz burada qalmalı idik.

Evoğlu kəndi Culfa ilə Xoy şəhəri arasında vaqe bulunan bir kənddir. İki min evi vardır. Qotur çayının hər iki sahilinə döşənmiş bu kənd bərəkətli torpaqlara malikdir. Evlər kəndin şimal tərəfində vaqe alçacıq dağların ətəyindədir. Kəndin içərisindən dəyirman və pambıq maşını işlədən bir neçə çeşmə suları keçib Qotur çayına tökülür. Kəndin əhalisi tamamilə bəhayi təriqətindəndirlər. Molla Hüseyn mərsiyəxanın özü də bəhayidir.

Biz aşağı mərtəbədə sərin və təmiz bir otaqda mənzil etmişdik. Yuxarı mərtəbədə böyük bir cəmiyyətin toplandığını hiss edirdik. Bu cəmiyyətin nədən ötrü yığıldığını Molla Hüseyn oğlu Ziyayullahdan soruşduq. O: «Həzrət Əbdülbəhadan lövh nazil olmuşdur. Məhfəli Bəhaman bizim evimizdədir. Atam da məhfəlin müridididir» - dedikdə mən təəccüblə soruşdum:

- Əcaba, sənin atan bəhayi olduğu halda mərsiyəxanlıqdamı edir?

- Eybi nədir, bəhayilik bir təriqətdir, mərsiyəxanlıq isə bir sənətdən ibarətdir, - dedikdən sonra mən sakit oldum və daha bir söz demək istəmədim.

Lövhdə nə kimi şeylər «nazil» olduğundan maraqlanırdım. Xeyrəddin bəy yatmışdı. Mən Molla Hüseyni görmək üçün yuxarı mərtəbəyə çıxdım. Molla Hüseyn lövhu görmək istədiyimdən razı qaldı.

- Bizim dinimiz beynəlmiləl bir dindir. Bütün bəşəriyyət bizim qardaşımızdır, - deyə boş-boş sözləri aralığa fırlatmaq istədi. Məhfələ daxil oldum. Uzun bir otaqdan ibarət idi. Divarda qayət qiymətli əlyazıları vurulmuşdu. Bu yazılar tamamilə bəhayilik şüarları idi, boyalı şəkillər də vardı. Onlar Beytüləddinin və Aşqabaddakı məscidin, Əbdülbəha ailəsinin, Əbdülbəhanın Amerikada aldığı şəkillərin montajlarından ibarətdi. İki şey diqqət-nəzərimi cəlb etdi. Onlardan birisi Qürrətüleyn adlı bəhayi qadının təsviri, bir də məşhur Xoşnəvis Mişkinqələm adlı bir yazıçının əsəri idi. Mişkinqələmin əsəri «Allahu bəha» kəlməsindən qurulmuş bir qız təsviri idi. Təsvirin altında isə Mişkinqələm öz əli ilə yazmışdı:

«Dər diyare xətt şode sahib ələm
Bəndeyi-BabBəha Mişkinqələm».[1]

---

*1. Tərcüməsi: Diyarda yazıldı aləmin sahibi*
*Bəha Mişkinqələmə bab bir bəndə.*

## ƏBDÜLBƏHANİN LÖVHİ

*Bəhayilər səhifəsinə əlavə*

Lövh bundan ibarətdi:

Hərb xərabist, sülh baisi-emrani ümumi; hərb məmat, sülh həyatəst.

Hərb xunxarəst, sülh mehribanist; hərb müxtəzayi-təbiət, sülh əsasidini-iləhist.

Hərb zolmət əndər zolmət əst, sülh ənvari-asimanist. Hərb manəndiqorgi-xunxar, sülh malaiki-səmaviyə

Dovvom, dünya be təlimi-Bəha əməl nəkərdənd, dəvətimara nəşənideənd, bənabərin balai-kərb bər nişan mustoli xahəd, lakin ma bəhaiyan dər müharibə bitərəf xahim mand.[1]

Lövhün üzərinə yaşıl atlas çəkilmişdi. Onun üstünü camaat toplandıqdan sonra azacaqdılar. Nəhayət, xalq toplandı. Lövhün üstünü azdılar. Lövh Əbdülbəhanın əlyazısının fotoqrafla alınmış kopiyasından ibarətidi. Əbdülbaha uzun-uzadı və ümumi sözlərdən sonra beynəlxalq vəziyyətdən danışırdı.

Lövhdə İngiltərə-Almaniya, Almaniya-Rusiya, Fransa-Rusiya münasibətləri haqqında yazılırdı. O, öz sözünün axırında bir müharibə olacağını və bu müharibədə bəhayilərin bitərəf qalacağını tövsiyə edirdi.

Mən bütün bu xəbərləri hələ dörd-beş ay əvvəl sosial-demokrat bolşevik qəzetlərində oxumuşdum.

Yuxarı mərtəbədən düşüb öz otağımızın qarşısında qoyulmuş kürsünün üstündə oturdum. Molla Hüseynin qızlarından birisi mənim üçün çay gətirdi. Molla Hüseyn özü də gəlib oturdu. Qız ona da çay gətirdi. Molla Hüseyn qızının tərbiyəli qız olduğunu mənə bir neçə kərə söylədi. Doğrudan da qız ədəbli və tərbiyəli bir qıza oxşayırdı. Çöhrəsi iranlı qızlar kimi pəmbə deyildi. Fəqət olduqca zərif və mütənasib əndama malik olan bir qız idi. Adını atasından soruşdum: «Bəhiyyə» olduğunu söylədi. Qız gizlənmirdi. Zatən Evoğlu kəndində kişidən gizlənən qadına təsadüf etmədim. Molla Hüseyn çayını içib getdi. Qız həyətdə o tərəf-bu tərəfə gedir və çalışırdı. Lakin o, olduqca qəmgin görünürdü. Mən çay içir və qarşı divardan görünən alma ağacına qonan quşlara baxırdım. Bu quşlar ara-sıra qaçır və yenə də ağaca toplanırdı. Birdən-birə gözümə bir insan

*1. Tərcüməsi: Müharibə pisdir, sülh ümumi abadlığına səbəbdir. Müharibə ölüm, sülh həyatdır. Müharibə qaniçəndir, sülh mehribançılıq, müharibə təbiətin nəticəsi,südz isəilahi dinin əsasıdır. Müharibə zülmət içərisində zülmətdir. Sülh isə asimanın nurudur. Müharibə qaniçən canavar kimidir, sülh səma mələkləri.*

*İkincisi, dünya Bəha təlimi ilə yaranmamış , bizim yaranmağımızı eşitməmişlər, ona əsasən müharibə bəlası onların üzərinə ağırlıq olacaq. Amma biz müharibədə bitərəf olacayıq. (Müəllif)*

başı göründü. Bu baş baxıb yenə də çəkildi. Onun kim olduğunu və nə üçün baxdığını Bəhiyyədən soruşdum. O utandı və ağladı. Soruşmağa peşiman oldum. Qəlbimdən cürbəcür fikirlər keçdi. «Əcəba, mən bunu danışdırdığım üçün mü ağladı? Mənim onu danışdırmağımı özü üçün təhqir mi hesab etdi?» - deyə düşündüm və stəkanı aparmaq üçün gəldikdə üzr istəyərək dedim: «Bəhiyyə xanım, əfv edərsiniz məni, burada qızdan söz soruşmağın qız üçün həqarət hesab olunduğunu bilmədim. Ömrüm olduqca bu səhvimi unutmaram».

- Siz gərək ki mənim gözyaşlarımın mənasını anlamadınız. Qızdan söz soruşmaq heç vaxt həqarət deyildir. Ağlamağımın başqa səbəbləri vardır. Qız bunu deyib getdi. Ziyahullah arxasında ot şələsi gəlib otu inəyin qabağına tökdü. Və əlindəki bir dəstə gülü götürüb yanıma gəldi. «Bu da bizim yerin sovqatıdır», - deyərək gülü mənə verdi. Ziyaullahdan öz ailələri haqqında məlumat toplamağa başladım. O, qardaşlarından, atasından, bacılarından danışdıqdan sonra Bəhiyyənin üzərinə gətirib dedi:

- Qız özünə görə gözəl qızdır, tərbiyəlidir. Oxumuş qızdır. Lakin atam onu dünya malından ötrü bədbəxt etdi. Qayət əxlaqsız, tərbiyəsizin birisinə ərə vermişdir. Qız əmim oğlunu sevmişdir. Oğlan da Xoyda mənim məktəb yoldaşımdır. Özləri də bir parça çörək sahibidirlər. Qız və oğlan biri-birlərini sıxı bir surətdə sevirlər. Atam isə bununla hesablaşmadı.

- Bunun səbəbi nədir?

- Çünki əmim bəhayi deyildir. Atam isə qızı bəhayi olmayan bir ailə içərisinə buraxmaq istəmir. Qızın özünü öldürməsindən qorxuram. Çünki ərə verildiyi adam insana oxşamır. Təknəlidir (qozbel), bir gözü eyiblidir. Özü də ağıldan zəifdir. Peşəsi də bu ağaca çıxıb həyətimizə baxmaqdır.

Ziyaullah bir az da danışıb getdi. Xeyrəddin bəy yuxudan qalxdı. İkinci kərə çay içdik. Çaydan sonra qalxıb kəndi gəzməyə başladıq.

***

Biz evə qayıdanda qaranlıq düşmüşdü. Molla Hüseyn bostandan dərdiyimiz qovun və qarpızlarla bərabər evə daxil oldu. Axşam yeməyinə plov bişirmişdilər. Çörəyi yedik. Molla Hüseynin qadınından başqa, bütün ailə bizim ətrafımıza yığılmışdı. Lampanı «bədkir» içərisinə qoymuşdular. Yel lampaya mane olmayırdı. Mən onlara Babın tarixindən və onun Şeyx Əhməd Əhsayi ilə nə münasibətdə olduğundan, əvvəlcə Babın nə məqsədlə aralığa çıxdığından danışırdım. Molla Hüseyn bəzən etiraz edir, bəzən də təsdiq edirdi.

Bütün bu söhbətlərdən sonra bəhayilərin sözləri ilə işləri arasında münasibət olmadığını göstərir və onların qadın haqqındakı ideallarının yalan olduğunu isbata çalışırdım. Bu sözlərimdə zavallı Bəhiyyə mənə ba-

xaraq xəfifcə gülümsünürdü. Çünki gündüz qardaşı Ziyaullahın onun kimə ərə verilməsi və sevgisindən məhrum olması haqqında mənə dediklərini eşitmişdi.

Yarın tezdən gedəcəyimiz üçün tez yatmaq lazım gəlirdi. Bu halda faytonçumuz içəri girdi. Atının xəstə olduğunu söylədi. Xeyrəddin bəy başqa fayton tapıb getmək üçün mənim fikrimi soruşdu. Mən isə «yarın atı yaxşı olursa, saat ikidən sonra çıxıb axşamın sərin vaxtında Xoy şəhərinə yetişərik» dedikdən sonra Xeyrəddin bəy buna razı oldu.

Bu məsələdən Molla Hüseyn də sevindi. O, mənim məsləhətimdən şadlanırdı. Bu haldan Bəhiyyənin də razı qaldığı çöhrəsindən bəlli olurdu.

Gecə saat 1-də yatdıq. Səhəri mən çox tez qalxdım, saat 6 olmamışdı. Çıxıb çeşmənin başına getdim. İşə çıxan kəndlilərlə, qadın və qızlarla məşğul oldum. Saat 8-də evə qayıtdım. Xeyrəddin bəy hələ yuxusundan durmamışdı. Evin qabağındakı eyvanda qoyulmuş çay masasaının ətrafında oturdum. Bəhiyyə qaynanmış süd gətirdi və dedi:

- Çay içəcəksinizmi? Yainki yoldaşınızı gözləyəcəksiniz?

- Yoldaşım da durub içər.

- Dünən Ziyaullah mənim başıma gələn fəlakəti sizə nəql edəndə mən mətbəxdən eşidirdim. Bəs siz nə üçün o barədə heç bir söz demədiniz?

- Nə deyə bilərdim. Mən müsafirəm. Adətinizi bilmirəm. Bəlkə də dediyim acığınıza gəldi. Dünən sizdən bir söz soruşdum. Ağladınız. Mən də səhv etdiyimi anladım.

- Ağladığım yalnız başıma gələn fəlakətdən ötrü idi. Bilmirəm nə edim? Bircə şəhərə gedə bilsəydim, daha ölməzdim.

- Hansı şəhərə?

- Xoy şəhərinə. Əmim oradadır. Mən ömrümün çoxunu orada keçirmişəm. Daha nə deyim? Ziyaullah sizə hamısını demişdir.

- Əcəba, buradan Xoy şəhərinə getmək çətindirmi?

- Ailəm aparmaz. Əmim də işdən xəbərdar deyil. Başıma gələn bu fəlakətin tarixi 4 gündən artıq olmaz. Bu gün çərşəmbə axşamıdır. İki gündən sonra məni aparacaqlar. Qaça bilmirəm. Bir kimsəyə qoşulub gedə bilmirəm. Çünki namusu hər kəsə tapşırmaq olmaz.

Mən Bəhiyyənin sözlərindən çox mütəhəyyir oldum. O, çayı töküncə mən də fikirləşdim. Ondan soruşdum:

- Kəbin kəsilmişdirmi?

- Yox, bəlkə də yarın kəsəcəklərdir.

- Mən sənə öz namusum ilə söz verirəm ki, səni sağ-salamat aparıb Xoy şəhərində öz əmin evinə təhvil verərəm.

- Mən buna inana bilərəmmi?

- Öz qardaşına inanan kimi inana bilərsən.
- Bizim bostanımız yolun üstündədir. Mən orada gözləram.
- Əmin olun! Sizi bu təhlükədən qurtararam.

Bəhiyyə şadlığından ağladı. Əlimi öpmək istədisə, mən buna mane oldum. Bəhiyyə dönüb getdikdə bir daha qayıdıb dedi:

- Xatırcam oluram ha!
- Əmin ol! Şey zad götürmək lazım deyildir.

****

Saat 2-də Molla Hüseynin evinə qonaqlar gəlirdi. Şübhəsiz ki, Bəhiyyənin kəbinini kəsmək üçün idi. Fayton qapıda durmuşdu. Molla Hüseyn və Ziyaullah bizi faytona qoydular. Evdə qonaqları olduğundan aparıb yola salmadıqlarına təəssüf etdilər. Vidalaşıb yola düşdük. Bəhiyyə bostanın yanındakı söyüd ağacının dalından çıxdı. O, faytona yanaşmağa tərəddüd edirdi.

-Bəhiyyə xanım, gəliniz! Oturunuz, lakin atanız iki gündən sonra kəndə qayıtmanızı əmr etdi. Bu sözümdən Xeyrəddinbəy və faytonçu heyrətə düşdü, daha bir söz demədilər. Bəhiyyə döşəkdə oturmadı. Çünki döşəkdə ikimizdən biri ilə oturmağa məcbur idi. Skamyada tək oturdu. Xoy şəhərinə qədər ondan təşəkkür və razılıqdan başqa heç bir söz eşitmədim.

Axşam qaranlıq düşəndə Bəhiyyəni «Şivənə» məhəlləsində yaşayan əmisinin evinə buraxıb Aleksandr adlı gürcünün açdığı «Kavkaz» otelində düşdük.

## XOY ŞƏHƏRİ

Xoy şəhəri İran Azərbaycanının ən gözəl suları, çeşmələri və meyvəsilə məşhur olan şəhərlərindən birisidir. Şəhər palçıqdan qayrılmış cəsim bir qələnin içərisindədir. Qələnin dörd tərəfi xəndəklərdən ibarətdir. Bu xəndəklər su ilə doludur. Kənardan gələnlər şəhərə körpülər vasitəsilə keçə bilərlər. Küçələrin hamısından su keçir. Suların üstü açıq olduğundan tamamilə kəsafət içindədir. Böyük məscidlər və qədimdən qalmış hökumət binaları vardır. Lakin bunlar çoxdan bəri təmir edilmədiyindən xərabəliyə üz döndərmişdir.

Oteldən çox tez çıxdıq. Xeyrəddin bəy Hacı Həsən Ağa tacirbaşını görəcəkdi. Yolumuz corab satan bazardan düşdü. Burada qadınlarla qarışıq kişilər ticarət edirdilər. Burada nəzər-diqqətimi cəlb edən bir şey varsa, tamamilə qadınların çirkin, kişilərin isə gözəl olmasıdır. Mən bunu Hacı Rza Mahmudovdan zarafatla soruşdum. O, dəxi zarafat ilə belə cavab verdi: «təbiət bizi qadınlarla dəyişik salmışdır».

Hələ tez olduğu üçün karvansara açılmamışdır. Hacı Həsən Ağanı

görmək mümkün deyildi. Biz Şivənə qapısından bayıra çıxıb qalanın ətrafını dolaşmağa başladıq. Rus qoşun hissələri bütün xiyabanın yanlarında, böyük dağ bağında və rus konsulxanasının ətrafında yerləşmişdi.

Burası doğrudan da böyük müharibə ərəfəsində olan bir ordu qərargahını təsvir edirdi. Nədənsə Xeyrəddin bəy bu mənzərəni gördükdə ruhlanır və çöhrəsində sönməz bir şadlıq nəzərə çarpırdı. O, daha da uzaqlara getmək və qoşun hissələrini tamamilə gözdən keçirməyə maraqlanırdı. Doğrudan da soqül-çeyş nöqteyi nəzərindən mühüm olan bu şəhərin bir müharibə cəbhəsinə döndərilməsi Anadoluda və kürdüstanda mühüm bir hadisənin gözlənildiyini işarə edirdi.

Üç saat tamam gəzdikdən sonra şəhərə qayıtdıq. Hacı Həsən Ağa tacirbaşı hücrəsində idi. Xeyrəddin bəy onunla görüşdü, məni də tanış etdi. Xeyrəddinbəy ondan Bədirxan Paşazadə Əbdülrəzzaq bəyi soruşdu. Onun bir neçə günlüyə Urmiya şəhərinə getdiyi məlum oldu. Hacı Həsən Ağa Xeyrəddin bəyə para təklif etdi.

Söz yox ki, Xeyrəddin bəy almaqdan boyun qaçırmayacaqdı. Çünki Culfada olduğu vaxt Naxçıvana gedib bütün paralarını Cəfərağa Zülfəliyevə uduzmuşdu. Hacı Həsən Ağa çox para verdi. Lakin o, beş yüz manat götürdü. Xeyrəddin bəy bol-bol para sərf etməyi sevirdi. Otelə gəldik. O, həmən günü təntənəli bir nahar sifariş vermək istədisə, mən buna mane oldum. Çünki onu öyrənmək gecə əlverişli idi. Onu lazımi qədər içirtmək və sirrini əlindən almaq lazım idi.

Təntənəli şam yeməyini gecələrin birinə buraxdıq. Hələlik nahar üçün aşbaz dükanına gəldik. Biz aşbaz dükanına yetişmədən çox təəccüblü bir hadisəyə təsadüf etdik. Dörd çarsunun ortasındakı kiçik üstüörtülü meydançada (İranda buna təmçə deyirlər) şəbih çıxarırdılar. Xeyrəddinbəy bununla çox maraqlandı. Durub tamaşa etdik. Meydançanın dörd tərəfi manufaktura və xərəzi malları, işıq şeyləri satan mağazalardı. Bütün tacirlər əllərini işdən çəkib əllərində dəsmal ağlayırdılar. Aralıqda qız paltarı geyinmiş, qayət gözəl bir gənc oxuyurdu. Bu qız Həzrət Abbas şəbihinin ətəyindən yapışıb çox gözəl səslə bu təsnifi oxuyurdu:

Təşnəlik alıb qərarımı, zar, biqərarəm, ey əmu,
Gör nə əşqibarəm, ey əmu.

Bu halda rus soldatı boçqanın üstünə oturub, bilə-bilə boçqanı oxumaqda olan gəncə toxundurub onu böyrü üstə yıxdı. Gənc yenə qalxıb oxumağa başladı. «Həzrət Abbas» öz vüqarını pozmadı. Ağlayanlar da bu vəziyyətdən darılmadılar. Bu iş göstərirdi ki, hazırkı hadisə yalnız bu gün deyil, hər gün və hər həftə baş verirmiş. Xeyrəddin bəy bu hadisədən gülməyə başladı. Mən yerlilərin xatirinə toxunmasın deyə onu mən etdim.

Lakin bu fayda vermədi. Dükançıların birisi bu gülməyin nəticəsində halitəbiisindən çıxmışdı. O, bizə yanaşaraq dedi:

- Eyib deyil ki özünüz müsəlman ola-ola İmam Hüseyn təziyəsinə gülürsünüz? Mən ona təəccüblə baxaraq dedim:

- Mənim rəfiqim İmam Hüseyn təziyəsinə deyil, sizin özünüzə gülür.

- Bizim nəyimizə gülür? Meymun zad deyilik ki?

- Çünki siz yeni müsibətləri unudub əski müsibətlərə ağlayırsınız.

- Necə yeni müsibət?!

- Evinizin içində bir nəfər rus əsgəri şəbihinizi vurub yıxdıqda bu müsibət deyilmi?!

Dükançı daha dinmədi. Uzaqdan bu söhbətlərə qulaq asan bir zat irəli gəldi və dükançının qulağına nə isə dedi və onu sakit elədi. Sonra mənə dönərək:

- Doğrudur, hazırki müsibət daha böyükdür – deyərək yaxındakı saatqayıran dükana girib işinə başladı.

Aşbaz dükanına girdik. Bizi əvvəlcə erməni hesab etdilər. Mən türkcə danışıb cilo istədim. Bizdən üzr istədilər. Oturanlar bir-birinə: «qarabağlıdırlar»- deyə pıçıldadılar.

Nahardan sonra otelə qayıtdıq. Axşama qədər mənzildə istirahət etdik. Gecəni Aleksandrın hazırladığı kababla şam elədik. Gecələr burada çox qüssəli keçir. Heç kəs bayıra çıxa bilməz, gəzməli yerlər tamamilə rus ordusunun qərargahıdır. Axşam saat 9-dan sonra hər kəs evinə qapanıb səhərə qədər yatmalıdır.

***

Yarın yenə də səhər saat 8-də çay içib bayıra çıxdıq. Mən hamama getməyi məsləhət gördüm. Saat 9-da hamama getdik. Canımızı təmizlədilər. Lakin qoxudan və kəsafətdən otura bilmədik. Soyunmağımız ilə geyinməyimiz bir saat çəkmədi. Biz bayıra çıxanda hamamın qapısında çox adam yığılmışdı. Hər kəsin üzündə bir qorxu müşahidə olunurdu. Biz bir az irəli getdik. 16 yaşlarında gözəl bir gənc əmgəyinin altından bir bıçaq yarası alıb yıxılmışdı. Uşağın atası başını dizi üstünə alıb əlindəki dəsmalı uşağın yarasının üstünə basmışdı. Biz bunun səbəbini soruşduq. Bir nəfər çəkməsilən boylə cavab verdi:

- Bir ildən bəridir bu oğlana bir nəfər başmaqçı aşiq olmuşdu. Oğlan bu aşqı xoşlamırdı. Başmaqçını öz yaxınına qoymurdu. Uşaq qorxusundan hər yerə atası ilə gedirdi. Nəhayət, başmaqçı bu gün fürsət tapıb uşaq atası ilə hamamdan çıxdığı yerdə yaralamışdır. Mən başmaqçının həbs edilib-edilməməsini soruşdum. O, belə cavab verdi:

- Başmaqçı bəstə girmişdir. Bura müsəlman məmləkətidir. Bəstdən

adam çıxarmaq olmaz.

- Bəst haradadır?!

- Bax, bu görünən minarə bəstin minarəsidir.

Çəkməsilən bəsti göstərdikdən sonra biz canini görmək üçün maraqlandıq. Xeyrəddin bəy də buna razı oldu. Yolda bizə Hacı Həsən Ağa tacirbaşı rast gəldi. Bəstə getdiyimizi söylədik. O, bir az düşündü. Sonra:

- Gediniz, lakin orada başqa sözlər danışmaq məsləhət deyil. Cənab qonsulun tapşırığı budur ki, əhalinin adətlərinə və hökumətin daxili işlərinə toxunulmasın.

***

Bəstin qapısından uzun və ağır zəncirlər asılmışdı. Bu zəncirləri əyilmək və bəstə təzim edib girmək üçün asmışdılar.

Bəstin mücaviri (qulluqçusu) bizi qarşıladı. İcazə istədik. Müsəlman olduğumuzu bilib icazə verdi. Həyətin ortasında balaca bir hovuz var idi. Ətrafında əlliyə qədər ruhani oturub dəstəmaz alırdı. Hamısı suyu ağzına alıb yenə hovuza qaytarırdı. Suyun üzündə ağ köpük durmuşdu. Həyətin sol tərəfində polad pəncərəli bir qəbir var idi. O, mötəbər bir şeyxin qəbri idi. Bunun hörməti üçün də həman yer «bəst» - yəni qapalı və toxunulmaz bir yer qərar verilmişdir.

Böyük salon görünürdü. Orada qiymətli xalılar döşənibdir. Ətrafında mollalar, şeyxlər oturub çubuq və qəlyan çəkirlər. Müqəssirlər və bəstə oturanları əvvəlcə görməyə maraqlandıq. Bizi qamış həsir döşənmiş kiçik bir otağa apardılar. Burada üzü qırxılmış, qara və yoğun bığları olan otuz yaşlarında bir kişi kiçik döşəyin üstündə oturmuşdu. Bir nəfər bərbər bunun üzünü qırxıb, birçəklərini darayırdı. Kim olduğunu soruşduq. Mücavir onu bizə tanış verdi.

- Bu gün hamamın qarşısında uşağı yaralamışdı – deyəndən sonra cani özünü azad hiss edən bir zat kimi bığlarını və üst-başını düzəltməyə başladı. Başmaqçının qiymətli əyni-başı var idi. Mən yanımı pəncərənin taxtası üzərinə qoyub oturdum. O, mənə üz döndərib soruşdu:

- Qarabağlımısan?

Təbiidir ki, o, bizim başımızda xurmayı dəridən papaq gördüyü üçün bunu soruşurdu.

- Bəli, Qarabağlıyam! Lakin bu günkü xatanızdan təəssüf edirəm, dedim:

- Əlbəttə, təəssüf edilməli işdir. Lakin çəkə bilmədim, deyərək ağ dəsmalı ilə bığlarını sildi və sözünü davam etdi:

- Siz qeyrətli adamlarsınız. Bizim adətlərimizi bilərsiniz. Mənimlə tanış olmaq istəmədiyi nə qədər ağır isə, mənim düşmənlərimlə tanış ol-

ması da mənə o qədər ağır gəlirdi. Mən qısqandım. Siz bilirsiniz ki, qısqanmaqdan da bu cür işlər çox olur.

Xeyrəddin bəy Hacı Həsən ağanın tövsiyələrinə əməl etdiyindən heç bir söz demirdi.

Bu vaxt mücavir qayıdıb bizi salona dəvət etdi. Biz potinlərimizi çıxarıb içəri girdikdə yuxarı başda oturmuş şeyx bir kərə «ya Allah» dedi. Bundan sonra özü də, başqaları da bizim ayağımıza qalxdılar. Əyləşdik, qəlyan, çay gətirdilər. Xeyrəddin bəy qəlyan çəkdi. Mən çay içdim. Şeyx haralı olduğumuzu və nə üçün bəstə gəldiyimizi soruşdu.

- Qafqazlıyız. Bugünkü hadisə ilə maraqlandıq.

- Hansı hadisə?

- Hamamın qarşısında uşağı vurub bəstə oturan caninin törətdiyi hadisə ilə.

- Bəli, Allahın lənətinə giriftar olmuş şeytan, daima möminləri yoldan azdırmağa və əyri yola salmağa çalışır. Şeyx bu sözləri dedikdən sonra mən cavab verməyə cəsarət etmirdim. Çünki bir ixtilaf çıxmasından qorxurdum. Xoy şəhərinə pasportsuz və icazəsiz gəldiyim də sükutumə səbəb oldu.

Çay içdik. Xeyrəddin bəy də qəlyanı buraxdı. Mollalarla xudafisləşib bəstdən çıxdıq.

***

Nahardan sonra hava çox isti idi. Qafqaz otelinin bufeti zirzəmi kimi sərin bir yerdə idi. Xeyrəddin bəylə bufetin yanında qoyulmuş bir masanın başında oturub sərinləyirdik. Xeyrəddinbəyə təzə xiyar ilə kişmiş arağı gətirdilər. Bufetin yanında gödək boylu, arıq və sısqa bir adam durub araq içirdi. Xeyrəddin bəy bunun kim və nə iş sahibi olduğunu mehmanxana sahibi Aleksandrdan soruşdu. Onun Tehrandan gəlmiş Abihəyatxanım adlı çalan və oxuyan qızın dəf çalanı olduğunu söylədi.

Xeyrəddin bəy təntənəli bir şam yeməyi sifarişini verdi. Və Abihəyat xanımın 15 tümən (30 manat) müqabilində vədəsini aldı.Bir az içdikdən sonra otağımıza çəkildik.

***

Hava çox isti olduğu üçün Aleksandr axşam yeməyini otelin damında düzəltmişdi. Dam çox uca idi. Nərdivan ilə çıxmaq lazım gəlirdi. Şam yeməyi süfrənin üzərində döşənmiş və ətrafda xırda xalçalar salınmışdı. Şərab mina bir ibritdə qoyulmuşdu. Şərab Urmidən gətirilmiş məşhur Ağa Bərzək adlı mülkədarın şərabından idi. Bunu yalnız Abihəyatxanım üçün gətirmişdilər. Çünki Abihəyatxanım araq içmirmiş. Araq yastı şüşələrdə idi ki, bunlara İranda «kitabi şişə» deyirlər. Süfrədə hələlik təzə pənir,

qatıq və səbzi ilə qarışmış qatıq və cürbəcür səbzilər qoyulmuşdu. Bir neçə dəqiqədən sonra otel qulluqçularından birisi gəlib «gəldi!» - deyə qayıtdı. Bir dəqiqədən sonra qabaqca bir nəfər əlində tar və qaval, onun dalınca da Abihəyatxanım öz qavalvuranı ilə nərdivandan çıxıb gəldi.

Aleksandr onu əvvəlcə Xeyrəddinbəy, sonra mənimlə tanış etdi. Qadın çarşabını götürüb qulluqçuya verdi. Yuxarı başda salınmış döşəyin üstündə oturdu. Abihəyatxanım son modada geyinmiş qərbli bir qadına bənzəyirdi. Bu gözəl fars qızının rəngi qaraya mail idi. Alnına düşən tellərinin üstündə olan və bahalı daşlarla bəzənmiş bir cıqqa vurulmuşdu ki, bu da ümumiyyətlə, şahzadə xanımlara məxsus bir əlamətdir. Qulaqlarında noxuddan daha böyük brilyant sırğalar var idi. Kabab gətirildi. Hələlik şəraba əl vurulmamışdı. Abihəyatxanım mənim sol tərəfimdə idi. Xeyrəddinbəy isə onu düz-doğru görmək üçün yerini dəyişib qarşı-qarşıya oturmuşdu.

Abihəyat aralıqdakı şərab qədəhlərinə baxaraq məndən soruşdu:

- Farsi midani?

- Midanəm və kəm-kəm hərf bezənəm. – dedikdən sonra farsca soruşdu

- Əz kodam şərab xahid xord?

- Bərayi-mən fərqi nədarəd.

- Şərabi-sorx benuşid.

- Eyb nədarəd[1].

Şərab piyalələri doldurdular. Xeyrəddin bəy Abihəyt xanımın şərab içməsinə razı olmadı. «Abihəyat xanım ilə mən araq içəcəyiz» - dedikdən sonra mən qıza qandırdım. O, güldü. Məni keflətmək istəyir – deyə əlavə etdi.

- Etiraz nədarəm.[2] – deyib araq piyaləsini əlinə aldı. Kabab bişdi. Abihəyat xanım piyaləni yerə buraxıb, tarı dizinin üstünə qoydu. Köklədi və çarigah çalmağa başladı. Sədinin bu qəzəlini oxuyurdu:

Bəxti cavan darəd an ke bato qərinəst
Pir nəkərdəd ke dər beheşt bərinəst.[3]

Abihəyat xanım bu qəzəli tamamilə oxuyub bitirdi. Yenə də Xeyrəd-

*1. Tərcüməsi: - Farsca bilirsən?*
*- Bilirəm və az-az danışıram*
*- Hansı şərabdan içəcəksən?*
*- Mənim üçün fərqi yoxdur.*
*- Qırmızı şərab iç.*
*- Eybi yoxdur.*

*2. Tərcüməsi: -Etirazım yoxdur.*

*3. Tərcüməsi: -O cavanın bəxti var ki, sənə oxşayır.*
*Qocalmayır ki, yüksək behiştdədir.*

din bəy ilə araq içməsini davam etdirdi. Yanındakı dəf vuran tez-tez «Xanom, bəs əst»[1] - deyə onu içməkdən mən edirdi. Bununla da mən bunun Abihəyat xanımın əri olduğuna inandım.

Gecə saat 1-də plov verildi. Xeyrəddin bəy Abihəyat xanımı kefləndirmək fikrində yanlış çıxdı. Onun özü keflənməyə və sözlərini itirməyə başlamışdı. Abihəyat xanım özünü çox vüqarla aparırdı. O, plovu başlamadan tarı əlinə götürdü və soruşdu:

- Çe bexanim?

- Çizi əz Xace bexanid,[2]-deyə Xacə Hafizdən şeirlər oxumasını arzu etdim.

O, heç təxir etmədən Hafizdən bu qəzəli oxudu:

Hafiz nəgəşdi rüsvayi-giti
Gər mişenidi hənd əz ədiban.

Artıq Xeyrəddinbəy tam mənası ilə sərxoş idi. O, başqasının danışmasına və Abihəyat xanımın oxumasına da imkan vermirdi. Plovu yeyib bitirdik. Abihəyat xanım yenə içir və içdikcə Sədinin, Hafizin qəzəllərini oxuyurdu. Nobət Xeyrəddin bəyə yetişdi. O:

- Mənəm Şərqin Napoleonu! Mənəm Səlahəddin Əyyubinin varisi! – deyə arağı stəkan ilə içirdi. Xeyrəddin bəy Kürdüstanda öz hökumətini qurduqda məni maarif naziri «təyin edirdi». Aleksandra Tiflisdə «vəzifələr vermişdi». Xidmətçilərə rus 25-lik paralarını arası kəsilmədən verirdi.

Gecə saat 3 olmuşdu. Xeyrəddinbəy daha danışmırdı. Onun qoltuğuna girib nərdivandan aşağı düşməklə yatırmışdılar. Abihəyat xanım məclisin vəziyyətindən təəssüf etdi. İkinci kərə görüşməyi arzu etdi. Mən Aleksandrın vasitəsilə ona xəbər verəcəyimi söylədim. Vidalaşıb getdi.

## ƏBDÜRRƏZAQ BƏY GƏLDİ

Əbdürrəzaq bəy Bədirxan Paşazadənin Urumu (Urmiya) səfərindən qayıtdığını Hacı Həsənağa tacirbaşı bizə xəbər verdi. Xeyrəddin bəy ilə bərabər görüşünə getdik. Xeyrəddin bəylə öpüşdülər. Məni də çox məhəbbətlə qəbul etdi, Qafqazlılara İstambulda ikən səmimiyyət bəslədiyini və onların səmimi adamlar olduğunu söylədi.

Qəhvə içdik. Gözəl və şıq bir imarətdə yaşayırdı. Evdə kişi və qadın qulluqçuları nəzərə çarpırdı. Səfərdən üç saat əvvəl gəldiyini və qayət yorğun olduğunu söz arasında işarə vurduğundan biz qalxdıq. O, axşam Xeyrəddin bəyin öz Yanına getməsini tövsiyə etdi. Axşam Xeyrəddinbəy

*1. Tərcüməsi: - Xanım bəsdir.*
*2. Nə oxuyum?*
*- Xacədən bir şey oxuyun.*

Əbdürrəzaq bəyin yanına gedəcəyini, bəlkə də gec qayıdacağını xəbər verib, pul qabını çıxartdı. Onu masanın üzərinə qoyaraq əlavə etdi.

- Mənsiz sizə kəsalət keçəcəyi şübhəsizdir. Para sərf etməkdən çəkinməyiniz. Bəlkə siz də Aleksandr ilə bir iş düzəldə bilərsiniz – deyib məni öpdü və əlimi sıxaraq oynadı və getdi. Biz o gecəni Abihəyat xanımı çağırdıq. O, az içdi. Gecəni saat 2-yə qədər çalıb-oxudu. Qalxıb getdikdə bu müsahibətdən məmnun qaldığını və Xoyda olduğum zaman yenə də belə əyləncələr düzəlməsini rica etdi.

Əbdürrəzaq bəy gələndən bəri Xeyrəddin bəy ilə mənim aramda olan sıxı rabitənin şəkli tamamilə dəyişmişdi. Heç şübhə yoxdur ki, həm Hacı Həsən Ağa tacirbaşı, həm də Əbdürrəzaq bəylər məndən şübhələnirdi. Bunu Xeyrəddin bəyə söyləməmiş deyildi. Bunu mən lazımınca hiss edirdim. Mən Hacı Həsən Ağanın hücrəsinə girdikdə söhbətin şəklini dəyişirdi.

Nəhayət, günlərin birində Xeyrəddin bəy Əbdürrəzaqbəyin yanına keçəcəyini və mehmanxanada narahat olduğunu mənə söylədi. Bu söz məndən uzaqlaşmağın birinci siqnalı idi. Zatən mən özüm də Xoy şəhərindən çıxmağı qərara almışdım. Çünki həm Əbdürrəzaq bəy, həm də Xeyrəddin bəyin həqiqi simasını təyin etmişdim. Əbdürrəzaq bəy çar Rusiyasının təhrikilə Bitlisdə kürd üsyanı qaldırmaq və bununla da rusların Anadolu içərisinə soxulmasına imkan vermək işinə xidmət edirdi. Bu məqsəd ilə Xoy şəhərində könüllü kürd dəstələri düzəldirdí. Əbdülhəmidin xəlindən sonra «İttihadi-tərəqqi»yə qarşı nifrət bəsləməklə başı pozuqluğa başlamış Kürdüstan feodalları rusların hiyləsinə çox tez satılmışdılar.Bitlisli molla Səlim və başqa kürd şeyxlərinin təhriki ilə üsyan hazırlandığını Xeyrəddin bəyin özündən öyrənmişdim. Xeyrəddin bəy könüllü dəstələrə komanda edəcək idi.[1]

Xeyrəddin bəyi öyrənmək məsələsi bizim Culfada çalışan yoldaşların proqramına daxil deyildi. Bizim qrup yalnız İran işləri ilə əlaqədar məsələlərlə məşğul idi. Ona görə də mən Xoydan tez qayıtmağa tələsirdim. Pasportsuz gəldiyimdən də bəzi qorxular hiss edirdim.

***

Bazardan Culfaya götürmək üçün bəzi şeylər alıb mehmanxanaya qayıtmışdım. Molla Hüseyn və oğlu Ziyaullahı bir nəfər gənc ilə qapıda durduqlarını gördüm. Doğrudan da mən həyəcana düşdüm. Onların Bəhiyyə xanımın dalınca gəldiklərini və onu qaçırdığım üçün məni təhqir edəcək-

*1. Kürd üsyanı 12-ci ildə başladı. Xeyrəddin bəy isə Saray dağından aşıb boş qalan qalaya girmək istədikdə Türkiyə jandarma dəstələri tərəfindən öldürüldü. Molla Səlim və başqaları da həbs edildikdən sonra üsyan nəticəsiz qaldı. Çünki bu üsyanda daşnaklar da kürdləri döydülər.*

lərini zənn edirdim. Lakin iş belə deyildi. Molla Hüseyn məni qucaqlayıb öpdü.

- Doğrudan da qafqazlısan, bacarıqlısan və namuslu adamsan – dedikdən sonra Ziyaullah da əlimi iki əlləri ilə sıxaraq dedi:

- Əmim oğlu Ələkbərlə tanış ol!

Mən əlimi uzatdım. Ələkbər mənim əlimi öpdü. O, Bəhiyyənin sevgilisi və nişanlısı idi. Mən onları içəri dəvət etdim. Molla Hüseyn məni aparmaq üçün gəldiklərini söylədi. Şeyləri mənzilə qoyub Aleksandrın yanına gəldim və qonaq gedəcəyimi xəbər verdim. Bəhiyyənin əmisi evinə gəldik. Qızın əmisinin adı Usta Həsən sərrac idi. Sənəti at yəhəri və at cilovu qayırmaq idi. Biz içəri girdikdə bizi bir dəstə qadın qarşıladı, yəni onun gələcək qaynanası və onun qızları idi. Bəhiyyədən başqa hamısı başı örtülü idi. Bəhiyyənin qaynanası yaşlı bir qadın idi. O, məni görən kimi «boyuna qurban olum, oğul!» - deyib ayaqlarıma düşdü. Mən onu qaldırdım. «Bunlar lazım deyil» - dedim. Qadın isə:

- Mənim balamı ölümdən qurtardın, yoxsa Ələkbər özünü öldürəcəkdi, - deyərək ağladı. Mən kişilərin və qadınların arasında içəri girdim. Otaq gözəl döşənmişdi. Başqa İran evləri kimi bu ev dəxi əsgi İranın əfsanəvi qəhrəmanlarının təsvirləri ilə bəzənmişdi. Çay gətirdilər. Çayı Bəhiyyə çay gətirənin əlindən alıb, mənim qabağıma özü qoydu. Rəngi qızardı. Mən ona müraciətlə:

- Bəhiyyə bacı, keyfin necədir? Bizim yoldaşlığımızdan razı qaldınızmı? – dedikdən sonra o, çiyninin üstündən baxıb:

- Ölüncə unutmayacağam! – deyib, qapıdan çıxdı.

Qızlar, qadınlar getdi. Bəhiyyənin qaynanası qaldı. O, mənim tərcümeyi-halımı soruşmağa çalışırdı. Anam sağ olduğunu, qardaşım, bacım olduğunu soruşdu. Hamısına cavab verdim. Bundan sonra o yenə də sözə başlayıb dedi:

- Hərgah muradına yetişməmisənsə, Allah səni muradına yetirsin!

Mən buna xəfifcə güldüm. Daha başqa cavab vermədim. Hələ çay içib bitirməmişdik. İki nəfər molla içəri girdi. Oturdular, məndən əhval soruşdular. Lazımi suallarının cavabını verdim. Usta Həsən sərrac mənim kim olduğumu onlara söylədi. Məni çox təqdir etdilər. Sonra bir neçə nəfər də gəldi. Bundan sonra Bəhiyyə xanımın kəbin kəsiləcəyi bəlli oldu.

Mollalar məsələyə başladılar. Qızın oğlanın vəkillərini soruşdular. Oğlan tərəfindən atası vəkil oldu. Qızın tərəfindən vəkil yox idi. Bəhiyyənin özünü çağırdılar. Bəhiyyə anası ilə bərabər başında çarşab içəri girib mollalara baş əydi. Molla ona kəbin kəsiləcəyini və Ələkbərə getməyə razı olub-olmamasını soruşdu. Bəhiyyə başı ilə razı olduğunu bildirdi. Molla

yenə də ona müraciətlə:

- Kimi vəkil edirsən?! – dedikdə, Bəhiyyə barmağı ilə məni göstərib getdi. Kəbin kəsildi, plov gətirdilər. Mollalar yedikdən sonra tez getdilər. Başqa yerə vədələri olduğunu dedilər. Biz çox oturduq. Gecə saat 12-nin yarısında fənəri yandırıb məni mehmanxanaya yola saldılar. Sabah nahara gedəcəyimi təkidlə rica etdilər. «Yarın gedəcəyəm» dedimsə də razı olmadılar. Nəhayət, onlara söz verdim.

***

Usta Həsənin nahar süfrəsində məndən başqa adam yox idi. Nahara badımcan dolması və kükü bişirmişdilər. Başqa yeməklər də var idi ki, mən onları birinci kərə gördüyümdən adlarını bilmirdim. Mənə olmazın hörmətlər etdilər. Molla Hüseyn gülərək əlavə etdi:

- Evoğluda hər kəs elə bilirdi ki, Bəhiyyəni qonaq götürüb qaçmışdı. Biz özümüz də elə bilirdik. Lakin Ziyaullah buna inanmırdı. Yaxşı olardı siz qayıdanda Evoğluda mənzil etməyəsiniz. Bəhiyyənin qaçırıldığı üçün bəlkə də sizə əziyyət verdilər. Mən buna güldüm: «Mənə heç bir şey etməzlər»- deyərək onları sakit etdim.

Nahardan sonra usta Həsən məni öz bağlarına apardı. Və bir çox yerləri mənə göstərdi. Axşam vaxtı yenə də onların evinə gəlib çay içdim və rahat oldum. Faytonu vaxtkən görmüşdüm. Səhər azan vaxtı qoşub mehmanxananın qarşısına gələcək idi. Bunu usta Həsənə xəbər verdim. Axşam saat 10-da vidalaşıb qapıdan çıxdıqda, məni bütün ailə yola salırdı. Onlar tezdən məni ötürmək üçün gələcəklərini söylədilər. Mən bunun artıq olduğunu dedim. Sonra xudafiz – dedikdə dalımdan bir səs eşitdim:

- Salamat get, qardaş!

Mən dönüb baxdım. Bəhiyyənin ağladığını gördüm.

***

Sabah azanı Bəstin əncümən minarəsindən azan çəkilməyə başladıqda fayton atlarının zəng səsləri də eşidilirdi. Mən şeylərimi götürüb bayıra çıxdıqda usta Həsənin məni yola salmağa gələcəyinə inanmırdım. Lakin bayıra çıxanda usta Həsəni, Molla Hüseyni, Ziyaullahı və Bəhiyyənin əri Ələkbəri qapıda gördüm. Şeylər yerbəyer oldu. Mən görüşüb faytona oturdum. Ələkbər bir ağ bağlını faytonun dalına qoydu. Fayton dar küçənin döngəsini keçənə qədər dönüb baxırdım. Onlar hələ mənim dalımca baxırdılar.[1]

Usta Həsənin oğlu Ələkbərin faytona qoyduğu bağlının içində corablar, alt paltarları, yol üçün yemək şeylərindən ibarət idi.

*1.14-cü ilin əvvəlinə qədər onlardan məktub alıb və məktub göndərirdim. Bəhiyyə oğlunun balaca barmağını kağıza basıb göndərmiş və bununla da oğlu olduğunu bildirmişdi.*

***

Mən Xoy şəhərindən qayıdıb İran Culfasında gecələyəcəkdim. Gündüz saat 2-də Culfaya yetişdim. Mən daima İran Culfasına keçdikdə tanışlar hər birisi məni öz mənzillərinə qonaq aparmaq üçün bir-birlərinə macal verməzdilər. Lakin bu gün rastıma çıxan tanışlar salam verib, keyfimi soruşub keçdilər. Mən isə Rusiya sahilinin vəziyyətini öyrənməmiş o tərəfə keçmək istəmirdim. İran sahilində qalıb Baxşəli Ağa və Şeyxov ilə məsləhət etdikdən sonra Rusiya sahilinə keçməyə qərar vermişdim. Baxşəli Ağanın arabaları Təbrizdən qayıtmışdı. Onlarla məktub göndərdim. Gecəni qalmaq üçün yoldaşlardan Ələkbər Şücalının mənzilinə getdim. Ələkbər yoldaş Rusiya sahilində işlərin dəyişdiyini, bizi lazımi surətdə təqib etmək üçün Rzaqulu bəy Teymurbəyovun Ordubaddan Culfaya gətirildiyini xəbər verdi. Mən müvəqqəti olaraq Təbrizə getmək və işlər düzəlincəyə qədər orada qalmağı düşünürdüm. Hər halda Xeyrəddinbəyi təqib etmək üçün mənim Xoy şəhərinə getməyim böyük bir səhv idi. Bu, bizim qrupun proqramına daxil deyildi.

Səhər saat 11-də Baxşəli Ağa və Şeyxovun məktubunu aldım. Məktubda jandarm idarəsinin şübhələndiyi və Jeşşoltun məni bir daha İran tərəfinə buraxmayacağı və eyni zamanda, başqa bir təhlükə olmadığı yazılmışdı. Xeyrəddin bəyi təqib etmək işinin səhv olduğunu da yazmışdılar. Lakin bizi bu səhvi buraxmağa məcbur edən başqa bir məsələ dəxi var idi.

Bir neçə ay əvvəl İran-kürd ağalarından Sitmenkonun Culfa təriqi ilə Qafqaz canişini Vorontsov-Daşkovun yanına getməsi və ondan sonra İran kürdlərinin Rusiya tərəfindən istifadə edilməsi bizi Xeyrəddin bəyi təqib etməyə məcbur elədi. Mən saat 4-də Rusiya sahilinə getdim. Araz körpüsündə jandarm mütərcimlərindən Əlibəyi gördüm. Məni görən kimi İrana getməyərək dalı qayıtdı. Mən evə gəlib paltarlarımı dəyişib yoldaşlarla görüşməyə hazırlanırdım. Bir stəkan çay içib bitirməmiş qapı vuruldu. Jandarm onbaşısı Xramtsovun məni çağırdığını söylədilər. Xramtsov içəri girdi. Polkovnik Ştraube məni yanına istədiyini söylədi. Xramtsov oturub çay içdi. On manat da pul aldı. Nə üçün çağırdığını və kimlərin buna səbəb olduğunu xəbər verdi. Xramtsov daima bu kimi sözləri para alıb söyləməkdən heç vaxt boyun qaçırmazdı. Biz Xramtsov ilə bərabər getdikdə qaranlıq düşmüşdü. Məsələni yoldaşa xəbər vermək üçün evə tapşırdım. Biz jandarm idarəsinə deyil, düz-doğru polkovnikin oturduğu evə gəldik. Polkovnik yuxudan təzəcə durmuşdu. O, məni görərkən Xramtsova müraciətlə dedi:

- Get, büs-bütün get! Daha lazım deyilsən. Mən bunu eşidərkən həbs edilmək qorxusundan çıxdım. Sonra polkovnik istehza ilə:

- Xoy səfərində müvəffəq olub-olmadığını bilmək üçün çağırmışam, deyib gülümsündü. O, məni tanıyırdı. Klubda dəfələrlə görmüşdü. Buna görə də mən o qədər də çəkinməyirdim. Onun sözünə cavab olaraq:

- Xoydan müvəffəqiyyətlə qayıtdım. Səfərimdən razı qaldım- deyə sakit oldum.

- Elə isə əldə etdiyin müvəffəqiyyətləri nəql et. Çünki mən sənin həqiqi siman haqqında müəyyən izlər əldə etməyə müvəffəq olmuşam. - deyib yanındakı kiçik kitab etajerkasına baxdı. O baxan yerə mən də baxdım. Orada bir yığın qəzetlər gördüm. Qəzetlər İstambulda çıxan «Sabah» qəzetləri idi. Qəzetlərin mənzilimdən götürüldüyünü bilirdim. Kimlər tərəfindən aparıldığı məlum deyildi. Vəziyyətdən çıxmaq lazım idi. Polkovnik məndən cavab gözləyirdi.

- Söyləyiniz baxım!

- İranın çox yerlərini görmüşdüm. Lakin Xoy şəhərini görməmişdim. Oranın təbiət və iqlimcə gözəl olduğunu oxumuşdum.

Polkovnik sözümü kəsib:

- Sən bir çox şeylər oxumusan, - dedi. Mən yenə sözümə davam etdim:

- Mən icazəsiz getmək istəmirdim. Lakin Xeyrəddin bəy məni bu səfərə məcbur etdi. Xatirin sındırmaq istəmədim. Bu şəhərdə bir çox şeylər gördüm. Bir çoxları ilə tanış oldum. Polkovnik bu sözdə tələsik soruşdu:

- Nə gördün? Kimlər ilə tanış oldun? - deyib gözlərini gözümə zillədi. Bu vaxt qulluqçu çay gətirib yanıma qoydu. Qarışdırıb içdim. Yerə qoydum və sözümü davam etdirdim:

- Biz Xeyrəddin bəygilə buradan getdikdə o, mənə bir nəfər dostunu və İstanbulda tanış olduğu bir zatı tərif eyləyirdi. Məni onunla tanış etməyi vəd eləmişdi. Lakin təəssüflər olsun ki, biz Xoy şəhərinə getdikdə o zat Urmiya şəhərinə getmişdi.

- Onun tanışı kimdir, əcaba?

- Əbdürrəzaq bəy Bədirxan Paşazadə.

- Çox əcəb! Sonra?

- Birinci gün heç kəsi görə bilmədik. Qafqaz mehmanxanasında mənzil etdik.

-Xeyrəddin bəy ilə bir yerdəmi?

- Bəli qayıdana qədər bir yerdə qaldıq. Birlikdə yedik, birlikdə içdik.

- Bunu Xeyrəddin bəyin özü də təsdiq edərmi?

- Zənnimcə təsdiq edər. Çünki inkar etməsi üçün heç bir səbəb yoxdu.

- Çox əcəb, söylə baxım!

- Yarın biz tacirbaşı Həsənağa ilə görüşdük. O, Xeyrəddin bəyi bu səfərdə yalnız buraxmamaq üçün mənə razılıq verdi. Bu sözlərdə də polkovnikin çöhrəsi azca dəyişildi.

- Əbdürrəzaq bəylə tanış olmaq sənə mümkün olmadımı? – deyə əcələ ilə soruşdu.

- Son günlər görüşdüm. Bu görüşdən məmnun qaldım. Simaca çox gözəl, danışıq və şivəcə qayət sevimli bir adamdır. Onu tam mənası ilə bir ədib kimi gördüm. Qəhvəsini içdik. Az da olsa söhbətində bulunduq.

- Əcəba, Xoyda nə iş görürdü?

- Orasını bilmədim. Soruşmağa da lüzum görmədim. Hər nə isə Hacı Həsən ağa tacirbaşı ona çox böyük hörmət bəsləyir.

Polkovnik bu sözlərdən sonra çox mülayim bir surətdə soruşdu:

- Səni bura çağırmaqdan məqsədim bu maraqlı səfərdən razı qalıb-qalmadığınızı bilmək deyildir. Mənə lazım olacaq bir şey olacaq, o da Xeyrəddin bəyin simasını bəlli etməkdən ibarətdir. De görüm, o,Xoyda nə kimi işlər ilə məşqul idi? Yanına kimlər gəlirdi? Nə söhbət edirdi? Nələrin barəsində danışırdı.

Mən artıq polkovnikin məqsədini anlamışdım. O, mənim Xeyrəddinbəyin hərəkətlərini təqib edib-etmədiyimi öyrənmək istəyirmiş. Buna görə də onu əmin etmək üçün sözümə davam etdim:

- Mən Xeyrəddin bəylə olduğum vaxt onun bir kəslə dostluğunu və əlaqəsini görmədim. O, daima öz gənclik və zabitlik həyatından danışırdı. Bəzən kürdlərin xasiyyətləri, adət və ənənələri haqqında da söhbət edirdi.

Polkovnik əlini uzadıb «Sabah» qəzetini götürdü. Qabağıma qoydu:

- Bu qəzetlərdən oxuyursanmı? – dedikdə qəzetlərin sərlövhələrindən tanıdım. Onlar mənim mənzilimdən götürülən qəzetlər idi.

Polkovnik qəzetləri mənim qarşıma atıb soruşduqda qız qəzetə və mənə çox diqqətlə baxırdı. Mən inkar etmədim.

- Daima oxuyuram – dedim.

- Nə vasitə ilə alırsan?

- Hərgah bundan ikinci bir adamın zərər çəkməyəcəyini bilsəydim, doğrusunu söyləyərdim.

- Sənə təmiz söz verirəm ki, heç kəsə zərər toxunmayacaqdır.

- Mən həmin qəzetləri poçta qulluqçusundan alıb oxuyuram, yenə də özlərinə qaytarıram. Onları yenə də öz sahiblərinə göndərirlər. Qəzetlər İrana gedir. Üstlərinə baxa bilərsiniz.

Polkovnik fransızca yazılmış adresləri gözdən keçirib sözlərimə inandı.

Doğrudan da məsələnin əsası bundan ibarət idi. Mən qəzetləri İrana

yazdırmışdım. Mümkün olduqca poçtadan götürürdüm. Mümkün olmadıqda İrandan gələnlər əldə gətirirdilər.

Polkovnik bir neçə saniyə fikrə getdikdən sonra başını qaldırıb dedi:

- Sənə Xoy şəhərinə getməyə icazə verilməmişdi. Sənin bu səfərin haqqında təhqiqat aparılacaqdır. Lakin pristav Jeşşolta da tapşırılmışdır ki, sənə İrana keçməyə icazə verilməsin.

İndi gedə bilərsən. Rahatsız etdiyim üçün bağışlayınız.

***

Dünya Müharibəsi hələ başlamamışdı. Çar orduları İrana və Türkiyə hüdudunda vaqe Xoy şəhərinə sel kimi axışıb gedirdi. Türkiyə hüduduna göndərilənlərin əksəri erməni könüllülərindən ibarət idi. Culfada olan erməni gənclərindən də könüllü yazılanlar var idi. İran ilə həmhüdud olan şəhərlərdə yenə də 6-cı illərdə baş verən erməni-müsəlman ixtilafının və milli vuruşmaların qoxusu gəlməyə başlamışdı.

Çar hökuməti Türkiyəyə qarşı açacağı müharibədə yerli müsəlmanların Türkiyə lehinə işləyəcəyində qorxurdu. Buna görə də yerli ermənilərdən müsəlmanlara qarşı istifadəyə hazırlanırdı.Naxçıvan ilə Culfa arasında, Ordubad ilə Naxçıvan arasında yenə də daşnaklar yol ilə gedən müsəlmanları söyür, döyür və təhqir edirdi. Hələ Türkiyə hüdüduna göndərilən erməni könüllülərinin rastına keçən müsəlmanların dilini və müqəddəs şeylərini söyməsi də bura əlavə olunursa, demək olar ki, çar hökuməti yenə də mütəşəkkil bir avantyura hazırlayırdı.

Erməni xuliqanları tərəfindən zərərdidə olanlara və Culfa pristavı Jeşşolta şikayətdə bulunanlara heç də əhəmiyyət verilmirdi.Milli ixtilafın alovlanmasına az qalırdı. Bizim yoldaşlar çar siyasətinin dəyişdiyini əllərində ünvan tutub, bir daha hökumətin milli ixtilafa səbəb verməməsinə inanmırdılar.

***

Sərnişin qatarının islıqı eşidilən kimi, birinci dərəcəli vaqon duran yer faytonların yanına qədər polis və jandarm tərəfindən əhatə edilmişdi. Kimsə buraxılmırdı. Mən yeni müsafiri görməyə tələsirdim. Mən vağzaldan müsafirin düşəcəyi pilləkanın qarşısında duran ikinci faytonda oturub müsafiri görməyə tələsirdim. Müsafir vağzaldan çıxdı. Bu zat məşhur erməni çitehçisi Andronik idi. Müsafir vağzaldan çıxar-çıxmaz daşnaklar əski erməni padşahları vaxtının milli bayrağını qaldırdılar. «Yaşasın-Yaşasın!» səslərinə rus jandarm və rus zabitlərinin də səsi qarışdı. Müsafir hərbi avtomobildə oturub Abramovun evində hazırlanmış mənzilinə getdi.

Biz yarın bu məsələni müzakirəyə qoyduq. İclasda Şeyxov Nəsrulla,

Bəxşəli ağa Şahtaxtlı, Ağa Məhəmməd, Hüseyn Sahibov, İsmayıl Bolqanlı, Arsin və Aleksandr iştirak etdilər.

Bu iki ermənininin əvvəlincisi Culfa kəndlisi, ikincisi isə İrəvandan Culfaya ticarət üçün gəlmiş neft taciri idi. İclasda bədbəxt hadisəyə imkan verməmək üçün geniş müzakirə açılmışdı.

Müzakirədən sonra Andronik ilə görüşmək, ondan erməni-müsəlman ixtilafına yol verilməməsi üçün rica etmək, ermənilərlə müsəlmanları qandırmaq, daşnakların fitnələrinə soyuqqanlıqla baxmaq üçün müsəlmanları başa salmaq və sair bu kimi məsələlər qərarə alındı.

***

Mühüm müsafirlər ilə müsahibə etmək üçün Haşım bəy Vəzirov mənə müxbirlik vəsiqəsi göndərmişdi. Mən həmən vəsiqə ilə Andronik ilə müsahibə üçün Abramovun mülkünə getdim.

Qapının qabağında dərzi Qarapet fəxri qaraul durmuşdu. Bu daşnak dərzi yenə də daşnaklara müxtəlif xidmətlər ifa edirdi. Qarapet məni çox yaxşı tanıyırdı. Mən ona Andronikpaşanı görmək və qəzet üçün müsahibə etmək istədiyimi söyləyərək, vəsiqəmi göstərdim. Qarapet nədənsə özünü itirmiş kimi nə deyəcəyini bilmədi. Azdan sonra:

- Yanında mühüm bir adam vardır. Gedirik yarım saatdan sonra gəlirik.

- Eybi yoxdur, gözləyərəm, qorxuram mən gedəndən sonra başqası gəlsin.

- Sizi əmin edirəm ki elə iş olmaz. Mən özüm gəlib sizə xəbər verərəm.

- Yox, sizin zəhmətinizə razı deyiləm. Bir az gözləməkdən insan ölməz ki, - dedim.

Mən dedikcə Qarapet də bəhanə gətirib məni kabinetin qabağından uzaqlaşdırmaq istəyirdi. Nəhayət, mən heç vəchlə qapıdan uzaqlaşmadım. Çünki içəridə olanlar ilə maraqlanırdım. Çox bəhanə və üzrlərdən sonra Qarapet yenə də mənə müraciət etdi:

- Elə isə gəliniz otağa, oturub bir çay içiniz. Andronikpaşa sizi qapıda saxladığımı bilsə bəlkə də razı qalmaz.

- Şübhəsizdir ki, bunu Paşaya bildirməməlisiniz – dedim.

Biz bu danışıqda ikən «Haykın» qadını, yəni məşhur Culfa taciri Safrasyansın qızı rəngi qızarmış bir halda Andronik Paşanın otağından çıxdı. Qadın getdikdən 10 dəqiqə sonra mən hələ qapıda durmuşdum. Yan otaqda erməni aristokrat qadınlarından daha bir neçəsinin oturduğunu və Paşanı ziyarət etmək istədiklərini gördüm. Qarapet içəri girdi. Qəzet müxbirinin gəldiyini söylədi. Mən içəri girdim. Furaşqamı götürdüm.

Sözümü nə ilə başladığım haqqında düşünərkən Andronik «mərhaba» deyərək, yumşaq bir səndəldə oturmağımı rica etdi. Özü də əlini çiynimə qoyub, bərabərimdə əyləşdi:

- Söhbətə başlamadan əvvəl bir qəhvə içsək olmazmı? - deyə qalxdı.
- Zəhmətinizə razı deyiləm.
- Burada Türkiyə qəhvəsi hazır etməyirlər. Özüm hazırlamışam. Türkiyə qəhvəsinə adətiniz yoxsa, yenə də arxadaşlıq etməyinizi arzu edirəm.
- Məmnuniyyətlə, bu arxadaşlığı qəbul edirəm- dedim. Andronik ayağa qalxdı. Spirt ilə qaynayan qəhvədandan iki qəhvə töküb gətirdi və əyləşdi.
- Türkiyədə bu vəziyyətləri yaradanların Allah cəzasını versin. Mən ən sevdiyim Osmanlı məmləkətinin yabançısı, kim bilir, bəlkə də xaini kəsildim. Ölkədə görüb-öyrəndiyim adətlərin heç birisindən əl çəkə bilmərəm. Qəhvədən, qəlyandan ki heç də əl götürə bilmərəm.

Mən güldüm:

- Osmanlı məmələkətini çoxmu sevirsiniz?
- Sevirəm. Orada seviləcək bir şey yoxdursa, mən yenə də sevirəm. Zira çocuqluğum, gəncliyim orada keçmişdir.

Mən qəhvəni əlimə aldıqda o:

- Əfv edərsiniz, Əcəmmisiniz? Qafqazlımısınız?
- Qafqazlıyam, qafqazlı olduğum üçün də yanınıza gəlmişəm.
- Qafqaz hüduduna keçdiyimdən bəri birinci olaraq görüşümə bir türkün gəldiyindən ziyadəsi ilə məmnunəm.

Bununla barədər, etdiyimiz müsahibənin qəzetə göndərilməməsini də arzu edirəm. Söhbətimizdə mətbuata yarayacaq bir mahiyyət olmadığı bəllidir.

- Əcəba, mühüm müsahibədə bulunmaq olmazmı?
- İşdə, mənim dediyim budur. Mühüm söhbətlərin mətbuat səhifəsinə girməyi hələ yetişməmişdir.
- Mən söhbəti uzatmaq istəmədim. Çünki Qarapet içəri girib pristavın görüşə gəlmək istədiyini və nə vaxt təyin edəcəyini soruşdu. Andronik isə bir saatdan sonra qəbul edəcəyini söylədi. Demək ki, mənim oturmaq vaxtım azalırdı. Ona görə də dedim:
- Andronik paşa! Mən qəzet müxbiriyəm. Lakin sizinlə görüşə yalnız qəzet müsahibəsi deyil, mühüm bir iş üçün gəlmişəm.

Adronik özünü yığışdıraraq, mənə diqqətlə baxdı:

- Dinləyirəm! Dinləyirəm.
- Mən bu yerdə çoxdan bəri yaşayıram. 5-6-cı illərdə başlanan erməni-

müsəlman ixtilafından törəmiş faciələrin bir çoxunu öz gözümlə görmüşəm. Mən hər iki tərəfin dağılan kəndlərini, yanan evlər, günahsız öldürülən sürülərlə çocuqlar və qadınlar görmüşəm.

İndi də onları düşünərkən ürəyim ağrıyır. Hazırda Osmanlı-Rusiya münasibətinin pozulması nəticəsində əski faciələrin yenidən başlanması qorxusu meydandadır. Bu faciələrin zəminələri hazırlanır. Zənnimcə bunların qarşısını almış olarsınızsa öz xalqınıza da böyük bir atalıq etmiş olarsınız.

- Nə olmuşdur? Hələ ki, bir hadisə baş verməmişdir.

- Mən Naxçıvan, Culfa, Ordubad xalqı arasında olan bütün xırda hadisələri saydım. Paşa gözlərimin içinə baxırdı. Əlini ciynimə qoyub,

- Yavrum! – deyə sözə başladı:

- Mənim saçlarım mübarizədə ağarmışdır. Mən mübarizəsiz yaşaya bilmərəm. Mübarizədə bir çox səhvlər də buraxmışam. Bir çox hadisələrdə isə bilərək aldanmışam. Artıq etibardan düşdüm. Daha səhv etməməyə çalışacağam. Bu mübarizə – «İttihadi-tərəqqi» firqəsilə başladığım son mübarizədir. Bu mübarizənin planı bir dövlətin, yaxud bir diplomatın planı deyildir. Bu planı şəxsən mən özüm yazmışam. Bunun üçün siz məhəlli türkləri, bəlkə də tanışınız olursa, ağıllı bildiyiniz ermənilər əmin edə bilərsiniz. Bu mübarizə türklər əleyhinə deyil.Bu mübarizə Osmanlı dövləti, daha artığı ittihadi-tərəqqiçilərin əleyhinədir. Əleyhinə çıxmayan hər bir Türkün gözünü bağlayan erməni bizim hazırkı məqsədimizin düşmanıdır. Mən onu sözdə yox, işdə də göstərəcəyəm. Lakin siz türklərlə danışın. Onlarda ofaq-tüfək işlərə əhəmiyyət verməsinlər.

- Düşüncəm sizi qane etdimi? – deyə soruşdu.

- Siyasətlə işimiz yoxdu. Bizim üçün «İttihadi-tərəqqi» firqəsi də, daşnaksütyun firqəsi də firqəsizdir. Çünki onların hər ikisi bir sözü deyir. Bu firqələr ətrafından toplananların hər ikisi bir millət olsaydı, bu iki firqənin kölgəsində sərvət qazanan burjuaziyaya birləşə bilsəydi, bu iki firqənin cəbhədə işləyəcəyi şübhəsiz idi. Çünki dedikləri, düşüncələri birdi. Hər biri bir milləti hakim çıxarmaq istəyir. Halbuki bu xalqın hər ikisi birlikdə başqa bir vasitə ilə də hakim çıxa bilərdi.

- Doğrudur, arkadaş. Məsləkiniz müqəddəsdir. Lakin onu xəyal şəklindən çıxarıb həyata keçirmək olsaydı, bəlkə mən sizinlə razılaşa bilərdim. Lakin bu müqəddəs düşüncəni Anadolu kürdlərinin başına yerləşdirmək və erməni ailələrini onların pəncəsindən qurtarmaq mümkün deyildir. Mən qalxdım. O, əlimi sıxaraq:

- Bu, əvvəlinci və son görüşdür. Axşam getməliyəm, yenə də söhbət edərik. Lakin siz əmin olun ki, keçmiş xətaların təkrar olunmamasına ça-

lışacağam. Bilirəm, fikriniz bir cəmiyyətin fikridir. Onlara salam söyləyiniz.

Paşa bu sözləri dedikdən sonra qalxdı. Əllərini belinə qoydu. Alnının qırışları yuxarı qalxdı,kaman şəklini aldı. Gözlərindən dərin bir düşüncə parladı. Onun baxışı, onun dərin düşündüyü doğrudan da inadçı bir mübarizi andırırdı.

***

Osmanlı-rus müharibəsi başlanmamışdı. İran işğal olunmuşdu. İran məsələsi aralıqda yox idi. Hər kəs istədiyi vaxt İrana gedir və yenə də qayıdırdı. Çar jandarmaları İran tərəfində də hökm sürürdü. Günlərin birində pristav məni çağırdı. Mən onun para istəyəcəyini zənn edərək əlli manat hazırladım. Ayda 25 alırdı.

İki aylığını birdən verdim. O, 25 manat qaytardı.

- Daha burada qalmayacaqsan. 25 manatını götür. Polkovnik Zançenko Naxçıvana gəlmişdir. Rauf bəyin evindədir. Səni köçürmək istəyir. Bunun üçün də səni məndən istəmişdir.

Mən daha bir söz demədim. Düz-doğru Rauf bəyin evinə gəldim. Rauf bəy balkonda barmaqları üstündə olaraq yavaş-yavaş gəzirdi.

- Buyurun salona, polkovnik yatmışdı, - dedi. Salona girdim. Culfada onun salonundan gözəl salon yox idi. Rauf bəy çılpaq qadın şəkillərini sevərdi. Salonda Əhməd şah, ikinci Nikolayın şəkilləri ipək bir xalçanın üzərində vurulmuşdu. Biri döşləri açıq qadın şəkillərinin üstündə, digəri isə altından asılmışdı. Palkovnik Zançenkonun mütərcimi Hüseyn ağa əyləşib əlindəki kağızlarla məşğul idi. Hüseyn ağanın burada olması üçündür ki, Rauf bəy mənə heç də əhəmiyyət vermirdi. O, mənim ilə əski tanış kimi deyil, rəsmi bir adam kimi danışırdı. Hüseyn ağa da məni yaxşı tanıyırdı. O, dəxi başını qaldıraraq – əfv edərsiniz, polkovnik yuxudan durana qədər işləri hazırlayaram, - dedi. Rauf bəy bayıra çıxdı. Mən isə evi dolaşıb şəkillərə baxmaq üçün Hüseyn ağanın başı üstündən baxdım. Mütərcim qarşısındakı çılpaq qadınlara və ədəbsiz şəkillərə baxırdı. Mən bunları Rauf bəyin evində bir neçə kərə görmüşdüm. Rauf bəy qayıdıb gəldi. Polkovnikin məni köçürmək istədiyini və heç vəchlə onu razı edə bilmədiyini söylədi. Mən: «eyb etməz» - deyə məsələni başqa tərəfə atdım. Divardakı xalçalarına baxaraq:

- Yaxşı otaq, yaxşı xalça insanın fikrində şairanə duyğular oyadır. İki gözəl xalçam vardır. Asmağa layiqli otağım olmadığından necə Təbrizdən gətirmişəm, elə də qalır.

Rauf bəy yenə də sözünü mənim köçürülməyimlə başladı:

- Millətimiz bədbəxtdir, ziyalıları saxlaya bilmir, sizin bu məsələniz

mənə olduqca təsir edir.

Mən Rauf bəyin xalça məsələsindən maraqlandığını anladım.

- Eyb etməz, indi köçmək o qədər də ağır deyildir. Zatən buradan xalq dağılıb gedir. Müsahib də yoxdur. Onsuz da mən köçməyə tələsirəm – dedikdə o, yenə də əllərini bir-birinə sürtüb dedi:

- Millətimiz bir-birinin şeytanıdır. Yoxsa polkovnikin özü də elə adam deyildir. – deyib, yavaşca qulağıma pıçıldadı.

- Gələsən içəri girib bir də gücümü sınayım. Bəlkə o iki xalçaları verib birtəhər razı salaq.

Mən özümü saxlaya bilmədim. Bu burjuaziya ziyalısının alçaqlığına güldüm:

- Eyb etməz, mümkünsə razı salınız! – dedikdən sonra o durub içəri girdi. Mən isə düşünürdüm. Hazırda tutalım ki, polkovnik razı oldu. Mən xalçanı haradan tapacağam? Mən xalçalarımı tərif etdikdə Hüseyn ağa sözə başladı:

- Əcəba, yaxşı xalçanın birisi neçəyə olar?

Mən onun da fikrindən bir xalça keçdiyini duydum.

- Mən dediyim xalçaların hər birisinin bugünkü bazarda 150 manat-qiyməti vardır.

- Mümkünsə, bir dənəsini mənim üçün alınız. Parasını hər neçə olursa, verərəm.

- Eyb etməz, yaxşı bir xalça almağa söz verirəm.

Rauf bəy gəldi. Polkovnikin gələcəyini xəbər verdi. O, mənə göz basdı. Razı saldığını anlatdı. Mən polkovnik içəri girəndə ayağa qalxmamaq üçün o gəlməmişdən ayağa qalxdım. Polkovnik salona daxil oldu və mənə baxaraq:

- Sizin yuvanızı dağıdacağam. İndi daha 8-9-cu illərə bənzəməz. Axşama kimi peşəniz bir-birinizlə burunlaşmaq və əhalinin fikrini korlamaq olmuşdur. İndi məmləkətin o vaxtı deyildir. Bir neçə dəfə sizi xəbərdar etdiyimizə baxmayaraq, yenə də dinc oturmursunuz.

Polkovnik acıqlandıqca Rauf bəy əllərini bir-birinə sürtüb qorxaq tula kimi quyruğunu bulayırdı. Mən cavab verdim:

- Cənab polkovnik, bəlkə də sizə haqqımızda verilən xəbərlərin əsli yoxdur.

O yaxına gəldi:

- Əsli yoxdurmu? Siz gəncəliləri tanıyırsınızmı?

- Uzaqdan tanıyıram. Fəqət onlarla heç də əlaqəm yoxdur.

- Əlaqəniz yoxdursa, nə üçün onların əleyhinə çalışırsınız?

-Heç vaxt!

- Siz Ələmdar kəndlilərini öyrədirsiniz. Siz onları gəncəlilərə qarşı üsyana çağırırsınız. Ələmdarın rus təbəəsi əlinə keçməsi sizə nə üçün ağır gəlir?

- Belə iş yoxdur!

- Vardır. Bu da xayınlıqdır. Siz təbrizli Mirzə Məsud ağanın[1] imperator tərəfdarı olduğunu bilmirsinizmi?

Mən özümü bilməməzliyə vurub soruşdum:

- Mirzə Məsud kimdir?

- Özünü tülkülüyə vurma! Sui-qəsd düzəltdiyin və bütün şeylərini apartdığın adamı məndən yaxşı tanıyırsan. Kəblə Əkbər Sücalıya arxa çıxıb, imperator tərəfdarı olan Hacı Hüseyn ağaya üsyan hazırlayırsınız.[2] Bunlar sizin üstünüzə ucuz oturmayacaqdır. Sizin hamınızı buradan köçürəcəyəm. Sənin izin dəxi burada qalmayacaqdır.

Mən bir an sakit olduqdan sonra dedim:

- Cənab polkovnik, ixtiyar sizindir. Bununla bərabər, dediklərinizin heç birisindən xəbərim yoxdur.

- Hamısını bilirəm!

O dedikcə Rauf bəy də:

- Cənab polkovnik doğru buyurur – deyə evi dolanırdı. Və yaltaqlanırdı. Polkovnik bir də başını qaldırıb:

- Get! Sənə üç gün möhlət verirəm – dedi. Mən qapıdan çıxdıqda Rauf bəy bir də göz basdı. Mən artıq onun məni köçürmək üçün deyil, xalçaları gətirmək üçün üç gün möhlət verdiyini hiss edirdim.

Xalçalar Səttar Zeynəlabdinovda idi. Bir neçə gün sonra həmən xalçaların birisini Rauf bəyin salonunda gördüm.

## İYUL GÜNLƏRİ

Culfanın iyul günləri nə qədər isti, nə qədər tozlu və küləkli, cansıxıcı olursa-olsun, elə də gecələri bir yaz gecəsi qədər sərindir. Bunun üçün də əyləncə və yemək yerləri yalnız gecə saat 12-dən sonra başlanır.

Biz bir neçə gündən bəri şam yeməklərini «Anqliya» mehmanxanasında yeyirdik. Çünki dünya müharibəsi başlandığından Fransa oteli tamamilə İran və Türkiyə hüduduna göndərilən ordu hissələrinin zabitləri tərəfindən götürülmüşdü.

Bu gecə mən «Anqliya» mehmanxanasına ancaq gecə saat birin yarısında gələ bildim. Yenə də yemək masası balkonda dördüncü otelin aqoş-

*1. Mirzə Həsən müctəhidin oğludur.*

*2. Türklər 17-ci illərdə İrana gəldikdə Hacı Hüseyni ağa Ələkbər «bolşevikdir» - deyə Xoy şəhərində dara çəkdirdilər.*

qası qarşısında açılmışdı. Otelin sahibi Suren məni gözləyirdi. Hələ yemək başlanmamışdı. Ara-sıra ağlamaq və yalvarmaq səsləri eşidilirdi. Lakin sol tərəfimizdəki küçədən İrana gedən hərbi arabalar, top təkərlərinin səsləri bu yalvarmaq və ağlamaq səslərinin haradan gəldiyini təyin etməyə mane olurdu. Diqqətlə qulaq verirdik. Nəhayət, bu səslərin qarşısında oturduğumuz oteldən gəldiyini anladıq. Mən də, Suren də qalxıb otağa girdik. İki gənc qız, birisi çarpayının üzərində oturmuş, digəri isə otelin bucağına qısılıb titrəyirdi. Bizi görərkən qızları daha dəhşət götürdü. Odada iki nəfər polis süvarısı var idi. Birisi Rzaqulu Teymurbəyov, o birisi Samaşkov adlı bir malakan idi. Bunların da qarşısında yoğun və əndamsız bir qadın durmuşdu. Ağlamaq səsləri dayanmışdı. Qızlar bizim hansı tərəfə yardım edəcəyimizi gözləyirdi. Polislər bu sükütü pozdu:

- Durun deyirəm! Mehmanxana xalqını öz həyasızlıqlarınızla rahatsız etməyin! – dedikdə qızlar şiddətlə ağladılar. Mən hədsiz dərəcədə mütəəssir oldum.

- Nə üçün bu qızları ağladırsınız? – dedikdə qadın irəli keçdi. Əlindəki kağızları göstərib dedi.

- Qızlar 15 nəfər qızdır. Rostov şəhərindən və kəndlərindən həmin müqavilə üzrə gətirmişəm. Onlardan ikisi qaçıb mehmanxanaya girmiş, müqavilənaməyə əməl etmək istəmir.

Müqavilələr oxunduqda məlum oldu ki, Rostov sakini Semyon Anisov 19 yaşında olan qızı Rayanı və Betliosov isə qızı Lidanı əlli manat alıb, Samtred sakini Manya Alekseevaya vermişdir. Qadın bunları işləmək üçün gətirmişdir. Hərgah qız bu müqavilədən boyun qaçırarsa, o vaxt əlli manat para ilə bərabər, əlli manat pul məsarifi verməli imiş. Mən bütün bunları oxuduqdan sonra qızlara müraciət etdim və atalarının bu şəraitə nə üçün razı olduğunu soruşdum. Qızlardan Raya:

- Atları ucuz qiymətə müharibə üçün aldılar. Alınan para da vergiyə verildi. Ailə ac idi. Bir də biz özümüzün fahişəxanaya gətirildiyimizi bilmirdik.

Çox danışdıqdan sonra mən veriləcək iki yüz manatı verib qızları fahişəxana müdirinin əlindən qurtardım. Lakin qadın peşiman olmuşdu. Çünki əl vurulmamış gözəl kəndli qızlarını hər birisi şəhvətpərəst və varlı İran tacirlərinə yüzlərcə manat para müqabilində satacaq idi.

Osmanlı müharibəyə qoşulmuşdu. Rus qoşunu Təbrizə çəkildi. Urumi, Xoy tərəfində olan rus tərəfdarları tamamilə çəkilib rus Culfasına tökülmüşdü.

Xüsusən rus ordusuna yardım edərək Osmanlı dövlətinə qarşı düşmən hərəkətdə bulunan erməni və assuri ailələri Culfa düzündə əsən

küləklər, qarlar, yağışların altında qalmışdı. Ailələr qarınca kimi ayaq altında qalmışdı. Bütün evlər boşaldılıb qoşun doldurulmuşdu.

Culfa dəmiryolu bu qədər xalqı Rusi və qafqaz içərilərinə daşıyıb apara bilmirdi. Andronik və Məlik Şəmovların[1] apardığı siyasətin nəticəsi olaraq erməni və assuri ailələri məhv olurdu. Erməni və assuri kəndliləri özləri ilə bərabər at, eşşək, qatır, inək, qoyun, hətta toyuqlarını belə gətirmişlər. Bu heyvanları saxlamaq üçün örtülü yer yox idi. Yem də yox idi. Heyvanlar sahibləri ilə bərabər qırılırdı. Ətraf şəhərlərdən, kəndlərdən tamahkar tacirlər yığılıb Culfaya gəlmişdi.

Yanı balalı inəyini iyirmi manata satan erməni kəndli qadını ağlaya-ağlaya inəyin gözlərindən öpüb buraxırdı. Yaxşı at qırx manata, qoyun üç manata, qatır iyirmi manata kök eşşəklər on manata köç ilə satılırdı.

Bütün Culfa düzləri artıq heyvanlarla dolmuşdu. Sahibləri bunları satmadığı üçün başlı-başına buraxılmışdı. Mən bu vəziyyətləri gördükcə Androniki xəyalıma gətirir və onun mübarizəsindəki fəna nəticələrə nifrətlər edirdim. Bu vaxt Culfada üç böyük hadisə oldu. Bunlardan birisi erməni-assuri könüllüləri ilə İran kazakları arasında düşən qızğın vuruşmadan ibarət idi.

Erməni-assuri könüllüləri İran Culfasından yerli xalqı talayıb incitdikdə İran kazaklarının işə müdaxiləsi nəticəsində vuruşma başlanırdı.

İkinci hadisə cəbhəyə göndərilən əsgərlərin getməkdən boyun qaçırmaları və tərksilah olmalarından ibarət idi. Üçüncü hadisə yağış altında qalan əsgərlərin Fransa otelində keyf çəkən zabitlərə qarşı üsyan etməsi idi.

## ÇAR CASUSLARI

Türkiyə müharibəyə qoşulduqdan sonra necə ki Culfada, elə də İran daxilində çar casuslarının azad hərəkətinə səbəb olmuşdu. İran inqilabında şübhəli olanların əksəri həbs edilib Rusiyaya sürülürdü. Xalq dağılıb, hər kəs bir tərəfə getmişdi.

Bütün otellər, mehmanxanalar, yaşayış yerləri əsgərlər tərəfindən tutulmuşdu. Surenin «Anqliya» mehmanxanası da zabitlər tərəfindən götürülmüşdü. Bunun üçün də nə Lidanın nə də Rayanın harada qaldığından xəbər yox idi. Qızların hər ikisinin qayıdıb vətənlərinə getdiyinə inanırdım. Çünki Culfada bir nəfər də olsun ailə yaşamırdı.

Mən tam bu günlərdə Baxşəli ağa Şahtaxtlının İrəvanda həbs edildiyini eşitdim. Yoldaşlardan Ağaməmməd Hüseyn Hacıyev ailəsini İrana göndərib, özü isə xəstəliyindən hərəkət edə bilməmişdi. Zatən onun getmə-

*1. Məlik Şəmov ruslar tərəfindən Asuri hökmdarlığına namizəd olan bir Asuri idi. Bunu Sitmenko öldürdü. Çünki bunun varlığı Sitmenkonun düşdüyü Kürdüstan azadlığına zərər idi.*

sinə hökumət də icazə vermәyəcəkdi. Mən Baxşəli ağanın həbs edilmə xəbərini alar-almaz İranda Rusiya sahilinə getmişdim. Ağa Məmməd Hüseyn ilə danışdım. O, getməyə razı oldu. Mən onu dəri bir kürk içinə qoyub Avadisin arabaları ilə gizlincə İran tərəfinə göndərdim.

Mənzilimə gəldim. Daşnak könüllüləri kitablarımı yığıb dağıtmışdı. Əlyazılarım da məhv olmuşdu. Mənzildə bir peç, bir də taxta çarpayı qalmışdı. Qonşuda qoyduğum yorğan-döşəyi gətirib təzə çarpayının üzərinə qoymuşdum. Xramtsov gəldi. Polkovnik Ştrauvenin çağırdığını söylədim.

Polkovnik məni evində qəbul etdi. İran və rus Culfasında dinc oturmadığımızı və rus təbəələrinin İranda varlanması əleyhinə çalışdığımızı deyib məni təhqir etdi. O, məni tanıyırdı. Bir neçə ay əvvəl İrana keçməyim üçün yenidən icazə vermişdi. Klubda tez-tez görüşürdük. Ona görə də bir az nəzakətlə davranırdıq.

Qulluqçusu çay gətirdi. Onun Raya olduğunu bildim. Polkovnikin evindən çıxdıqda Raya qapını bağlamaq üçün gəldi. Yarın Naxçıvana gedəcəyini söylədi.

Raya yolda yenə də bütün işləri söylədi. Bizim sürgün edilməyimiz haqqında qubernator və jandarm baş idarəsinə yazıldığını xəbər verdi. O, yenə də öz sevgisindən və mənə səmimi əlaqə bəslədiyindən çox sözlər danışdı və məndən ayrılmayacağını söylədi. Lidanın Surenə ərə getdiyini əlavə etdi.

Mən son kərə Raya ilə görüşdükdən sonra Culfada fəqət 15 gün yaşaya bildim. Raya bu müddətdə bir çoxlarının həbs ediləcəyi haqqında bizə xəbər verirdi.

Günün birində Şeyxovun Naxçıvanda həbsə alındığını eşitdim. Rayanı görüb Ordubada gedəcəyimi xəbər verdim.

Mən Ordubadda qala bilməyəcəyimi yəqin etmişdim. Orada yalnız iki gün qalmışdım. Polkovnik Zançenkonun Ordubada gəldiyini eşitdim. Mən yanvarın 11-ci günündə bütün lazımi şeylərimi yığışdırıb OrdubaddanBakıya getmək və orada gizlənmək istəyirdim. Şeylərimi qarzinqaya yığmaqda idim. Anam əlində böyük bir alma girdi:

- Səid, bu alma sən əkdiyin ağacın birinci almasıdır. Bunu sənin üçün saxlamışam. Almanı əlimdə tutub hələ qarzinqaya qoymamışdım. Qapı döyüldü. Hacı Əhməd nəvəsi qaradovoy İsmayıl və İsmayıl bəyin oğlu Behbud içəri girdi. Onlar utana-utana pristav Abbasqulu bəyin məni çağırdığını söylədilər.

- Gediniz, bu saat gəlirəm! – dedikdən sonra onlar:

- Buna pristav icazə verməmişdi, - dedilər. Mən məsələni anladım. Anamı sakit edərək yola düşdüm.

Mən polis idarəsinə girdiyim vaxt saat 4 idi. Abbasqulu bəy ayağa durub görüşdü. Yer göstərdi. Dostanə söhbətlər başladı. Çay gətirdilər. Andrey bəyin nəvəsi də onun tərcümanı idi. Abbasqulubəy onun getməsinə əmr verdi. Tərcüman getdi. O, gedəndən sonra sözə başladı:

- Qafqaz canişini Vorantsov-Daşkovun əmrinə görə siz müharibə qurtarıncaya qədər Qafqazdan xaricə göndəriləcəksiniz.

- Özüm getsəm olmazmı?

- Xeyr! Siz yatab getməlisiniz. Fəqət Naxçıvan ilə Ordubad arasındakı kanvoyların hamısı erməni saldatlarındandır. Qorxuram ki, bunlar səni Naxçıvana sağ-salamat aparıb çıxarmasınlar. Naçalnik Zançenko buradadır. Mən səndən qabaq Nəcəf Əlixanovun dalınca adam göndərmişəm. Bəlkə də o, naçalnikin yanına gedər. Səni bir nəfər qaradovoy ilə gedib Naxçıvanda həbsxanaya girməyinə icazə alar. Biz bir az söhbətdən sonra Nəcəf gəldi. Görüşdük. Abbasqulu bəy məsələni ona anlatdı. Nəcəf bəy bunu məmnuniyyətlə öhtəsinə aldı, biz söhbətə məşqul olduq. Yarım saatdan sonra Nəcəf bəy qayıtdı. Dörd min manat istiqraz biletinə zamına götürdüyünü söylədi. Məni iki günlüyə azad buraxdılar.

İşlərimi düzəltdim. Üçüncü gün pristavın idarəsinə gəldim. O, qaradovoyMəmmədi mənə qoşdu. Faytona oturub Culfaya gəldim. Gecəni Əli Nuriyevin mənzilində qaldım. Rus qoşunu türklər çəkildikdən sonra İrana getmişdilər. Mühacirlərdən də kimsə yox idi. Evlərin çoxu dağılmışdı. Əsgərlər qapı-aqoşqanı sındırmışdılar. Mən Bayraməlinin evində olurdum. Orada kimsəni tapmadım. Bir xoruz ilə bir də ev tulası burada dolanırdılar.

Tezdən vaqona oturub Naxçıvana gəldim. Naxçıvanda olan tanışlarla görüşdüm. Yatab ilə göndərildiyimi onlara bildirdim. Onlar burada çalışacağını öhdələrinə götürdülər. Rastıma gələn şairlərdən Çakər çıxdı. Məsələni bildi. Təəssüf etdi. Məni Şeyx Kərimin yanına apardı. O, boynundan atıb dedi:

- Bu barədə polkovnikə heç bir söz deyə bilmərəm. Bundan naümid olduqdan sonra Mirzə Seyid Nəsirbəyovun yanına getdik. Bu adamın öz dediyinə görə naçalnik ilə arası çox saz imiş. O, naçalniki özündən razı salmaq kimi klubda bilə-bilə pul uduzardı. Bu da rədd edərək deyərdi:

- Zənnimcə, bu adamların təvəqqəsini etmək ziyalı və mədəni adamların işi deyildir.

Bundan naümid olduqdan sonra Məşədi Abbas İsmayılov, Cəfərquluxan həmişə bizə borclu olur. Bəlkə də sözümü yerə salmadı. Onun qapısına getdik. Qapını vurduq. Nökər gəldi. Xanı görəcəyimizi dedik. Xan bayıra çıxdı. Dalınca kiçik oğlu Kəlbəlixan da bayıra çıxdı.[1] Məşədi Abbas

*1. Hazırda Kəlbəlixan İran ordusunda xidmətdədir.*

məsələni xana anlada bilmədi. Mən özüm danışmağa icazə istədim. Xan icazə verdi. Mən qısa olaraq söylədim:

- Hər nədənsə hökumət bizdən şübhəyə düşdü. Bizi nadinc adam hesab etdilər. Nəhayət, bu işi qubernator və Sərdara xəbər aparıb çıxardılar. Hazırda məni Qafqazdan köçürməyə əmr etmişlər. Buna heç bir söz yoxdur. Bir ricam varsa, o da bundan ibarətdir ki, məni haraya göndərirlərsə, öz xərcim ilə getməyə icazə versinlər. Yaxud yanıma bir polis nəfəri qoşsunlar. Onun da gedəcəyi, qayıdacağı üçün məsarifi öz öhdəmə götürürəm. Xan heç düşünmədən sözünü qısa və aydın dedi:

- Mən imperatorun düşmənlərini müdafiə etmərəm. Dedim dinc otu-run!

- Xan oğlu Kəlbəli xan atasının qolunu tutub:

- Papa, doğrudan da bu imperatorun düşmənidirmi? – dedi.

Biz bu söhbətdə ikən məşhur Naxçıvan lotusu Civə Cabbar uzaqdan durub qulaq asırdı. Cəfərquluxan imperator söhbətini edəndə Civə Cabbar:

- Sənin də ...imperatorun da .... – dedi və getdi.

Xan onun dalınca acıqlı baxıb içəri girdi.

Biz oradan da ümidimizi kəsdik. Bəhrəmxanın yanına gəldik. O da qubernatora teleqram göndərməyi məsləhət gördü. Teleqram yazıldı, göndərildi. Mən saat 1-də naçalnik Zançenkonun idarəsinə gəldim. Qaradovoy paketi verdi. Məni ona tapşırdı. Qayıdarkən ona 25 manat verdim.

***

Mən naçalnikin divanxanasına girdiyim vaxt Bolqanlı İsmayılı orada gördüm. O məni görən kimi gizləndi. O, bizim ilə işləyirdi. Onun haqqında bəziləri demişdi. Nəhayət, bu gün onun casus olduğu anlaşıldı. Mən özümdə heç bir həyəcan və şaşqınlıq hiss etmədim. Çünki buradan qurtaracağımı dəxi surətdə anlayırdım. Qafqazdan köçürülməyimə əmr verən Canişin Vorantsov-Daşkov idi. Bu hökmü nə İran konsulu Raufbəy vasitəsilə uyezd naçalnikinə xaça vermək, nə Culfa pristavı Jeşşolta ayda 25 manat vermək, nə də İrəvan qubernatorunun mütərciminə 4 put Naxçıvan pendiri vermək poza bilməzdi. And içmək, günahları inkar etmək də yaramazdı. Çünki bizim ilə bir yerdə çalışan, daima inqilab adı gələndə gözlərindən yaş axıdan Bolqanlı İsmayılın polis idarəsi ilə əlbir işlədiyi bu gün axır mənə məlum olmuşdur.

Mən içəri girdikdə təsadüfi olaraq yenə də Raufbəyi naçalnikin yanında gördüm. Naçalnik bir neçə dəqiqə mənə əhəmiyyət vermədi. Raufbəylə söhbətə davam etdi. Azdan sonra üzümə istehza ilə baxıb:

Tora düşdünmü? İt balaları! İmperator sizə hansı fənalığı etmişdir?

Hansı millətlərə verdiyini sizə verməmişdir, - dedi. Burada mən heç bir tərəddüd göstərə bilməzdim. Buna lüzum yox idi. Çünki iş bitmişdi. Yalvarsam da, fəna sözlər söyləsəm də məni göndərəcəklər. Buna görə də onun sözünə gülümsünərək:

Başqa millətlərə verdiyinizlə işim yoxdur. Lakin bizə o qədər vermisiniz ki, cibimiz tutmur.

Rauf bəy mənə gözlərini ağardıb, əlini ağzına basıb sakit olmağımı işarə edirdi.

Çoxdan bəri naçalnik dəftərxanasında çalışan qoca bir tatar fəsini yuxarı qaldırdı. Çeşməyini çıxarıb heyrətlə üzümə baxdı. Polkovnik bu sözümdən sonra katibinə:

- Haranı istəyirsə, yazın getsin, - dedi.
- Mən Vladiqafqazı istəyirəm.
- Olmaz! Qafqaza yaxındır.
- Astraxan.
- Quberniya şəhərlərində yaramazsan.

Tatar mənə pıçıldadı:

- Saritsin şəhərini götürünüz. Orada tatar çoxdur.

Mən onu qəbul edərək:

- Saritsin şəhərinə gedərəm.
- Orası mümkündür. Yazınız, özünü də həbsxanaya göndəriniz!

***

Naxçıvan küçələri palçıq idi. Yanvar ayının 14-cü günü idi. Məni həbsxanaya bir nəfər polis süvarisi apardı. Tanışlar ilə görüşmək lazım idi. Bəzi sifarişlərim var idi. Polisə bir təklifdə bulundum:

- Sən də nahar etməmisən. Mən də naharsızam. Məncə çayçı Ələkbərin çayxanasında nahar etsək yaman olmaz. Polis bu təklifimə razı oldu.

- Nahar etməyə meylim yoxdur. Eyb etməz, siz nahar ediniz. Onun bu sözündən naharın parasını istədiyini anladım. Çayxanada məni bir çoxları gözləyirdi. Sonra bir çoxları da gəldi. Ürək verənlər, ağlayanlar da vardı. Bütün sirlərimi polis idarəsinə verən İsmayıl Bolqanlı da çoxdan sonra gəlib çıxdı. Mənim bütün işlərimdə fədakarlıq göstərən, lakin müvəffəq çıxa bilməyən Məşədi Abbas İsmayılov da şiddətlə ağlayırdı. Nədənsə, bunun da göz yaşlarının səmimi olduğuna inanmırdım. Çayxanada başlıca işim Ordubada yazıb qardaşıma vəziyyəti bildirməkdən ibarət idi.

Müfəssəl məktub yazdım. Özümlə gətirdiyim bahalı və həbsxanaya aparılması mümkün olmayan şeylərimi Məşədi Abbas İsmayılovun evində qoyduğumu bildirdim. Əlixanov Nəcəfbəy də gəlib çıxdı. O, mənə yanaşdı:

«İstəmirsən, keç İrana. Qoy mənim sənin üçün rəhm verdiyim para batsın. Buna polis nəfərini də razı edərəm» - dedi. Mən razı olmadım. Mən dünya müharibəsinin uzun çəkəcəyinə etibar etmirdim. Şeylərimi Məşədi Abbasa tapşırdım. Mən bilə-bilə vaxtı təxirə salırdım. Çünki mən Culfadan keçib Naxçıvana gəldikdə həbs edilib göndəriləcəyimi Rayaya xəbər vermişdim. Raya gəlib çıxmadı. Vaxt keçdi. Polis rüşvət aldığı üçün məni tələsdirməsə belə təşviş və həyəcana düşdüyü bəlli idi. Bir daha tanışlarla öpüşdüm, yola düşdüm. Həbsxanaya qədər məni bir çoxları yola saldı. Çox ağlamaq səsləri eşidirdim. Əhəmiyyət vermirdim. Çünki bunların arasında İsmayıl Bolqanlı kimiləri də var idi. Nəhayət, həbsxana qapısı açıldı. Mən artıq arxada gələnləri unudub və yeni qədəm basdığım dünya haqqında düşünürdüm. Mən içəri girirdim. Qapı hələ örtülməmişdi. Bir ağlamaq səsi də eşitdim. O, səmimi ağlamaq səsinə bənzəyirdi. Mən dönüb arxama baxdım. Raya ağlayırdı. Yıxılarkən onu Məşədi Abbas İsmayılov tutdu. Qapılar örtüldü. Mən həyətdən dəhlizə gedənə qədər onun ağlamaq səslərini eşidirdim.

## NAXÇIVAN HƏBSXANASINDA

Məni həbsxana qapısına qədər yola salan yoldaşların içində ağlayanlar da var idi. Onlar məndən bir çox sözlər soruşurdular. Bəzilərinə cavab verirdim. Mən bu suallara, bu ağlamaqlara lazımi qiyməti verə bilmirdim. Çünki mən yeni gedəcəyim həbsxananı düşünürdüm. Həbsxana məni o qədər də qorxutmurdu. Çünki dışarıda yaşamaq həbsxanada yaşamaqdan çətin idi.

Qapılar açıldı. İçəri girdim. Qapılar yarı örtülmüşkən daha bir ağlamaq səsi eşitdim. Bu ağlayış qayət təbii və səmimi ağlayış olduğundan məni öz tərəfinə cəlb etdi. Dönüb baxdım. Ağlayan Raya idi. O bir kərə mənim adımı səsləyib bayılmaq istərkən Abbas İsmayılov tutdu.

Qapılar örtüldü. Mən uzun həyəcanla keçib dəhlizə gedincəyə qədər ağlamaq eşidirdim. Məhbusları bayıra buraxmışdılar. Hər məhbus əlində çanax olaraq nahar almağa nobət bəkləyirdi.

Salam verirdilər. Keyfimi soruşurdular. Söz yoxdur ki, bunlar mənim tanışlarım idi. Mən nə cavab vermək, nə də onlara baxmağa imkan bulmayırdım. Məni baş nəzarətçinin odasına çox sürətlə aparırdılar. İçəri soxdular. Qapı açıq idi.

- Soyun! – deyə bir səs eşitdim. Üst paltarlarımı çıxartdım. Onların ətəklərinin ucuna qədər axtarıb masanın üzərinə qoydular. Cibimdə qalan 2 manat 40 qəpik paranı da götürdülər. Baş nəzarətçi qüvvəti çatdıqca çiynimə vuraraq:

- Soyun! – dedikdə mən alt köynəyimi də çıxardım. Yenə də o, bir kərə ucadan «soyun deyirəm» səslədikdə mən təəccüblə ona baxdım. O, bu baxışı bir nazlanma kimi təbir etdiyindən «axmaqlama» deyərək əlini atdı və əynimdə qalan alt paltarlarımı soyundurdu. Sanki çılpaq vücudumda bir şey aramağa çalışırdı. Mən alt paltarlarımı geyinmədən iki nəfər nəzarətçi də gəldi. Onlar məni barmaqları ilə şişləyib gülməyə və əylənməyə başladılar. Bu əyləncə əsnasında baş nəzarətçi də polis idarəsindən gətirilən paketi açıb oxuyurdu. O, öz başına hərəkət verərək «Pakizə qonaxsan» - dedi. Üst paltarlarımı hələ geyməmişdim. Baş nəzarətçi paltarlarımı qoltuğuma verib: «Götür öz kabinetində geyərsən» - dedikdə bir daha güldülər və məni itələyib dəhlizə saldılar. Mən paltarlar qoltuğumda bir an quruyub dəhlizdə qalmışdım. Əynimdə yalnız alt paltarları idi. Çox utanırdım. Dışarıdan nahar götürüb qayıdan məhbuslardan biri:

Utanmayınız, bu iş hamının başına gəlibdir,- dedi.

Özümü hiss etmirdim. Nəhayət açarçı gəlib dəmirli qapını açdı və:

- Buyurunuz! Rahat olunuz - deyə qapayıb getdi.

Otaqda divardan asılmış dəmir çarpayı üstünün yatacağı ilə bərabər çox təmiz idi. Mən bu təmizlikdən olduqca təəccüb edirdim. Sanki yatacaq hazır ediləndən bəri bunda heç kəs yatmamışdı.

- Əcəba bütün odalarda təmizlik belədirmi?

Mən bu fikirlərin axırına çıxmadan və paltarlarımı geyib qurtarmadan qapı yenidən açıldı.

- Şeylərinizi götürüb çıxınız.- dedilər. Mən isə buna cavabla:

- Hara?

- O, sənin işin deyil. Hara göstərirlərsə, ora!- dedikdən sonra mən həbsxanada bu kimi sualları verməyin lazım olmadığını anladım. Şeylərimi götürüb çıxdım. Hara gedəcəyimi bilmirdim. «Bəlkə göndərirlər?» - deyə düşünürdüm. Uzaq məsafəyə getmək lazım olmadı. Həmin odanın bərabərində olan bir odaya qatdılar. Bu odadakı şeylər eyni şeylərdən ibarət idi. Lakin təmiz deyildi. Tam mənası ilə bir kəsafət hökm sürürdü. Otağın divarları həbsxana yaranandan bəri ağardılmamışdı. Çünki divardakı yazıların tarixi həbsxananın qayrılması tarixi ilə o qədər də fərqli deyildi. Bu divarlar mənə məscidlərin divarlarını xatırladırdı. Çünki divarlarda «yadigar» sözləri yazılmamış boş yer nəzərə çarpmırdı. Təmiz otaqdan bura gətirildiyimə təəssüf edirdim.

Çox yorğun idim. Həyəcanımdan nə deyəcəyimi də bilmirdim. Təmiz çarpayını divardan buraxdım. Kəsif də olsa üstündə uzandım.

Uzun və ağır açar ilə qapının dəmir pəncərəsinə şiddətlə döydülər. Diksinib qalxdım:

- Qalx! Gündüz yatmaq olmaz! - dedilər. Bunun səbəbi aydın idi. Çünki çar həbsxanası rahatlıq üçün qayrılmamışdır. Burada insanın qalması üçün lazım olan hər bir vasitə ya qısaldılmış yaxud başqa bir rəngə salınmışdır ki, bununla da insan nə ölən kimi ölür, nə də insan kimi yaşamağı bacarır. Məsələn: dəmir peçlər hər gün yanır, lakin yenə də soyuqdan odalarda oturmaq, yatmaq mümkün olmur. Əvvəlinci gün axşam qaranlıqlayırdı. Gecə növbətçisi gəldi. Qoyulmuş qayda üzrə gecə növbətçisi gəlib odalarda məhbusları sayıb təhvil götürməlidir. Eyni zamanda növbətçi pəncərənin də salamat olub-olmamasını gözdən keçirməlidir. Növbətçi içəri girdi. Polisdən gözlənilməyəcəyi bir surətdə salam verib keyfimi soruşdu:

- Sizi mənə tapşırmışlar. Hacı Əbdüləli, Məşədi Ələkbər çayçı və İsmayıl Abbasov tapşırmışdır. Hər nə sözün olsa, mənə xəbər ver. Mən burada çox adamların işinə gəlmişəm. Məni hər kəs tanıyır. Mənə məşhur Cüngu Məşədi Əli deyirlər. Bəlkə siz eşitmiş olasınız. Mən isə cavabında:
- Məhəbbətinizdən artıq dərəcədə məmnunam. - dedikdən sonra o, mənə bir daha müraciətlə:

- Sizin peçi yaxşı yandırmışam. Qorxma gecəni soyuq olmayacaqdır. Neyləyim hayıf olsun ki, sizin kimi bir hörmətli adamla həbsxanada tanış oluram.- söylədi.

Mən bir şey düşündüm. Bəlkə də bu adam baş nəzarətçi ilə görüşüb məni əvvəlki odaya qaytara bildi. Ona söylədim:

- Əli dayı, məni bu qarşımızda duran odaya qatmışdılar. Nə oldusa, bilmədim. Az çəkdikdən sonra çıxarıb bu odaya gətirdilər. Əcəba yenə də bir iş görüb həmin odaya qayıtmaq mümkün olmazmıdır?

- Gözün qurbanı, mümkün olmaz. Hərgah başqa adam olsa, beş on manatımı alıb deyərəm ki, bu yaxında düzəldərəm. Amma Hacı Əbdüləlinin xatırından keçə bilmərəm. Abır-həya, dost-aşna puldan artıq şeydir.

- Nə üçün olmayır?

Çünki həmin odanın qapısı qadın məhbusları olan odanın qapısına baxır.

- Əcəba hökumət məhrəm, naməhrəm məsələsinə diqqət verir?

- Xeyir, burada bir çox sözlər vardır ki, deməк olmaz. Deyirsən dodaqların yanır, demirsən bağırsaqların partlayır.

O, yaxın gəlib çox yavaşdan dedi:

- Mən millətpərəst adamam. Mən bənna Usta Qənbər, yainki Bolqanlı İsmayıl kimi dil millətpərəsti deyiləm. Nə edim, bir parça çörəkdən ötəri burada işləməyə və binamus işləri görməyə məcbur olmuşam. Gecələr nəzarətçilər, hətta bayırdan keflənib gələn pristav köməkçiləri də gəlib

dustaq arvadlarla keyf çəkirlər. Hərgah o otaqda adam olursa, qapıdan baxıb ora gəlib-gedənlərin hamısını görə bilər. Bunun üçün də o otaq boş qalmalıdır. Hələlik bu qədər bəsdir. Rahat yat. Mənim dərdlərimi təzələdin. Ürəyimdə çox yaralar vardır,- deyib getdi. Doğrudan da, Əlinin ağır bir şərait altında işlədiyindən ona yazığım gəldi.

***

Mənə bayırdan təmiz yatacaq gətirmişdilər. Şübhəsiz ki, buna da bir qədər rüşvət verdikdən sonra göndərə bilmişdilər. Oteldə isti idi. Axşam saat 9-da yatmaq əmrini aldıq. Lampanın keçirilməsini də tövsiyə etdilər. Uzandım. Həbsxanada keçəcək vaxtlarımı tərtibə salıb, həyatım üçün plan düzəldirdim. Lakin az müddət keçmədən bu fikirlərin tamamilə yanlış olduğunu anladım. Çünki ixtiyarı öz əlində olmayanın yaşayış haqqında plan düzəltməyi, doğrudan da, quru bir xəyal idi. Hər halda həbsxanada yaşayanların, demək olar ki, əksəriyyəti xəyalpərəst olurlar. Mən bir xəyalpərvər məhbus kimi uyudum.

Dəhşətli bir çığrıq səsi eşidərək qalxdım. Uzun və ağır açarı dəmir pəncərəyə vurub yatan məhbusları qaldırırdılar. Çünki Əli mənim qapımın pəncərəsinə yanaşaraq: -Qalxın, səhərdir»- dedi. Pəncərəyə baxdım. Ulduzlar hələ batmamışdı. Durdum, paltarımı geydim. Cünki Məşədi Əli qapını açdı. «Subaşına çıxın» - söylədikdə bayıra çıxdım. Odanı qapadı. Dəhlizdə çox uzun bir növbət var idi. Hər kəsin əlində bir kağız parçası olaraq durmuşdu. Kağızı olmayanlar kağızı olanlardan borc alırdılar. Bir çox məhbuslar növbətdən qabaq oturmaq üçün yalvarır və qarnının xəstə olduğunu qeyd edirdilər.

Bir az irəli getdikdən sonra Beytəlxilanın açıq olduğunu, birinin oturub digərinin qarşıda durub onu tələsdirməsini, hətta bəzi gənc duranların yaxasından dartıb kənara atılmaqlarını da, oturmasını gördükdə utandım. Odama qayıtdım. Hələ burada danışılan ədəbsiz sözləri, nəzarətçilərin söydüklərini də nəzərə aldıqda heç də durmaq mümkün deyildi. Cüngu Əli gəlib qapını bağlamaq istədikdə içəri çağırdım və ona:

- Siz öz dediyinizə görə, çox yaxşı adamsınız. Ona görə sizə bir təklifdə bulunmaq istəyirəm, - dedikdə o, köksünü qabağa sürüb:

- Burada, sağlıq olsa, bir az qaldıqdan sonra mənim yaxşı adam olduğumu özünüz da təsdiq edəcəksiniz. Çox pakizə, sizdən bir rica edirəm ki, baş nəzarətçi ilə danışıb mənim subaşına tək buraxılmam üçün ondan icazə alasınız. Hər nə də istərsə, verə bilərəm, - dedikdə o, sallanmış bığının ucunu iki barmağı ilə tutub ağzına soxdu. Bu hərəkət onun dərin bir surətdə düşünməsinə işarə edir. Başını qaldıraraq:

- Əlacım yoxdur. Xatirin mənzurdur. Bəlkə də düzəldə bildim.-deyərək qapını bağlayıb getdi. Və 15 dəqiqə keçmədən qayıdıb gəldi.

- Düzəltmişəm, it uşaqları heç söz eşitmək istəmirlər. Əlac yoxdur. Beş manata razı saldım.

- Çox razı oldum. Yazaram, Məşədi Ələkbər sizə beş manatın əvəzinə 8 manat verər.

Qapını bağlayıb getdi. Yarım saatdan sonra gəlib məni bayıra buraxdı. Bayırdan qayıtdıqdan sonra çaydanı götürüb çay dəmləmək üçün qaynar su gətirməyin lazım olduğunu söylədilər. Qaynar suyu qaynanmış halda vermirdilər. Yarım soyumuş halda idi. Bunun üçün də çaydan ləzzət almaq və çay dəmləmək mümkün deyildi. Nədənsə həbsxanada həyatın bu vasitəsi də dəyərsiz şəklə qoyulmuşdu. Çünki Məşədi Əli ilə bu barədə də danışdım. Bunu da beş manat para müqabilində düzəltdim. Bundan sonra hər gün baş nəzarətçinin özü şəxsən qaynar suyu odama gətirirdi.

Çay içdik. Bundan sonra həyətə çıxartdılar. Burada hava almaq lazım idi. Məhbusları içəri qaytarmışdılar. Mən həyətdə Nikolay adlı bir gürcüyə rast gəldim. Bununla Culfada çox yaxından tanış idim. Nikolay aylardan bəri burada otururdu. Onu daşnaklar həbs etdirmişdi.

Tiflisdə gürcü teatrının yandırılması münasibətilə teatrın yenidən qayrılması üçün Culfada para topladığı zaman daşnaklarla döyüşdüyündən çar polisləri tərəfindən həbsə alınmışdı.

Nikolay ilə yarım saat dolaşdıq. Ona Cüngu Əlinin mənə yaxşı xidmət etdiyini söylədikdə o güldü və sözə başladı:

- Sən bilirsən ki, mən bütün həyatımı türk xalqı içərisində keçirmişəm. Hələlik bu günə qədər Cüngu Əli kimi namussuz və alçaq bir adama rast gəlməmişəm. Burada 5 nəfər türk, bir nəfər də erməni qadını var idi. Bunların hamısı qan işində yalan şahidlik etdiklərindən iki il, il yarım həbsə alınmışlar. Həmin Cüngu Əli qadınları əxlaqsızlığa məcbur edib keyfli polislərin qucağına atır. Gecələr bayırdan pristavla, pristav müavinləri də gəlib qadınların namusuna toxunurlar. Bunların içərisində indiyə qədər mislini görmədiyim gözəl bir qadın vardı. Qadın Sisyan mahalından Mələk adlı bir gəlin idi. Bunun haqqında görülən həqarətlər heç bir hökumətin həbsxanasında edilə bilməz.

Nikolay çox uzun danışacaqdı. Vaxtımız yetişdiyindən sözü yarımçıq qoyub ayrıldım.

## MƏLƏKNİSA

Biz içəri qayıtdıqda qadın məhbuslarını dışarı çıxarırdılar. Mən Cüngu Əlidən soruşdum:

- Mələknisa bunların hansı birisidir? O, ucaboylu, gözəl və bədbəxt gəlin idi, - dedi.

Doğrudan da, mən o günə qədər şəhərlərdə Mələknisa kimi gözəl və münasib əndamlı bir qadına təsadüf etməmişdim. Qara və uzunsaçlı gəlin bizi gördükdə ayaqlarına baxmağa başladı. Qara kirpiklərini ağ və solğun çöhrəsinə səpdi. O, məhbus qadınların ən gəncidi. Qara kirpikləri onun göz dairələrini nə qədər pərdələsə də, yenə də göz dairəsindəki qara halqələrdən çar polisinin bu bədbəxt gəlin haqqında rəva gördükləri vəhşilik tamamilə oxunurdu. Onun hər bir yerişi nə qədər təhqir edildiyini, vəhşi qucaqlardan yorulduğunu göstərirdi. Bir az da durub baxdım. Qadınlar da baxdığımı hiss etdilər. Nə isə bildiklərini danışdılar. Mən onların həyatını öyrənmək üçün haman dəqiqə maraqlanmağa başladım.

Cüngu Əli məni odaya ötürüb qapını bağladı. Nə edəcəyimi bilmirdim. Başımda tüklərim qabarmışdı. Mən bu dəmir qəfəsin içərisindəki həyasızlığın bu qədər də böyük olduğunu düşünmürdüm. Qəzet yox, kitab yox, yazmağa qələm yox, kağız yoxdu. Odada dəlicəsinə dolaşırdım. Qısa və dar odada çox tez-tez dönürdüm. Bunun üçün yazı ilə dolu olan divarı tez-tez gözdən keçirirdim. Həbsxanada hər məhbusun divarda yadigar yazdığını bildiyim üçün o qədər də əhəmiyyət vermirdim.

Çox gəzdikdən sonra gəlib qayət kəsafətli və çirkin olan yemək masasının başında oturdum. Hər tərəfə baxırdım. Lakin nə üçün baxdığımı bilmirdim. Masanın başında bir yazı gördüm. Oxudum:

*«Mən siyasi məhbus deyiləm. 18 dəfə xırda oğurluq üstündə həbs edilmişəm. Həbsxanada bir çox böyük və təcrübəli oğrularla da tanış olmuşam. Bunun üçün də hər dəfə həbsimi qurtarıb azad olduqda dışarı yeni tədbir və yeni təcrübələrlə çıxmışam. Son oğurluğum çox böyük idi. Lakin tədbirsizlik etmişdim. Çünki oğurluğu bir neçə nəfərlə etmişdim. Axırda malları bölmək üstündə arkadaşlarım döyüşdülər. İş açıldı, məni də həbs etdilər. 8 ay iş kəsdilər. Məni daha ümumi odaya buraxmadılar. Həmin bu odada saxladılar.*

*Atam çox zəngindi. Heç bir şeyə ehtiyacım yoxdu. Lakin oğurluqdan gələn hər bir qəpik mənim üçün atamın dövlətindən də şirindir.*

*Əlyar Behbud oğlu».*

Bu məktubu oxuduqdan sonra çar məhbəsinin daha bir cinayətini öyrəndim. Və buranın insanları islah üçün deyil, biləks, onları incitməkdən və daha da böyük cinayətlərə alışdırmaqdan ötrü bina edildiyini təsdiq etdim. Oxuduğum yazının altında digər bir yazı da oxudum:

*«Dövlətli bir adam idim. 45 yaşımın yarısın aşna-dost ilə keçirmişəm. Yalnız süfrəyə oturmaq mənim üçün çox ağır idi. Bir qadınımdan başqa heç kəsim yox idi. Bir-birimizi sevirdik. Dostlarımın, çörək kəsdiyim adamların qadınımda gözləri olduğunu bilmirdim. Axırda onlar məni məhv etmək üçün evimə saxta pul qoydular. Mən həbs olundum. Heç kəsə inandıra bilmədim.*

*Hökumət də mənim səsimi eşitmədi. Camaat da mənə kömək etmədi. Çünki mənə dinsiz deyirdilər. Beş il iş verdilər. Sibirə göndərirlər. Bu gün aldığım xəbərə görə, qaynatam qadınımı mənim düşmənlərimə getməyə məcbur edib. Bu yazını yazıb, qələmi bucaqda divarın deşiyinə taxıb üstünü çörək ilə xəmirləmişəm. O qələmi götürənlər öz başlarına gələnləri burada yazsınlar.*

*Mirzə Abdulla Əbdül Həsən oğlu».*

Qələmi axtarıb tapdım. Heç bir şeyi də yazmağı bacarmadım. Qapı açıldı. Cüngu Əli bir məktub verdi:

- Bu kağızı Məşədi Abbas İsmayılov verdi, - deyərək bir parça kağız və qələmi qoyub bayıra çıxdı. Və: - Cavabını yaz, aparacağam, - dedi. Məktub Rayanın məktubu idi: *«Həbs olunduğuna dair bir söz yazmayacağam. Çünki bunu sizin özünüz də gözləyirdiniz. Mən Naxçıvanda qala bilmədim. Məktubu sənin tanışın İsmayılova verdim. Həftə başına qədər sənə yemək parası da verdim. Qəbul etmədi. Sənin kiminsə yanında para qoyduğunu söylədi. Mən altı gündən sonra yenə də gələcəyəm. Məktubun cavabını yazıb İsmayılova göndərərsən. Məktubda sənin Naxçıvandan nə vaxt aparıldığını da yazarsan. Mən də Culfada qalacağam. Fikir etmə, səni tək buraxmaram. Evə yazıb getməyimi tələb etmişəm. Sənin haqqında bütün əhvalatı evə yazmışam. Özünü çox da bədbəxt hesab etmə. Sənin başına gələn bütün bədbəxtlik mənim taleyimlə də əlaqədardır.*

*Raya, 14 yanvar».*

Məktubun cavabını yazdım. *«Gözəl yoldaşım Raya! Məhbəsdə birinci məktubu səndən aldım. Bu da bizim yoldaş həyatımızda tarixi bir hadisədir. Raya, mənim rahat olmağım üçün sənin mütəhəmmil olmaq istədiyin hər bir əziyyətin nəticəsiz qalacağını sənin özün də bilirsən. Saritsin şəhərinə qədər, kim bilir, nə qədər həbsxanalarda bulunacağam. Yollarda neçə ay qalacağımı indidən təyin etmək mümkün deyildir. Mənim üçün şəhərdən şəhərə gəlmək əziyyəti qadınlardan tələb ediləcək bir əziyyət deyildir. Sən Culfada qal. İşinə davam et. Saritsindən yazışarıq. Bəlkə də görüşməyimiz bir daha mümkün oldu. Məni buradan aparmaq vaxtına gəldikdə yəqin söyləmək mümkün olmasa da, fevral ayının 14-də aparılmağıma ehtimal vardır. Zənnimcə, o vaxta qədər yenə də yazışa biləcəyiz. Raya, mənə heç bir şey lazım deyil. Heç kəsə para və başqa şeylər vermə. Mənə hər şey gətirirlər. Hacı Əbdüləli Şeyxovun yanında yüz manat para qoymuşam. Evə getməli olsan, ondan 100 manat alarsan. Məktubla sənə bir məktub daha göndərirəm. Onu Hacı Əbdüləliyə göstərib yüz manat alarsan. Hər şeydən qiymətli bir şey varsa, sənin məktubundur. Məni yaxşılıqla xatırlayacağına əminəm.*

*Səmimi yoldaşın Səid*
*16 yanvar».*

mamışdım. Açarçı məni çağırdı. Bayıra çıxdım.

– Ümumi otağa keçiniz! - dedikdə parikmaxer (bərbər) gəldiyini zənn etdim. Fikrimdə yanılmışdım. Bərbər yerinə molla gəlmişdi. Halbuki məhbusların dediyinə görə, bir aydan bəri bərbər gəlməsi üçün müddəi-ümumiyyə kollektiv ərizə vermişlərdi. Bu gün cümə axşamı olduğundan adəti üzrə həbsxanaya mollanın məcburi surətdə gələcəyini söylədilər. Molla gözləri sürmələnmiş, əlvan şaldan əmmamə taxmış bir adam idi. Naxçıvanlı məhbuslardan bunun kim olduğunu soruşdum. Bunun məşhur «doşab oğlu» olduğunu söylədilər. Bu sözü bir az ucadan dedilər. Molla eşidərkən çox qızardı. Heç bir söz demədi. Çünki hər gələndə bir manat para alırmış. Bu cür gəlir mənbəyinin üstündə Naxçıvan mərsiyəxanları arasında rəqabət də gedirmiş.

Dustaqların hamısı yığıldı. Məni tanıyanlar tanımayanlara nişan verdilər. Bu həbsxanada adətdir. Yeni məhbus haqqında danışmağı və onu öyrənməyi sevərlər. Bununla zəncirli və Sibirə göndəriləcək məhbuslar daha artıq maraqlanırlar. Çünki bunların yardıma olan ehtiyacı başqa məhbuslardan daha artıq olur. Onlar bir-bir gəlib əl verir və mənim ilə tanış olurdular. «Ordubadi bu özüdür!» – səslərini tez-tez eşidirdim.

Qapını bağladılar. Bir türk, bir rus açarçısı durub qulaq asırdılar. Bunlar nə kimi sözlər danışıldığını bilmək istəyirdilər. Molla mərsiyəsini başladı. Səsi pis deyildi. O imamlardan Musa ibn Cəfərin Harun Rəşidi zindanda qərib olduğundan və Müslüm uşaqlarının qürbətdə qətl edildiklərindən deyib özünü yırtırdı.

Ağlayan yox idi. Gülənlərə qaraul durmuş, mane olurdular. Molla məclisi müvəffəqiyyətlə apara bilmədi. Mən həbsxanada dinə və şəriətə qarşı bir etirazlıq hiss etdim. Canilər din və şəriət tanımırdılar. Başqaları isə qismən haqsız yerə həbs olunanlardı ki, bunlar da daima: «Hərgah Allah və din varsa, nə üçün bizim təqsirsiz yerə burada məhv olmağımıza razı olur?» – deməkdən qorxmurdular.

Bunun üçündür ki, çar hökuməti həbsxanalarda mövcud olan dinsizliyin qarşısını almağa çalışırdı. Bazar günləri keşiş, cümə günləri isə mollalar öz uzun və qara ətəkləri ilə həbsxana dəhlizlərinin döşəmələrini süpürürdülər.

Mərsiyə bitdikdən sonra yenə də ətrafıma toplandılar. Kefimi soruşdular. Bəziləri bir şeyə ehtiyacım olub-olmadığını xəbər aldı. Hamısından razılıq etdim. Eyni zamanda mərsiyəxana, mollaya əhəmiyyət verməyəcəklərini də tövsiyə edib, bunun məqsədlə göndərildiyi haqqında da danışdım və hamıdan əvvəl çıxdım. Molla hələ duasını bitirməmişdi. Mən çıxdıqdan sonra mollanın əmmaməsini çörək xəmirindən güllə vuruldu-

ğunu və ayaqlarının altında məhbus papaqlarından atıb heyvan kimi hürkütdüklərini eşitdim.

Bunun üstündə iki nəfər məhbusa cəza verildiyini söylədilər. Gələn həftə «Doşab oğlu»na da belə bir nümayiş yapmışdılar. Üçüncü həftə bunun əvəzinə molla Mahmud Çakər gəlmişdi.

## MƏHBUS QADINLARIN MƏKTUBU

Mən mərsiyəxanın yanından qayıdandan sonra odada bir neçə kərə o tərəf bu tərəfə dolaşdıqdan sonra qapını açıb məni həyətə buraxdılar. Mən dışarı çıxarkən qadınlar qayıtmaq üzrə idi. Açarçı qapını açdı. Qadın məhbusları onun dalınca düzülüb durmuşdular. Erməni qızı ən axırda durmuşdu. O, məni görərkən əzilmiş bir kağızı yerə buraxdı. Kağızı qaldırdım. Bayırdan qayıtdıqdan sonra onu oxumaq mümkün olmadı. Çünki açarçı gəlib prokurorun gəlməsini xəbər verdi. Prokuror (müddəi-ümumi) içəri girdi. Mütərcimin də qoltuğunda portfel ondan sonra daxil oldu. O salam verdi. Mən bir söz demədim. Yalnız paltonu çıxarıb divardan asmaqla məşğul idim. Prokuror nəzərimi özünə cəlb etmək üçün bir kərə öskürdü və sonra: «Necə yaşayırsınız?» – dedi. Mən ona: «Öz evimiz kimi yaşayıram» – deyə, yenə də öz işimə məşğul oldum. «Mənə söyləməli bir şikayətiniz varmı?» – deyə müddəi ümumi bir də soruşdu.

- Tutalım ki vardır.

- Mən prokuroram. Şikayətinizi dinləmək və sərəncam vermək üçün gəlmişəm.

- Elə isə çox pakizə. Məni buradan buraxdıra bilərsinizmi?

- Xeyr! O mənim vəzifəmə daxil deyildir.

- Elə isə zəhmət çəkib bu yaxında olan qadın məhbusların odasına gediniz, onların gecələr nədən ötrü ağlamalarının səbəbini soruşunuz. - dedikdə baş nəzarətçi qulaqlarına kimi qızardı. Müddəi-ümumi isə mənə müraciətlə: «Sizi dinləyirəm» - söylədi. «Bəlkə xəstəxanada dərman əvəzinə içirilən kötəklər haqqında da təhqiqat apara bildiniz», dediyimi cavabla müddəi-ümumi: «Qərardad edərəm!»

- deməsi üzərinə mən: «Elə isə, həbsxanaya bərbər yerinə molla və keşiş gəlməsi səbəblərini də aydın ediniz» – söylədim.

Müddəi-ümumi daha dayanmadı. Bir daha: «Qərardad edərəm!»- deyərək getdi.

Bu gündən etibarən mənə nifrət nəzəri ilə baxan, hətta odanı yoxlamaq üçün girdikdə salam belə verməyən baş nəzarətçi odama tez-tez gəlir və saatlarca da otururdu. Həyətə istədiyim vaxt çıxa bilirdim. Çünki qapımın bağlanmaması üçün baş nəzarətçi əmr vermişdi. Qapım fəqət gecə-

mamışdım. Açarçı məni çağırdı. Bayıra çıxdım.

– Ümumi otağa keçiniz! - dedikdə parikmaxer (bərbər) gəldiyini zənn etdim. Fikrimdə yanılmışdım. Bərbər yerinə molla gəlmişdi. Halbuki məhbusların dediyinə görə, bir aydan bəri bərbər gəlməsi üçün müddəi-ümumiyyə kollektiv ərizə vermişlərdi. Bu gün cümə axşamı olduğundan adəti üzrə həbsxanaya mollanın məcburi surətdə gələcəyini söylədilər. Molla gözləri sürmələnmiş, əlvan şaldan əmmamə taxmış bir adam idi. Naxçıvanlı məhbuslardan bunun kim olduğunu soruşdum. Bunun məşhur «doşab oğlu» olduğunu söylədilər. Bu sözü bir az ucadan dedilər. Molla eşidərkən çox qızardı. Heç bir söz demədi. Çünki hər gələndə bir manat para alırmış. Bu cür gəlir mənbəyinin üstündə Naxçıvan mərsiyəxanları arasında rəqabət də gedirmiş.

Dustaqların hamısı yığıldı. Məni tanıyanlar tanımayanlara nişan verdilər. Bu həbsxanada adətdir. Yeni məhbus haqqında danışmağı və onu öyrənməyi sevərlər. Bununla zəncirli və Sibirə göndəriləcək məhbuslar daha artıq maraqlanırlar. Çünki bunların yardıma olan ehtiyacı başqa məhbuslardan daha artıq olur. Onlar bir-bir gəlib əl verir və mənim ilə tanış olurdular. «Ordubadi bu özüdür!» – səslərini tez-tez eşidirdim.

Qapını bağladılar. Bir türk, bir rus açarçısı durub qulaq asırdılar. Bunlar nə kimi sözlər danışıldığını bilmək istəyirdilər. Molla mərsiyəsini başladı. Səsi pis deyildi. O imamlardan Musa ibn Cəfərin Harun Rəşidi zindanda qərib olduğundan və Müslüm uşaqlarının qürbətdə qətl edildiklərindən deyib özünü yırtırdı.

Ağlayan yox idi. Gülənlərə qaraul durmuş, mane olurdular. Molla məclisi müvəffəqiyyətlə apara bilmədi. Mən həbsxanada dinə və şəriətə qarşı bir etirazlıq hiss etdim. Canilər din və şəriət tanımırdılar. Başqaları isə qismən haqsız yerə həbs olunanlardı ki, bunlar da daima: «Hərgah Allah və din varsa, nə üçün bizim təqsirsiz yerə burada məhv olmağımıza razı olur?» – deməkdən qorxmurdular.

Bununçündür ki, çar hökuməti həbsxanalarda mövcud olan dinsizliyin qarşısını almağa çalışırdı. Bazar günləri keşiş, cümə günləri isə mollalar öz uzun və qara ətəkləri ilə həbsxana dəhlizlərinin döşəmələrini süpürürdülər.

Mərsiyə bitdikdən sonra yenə də ətrafıma toplandılar. Kefimi soruşdular. Bəziləri bir şeyə ehtiyacım olub-olmadığını xəbər aldı. Hamısından razılıq etdim. Eyni zamanda mərsiyəxana, mollaya əhəmiyyət verməyəcəklərini də tövsiyə edib, bunun məqsədlə göndərildiyi haqqında da danışdım və hamıdan əvvəl çıxdım. Molla hələ duasını bitirməmişdi. Mən çıxdıqdan sonra mollanın əmmaməsini çörək xəmirindən güllə vuruldu-

ğunu və ayaqlarının altında məhbus papaqlarından atıb heyvan kimi hürkütdüklərini eşitdim.

Bunun üstündə iki nəfər məhbusa cəza verildiyini söylədilər. Gələn həftə «Doşab oğlu»na da belə bir nümayiş yapmışdılar. Üçüncü həftə bunun əvəzinə molla Mahmud Çakər gəlmişdi.

## MƏHBUS QADINLARIN MƏKTUBU

Mən mərsiyəxanın yanından qayıdandan sonra odada bir neçə kərə o tərəf bu tərəfə dolaşdıqdan sonra qapını açıb məni həyətə buraxdılar. Mən dışarı çıxarkən qadınlar qayıtmaq üzrə idi. Açarçı qapını açdı. Qadın məhbusları onun dalınca düzülüb durmuşdular. Erməni qızı ən axırda durmuşdu. O, məni görərkən əzilmiş bir kağızı yerə buraxdı. Kağızı qaldırdım. Bayırdan qayıtdıqdan sonra onu oxumaq mümkün olmadı. Çünki açarçı gəlib prokurorun gəlməsini xəbər verdi. Prokuror (müddəi-ümumi) içəri girdi. Mütərcimin də qoltuğunda portfel ondan sonra daxil oldu. O salam verdi. Mən bir söz demədim. Yalnız paltonu çıxarıb divardan asmaqla məşğul idim. Prokuror nəzərimi özünə cəlb etmək üçün bir kərə öskürdü və sonra: «Necə yaşayırsınız?» – dedi. Mən ona: «Öz evimiz kimi yaşayıram» – deyə, yenə də öz işimə məşğul oldum. «Mənə söyləməli bir şikayətiniz varmı?» – deyə müddəi ümumi bir də soruşdu.

- Tutalım ki vardır.

- Mən prokuroram. Şikayətinizi dinləmək və sərəncam vermək üçün gəlmişəm.

- Elə isə çox pakizə. Məni buradan buraxdıra bilərsinizmi?

- Xeyr! O mənim vəzifəmə daxil deyildir.

- Elə isə zəhmət çəkib bu yaxında olan qadın məhbusların odasına gediniz, onların gecələr nədən ötrü ağlamalarının səbəbini soruşunuz. - dedikdə baş nəzarətçi qulaqlarına kimi qızardı. Müddəi-ümumi isə mənə müraciətlə: «Sizi dinləyirəm» - söylədi. «Bəlkə xəstəxanada dərman əvəzinə içirilən kötəklər haqqında da təhqiqat apara bildiniz», dediyimi cavabla müddəi-ümumi: «Qərardad edərəm!»

- deməsi üzərinə mən: «Elə isə, həbsxanaya bərbər yerinə molla və keşiş gəlməsi səbəblərini də aydın ediniz» – söylədim.

Müddəi-ümumi daha dayanmadı. Bir daha: «Qərardad edərəm!»- deyərək getdi.

Bu gündən etibarən mənə nifrət nəzəri ilə baxan, hətta odanı yoxlamaq üçün girdikdə salam belə verməyən baş nəzarətçi odama tez-tez gəlir və saatlarca da otururdu. Həyətə istədiyim vaxt çıxa bilirdim. Çünki qapımın bağlanmaması üçün baş nəzarətçi əmr vermişdi. Qapım fəqət gecə-

ləri yoxlamadan sonra bağlanırdı. Bu isə məni həbsxanada bir çox işlərdən xəbərdar olmağıma və qadınlar haqqında lazımi məlumat əldə etməyimə imkan verirdi.

Qadın məhbuslarının məktubunu açdım. O məktub dəxi çay kağızında yazılmışdı. Məktubu erməni qızının yazdığı bəlli idi. Çünki çox savadsız halda rusca yazılmışdı. Məktub belə başlanırdı:

*«Qardaş, bağışla, namusumuz o qədər getmişdir ki, bir adama qardaş deməkdən də utanırıq. Sizi bu haramzada Əlidən soruşduq. Tərif etdi. Elə özümüz də bir təhər sizə öz dərdimizi bildirmək istəyirdik. Hərgah allah varsa, bir vəsilə salsın ki, biz hamımız burada məhv olaq. Çünki daha qohum-qardaş yanına getməyə üzümüz yoxdur. Bilsəniz ki, gecələr bizim başımıza nə iş gətirirlər, başınızda tükləriniz qalxar. Gecələr bizə polis paltarı geyindirib keyf məclislərinə aparırlar. Elə gecə olur ki, bizi keflədib həbsxanaya ikinci gecə qaytarırlar. Həbsxananın müdiri xanların dostudur. Biz gecədə bir kefli xanınməhəlləsində idik. Yazıq Mələknisa burada doğdu. Həmən gün bu soysuz Əli uşağı aparıb harada isə boğub atdı. Bunların hamısını eləyən Cüngu Əlidir. Görün, bəlkə bir çarə tapa bildiniz».*

Məktubu oxuduqca özümü hiss elə bilmədim. Bu zavallı qadınların başına gələn həqarət ürəyimi sağalmaz bir halda yaraladı. İndi o ağlayışlar, indi də Mələknisanın məhzun siması nəzərimdə və qulaqlarımdadır.

Cüngu Əlinin qapıdan girdiyini, naharı masanın üzərinə qoyduğunu belə hiss etməmişdim. Cüngu Əli məni dümsüklədi:

- Nə fikrə getmisən? Bura həbsxanadır. Özünü nə üçün boğursan?- dedi.

Bu həyasızı görmək istəmirdim. Bunun yalançı göz yaşlarının hər damcısını xatırladıqda sanki onlar bir qurğuşun olub ürəyimə girdi. Bu «millətpərəst»in gözlərinin içərisinə tüpürmək qədər acıqlanmışdım. Lakin nə deyə bilərdim? Burası həbsxanadır. Burada ölümə getmək, zəhərlənmək də mümkündür. Onun üzünə müstəar bir surətdə gülərək: «Ev yadıma düşmüşdür!» – deyərək onu şübhədən çıxartdım.

Nahar Abbas İsmayılovun evindən göndərilmişdi. Plov və sair yeməklərdən ibarət idi.

Əli durmuşdu. Getmədi. Nahardan yemək xəyalında olduğunu bilirdim. Oturmasını təklif etdim. Əli bir az fikrə getdikdən sonra: «Baş nəzarətçidən icazə alıb gələrəm!» – deyə getdi. Azdan sonra gəldi. Baş nəzarətçi də dişlərini ağarda-ağarda içəri girdi. Oturmağa kürsü yox idi. Kürsü gətirdilər. Oturub nahar etdilər. Məndə isə nahar yemək halı yox idi. Onlara vəziyyəti bildirməmək və ac qalmamaq üçün yeməyə məcbur idim. Nahar vaxtında baş nəzarətçi bir neçə dəfə: «Yemək masası həm kasifdir, həm

də xırdadır» - deyə təkrar etdi. Nahar bitdi. Əli gedib qaynar su gətirdi. Yaxşı çay dəmlədi. Bir neçə stəkan şirin çay da içdilər. Şəkər çox idi. Yedilər, mənim üçün axşam yeməyinə də bir şey saxladılar. Əli qabları yığışdırdı. Baş nəzarətçi də qalxıb əl verdi mənə, razılıq etdi. Bayıra çıxdılar. Əli qapını bağlamaq istədikdə baş nəzarətçi: «Qapamaq lazım deyildir. Açıq burax!» - deyə əmr etdi. Bu gündən sonra daha mən olduğum odanın qapısı bağlanmadı. Mən birinci kərə olaraq müəyyən vaxtdan xaric olaraq dəhlizə çıxdım. Qadınların olduğu odanın qapısından keçib xəstəxanaya baxdım. Qadınlardan Mələknisa ilə erməni qızı əlləri qoltuğunda dolaşır, birisi nə isə yamayır, ikisi də başları dizlərində oturmuşdu. Onlar məni bayırda görüb qapıya yüyürdülər. Mən daha durmadım. Keçib öz odama girdim. Əldə fürsət varkən onların məktubuna cavab yazmaq istədim.

*«Mən sizin vəziyyətiniz haqqında həbsxanaya gələn günün səhəri məlumat almışdım. Lakin bu həqarət Əlinin əli ilə baş verdiyini bilmirdim. Siz doğru demiş olsaydınız, bu həqarətin heç birisi baş verməzdi. Sizi incidər, döyərdilər, lakin öldürə bilməzdilər. Əlbəttə, mən sizi təqsirləndirmək istəməyirəm. Siz köməksiz bir qadın olduğunuzdan, şübhəsizdir ki, müqavimət göstərməkdən qorxmuşsunuz. Siz onu biliniz ki, mən bu haqsızlıq haqqında sakit oturmayacağam. Bunu qubernatora qədər yetirəcəyəm. Lakin mən həbsxanaya girdikdən sonra çar hökumətinin həbsxana qanunları barəsində belə bir qərara gəldim: Burada hər bir şey ola bilər. Burası əziyyət çəkmək və həqarət görmək üçündür. Siz öz dərdinizi mənə yazınız. Hər nə ehtiyacınız olsa, düzəldərəm. Biz heç də «qohum-qardaş üzünə çıxa bilmərik» sözünü təkrar etməyiniz. Çünki burada insanın düçar olduğu əxlaqsızlıq özündən asılı deyildir».*

Məktubu bitirib saxladım. Sonra həbsxana həyatını və gündəlik xatiratımı yazmaqla məşğul oldum. Baş nəzarətçi gəlib gördü. Mən çəkildim. O: «Eybi yoxdur. Yazıçı dinc otura bilməz. Lakin yazdığınızdan bizə məzəmmət gəlməməsinə diqqət veriniz dedikdə: «Gündəlik həyatımı yazıram» - deyə onu sakit etdim. Baş nəzarətçi oturub danışırdı. O, söhbəti dolandırıb prokuror (müddəi-ümumi) ilə olan söhbətimizdən başladı:

- Bilirsinizmi, burası həbsxanadır. Bura birisinin evi qədər rahat olursa, daha heç kəs ziyanından, canilikdən əl çəkməz. Buna görə də bizə dəstürül-əməl verilmişdir. Bir çoxları bu əziyyət və həqarətin səbəbini bizdə görürlər. Əlbəttə, haqsızlıqlar da olur. Bunda müddəi-ümumi və sairələri müqəssir deyildir-dedi. O, şübhəsizdir ki, məni lazımi qədər öyrənmək istəyirdi. Mən heç bir söz demirdim. Çünki hər nə olursa-olsun, polis idi. Baş nəzarətçi gedib mənim üçün təmiz və böyük bir yemək masası gətirdi. Yatacaq şeylərimi də dəyişdirdi.

Axşam idi. Sonra bayıra çıxdım. Kağızı qadın məhbusları olan odanın qapısından içəri buraxdım.

***

Gecə çox rahatsız idim. Hərgünkü adətimin əleyhinə olaraq bu gün yerimdən tez qalxmağa tələsirdim. Bunu Cüngu Əli də hiss edirdi. Ara-sıra gəlib: «Nə üçün yatmırsan?!» – deyə soruşurdu. Nəhayət, səhər saat 6 oldu. Açarlar dəmir pəncərələrə vuruldu. Hamı tələsib qalxdığı kimi mən də tələsik qalxdım. Saat 6-dan beş dəqiqə sonra bütün qapılar açılıb və məhbuslar dışarı buraxıldı. Mən olduğum odanın qapısını da açdılar. Lakin bayıra çıxmadım. Cüngu Əli içəri girdi. Keyfimi soruşdu. Ona İsmayılovun yanına getməyi tapşırdım. Çünki bu gün 9 qatarı ilə Raya Culfadan Naxçıvana gələcəkdi. Cüngu Əliyə borclu idim. Məşədi Ələkbər çayçıya məktub yazıb ona 10 manat verməsini tapşırmışdım. O, məktubu alıb sevindi. «Daha nə xidmətiniz varsa, buyurunuz!» - deyə o, 10 manat paranın hökmünü bir daha təsdiq etmiş oldu.

Bu gün bayıra çox təxirlə çıxdım. Hər kəs çəkilib öz odasına getmişdi. Mən bayıra çıxdıqda açarçılardan da dəhlizdə kimsə yox idi. Qadınlar odasının yanından keçdikdə erməni qızını dəmir pəncərənin qapısında gördüm. O, mənə bir məktub buraxdı. Qadınların məktubuma nə cavab verəcəkləri ilə bir gündən bəri maraqlanırdım. Erməni qızının «Qazançı» kəndindən olub Bakıda doğulduğunu Ester namında bir qız olduğunu Cüngu Əlidən xəbər almışdım.

Qız atası tərəfindən ərə verildikdə getmək istəməmiş və özünü ərə almaq istəyən zatın qətlində iştirak etdiyi üçün həbsə məhkum olmuşdu. İstər Ester, istərsə Mələknisanın haqqında yazılan birinci məktubda nə öz adlarını, nə də öz təqsirlərini yazmışdılar.

Məktubu açıb oxumağa başladım. Bu məktub bir az diqqətli və savadlı yazılmışdı. Məktubun əvvəlində adımı hörmətlə xatırlamış və məni tanıdıqlarını qeyd etmişdilər:

*«Qardaş, məktubda bizi məzəmmət edirsiniz. Ona görə də sizə işi necə başlayıbsa, elə də yazıram. Biz heç vaxt belə bir həyasızlığı xəyalımıza da gətirməzdik. Cüngu Əli hər gün odamızı yoxlamağa gəldikdə ağlayırdı. Və hər gün bizə ürəyi yandığını təkrar edirdi. O, xüsusən Mələknisanın halına çox yanırdı. O, daima: «Yazıq gəlin» - deyərək onun xilası üçün çalışacağını söyləyirdi. Günün birində Əli sevinərək gəldi. Mələknisaya müjdə verdi. «Naçalniklə danışmışam. O, sənin halını bilmirdi. Bu gecə özü də gəlib səni danışdıracaqdır» - dedi. Doğrudan, biz də şadlandıq.*

*Gecə saat 12-dən sonra Əli gəlib qapını açdı və dedi: «Ağa gəlir Mələknisanı danışdırsın. Siz durun bayıra çıxın». Mələknisa qaldı. Bizi kontora*

*apardılar. Gecə saat 3-ə qədər biz kontorda oturduq. Bundan özümüz də şübhəyə düşdük. Bizi odamıza qaytardıqda Mələknisanı tükləri dağıdılmış və ağlar bir halda gördük. O, özünü öldürürdü. Əli isə ona: «Adam qaraçılıq etməz. Biz sənin yaxşılığın üçün çalışırıq»- deyirdi. Mələknisanın bədbəxtliyi başlandı. Bu hadisədən neçə gün sonra Əli içəri girib məni kontora çağırdı. Burada bir nəfər rus qulluqçusu var idi. Kontorda mənə xəbər verdilər ki, səni sudya öz yanına çağırıbdır. Mən sevindim. Çünki ona ərizə vermişdim. Mənim yanıma bir dəst həbsxana qulluqçusu paltarı qoyub, geyinməyimi əmr etdilər. Mən bundan şübhələndim. Onlar: «Gecə olduğu üçün belə lazımdır» - dedilər. Razı olmağa məcbur idim. Biz bayıra çıxdıq. Bazara qədər piyada getdik. Orada fayton durmuşdu. Biz faytona yanaşdıq. Məni xırda bir bağın yanından keçirib bir evə gətirdilər. İçəri girdikdə həbsxana müdirini və bir neçə də başqalarını gördüm. Birinci qədəmdə qızlığımın bərbad olduğunu yəqin etdim. Məclisdə olanlar xanlar idi. Məni süfrəyə oturtdular. Heç kəs bir söz demirdi. Ancaq məni içməyə məcbur etdilər. Çox içirtdilər. Mən özümü hiss etmirdim. Mən yuxudan ayıldıqda ev qaranlıq idi. Bütün vücudum ağrıyırdı. Haqqımda nə qədər həqarət icra olunduğunu hiss edərək ağlayırdım. Bir nəfər girib mənim durmağımı əmr etdi. Durub geyindim. Məni qaranlıq otaqlardan keçirib bayıra çıxartdılar. Faytonla həbsxanaya gətirdilər. Yenə də kontorda soyundum, öz paltarlarımı geyindim. Odaya girdikdə oradakı qadınlar getdiyimin ikinci gün olduğunu dedilər.*

*Bizim bədbəxtliyimiz belə başladı. Nə edə bilərdik. Yenə haman hərəkət davam edir. İndi hər nə olursa, həmin odada olur. Həyamız, namusumuz qalmamışdır...»*

Hər iki məktubun üzünü lazımınca yazıb dışarıya göndərmək lazım idi. Bu işi çaydan sonraya buraxdım. Çünki dəhlizdə şiddətli get-gəl başlamışdı. Çayı içdim. Məktubları ağartmaq üçün kağız yox idi. Cüngu Əlini gözləmək lazım idi.

***

Cüngu Əli qayıdıb gəldi. Rayanın məktubunu gətirmişdi. Raya vaxtında gəlmişdi. Cüngu Əli yenə də bir parça kağız və başqa şeylər qoyub getdikdə onu dayandırıb yenə kağız lazım olduğunu söylədim. O kontora gedib bir neçə parça kağız gətirdi və : «Məktubun cavabını tez yaz ver. Axşam gedəcəkdir» - dedi və getdi. Qabaqca Rayanın məktubunu oxumaq lazım idi. Məktubda taleyindən şikayət və sevgisindən məhrumiyyət sözləri ən əvvəldə yazılmışdı. Bunlardan sonra isə belə yazırdı: *«Polkovnikin və onun yoldaşının işi çox yaxşıdır*[1]*. Burada heç kəs yoxdur. İrandan Culfaya*

*1. Polkovnikin yoldaşı pristav Eşoltdan ibarətdir. İşlərinin yaxşı olması sözünə gəldikdə çox həbslər yaşamasından ibarətdir.*

*çəkilmiş ordu hissələri tamamilə İrana qayıtdı. Evlər tamamilə dağınıqdır. Küçələrdə saatlarca kimsəni görmək olmayır. Sən oturduğun evdə nə qapı, nə də aqoşqa qalmışdır. Hələ indiyə qədər nə xoruz, nə də balaca Tumbul həyətdən çıxıb getmişdir (Tumbul balaca itdir). Onlara hər gün ağlaya-ağlaya yemək aparıram. Onlar məni tanıyırlar. Culfada sən tanıyan kimsə qalmamışdır. Sənə yeni alt paltarları göndərdim. Yuyub gələn həftə gətirərəm. Culfada yaşaya bilməyirəm. Sənin Naxçıvandan aparılmağını gözləyirəm. Culfada bir gün də qalmayacağam. Kimin üçün də qalmalıyam?! Səni hara aparsalar gələcəyəm. Gərək sənin taleyinin nə ilə qurtaracağını görməyə çalışam, sən səmimi yoldaşsan. O duyğu məndə yenə də vardır. Onu heç kəs mənim ürəyimdən çıxara bilməz. Yüz manat para aldığım üçün göndərdiyin kağızı da özünə qaytardım. Çünki pulum vardır. Məktubun cavabını göndər. Axşam qayıdacağam. Raya».*

Cavabını yazdım: *«Raya yoldaş! Nəsrulla Şeyxovun hansı tərəfə göndərildiyini İsmayılov vasitəsilə öyrənib, ona məktub yazıb və mənim Saritsin şəhərinə göndərildiyimi xəbər verərsən. Ayıq ol. Haqqında şübhə oyandıra biləcək işlərə imkan vermə. Mənim sənə yazdığım müddətdə buradan aparacaqlar. Əbəs yerə paltar göndərmə. Hər şey vardır. Dəsmalları özün hazırladığın üçün bir yadigardır. Konfet, limon, şokoladlar da yetişdi. Zəhmət çəkmə. Pullarını xərcləmə. Yoldaşlardan gördüklərin adamlara salam söylə! Salamat qal...».*

Bu gün mənə məktub məktub üstündən gəlirdi. Zəncirli məhbuslardan bir məktub aldım: *«Hörmətli Ordubadi! Biz sizdən təvəqqe edirik ki, bu gün nahara bizə qonaq olasınız. Bu gün sizə naharı biz göndərəcəyik. İmza: məhbuslar...».*

Məktub qısa idi. İndi mən düşünürəm: əcəba bunlar məni nəyə qonaq edəcəkdilər? Hər halda çox uzun müddət gözləmək lazım deyildi. Nahar vaxtı yaxınlaşırdı.

Qapıdan açarçı girdi. Əlindəki padnosu masanın üzərinə qoydu. Nimçədə bir dənə bişmiş göyərçin, bir dənə də lavaş çörəyi idi. Bu halda Cüngu Əli də dışarıdan nahar gətirdi. Əhvalatı bildi və gülərək dedi: «Sizdən para almaq istəyirlər. Hərgah mümkünsə bir şey verməyin, eybi yoxdur. Bəs bu göyərçini haradan almışlar?

-Aqoşqadan tələ qurub tuturlar. Çaynikə qoyub növbət ilə o qədər lampanın üstünə tuturlar ki, bişir. Peşələri göyərçin əti yeməkdir».

Həmin bu günün özündə başqa məhbuslardan bir məktubla bir yazılmış stəkan daha aldım. Stəkanda uca bir qala şəkli idi. Qaladan bir quş çıxıb dışarıdakı ağaca qonmuşdu. Şübhəsiz ki, bu şəkil həbsxanadan azad olmuş bir adamı ifadə edirdi. Əvvəlkilərə 10 manat, ikincilərə isə 5 girvən-

kəlik çay və papiros göndərdim.

Başqa günlərdə də bəzi şeylər göndərirdilər. Təsbeh, quş, maral və başqa şəkillər gəlirdi. Bunları ümidsiz buraxmaq və bir şey verməmək mümkün deyildi.

***

Bir gün səhər çayını içmədən yanıma bir nəfər məhbus gətirdilər. Məhbus çöhrə və qiyafə cəhətincə həqiqi bir almana bənzəyirdi. Çox sevindim. Bir arqadaşa ehtiyacım var idi. Yalnızlıq məni olduqca pozmuşdu.

Bir neçə dəqiqə biri digərimizlə qonuşmadıq. Onun Türkiyə ermənilərindən olduğunu bildikdə türkcə keyfini soruşdum. O da mənim türk olduğuma şadlandı. Məhbusun adını soruşdum. «Petros Həkimyans»- deyə əlini uzatdı. Tanış olduq. Çay içdik. Yemək yedik. Onun heç bir şeyi yox idi. Dəyişək paltarlarını, hətta alt paltarlarını da götürməmişdi. Yatdı, rahat oldu. Mən həbs olması səbəblərini soruşmağa cəsarət etmirdim. Bəzən elələri olurdu ki, həbs səbəblərini deməkdən utanır. Həkimyansın özü sözə başladı: «İndi ki tanış olduq, madam ki, biz bu odada bir çox günlər yaşamalıyız, onda kim olduğumuzu və arkadaşlığa səbəb olan cəhətlər haqqında da biri digərimizi xəbərdar etməliyiz. Əvvəlcə mən öz başıma gələnlərdən danışdım. Mən Van şəhərində, Təbriz şəhərində Fransız Pele kompaniyasının papiroslarını satırdım. Türklərin Təbrizi işğal etməkləri çox nagahı bir surətdə baş verdi. Rusları və rus təbəələrini elə bir dəhşət əhatə etmişdi ki, dükanları və evlərini açıq qoyub qaçırdılar. Mən dükanı qapadım. Evə gedib hazırlıq görməkdən qorxdum. Qaçqınlar qafiləsinə qoşulub Culfaya qaçdım. Bütün İran Azərbaycanında olan ordu və rusofillər tamamilə açıq havada yaşayırdılar. Mən Tiflisə bilet almaq üçün 5 manat İran pulu paşot verdim. Tiflisdə bir neçə gün qaldıqdan sonra türklərin Təbrizdən çəkildiyini eşitdim. Qayıdıb Culfaya gəldim. Orada jandarm idarəsi məni casus deyə yaxaladı. Urmi keşişi, Assuri keşişi hətta mənim vanlı Həkimyans olduğuma şahadət verdilərsə də, qəbula keçmədi. Hazırda bir türk ermənisi olduğuma baxmayaraq, alman casusu olaraq «Tambov quberniyasına sürgün ediləm» - dedi və gözləri yaşardı. Ona təskinlik verdim. Lakin bu təskinliklər ona heç bir qənaət vermirdi. Çünki ailəsinin necə olduğundan xəbəri yox idi.

Həkimyans ədib bir zat idi. Türkcə çox gözəl şeir oxuyurdu. O, həbsxanada qaldığımız vaxt Viktor Hüqonun bir çox əsərlərini, hətta «Səfillər» kimi böyük bir əsəri oxudu. İtaliya, alman ədiblərindən də bir çox şeirlər oxuyurdu. O, türk şairlərindən Rəmzi baba, Əşrəf və sairləri haqqında böyük məlumata malik idi. Ara-sıra özü də şeir yazırdı. Lakin yazdıqlarının hamısı həcv idi. Hamısı da Nikolaya və ailəsinə ithaf olunurdu.

Onun söhbətləri mənə bir çox mövzular vermişdi. Naxçıvan həbsxanasında «Məşhur dolandırıcılar» adlı bir roman dəxi yazmağa başlamışdım. Həbsxanada parça kağızlar üzərinə yazılan bu romanı çox əziyyətlə dışarı çıxartdım. Lakin dünya müharibəsindən sonra dünyanın xəritəsi və yaşadığımız mühit tamamilə dəyişdikdə romanı çap etdirə bilmədim.

Hər halda biz Həkimyans ilə yaxşı həyat keçirirdik. Ona paltarları da təklif etdim. Qəbul etmədi. Dışarıdan və sair şeylərlə təmin olunurduq. Həkimyans gələn günün səhəri həbsxana dəhlizində heç kəs yox idi. Mənim odamın qapısı da açılmadı. Halbuki qapı 6-dan axşam saat 7-yə qədər açıq olurdu. Çay vaxtı keçirdi. Heç kəsi çaya, su başına getməyə buraxmırdılar. Çoxdan sonra Cüngu Əli gəlib qapını açıb içəri girdi: «Hələ qapı açılmayacaqdır. Hadisə baş veribdir. Naçalnik və prokuroru gözləyirik» – dedi. Mən: «Nə hadisə vardır?» - deyə sual verdim. «Gecə Mələknisa özünü pəncərinin dəmirindən asıb öldürmüşdür» - dedikdə mən gecə qadınlar odasından gələn bağırtı və ağlamaq səslərini xatırladım. Saat 4 radələrində hər gecə olduğundan daha şiddətli ağlamaq səsləri eşitdik. Mən yenə polislərin gəldiyini zənn etdim.

Saat 11-də naçalnik Zançenko, sudya və prokuror gəldi. Protokol düzəldi. Qadının ölüsünü hara isə götürüb apardılar. Qapımızı açdılar. Qadınlar ağlayanda gördüm. Erməni qızına həqiqəti yazmasını işarət etdim.

Gəzmək vaxtı həyətdə gürcü tanışım Nikolaya rast gəldim. O qadının hamilə olduğunu və bunun üçün özünü asdığını söylədi. Lakin məsələ belə olmamalıdır. Mən qızın məktubunu almamış heç bir qərara gələ bilmədim.

Odaya qayıtdıqdan sonra Cüngu Əlini çağırdım. Qadın haqqında doktorun nə bəyanat verdiyini soruşdum.

- Görünür ki, Mələknisa dəli imiş. Doktor dəli olduğunu təsdiq etdi. Yanında olan qadın məhbusları da onun dəli olduğunu söyləyib protokola qol qoydular-dedi. Mən heç bir söz demədim. Çünki məsələnin başqa cürə olduğunu zənn edirdim. Hər halda yazıq qadının asılması özünün azad olması demək idi.

***

Erməni qızının məktubunu aldım. Mələknisanın asılmasına dair müfəssəl surətdə yazırdı: *«Doğrudur, bizə də qol çəkdirdilər ki, Mələknisa dəli idi. Amma o heç dəli deyildi. Hətta mən bədbəxt olduğumun ikinci gecəsi çox ağladım. Gecə yarısından sonra stəkanı sındırıb onunla intihar etmək istədikdə Mələknisa məni tutub qoymadı, nəsihət etdi. Şüşəni əlimdən alıb özündə saxladı. O heç vaxt ölmək istəməyirdi. Doğrudur, uşağı Cüngu Əli*

*boğandan və Əli boğmağa aparandan sonra o, çox həyəcanlı idi. Lakin yenə də ona dəli demək olmazdı. Çox ağıllı, fikirli qadın idi. Dünən gecə iş belə oldu: Mən baş nəzarətçinin odasına çağırıldım. Yenə də orada məni keflənməyə məcbur etdilər. Məndən sonra gəlib başqalarını da kontora salıblar. Odada Mələknisa qalıbdır. Onun yanına kim gəlirsə, nə olursa, bilmirik. Ancaq mən saat 4-də gəlib gördüm, Mələknisa asılıbdır. Qışqırdım. Gəlib ağzımı tutdular. Qadınları da gətirdilər. Çox çığır-bağır saldım. Baş nəzarətçi "Yatın" - deyə qışqırdı. Bizi ölüm ilə hədələdi. Öz-özünü asdığını söyləməyimizi tapşırdı. Belə də dedik. Amma Mələknisa öz-özünü asa bilməzdi. Döşək üzünü kəsib kəndir kimi eşiblər. Çox yaxşı sabunlayıblar. Ondan sonra Mələknisanı asıblar. Çünki təklikdə Mələknisa bunu bacarmazdı».*

Məktubu oxuduqdan sonra çar həbsxanasının bu həyasızlığını da yazdım. Çar müddəi-ümumisinin, çar həkiminin vicdanını bir daha təcrübədən keçirtdim.

Bu hadisə mənə olduqca fəna təsir bağışladı. Bir neçə gün xəstələndim. Əsəbilik artdı. Hətta heç səbəbsiz bir yerə əziz arqadaşım Həkimyansla belə dalaşırdım. O, heç bir söz demirdi. O, dəxi çox mütəəssir olmuşdu. Daşnaqları daima nifrət ilə xatırlayıb: "Görünüz alçaqlar nə kimi alçaq bir hökumətə arxalanırlar" – deyirdi.

Fevralın 13-də Cüngu Məşədi Əli Rayanın məktubunu gətirdi. Raya gedəcəyimi bildiyindən yol üçün lazım olacaq hər bir şey gətirmişdi. Məktubda belə yazırdı: *"Culfanı həmişəlik vida etdim. Çıxan günü bir daha sən yaşadığın evə getdim. Dağılmış kitablarının varaqları hələ də dəhlizdə qalır. Bir parça əlyazını da tapdım. Yadigar götürdüm. Xoruz ilə Tumbul yenə də həyətdə idi. Evin keçmişini xatırladıqca ağladım.*

*Polkovnik məni buraxmaq istəmirdi. Gecə-gündüz ağladığımı, rahatsız olduğumu görüb, məcburən icazə verdi. Ağlamağımın səbəbini soruşdu, «Rostovda nişanlıyam» deyirdim. İndi sənə yazıram. Şəksizdir ki, səni Saritsinə Rostov şəhərindən keçirib aparacaqlar. Buna görə də evimizin ünvanını yazıb göndərdim. Rostova gəlmədən bir neçə gün əvvəl mənə gələcəyini yaz, göndər. Evimiz stansiyanın yanındadır. Bilmirəm, yol üçün daha sənə nə lazımdır? Əlbəttə, hər nə lazımsa, yaz, axşama qədər alıb həbsxanaya göndərim. "Dvores" hotelində qalacağam. Özümü onlara tanış vermədim. Hələlik salamat qalın. Sözümdə varam. Hara getsən, gedəcəyəm. Qəlbim qadın qəlbidir. O, nə qədər nazik olsa da, bir yoldaşın səmimi məhəbbətini daşımaq üçün poladdan da möhkəmdir.*

*Raya, 12 fevral."*

Məktuba çox qısa cavab verdim:

*«Raya! Məktubunu aldım. Evinizə düşəcəyindən artıq dərəcədə şadlan-*

*dım. Bu qədər şeyləri görməyə lüzum yox idi. Yol üçün Hacı Əbdüləliağa hər bir şey hazır etdirmişdi. Bəlkə də sabah tezdən bizi apardılar. Bəlkə də stansiyada görüşdük. Rostov şəhərinə gəlməli olursam, vaxtikən sənə məktub göndərrəm. Raya, sənə bir xoşbəxtlik üz verirsə üzərindən atlama, özünün istiqbal hazırlığına çalış. Bu kimi şeylər bizim səmimi olan yoldaşlıq əlaqələrimizə zərrə qədər də olsa zərbə vura bilməz».*

Cüngu Əli məktubun cavabını çox tez gətirdi. Çünki hər dəfəsində 2-3 manat para alırdı. Raya stansiyada görüşəcəyinə şadlanırdı. Mən məktubumun axırındakı cümlələrdə «ağlaya-ağlaya ehtiram edirəm» deyə cavab vermişdim.

Naxçıvan həbsxanasından yatab ilə göndərilən 3 nəfər idi. Mən, Petros Həkimyans bir də Ələsgər adlı bir gəncdi. Biz bayıra çıxdıqda Hacı Əbdüləli və başqa tanışları gördük. Onlar fayton da gətirmişdilər. Bizi 4 soldat stansiyaya apardı. Onlarda faytona oturdular. Raya isə həbsxanadan bir az aşağı xaraba hamamın qarşısında durmuş faytonda imiş.

Bizim faytonların səsi eşidildikdə faytonun içində ağ dəri yaxalığın içində örtülmüş kazak qızının qızıl çöhrəsi göründü. Raya bizi görərkən çox sevindi. Fayton faytona yanaşdı. Əlini sıxdım. Ağlayacağını bilirdim. Ona görə də: *"Raya ixtiyarını əlinə al. Kazak qızı olduğunu unutma!"* – *dedim. Fayton yan-yana gedirdi. Soldatlar mane olmurdular. Gənc soldatlar qayət nəcib və ədəbli idilər. Soldatlar qızın həyəcanını hiss edərkən hələ qatarın gələcəyinə çox qalmışdı. "Stansiyaya tez getməyə çalışma!"* – deyərək tövsiyə etdilər. Faytonlar çox yavaş gedirdi.

Biz stansiyaya yetişdikdən beş dəqiqə sonra qatar Culfadan gəldi. Yola salmaq üçün başqaları da gəlmişdi. Onlar da, Raya da ağladılar. Hacı Əbdüləli ağa da bunlara qarışmışdı. Çox təəccüb burasındadır ki, sadə rus soldatları da ağladılar. Bizi yatab vaqonuna qəbul edəcək qaraul komandanı da bunlara tanış çıxdı. Soldatlar komandan ilə nə isə pıçıldaşıb məni nişan verdilər.

Yatab vaqonunda kimsə yox idi. Raya yanımızdan ayrılmırdı. Vaqon hərəkət edincəyə qədər Raya Culfadan söhbət edir və həbs olunanlar haqqında danışırdı. Soldatlar ayrılıb getdikdə yoldaşlar onlara beş manat papiros parası verdi. Ayrıldıqda gəlib vidalaşıb getdilər. Soldatlardan alınan xatirə çox qiymətli idi.

Qatar son svistoku verdikdə Raya dəxi vidalaşıb öz vaqonuna getdi. Qatar gözdən itincəyə qədər baxırdım. Hələ Hacı Əbdüləli ilə bir də Culfadan gələn yoldaşların ağ dəsmallarını gözlərinin üzərində görürdüm. Naxçıvandan ayrıldıq. Çox xatirələrlə ayrıldıq. Bunların içərisində Mələknisa ilə Esterin həyatından aldığım xatirələr olduqca faciəli idi.

***

Yolda qaraul komandanı bizə olduqca mərhəmət göstərirdi. Hər yerdə nəyə ehtiyacımız olduğunu soruşurdu. Kiçik stansiyalarda belə qapıya çıxıb bayıra baxmağımıza icazə verirdi. Uluxanlıya qədər hava çox mütədil idi. Doğrudan da, ilin baharını xatırladırdı. Yengicə, Sədərək və Qəmərli düzlərində qar yox idi. Buğda əkinləri çox uca göyərmişdi. Bu cür mötədil bahar havası Uluxanlı stansiyasına qədər davam etdi.

Qatarımız Uluxanlıda dayandı. Bu stansiyada adət üzrə həm Tiflis qatarı ilə gəlib Culfadan İrana gedənlər, həm də Culfadan Tiflis və sair yerlərə gedənlər nahar edirlər. Gözəl və təmiz stansiyaymış. Bufeti də təmizliyi ilə məşhurdur. Vaqon nədənsə burada bir saat dayandı. Raya bizim üçün kotlet gətirdi. Soldatlardan qaynar su gətirdilər. Raya da bizim ilə yeməyə oturdu. Soldatlar da iştirak edirdilər. Təntənəli bir nahar süfrəsi düzəltdik. Bu süfrə son süfrə idi ki, Raya ilə birlikdə ətrafında oturmuşduq. İkinci zəng vuruldu. Raya ilə vidalaşdım. Çünki onu Rostova qədər daha görməyəcəkdim.

Vaqon hərəkət etdi. Ətrafdakı üzüm bağları qara bürünmüşdü. Bizi köçlər ilə həbsxanaya apardıqda hər yer palçıq idi. Çox əziyyət çəkdik. İrəvan həbsxanasında iki saatdan artıq qalmadıq. Axşam qaranlıq düşəndə İrəvan stansiyasında idik. Hava çox soyuq idi. Hər kəsin nəyi varsa üstünə çəkmişdi. Vaqonda qızınacağımızı zənn edirdik.

Vaqon daha soyuq idi. Donmaq ərəfəsində idik. Soldatların dediyinə görə, Aleksandropol ilə İrəvan arasında işləyən bu vaqon həmişə soyuq olurmuş. Çünki bunlarda peç yox idi. Qaraul soldatları da çox fəna rəftar edirdilər. Ayağa qalxmağa imkan vermirdilər. Dediklərinə görə, keçən həftə dustaq qaçırdıqlarından bir neçə yoldaşlarına cəza verilmiş imiş.

Qatarımız gündüz saat 2-də Aleksandropol stansiyasında durdu. Hər tərəf cəbbəxana və qoşun, top və sairləri ilə dolu idi. Yaralılar və hərbi əsirlərlə dolu olan yüzlərcə vaqonlar durmuşdu. Stansiyanı qoşun əhatə etmişdi. Biz süvari dəstələri piyadalar, arabalar içində keçib gedirdik. Dizlərimizə qədər buzlu su, qarlı palçıqların içindən aparırdılar. Şübhəsiz ki, örtülü yer olmadığından qoşunlar çadırda yaşayırdılar. Çünki çox çadırlara təsadüf edirdik. Həbsxana ilə stansiyanın arası, demək olar ki, 4 kilometr qədər bir yoldur. Ac, dalımızda ağır şələ, özü də palçıq suyu yarıb keçmək bizi ölüm halına gətirmişdi. Şəhərə girdiyimiz vaxt uşaqlar bizi qar «güllələri» ilə vururdular. Onlardan birisi mənim burnuma, digəri isə Həkimyansın gözünə toxundu. Həkimyans acıqlanıb onları ermənicə söydü. Şalvar və paltolarımız yarıya qədər buzlamışdı. Biz biri-birimizə toxunduqda qaval kimi səslənirdik.

Həbsxanaya yetişdik. Həbsxananın qapısından bizi bir-bir sayıb içəri buraxdılar. Naçalnik durmuşdu. Müavinləri də yanında idi. Baş nəzarətçi qoyun kimi qolumuzdan tutub içəri buraxırdı. Hər kəsin boynundan bir yumruq vurub o birisini tuturdu. İrəvandan bizə qoşulan bir assuri məhbusunu vurduqda yumruq üzünə dəydi. Və ağzından qayırma dişləri yerə töküldü. Naçalnik və başqaları güldülər. İvan yerdən dişlərini yığdıqda tüfəngin qundağı ilə boynunun dalısından vurdular. O, üzü üstə döşəmənin üstünə yıxıldı. Burnu çapılıb qan tökülməyə başladı. Aqoşqadan baxan məhbus ermənilər onları çirkin sözlərlə söyməyə başladılar. Bizi əvvəlcə mərkəzi həbsxanaya gətirmişdilər. Burada müvəqqəti qalacaqdıq. Sonra ştab həyətinə aparacaqdılar. Hələlik yüz əlli nəfər məhbus yerləşən kəsafətli bir odaya buraxdılar. Məhbuslar kürd, türk, ermənilərdən ibarət idi. Burada vaxtı ilə Ordubadda qaradovoy olmuş bir nəfər erməni açarçısına rast gəldim. Tanıdı, gedib bir çaynik isti su gətirdi. Bizim vəziyyətimizə çox acıdı. İçi su ilə dolmuş patinkalar ayağımızda donub buz almışdı. Bir parça da çörək gətirdi. Və sonra bizə tapşırdı:

- Bizi bir-iki saatdan sonra aparacaqlar. Şeyləri oğurlatmayın üstündə oturun – dedi. Bunun üçün də biz ayağa qalxmadıq. Lakin çayı içdikdən sonra çaynikimizə baxmağa bir erməni məhbusu gəldi. «Bu, mənim xoşuma gəlir. Əvəzinə öz çaydanımı verərəm» - deyib apardı. Əvəzinə ağ dəmirdən qulpu sınıq bir çaydan gətirdi. Nə yaxşı ki, bu halda həmin açarçı gəlib çaydanı özümüzə qaytardı. Axşam qaranlıq düşəndə Aleksandropolda məni, bir də Həkimyans ilə Ələsgəri ştab evinə apardılar. Küçələr, meydançalar tamamilə qoşun və hərbi arabalardan ibarət idi. Bizi istər küçədə, istər ştab həyətində rəhmsiz bir surətdə döydülər. Mən hissimi itirmək üzrə idim. Məhbuslar akoşkalardan baxırdılar. Mən bir səs eşitdim: «İsrail vurma! O, sən dediyin adamlardan deyil!» – dedikdə İsrail cavab verdi: «Bağışlayınız. Tanışınız olduğunu bilməmişəm. Vəzifəmiz belə vəzifədir». Bizi uzun və soyuq bir odaya buraxdılar. Oturmaq və yatmaq üçün hər iki tərəfdən taxta çəkmişdilər. Məhbus çox idi. Bizə ancaq qapı ağzında yer oldu. Münasibətsiz və çox da soyuq yer idi. Oturduq. Məni bir nəfər qucaqlayıb öpdü:

- Ordubadi, sən hara bura hara? – dedi. Levon Zolayevi yanımda gördüm. Bu gənc İrəvanda ən təmiz at faytonu saxlardı. Mən, Əkbər Əkbərov, bir də oxuyan Yusif daima bunun faytonu ilə İrəvanın yay əyləncə yerlərini gəzirdik. Levon son vaxtlar Aleksandropola köçmüş və faytonu adam basdığı üçün həbsə alınmışdı. Onlar istər İrəvan, istərsə Aleksandropolda ən hörmətli və məşhur familiya olduqlarından Levonun həbsxanada da hörməti saxlanırdı. Levon məni buradakı məhbuslarla tanış

etdi. Məhbusların içində məhəlli-daşnak firqəsinin sabiq divan rəyasət üzvü Avadis Tarpinyan da var idi. İki nəfər də yezidi kürdlərdən birisi Qəhrəman ağa, digəri isə Qafar ağa idi. Aleksandropol qəzası Pampili kəndindən olan bu iki kürd olduqca hörmətli və xoş söhbət adamlar idi.

Hava tamamilə qaranlıqlaşmışdı. Həbsxana müdiri gəldi. Biz qapının ağzında idik. Ayağa qalxdıq. Üstüm-başım bulanmışdı. Müdir ayağımdan başıma qədər gözdən keçirtdi. Sonra yanındakılara dönərək: «Təzə gətirilən it balaları bunlardırmı?» Onlar hamısı birdən köpək kimi səsləndilər: «Bəli, cənab!»

Müdir bir az da yaxınlaşdı. Sonra bir polis qəzəbi ilə üzümdən vurdu. Gəzib bayıra çıxdı. Onun olduqca zalım və əxlaqsız olduğu haqqında mənə bir çox cümlələr söylədilər. Ermənilər axşam namazına durdular. Yezidi kürdlər ermənilərlə birlikdə namaz qıldı. Namaz əsasında başlanan kilsə mahnıları olduqca şirin və zövqverici bir surətdə mahnı və ibadət cəhətincə müsəlmanlar ilə ermənilərin fərqi hiss edilməyəcək qədər yaxın olduğunu mən ancaq bir neçə gün Aleksandropol həbsxanasında qaldıqdan sonra bildim. Axşam ermənilər də yeməklərindən bizə verdilər. Yemək yalnız qara çörək idi. Yatan vaxtında mən buzlu paltarları çıxartdım. Quru paltar geydim. Botiləri çıxarmaq çox çətin idi. Levonda artıq yorğan var idi. Onu mənə verdi. Otaqda su donmağa başladığından küzələrdən suları boşaltdılar. Canım bir təhər qızdı.

Səhər tezdən qalxdıq. Yenə də namaz qılındı. Çay üçün isti su gətirdilər. Soyumuşdu. Levonun sifarişi ilə böyük çaydanda qaynar su gətirdilər. Çayı bir yerdə içdik. Bir çox məhbus şəkərlə çay içməyi unutmuşdu. Şəkər payladıq. Bir ailə kimi çaydanın başına toplandıq.

Burada müsbət cəhətlərdən birisi budur ki, hər kəs istədiyi vaxt taraş oluna bilərmiş. Mən məhbuslara verilən bu müsbət imtiyazın səbəbini öyrənmək üçün çox maraqlanırdım. Axırda məlum oldu ki, baş nəzarətçinin özü bərbər olduğundan para qazanmaq üçün bu imtiyazı vermişdir. Mən də taraş olmağa getdim. Üzümü bir neçə tərəfdən doğradı. Taraş parası 20 qəpik idi. Mən ona 3 manat verdim. O, o tərəf-bu tərəfə baxıb: - Xırdam yoxdur»- dedi. Mən də: «Sizdə qalsın. Yenə də taraş olunacağam» - dedikdə o, 4 dəfə «Çox sağ olunuz» - dedi. O, çox hörmətlə mənə yanaşırdı. Məni daha qar təmizləməyə aparmırdı.

Şəhərdə şiddətli tif xəstəliyi var idi. Qış olduğuna baxmayaraq, qoşun arasında vəba əlamətləri də görülmüşdü. Bu münasibətlə bayırdan məhbuslara heç bir şey buraxılmırdı. İçəridə tam mənası ilə aclıq hökm sürürdü. Verilən çörək yarım girvənkədən bir az artıq olardı. Mən börkümün içərisində olan kağız paralardan çıxarıb xərc etməyə qərar ver-

dim. Hər gün 3 manat baş nəzarətçiyə verib ağ çörək, ağ pendir gətirməsini tapşırırdım. O, bundan boyun qaçırmırdı. Çünki ermənilərin hesabına görə, o, gündə bir manatdan az oğurlamırdı. Bununla bərabər yeməkdən təmin olunurduq. Baş nəzarətçi Naxçıvandakı Cüngu Əliyə nisbətən insafsız deyildi. Çünki Əli bayırdakı dostlarımdan aldığı rüşvətdən başqa mənim özümdən də əlli manat almışdı. Buradakı nəzarətçi isə məndən doqquz günün müddətində 11 para çala bilmişdi.

***

Bu gecə adəti üzrə yenə də şiddətli qar yağmışdı. Tezdən qapını açıb qarları təmizləmək üçün məhbusları dışarı çıxarmışdılar. Qəhrəman ağa, Qafar ağa da çıxarılmışdı. Nahar gətirmək üçün də adam göndərilmişdi. Naharı gətirib həyətdə qoydular. Nahar qırmızı lobyanın suyu idi. Lobya isə təsadüf olaraq qaşığa çıxırdı. Nahar həyətdə soyudu. Heç kəsi buraxmadılar. Həyətdə böyük həyəcan var idi. Bir hadisə üz verdiyini hər kəs yəqin etmişdi. Nə baş verdiyini və hadisənin nədən ibarət olduğunu bilən yox idi. Azdan sonra məlum oldu ki, qar təmizləməyə çıxarılanlardan Tomas adlı bir məhbus qaçmışdı. Məhbusu şəhər içində təqib edib, güllə ilə vurub öldürmüşdülər. Tomasın ölüsünü həbsxanaya gətirdilər. Doktorlar və polislər yatab həyətinə gəldilər. Bəratülqəvl açıldıqdan sonra ölünü təşrif olunmaq üçün xəstəxanaya apardılar.

Səhər tezdən İsrail adlı açarçı Levona belə bir məlumat vermişdi: «Doktorlar Toması yardıqda qarnında yemək naminə heç bir şey olmadığından həbsxana müdirinə məzəmmət verilmişdi.

Bizi fevral ayının 24-də Aleksandropol yatab həyətindən çıxarıb stansiyaya yola saldılar. Yatab ilə aparılan məhbuslara çörək vermək adət olmadığından biz 4 kilometr qədər yolu dalımızda şələ olaraq ac getməli idik. Erməni məhbusları öz çörəklərini bizə verdilər. Halbuki özləri bir gün-bir gecə ac qalmalı idilər.

Onlar bizdən xəcalət qaldıqlarını, lazımınca xidmət edə bilmədiklərini söyləyərək üzr istəyirdilər. Vidalaşdıq. Onlardan heç unudulmaz bir xatirə ilə ayrıldıq. Yenə də 9 gündən bəri buzu açılmamış paltarları geydik. Çünki yenə də islanacaq, yenə də palçıqları yarıb keçməyə məcbur olacaqdıq.

Stansiyaya yetişincəyə qədər bizdə taqət qalmadı. Palçıq əlindən gedə bilmirdik. Yıxılıb qalırdıq. Qalxa bilməyənləri və təxirlə qalxanları tüfəng qundağı ilə qaldırırdılar. Canı, başı, sifəti qaralmayan yox idi. Stansiyaya yetişdik. Boş və dolu vaqonların həddi-hesabı yox idi. Ərzurum üzərinə hücum başlandığı üçün Qars cəbhəsinə yeni qoşun hissələri gedirdi. Cəbhədən qatarlar dolusu yaralılar, donmuş əsgərlər gətirilib Tiflisə və Rusiya

içərilərinə göndərilirdi.

Biz saxlanılan yerdə türk əsgərləri ilə doldurulmuş qatarlar da durmuşdu. Vaqonlar at vaqonları idi. Açıq və soyuq vaqonlar idi. Əsirlər əllərində dəmir konserv qutularını tutub qar istəyir və susuz olduqlarını deyib yalvarırdılar. Azdan sonra yatab vaqonunu axtarmaq üçün gedən soldat qayıdıb gəldi: «Vaqon gəlməmiş, məhbusları həbsxanaya göndərmək lazım olacaqdı» - dedikdə hamımız məhv olduğumuzu gözə aldıq. Taqətimiz kəsildi. Palçığın, qarın üstünə döşəndik. Biz uzun yolu qayıda bilməyəcəkdik. Bunun üçün də belə bir qərara gəldik: «Yolda qəsdən qaçmaq istəyəriz. Soldatlar vurarlar, yaxamız zəhmətdən qurtarar». Beş dəqiqədən sonra bir soldat daha gəldi. «Vaqonu tapdım. Qalxın!»- dedikdə hamı şadlandı. Məlum olduğuna görə, yatab vaqonu olan qatar türk əsirləri duran vaqonların dalısında imiş. Hamımız yeni bir ruh ilə ayağa qalxdıq. Bizi sayıb təhvil götürən qaraul komandanı bizə çox mülayim bir surətdə dedi: «Nə qədər ki, hərəkət etməmişik, yerinizdə oturun, sonra yolda nə istəyirsinizsə, söz yoxdur». Vaqon olduqca rahat və isti idi. İki peç yanırdı. Çaydanlar qaynayırdı. Hər kəs islanmış paltarlarını çıxarıb qurutmağa başlayırdı. Potinkalar peçlərin yanına düzülmüşdü. Quru və təmiz paltarları gətirmişdik.

Qaraul soldatlar da gəldilər. Çayı bir yerdə içdik. Onlara şəkər verdik. 3 manat pul verdik, onlar ağ çörək və ət alıb gətirdilər. Əti təmizləyib peçin üstünə qoyduq. Neçə gündən bəri yemədiyim xörəyi ancaq bu gecə yeyə bildim. Vaqon çox isti idi. Gecə üstümüzə qalın şey salmaq lazım deyildi. Mən həmin gecə yuxudan aldığım ləzzəti heç vaxt almamışam. Özümüzü Tiflisə qədər olduqca rahat hiss etdik.

***

Biz Tiflis stansiyasına səhər saat 11-də yetişdik. Qaraul komandanı şeylərimizi yığmaq üçün araba tələb etmişdi. Şeylərimizi yığıb rahat olduq. Komandanın özü Tiflisi gəzməyə maraqlanırdı. Ona görə də bizi Mixayloski küçədən keçirib Kalavin küçəsinə çıxartdı. İrəvan meydançasından keçib meydana, müsəlman bazarına keçdik. Orada Tiflis türk aktyorlarından Əşrəf Yüzbaşıyevə rast gəldik. Və salamlaşdıq. Çox yavaş-yavaş gedirdik. Az adam idik. Onun üçün də qaraullar kimsənin qaçmasından qorxmurdular. Bunun üçün də gəzdirir və bəzi küçələrin adını soruşurdular.

Saat 1-ə yaxın onlar da, biz də gəzməkdən yorulmuşduq. Ona görə də həbsxanaya getməyə başladıq.

## TİFLİS HƏBSXANASINDA

Bizi saat birdə Tiflis həbsxanasına gətirdilər. Axtarana qədər çox uzun çəkdi. Bu vaxt Batumdan da yatab gəlmişdi. Bizimlə yan-yana bir dəstə dustaqları da soyundurub axtarırdılar.

Bunların içərisində acar müsəlmanlarından Məhəmməd bəy Abaşidze də var idi. Bu, alt paltarlarını çıxarmamaq üçün həbsxana xidmətçilərinə yalvarırdı. Lakin mümkün olmadı. Onu ümumi qayda üzrə soyundurub qamətini belə əydilər. Bir həyətə buraxdılar. Məhbusların hamısı həyətdə idi. Biz də şeyləri odada qoyub üstündə oturduq. Odadaki məhbuslar gürcülər, ermənilər, iranlılar və bir də gürcü müsəlmanlarından ibarət idi. İranlı məhbusların içərisində məni tanıyanlar çox idi. İranlılardan bu odada yalnız iki nəfərin hörməti var idi: onlardan birisi İsgəndər, ikincisi Məşədi Hüseyn idi. Gürcülər, ermənilər bunların fikri ilə hesablaşırdılar. Yeməkləri, çayları da bir yerdə idi.

Axşam zəng vuruldu. Hamı içəri qayıtdı. Məhbəsin müdiri gəldi. Hamı səf çəkib durmuşdu. O salam verdi. Bütün məhbəslər bir səslə əsgəri salam verdilər. Sonra o getdi. Nəzarətçi gəlib hamını saydı və qapını bağlayıb dışarı çıxdı. Saat 9 idi. Bizə yatmaq üçün yer yox idi. Məhbuslar bunu hiss etdilər. Yerləri geniş olanlar biri-digərinin yanına çıxdı. Hamıya yer oldu. Sonra bir nəfər gürcü məhbusu da taxta çarpayının üstündən düşürüb yerini mənə vermək istədilər. Mən qəbul etmədim. Onun özü gəlib, şeylərimi gətirib çarpayının üstünə qoydu. «Sən qonaqsan, rahat ol!» – dedikdən sonra bu təklifi qəbul etdim.

O gecəni yatdıq, Məşədi və İsgəndər mənim qulağıma bəzi sözləri pıçıldayırdılar. Burda bir az ehtiyatlı olmağı tövsiyə edirdilər. Mən yanımda olan az paramı yanımdakı Baqrat adlı məhbusun döşəyinin altına qoyur, tezdən yenə də kimsənin xəbəri olmadan götürürdüm. Beləliklə də, həbsxanada mənim heç şeyimi aparan olmadı. Lakin Assuri yoldaşımın şalvarına tikdiyi on manatı çıxarıb yerinə kağız tikmişdilər.

Mən birinci gün səhər tezdən ayıldım. Odada ağlamaq səsləri eşitdim. Qalxıb oturmağa ixtiyar olmadığından uzanmış halda ətrafı seyr etməyə başladım. Burada gənc rus uşaqlarının bir məhbusun qoynundan ağlaya-ağlaya bir başqa məhbusun qucağına atıldığını gördüm. Səhər oldu. Qalxdıq. Mən bu vəziyyət haqqında Məşədi Hüseyn ilə danışdım. Və o uşaqların haradan gəlib bu fəlakətə düşdüklərini xəbər aldım.

***

32 nəfər rus balası müxtəlif şəhərlərdən Rus-Türk cəbhəsinə gəlmiş, oralarda oğurluq və başqa işlərlə məşğul olduqlarından həbsə alınmışdılar. Çünki idareyi-ülfiyə elan olunmuş şəhərlərdə işsiz və şübhəli adamların

yaşamasına imkan verilmirmiş. Uşaqları yatab öz yerlərinə göndərmək üçün Tiflis həbsxanasına gətirmişdilər.

Bunları ayrı bir odada saxlamayıb, 95 nəfərin içərisinə buraxmışdılar. Uşaqlar olduqca sağlam, olduqca gözəl idilər. İçəridə 28 yaşından 20 yaşına qədər uşaqlar var idi.

Çoxdan bəri qadından və azad həyatdan ayrılmış və müsəlman əxlaqsızlardan təşkil edilmiş bu həyasız kütlə bədbəxt uşaqların üzərində olmazın həyasızlığını yapırdı. Hər bir uşaq, heç olmasa, gecədə 6-7 nəfər caninin şəhvətini soyutmağa məcbur olunurdu. Qoyulan qaydaya görə hər bir uşaq bu gecə kimin yanında yatacağını vaxtikən düzəlmiş şifahi cədvəl üzrə bilirdi. Şəhvətçilərin arasında heç bir insafsızlıq və ixtilaf çıxaracağını görmədim. Qorxudan heç bir söz demək olmurdu. Çünki danışan və ixtilaf çıxaran məhbuslardan bir neçəsinin yaralandığını və birinin boğulub nəcis boçqası ilə bayıra atılması hər kəsin gözünü qorxutmuşdu.

Qapıda duran polislər də bunu bilməmiş deyildi. Çünki gecə saat 12-dən sonra zavallı uşaqların iniltisini eşikdə olanların da eşitməsi mümkün idi.

Uşaqlar gündən-günə solur saralırdı. Bir çoxları yanı üstündə otura da bilmirdilər. Qorxularından şikayət edə bilmirdilər. Bunların içərisində ən gözəli Jorka ilə Valodya idi. Bunları həbsxananın qolu zorbaları sahiblənmişdi. Valodyanı iranlı Məşədi Hüseyn, Jorkanı isə Baqrat saxlayırdı. Həbsxanada yazıq çocuqlara Məşədi Hüseynin və Baqratın qadınları deyib gülürdülər. İstər Məşədi Hüseyn, istərsə Baqrat bu uşaqlara bir qadın kimi xidmət edib, onların nazlarını çəkirdilər. Həbsxana qolu zorbaları bu uşaqları lazımınca yedirirdilər. Oğurladıqları və dışarıdan aldıqları para və yeməkləri tamamilə bu iki uşağa yedirirdilər. Bu iki uşaq artıq əxlaqsızlığa alışmışdı. Bunlar başqa uşaqlara qarşı məğrur davranır və özlərinin gözəl və sevimli olmalarından iftixar edirdilər. Bu kimi söhbətləri onlar yalnızlıqda deyil, camaat arasında danışırdılar. İstər Məşədi Hüseyn, istər Baqrat bu uşaqları çox təmiz saxlayırdı. Onlar iki gün ara çimdirilir və hər gün alt paltarlarını dəyişirdilər. Çay içmək üçün gətirilən isti sular bəzən Valodya ilə Jorkanın vannalarına sərf olunurdu. Bunların çiməcək yerləri ubornıdan ibarət idi. Son günlər Volodyanı pudra və ətir vuranda da gördüm. Məşədi Hüseyn onu bu işə məcbur edirdi. Günlərin birində qəribə bir hadisə oldu. Vano adlı bir gürcü məhbusu Məşədi Hüseynin saxladığı Volodyanı öpmək istəmişdi. Valodiya bunu ağlaya-ağlaya Məşədi Hüseynə xəbər verdikdə Vanoya hücum etdi. Mən bu hadisəni büsbütün başqa cür düşünürdüm. Mənim zənnimcə, Məşədi Hüseyn yalnız olduğundan onu gürcülər lazımi qədər döyəcək idi. Lakin

iş bunun əksinə çıxdı. Məşədi Hüseyn Vanoya bir sillə vuran kimi bütün gürcülər və ermənilər Vanonu döyməyə başladı. Məşədi Hüseyn buna mane oldu. «Bəsdir!» - deyə onların əlindən aldı. Vano isə Məşədi Hüseyndən üzr istəyib barışdı.

Bu təəccüblü işlərdən birisi də Volodyanın Məşədi Hüseyni başqa çocuqlara qısqanmasından ibarət idi.

Ərzurum şəhəri ruslar tərəfindən işğal olunan günündə, necə ki, bütün şəhəri, elə də həbsxananı bəzəmişdilər. Bu gün hava dəxi çox gözəl idi. Naharı həyətdə yeyirdik. Yaxşı süfrə açılmışdı. Bayırdan Vanoya və Məşədi Hüseynə yemək gətirilmişdi. Volodya gəlib süfrəyə oturmamışdı. Məşədi Hüseyn də Vanonun təkrar-təkrar dəvətinə baxmayaraq, gəlib nahar yemədi. Sonra mən bunun səbəbini Məşədi Hüseynin özündən soruşdum. «Mən Salavyov ilə danışdığım üçün Volodya «məni sevmirsən» - deyə məndən küsmüşdür»-dedi.

Məşədi Hüseynin ərizə yazdığını və Volodyanın ona imza qoyduğunu gördüm. Əlbəttə, soruşmaq qanundan kənar idi. Lakin az keçmədən Məşədi Hüseyn ərizəni mənə göstərdi. Volodya canişin Vorontsov-Daşkova ərizə verirdi. O yazırdı ki, mənim Voronejdə heç kəsim yoxdur. Hərgah bir kəsim olsaydı, mən bu yaşımda Qafqaza gəlməzdim. Buna görə rica edirəm ki, mənim fağırlığımı nəzərə alıb İrana göndərilməyə icazə verəsiniz. Ərizədə bir çox cümlələr yazılmışdı. O cümlədən Məşədi Hüseynin onu oğulluğa dəvət etdiyi də yazılmışdı. Çünki Məşədi Hüseyni yatab ilə Təbrizə göndərəcəkdilər. Uşaqların içində ən sağlam vücudlusu Vasil idi. Bunu Vasya səsləyirdilər. Onu məhbuslar hər gün bir neçə dəfə döyürdülər. Heç kəs ona tərəfdar dura bilmirdi. Mən bu barədə Məşədi Hüseyn və Baqrat ilə danışdım. Onlar indiyə qədər Vasilinin təslim olmadığını, uşaqların məşğul olmaq istəmədiyini söylədi. Vasili-Vasyanı baykot etmişdilər. Ona heç bir şey vermirdilər. Naharı paylayan zaman da belə ona öz normasını vermirdilər. Onu çox ağır işlərə göndərirdilər. Heç nobatı olmadan odanı təmizlədir və butkanı boşaltmağa məcbur edirdilər. O, böyük bir inadla bunların hamısına davam gətirir və təslim olmurdu. Daima onu döyəndə köksünü gərərək: «Vurun, nə qədər istəyirsiniz» - deyib heç yalvarmır və ağlamırdı.

Həbsxana müdirləri bunların hamısını görürdü. Mən ara-sıra tək düşdükdə Vasilə ürək verirdim. Onun əxlaqını təqdir edirdim. Heç kəs bilmədən ona bir neçə parça şəkər də verirdim. Lakin o çay içərkən əlində şəkəri gördülər. Şəkərin kimin tərəfindən verildiyini öyrənmək üçün çox çalışdılar. Tapa bilmədilər. Məşədi Hüseyn və Baqrat bu barədə daha bir kərə yanaşıb Vasilə yardım etməməyimi və bununla da məhbusların nifrətini qazanmamağı mənə tövsiyə etdilər.

***

Son günlər uşaqlardan ikisi (Mitya və Aleksey) tamamilə xəstələndilər. Büsbütün ayaqdan düşdülər. Daha oturmağı bacarmırdılar. Bununla belə vəhşi məhbuslar yenə də onları incidib və istifadə edirdilər. Səhər qapı açılanda məhbuslar bayıra çıxmışdı. Nəzarətçi gəlib odanı yoxlarkən uşaqların yatdığını və ayağa qalxa bilmədiyini gördü. Adlarını yazıb getdi. Məhbuslar çocuqların xəstələnib xəstəxanaya aparılmalarından qorxuya düşdülər. Nəzarətçi getdikdən sonra onları hədələyib həyətə çıxmağa məcbur etdilər. Lakin taqətdən düşmüş çocuqlar qalxıb yenə də yıxıldılar. Yarım saatdan sonra xəstəxana qulluqçuları bunları apardı. Mən çocuqların aparılmasından çox sevindim. Həkimlərin bu həyasızlığın üstünü açacağını zənn edirdim. «Bəlkə bunun üstü açıldıqdan sonra başqa uşaqlar da bu fəlakətdən qurtaracaqdır» - deyə düşünürdüm.

Bir gün, iki gün, bir həftə gözlədik. Xəbər çıxmadı. Çar məmurları, çar həkimləri buna əhəmiyyət vermirdilər. Uşaqların həbsxanada öldüklərini eşitdik. Həyasızlıq isə yenə də davam edirdi.

## ÇAR CASUSLARI

Biz naharı yeyib qurtarmışdıq. Hər kəs həyətdə, bəziləri üstünü təmizləyir, paltarlarını yamayır, yaxud isti su tapıb paltarlarını yumaqla məşğul idi. Əksəriyyət məhbuslar günəşdə oturub öz başlarına gələnlərdən və hekayələrdən deməyə məşğul idilər.

Bu vaxt iki nəfər yeni məhbus gətirdilər. Həyətdə bir həyəcan və bir pıçıldama başladı. Gürcülər, ermənilər Məşədi Hüseynin ətrafına toplanıb danışmaqda idilər. Mənim heç bir şeydən xəbərim yox idi. Təzə məhbusların paltarları və başqa şeyləri də yox idi. Mən onlarla tanış oldum. Onlardan birisi Əziz, digəri isə Əsədulla idi.

Bunların öz dediklərinə görə, qarslı idilər. Müharibə olduğu üçün öz ailələrini Vladiqafqaza köçürmüşlər. Qayıtdıqda pasportları olmadığından yolda tutulmuşlardı.

İndi isə yatab ilə Qarsa göndərilirlərmiş.

Əziz bunları mənə nağıl etdikdən sonra Çar hökumətini söyməyə və tənqid etməyə başladı. Bu vaxt ətrafımızda bir çox məhbuslar yığılmışdı. Əlbəttə, bunların dediklərindən hər kəsdə bir şübhə oyanırdı. Çünki onların ailələrini Vladiqafqaza köçürməyə lüzum yox idi. Artıq Türk ordusunun hücumunun qorxusu qalmamışdı. Ərzurum alınmışdı. Rus ordusu Anadolu içərisinə soxulmaqda idi.

Vano mənə və Məşədi Hüseynə yanaşdı:

- Çar hökumətinin bu cür fırıldaqları çox olar. Ara-sıra polislər həbs

edirlər. Onlar məhbusların kimlər və nə fikirdə olduğunu öyrənirlər. Bunları Batumda, Qarsda, Sarıqamış və Ərdahanda tanımayan yoxdur. Bunları lazımınca cəzalandırmalıyız. Sizin fikrinizə başqa şey gəlməsin. Bunları türk olduğu üçün, casus olduqları üçün döyəcəyiz – dedi. Biz isə:

- Bizə heç fərqi yoxdur. Casus hər millətdən olursa-olsun, casusdur- dedik.

Axşam yatmaq vaxtı bunlara cərgədə yer verən olmadı. Hər ikisi yatanların ayaqları altında uzanıb yatdılar.

Səhər tezdən Vano qalxdı. Qapı açılana qədər lazımi adamlar ilə danışdı. Qapı açıldı. Boçkanı bayıra aparıb boşaltmaq lazım idi.

Əziz və qardaşı Əsədulla hələ yerindən qalxmamışdı. Vano onlara yanaşıb ayaq barmaqları ilə Əzizi dümsüklədi. «Dur, boçkanı boşalt» dedikdə Əziz böyrü üstündən durub, o biri böyrü üstə yatmaq istədi. Vano bu dəfə ciddi surətdə onun uzanmışına bir təpik vurdu: «Dur deyirəm!».

Əziz sərasimə qalxdı. Vanonu vurmaq istədikdə Baqrat və sairələri bu iki qardaşı burunları dağılana qədər, əndamları göyərənə qədər döydülər. Qaravulda duran polisə xəbər getdi. Naçalnik və müavinləri ilə gəldilər. «Bunları kim döydü» - dedikdə hamı bir səslə:

- Hamımız döydük - dedilər.

Naçalnik yalnız bir kərə: «İt balaları!»-deyərək onların başqa odaya salınmasına əmr etdi. Hər iki qardaşı çıxarıb apardılar. Vano barmaq yazısı ilə «o biri odaya» məsələni anlatdı. Orada casusları lazımi qədər döydülər. Axşam yatıncaya qədər onlar bütün odaları gəzdi, yatdıqlarını sonradan eşitdik.

Bu gün axşamdan siyahını oxudular. Sabah tezdən Bakıya göndərilən məhbusların hazır olmalarını bildirdilər. Həmən gecəni heç kəs yatmadı.

Həbsxanada belə bir adət mövcud idi: Yatab çıxan vaxt hər kəs ayıq olmalıdır. Çünki yatab gedənlərin, qalanların şeylərini oğurlaması adətdir. Bunun üçün də yatab çıxana qədər öz şeylərini gözdən kənara qoymamalıdır. Hətta aylardan bəri bir süfrədə çörək yeyənlər belə bir-birlərinin şeylərini oğurlamağa çalışırlar. Gecəni hər kəs ayıq idi. Uşaqlar da yatab ilə gedəcək idi. Volodya, Jorka da gedəcək idi. Bu gecə həyasızlıq həddindən artıq idi. Şadlananlar, ağlayanlar da var idi. Məşədi Hüseynin keyfi çox xarab idi. Çünki Volodyadan ayrılırdı. Volodya da çox ağlayırdı. Öz adresini Məşədi Hüseynə verib Təbrizdən ona məktub göndərməyini rica eləyirdi. Məşədi Hüseyn ona pul göndərəcəyini, Təbrizə aparacağını söyləyirdi.

Mart ayının 25-də səhər vaxtı aparılanları qəfildən səslədilər. Mənim aylardan bəri səmimi yoldaşım olan Petros Həkimyans isti su gətirməyə

getdiyindən onunla vidalaşa bilmədim. Ona çay, şəkər və başqa şeylər də verməyə imkan olmadı. Həkimyansı orada qoyub getməyim mənim üçün ağır bir dərd olmuşdu.

Biz Tiflisdən Bakıya bir gündə gəldik. Mart ayının 26-da axşam vaxtı Bakı stansiyasında idik.

## BAKININ BAYIL HƏBSXANASINDA

Axşamı lampaları su altında uyumuş sabah yeli şəhərin tərli çöhrəsinə işıq saçırkən biz Bakı bulvarının qarşısında idik. Yeni əkilmiş nazik ağacların titrək kölgəsindən Bakı varlılarının qalın və nahamvar kölgələri bir-birinə toxunurdu.

Biz həbsxanaya yetişdikdə artıq tamamilə qaranlıqlamışdı. Bizi sayıb içəri buraxdılar.

Mən salındığım odada bir yəhudi, bir də rus var idi. Mən bunların nə dində olduğunu söhbətlərindən bildim. Bunlar rus-yəhudi ixtilafı haqqında danışırdılar. Söhbətləri qızışmışdı. Mən şeylərimi qoyub oturmuşdum. Yatmağa, hətta yığınmağa taqətim yox idi. Çox yorğun idim. Stansiyadan bayıl həbsxanasına qədər ağır şeylərimi daşımağa məcbur olmuşduq. Odanın döşəməsi taxta idi. Yer də quru idi. Odadakıların söhbəti daha da qızışdı. Bunlar yüz ildən bəri çar Rusiyasında hökm sürmüş yəhudi məsələsini çar həbsxanasında həll etməyə tələsirdilər. Onlar danışdıqca sözləri bir vuruşmaya qədər varıb çıxdıqda mənə müraciətlə: «Siz də doğrusunu deyiniz. Belə deyilmi!» – deyib soruşurdular.

Mənim cavab verməyə vaxtım yox idi. Gözüm, qulağım onlarda olsa da, fikirim, düşüncəm tamamilə başqa bir tərəfdə idi. Bu söhbətdə qapının bacasından bir uzun papağın içəri soxulduğunu gördüm. Papaq bütün bacanı qapadığından səs sahibinin üzünü görmək mümkün deyildi. Səslədi. Burada neçə müsəlman vardır? Mən: «Yalnız bircə nəfərdir!» – deyə cavab verdim.

Papaq çəkilməyə başladı. Odada söhbət edənlər yenə də sakit olmamışdı. Azdan sonra həmən papaq sahibi əlində böyük bir padnos açılmış qapıdan içəri girdi. Padnosu mənim yanımda yerə qoydu.

- Bunu sizin üçün Kəblə Ağa Kərim göndərdi-dedikdə mən ona cavabla:

- Mənim hər şeyim vardır. Bu zəhmətə heç razı deyiləm-dedim.

Papaq sahibi qaş - qabağını turşudub mənə təəccüblə baxdı:

- Yox, elə etməyiniz. Qəbul etməsəniz Kəblə Ağa Kərim inciyər.

- Kəblə Ağa Kərim kimdir?-dediyimdən o, daha təəccüb etməyə başladı.

- Təəccübdür, bütün dünyada qoçu Kəblə Ağa Kərim məşhur ola-ola siz onu tanımayırsınız? - dedi.

Mən tanıdığımı ona söylədim. Çox razılıq etdim. O, yenə də sözünə davam edərək:

- Kəblə Ağa Kərim buyurdu ki, yenə də hər nəyə ehtiyacı varsa xəbər versin - dedi.

- Bu qədər kifayətdir. Tək adamam, çox zəhmət çəkiblər, məndən ona salam söylə.

Papaq sahibi getdi. Açarçı qapını bağladı. Yəhudi ilə rus Ağa Kərim qoçu ilə Teymurbəyin dəhşətli adamlar olduğunu bir-birinə tərif etdilər. Mən iki məşhur Bakı qoçusunun həbsxanada olduğunu anladım. Taleyimin təsadüf yaratdığından təəccübləndim. Məni bir neçə kərə istər Əhməd bəy Ağayev, istərsə Haşım bəy Vəzirov qəzetdə işləmək üçün Bakıya dəvət etmişdilər. Mən fəqət qoçuların qorxusundan Bakıya gəlməmişdim. İndi isə bunlarla bir damın altında yaşayıram.

Ac idim. Yeyib yatmalı idim. Ayağa qalxıb yıxanmaq istədikdə oda arkadaşlarım əlimə su tökmək üstündə bir-birinə macal vermirdilər. Yığışdım. Yerimi açdım. Ədyal və balışım var idi. Şeylərimi başımın altına qoyub başımı üstünə qoydum. Bu, həbsxananın ümumi adətlərindən idi.

Padnosu aralığa çəkdim. Odadakılar çox həris və iştahalı bir surətdə padnosa və mənə baxırdılar. Onlara pay verib-verməməyim barəsində bir şey öyrənmək istəyirdilər. Mən əvvəlcə padnosu gözdən keçirdim. Üç dənə yağlı çörək, beş girvənkəlik doğranmış şəkər, çay, üz dəsmalı, sabun, şit yağ, pendir, papiros, diş paraşoku, onun şotkası idi. Burada mənim üçün ən qiymətli şey bir çaynik isti çaydan ibarət idi.

Sonra dönüb arkadaşlara baxdım. Onların ağzıma tikili göz bəbəkləri titrəyirdi. Bir kərə:

- Buyurun görək!-dedim. Onlar inanmadılar. Bir də təklif etdim:

- Gəliniz, çay isti ikən için!-dedikdə şad bir surətdə irəli gəldilər. Stəkan bir idi. Onların dar qabları var idi. Şəkər salıb şirin çay qayırdılar. Şam yeməyi bitdi. Onlar:

- Bu da səhərinizə yetər!- deyə razılıq edib süfrədən çəkildilər. Padnosu aralıqdan təzə götürmüşdük. Mən yol paltarlarımı dəyişib təmiz kastyum geydim. Yaxalığımı da bağladım. Odada dolaşırdım. Qapının pəncərəsinə bir nəfər yanaşdı. Arkadaşlarım bunu görən kimi birdən: «Kəblə ağa Kərim!»-dedilər. Kəblə ağa Kərim salam verdi. Kefimi soruşdu. Haradan gəldiyimi, haradan göndərildiyimi təfsilən soruşdu. Mən də olduğu kimi söylədim. Nə iş sahibi olduğumu ən sonra xəbər aldı. O, bir az düşündü:

- Eşitmişəm, qəzetlərdə də oxumuşam. Təəssüf edirəm ki, sizinlə həbsxanada görüşdük. Fikir etməyin, bu müharibə uzun çəkməz. Bizi də Teymur bəylə bir yerdə həbs etmişlər. Keyfini pozma. Hələlik rahat ol. Sabah görüşəcəyiz. Təfsilən söhbət eyləyərik -deyib getdi. Mən onun dalınca çox təəccüblə baxdım: «Əcəba, bu qoçudurmu?» – deyə düşündüm. Mən bunları öyrənmək üçün artıq dərəcədə maraqlanırdım.

Yatmaq vaxtı idi. Arkadaşlarım da, mən də soyunduq. Hər kəs şalvarını ütüləmək üçün döşəməyə açıb, yerini onun üstündən döşədi. Başqa şeyləri də meşoka qoyub başımın altında yerləşdirdim.

Mənzil yoldaşlarımın heç birisi rahat ola bilmirdi. Çox rahat yatdım. Səhər tezdən ayıldım. Vaxtında qalxmağı gözləyirdim. Zəng vuruldu. Yəhudi hamıdan əvvəl paltarlarını geydi. O tərəf - bu tərəfə dolanıb ağzını pəncərədən Kaspi dənizinə tutub bir kərə ucadan oxudu:

«Mərhəmət qıl mənim qiymətli dostum.
Mənim qaranlıq həyatıma işıq ver!» -

sözlərini rusca oxudu. Rus arkadaşımız isə bunun cavabında:

- Binyasın, namazın bitdi - söyləyərək güldü. Bunların hər ikisi gənc və hər ikisi də eşq macərası nəticəsində də həbs edilib öz yerlərinə sürgün edilmişdilər. Yəhudi arkadaşım öz macərasın belə təsvir edirdi:

- Əndicanda Daşkənddə yaşayırdım. Əndicanda böyük mülkədarlardan Həsən bəyin qızı Teyyibə ilə sevişmişdik. Qızın atası da izdivacımıza mane deyildi. Mən yəhudi olduğumu gizlətmişdim. Adım Şimalı Qafqazdan Çərsək Məhəmməd idi. Türkistanlılar, ümumiyyətlə, Dağıstan müsəlmanlarına çox ehtiram bəsləyirlər. Mən hörmətdən istifadə edirdim. Mənim düşmənlərim mənə həsəd apardılar. Daşkənddə həbsə alındım. Həsən bəy də məni xilas etmək üçün gəldi. Mənim vəsiqələrimi yoxladıqda yəhudi olduğum meydana çıxdı. Həsən bəy də çox acıqlandı. Mənim sürgün edildiyimə o dəxi yardım etdi. Lakin mən bilirəm ki, mənim yəhudi olmağım üçün Teyyibə mənə olan sevgisini heç vaxt dəyişməz.

Yəhudi arkadaşımız öz macərasını bitirdi. Rus gənc çox danışmadı.

- Toyuma ikicə gün qalırdı, həbs edilmişəm. Kazlov quberniyasına göndərirlər - dedi.

Yenə də bizim üçün səhər yeməyi və çay gətirdilər. Yedik, içdik. Süfrə götürülmədən Türkistandan yeni yatab gəldi. Odamıza bir çox özbək məhbuslarla bir nəfər də cibkəsən və adam soyan gətirdilər. Adına Knyaz deyirdilər. O, Binyansı (yəhudini) görən kimi tanıdı: «Zalımın gözəl əli vardır. Gözdən kipriyi oğurlar» - deyə Binyansın məşhur cibkəsən olduğunu söylədi. Bir iki saatdan sonra bir nəfər də qubalı qolçomaq gətirdilər. Qolçomağın qoyun itini qonşu kəndin qolçomağı öldürmüşdü. Bu isə itin

əvəzində iki nəfər adam öldürmüşdü. O bu işdə çox para sərf etdiyini və bunun əvəzində həbs cəzasından qurtardığını söyləyirdi. Vuruşmaya əl davası adını verib qatilin cəzasını yüngülləşdirmişdilər. Qatili fəqət Qafqazdan bir neçə müddətə sürgün edirdilər.

Qatil aşıq idi. Özündən şeirlər də oxuyurdu. Lakin xoşagələn təbi yox idi. Çox oxuyurdu. Nəhayət, cibkəsən Knyaz onun üstünə qışqırdı. Sakit olmasını tapşırdı. O, yenicə susmuşdu ki, Ağa Kərim qapını açdırıb mənim görüşümə gəldi. Odanın darısqallığını görüb müdiri çağırdı. Ağa məni öz yanlarına köçürmək üçün müdirə tapşırdı. Müdirə gəldikdə o, bu gün olmasa da, sabah yatab gedəcəyimi və məni Rostov həbsxanasına yola salacağını xəbər verdi. Ağa Kərim yenə də təkrar olaraq ona tapşırdı: «Əgər sabah göndərilməsə, bizim yanımıza gətirməlisən». Müdir bu təklifi kamal-ehtiramla qəbul etdi. Mən Rostova getməyə tələsirdim. Çünki Rostovdan sonra Saritsində buraxılacaqdım. Bununla bərabər qoçuların həyatını öyrənməklə də maraqlanırdım. Xüsusən onların həbsxana içərisindəki nüfuzu və həbsxana işçilərinin onlara bu qədər qorxa-qorxa yanaşdığı məni maraqlandıran işlərdən idi.

İkinci gün axşam vaxtı yatab gedəcəyi bəlli oldu. Şeylərimizi götürüb həyətə düzüldük. Bir-bir səslədilər. Adları səslənən adamlar şeylərini götürüb bir tərəfə keçdi. Hamını oxuyub qurtardılar. Məni səsləyən olmadı. Polislər dəftərləri yığışdırıb getdikdə mən onlara yanaşaraq qalmağımın səbəbini soruşdum.

- Rostov həbsxanasına məhbus qəbul etmirlər. Çünki orada tif xəstəliyi vardır.

Məni yenə də olduğum odaya qaytardılar. Lampada xarab olmuşdu. Çox qaranlıq idi. Burada nəfəsindən bir nəfər olduğunu bildim. Nə o danışırdı, nə də mən. Bir-birimizin hansı millətdən olduğunu bilmirdik. Şeyləri qoyub oturmuşduq. Birdən-birə odada olan adam ah çəkərək:

- Ey gözə görünməz Tanrı! - dedikdə onun türk olduğunu bildim. Həsən kişi adlı qoca bir türk idi. Türkiyənin Qara dəniz sahilində olan Rizə şəhərindən idi. Batumda çörəkçi dükanı olduğundan Rusiyaya gedirdilər. Bir-birimizin üzünü görmədən oturub yemək də yedik. Uzandıq. Lakin yuxu aparmırdı. Gecə saat 3-ə qədər danışdıq. Səhər tezdən hələ çay içilməmişdi. Həbsxana müdir müavini gəlib məni qoçular olan mənzilə köçürdü.

***

Ağa Kərim odanı dolaşır, Teymur bəy isə əlindəki ağ dəsmal ilə eynəyini təmizləyirdi. Ağa Kərim: «Xoş gəlmişsiniz, səfa gətiribsiniz. Keyfin necədi?» - deyə əlimi sıxdı. Teymur bəy Aşurbəyov isə eynəyini taxıb

mənim boy-buxunuma diqqətlə baxdıqdan sonra qalxdı və əlimi sıxdı. Mənim şeylərimi onların qulluqçusu Məhərrəm gətirib odanın bir tərəfində qoydu. Teymur bəylə tanış olduq. Onlar hələ səhər çayını içməmişdilər. Məni gözləyirdilər. Çayı içdik, mən bunlarla söhbəti haradan başlayacağımı bir növ təyin edə bilmirdim. Ağa Kərim tez-tez sözün başını Ordubad-Naxçıvan tərəflərinə çevirir: «Orada iyid və cəyillər (cahil) vardır» - deyirdi. Bununla da mən onlara öz tərəfimdə olan qoçulardan danışmalı idim. Mən onlara ancaq bu sözləri deyirdim: «Bizim tərəflərdə sizin adınız yaxşılıqla məşhurdur. Hətta bir çox igid adamlar sizi görməyin həsrətindədirlər». Mən sözümü qurtararkən Teymur bəy özünü bir düzəltdi: «Yeriniz böyük yerdirmi?» - dedi. O qədər də böyük deyildir. Fəqət igid və varlı adamlar çoxdur!-dedim. O fikrə getdi. Daha bir söz danışmadı.

Ağa Kərim Məhərrəmi çağırdı və müdiri çağırmasını tapşırdı. «Get müdirə xəbər ver ki, təzə qonaq üçün hamam hazırlatdırsın».

Yarım saatdan sonra müdir müavini özü gəlib hamam hazır olduğunu xəbər verdi. Ağa Kərim mənə alt paltarları təklif etdi. Heç bir şey qəbul etmədim. Çünki hər bir şeyim var idi. Məhərrəm məni hamama yola salırdı. Həbsxanada cansürtən və dəllək olduğunu xəbər verdi. Bakı qoçularının hökmü altında olan həbsxanada bu qədər isti və təmiz hamam olduğunu heç də zənn etmirdim. Mən hamamdan çıxdım. Məhərrəm məni tez geyinməyə tələsdirirdi. Çünki qoçular səhər yeməyi yeyəcəkdilər. Yemək bayırdan gətirilmişdi. Plov və kabab yedilər. Mən bilmədiyim səbəblərə görə onlar tez-tez Məhərrəmi çağırıb soruşurdular:

- Hələ qəzetlər gəlmədimi?

Məhərrəm qorxa-qorxa:

- Xeyr, hələ gətirməyiblər.

Onlar qəzet haqqında hər gün bu qərarla tələsirdilər. Səhər yeməyi getdikdən sonra bir stəkan çay içib bayıra çıxdıq. Bunları rus, müsəlman, erməni hər kəs görürsə, iki qat olub baş əyirdi. Onlar bəzilərinin keyfini də xəbər alırdılar. Bəzilərindən isə nəyə ehtiyacları olduğunu soruşurdular. Məhbuslardan bəziləri onlara yalvarıb qohumlarının görüşə gəlməsinə icazə istəyirdilər. Onlar isə bu barədə həbsxana müdirinə əmr verirdilər. Mən bu iki qoçunun əlində alət çar məhbəsinin vəziyyətinə və çar polisinin qayət qorxaq və yaltaq olduğuna təəccüb edirdim. Biz həbsxana kilsəsinin həyətinə gəldik. Həyətdə məhbusları çalışdırıb gül və sair şeylər əkdirirdilər. Saat 3-ə qədər gəzib-dolandıq. Ağa Kərim tez-tez o tərəf-bu tərəfə yüyürürdü. Onun dediyinə görə, doktorlar ona belə məsləhət görmüşdü. Çünki ürəyi getdikcə yağlanırmış. Biz odaya qayıtdıqda qəzetlər gəlmiş-

di. Qəzetləri götürüb baxdılar. Heç birisi yaxşı oxuya bilmirdi. Oxumaq üçün mənə təklif etdilər. Onlar əvvəlcə Bakı xəbərləri və hadisələrini oxumağı tapşırdılar. Oxudum. Teymur bəy çox acıqlı və çox da məyus bir surətdə Ağa Kərimə müraciət etdi: «Mən sənə yüz dəfə demişəm ki, onların qeyrəti yoxdur. Onlar bizsiz bir pişik də vura bilməzlər. Onlar boş oğraşlardır» – dedi. Ağa Kərim isə:

- Teymur bəy, biz bu hasarın içində oturmuşuq. Eşiyin işindən xəbərimiz yoxdur. Uşaqları məzəmmət etmək olmaz, bəlkə də fürsət olmur.

Mən bu sözlərdən sonra anladım ki, onlar kimləri isə öldürmək üçün öz adamlarına sifariş vermişlər. Bu söhbətlərdən sonra müharibə xəbərlərini oxumağı rica etdilər. Onlar bununla da müharibənin nə vaxt bitdiyini və nə zaman azad olacaqlarını öyrənmək istəyirdilər.

Qəzetin başqa yerlərini özüm üçün oxudum. Onların başqa şeylər eşitməyə həvəsləri olmadığını bildim.

***

Saat 4-ün yarısında dışarıdan naharlar gəlməyə başladı. Teymur bəyin evindən plov, toyuq, kükü gətirmişdilər. Ağa Kərimin öz sifarişinə görə hazırlanmış «düşbərə» gətirib həbsxananın mətbəxində bişirirdilər. Bundan əlavə ona qatıq aşı da gətirilmişdi. Qoçu Ağa Babanın evindən qızarmış toyuqlar və yaxşı almalar, quru meyvələr gətirilmişdi. Səfərəliyevlərdən plov və qızarmış quzu gətirmişdilər. Doqquz yerdən yemək gətirilmişdi. Teymur bəy və Ağa Kərim nahar gətirən adamların adlarını yazırdılar. Hərəsində böyük bir siyahı var idi. Bununla da onlar öz dostlarını və özlərini xatırlayanları gözdən keçirmək istəyirdilər. Buna baxmayaraq, qoçuların hər ikisi özgə yerdən gətirilən naharlardan yemirdilər. Zəhərlənəcəklərindən qorxurdular. Qabaqcadan düşbərədən, sonra plovdan və qatıq aşından yedik. Məhərrəm axşam üçün də yemək saxladı. Qalanları isə həbsxana müdirinə, müavinlərinə, nəzarətçilərə və öz istədikləri məhbuslara göndərdilər. Yemək göndərilən məhbuslar xırda qoçular və küçə xuliqanlarından ibarət idi ki, mən bunların haqqında Məhərrəmdən soruşdum. Mən Bakıya qədər həbsxana xatıratını yazmışdım. Bakı həbsxanasında tərtibə salmağa başladım. Onlar bununla çox maraqlanırdılar. Mən onlara parça-parça oxuyurdum. Onlar hər gün nahardan sonra məni oxumağa məcbur edirdilər. Onlar Naxçıvan və Tiflis həbsxanasındakı xatiratı eşitdikdə mənim bu işlər ilə nə üçün maraqlandığımı soruşurdular. Mən isə: «Bir vaxt mən bu xatirəni kitab şəklində çap etdirəcəyəm. Bunu hər kəs oxuyub çar hökumətinin nə qədər həyasız və zalım bir hökumət olduğunu anlayacaqdır» - dedim. Ağa Kərim bir az düşündü: «Hərgah bu cür şeyləri çap etdirməyə qoymasalar necə olsun» - dedi. «İndi qoymasalar

da, bir vaxt buna imkan tapılar» - dedim. Teymur bəy güldü. «Mirzə! «Demək ki, bizim də adımız kitaba düşəcəkdir» – deyərək əlini çiynimə vurdu. «Əlbəttə düşəcəkdir. Sizin mənə qarşı hörmətinizi unutmuş olsam, xəyanət etmiş olaram» - söylədim. Bunu təsdiq etmək üçün Ağa Kərim: «Bir yaxşılıq, bir də yamanlıq yaddan çıxmaz» - deməklə biz söhbəti dəyişdik.

Mənə dışarıdan təmiz yatacaq gətirdilər. Buna Ağa Kərim sifariş vermişdi. Məxmər döşək, ipək üzlü yorğan, balış və mələfələr, odada çox qiymətli xalçalar döşənmişdi. Başqa odalarda yemək masası və kürsülər olmadığına baxmayaraq, burada var idi. Ancaq çarpayı olmadığından yerdə yatırdıq. Biz başqa məhbuslar kimi axşam saat 9-dan yatmağa məcbur deyildik. Bəzən gecəni 1-ə qədər otururduq. Qoçular keçən vuruşmalardan danışırdılar. Öz aralarında baş verən vuruşmalardan danışmırdılar.

***

Səhər saat 9-da yuxudan durduq. Mən çox tez ayılmışdım. Lakin qoçular yatdığı üçün qabaqca qalxa bilmədim. Halbuki məhbuslar saat 6-dan yerindən durmuşdu. Biz yatdığımız vaxt odanın qapısının qabağından keçən məmurların ayaqlarının səsi qoçuları oyatmasın deyə çox yavaş-yavaş hərəkət edirdilər. Bununla da mən qoçuların həbsxanaya deyil, istirahət evinə göndərildiklərini zənn edirdim. Bu gün biz dışarıdan qayıdıb səhər çayı içməyə gəldiyimiz zaman odanın qapısında böyük bir növbət düzəldiyini gördüm. Teymur bəy gəlib qapının yanında qoyulmuş kürsünün üstündə oturdu. Növbətə duranların əlində çirkli dəsmal yaxud bir parça qəzet kağızı görürdüm. Bu vaxt Məhərrəm içəridən böyük bir qutu gətirdi. Qutuda tütün və papiros var idi. Teymur bəy növbətə duranlara tütün və papiros paylamağa başladı. Birinə tütün, digərinə papiros, o birisinə isə maxorka verirdi. Teymur bəy hər kəsin üzünə baxıb payını verirdi. Bununla da mən bir şeyi daha öyrəndim. Maxorka ruslara, papiros tütününü ermənilərə, hazır papirosu isə müsəlmanlara verirdi. Bu təcrübəni mən bir Kazan tatarının danışığından aldım. Ona maxorka verdikdə o: «Tükümü sarı görüb maxorka vermə, Kazan tatarıyam, ömrümdə maxorka çəkməmişəm» – dedikdən sonra Teymur bəy ona papiros verdi. Papiros alıb gedənlər baş endirib gedirdi. Bundan sonra qoçuların hər ikisi məhbusların şikayətlərini eşitməyə başladılar. Və hamısına ümidlər verdilər. Bütün bu şikayətlər həbsxana daxilindəki işlərə dair idi.

Hər şey qurtardı. İçəri girdik. Çay içdik. Nədənsə bu səhər yeməyini də çay ilə birlikdə yedik. Hələ balaca samovar qaynayırdı. Ağa Kərim Məhərrəmi çağırıb böyük samovarın salınmasını əmr etdi. Mən bunun səbəbini cəsarət edib soruşdum. Ağa Kərim cavabında: «Bu gün cümə

günüdür. Aşna, dost görüşə gələcəkdir. Oturub bir stəkan da onlar ilə çay içərik» - dedi.

Çox qəribə burasıdır ki, cümə günü olduğundan və qoçuların görüşünə varlıların, qoçuların gələcəyindən ötrü həbsxana baş məmurları da hazırlıq görürdülər:

Saat 11-də görüş başladı. Gələnlərin hamısı qoçular ilə öpüşürdülər. Ağa Kərim görüşə gələnlər ilə məni də tanış edirdi. Tanış etdikdə dəxi iki qısa cümləni ifadə eləyirdi:

- Neft quyuları vardır. Çox əliaçıq, mərd, işə gələn adamdır.

Yaxud:

- Yuxarı məhəllədə çox sayılan, sözü keçən və qanı isti cəyildir -deyirdi.

Görüş saat 4-ün yarısına qədər davam etdi. Gələnlər çox idi. Həbsxana müdirləri də qapıda qaradovoy kimi quruyub durmuşdular. Mən bu görüşü öz yerimizdəki Xorasandan, Kərbəla və Məkkədən gələnlərin görüşü ilə müqayisə edirdim. Hər halda bu görüşlər daha da təntənəli idi. Sanki cümə olduğu üçün dışarıdan yemək də çox gətirilmişdi. Görüşə gələnlərin hamısı görüşüb bayıra çıxdıqda: «Heç darıxmayın, çalışırıq. Qubernator və polis müdiri də söz vermişdir. Nə sözünüz olsa, deyiniz, evdən nigaran qalmayın. Hər bir işləri öz yerindədir».

Yaxud:

- Qorxmayın, biz ölməmişik, hələ patronumuz vardır. Ölümə desəniz, gedəcəyiz! - deyirdilər.

Qoçular dəxi bunun cavabında: «Sağlıq olsun, çıxandan sonra bu yaxşılıqların hamısının əvəzini eyləyərik» - cavabını verirdilər.

Görüşə gələnlərdən 9 nəfəri süfrəyə oturdular. Qoçular ilə bir yerdə nahar etdilər. Bakı varlılarının qoçulara verdikləri əhəmiyyət həddindən artıqdı. Sanki onlar qoçu saxlamadan öz sərvətlərini saxlaya bilməyəcəklərindən ehtiyat edirdilər. Görüşə gələn varlılar getdikdən sonra qoçular ikisi də bunların dallarınca söyürdülər.

Ağa Kərim və Teymur bəy qoçuluqdan başqa müəyyən bir əqidə daşımaması işinə olduqca diqqət verir və bir şeyi öyrənmək istəyirdi. Teymur bəy olduqca acıqlı və quduz bir təbiətə malik idi. O, həbsxanada çox darıxırdı. Bu isə adam öldürə bilmədiyi və aydan bəri qan tökmədiyi üçün idi. Onun insan qanına susadığı nə intiqam, nə də müəyyən bir məqsəd üçün deyildi. O, hər kəs olursa-olsun öldürənin qəzəbini soyutmaq, eyni zamanda bununla da xalqı qorxudub üstün gəlməyi düşünürdü. Onda nə məslək, nə əqidə ola bilərdi. O, dost yolunda canından keçdiyini hər zaman söyləyirdi. Lakin bütün dostlarını xatırlayıb sonra: «O da oğraş-

dır» - deyirdi. O, pulu da sevmirdi. Hərgah pulu sevirsə də, öz qafil fikrini həyata keçirmək üçün sevirdi.

Ağa Kərim tamamilə bambaşqa bir qoçu idi. O, iki iş üçün qoçu idi: intiqam almaq, pul almaq. Bu iki şey həqiqi məsləki və yolu idi. O, arasıra millətpərəst, hətta həqiqi millətpərəst olduğunu iddia edirdi. Bu, tamamilə yalan idi. Çünki onun öldürdüyü ancaq öz milləti idi. Ağa Kərim bütün düşüncələrinin fövqində olaraq bir dinçi idi. İmamlardan, peyğəmbərlərdən etdiyi söybətlərdən həddindən artıq savadlı idi. Kim bilir, bəlkə bu da qoçuluğun detallarını ikmal etmək üçün bir vasitə imiş. Teymur bəyə nisbətlə Ağa Kərim qəzet və mətbuatı da sevirdi. Bunların hər ikisini birlikdə götürəndə o qədər axmaq və sadə bir cinayətkar deyillərdi. Burjuaziya dövrünün bu qoçuları da öz ağaları kimi hər cinayəti xalq naminə yapıb və hər işini xalqa etdiyi bir xidmət şəklinə salmağa çalışırdı. Bunların hər ikisi: «Bakıda biz də olmasaq, varlılar fağır-fuqaranın qabığını soyar» - deyə özlərini xalq və yoxsul tərəfdarı göstərmək istəyirdilər. Mən günün birində Ağa Kərim ilə birlikdə kilsənin həyətində oturarkən ona bir sual verdim:

- Ağa Kərim! Yəqin sizi Bakıda tutduğunuz vəziyyət yormuşdur. Belə deyilmi?

O, mənim sözümdən çox diqqətli bir surətdə baxdı və :

- Mirzə sən Bakını tanımırsan. Bu dağılmışda başqa saf adam yaşaya bilməz. Burada ya varlı olmalısan, yainki qoçu. Çünki varlı pul verib yaşaya bilir, qoçu isə tapançası və qolunun gücünə olaraq başını dolandırır, -dedi.

Yenə də qalxıb arıqlamaq üçün həyəti sürətlə dolanmağa başladı.

Teymur bəy ilə Ağa Kərim arasında hiss etdiyim böyük bir fərqi də burada qeyd etməliyəm. Teymur bəyin ağzı söyüşsüz qala bilmirdi. O, hər kəsi söyür və təhqir edirdi. Həbsxana xidmətçiləri bu söyüşdən çox alırdılar. Lakin: «Teymur bəy həyəcan göstərməyiniz, bağışlayınız, hər şey düzələr» - deyirdilər. Teymur bəy bütün söyüşlərindən sonra Ağa Kərimdən və məndən üzr istəyirdi. Ağa Kərim belə deyildi. Bir kərə də olsun onun ağzından bir söyüş eşitmədim. Bu adam çox vüqarlı, təmkinli, qoçuluğunu bildirməyəcək, ən düşüncəli bir qatil idi. O, ən sevmədiyi və çəkə bilmədiyi bir adamın da üstünə gülürdü. Buna baxmayaraq, onun yalançı gülüşlərlə oynamağa başlayan göz bəbəklərində müəyyən bir cinayətin təşkil olunduğu düşünülürdü.

***

Biz kilsə həyətində oturmuşduq. Teymur bəy çox rahatsız idi. Yenə də qəzetlər onun gözlədiyini verməmişdi. O, dışarıya sifariş göndərib

müəyyən adamları həbsxanaya çağırmışdı. Adamlardan birisi gəldi. Uzun, kök, üzü qırxılmış, nazik bığlarını eşib yuxarı qaldırmış, ağ çöhrəli bir gənc Teymur bəyin qarşısında odun kimi quruyub durmuşdu. Teymur bəy əvvəlcə o tərəf-bu tərəfə gedib bir aktyor kimi çiyninin üstündən dönüb ona baxırdı. Sonra o, hər iki əlini belinə vurub ona baxırdı: «Ədə, doğrusunu de görüm, sən kişisənmi?» – dedikdən sonra gənc bir udqundu: «Teymur dadaş, sən bilirsən ki, mənim canım da sənin yolunda özümün deyildir» - dedi. Teymur bəy acıqla bir gülümsündü. Sanki o bir cinayət ərəfəsində durmuşdu. «Sal aşağı o bığlarını! Sal deyirəm! Mən ölüm sal! O bığı kişilər daşımalıdır!» - deyərək Teymur acığından dodaqlarını çeynəyib qanını axıtdı!. Gənc iki barmaqlarını uzadıb bığlarını aşağı salaraq: «Sən mən ölüm desən, mən ölümə də gedərəm. Bu bığları kəsib ata da bilərəm» - deyib çox qızardı. Onun üzündəki bu qırmızılıq öz dediyi sözlərdən razı qalmadığını və mümkün olsaydı Teymur bəyi yerdə öldürəcəyini elan edirdi. Teymur bəy yenə də bir neçə kərə güləşən adamlar kimi qollarını ata-ata o tərəf -bu tərəfə getdikdən sonra gəncin yanına qayıtdı: «Necə oldu? Sizə nə tapşırmışdım? Ağgöz oğraşlar. Bir sürüsüz, əlinizdən isə bir iş gəlməz»-dedikdən sonra o tərəf-bu tərəfinə baxaraq dedi:

- Hamısı düzələcəkdir. Fürsət ələ düşməmişdir.

- Get! Dua eləyin ki, bayıra çıxmayım! Əməyim gözünüzdən tökülsün.

Gənc getdi. Kim olduğunu soruşmağa cəsarət etmədim. Çox təəccüblü burasıdır ki, Teymur gənc qoçuya acıqlandıqda Ağa Kərim heç də müdaxilə etmədi. O, ancaq məni söhbətə tutub onların danışmasını qapamaq, mənə eşitdirməmək istəyirdi. Qayıdıb içəri gəldi. Nahar yeyəcəkdi. Teymur bəyin keyfi çox xarab idi. İçəri girdikdə qayət təmiz geyinmiş bir yəhudinin otaqda oturduğunu gördük. Əl çamadanını da bir tərəfə buraxıb kürsünün üstündə əyləşmişdi. Teymur bəy ona tərs-tərs baxırdı: «Ədə, Məhərrəm, bu kimdir? Tanıyırsanmı?» Məhərrəm bu adama baxıb gülümsündü və: «Vağzalda və körpüdə bununla çox işləmişik. Çox qabil əli vardır. Nə üçün tutulduğuna təəccüb edirəm!» - dedikdə mən Məhərrəmin də cibkəsən olduğunu bildim. Teymur bəy həmən adama heç bir söz demədi. Məhərrəmi müdirin yanına müavinlərdən birinin dalınca göndərdi. Müavin gəlincəyə qədər haman adam heç olmasa 5 kərə oturub qalxdı. Titrəyirdi. Nə deyəcəyini, nə edəcəyini bilmirdi. Müavin gəldi. Teymur bəyin nə deyəcəyini bilmirdi. Teymur bəy birdən barıt kimi partladı: «İt balaları, axırda bizi cibkəsənlərə taymı sayırsınız? - deyə çar polisinin üstünə qışqırdı. Xalqın qamçılar altında qabığını çıxardan, hətta məhbusları özünü itirincəyə qədər döyən polis köpəyi qorxdu və çox mülayim bir surətdə dedi:

- Yer yox idi. Yalnız səhərə qədər burada qalmasına icazə vermişdim.

- Eyib etməz, səhər gəlib ölüsünü apararsınız -deyə Teymur bəy daha heç bir söz demədi. Müdir daha danışmadan həmin adama getmək işarəsini verdi. Onlar getdikdən sonra Ağa Kərim mənə müraciətlə: «Adamı haldan çıxarırlar»-dedi. Ağa Kərim yenə də əvvəlki sözünü təkrar etdi: «Belə olmadan yaşamaq mümkün deyil. Mən bilirəm ki, qoçuyam, amma sallax Dadaş və Nəcəfqulu kimi qoçu deyiləm. Bunu Teymur bəydə bilir» – söylədi. Yenə də dışarıdan çoxlu yeməklər gətirmişdilər. Naharı yedik. Hələ nahar bitmədən müdir gəlib 3 gündən sonra Rostova göndəriləcəyimi xəbər verdi. Ağa Kərim və Teymur bəy bundan çox təəssüf etdilər. Müharibə bitdikdən sonra Bakıya qayıtmağımı rica etdilər. Mən nahardan sonra Rostovda Rayanın adresinə bir məktub yazdım. 3 gündən sonra yola çıxacağımı xəbər verdim.

***

Axşam saat 6-nın yarısında bizi həbsxanadan çıxardılar. Qoçular və Məhərrəm məni Bakıya qədər yola saldılar. Yenə də Bakıya qayıdıb onlara qayıdacağımı rica etdilər. Vidalaşmaq saat 6-da bitdi.

Qara şəhərin elektrik işıqları Xəzər dənizinin ləpələrində çimdiyi zaman biz Bayıl yoxuşundan yolumuza davam edərək sahil küçəsinə gəldik. Bakı stansiyasında vaqona oturana qədər çox əziyyət çəkdik. Tam saat 9-da vaqonda əyləşdik. Vaqona məhbuslar üçün dəmir qəfəslər var idi. Mən belə məhbus vaqonunu birinci kərə görürdüm. Biz bu vaqonda 3 gün yol getməli idik. Biz olan qatarda türk əsirləri də var idi. Qafqaz stansiyasında kazaklar vaqona hücum edib türk əsirlərini qırmaq istədilər. Qaraullar mane oldular. İxtiyar kazaklar və qadınlar da mane olurdular: «Bunlara əl vurmayın. Bizim uşaqlar da bunların yerində əsirdir» – deyirlərdi. Txaretski stansiyasında çalışan iranlı hamballar bizə bulki, papiros və lumu gətirdilər. Qaradovoy lar mane olmadılar. Bu vaqonlar olduqca yorucu idi. Uzanmaq rahat olmaq heç də mümkün olmurdu. Soyuq da bir tərəfdən amanımızı kəsirdi. Biz üçüncü gün axşam qaranlığında Rostovun «Don» şəhəri üstündən çəkilmiş körpüsünü keçdik. Rostov stansiyasına qatarımız çox təxirlə yanaşırdı. Hər kilometrdə dururdu. Stansiyaya yetişdik. Sərnişinlər qabaqca buraxıldı. Bizi olduqca təxirlə buraxdılar. Stansiyada heç bir kəs qalmamışdı. Bir çoxları deyirdi ki, bəlkə də bizi vaqondan düşürmədilər. Bəlkədə birbaş «Novoçerkassk»a stansiyasına göndərdilər. Biz bundan çox həyəcana düşdük. Çünki vaqon bizi yormuşdu. Heç kəsdə taqət qalmamışdı. Bahar olduğuna baxmayaraq, qış qədər soyuq var idi. Vaqondan düşdük. Ətrafda çox az qadınlar və kişilər var idi. Bir səs eşitdim. «Odur, özüdür, uzunboylu, qabaqda

dördüncü məhbus». Rayanın burada olduğuna heç də inanmırdım. Gözlərim ətrafı gəzirdi. Hara getdiyimi, ayağımı hara qoyduğumu heç də bilmirdim. Raya anası ilə, bir də kiçik qardaşı ilə dalımızca gəlirdi. Sadovi küçəyə keçdikdə o, məni səslədi: «Keyfin necədir, xəstə olmamısan ki, başımla «Yox» işarəsini verdim. Onlar yatab həyətinə qədər dalımca gəldilər.

## I
## YATAB EVİ

Rostov şəhərinin yatab evi başqalarına nisbətən daha kəsif, daha da rütubətlidir. Bizim salındığımız odanın taxta döşəməsi yox idi. Məhbuslar sementin üstündə yatırdılar. Birinci gecə çox susuz idik. Hər kəsə yalvarıb su istəyirdik. Lakin su vermirdilər. O gecəni su istədik. Səhər tezdən qapı açıldı. Aparılacaq məhbusları orada saxladılar. Qalanlarını yuxarı mərtəbəyə çıxartdılar. Biz qalacaqdıq. Saritsin şəhərinə məhbus buraxılmırdı. Yuxarı mərtəbəyə çıxdım. Məhbuslar ətrafımı sardı. Orada Ordubadın Yaycı kəndindən Şirəli adlı bir oğlana rast gəldim. O, mənim haqqımda məhbuslarla danışdı. Məni Pyotr adlı gənc bir məhbus yanına çağırıb oturmağı təklif etdi. Şirəli də onun digər tərəfində yatırdı. Azdan qapı açıldı. Məni çağırdılar. Bayırda bir nəfər həbsxana qulluqçusu mənə yanaşdı. Əlindəki bir butulka südü, bulkunu, bir az da şit yağı verdi: «Bunları sənə Raya göndərmişdir. Burada qalmalısan. Paltarlarını yumaq üçün ver aparım. Raya mənim bacım qızıdır» - dedi. «Xeyr, paltarlarımı Bakıda təmizlətdirmişəm. Üz dəsmallarımı apara bilərsiniz» - dedim. Ondan Ninanın yaşayışı haqqında soruşdum. Yaxşıdır. İnəkləri var idi, Raya gələndən sonra bir atda almışlardı.

- Rayanın özü bir yerdə çalışırmı?
- İş vardır. Özü getmir. Sizin işinizin nə yerdə qurtaracağını gözləyir.
- Məndən Rayaya salam söylə. Yaxında azad olacağam. Onun yaxşılıqlarının əvəzini edərik-dedim. O, üz dəsmallarımı götürüb getdi.

***

Mən birinci gün Pyotr ilə tanış olduğumdan odadakı oğrular üst-başımı gəzməkdən vaz keçdilər. Zatən mən özüm də buna imkan vermədim. Qəndim, çayım çox idi. Orada olanların hamısına şəkər verdim. Siyasi məhbus olduğum üçün də ehtiram bəsləyirdilər. Olduğumuz odada 80-90 yaşında məhbuslar da var idi. Bunlar bitlənmişdilər. Paltarlarından bitləri süpürgə ilə süpürürdülər. Başlarının bitləri qarışqa yuvası kimi idi. Ərizə verdik. Qayçı və maşın verdilər. Bunları təmizlədik. Paltarlarını yanmağa verdik. Bununla bərabər yenə də gecə onlar yatan yerə kül ilə hasar çəkir-

dik. Çünki heyvanlar küldən keçə bilmirdilər. Burada yemək də çətin idi. Yeməklər ümumi taxta qablarda verilirdi. Bığlarını bit basmış məhbuslar şorbanı içdikdə cücülərin qaşıqlara düşdüyünü görürdük. Ona görə də adam verilən yarım girvənkə çörək və isti su ilə yaşayırdı.

Odanın içində şiddətli tif xəstəliyinə tutulanlar var idi. Kəsafətin qarşısı alınmadığından hər cür xəstəlik hadisələri var idi. Nədənsə əsir götürülmüş ərdəhanlı türklər hamıdan tez tif xəstəliyinə tutulurdular. 3 oğlu ilə bərabər Rusiyaya sürgün edilən bir ərdəhanlı iki oğlu ilə bərabər qızdırmaya tutulmuşdu. Bunları götürüb apardılar. Bir gün sonra mərkəzi xəstəxanaya gətirdikdə hər üçünün ölüsünü həyətdə gördük. Xəstələnməmiş balaca oğlana «Rouf» deyirlər, rus məhbusları olduqca məhəbbət göstərib yedirir və xəstələnməsinə imkan vermirdilər. Hər gün biz olduğumuz odada yaşayan 130 adamdan heç olmasa 5-6 nəfər xəstələnirdi.

Aparılanları dərman verib öldürürdülər. Burada bir də qol-qılça yayılmışdı. Hər gün boçqa ilə suyu taxta döşəməyə töküb təmizləyirdilər. Səhərlər yerdən qalxmaq mümkün olmurdu. İnsanlara bir pişikcə qiymət qoyulmurdu. Xəstələri heyvan ölüsü kimi arabaya atıb aparırdılar. Mən Pyotr ilə o yan-bu yandan söhbətə başladıq. O, illərdən bəri həbsxanada və yatabda qaldığından çox şikayət edirdi. Doğrudan da sağlam bədənli bu gənc tamamilə çılpaq idi. Bir köynək bir tumandan başqa heç bir şeyi yox idi. Bir cüt köhnə qaloşu başı altına qoyub yatırdı. Öz dediyinə Pyotr sosial demokrat firqəsindən idi. Lakin danışığından tam mənası ilə bir anarxist idi. Mən Pyotr ilə birlikdə yemək yedim. Ona maxorka da aldırdım. Pyotr papirosu çəkməyə başladığında onun qapısında nobata düzüldülər.

- Bir az mənim üçün saxla!

- Qurtaranda yerə atma! – deyənlər çox idi. Nəhayət, ixtiyar və müharibədə əqlini itirmiş bir kazak Pyotra yanaşıb yalvardı. «Tüstünü mənim ağzıma püflə!»-dedi. Bir nəfər saqqalı ağarmış rus oturub sakit baxırdı. Pyotr bir papiros qayırıb yandırdı. Həmən rusa verdi, mənimlə tanış etdi. Bu adam 28 yaşında Fyodor Rismonov adlı bir rus idi. Kiyev darülfünununun hüquq şöbəsi tələbəsi imiş. Özünün 8 ildən bəri yatabda gəzdiyini söyləyirdi.

- Hər yerdəki, təbid edirlər oranın polis müdiri qəbul etməyərək dala qaytarır. Yenə də başqa tərəfə göndərirlər. Göndərilən yerlərdə yenə də buraxmayıb gəldiyim yerə göndərirlər. Hərgah rüşvət verməyə yüzcə manat param olsaydı, çoxdan bəri buraxılmışdım.

Doğrudan da, mən Fyodorun 28 yaşı olduğuna inanmadım. Çünki beli əyildiyi kimi saqqalında və başında bir dənə də olsa qara tük yox idi.

Pyotra çox hörmət edirdilər. O, papiros doldurub yandırdı. Gənc bir yəhudiyə verdi. Bu yəhudi çox gülməli bir adam idi. Məhbusları cərgə ilə düzüb tüstünü onların ağzına buraxırdı. 4-cü gün yanımıza qoca bir assuri gətirdilər. Məndən bir adam aralı yatmışdı. Pyotr onun məşhur spekulyant və oğru olduğunu söylədi və mənə tapşırdı.

- Bunu gecə soyacaqlar. Səsini çıxarma. Həbsxana qanunu belədir. Danışmaq lazım deyil.

Gecə nə olduğunu bilmədim. Səhər assuri ağlayırdı. Çağırıb baş nəzarətçiyə şikayət edirdi. Öz dediyinə görə, 8 qızıl onluq, 6 dənə də bir karatlıq brilyantını çıxarmışdılar. Bunların hamısı potinlərinin dabanında imiş.

Mən Pyotrdan soruşdum: «İndi burada axtarış olsa, nə olacaqdır?. Bəlkə birisindən tapıldı. Onda cəza veriləcəkdir?»-dedim. O güldü: «Əvvəla, heç axtarış olmaz. Olsa da tapılmaz. Çünki axtaranların özü də oğrularla şərikdirlər. Mallar çoxdan dışarı göndərilmişdir» - dedi. Doğrudan da, axtarış olmadı. Həmin gündən başlayaraq, dışarıdan çox gözəl yeməklər gətirirdilər. Hər kəs tox idi.

***

Mən həbsxana içərisindəki bütün işlərdən azad olunmuşdum. Bu işlərdə mənim əvəzimdən başqaları çalışırdı. Əvəzində papiros və şəkər verirdim. Lakin nobatdan xaric olaraq məni dışarıda çox işlədirdilər. Hər gün səhər qapı açıldıqda məni və Şirəlini səsləyirdilər. Hər gün mənə yemək şeyləri gəlirdi. Rayanın özü ilə də tez-tez rast gəlib görüşürdük. O, mənim bayıra işə çıxarılan vaxtımı bilirdi. Həmişə mərkəzi həbsxanaya getdikdə o, mənə küçədə rast gəlirdi. O, mənim həyatımı öyrənir və öz həyatı haqqında məlumat verirdi. «Atam, anam səni çox bəyənmişdir. Səndən onlara çox danışmışam. Hətta gecələri sənin haqqında danışdıqlarımı məndən təkrar olaraq soruşurlar. Xüsusən sənin qadınlara nə qədər hörmət bəslədiyin onların sənə qarşı məhəbbətinə səbəb olmuşdur».

Raya hər gün bu cür söhbətlərdən danışıb və mənim üçün yaşadığını təkrar edirdi. Rayanın səmimi hərəkətləri məndə də silinməz təsirlər buraxırdı.

***

Səhər idi. İşə aparılacaq məhbusları çağırıb bir tərəfə yığırdılar. Mən isə hara və nə kimi işə aparılacağımı bilmirdim. Qapı açıldı. Bir nəfər ləzgi içəri girdi (ləzgi, çeçen olduğu məlum deyildi). Buna işçi lazım idi. Bunlar mərkəzi həbsxanada qaraulda duran ləzgilər, çeçenlər, asetinlərdən idi. Mənzilləri yatab həyətində idi. O, məni göstərib həbsxana nəzarətçisinə söylədi:

- Bunu həmişəlik bizim mənzildə işləmək üçün veriniz. Mən artıq mükəddər oldum.

Onsuz da məni ağır işlərdən çox istismar edirdilər. Şeylərimi hər gündə olduğu kimi Pyotra tapşırıb qaraulların mənzilinə gəldim. Uzun bir otaq idi. 9 sadə çarpayı qoyulmuşdu. Ocaq yanırdı. Üstündə bir qazançada ət qaynayırdı. Samovar da hazır idi. Bunların hamısı çarpayıların üstündə oturub xəncərini və berdan tüfəngini təmizləyirdi. Mən ayaq üstündə əmr gözləyirdim. «Otur» - dedilər. Oturdum. Məni çağırıb gətirənin adı Əli idi. Ağ çörək və yağ gətirdi. Çay içdik. Sonra mən onlara müraciətlə: «Nə iş görəcəyəmsə, göstəriniz»-dedikdə onlar güldülər. Əli yenə də danışdı: «Biz bir neçə gündür sizə göz qoymuşuq. Sizi çox işlədirlər. Bunun üçün də sizi burada rahat olmağınız üçün çağırdım. Hər gün tezdən bura gəlib yeyib, içib istirahət edəcəksiniz. Axşam yatmaq vaxtı həbsxanaya gedərsiniz»-dedikdə mən çox razılıq etdim.

Burada bir neçə gün yaşadım. Mənə olmazın hörmətini göstərdilər. Lakin burada yaşamaqdan da qorxurdum. Mənzil qayət kəsif, havası daha da xarab idi. Gün heç vaxt düşmürdü. İsti havada peç gecə-gündüz yanırdı. Xüsusən yatab həyətində tif xəstəliyi daha da şiddət etmişdi. Bundan əlavə, burada olduğum vaxt Raya ilə görüşə bilmirdim.

Bir gün axşam odaya qayıtdıqda Pyotr bayırda işlədilmək üçün məhbuslardan dəstə düzəldiyini mənə xəbər verdi.

Bizi, əvvəlcə, bir neçə məhbusla vağzaldan daş kömür daşımağa təyin etdilər. Heç olmasa Raya ilə gündə 10 kərə görüşürdük. Raya mənimlə həbsxanaya qədər danışa-danışa gəlir, yenə də stansiyaya qayıdırdı. Anası, atası onun vəziyyətinə gülür və əylənirdilər. Təmiz havada heç də yorğunluq hiss etmirdim. Gündüz işindən sonra Sadovı küçədə döşəmə üçün daş daşıyırdıq. Döşəməçidən həbsxana bizim maaşı alırdı. Mən neçə gün döşəmə işində də çalışdım. Gündəlik söhbətlərimizdə Rayanın da Saritsin şəhərinə gələcəyini, orada həmişəlik həyatın əsasını qoyacağımızı qərara aldıq. Lakin bu fikirlər tamamilə hədər idi.

***

Mən üç gündən bəridir ki, Rayanı görmürəm. Necə işlədiyimi və nə iş gördüyümü bilmirdim. Üç gündən sonra Rayanın anası ağlaya-ağlaya yanaşdı. Rayanın jandarm idarəsi tərəfindən həbsə alındığını xəbər verdi. Raya qısa bir məktub da göndərmişdi.

*«Həbs olundum. Bir günahım yox. Mənə nə olubsa, polkovnik Ştraubedən olubdur. Çünki o alçaq məni sevirdi. Mən isə onunla yaşamaq istəmədim. Onun razılığı olmadan çıxıb gəldim. Salamat qal. Anama kağız yazarsan.*

*Sənin Rayan»*

Bu xəbərdən çox mütəəssir oldum. Həbsxana əziyyətini tamamilə unutdum. Kədərimdən çıldırmaq istəyirdim. Çar polisinin bu həyasızlığı məni təbii halımdan çıxartdı. Yazıq qadın mənim bu vəziyyətimi hiss etdi.

- Səbr et, yazıqsan. Sənin də anan vardır,-deyib gözünün yaşını axıtdı. Gedən zaman: «Yenə də gələrəm. Rayadan sənə xəbər gətirərəm»-söylədi. Mən axşam həbsxanaya necə qayıdacağımı bilmədim. Pyotra əhvalatı xəbər verdim. Çox təəssüf etdi. Zavallı Rayanın mənim üçün bədbəxt olduğu məsələsi ruhumu əzirdi. Bu fikirlər həbsxanada mənim üçün başqa bir həbsxana təşkil etmişdi.

Bu məsələdən sonra mən küçədə dörd gün də işlədim. Gözüm daima stansiondan gələn tramvay vaqonlarında idi. Düşənləri bir-bir gözdən keçirirdim. Lakin Raya yox idi. Bir neçə gün sonra onun anası da gəlmədi. Qalan üç günü yazıq qadın gəlir, mən işləyən yerdə oturub ağlayır. Yenə də mən axşam həbsxanaya qayıtdıqda qayıdıb evinə gedirdi. Rayanın yanına heç kəsi buraxmırlarmış.

***

Küçədə iş qurtardı. Mən bir gün heç bir yerə getmədim. Lakin içəridə qalmaq mənim üçün daha ağır idi. İkinci gün həbsxana müdir müavini Aleksandr Vasilyeviç məni həmişəlik öz evinə iş üçün göndərdi. Bu polis başqa polislərə nisbət o qədər acıqlı və hərzə deyildi. Ara-sıra o, mənə təsəlli verir və tezliklə azad buraxılacağımı söyləyirdi. Buna baxmayaraq, ailəsindən əxlaqsız bir ailə hələ indiyə qədər təsadüf etməmişdim. Ailə bir qadın, iki qızı, bir də kiçik oğlan uşağından ibarət idi. Böyük qızı Susannanın nişanlısı naməlum səbəblərə görə yox olmuşdu. Kiçik qızı Lyuba hələ gimnaziyanı bitirməmişdi. Bunların anaları Serafima ucaboy, qarasaç, kök bir kazak qadını idi.

Mən birinci gün həyəti süpürdüm. Ubornuları yudum. Balkonu silib təmizlədim. Qızlar və anaları mənim işləməyimə göz qoyurmuşlar. İşimi qurtardıqdan sonra qadın məni yuxarı çağırdı: «Nə üçün siz iş paltarları geymirsiniz? Əyninizdəki kostyum bahalıdır. Buralarda bu parçalardan tapılmaz. Yəqin xaricdən «almışsınız»-dedi.

- Bəli İrandan almışam. Nə etməli, geyməyə başqa paltarım yoxdur-dedikdə onlar maraqlandılar. «Otur» dedilər.

- Xeyr, oturmaq istəmirəm!

- Nə üçün?

- Aleksandr Vasilyeviç gəlib görər, acıqlanar.

- Nə deyirsiniz! Nə deyirsiniz! Əcəba bizim atamız bu qədərmi nəzakətsiz imiş?-dedi. Sonra anası:

- O, həbsxanada Aleksandr Vasilyeviçdir. Buranın sahibi isə mənəm.

Rica edirəm, oturun!-deyərək ev qulluqçusu Mariyanı səslədi.
- Qonağa bir qəhvə gətir!

Oturdum. Mariya bir stəkan qəhvə, bir neçə dənə şəkər çörəyi gətirdi. Bu, mənim üçün çox ağır idi. Nədənsə bu ailədən heç də xoşlanmırdım. Bir halda ki, özləri çox gözəl, çox təmiz geyinmişdilər. Birinci gün olduğu üçün əxlaqlarından da xəbərim yox idi. Qəhvəni içdim. Qalxmaq istədikdə oturtdular. Yenə də oturdum. Onlar mənim tərcümeyi-halım haqqında qısa suallar verdilər. Haralı olduğumu, anam sağ olduğunu, ailəsiz olduğumu, nə iş sahibi bulunduğumu öyrənirdilər. Yazıçı və şair olduğumu eşitdikdə heyrətləndilər. Buna inanmadılar. Yanımdakı vizit vərəqəmi onlara göstərdim. İnandılar. Zəng vurdu. Aleksandr Vasilyeviç olduğu bəlli idi. Mən qalxıb ayaq üstündə durdum. O, balkona çıxdı. Kiçik qız və oğlan onu qarşıladılar. Biri şapqasını, digəri furaşqasını alıb mıxdan asdılar. Əllərini yudu. Gəlib yemək masasının başında oturarkən: «Hələ yorulmadın ki?» - deyə soruşdu. Mən isə: «Xeyr! Burada insanı yoracaq heç bir şey yoxdur» - dedim. Susanna qayət təəssüfedici bir vəziyyətlə atasına dedi:

- Ata, bu məhbus az təsadüf ediləcək bir məhbusdur. Nəcib təbiətli bir adam imiş. Özü də şair və yazıçıdır.

- Hamısı doğrudur. Sözüm yoxdur. Ancaq məhbusdur. Həm də siyasi məhbusdur.

Susanna atasına təəccüblü bir surətdə baxdı.

- Əcəba cani, oğru ki, deyildir?

Aleksandr Vasilyeviç güldü. Əlini Susannanın başına çəkdi.

- Oğru və cani olsaydı, təqsiri daha yüngül olardı. Bununla bərabər özü də bilir ki, mən həmişə bunun hörmətini saxlamışam -dedi. Mən icazə istəyib balkondan düşmək istədikdə Aleksandr Vasilyeviç: - «Durun!» - deyə məni dayandırdı. «Get orada otur. Həbsxanada nahar edilmişdir. Hər gün naharını burada yeyərsən» - deyə məni oturmağa məcbur etdi. Naharı etdilər. Mən çox az yedim. Bunun sözləri mənə çox fəna təsir bağışladı. İkinci gün məni, nəhayət, ubornu təmizləməyə buraxmadılar. Bu gün şkaflarda olan qabları, bəzi fiqurları silib təmizlədim. Kitabları sildim. Şkafda olanları şöbələrə ayırdım. Şöbələrin üstündə onların nəyə dair olduğunu yazıb yapışdırdım. Qəzetləri ayırıb nizama saldım. Nahar vaxtına qədər bununla məşğul oldum. Aleksandr Vasilyeviç gəldi. Susanna onu gətirib kitabxananı göstərdi. O, məni ayağımdan başıma qədər süzərək: «İranlısan, amma vağzaldakılardan deyilsən, çox razıyam» - dedi. Onlar bizə haralı olursaq, yenə də persiyalı (persiyanın) deyirlər. «Vağzaldakılar» sözü dəxi orada hamballıq edən iranlılara işarə idi. Buna görə də: «Cənab!

Mən iranlı deyiləm. Kafkaz türklərindənəm. Fəqət iranlıların da hamısı hambal deyildir. Orada da ziyalılar, mədəni adamlar vardır» - deyə fars ilə türkün nə olduğu haqqında ona məlumat verdim. Aleksandr Vasilyeviç Sədidən, Hafizdən və Xəyyamdan soruşdu. Onların qısa olaraq tərcümeyi-hallarını söylədim. O məni bu barədə yoxlamaq üçün xırdaca bir qamus gətirib vərəqlədi. Hafizi, Sədini, Xəyyamı tapdı. Dediklərimin düzgün olduğunu təsdiq etdi. Mən Sədidən, Hafizdən bəzi şeirlər oxudum. Ömər Xəyyamdan oxuduğum aşağıdakı rübaidən çox məmnun qaldı. Onun məzmunca yox, quruluşca Qərb şairlərinin şeirlərinə bənzədiyini təsdiq etdi.

«Ey çərxi-fələk, xarabi əz guşeyi-tost
Bidadigəri pişeyi-dirine tost
Vey xak əgər sineyi-tu beşikafənd
Bəs gohəri qiyməti-ke dər sineyi-tost.[1]

Ümumiyyətlə, onlar şeirin məzmun və quruluşundan artıq oxunuşu və ahəngi ilə maraqlanırdılar.

Son günlər Aleksandr Vasilyeviç mənə çox inanmışdı. Mən ona çox cəsarətlə yanaşıb Rostovda tanışım olduğunu və onunla görüşmək istədiyimi dedim. Mən bu sözü dedikdə o, qabağında çay içirdi. Bu gün məni də həmən masada oturtdurmuşdular. Bu günə qədər başqa masada çay içib və yemək yeyirdik. Bu sözü dedikdən sonra Aleksandr Vasilyeviç bir az düşündü. Çaydan bir qədər içib yerə qoydu: «Şübhə yoxdur ki, siz bu sözü mənə əvvəlinci günlər deyə bilməzdiniz. Sizi bu sözü demək üçün hazırlanmış zəminəyə imkan verən biz özümüz olduq. Madam ki, belədir, sizə yox deməyə və mənfi cavab verməyə haqqım yoxdur. Get, lakin mənim sizə qarşı olan etimadımı xəyanətlə qarşılama. Ən açığı, ailəmin bədbəxtliyinə imkan vermə» - dedi. Ailə üzvləri də mənim xəyanət etməyəcəyimə inandıqlarını söylədilər. Onun qadını və böyük qızı: «Get, yenə də nahar vaxtına qayıdıb gəl» - dedilər. Cibimdə azca param var idi. Vağzala getmək üçün tramvay yolundan başqa yol tanımırdım. Ona görə faytona minmək lazım gəlirdi. Tramvay yolundan getdikdə həbsxana xidmətçilərinə təsadüf edəcəyim şübhəsiz idi. Fayton ilə Rayanın evinə gəldik. Onlar çox təəccüb etdilər. Azad olduğumu zənn etdilər. Rayanın mərkəzi həbsxanaya göndərildiyini anası göz yaşları ilə söylədi. Görüşünə getməyə hazırlaşırdılar. Rayaya bəzi sifarişlər göndərdim. Saritmsində buraxıldıqdan sonra Rostova gələcəyimi və onun qurtarması uğrunda çalışacağımı söy-

*1. Tərcüməsi: Ey çərxi-fələk, xarabalıq sənin sığınacağındır.*
*Zalımlıq, insafsızlıq sənin elə köhnə peşəndir.*
*Sənin sinəndə olan o qiymətli gövhəri*
*Bir kərə torpaq sındıra bilər.*

lədim. Bir saat oturduq. Yemək və çay var idi. Heç bir şeyə əlimi vurmadım. Odanın hər bir şeyində Rayanı hiss edirdim. Ancaq özü orada yox idi. Yenə də gələcəyimi bildirib dışarı çıxdım.

***

Nahar üçün yenə də Aleksandr Vasilyeviçin evinə qayıtdım. Ailəsi çox şadlandı. Kiçik qız, kiçik oğlan evdə yox idi. Hələ nahar vaxtına da çox qalırdı. Serafima xanım məni otağa çağırdı. Böyük qız ev qulluqçusu Mariya ilə həyətdə oturub krujeva toxumaq öyrənirdi. Mən mebelləri təmizləyən ağ parçanı götürüb içəri girdim. Xanım salonda yox idi. Mən dayandım. İçəridən səsləndi: «Nə üçün durdunuz? İçəri giriniz!» Mən onların yataq odasına heç girməmişdim. Birinci kərə idi. İçəri girdikdə Serafima xanımın çöhrəsində bir həyəcan hiss etdim. Mən ona baxarkən o əllərini bir-birinə sürtüb nə deyəcəyini unudan və sözünü evin bucaqlarından axtaran bir adama bənzəyirdi. Əynində yalnız bir kapot var idi. Onun birinci sözü bundan ibarət idi. «Yataq odamızı bəyənirsənmi» - dedi. Mən ona qarşı: «Çox təmiz və zəngindir» söylədikdə o, qolumdan tutub divardakı çılpaq qadının şəkilləri haqqında izahat verməyə başladı. Bir çox həyasız fiqurları, hətta masa üzərindəki ədəbsiz hərəkətli şəkilləri göstərdikdən sonra mən belə bir sual verdim: «İndi deyiniz görüm, siz bunların birisini sevirsiniz? Bundan başqa görməli bir iş varsa göstərin. Bunlarla məşğul olacaq halım yoxdur. Əf ediniz məni»- dedikdə o gülərək: «Heç bir iş yoxdur. Sizi əyləndirmək üçün çağırdım. Məncə, şərqlilər ucaboylu, qarasaçlı, pəmbə yanaqlı qadını çox sevərlər» söylədi. Buna qarşı: «Çox razıyam» deyib bayıra çıxdıqda onun böyük qızı Susannanın bizi təqib etdiyini gördüm.

Balkonu təmizləməklə məşğul oldum. Aleksandr Vasilyeviç nahara gəldi. Xanım «Xəstələnmişəm» deyə nahar masası başına gəlmədi. Nahardan sonra mən yenə də lazımi şeylərimi götürüb həbsxanaya qayıtdıqda Susanna dayandırıb dedi: «Yarın tezdən gələrsən. Atama da söyləmişəm. Naxçıvana iş üçün gedəcəyəm. Səninlə bərabər getməyimiz lazımdır.

Mənim özüm də Rostovu və Naxçıvanı görməkdən maraqlanırdım.

***

Səhər saat 9 olmamışdı. Həbsxanadan çıxdım. Lakin bayıra çıxmaq daha məni maraqlandırmırdı. Çünki ürəyimdə olan acı duyğular bayıra çıxdıqda daha da coşurdu. Xüsusən içərisinə düşdüyüm bu polis ailəsindən də zəhləm gedirdi. Mən yalnız qadının deyil, böyük qızı Susannanın da əxlaqsız olduğu haqda məlumat əldə etmişdim. Aleksandr Vasilyeviç nə qədər alçaq bir polis olsa da, o, mənə etimad göstərirdi, bayıra buraxırdı. Buna görə də onun ailəsindəki bu xəyanətdə iştirak etməkdən iyrənirdim.

Mən evə gəldikdə çayları hələ içilməmişdi. Salam verdim. Aleksandr Vasilyeviç, qızları, hətta kiçik oğlu salamımı aldılar. Xanım Serafima etina etmədi. Başım çox ağrıyır» - deyə ailə nəzərini bu etinasızlıqdan başqa tərəfə çevirməyə çalışdı. Məni Susanna, bacısı, atası yenə də həmin masada oturmağa məcbur etdilər. Samovar daima olduğu kimi yenə də xanımın qabağında idi. Çayı o boşaldırdı. O, mənə çay verməməyi bacarmadı. Çünki burada bir səbəb olacağı haqqında əri şübhələnəcəkdi. Bir stəkan çay töküb qabağıma qoydu. Və qoyan vaxtında üzünü başqa tərəfə çevirmişdi. Susanna bunu hiss etməmiş deyildi. Çünki o, dünənki hadisəni görmüşdü. O, mənə him elədi. Yağı, pendiri, yumurtanı təqdim etdikdə xanım Serafimanın çöhrəsi tez-tez dəyişirdi. Susanna getmək üçün tələsirdi. Qalxdıq. Əvvəlcə əl çamadanını mən götürdüm. O, dəxi çətirini və nazik paltosunu götürüb çıxdı. Onun birinci söhbəti bundan ibarət idi. «Qadınları öyrənmək çox çətindir»-dedi. Mən ona cavabla: «Fəlsəfəmi söyləmək istəyirsiniz?» - dedim. «Xeyr, doğrudan da, qadın anlaşılmaz bir müəmmadır. Məsələn, mənim öz anamı götürəndə adamın çıldırmağı gəlir». Söylədiyinə qarşı mən» «Nə üçün?» - deyə soruşdum: «O, çox tələsir, kişinin zövqünü anlamadan özünü ona təqdim edir. Bunun üçün də bir çox vaxt müvəffəqiyyətsizliyə rast gəlir. Hələ özünü lazımınca aparmadığı və düşündüyü xəyanəti yazıq atama bildirməsi də, onun əfv olunmaz xatalarındandır» - deyib mənim çiynimdə olan tozu sildi və sözünə davam etdi: «Lakin mən şəxsən belə deyiləm. Mən kişiləri lazımınca öyrənməmiş tənəzzül etmərəm. Birinci gün bizə gəldikdə mən sizin nəcib bir ailədən olduğunuzu anladım. Rəhmətlik ərimin də belə qara tükləri var idi» - deyərək əlini başıma çəkdi. Mən əlimi uzadıb onun əlini rədd etmək istədikdə o əlimi tutdu, daha buraxmadı. Əlim əlində olaraq sözünə davam elədi: «Onun boyu da sənin boyuna bənzəyirdi. Onun qara və düşüncəli gözləri var idi. Alnının qırışları da sənin alnına bənzəyirdi. Onun alnından qayət ciddi və səmimi bir adam olduğu bəlli idi». Mən ona təsəlli verir və deyirdim: - «Kiçik xanım, taleyiniz belə imiş. Dünya müharibəsi yalnız sizi deyil, milyonlarca sevgiləri pozmuşdur. Yenə də gəncsiniz. Daha da sevimli gənclərə təsadüf edər və onları sevərsiniz» - dedim. O isə: - «Yox, bu kimi cansız sözlər məni heç vaxt təskin edə bilməz deyirdi. Naxçıvana çatana qədər o, bu kimi söhbətləri təkrar edirdi. Naxçıvanda məni bir erməni ailəsinə apardı. Ailə onun ölmüş nişanlısının evi idi. Ailə başçısı Dağlıq Qarabağdan Hadrud ermənilərindən idi. Qızın nişanlısı isə bu ermənin oğlu imiş. O, divarda nişanlısı Simonun böyüdülmüş şəklini mənə göstərdi. Doğrudan da, gözəl və unudulmayacaq bir gənc idi.

Nahar yedik. Çay içdik. Saat 2-də vidalaşıb çıxdıq. Yol uzunu yenə

də xanımın söhbətləri həmən sevgi söhbətləri idi. Evə bir az qalmış o: «Hərgah siz razı olsanız, mən atama deyərəm. Sizi istədiyiniz qədər Rostovda saxlar. Yatab vaxtında sizi siyahıya salmaz. Burada qalarsınız. Zənnimcə, bizim ailədə sizin üçün fəna keçməz» - dedi. Mən isə cavabını qısaca verdim. «Yox, qala bilmərəm. Əfv ediniz».

***

Rostovdan çıxmağıma bir gün qaldıqda bir daha Rayanın anası ilə görüşməyə getdim. Qadının halı çox fəna idi. Rayanın sifarişlərini verdi. Yazıq qız həbsxanada olan həqarətlərə davam edə bilməyəcəyini və buradan salamat xilas ola bilməyəcəyini mənə sifariş etmişdi. Mən bu sifarişdən Rayanın nə dediyini bilirdim. Mən Naxçıvan həbsxanasında qadınlara qarşı qoyulan həqarətləri görmüşdüm. Yazıq Rayanın da Mələknisaların təsadüf etdikləri həqarətlərə düşəcəyini düşündüm. Vidalaşıb çıxdım. Çıxarkən yenə də Rayaya sifarişlər verdim. Tezlikdə Rostova qayıdacağımı təkrar yazdım.

Bir gün sonra Rostov həbsxanasından bizi Novoçerkassk həbsxanasına göndərdilər. Bir çox xatirələr aldığım Rostovdan acı duyğularla çıxdım. Çünki mən son və qiymətli sevgimin Rostov həbsxanasında gömüləcəyini bilirdim.

Novoçerkassk həbsxanasında 2-3 gecə qaldım. Həbsxana müdiri Eynəddin adlı bir tatar idi. Müsəlman olduğum üçün gecə saat 12-də bir çaynik çay, bir parça da ağ çörək göndərmişdi. Həbsxana odası zirzəmi şəklində idi. Çox kəsif havası var idi. Burada bəzi məhbuslara göstərilən həqarət Tiflis həbsxanasında olandan fəna idi. Bizim yatabda 4 nəfər gənc var idi. Birisi Bakıdan, 3 nəfəri isə Rostov həbsxanasından idi. Bu gəncləri əldə etmək üçün məhbuslarbir-birləri ilə vuruşdular. Hər kəs bunları öz yanına çəkmək istəyirdi. Vuruşmada 60 yaşında məhbuslar da iştirak edirdi. Gənclər isə durub bir tərəfdən baxırdı. Axırda məhbuslar razılaşdı. Aylar uzunu bu həqarəti görən uşaqlar heç bir etiraz etmədən təslim oldular.

Mən aşağıdakı şeirimi həmin həbsxanada çay kağızına yazdım:

Bitməzmi cəfa,axırayetməzmi kəşakəş
Axırda yaxar zatını yaxdıqların atəş!
Səndənmidir hər külbədə, kaşanədə matəm.
Bir gündə sənin zatinə zindan olur aləm!
Bidad ilə üftadələrin qəlbini sıxma,
Azadələrin zülm ilə meydanına çıxma!
Hər ölkəni al, vur bütün aləmlərə zərbə,
Sox məhbəsə insanları, sür məqtəli-hərbə!

Lakin onu bil, hər nə ki, bidad edəcəksən,
Bir gün gələcək, sən dəxi fəryad edəcəksən!
1914-cü il,Novoçerkassk həbsxanası.

## SARİTSİNDƏ

Biz Saritsin həbsxanasına axşam saat 6-da yetişdik. Soyundurub o ki lazımdır axtardılar. Orada bir stəkan çay içmədən şeylərimizi yığışdırmağı əmr etdilər. Sürətlə şeyləri topladıq. Uzun dəhlizdə nizama durduq. 90 nəfər idik. Qaraul soldatlar bizi sayıb təhvil götürdülər. Bir saatdan sonra polis müdirinin idarəsində idik. Bütün bu 90 nəfərlik məhbusları 20 adam yerləşə biləcək qaranlıq bir odaya doldurdular. Burada iki saata qədər qaldıq. Susuzluqdan həlak dərəcəsinə gəlmişdik. Hava yox idi. İki saat qədər biri digəri üzərində qaldıq. Havanın soyuqluğuna baxmayaraq, tərləməyən adam yox idi. Qapını açdılar. Birər-birər çağırdılar. Hamı qurtardı. Yalnız mən qalmışdım. Qapının bağlanmağı məni heyrətə saldı. Əcəba, məni buraxmayacaqlarmı? Qapını şiddətli bir surətdə vurdum. Qaradovoy gəldi. Yoldaşım Şirəlini çağırmasını rica etdim. 2 dəqiqədən sonra Şirəli gəldi. Məni içəridə görüb polis müdirinin yanına qayıtdı. Onun nə danışdığını bilmədim. 20 dəqiqədən sonra bir qaradovoy gəlib məni polis müdirinin kabinetinə apardı. Polis müdiri əlində böyük bir açarı oynadaraq odanı o tərəf-bu tərəfə dolaşırdı. Bir neçə dəqiqə o, mənə heç də əhəmiyyət vermədi. Axırda qarşımda durub bir aktyorun istehzalı gülüşləri kimi güldü:

- Səni geri qaytarıram-acıqlandı.
- Sənsiz də burada hökumət xainləri həddindən artıqdır.

Mən buna heç də cavab vermədim. Qoca bir çinovnik başını qaldırıb üzümə baxdı. Düşündü. Sonra polis müdirinə dönərək dedi:

- Zənnimcə, bunu geri qaytarmış olsanız, yollarda məhv olacaqdır. Zəifdir, xəstələnmişdir. Yaxşısı budur ki, 4-cü rayon pristavının sərəncamına göndərəsiniz. Orada bir təhər yaşasın. Polis müdiri bir az fikirləşdi.
- Yaz, göndər! - dedi. Yenə də evi dolaşmağa başladı. Azdan sonra yenə döndü və çinovnikə dedi:
- Qardaşı göndərdiyi 25 manat paranı da pristavın sərəncamına göndəriniz. Orada özünə tapşırsınlar.

Lazımi kağızları yazdılar. «İki nəfər qaradovoya tapşırdılar. Mən də, Şirəli də bayıra çıxdıq. Yağış çox şiddətlə yağırdı. Qalın şubadan keçən yağış alt köynəyimizə qədər islatmışdı. Qaradovoyların üstündə yağmurluq olduğundan çox yavaş-yavaş gedirdilər.

Gecə saat 12-də 4-cü rayon pristavının idarəsinə yetişdik. Növbətçi

müavini Şapoşnikov adlarımızı yazdı. 25 manatı qoradovoylardan qəbul edib cibinə qoydu və gediniz» - deyə bizə müraciət etdi.

- Hara gedəlim? – dedik. Gecə saat 1-dir. Yağış da yağır. Heç bir yeri tanımayırıq. Cibimizdə paramız yoxdur. Heç olmasa 25 manatı veriniz!

- Gərək pristav versin. Mənim verməyə ixtiyarım yoxdur -deyib növbətçi bizi rədd etdi.

- Burada qaradovoyların yanında qalmağa icazə veriniz-deyə rica etdikdə adi polis söyüşü ilə bizi söydü. Əlacımız hər yerdən kəsildi. Növbətçi müavinə yanaşdım. Qulağına dedim.

- 8 manat veriniz, yarın 10 manat götürünüz!-dedikdə o qaşlarını və çiyinlərini çəkərək cavab verdi:

- Nə etməli, sizi məəttəl qoya bilmərəm. 10 manata qəbz yaz ver! Qəbzi yazıb verib 8 manat aldım. Biz çıxanda kimsə görünmürdü. Küçələrdə sel gedirdi. Axırıncı tramvaylar sürətlə yorulub parka getməyə tələsirdi. Biz yaxında olan mehmanxanaların bir neçəsinin qapısını açıb içəri girdikdə hamısı rədd etdilər. Çünki vəziyyətimiz faciəli bir vəziyyətdə idi. İslanmışdıq. Tük basmışdı. Adama oxşamırdıq. Yoldaşım Şirəlinin yekə papağı ilə uzun çuxası da qovulmağımızın birinci səbəbi idi. Hələ şeylərimizi bir meşoka yığıb dalımıza atmağımız da özümüzün mehmanxanaya yarayan bir adam olmadığımızı üzümüzdən göstərirdi. Küçədə bir çox zaman durub düşündük. Mən yenə də pristav idarəsinə qayıtmağı məsləhət gördüm. Çünki oradan uzaqlaşdıqda tamamilə şaşırıb küçələrdə qalacaq idik.

Polis idarəsinə qayıtdıq. Orada qaradovoy durmuşdu. Mən ona yaxınlaşdım.

- Bizi indi buradan buraxdılar, sən bunu gördün ki?-deyə soruşdum. Qaradovoy açıqlandı.

- Mən sənin nökərin deyiləm ki, «sən» deyə çağırırsan? - dedikdə mən səhvimi anladım.

- Eh -dedim. - Siz bizim buradan çıxmağımızı gördünüz ki?

- Əvət, gördüm, nə olsun?

- Bizi mehmanxanalara buraxmayırlar. Burada da səhər etməyə qoymayırlar.

- İndi mən nə edim ki?

- Siz bir iş görməlisiniz. Sizə bir manat para verəcəyəm. Bizi aparıb mehmanxanaların birisinə düzəldəcəksiniz. Mümkündürmü?

O, bir az düşündü, sonra:

- Nə etməli? Qərib adamsınız. Yardım verməliyik, - dedi.

Bunu dedikdən sonra qabağımıza düşdü. Düz doğru «Kazakov»

otelinə gəlib qapını vurdu. Nömrə sahibini çağırdı. Qaradovoyun bizi orada nə cürə yerləşdirəcəyini təsəvvürə gətirə bilmədik. O sözə başladı:

- Pristav əmr edir ki, bu iki nəfər mehmanxanada yerləşsinlər. Pasportları oradadır. Yarın özlərinə veriləcəkdir. - dedikdən sonra mehmanxana sahibi: «Etirazım yox» - deyə bir nəfəri çağırdı. 41-ci otağı bizim üçün açmasını əmr etdi. Qaradovoy la vidalaşdıqda bir manatı gizlincə verdim. O isə qayırma manat olmasın deyə paranı sement kərpicin üstünə salıb səsinə baxdı və cibinə saldı.

Otağı açdılar. Təmiz otaq idi. İki təmiz çarpayısı var idi. Zəngi vurduq. Qoca bir qadın gəldi. Yumurta və çay sifariş verdik. Aprel olduğuna baxmayaraq, odadan dəmir sobanı götürməmişdilər. Peçin yandırılmasını rica etdik. Üst-başımızı qurutduq. Meşokdakı təmiz alt paltarlarından geyib rahat olduq. Səhər tezdən dışarı çıxmaq lazım idi. Mehmanxanaya 12 manat verməli idik. Bizdə isə var yox 7 manat var idi. Mən Şirəlini orada qoyub para tapmaq üçün şəhərə çıxmaq istədim. O razı olmadı.

- Məni burada qoyub gedərsən. Daha qayıtmazsan!-dedi.

- Mən burada qalım. Sən özün gedib para tap. Xüsusən sənin qardaşın da burada çalışır-dedikdə o, yenə də:

- Heç yerə gedə bilmərəm. Çünki tanımıram»-deyərək getmək istəmədi. Mən düşündüm. Axırda aşağı düşüb mehmanxana sahibinə məsələni anlatdım. O, şeylərimizi nömrədə qoyub getməyimizə razı oldu.

***

Şəhər çıxdıq. Yoldaşım Şirəlinin çuxasını və börkünü görən rus balaları «ada-ada» deyə bizi səsləyirdilər. Qoqol küçəsi ilə keçib Aleksandrovski bağının yanında bir çox zaman durduq. Bir nəfər türk və ya erməni görmək üçün daima o yan-bu yana baxırdıq. Bir nəfər tatara rast gəldik. Ondan burada türklərin harada olmasını soruşduq. O, barmağını qarşıdakı xırda bir dukana tutub dedi:

-Budur, Seryojanın dükanı, özü də persiyandır. Biz təəccüb etdik. Persiyanın Seryoja adı daşımasını bir növ həll edə bilmirdik. «Bəlkə də ermənidir», - Şirəli dedi. Biz dükana yaxınlaşdıqda Ordubadın Nüsnüs kəndindən olan Məşədi Həsən Vəlibəyovu burada gördük. O, bizi görən kimi xoş gəlmisiniz həmşəhrim! Siz hara, bura hara?» deyib keyfimizi soruşdu. Oturduq. Bizim üçün hazırladığı çaydan verdi. Yemək təklifində bulundu. Qəbul etməyə bilməzdik. Bir qədər danışdıqdan sonra onun qardaşı Məşədi Rzaqulu da gəldi. Bunun da adının Konstantin olduğu bəlli oldu. Biz bir neçə gün burada qaldıqdan sonra burada olan müsəlmanların rus adı qəbul etdiyini anladıq. Məşədi Həsən bizim yanımıza düşüb bizi meyvə satan bazara gətirdi. Müsəlmanlar burada alış-veriş edir-

lər. Hamısı kavkazlı və iranlılardır. Biz Şirəlinin qardaşını tapdıq. Mənzil hazırladıq. Burada yaşamaq üçün planlarımızı düzdük.

Mən Saritsində bir aya qədər qaldım. Heç bir kimsəni tanımırdım. Yalnız 5-6 Ordubad mahalının adamlarını tanıyırdım. Hər birinin dükanında bir neçə saat oturub vaxtımı keçirdim. Günlərin birində Əli Haşımov yaş meyvə satan dükanda oturub çay içdikdə bir nəfər iranlı hambal gəlib ərizə yazan axtarırdı. Farsca ərizə yazan tapa bilməmişdi. Mənim ona yazığım gəldi. Çağırıb ərizəsini yazdım. Ərizəni konsul naibi Əlixan verəcəkdi. Əlixan Həştərxandan gəlib iranlılardan bilet parası toplayırdı. Ərizə yazdıran iranlının adı Əli Məmməd idi. O, gedib yarım saat sonra qayıtdı.

- Sizi Ağa çağırır.

- Ağa kimdir?

- Konsul naibi Əlixandır.

- Haradadır?

- Balakişi əminin evindədir,-dedikdə mən əvvəlcə getmək istəmədim. Çünki mənim İran konsulu ilə heç əlaqəm ola bilməzdi. Axırda Əli Haşumov:

- Xan Balakişi əminin qonağıdır. Getməsən onun da xatırı qalar-deyərək məni getməyə razı saldı.

***

Balakişi böyük bir binada yaşayırdı. Onunla tanış olduq. Əlixan ilə tanış olduq. Burada bir nəfər də Ordubad kəndlisi ilə tanış oldum. Adı Məşədi Hətəmoğlu idi. Rusca adı isə Mitya İvanoviç idi. Balakişi məni nə üçün çağırdığını və konsulun bu çağırışdan nə məqsəd daşıdığını mənə xəbər verdi.

- Burada savadlı adam yoxdur -gülə-gülə dedi.

- Bizimkilərin hamısı hammaldır. Səbzi satandır. Cənab Əli xan sizin yazdığınız ərizəni olduqca bəyənmişdir. Buna görə də istəyir ki, siz burada İran konsulunun agenti vəzifəsini qəbul edəsiniz. Bilet faizləri ilə də gözəl yaşaya bilərsiniz.

Mən sürgündə olduğumu söylədim. Və eyni zamanda bu işə meylim olmadığını da əlavə etdim.

Mənim Balakişi ilə tanışlığım buradan başladı. Bütün günümü onunla birlikdə keçirirdim. Ona hər bir işində yardım göstərirdim. O, böyük tacir idi. Komisyon ilə də mal satırdı. 14-cü ilin axırında bir milyon iki yüz min abarotu olmuşdu. Bunun ticarət işi çox sadə qurulmuşdu. Onun hesabdarlıq işi üç böyük dəftərdən ibarət idi. Dəftərin birisinə alınan, digərinə isə satılan mallar yazılardı. Üçüncü dəftər isə etibarla bura-

xılan malların siyahısına məxsus idi.

Balakişi Karyagin mahalından idi. Onun əmisi oğlanları da öz ailələri ilə bərabər orada idi. Balakişidən başqa onların hamısı adlarını dəyişdirmişdi. Balakişi köhnə müsəlman idi. Namaz qılar və oruc tutardı. Rus qızlarına evlənənlərin kəbinini Balakişi kəsərdi. Az savadlı olmağına baxmayaraq ərəbcə siğə və nigah oxumağı öyrənmişdi. Lakin səhv etməmək üçün daima nigahı kağız üzərindən oxuyardı.

***

Mən hələ Rostov həbsxanasında ikən yoldaşlarımdan Nəsrullah Şeyxovun Poltava quberniyasına sürgün edildiyini eşitmişdim. Ona verilmək üçün Poltava polis idarəsinə bir məktub göndərmişdim. Məktubda onun Saritsinə gəlməyə çalışmasını rica etmişdim. Polis idarəsi onun Kabilyak adlı bir qəsəbədə yaşadığını soruşub məktubu ona göndərmişdim. Mən günlərin birində onun məni axtardığını eşidib şadlandım. Onu «Volqa» mehmanxanasında tapdım. Biz həmin gün Penzinski küçədə 3 otaqdan ibarət bir mənzil tutduq. 80 manatlıq da ev əşyası alıb evə daşındıq. Bizə pasport lazım idi. Pasportlarımız isə polis müdiri idarəsində idi. Pasport üçün getdikdə həmin qoca çinovniki gördüm. O, məni tanıdı. Tanış olduq. Onun adı Salamon idi. Polşa müsəlmanlarından idi. Biz ona pasport məsələsini dedik. 50 manat para ilə polis müdirini razı salacağına söz verdi. Özünə isə 1 qran hədiyyə etməyimizi tapşırdı.

Biz pasportlarımızı aldıqdan sonra türk əsirlərindən 1 qran alıb Salamona hədiyyə verdik. O qrana «namaz» deyirdi.

Mən pasportu alandan sonra Rostov şəhərinə gəldim. Düz doğru Rayanın evinə gəldim. Anası həm şadlandı, həm də ağladı. Rayanı soruşdum.

- Həbsxanada dəli oldu. Hazırda dəlixanadadır. Çox sakit dəlidir. Ancaq daima gülür və ağlayır.

Bunu dedikdən sonra qadın yenə də ağladı.

Gecəni onların evində qaldım. Tezdən onun görüşünə getməli idi. Bazara çıxıb şirin çörəklər, konfet və şokolad aldım. Dəlixana işçiləri məni içəri buraxmaq istəmirdilər. 5 manat para müqabilində razı oldular. Biz geniş bir dəhlizdə durduq. Rayanı gətirdilər. Onun gənclik görünüşü sabiq gözəlliyini itirməmişdi. Hətta kökəlmişdi. Tüklərini bir hörükdə hörüb çiynindən atmışdı. Raya məni görən kimi gözlərinə inanmayaraq təəccüblə baxdı. Sanki fikri bir az başına gəldi.

- Səid, səndəmi mənim yanıma gəldin?-deyərək iki əllərimi olduqca qüvvətli sıxdı. Yenə də əqlini şaşırdı və anasına dönərək:

- Bu gün toyum idi. Paltarlarım hazır olmamışdı. Bunun üçün də ta-

xirə saldılar-dedi. Raya bu sözlərdən sonra bir an güldü. Sonra şiddətlə ağlayaraq anasının boynuna sarıldı. Anası onun başını tumarladıqdan sonra o dönüb mənə baxdı. Əlimdəki hədiyyəni alıb bir-bir baxdı.

- Mən tapşırdığımı gətirməmisən? -deyərək üzümə baxdı. Şiddətli ağladı və bayıldı. Bayılmış halında götürüb apardılar. Mən bu qızın fəlakətinə səbəb olan çar jandarmasına lənət oxuya-oxuya dışarı çıxdım.

İki gün məni saxladılar. Anası mənim Rayaya verdiyim yadigarları birər-birər göstərdi. Onların içində Təbrizdən Rayanın adına qayrılmış 4 gümüş fincan, ipək dəsmallar və sair şeylərdən ibarət idi ki, bunları açdıqda içindən bir parça əlyazım da çıxdı. Əlyazısı ona həbsxanadan yazdığım məktublar, bir də Culfada daşnaklar tərəfindən dağılmış kitabxanamdan tapdığı bir paça şeirdən ibarət idi. Yanımda olan yüz manat paranın səksən manatını Rayanın anasına verib vidalaşdım.

Mən Saritsindən Rayanın görüşünə iki dəfə də getdim. Hər görüşdə o, məni tanıyır və hiss edirdi. Bəzən o, keçmişlərdən də parçalar xatırlayırdı. O, mənim dəlixanada qalmağımı tələb edirdi. «Hövsələm darıxır» - deyə özünün nə üçün burada saxlandığından şikayət edirdi. Buna baxmayaraq, yenə də hər bir görüşün axırında ağlayır və bayılırdı. Anasına tez-tez kağız yazırdım. Bir ildən sonra yazdığım məktuba belə bir cavab aldım:

*«Raya son vaxtlar tez-tez bayılırdı. Zəifləmişdi, solmuşdu. Xəstəliyi artmışdı. Daima dəhşətlənərək: «Budur, yenə də gəldilər»-deyə qışqırır və bağırırmış. Nəhayət, 10 gün bundan əvvəl son dəfə görüşünə getdik. O, yenə də bayıldı. Daha o, bayıldıqdan gözlərini açmadı. Əbədi olaraq yatdı. Yalvarıb ölüsünü alıb basdırdıq. Sən sağ ol, Raya daha yoxdur».*

Mən bu məktubu oxuyandan sonra xəstələndim. Nə edəcəyimi bilmədim. Qızın: «Budur, yenə də gəldilər» - deyə qışqırığının mənasını bilirdim. Çünki Naxçıvan həbsxanasındakı qadınların başına gələn fəlakətlərdən Rostovda Rayanın başına gəldiyini bilirdim. Hər halda qızın məndən ötrü məhv olduğu ruhumda böyük bir həyəcan yaratmışdı. 4 gündən sonra Rostov şəhərinə getdim. Rayanın qəbrinə bir dəstə gül qoyub qayıtdım. İndi də o gül və həmən bir yığın torpaqdan ibarət olan qəbir gözümün önündədir.

Mən zatən həbsxanada ikən xəstələnmişdim. Saritsin rahat olmadığından və ehtiyac içində yaşadığımdan xəstəliyimi sağalda bilmədim. Xəstə olduğum vaxt İranda gizlənmiş yoldaşım Məmmədhüseyn Hacıyevdən bir məktub aldım. O, məktubda xəstə olduğunu yazaraq daha görüşmək mümkün olmadığından təəssüf edirdi.

Bu məktuba cavab olaraq,1915-ci ilin axırlarında Hacıyevə aşağıdakı şeirimi göndərmişdim.

Məktubunuzu aldım, aya, piri-xirədmənd,
Sürtdüm gözümə, ağladım, ey munisi-dilbənd.
Bir qəryə ki, ordan çox uzaq gəlməyə ürfan,
Əfsus ki, bir eylə yer olmuş sənə zindan.
Şadam yenə, ziraki, səlamətdi məzacın,
Qal, qalmalısan, yox buna bir başqa əlacın.
Dövran səni də, bizləri də qıldı fəramuş,
Bir guşədəyiz ki, yaşarız böyləcə xamuş.
Əfsus, həram oldu mənə feyzi-hüzurun
Heyhat, olamam bir də sənin məzhəri-nurun.
Etdikcə biz eyb əhlini hər ləhzədə təyib,
Məyublar axırda bizi eylədi tədib
Biz istərikən fikridə məsləkdən təcəlla,
Əfsus ki, olmuş təcədla bizə mənza.
Ozahe-pərişanımı təsvir edəməm mən,
Qorxum budur,Rusiya kəsilsin mənə mədfən.

Mən 1916-cı ilin yarısına qədər xəstə idim. Bu vaxta qədər mən Bakıdan məktublar alırdım. Məktubları Cəfər Bünyadzadə, Əlabbas Müznib və Əzim Əzimzadə yazırdı. Mən bu məktublardan sonra «Babayi-əmir», «Tuti» adlı gülgü məcmuələrində iştirak edirdim. Qəzetlərə yaza bilmirdim. Çünki onlar açıq imza ilə mənim məqalələrimi dərc edə bilmirdilər.

Saritsindən yazdığım şeirlərin heç birisinə para ala bilmirdim. Həyat getdikcə ağırlaşırdı. Şeyxov da məndən ayrılmışdı. O, su satmaqla məşğul idi. Mənim heç bir şeyim yox idi. Balakişinin ətrafına dolanmırdım. Onun ailə vəziyyətində qarışıqlıq törəmişdi. Evinə getmək və ona sürtüşmək istəmirdim. Axırda Rəştdən uşaq ikən Saritsin şəhərinə gəlmiş və orada qocalmış Məşədi Qulam Əliyev bir yeşik alma verdi. Mən almanı paraxodlara aparıb müsafirlərə satmaqla həyatımı keçirdim.

Günün birində Teymur adlı bir nəfər iranlı ölmüşdü. Onu basdırmağa apardıq. Ölünü tatar mollası Mürtəzin adlı bir nəfər molla basdırırdı. Orada Mürtəzin ilə tanış olduq. Onun vasitəsilə mən tatar cəmiyyəti-xeyriyyəsinin işlərində iştirak etdim. Bu iş mənim üçün böyük məşğuliyyət oldu. Xüsusən yerli tatarların arasında tanındım və hörmət qazandım. Məşədi Qulam Əliyev mənə inanırdı. O etibar buraxırdı. Onun iki nəfər də rus oğlu var idi. Nəvələri də rus idi. Məşədi Qulam Əliyev birinci adam idi ki, öz əski adında qalmışdı. O, dinçi idi. Novruz bayramı, qurban bayramı və sair bayramları icra edərdi. Bütün Saritsində oruc tutan bir Qulam Əliyev, bir də Balakişi Rustamov idi. Çox qəribə burasıydı ki, Qulam Əliyev yığışıb İrana getdiyindən onun qadını Anyutka öz ərinin dini bayram-

larını müntəzəm bir surətdə icra edərdi. Mən özüm həmən qadının məhərrəmlikdə iranlıların təkiyəsinə çay alıb göndərdiyi və mollaya pul verməyini gördüm.

Saritsin şəhəri işçi şəhəridir. Burada taxta zavodları, mıx zavodu, dəmir əridən zavod və top zavodu, çuğun zavodu və sairləri vardır. Mən burada olduğum vaxt işçilərin həyatı ilə çox maraqlanırdım. İşçiləri yaxından görmək üçün «Fransuzski» zavoda gedirdim. Bu zavod «Ruskifransuzski» adlı şirkətin idi. Top zavodu bundan bir az yuxarı idi. Bu iki zavodun ətrafında 30 minə qədər işçi ailəsi yaşayırdı. Bu ailə çırım-çılpaq və dilənçi halında idilər. Ehtiyac bunları əxlaq pozğunluqlarının ən yuxarı dərəcəsinə qədər vardırmışdı. Bundan əyləncə yerləri, çayxanalar, şantalar həman zavodların ətrafında yerləşərək işçi ailələrindən idi. Saritsin pasajında xəmir satan Aniçka adlı qadın ev qulluqçusu lazım olan adamlara həmən bu ailələrin qızların da satardı. Ara-sıra ailə başçıları da gəlib öz qızlarını təklif edirdilər. Hümmət adlı bir nəfər meyvəçinin Tonya adlı bir qızı öz qardaşından 10 manata aldığını gördüm.

Müharibə zamanında əxlaqsızlıq və səfalət daha artdı. Kəndli qızları da işçi qızlara və işçi qadınlarına qoşuldu. Hökumət bu kimi işlərin qarşısını almaq deyil, əxlaqsızlığı müntəzəm bir şəklə salmağa çalışırdı.

Saritsində rus dinini qəbul edən bir çox iranlılara də təsadüf etdim. Bunlardan ən məşhuru ərdəbilli Abdin kişi idi.

Abdin kişi Saritsin ilə Kaminin arasında Dubovka adlı kiçik bir şəhərdə rus dilini qəbul etmişdi. Adı Mixail idi. Volqa ruslarının arasında çox hörməti var idi. Böyük xaçını həmişə üstdən salardı. Bu da yeni ruslar arasında adət idi. Abdin kişinin əvvəlki qadını Ərdəbildə qalmışdı. Onun Həsənqulu adlı oğlu dalısınca gəlmişdi. Gələn kimi adını Simyon Mixailoviç qoyub rus olmuşdu. Nə özü, nə də atası müsəlmanlara yaxın gəlməzdi.

Bir neçə kərə Ərdəbil müsəlmanları onu döymüşdülər. Bunun üstündə yerli hökumət bir neçə müsəlmanı həbs etmişdi.

Abdin kişi zatən çox şərarət bir adam idi. Dəfələrlə: «Müsəlmanlar mənim xaçımı söydü» - deyə hökumətə ərizə vermişdi. Abdin kişinin Dubovkada evləndiyi və bundan ötrü rus dinini qəbul etdiyi qadınından da bir oğlu olmuşdu. Bunun adı İvan idi. Nədənsə bu oğlan özü hiss edən kimi atasından ayrılıb müsəlmanlara qoşulmuşdu. Son vaxtlar o, adını dəyişib Əli qoymuşdu. Pasportu İran pasportu idi.

Hamamların intizar salonlarında fahişəliyə gələn səfillər üçün tualet otelləri açmışdılar. Kəndli və işçi qızları kirayə ilə müvəqqəti paltar verən müəssisədə təşkil etmişdilər. Qızlar, qadınlar hər gün cındır paltarda ha-

mamın içərisinə gəlir, orada ikən paltar geyinir, bəzənir, qiymətli tuflilər, şlyapalar taxır və özünü gələn qonaqların rəğbət edəcəyi bir şəklə salırdı. Axşamlar hamamlar qapandıqda yenə də yeni paltarlarını töküb cındır paltarlarla bayıra çıxırdı. Nizamsızlıq baş verməsin deyə hamamların hər birisində qaradovoylar dururdu. Onlar da ehtiyac üçün özlərini satanlardan çay parası alır və istifadə edirdi.

Fevral inqilabının gecəsi cəbhədən müvəqqəti olaraq Saritsinə qayıtmış soldatların zabitləri köhnə Saritsindəki fahişəxanalara hücum edib dağıtdıqda oradakı 950 nəfər qadını can köynəklərinə qəbər soyub soyuq küçələrə buraxmışdılar. Bunlar tamamilə zavod ətrafında acından inləyən ailələrin qızları və dul qadınları idi.

Kerenski hökuməti vaxtında bu səfalətin qarşısını almaq üçün qadın batalyonları düzəltdilər. Bu isə baş vermədə olan aclıq nəticəsində olaraq artmağa başlayan səfillər dəstəsinin sayını azalda bilməzdi. Yersiz qadınların əlindən gecə qapıları açıq qoymaq olmurdu. Dəstələrlə evə soxulurdular.

Bolşevizm hökuməti Saritsində başqa şəhərlərə nisbətən çox tez başladı. Menşeviklərin çıxışlarına cavab olaraq bolşeviklər gecə ilə bütün idarələri tutdular. 10-cu ordunun 145-ci alayı bolşeviklərin tərəfində olduğundan menşeviklər əzildi və kütlələr Mininin ətrafına toplandı.

Adını yuxarıda yazdığım tatar mollası Mürtəzim bolşevik hərəkatına böyük xidmət göstərirdi. 10-cu orduda 30 minə qədər tatar əsgərləri mövcud olub və Mürtəzim bunlar arasında böyük hörmətə malik olduğundan 10-cu ordu tamamilə bolşevikləşdi. Mürtəzim 10-cu ordunun müsəlman hissəsinin siyasi şöbəsi rəisi təyin olundu. Mən Mürtəzim ilə çar vaxtında cəmiyyəti xeyriyyədə işlədiyim vaxtlarda tanış olmuşdum. O məni siyasi şöbədə işləməyə dəvət etdi. Ədəbi işçi sifəti ilə siyasi şöbədə işə daxil olmuşdum. Qəzet işlərini təşkil etmək istərkən Astraxandan bir məktub aldım. Bu vaxtlar Bakıda mart hadisəsi baş vermişdi. Bakı kommunaları həbs edilib Türkistandan aparıldıqdan sonra qalanları Astraxana gəlmişdi. Astraxanda Hümmət təşkilatı və onun orqanı olan «Hümmət» qəzetəsi nəşr olunurdu. Bundan əlavə «Zaqafqaziya» komissariatı adında bir idarə düzəlmişdi. Mən Astraxandan aldığım məktub haqqında Mürtəzimə danışdım. O, icazə vermək istəmədi. Saritsin hər tərəfdən mühasirə içində idi. Ağ generallar növbətlə öz gücünü Saritsinin başında sınayırdı. Mən Saritsindən çıxdığım vaxt bahar idi. 19-cu ilin baharı vətəndaş müharibəsinin ən dəhşətli vaxtı idi. Saritsin ətrafında 3 minə qədər at ölüsü düşmüşdü. İstilər başladığından bu cəmdəkləri basdırmaq lazım idi. Saritsından heç kəsi bayıra buraxmırdılar.

Mən Astraxana getmək üçün siyasi şöbədən vəsiqə aldım. Yalnız

həmin vəsiqələr ilə paraxoda oturacaq idik. Körpüdə 3 gün gözlədik. Paraxod gəlmədi. Yoldaşım xəstələndi. Xəstəliyi pis idi. Astraxana 4-cü gündə gəldik. Yanımızca suxarı və yarım put da un götürmüşdük. Çünki Astraxan Saritsinə nisbətən daha da qıtlıq idi.

## ASTRAXANDA

Astraxan körpüsündə müsafirləri çox müddətli bir surətdə axtarırdılar. Meşokçuları bir yerə yığmışdılar. Mənim də meşokda yarım put unum olduğundan meşokçular arasına düşmüşdüm. Axtardılar, bizim unu da alıb bir tərəfə qoydular. Sonra çamadanı açıb gözdən keçirdilər. Əlyazılarımı və vizit vərəqəmi götürüb baxdılar. Baxanların çoxu matroslar idi. İçlərində tatarlar da çox idi. Şeirlərimi oxudular. Rus matroslarını qandırdılar. Məni çox ehtiramla buraxdılar. Mən yoldaşımı şeylərlə bərabər körpüdə qoyub müsəlman məscidinin yanına gəldim. Orada Ordubad mahalında Ustupu kəndlisi Pirquluya rast gəldim. O, hökumət dükanında çörək satırdı. Yüz qram ağırlığında çörək kəsib mənə bağışladı. Zaqafqaziya işlərinə baxan komissariatı mənə göstərdi. Oradan adam götürüb körpüyə gəldik. Şeylərimizi yığışdırıb molla Zeynalabdin Səfərovun mülkündə bir otağa gəldik. Mən olduğum otaq mənim səmimi dostum Hidayətbəy Əminbəylinin idi. O, həmin otağı mənim üçün hazırlamışdı. O, mənim Astraxana gedəcəyimi bilirdi. Lakin 19-cu ilin mart ayının 12-də Astraxanda ağların üsyanı başlarkən Hidayətbəy öldürüldüyündən onunla görüşmək mənə mümkün olmadı. Astraxan bolşevikləri Hidayətbəyin yaşadığı Ağabababski küçəsinin adını «Əminbəyli» küçəsi qoydular və məscid həyətində dəfn edilən bu səmimi bolşevik üçün böyük abidə qoydular. Abidənin üzərində 20 sətirlik şeiri də mən yazmışdım.

Mən ikinci gün «Hümmət» qəzetəsində işə başladımsa da, çox davam etdirə bilmədim. Ağır bir surətdə xəstələndim. Yoldaşım da tif ilə yatdı. Müalicə üçün Nərimanov gəlirdi. Nərimanov may aylarında Moskvaya çağırıldığından «Hümmət» qəzetəsinin müdir müavini vəzifəsini mən aparır və eyni zamanda da qaçqınların vəsiqə işlərini mənə tapşırmışdılar.

Mən Astraxana gəldikdən bir neçə gün sonra Bunyat Sərdarov və bir neçə başqaları türkmən balıqçı gəmisində Zaqafqaziya səfərinə hazırlanırdı. Mən Sərdarov ilə Saritsində tanış olmuşdum. İsmayılov Əli Cabbar, Bünyat Sərdarov əvvəlcə Saritsinə gəlmişdilər. O vaxt Stalin də Saritsində idi. O vaqonda yaşayırdı. Stalin onların Zaqafqaziyada işləməklərini və Bakı proletariatına rəhbərlik göstərməyi tapşırmışdır.

Mən Astraxanda bir neçə həftələr qaldıqdan sonra «Hümmət» qəzetəsinin məsul müdiri təyin olundum. Mən Astraxana gəldiyimin 10-cu

gündə Ağababski küçədə Məşədibəy Əzizbəyovun adına təntənəli bir qiraətxana və kitabxana açıldı. Burada Nəriman Nərimanov danışdı.

Astraxanda qış çox soyuq keçdi. Şəhər odundan korluq çəkirdi. Şəhərdə həddindən artıq taxta və şalban var idi. Bunları Bakıya vermək və əvəzində neft almaq üçün Astraxana toplamışdılar. Müsavat hökuməti neft verməyə razı olmadığından Kirovun əmri ilə taxtalar odun əvəzinə əhaliyə paylanırdı. Ağ neft yox idi. Köhnə barjları əski ilə silib qablara sıxırdılar. Mən ayda 5 girvənkə neft alırdım. Bu, ən qiymətli bir şey hesab olunurdu. Bu nefti mənə müntəzəm surətdə verirdilər. Biz gecələr gizlin fəaliyyətə gedənlərə pasportlar hazırlayırdıq.

Tam baharın ilk günlərində Dağıstanın Qızıl Ordu tərəfindən alındığı xəbəri Astraxan bolşevikləri arasında ruh yüksəkliyinə səbəb oldu.

Petrovskiyə getmək əmrini aldıq. Paraxodumuzu hərbi gəmilər müşayiət edirdi. Çünki düşmən gəmiləri hələ Kaspi dənizində idi. Dənizdə çox böyük fırtına var idi. Kaspi paraxodu 51 nəfər matroslarla çeçen qabağında qərq olmuşdu. Bunun üçün də biz Reyddə 3 gün məəttəl olduq.

Mən «Hümmət» qəzetəsində işlədiyim zaman Saritsindən Bakıda çıxan «Hümmət» qəzetəsinə göndərdiyim «Bolşevizm və aləmi-İslam» sərlövhəli məqalələrini tamamladım. Bu məqalələri bir kitab şəklinə saldım. Musabəyov və Bağırov yoldaşlara oxudum. Həddindən artıq bəyəndilər. Əsəri 15 min nüsxə çap etdirdim. 11-ci orduda olan tatar əsgərləri arasında payladıq. «Hümmət» ordu qəzetəsi olsa da, onunla yerli müsəlmanlar, xüsusən iranlılar çox maraqlanırdı. Buna görə də yerli, hətta beynəlmiləl məsələlər üçün xüsusi sütunlar ayırmışdıq. İranlıların həyatından da ara-sıra məqalələr və şeirlər buraxırdıq. Bu şeiri «Hümmət» qəzetəsində yazmışdım:

Bir qəm sarayı möhnət imiş təxtigahi-Cəm,
Hər əski uyqusunda durur kişvəri-Əcəm.
Dövri-bərində, parlar ikən nuru-inqilab,
Açmaz gözün, gözündə tülu qılsa afitab.
MəzlumƏcəm,yanar ürəyim qəmli halına,
Mən ağlaram,sən ağlamayırsan zavalına.
Bir ingilis əsirisən, ey əski məmləkət,
Qəmli sükutuna de görüm, varmı bir cəhət?
İranlılar,qalırsa gər əski sifatınız,
Bir inqilab əlindədi qəti nicatınız!
Qorxma, batar o qəhrilə düşmən siyasəti,
Hərbi qiyamə başlasa İran cəmaəti.
Sanma böyükdü düşməniniz, iqtidarı var,
Bir səmtə daim əsməyəcəkdir bu rüzugar.

## PETROVSKİ-TEYMURXANŞURA

Petrovskidə paraxodumuzu qızıl bayraqla qarşıladılar. Bizdə də qızıl bayraqlar var idi. Bütün şəhər görüşdə idi. Molla Zeynalabdin Səfərov bizimlə Astraxandan tanış idi. Petrovskidə ticarət edirdi. Bolşeviklərdən bir çoxunu mənzilində qonaq saxladı. Petrovskiyə Bakıdan da yoldaşlar gəlmişdi. «Hümmət» təşkilatının Kommunist təşkilatı ilə əvəz edilməsi məsələsi burada da həll olundu. 4 gündən sonra Teymurxanşuraya getmək qərarı çıxarıldı. Biz hamımız Teymurxanşuraya köçdük. Səfərov mənə kağız verib Hacı Ələsgərin evində mənzil etməyimizi tapşırmışdı. Düz doğru onun evinə gəldik. Orada bir otaqda yerləşdik. Mənə bir neçə vəzifə tapşırmışdılar. Mən əvvəlcə orada olan mətbəələri götürməyə başlamışdım. Məhəmməd Mirzə Mavriyevin mətbəəsi böyük mətbəə idi. Böyük kitab anbarları var idi. Lakin kitablar tamamilə Quran və dua kitablarından ibarət idi. Bir yəhudinin də kiçik bir mətbəəsi var idi. Onu da götürüb birləşdirdim. Teymurxanşurada daş poliqraf təşkil etdim. Bundan əlavə, bir də ölkə komitəsi məni «Qırmızı Dağıstan» qəzetəsinin məsul müdiri təyin etdi. Qəzetə üçün mən bina tapdım. Başqa şeylərini hazırladım. Qəzetin başlığını da düzəltdirdim. Aprelin 29-da Teymurxanşura küçələrində dalğalanan qızıl bayraqlar Bakının alınması xəbərini verdi. Mən inqilab komitəsinə gəldim. Bakıya gəlmək üçün icazə istədim. Samorski məni buraxmaq istəmirdi. Lakin Cəlal Qorxmazov: «İndiki bizimlə birlikdə çalışmaq istəmir, qoyun getsin. Orada, burada birdir» - dedi və yol məsarifi buraxılmasına əmr etdi. Vaqonun hərəkətinə yarım saat qalırdı. Evə gəldim. Yoldaşım nahara plov bişirmişdi. Qazançanı qarzinkaya qoyub vaqona gətirdim. May ayının 2-də yoldaşımı Bakı stansiyasında şeylərimin yanında qoyub mənzil hazırlamaq üçün şəhəri dolaşdım. Vahabovun evlərində iki otaqdan ibarət mənzil tapdım. O günlər bolşeviklərin orqanı olan «Əxbar» qəzetəsi çıxırdı. Mən Bakıya gələndən iki gün sonra həmin qəzetə müdir müavini təyin olundum.

# QANLI SƏNƏLƏR

***1905-1908-ci illərdə Qafqazda baş verən erməni-müsəlman (azərbaycanlı) davasının tarixi***

# MƏQSƏDİN ƏRZİ

Bu olmuş tarixi vücuda gətirmək üzrə qələmi əlimə aldığım zaman özümdə bir kədər, bir müsibət xatirələri hiss edirəm. Əcaba! Əlimdəki qələm hər zaman qanlı illərdə qəflətən baş verən faciələri yazmaq istəyir, vicdanım da bu ülvi vəzifəni ifa etməkdə qeyri-iradi bir həvəs göstərir. Zəif duyğularıma gəldikdə qanlı illərdə ucalmış fəryad və məzlumların maddi və mənəvi təsirindən irəli gələn, dözülməsi mümkün olmayan bir hala təsadüf edib özünü böylecə davamdan məhrum buraxır.

Hər halda tarixi qələmə almağa cəsarət edib bəşər dünyasının hər nöqtəsinə qəm dağı olan bu sadə əsərimi yaradıb meydana çıxarıram. Daha açıq, daha doğrusu, iki millət arasında baş verən faciələri yazmaqla vətən övladlarına keçmiş müsibətlərdən bir ibrət yadigarı kimi bir parça vətən fəryadnaməsi vücuda gətirdim. O bir olan Allahın köməkliyi ilə iki il müddətində toplanması və yazıya alınması başında çalışdığım bu qiymətli əsərin tamamlanmasına nail oldum. Minlərcə təşəkkür ki, zəif duyğularımın istəyincə olmayaraq şənimdən üstün, qədrimdən artıq olan fəxrə nail olaraq ucalara yüksəldim. Çünki millətimin ən əhəmiyyətli, ən lüzumlu bir xidmətini öhdəmə alıb və ifasında qüsurlu qalmayıb, məncə, ali bir vəzifəni qazandım. Həqiqətdə, mən bu ali və iftixar olunan dərəcəni kəsb etmək qüdrətində deyildim. Həm də qələm və qüdrətində belə mühüm bir vəzifəni ifa üçün bir qabiliyyət, bir bacarıq da yox idi. Məni bu dərəcələrə çatdıran hörmətli müxbirlərimin milli qeyrət hissləri, bir də vicdanımdır, əvət vicdanım! Bütün Qafqaz millətlərinə, istər erməni, istər müsəlman, məlum ola ki, bu tarix hər cür şəxsi və milli qərəzdən uzaq olub. Hər nöqtədə üz vermiş faciə və hadisələri olduğu kimi yazıb oxuculara tam ehtiramla təqdim edəcəkdir. Hər tərəfdən müxbirlər vasitəsilə mənə yetişmiş 245 məktubun hamısı saf-çürük edilmiş, məzmununa xələl yetirilmədən, yalnız tarixin və yazıçının üslubuna müvafiq bir dilə çevrilmişdir. Ermənı və müsəlmanlar burasını da bilməlidirlər ki, hər səmtdə lənətə layiq görülmüş bir sıra çoban-çoluq vuruşması, şəxsi qərəzi yaxud bir neçə nəfərin xüsusi mənfəəti naminə baş vermiş oğurluq və cinayət əməllərinə bu əsərdə qətiyyən yer verilməmişdir. Fəqət, bəzi nöqtələrdə baş vermiş milli hərəkətlər, hər iki tərəfin qalibiyyət və məğlubiyyəti, xəsarət və tələfatı düzgün və qərəzsiz olaraq yazılmışdır. Bunu da hamı bilməlidir ki, dəfələrlə "İrşad" və "Təzə həyat" ("İrşad" qəzeti-gündəlik siyasi, ictimai, ədəbi qəzet. Bakıda Azərbaycan dilində

nəşr olunmuşdur (17 dekabr 1905-25 iyun 1908-ci illərdə). Redaktoru Ə. Ağayev idi. "Təzə həyat"-gündəlik ictimai-siyasi, iqtisadi, ədəbi qəzet. Bakıda "Kaspi" mətbəəsində nəşr edilmişdir (7 aprel 1907-7 oktyabr 1908-ci illərdə). Redaktoru Haşımbəy Vəzirov, naşiri H. Z. Tağıyev olmuşdur) qəzetləri vasitəsi ilə ətraf müxbirlərdən məlumat tələb etdiyim vaxt qərəzsiz və bitərəfnamə bir şəkildə yazmalarını təmənna etmişdim. Yenə, məlumat almaq arzusu ilə mühərrirlərə, qələm sahiblərinə məxsusi məktublar göndərib iğtişaş günlərində məhəlli hökumətin hər iki tərəf barəsindəki rəftarını sormuşdum. Mən çox fəxr edirəm ki, hər cür fitnəkar məqsədlərdən uzaq, hər növ şəxsi qərəzdən kənar olan məktublar alıb bu məcmuədə dərc etdim (Allah hamısından razı olsun!). Ümidvaram Səidin bitərəfanə yazılmış bu sadə və mükəmməl tarixinə müsəlman və ermənilərin hörmətli yazıçıları islah nəzəri ilə yanaşıb, saf ürək, pak qəlb, salim vicdanı ilə qəbul edib, Səidlərini başıuca edəcəklər. Əslində mən yazıçı deyiləm. Fəqət, zərrənin dünyanı işıqlandıran günəşə olan nisbəti qəbilindən möhtərəm yazıçıların arxasınca sürünürəm. Bunu da bütün Qafqaz millətləri bilməlidir: mənim bu əsəri yazmaqdan məqsədim millətimizi məsuliyyətdən qurtarmaq, insanpərvər kimi tanıtmaq, həmçinin erməni qonşuları məsul tutmaq, vəhşi və insaniyyətdən uzaq bir varlıq kimi nişan vermək də deyil. Bəs nədir? Mənim məqsədim müsəlman və ermənilərin iki il ərzində törətdikləri səhv və xətalarını söyləməkdir... Bəlkə, onların və bizim bu xətalardan ötrü təəssüfə layiq bir halda gələcək qarşısında xəcalət çəkəcəyimizi deyib durmaqdır. Burasını da oxucular düşünməlidir ki, mənim ümdə məqsədim müsəlmanların elmsizlik və anlamamazlıq səbəbindən bu bəlalara düşdüyünü deyib, ermənilərin də bir para yazıçıların xam xəyallarına qurban olduqlarını onlara bildirməkdir. Bunu da bilməliyik ki, mənim bu əsərim zahirən büsbütün hadisələr isə də, hər iki millətə mənəvi səmərələr və faydalar verəcəkdir. Ümid ki, hər iki millət öz səhv və xətasını düşünmək üçün, hörmətli erməni yazıçıları bu bitərəfanə olan əsəri rus, yainki erməni dilinə tərcümə edib, vətən övladlarına bir intibah güldəstəsi olaraq əmanət qoyacaqlar. Bu yol ilə əsrlərində bir belə cinayətlərə meydan verəcək bir para kimsələr olarsa, qarşısını almağa çalışacaqlar. Bunların hamısından sonra mən özümə lazım bilirəm ki, müharibələrin baş vermə səbəbini yazıb, hər iki millətin qan intiqamı almaq üçün qəlblərdə bəslədikləri evlər yıxan xəyallarına məhəbbət və qardaşlıq suları səpim. Bu hadisələrin baş verməsi və səbəbi barədə Rusiya və Qafqaz mətbuatı ilə yanaşı, Avropa və Amerika mətbuatı qızğın-qızğın canfəşanlıq etməkdə idilər. Bunu da bilməlidir ki, xarici mətbuat səhifələrində müzakirəyə qoyulmuş məqalələrin hamısı

bir-birinə zidd, təzadlı fikirlərlə qarşı-qarşıya durmaqda idilər. Bunlardan hansının haqlı, hansının haqsız olduğunu deməyə ehtiyac olsa da, hələlik bu kiçik səhifələrdə yerin və vaxtın azlığından təfsilatdan vaz keçib, bu hadisələrə səbəb dörd mühüm cəhəti deməklə kifayətlənəcəyəm. Bu dörd səbəb isə ardıcıllıqlı ərz və bəyan olunacaqdır.

MƏRAMIN İFADƏSİ. Xalqımız Qafqaz hadisələrinin baş verməsini çox səbəblərlə bağlayır. Bu barədə yuxarıda deyildiyi kimi, mətbuat səhifələrində bir çox keşməkeşlər olduğu da gizli qalmamışdır. Ancaq onların hamısını yazmaq imkanına malik deyiləm. Zira, məslək və əqidəmə zidd olduğu kimi, köhnəlmiş dərdləri təzələmək kimi bir nalayiq əməldən də həzər edirəm. Fəqət, məlumat və qüdrətim qədərincə bu iğtişaşlara səbəb dörd şeydir-deyib, isbatdan da geri durmayacağam. Birinci səbəb. Erməni Daşnaksütyun komitəsinin müstəbid bir idarə üsulunu təşkil etdiyidir ki, Qafqazda bir sıra qanlı teatrolar oynadı... Bu sözləri insafı olan erməni və müsəlman inkar etməz, zənnindəyəm. Mənə yetişmiş 245 məktub, Daşnaksütyun partiyasının fəaliyyətinə dair dörd yüzdən artıq məlumatlar yazı stolumun üstündə durur. O qədər ürəkağrıdan və yanıqlı xəbərlərin hamısına bu səhifələrdə yer olmadığından yalnız bir neçəsini göstərməklə kifayətlənirəm.

1. 1905-ci il 18 noyabrda Gəncədə baş vermiş hadisələrdən əvvəl noyabr ayının 8-də daşnaksütyunların müsəlmanları müharibəyə çağırmaq üçün Bəhmənli sakinlərini təqsirsiz və günahsız öldürmələridir. 2. Yenə, Gəncədə bir iranlı biçarənin daşnaksütyunlar tərəfindən öldürülməsidir. 3. Yenə, Gəncədə erməni hissəsi olan Qoşa çinar məhəlləsində Molla Cəlilli sakinlərini daşnaksütyunların gülləbaran etmələridir. 4. Gəncədə Amos Perovun dəyirmanında 12 noyabrda bir müsəlmanın daşnaksütyunlar tərəfindən öldürülməsidir. 5. Qazax uyezdinə general-qubernatorluq edən Levintskinin daşnaksütyun hərəkəti barəsində canişin qraf Voronsov-Daşkov həzrətlərinə vurduğu teleqramıdır ki, 9 mart 54 №-li "Kaspi" qəzetində dərc edilmişdir. Ümid ki, bütün oxucular oxuyub və eşitmişlər. 6. Gəncə hadisələrindən sonra hnçaqist komitəsi ali məqamından edilmiş sülh və barışığın daşnaksütyun tərəfindən pozulmasıdır ki, bunu ermənilər özləri təsdiq etmişlər. Bu əhvalat da Gəncə hadisələrində təfsilatı ilə ərz və bəyan ediləcəkdir. 7. Naxçıvan faciəsinə bir neçə gün qalmış bir nəfər müsəlmanın yerində namaz qıldığı məqamda daşnaksütyunlar tərəfindən şəhid edilməsidir. Müxtəsər, Şuşada, Bakıda, Cəbrayıl və Cavanşir, həmçinin Zəngəzur uyezdlərində daşnaksütyunlardan bir çox cinayətlər peyda olmuşdur ki, məcmuədə ardıcıllıqla ərz və təqdim edildiyindən burada təkrarına lüzum görülmədi.

Bunlardan başqa, erməni Daşnaksütyun partiyası komandanlarının necə qaniçən olduqları barədə Hamazasp, Aram bəy, Murad, Bedo, Ağabəylərin, Baqratların, Soqrad və qeyri-qeyrilərin oynadıqları rollar kifayət edər, zənnindəyik.

2-ci səbəb, məhəlli hökumət məmurlarının müharibə zamanlarında etinasızlığıdır.

Böyük Rusiya inqilabına görə mərkəzi hökumətin başı özünə qarışdığından xırda məmurlar özbaşınalığa üz qoyub erməni-müsəlman iğtişaşlarının sakitləşməsi üçün bir tədbirdə bulunmadılar. Bulundularsa da, ermənilərin terrorları qorxusundan bir tərəfi əldə saxlayıb, digər tərəfə növbənöv vicdansızlıqlar etməkdə idilər. Deməl ki, bir tərəfi əzib qoyduğundan, əzilən camaat qarşı tərəfdən intiqam almaq üçün hər cür təşəbbüslərdə bulunmağa məcbur olurdular. Budur ki, Qafqazın gözəl şəhərləri dağıdılıb yandırılıb, yurdlarımız qan çalasına döndərilirdi. Bunlara şahid Naxçıvan uyezdinin naçalniki Angil kimi vicdansızların fitnəkar hərəkətləridir. Belə ki, yanan atəşləri söndürməyib, əksinə, caniləri bir sıra cinayətlərə sövq edirdi.

Bunları izah üçün bir mübahisə yeri qalmamışdır. Zira, Naxçıvan hadisəsində layiqincə söylənmişdir. Məncə, bunları gizlətmək hər iki millətin istiqbal təşəbbüsünü zaye və xələldar edər. Angil naçalniklərin lənətəlayiq hərəkəti nəticəsində Naxçıvanda ermənilər qəzəbə gəlib məğlub edildi. Məğlub olub da, sonrasında Krılov kimi kazak komandaları kazakları ermənilərlə əlbir edib, müsəlman dükanlarını yandırmaqla müsəlmanları canlarından əziz olan mallarına məhrum və naümid etdi.

Bunları isə gizlətmək peyğəmbərimizin lənətinə giriftar olmaq kimi Allaha xoş gəlməyən bir işdir, zənnindəyəm və bunlardan əlavə general Qalaşçapovun Şuşadakı hərəkətləri üstdə dediyim sözlərə gözəl sübutdur. Müxtəsər, bunları ətraflı yazmaq üçün çox vaxt lazım olduğundan oxucularımızın bunları nəzərə alacağı zənnindəyəm.

3-cü səbəb və iğtişaşa gəldikdə, müsəlmanların elmsizliyi və müasir işlərdən bixəbər olmalarıdır. Müsəlmanlar elm və siyasətdən bixəbər olduqlarından hökumət məmurlarının Qafqazda tutduğu əqidəsini və ermənilərin o əqidədən necə istifadə etdiklərini düşünmədilər. Bakı faciəsindən sonra erməni-müsəlman hadisələrinin bu qədər uzanmasına səbəb müsəlmanların elmsizliyidir, digər bir cəhət var isə, o da müsəlmanların silahsız və müasir işlərdən xəbərsizliyidir. Burasını düşünməliyik ki, ermənilər Bakıda müsəlmanları yoxlamaq üçün öz əsgərlərinə müəyyən işarə verdilər. O vaxt müsəlman camaatı hazırlıq görüb ayıq tərpənsəydilər, erməniləri bir oyanışa, bir tənbihə uğratsa idilər, Qafqaz faciələrinə

büsbütün son qoyular, müsəlmanların da təbii şücaət və rəşadəti onlara məlum olardı. Əvvəlinci faciələrdə ermənilərin bütün Qafqazı işğal altına alacaq qədərində əsgərləri yox idi. Ermənilər yalnız hiylə və siyasətlə iş tutub bir ovuc könüllü əsgərlərlə müsəlmanların qüvvəsini əzmək istəyirdilər. Belə ki, Bakıda sülh edib müsəlmanları yatırtmaqla Şuşada müharibəyə başlayır. Şuşada sülh edib Gəncə quberniyasının sair yerlərini yandırmağa və dağıtmağa təşəbbüs edirdilər. Müsəlmanlar isə əvvəlcə bunları bilməyib sonralar gözlərini açdılarsa da, ermənilər Türkiyədən və İrandan əsgər yığıb müsəlmanları əzməyə çalışırdılar. Bunları isbat üçün Ovçu-Şəbadək hərb meydanında tapılan iki erməni cənazəsi kifayət edər ki, hər birindən bir məktub çıxmaqla biri Türkiyəli, digəri isə İranlı olduğu meydana çıxdı. Bəli, mətləbə qayıdalım, müsəlmanların elmsizliyi bu iğtişaşlara üçüncü səbəbdir, demək olar.

Dördüncü səbəbə gəldikdə ermənilərin avtonomiya-idarə muxtariyyəti həvəsində olmalarıdır. Bu səbəbiyyəti isbat üçün qələmə bir o qədər güc sərf etmək lazım deyil. Zira, ermənilərin hər aybaşı Londona, Parisə, Amerikaya qaçıb ərzi-hal etmələri bunlara kamil bir sübutdur. İngiltərənin verdiyi proqrama uyğun olaraq Türkiyədə muxtariyyət idarə həvəsində bir xeyli çalışdılar. Nəhayət, erməni qırğını Sasun, Zeytun, Van faciələri (Sasun, Zeytun, Van faciələri-Zeytun (1862, 1878 və 1884), Sasun (1880), Van (1886) Türkiyədə vilayət adlarıdır. Göstərilən illərdə bu vilayətlərdə erməni separatist silahlı çıxışları baş vermişdir) düşəndən sonra İngiltərəyə bir də müraciət etməyə məcbur oldular. İngiltərə isə son dəfə olaraq "Britaniyanın hərbi gəmiləri Türkiyənin Anadolu dağlarında cövlandan acizdir, nə yapayım",-deməklə erməniləri Türkiyədə idarə muxtariyyəti həvəsindən bir növ düşürdü. İngiltərədən naümid olan ermənilər qırğından sonra Katalikos Mkrtıç cənablarını Berlinə, yəni Almaniyaya göndərməyə məcbur oldular. Mkrtıç cənabları Almaniya kabinəsindən "indi qılınc zamanıdır" sifarişini ermənilərə yetirən kimi ermənilər Türkiyədə münəzzəm bir Daşnaksütyun partiyası təşkil və tənzim etdilər. Türkiyə hökuməti isə gözünü bərəldib dörd gözilə bu işlərə baxdığından Mkrtıç cənablarını İstanbuldan Qüdsi-Şərifə qovub Daşnaksütyun partiyasının da rəvacına əsla meydan vermədi (necə ki, ermənilər Tiflisdə erməni-müsəlman sülh məclisində daşnaksütyun partiyası barəsində lazımınca məlumat vermişdilər). Ermənilər Türkiyədə onların təzə partiyalarının rəvacını qeyri-qabil gördükdən sonra Qafqaza göz dikərək qədim əsrdən İranın bijənləri (Bijən-Firdovsinin "Şahnamə" əsərində pəhləvan surətlərindən birinin adıdır. Müəllif demək istəyir ki, "İranın mərd oğulları tərəfindən qovulmuşlar") tərəfindən təxrib edilmiş Ermənistanı diriltmək həvəsinə

düşdülər. Buna şahid 1878-ci ildə baş verən Qars müharibəsində şücaət göstərən erməni polkovniki Lorus-Məlikovun Eçmiədzin yaxınlığında olan Ani xərabəsini dövlətdən tələb etmək kimi əsassız xəyalıdır. Bunların banisi və göstəriş verəni isə erməni yazıçısı Arsruni cənabları idi. Bu cənab Türkiyə şəraitinə baxıb, işin çətinə düşdüyünü görüb, erməniləri Qafqaza daşımağı məsləhət görmüşdü. Erməniləri Qafqaza daşıyandan sonra Arsruninin ömrü vəfa etməyərək, bu aralarda vəfat etdiyindən, əvvəlinci Dövlət Duması vəkillərindən Bahadurov cənablarını yerinə naib qoymuşdu. Bu cənab hər halda bir fürsət axtarırdı ki, Arsruni dünyadan gedəndə ona verilmiş göstərişə-təlimata itaət etsin, axırda erməni-müsəlman qırğınını salsın. Salıb da Dövlət Dumasına vəkil seçildi. Bu cənab Peterburqa yollandığı zaman ustadının verdiyi göstərişi-təlimatı özü ilə aparıb dumada elan etmək istədi. Belə ki, erməni və müsəlmanı müharibə səbəbinə bir-birindən ayırmaq niyyəti ilə Bakı quberniyasını və Gəncə quberniyasının aran yerlərini müsəlmanlara verib, İrəvan quberniyasını, Gəncə quberniyasının yaylaq və dağbasar ölkələrini ermənilərə verib, bunları da Qars sancağı ilə birləşdirib Erməni səltənəti təşkil etmək idi. Ermənilərin çoxdan bəri bu xəyalda olduğuna bu dəlalət edə bilər ki, Qars camaatına "Rusiya sizlərdən əsgər tutacaq"-deyib qorxutmaqla onları ölkənin başqa yerlərinə hicrat etdirirdilər. Yenə, Qafqazda şiəməzhəb müsəlmanlara məsləhət görürdülər ki, köçüb İrana getsinlər. Müxtəsər, bu tövr ilə ermənilər tədarük görüb öz milli istəklərinə yetişmək üçün bir çox təlaş edərdilər. Belə ki, hər təşəbbüsdən sonra Bakı faciəsinə girişdilər ki, Arsruninin vəsiyyətinə əməl edib, müsəlmanları təzyiq ilə baba yurdlarından qovub, yerlərində səltənət qursunlar. Bunlardan məlum olur ki, iğtişaşın dördüncü səbəbi ermənilərin avtonomiya-idarə muxtariyyəti kimi əsassız olan xəyallarıdır. Arsruni cənablarının ruhu məndən inciməsin, yenə qoca bir yazıçı olduğundan, hörməti biz kimi acizlərə vacib və bəlkə lazımdır.

Pak ruhu şad olsun!

**Məmməd SƏİD**

## QANLI BAKI FACİƏLƏRİ HAQQINDA

*1905-ci ilin 6 fevralında qəflətən baş verən və hər iki millətin tarixinə qara bir peşmançılıq səhifəsi olan Bakı faciəsinə dair qələmə alınmışdır*

**Məqsədin ərzi.** Müqəddimədə söylədiyimiz kimi, hər hansı xəyala uymuşdularsa, ermənilər müsəlmanlar əleyhinə qiyam fikrinə düşüb müxtəlif təşəbbüslərdə bulunurdular. Onlar hər tərəfdə müsəlmanları sıxışdırmaq, acı-acı sözlərlə münasibətləri kəsmək kimi ürək sıxan rəftarlara başlamışdılar. Müsəlmanlar isə işin axırını çox böyük bir hüznlə xatırlayıb, ancaq əsas müdafiəni əldən buraxmayıb ayıq dolanırdılar. Məhəlli hökumət isə bir sıra yüngül cinayətlərlə baş girləsə də, belə mühüm işlərin qabağını almaq kimi əməllərdən uzaq idi. Bundan anlaşılır ki, bir-birindən dostluq əlaqəsini kəsmiş hər iki millət bir-birinə qarşı buraxılmışdı. Bu vaxt ermənilər artıq müsəlmanları sıxışdırmağa başlamışdılar. Ermənilərin bir qismi iğtişaşı alqışlamırdılarsa da, güclü və nüfuzlu tərəfi iğtişaşın bu gün baş verməsini sabahdan münasib sayırdı. Halbuki, bu halı istəyənlər partiya komitələri olduğundan sözləri təsirsiz deyildi. Necə ki, elə də oldu. Olub da, fevral ayının 2-də Ağarza adlı bir müsəlman Quba meydanı adlanan yerdə erməni komitəsi tərəfindən öldürüldü. İslamlara təsir edən belə bir faciə baş verdikdə, daha açıq desək, müsəlmanlar milli heysiyyətlərini təhqir olunmuş görüncə, təsəvvür edin, müsəlman könüllülərini saxlamaq olarmı?! Belə-belə işlər müsəlmanları son dərəcə qəmgin edib çaşdırdığı halda müsəlman başçılarından intiqam üçün hökm verilmədi. Nəhayət, istintaq və ya sair bir iş üçün aparılan müsəlman məhbusu yolda erməni soldatı tərəfindən günahsız öldürülüb, müsəlmanlar daha da dağdar edilir. Bu vaxt dünyamızı qan dəryasına sövq edən fevral ayının altısıydı. Bu gün elə bir gün idi ki, ermənilər araya qarışıqlıq salmaq istədikləri halda, müsəlmanlar buna məəttəl qalmışdılar. Beş dəqiqə sonra bir-birindən münasibəti kəsib, bir-birinin qətlinə çalışan hər iki mehriban qonşu artıq bir-biri ilə ehtiyatla dolanırdılar. Nəhayət, süni və çoxdan bəri hər iki millətin zatına qondarılmış iğtişaş bombası partladı və bütün qafqaz aləmi bu bombanın təsir şiddətindən yanıb yaxıldı, deyilsə daha düz olar. Görəsən o partlayıcı maddə həqiqətdə bomba imiş?Bəli, bu bomba altısında baş verən Bakı faciəsidir ki, bütün Qafqaza buradan atəş açıldı. Bu gün hər tərəfdə, yəni Bakının bütün sahələrində iğtişaş gözlənirdi. Babayev adlı bir müsəlmanın ölmək xəbəri

yayılandan sonra müsəlmanlar da açıq-açığa hərbə qalxaraq ermənilərə yürüş etdilər. Dördüncü sahədə də atışma başlanıb tərəflər bir-birini heyrətli dərəcədə bombardıman edirdi. Ermənilər tam ciddiyyətlə işə başlamışdılar. Babayev adlı müsəlmanın qətlindən yarım saat sonra Vrornovski küçədə konka konduktoru Artyom Şinkov öldürüldü, Tsitsiyanovski və Çadrovi küçədə bir naməlum rus naməlum şəxslər tərəfindən qana boyanıb yerə sərilir. Bu adamlar öldükdən sonra bütün sahələrdə tam şiddətlə atışma başlanıb, aramsız olaraq hər iki tərəfdən döyüş silahlarına əl atılmışdı. Həmən gün və gecəsi şəhərdə böyük gurultu-şıqqıltılar zahir olurdu. Gecə sübhə kimi şəhərdə atışma səsi var idi ki, səhər tezdən küçələrdə öldürülmüş 13 nəfər azarxanaya aparıldı. Fevralın 7-də yenə hər tərəfdə atışma başlanıb, ermənilər ümumi hərbi qiyama başladıqlarından müsəlmanlar da açıq-açığına tüfəng-tapança götürüb, hərbə girişməkdə idilər. Ermənilər bu halda müsəlmanların hücumuna davam gətirə bilməyərək qaçmaqda və evlərinə pənah aparmaqda idilər. Damlardan, pəncərələrdən müsəlmanların və gəlib keçən bütün tayfaların üzərinə ardı-arası kəsilmədən atəş açılırdı. Krasilnikovların evlərindən, Madrid mehmanxanasından və Krasilnikovların o biri evlərindən ki, Bazar və Qubernski küçələrinin küncündədir, böyük atəş açılırdı. Mayılovun və Korsakovun evlərindən və Məlikovun evindən ki, hamam da ordadır, müsəlmanların qarşısına vahiməli atəş açılmışdır və yenə Tağıyevin evinin yuxarı mərtəbəsindən gəlib-gedən camaata fərq qoyulmadan güllə atılırdı. Bu vaxtda Bakının və zavodların elə bir yeri qalmamışdı ki, iğtişaş sirayət etməsin. Ümum camaat bir-birinə qarışıb silah işlətməkdə idi. Övrətlər uşağın əlindən tutaraq o tərəf-bu tərəfə qaçırmışlar. Ancaq heç bir tərəfdən aman tapmayıb sərkərdən qaçırdılar. Bu vaxtlar Balaxanıda böyük vuruşma və yanğın düşüb. Müsəlmanların dil bilənləri erməniləri hifz edirdilər. Həmin gün elə bir gün idi ki, küçələrdən əlli nəfərə qədər erməni ölüsü yığıldı. Müsəlmanlara gəldikdə yaralı və ölüləri daşıyıb öz evlərinə aparırdılar. İğtişaş nəticəsində müsəlmanların bir çoxunun imarətləri və mağazaları dağıdıldı və qarət edildi. Ermənilərdən isə Minas simonov, Muqdusi Oqanesyans, Ayrapetyans qardaşlarının və başqalarının dükanları qarət edildi. Bu dükanların qarətin dayandırmaq üçün polis qulluqçularının əlində lazımınca müdafiə aləti olmadığından onları qarətçilərdən qorumaq mümkün olmadı. Yəni qarətə son vermək mümkün və imkan daxilində deyildi. Zira, qarətçilərin çoxu, müsəlmandan-İran fəhləsi, ermənidən isə Türkiyədən gəlmə daşnaksütyun və sair könüllülər idi. Buna görə də bu qarətçilərin əməlinə son vermək olmaz idi. Fevralın yeddisində, yəni müharibənin şiddətli zamanında iyirmi nəfər kazak

abxoda çıxıb, hər on nəfəri bir dəstə olaraq, birisi şamaxinskidə, digəri Bazarda idi. Atışmanın şiddətli vaxtı xidmət halından məhrum və aciz qalan pristavlar bu kazaklardan kömək tələb etsələr də az olduqlarına görə onlardan "kömək edə bilmərik" cavabını alırdılar. Saat on iki radələrində şəhərin halı təhlükəli bir vəziyyət almışdı. Müsəlmanların könüllü cavanları çox cəsarətlə ermənilərə və onların nizami soldatlarına qarşı dururdular. Müsəlman başçılarına gəldikdə erməniləri yeri düşdükcə hifz və himayət edirdilər. Bu əsnada hökumət tərəfindən hər tərəfə on nəfər olmaqla dəstə ilə soldat göndərilirdi ki, bu da bir boş xəyal imiş. Zira, on minlərcə müharibə edəni bir-birindən ayırmaq üçün on deyil, minlərcə soldat və ciddi surətdə çalışan komandalar lazım idi. Sakitliyi bərpa etməyə əmr alan dəstələrdən Salyan polkunun podpolkovniki Kuzminskinin komandası altında on iki nəfər soldat saat on birdə şeypur-balaban ilə çıxsa da, camaat bir az dağılır, fəqət onlar keçib gedəndən sonra yenə qarət fəqətlə davam edirdilər. Bir sahənin pristavı şəxsən polkovnikin yanına gedərək "əmr veriniz soldatlar bir neçə atəş açıb camaatı hədə ilə dağıtsın" dedikdə, "sizə borc deyil biz öz qulluğumuzu yaxşı bilirik" cavabını almışdı. Söz yoxdur ki, pristavlar kimi, atəşin şiddətlə getdiyi məhəllədə vəzifədə olan şəxslər də elə cavab aldıqda xidməti boşlayıb güllə düşməyən bir yerə gedəcəkdir. Necə ki, belə də olurdu. Deyilənlərdən məlum olur ki, iki qanlı camaat bir-birinin öhdəsinə buraxılmışdı. Amma burasını da deməliyik ki, müsəlmanlar insafı əldən buraxmayaraq hər tərəfdə erməniləri hifz edir, evlərində saxlayıb yemək-içməklərini verirdilər. Krasnovodsk və Suraxanski küçələrində, kilsənin küncündə və Bolşaya Morskaya küçəsində müharibə tam şiddətlə davam edirdi. Bu küçədə müsəlmanlar bir çox erməniləri hifz etdilər, o cümlədən yüz doxsan beş nömrəli evdə Akim İsaeviçin ailəsi və özü hifz olunub, qətl-qarətdən kənar qalmışdılar, mühafizəçi müsəlman isə Ağakişi Əliyev və Əliyevin qardaşı Hüseynqulu Kərbəlayı Abdulla oğlu idi. Bu barədə ermənilərin özləri məktub vasitəsilə razılıq etmişlər ki, imzaları aşağıda göstərilir: Mikayıl Artyomyans, Babacanov, Sarkis Minayeviç Ovanesov. Müharibənin ən şiddətli getdiyi yerlərdən biri Malakan bağının ətrafı idi. Orada da bir çox erməni hifz edilmişdi. Ağadadaş Vəliyevin evində Arşak Durniyans adlı bir erməni iki nəfər gimnaziyada oxuyan çocuqları ilə hifz olunub yemək-içmək verilmişdir. Həmin erməni ailəsi öz qonşusu Hüseynqulu Mahmudov və Məşədi Hənifə Cəfərov tərəfindən mühafizə edilmişdi. Qeyd olunmalı hal burasıdır ki, həmin məhəllədə olan ərsiz, sahibsiz müsəlman övrətləri dəstələrin qarşısına çıxıb qonşu ermənilərin əmlak və canlarını hifzə çalışırmışlar. Arşak Durniyans bu barədə razılıq

məktubu da yazmışdır. Məktubun tarixi 19 fevral 1905-ci il idi.

Bu qanlı günlərdə altı fevraldan başlayıb Stepan Avetisov, Arzumanovlar və başqaları hifz olundular. Bir müsəlmanın evindəcə ki, əvvəlinci müharibədə əmisi oğlu Ağarza Babayev ermənilər əlində öldürülmüş, vaqiədə islamiyyətin şan-şöhrət, insaf və mürvətini aləmə bildirmişdir. Baxınız, əmisi oğlu erməni əlində vəhşicəsinə öldürülür, özü isə bir çox ermənini mühafizə edib, Davud Oxanesovun bütün ailəsini və tamam o evdə olan kirayənişinləri yeməklə doyurub, qətl-qarətdən xatircəm edir. Yaşasın insaflı qardaşlarım! Yaşasın ki, islamın şan və əzəmətini aləmlərə bildirmişlər. Küçələrdə o tərəf bu tərəflərdə qan tökən ermənilər isə əli keçən əlsiz-ayaqsız müsəlmanları qırıb-kəsməkdə idilər. Müsəlman övrətləri o tərəf, bu tərəfdə erməni qorxusundan titrəyib, çocuğunu unudurdu. Fəqət yenə bu əzəmətli bacılar kişilərinə qoşulub min il bir vətəndə yaşadıqları erməniləri himayət edirdilər. Buna şahid üç nəfər müsəlman övrətinin əlli nəfər ermənini hifz etməsidir ki, dörd gün müddəti bunların cümləsini yeməklə doyurmuşdur. Razılığı imza edən Qaraxanyans adlı bir ermənidir ki, məktubu yazı stolunun üstündə əmanət saxlanmışdır. Yaşasın ismətli və mürüvvətli analarım. Yaşayıb da insaflı çocuqlar tərbiyə etsinlər. Fevralın səkkizi gecəsi məmuriyyət və şöhrətlə məşhur olan Bakı şəhəri cəhənnəmə çevrilib bir tərəfdən bombaların partlaması, digər tərəfdən uca və ali imarətlərin yanıb vulkanlara bənzəməsi, bir tərəfdən neft zavodlarının, budkaların yanğısından səmayə qalxan alovlar insanı çaşdırıb qoyurdu. Bu gecə, hər tərəfdən mühafizəçi qoşun dəstələri götürülüb şəhər mühafizəsiz qalmışdı. Şəhər içində qarətçilər və bir də xələflərinin bihud qana qərq olmalarını görüb axirətdən Bakı şəhərinə tökülmüş ruhlar idilər ki, bizim belə halımızı görüb lənət oxuya-oxuya yerlərinə qayıtmaq arzusunda idilər. Bu gecə vəhşilər qətl-qarətə əl açıb bir çox müəssisələr və fabrikaları yandırıb dağıtdılar. Ən başlıca qarət Tsitsiyanovski və Qubernski küçələrində başlanıb hər iki tərəfə böyük xəsarətlər yetirildi. Fevralın səkkizində hər tərəfdə qətl-qarət davam edirdi. Necə ki, Mirzə Aramyansın mağazininin əşyaları qarətçilərdən alınıb arabalarla polis idarəsində mühafizə olunmaq üçün aparılırdı. Saat ona yaxın Suraxanski, Voronsovski küçələrində Aslanovun evinə tökülüb üç-dörd ev dağıdıb talan etmək istədilərsə də, mühafizəçilər tərəfindən mane və müdafiə edildi. Yuxarıda qeyd edilmiş küçələrin küncündə və bulvarlarda qarət tam şiddətdə davam edirdi. Gecə qaranlıq düşdükdə həman evləri qarətdən sonra yandırmağa başlasalar da, qaradovoylar sandığı atəşli halda aşağı atıb söndürürlər. Bu vaxt Suraxanski küçədə bir müsəlmanın evi faciəli surətdə qarət olunur və

yandırılır.

Bu islam evi ermənilərlə dolu olub ki, hamısı qətl-qarətə məşğul imişlər. Bu barədə dördüncü sahənin pristavı lazımi yerinə mümkün olan məlumatı vermişdir.

Ermənilər isə bu tərəflərdə müsəlmanları şiddətli surətdə bombardman edirdilər. Bu halətə heç kəs davam gətirə bilmirdi. Necə ki, bütün qoşun dəstələri də atəşin şiddətindən davam gətirə bilməyib hamısı qaçmağa üz qoydu.

Atışma getdikcə daha da artdığından iki nəfər müsəlman məzlum surətdə qətl edildilər. Həmin bu vaxtda pristavlar polismeysterin tərəfindən məmur olub Dağıstan polkunun bir dəstəsi ilə yanğın komandasına köməkdə bulunacaq idi. Yanğın dəstəsi təşəbbüsdə bir az təxir etdiyindən dördüncü sahənin pristavı bir dəstə qoşun götürüb Aslanovun evinin həyətinə daxil olur. Pristav və qoşun əhli evə daxil olar-olmaz naməlum şəxslər tərəfindən ev şiddətlə atəşə tutulur. Pristav cənabları heç bir tədbir görmədən qoşun dəstəsini götürüb öz yerinə qayıtmağa məcbur olur. Qaranlıq düşdüyündən fərq qoyulmadan erməni və müsəlman əmlakı və əşyası ya qarət və talan olunur, ya da yandırılırdı. Bu gün Bakının halı elə təhlükəli, elə qarışıq idi ki, atışmanın, yanan imarətlərin, alovun şiddətli təsirindən öldürülmüşləri heç bir tərəfdən yığmaq, yaralıları azarxanaya aparmaq mümkün deyildi.

Bu növ ilə Bakının hər tərəfində şiddətli qətl-qarət və atışma başlanıb ayın 10-a qədər ardı-arası kəsilmədən cinayətlər baş verirdi. Balaxanıda neft zavodlarında iğtişaş hökmfərma olub yanğı əməli də şiddət tapmaqda idi. Ancaq Balaxanıda iğtişaşda iştirak edən bir çox ermənilər olub, bir çox da müsəlman fəhlələri hərbə, qətl-qarətə başlamaq istərdilər. Fəqət, müsəlman başçıları iğtişaşın qabağını alıb, erməniləri və sair millətdən olan fəhlələri hifz və himayədar idi.

Müsəlmanların bu insaflı rəftarından razılığa dair bir çox məktublar əlimizə gəlib çatsa da, bunların cümləsini Ronot cəmiyyətinin fəhlələrindən gələn razılıq məktubları bir daha təsdiq edir. Bu fəhlələri mühafizə edən zatların bir neçəsinin isimləri aşağıda yazılır: Hacı Nəcəfqulu İbrahimov, Ağa Sultanəli Haşımov, Əbdüləli Babayev, Hacıyev qardaşları, Məşədi Qulu Ağaməhəmməd oğlu, Məşədi Ağahüseyn Molla Həsən oğlu, Hacı Fətəli, Ağaəli və başqalarıdır ki, hamısının adları qaralamada qeyd olunub. Razılıq məktubunun imza edən, ümumən, Rono cəmiyyətinin fəhlələridir. Əlimizə çatan məlumatlara əsasən müsəlmanlar Bakıda erməniləri mühafizə etməsəydi, üç minə qədər ermənin qana qəltan olması yəqin idi.

Müharibə fevralın 6-dan 10-a qədər tam şiddətlə davam etdiyindən erməni və müsəlmandan tələfat min nəfər olmasa da, mal və zəruri əmlaka dəyən zərər milyonları keçməkdə idi. Hökumət bu mərəkələri sakitləşdirməyə çıxdısa da, elə bir ciddi iş görmədiyi hamımıza məlum və aydındır.

Bakıda olan bütün əhvalatı bu yerə, yəni bu səhifələrə çıxarmağa gücüm çatsa da, hər iki milləti belə vəhşi hərəkətlərdən xəbərdar etməmək niyyəti ilə bundan artıq məlumat verməyi lazım bilmədim.

Yuxarıda verilmiş məlumatlardan anlaşılır ki, ermənilər büsbütün Bakıda məğlub olub fəlakətə uğramışlar. Digər tərəfdən ermənilərin əvvəlki təşəbbüs və tədarüklərinə baxdıqda belə bu məğlubiyyətə ermənilərin özləri səbəb olmuşlar. Belə ki, müharibədən qabaq bir sıra xırda-para işlərlə müsəlmanları duyuq salıb özlərinin nə xəyalda olduğunu layiqincə islamlara bildirdilər. Müsəlmanlar da ermənilərin bu fikrini başa düşüb özlərinin mühafizəsi qayğısına qalıblar...

Hərgah ermənilər bu müharibəni müsəlmanların xəbərsizliyi əsnasında açmış olsaydılar, o vaxt müsəlmanlara min yox, on minlərlə tələfat verə bilərdilər. Ancaq burasını da deyək ki, Bakı müsəlmanları ciddiyyətlə iğtişaşda iştirak etməyərək, düşdükcə mühafizəçi olurdular. Bunları isbat üçün bir çox məktublar vardır. Amma yuxarıda bir neçə yerdə məlumat verdiyimizdən, burada təkrara lüzum görülmədi. Ümid ki, bundan sonra bu iki millətin bir-birinə məhəbbət və sədaqətindən başqa bir xəyalı qalmamışdı.

Burasını da söyləyim ki, intiqam üçün tərəflər də bir pis xəyalda qalmayıb, necə ki, əvvəllər yenə bir vətəndə tam asudəlik ilə yaşayıb, sair hüquqlarımızın mühafizəsinə çalışmaqla yenə keçən şan-şöhrəti qazanacağıq.

Bütün bunlardan sonra oxuculara məlum edirəm ki, bu yazımda olan əhvalatı diqqətlə oxusun və rast gəldikləri qüsurlarımı əfv etsinlər.

**Məmməd Səid Ordubadi**

## KƏDƏRLİ NAXÇIVAN HADİSƏLƏRİ

1905-ci ilin may ayının əvvəllərində Bakı erməni-müsəlman toqquşmasından sonra Naxçıvan erməni-müsəlman camaatı artıq həyəcanda idilər. Buna nisbət ermənilər əsla qorxmayıb həmişə müsəlmanlara əziyyət verməkdə idilər. Bir tərəfdən şəhərə belə səs salmışdılar ki, ermənilərdə cürbəcür odlu silahlar olduğundan müsəlmanlara birdən-birə hücum edəcəklər. Ermənilərdə də belə hallar hər dəqiqə gözlənirdi. Hər vəziyyətdə, erməni siyasətin götür-qoy edəndə elə belə də olmalı idi. Zira, ermənilərin

rəyincə, «bizim əlimizin üstündə də Qafqazda gərək əl olmasın" -deyib hər tərəfdə odlu silah və sair hərbi ləvazimat göndərməyə çalışırdılar. O zamana qədər əsla qara-qorxu görməmiş Naxçıvan müsəlmanları gecələr ermənilərin qorxusundan eşiyə, gündüzlər isə uzaqda olan əmlaka da gedə bilməzdilər. Naxçıvanın ətrafı hər tərəfdən erməni kəndləri ilə əhatə olduğundan, 6 saat ərzində İrəvandan istədikləri qədər erməni əsgəri gətirməyə gücləri çatdıqlarından daha müsəlmanları şirin dillə dindirmək belə istəmirdilər.

Naxçıvan şəhəri Sisyan mahalının əhəmiyyətli bir keçidi hər saatda əsgər toplanışına əlverişli olduğundan, ermənilər lazımi qədərində Naxçıvanda milli partiyalardan saxlamışdılar. Erməni əsgərləri əsla dinc oturmayıb, müsəlmanları hər saatda müharibəyə çağırırdılar. Belə ki, may ayının 5-də gündüz saat üç radələrində üç nəfər Cəhri kəndinin sakini-müsəlmanlar Şıxmahmud adlı yerdən keçdikləri vaxt ağır surətdə yaralanırlar. Bu xəbər şəhərə çatdıqda camaat bir az da həyəcana başlayıb, narahat olurlar. Ermənilər bu gündən başlayıb dükanları bağlayıb müsəlmanlara məlum olmadığı halda kilsəyə və evlərinə yığışırdılar. Bu tərz ilə may ayının 7-də Tunbul adlı erməni-müsəlman kəndini keçdikdə bir müsəlmanı vurub öldürürlər (Tunbul kəndi erməni-müsəlman kəndidir. İki hissəsi müsəlman, bir hissəsi ermənidir). Bu yerdən müqayisə olunmalıdır ki, ermənilərdə nə qədər tədarük var imiş ki, bu azlıqda yenə müsəlmanlara qələbə xəyalında idilər. Müsəlmanlara gəldikdə qorxudan qol-qanad aça bilməyərək heyrətdə qalmışdılar. May ayının 8-də İrəvan vitse-qubernatoru Baranovski İrəvanda şəhər qlavası Ağamalov ilə, daha bir ay qabaq Peterburqa getmiş şəhər qlavası Cəfərqulu xan Naxçıvanski ilə Naxçıvana daxil oldular. Onların gəlməsini eşitdikdə camaat qapıya tökülüb ermənilərin bu işindən şikayətə başlayırlar. Əvvəlinci şikayətləri: "Ermənilər bizə nə etdilər isə keçdi, fəqət yenə yığışıb bazara gəlsinlər"-demək idi. Ayın 9-da Cəhri müsəlmanları qubernatorun hüzuruna gəlib, bu sözləri şikayət etdilər: "Bizim kəndin yolları hər tərəfdən erməni əlindədir. Bu səbəbdən təvəqqe edirik, yolları hökumət mühafizəsinə alasınız". Bu tövr ilə hər tərəfdən müsəlmanlar şikayətə gəlməkdə idilər.

NƏ FAYDA Kİ, HAMISI CAVABSIZ QALIB, ŞİKAYƏTÇİLƏRƏ MƏYUSLUQDAN BAŞQA BİR ŞEY QALMADI.

Bu tərəfdən şikayətləri cavabsız qalan müsəlmanları ermənilər cürbəcür söyüşlərlə incidirdilər. Həmin may ayının 9-da naxçıvanlı Əli Hacı Bayramzadə səhrada Əliabad adlı erməni kəndliləri tərəfindən çeşmə kənarında gecə vaxtı yeddi güllə yarası ilə qətlə yetişdi. Bu xəbər şəhərdə daha böyük dəhşətlərə səbəb oldu. Ayın 11-də Kültəpə adlı erməni

kəndinin varlısı erməni fədailəri tərəfindən ailəsiylə qətlə yetirildi. Ermənilər bunu da müsəlman camaatına nisbət verdilər. Lakin axırıncı təftişdə yuxarıda adı çəkilmiş partiya tərəfindən cəzalandığı məlum oldu. Varlının adı Xaçaturdur. Həmən günün gecəsi vitse-qubernator Baranovski yol ilə gedən bir ermənidən çoxlu bomba zəbt etdi. Yenə həmən gecə, yəni may ayının on birində ermənilər bütün şəhəri atəşə tutdular. İki saat yarım müddətində şəhərdə beşaçılan tüfənglərin sədası, alov və tüstüdən savayı bir başqa iş nəzərə gəlməz idi. Müsəlmanlar da tək-tək o atəşlərə qarşı atəş açırdılar. Bərəkət versin ki, həmən gecə müsəlmanlardan bir nəfər də tələf olmadı. Ermənilərdən isə tələfat olmamış deyildi. Bununla belə, hər yerdə gizlədikləri kimi, yenə gizlətdilər. Bu gecə müdhiş bir gecə idi. Heç kəs-böyük, kiçik, hətta barmaq boyda balalar da yata bilməzdi. Hərdənbir bir tərəfdən bir güllə açılıb şüşə pəncərələr qabağında ildırım kimi çaxıb beşikdəki balaları da yatmağa qoymurdu. Camaat hərə bir xəyalda idi. Zira, eşikdə dəhşətli külək əsirdi. Heç aram tutmayaraq divarlara güllələr dəyməkdə idi. O gecəni müsəlmanlar qarışıq xəyallar ilə cəhənnəm guşəsi olan yataqları içində qovrula-qovrula sübh etdilər. Bəli, etdilər! Səhər tezdən, ayın on ikisində, yenə vitse-qubernatora şikayətə gəldilər. Gecənin atışmasını deyib, əncam çəkməsini tələb etdikdə "ƏGƏR ONLAR SİZƏ ATƏŞ AÇIR, SİZ DƏ TUTUB ONLARIN TAPANÇALARINI ALINIZ"-cavabını aldılar! Qubernator bir də "MƏN BİLMƏRƏM" -deyib camaatı qaytardı. O halda gözü qızmış ermənilərdən və özünü itirmiş müsəlmanlardan bir nəfər olmadı söyləsin ki, "CƏNAB QUBERNATOR, BƏS BURAYA NƏ ÜÇÜN TƏŞRİF GƏTİRİBSİNİZ?" həmən gün şəhər və ətrafı qorxulu olduğundan Naxçıvan camaatı və iranlı fəhlələri-hamı şəhərdə və bazarda idilər. Ona görə iranlı fəhlələr qubernatorun sözünə əməl edərək, ermənilərdən bir sıra açılan şeylər zəbt etməyə başlayıblar. Saat on radələrində bir dəstə erməni fədailəri bazarın başında durub, ayaq tərəfdə olan müsəlmanları güllə-baran etməyə başladılar.

Bu əsnada xəbərsiz olan vitse-qubernator, Cəfərqulu xan-şəhər rəisi İrəvan qlavası Ağamalov, pristav Mehdi xan Ordubadski cənabları atışma səsinə gəldilər. Yolları erməni bazarından düşdüyünə görə, həmən gün qubernatorun əmrilə açılmış bir neçə erməni dükanlarından qubernator və onun yoldaşları gülləyə asıldılar. Bu əsnada erməni dükanlarına yaxın olan müsəlman dükanlarından da atəş açıldı. Atışma iki saat çəkdi. Bu müharibədə məşhur erməni tacirləri Adamov şagirdlərilə, Xalatov uşaqları ilə və başqaları qətlə yetirildi. Adamovun dükanına naməlum səbəbdən od düşüb tamam yandı. Bu müharibədə müsəlmandan beş nəfər öldü və

bir neçəsi yaralandı. Erməni dükanları əksəriyyətilə, müsəlmanlardan 10 dükan qarət edildi. Müharibə vaxtı polis qulluqçusu naçalnik ANGİL qətlə mane olmayıb "TEZ VUR, OĞLUM! TEZ OL, OĞLUM!" deməklə könüllü cavanları cinayətə təşviq edirdi. Talan vaxtı "TEZ OLUNUZ! TEZ APARINIZ!" deyib camaatı qızışdırırdı. İki saat tamam qətl-qarət uzandıqdan sonra hər tayfa çəkilib öz tərəfinə getdi. Qubernator cənabları bu hadisələri görür və eşidirdi. O günün gecəsi dəhşətli, bir gecə olduğundan hamı evlərində oturmuşdu. Saat on iki radələrində erməni tərəfindən şiddətli atışma başlanıb bütün şəhəri gurultu içinə almışdı. Şiddətli atəş ermənilərin ipək zavodundan açılırdı.

Gecə atışmasını cənab qubernator bir saat sonra kəsdirdi. Ermənilər, nəhayət, sakit oldular. Sübh çağı bu xəbər ətrafda çox pis və qorxulu təsir oyatdı. Odur ki, hər tərəfdə qırğın və qətl-qarət başlandı.

Bu gündən başlayıb ermənilər dükanlarını kilsəyə yığışdırıb müsəlmanlara qarşı zülm və acı töhmətlərdən çəkinmədilər. Hər gündə bir hiylə, hər halda bir hoqqa çıxarmaqda idilər. Bu vaxtda, necə ki, məlumdur, şəhərdə çox hökumət qoşunu mövcud olub, camaatı hər saatda təhqir etməkdə, belini, cibini axtarmaqda idilər.

Müxtəsər, Naxçıvan camaatı zülm və əziyyət altında əzilir, nə hökumət, nə filan sidq ilə belə işləri yoluna qoymaq fikrində deyildi. Noyabrın 26-na qədər müsəlmanlar və ermənilər hökumətin siyasəti sayəsində, dəfələrlə, sülh edib bir-birilə əl-ələ vurdular. Axırda yenə bu sülhlər hər iki tərəfə ədavətdən başqa bir səmər vermirdi. Necə ki, hər saatda bu iki tayfanın arasında yeni bir ədavətin ortaya çıxacağı gözlənilirdi. Noyabrın 26-sında birdən-birə camaat bir-birinə dəyib tələm-tələsik dükanları yığışdırıb evlərinə qaçdılar. Hər kəsdən işin nə yerdə olduğunu soruşduqda əllərini bir-birinə sürtüb heyran-heyran adamın üzünə baxırdılar. Camaat arasında müxtəlif xəbərlər danışıldığı kimi, Çeşməbasardan da bu xəbər yetişdi: Bu gün kazaklar sülh və asayişi təmin etmək üçün Çeşməbasar kəndinə gedərkən Hacı Nəsir Hacı Nağı oğlunun evini qarətə başlamışlar, bu vaxt qabağa durub mane olmağa çalışan Hacının bir zavallı oğlunu öldürmüşlər. Müsibətə düçar olmuş Hacı oğlunu qana bulaşmış görərkən çaşıb bir güllə kazaklara atmış, elə buna görə də onun ailəsi biədəblər tərəfindən qətl edilmişdir.

Bu xəbər Naxçıvan camaatını nəhayət dərəcədə pərişan etmişdir. Zira, bu işlərin ümdə baniləri və başçıları polkovnik Krılov və naçalnik Angillər idi. Noyabrın 26-ı gecəsi müsəlmanlara böyük bir müsibət üz verib, hökumətin də hiyləsini hamıya bildirdi. Həmən gecəni Naxçıvanda müsibət gecəsi, odlu-alovlu gecə adlandırmışlar. Həqiqətən də o gecə

atəşli, ürəkdağlayan, yanğılı bir gecə idi. Həmən gecə saat yeddi radələrində böyük və dəhşətli sədalar eşidilirdi. Camaat evlərindən çıxıb bazara girmək istəsələr də, kazaklar hər tərəfdən atəş açıb mane olurdular.

Xülasə, güllə səsi iki saat davam edib camaatı heyrət içində qoymuşdu. İki saatdan sonra güllə səsi kəsib, bir az sakitlik oldu. Bir azdan şəhəri tüstü bürüyüb bazar tərəfdən qəmli bir işıq şəhəri ara-sıra işıqlandırdı.

O vəziyyətdə bazar yanar dağ və vulkanlara bənzəyirdi. Bir saatdan sonra məlum oldu ki, HƏRİF KAZAKLAR VƏ ERMƏNİLƏR ƏLBİR OLUB MÜSƏLMAN BAZARINI TAMAM QARƏT EDƏNDƏN SONRA OD VURMUŞLAR. Bu halda şəhərin hər guşəsindən nalə ucalıb, bir saatın içində küçə və meydanlar camaatla dolmuşdu.

Camaatda biaramlıq nəhayət dərəcədə idi. Bazarın yanmaq gurultusu, camaatın ah-naləsi, xüsusən tüfənglərin şaqqıltısı, kazakların sədaları şəhərə böyük bir vəlvələ salmışdı.

Camaatın üç yüzü birdən bazara tökülüb yüz il zəhmətlə qazandıqları dövləti yanıb kül olmaqda gördülər. Ədəbsiz kazaklar bazarı hər tərəfdən yandırıb yolları da kəsmişdilər. Tamam iki saat yanğından sonra Angil, Krılov bazara təşrif gətirib kazaklara "camaatı qovunuz" əmrini verib söhbətə başladılar. Bir neçə dəqiqədən sonra kazaklara atəş əmri verməklə fəqir Məşədi HəsənMəhəmmədqulu bəy oğlunu vurdular. Camaat vəziyyəti düşünə-düşünə dağılıb evlərinə getdilər. Bu vaxtda dəmiryol vağzalında olan insaniyyətpərvər gürcü qardaşlardan müsəlmanların köməyinə gəldilərsə də, artıq iş işdən keçmişdi (Allah onlardan razı olsun). Sübhə kimi bazar tamam yanıb kül oldu.

Camaat gündüz bazara gəlib qızarmış torpaqdan başqa bir şey görmədilər. Üç gün üç gecə bazar-dükanın tüstüsü çıxmaqda idi. Təxminən 85 dükan, 75 anbar və boş dükan yandırıldı. Üç gün, noyabrın 27-dən 30-na qədər bazarda əsla yeməli bir şey tapılmır. Camaat son dərəcə ehtiyac içində keçinirdi. Çox evlərdə aclığın insana əziyyət verən şiddətindən yata bilmirdilər. Noyabrın 29-cu gecəsi saat yeddi radələrində uzaqdan qorxulu bir gurultu gəldi. Camaatda cinayət yerinə getməyə əsla cürət olmayıb, bir saatdan sonra bu xəbərlər ətrafa yayıldı. Şəhərin ikinci hissəsində kazaklara yaxın olan bir müsəlman evini onlar atəşə tutub qarət etmişlər. Yarım saat sonra yenə bir atəş sədası eşidilib kazaklar tərəfindən icar olunduğu meydana çıxdı.

Ayın otuzunda Cəhri kəndinin ermənilər və kazaklar tərəfindən yandırılması camaatı çox pərişan etdi. Bu gün İrəvan general-qubernatoru cənab Paskeviç şəhərə təşrif gətirməklə, camaat yığışıb dərdlərini deyib çarə istədilər. Qubernator isə "eyb etməz, mən işə yaxşı baxaram"-

deməklə camaatı dağıtdı. Müxtəsər iki gün cənab qubernator keyflə məşğul olub, Cəhri kəndi tamam yanıb qurtarandan sonra qubernator Cəhriyə yollandı. Dekabrın ikisində qubernator gedən vaxt camaat yığılıb şəhərin ikinci hissəsinə kazaklar tərəfindən od vurulduğunu deyib kazakların götürülməsini tələb etdilərsə də, "yaxşı, demişik "mero" (tədbir) götürsünlər, gedib Cəhriyə, qayıdıb işlərə əncam verəcəyəm"-cavabını verib aradan çıxdı.

Müsəlmanları bu hala qoyan hökumətin belə "meroları" (tədbirləri) deyilmi? Müsəlmanlar qayıdıb kazaklardan ərizə yazıb, qubernator qayıdanda təqdim etmək həvəsində olduqları halda, qubernator gecə saat on birdə qayıdıb, müsəlmanların xəbəri olmasın deyə, ahəstə, vaqon ilə İrəvana yollanmışdı. Budur bürokrat idarəsinin müsəlmanlar üzünə açdıqları qəmli hadisə pərdələri.

Atalar demiş kimi, məzlum ən zalımdır.

Yuxarıda deyilənlərə bunu da əlavə edim ki, əvvəlinci hadisələrdə əsas zərər ermənilərə və sonrakı hadisələrdə isə müsəlmanlara dəymişdi.

## İRƏVAN HADİSƏLƏRİ

1905-ci ilin 23 may tarixindən başlanmış İrəvan faciələrindən bəhs edir.

Mir Abbas Mir Bağırzadənin topladığı jurnal və sair məktublardan iqtibas olunub tariximizə müvafiq bir dilə tədbil edilmişdir.

**Məqsədin ərzi.** 1905-ci ildə qəflətən baş verən və təəssüf doğuran Bakı faciələri heç bir tərəfə yayılmayıb, nəhayət, may ayının əvvəllərində İrəvan quberniyası Naxçıvan uyezdinə sirayət etdi. Naxçıvanda islamlar say və nüfuzca ermənilərdən üstün olduqlarından qabaqca müharibə tələb etmiş ermənilər, nəhayət, büsbütün məğlub olaraq milli səhifələrinə qara bir xətt çəkdirdilər. Məlum ola ki, Naxçıvanda olan erməni məğlubiyyəti İrəvan ermənilərini acışdırıb son dərəcədə qəzəbləndirmişdi.

Bu hadisələrə görə, ermənilərin müsəlmanlar əleyhinə olan alçaq hərəkətləri gündən-günə artırdı. Digər tərəfdən, camaat indi, yaxud bir saat sonra İrəvanda iğtişaş olacağını işlərin nümayişindən düşünürdülər. Bu xəbərlər yayıldığından bazar camaatı narahat edilib, ticarət də gündən-günə tənəzzülə uğradılaraq şəhər pərişan bir hala qoyulmuşdu.

Digər tərəfdən, müsəlmanlar arasında fikirlər çoxalıb, bu fikirlərin həyəcanından, düşmənin artması, islamlarda hərbi hazırlığın bütünlüklə olmaması kimi problemlərlə onların qarşısında bəla buludları kimi canlı və qəti durmuşdu. Demək olar ki, bir şəhərdə 10 min islam vardısa da, bu dəhşətli vahimədən məzlumların sarsılmış rənglərində 10 min də fikir

vücuda gəlirdi. İslamlarda heyranlıq son həddə çatıb hər kəsin simasında ümumi bir yas, kökü olmayan bir müsibət görünürdü.

Ermənilərə gəldikdə, Naxçıvan intiqamını almaq üçün səbrsizlik, aramsızlıq edərək, islamları ortaya çəkib pərişan etmək üçün bir çox hiylə və fırıldaqda bulundular. Naxçıvan yolunun əksəriyyətlə islam əlində olduğundan çəkinməyərək, Naxçıvan əhalisinə hər cür yardımda bulundular. Bulundularsa da, hər qism odlu silah, hərbi ləvazimat göndərməyə çalışmaqları müsəlmanları çaşdırıb qoydu. İrəvan islam millətinə gəldikdə tədarükləri yox və əlavə, milli hissləri oyanmamış bir quru xəyal kimidi deyilsə, xəta deyil, doğru fikirdir. Ancaq hər kəs can qorxusu ilə qanlı ürəyini yeyərək öz mühafizəsi üçün təhlükəsiz bir çarə düşünürdü. Nəhayət, Naxçıvan atəşini söndürmək üçün Tiflisdən general Əlixanov-Avarski cənabları Naxçıvana göndərildi. Həmin münaqişənin yatırılması üçün yenə Voronsov-Daşkov həzrətləri tərəfindən Şeyxülislam cənabları Uluxanlı vağzalına getdi. İrəvan qazısı da onunla birlikdə Naxçıvana yollandı. Əvət, İrəvan erməniləri iki tayfanın sülh etməsini eşitdilər. Eşidib də hər gündə Naxçıvana məlumatlı adamlar göndərib millətin halından xəbərdar olur, sınıqlarını sarıyıb, öz eyblərini pərdələməkdə, müsəlmanların eyblərini isə faş etməkdə idilər. Müsəlmanlara gəldikdə ermənilərin Naxçıvan məğlubiyyətinə sevinir, Naxçıvan qələbəsini özlərinin qələbəsi sayıb xəyalsız dolanmaqda idilər. Demək olar ki, bu vaxt ermənilər müharibə etmək üçün bütün tədarüklərini görüb bir hadisənin baş verəcəyini gözləyirlərmiş. Belə ki, may ayının iyirmi üçündə olan hadisə yuxarıda deyilənlərə ən yaxşı tam sübutdur.

İğtişaş xəbərləri. 1905-ci il may ayının 23-də üç nəfər oxumuş müsəlman cavanı gedib polisin qənşərində olan erməni Qarsaçay bağçasında içib sərxoş halda pis işlərlə məşğul olurlar. Ermənilər bu sərxoşluğu qənimət bilib onları lazımınca əzişdirirlər. Xülasə, sərxoşlar xəncərlərini çəkərək özlərini müdafiə vəziyyətində qışqıra-qışqıra bazara soxulurlar. Müsəlman sərxoşlarının səsləri hər tərəfə yayılır.

(Müsəlman keflisinin səsinin necə ikrah doğurucu olduğunu yəqin ki, oxucular bilirlər). Bu səsləri eşidən hər bir erməni və müsəlman bazarda bir-birinə qarışıb şiddətli atışma başlanır. Müsəlmanların erməni hiyləsindən bixəbər olan qismi öz dükanlarını boşlayıb başlayır dükanlarını açıq qoyub qaçan erməni dükanlarını qorumağa, bəziləri isə erməniləri dükana salıb qapısını bağlamaqla mühafizə edirlər. Bir para nöqtələrdə erməni müsəlmanı, müsəlman ermənini öldürmək üçün cinayətlərə də yol verilir. Yəqin ki, bu gün müsəlmanlar ermənilərə əl qaldırsaydı, yəqin edilərdi ki, ermənilərə necə bədbəxtlik üz vermişdi. Zira, müsəlman içində

erməni çox, hamısı da silahsız və xəbərsiz imiş. Bununla belə, müsəlmanlar qədim qonşuluğu yada salaraq camaatı bir təhər sakit etdilər. Gecə rahat və sakit keçdi.

1905-ci ilin 24 may xəbərləri. Bu gün sübh saat 9-a yaxın bir neçə etinasız, yaxud məğrur və ya nadanlıq üzündən bazar-dükanı açmağa gedən müsəlmanlara ermənilər atəş açıblar. Lakin Allah bərəkət versin ki, müsəlmanlara dəyməyib bir neçə ermənini yaraladı. Bu zaman saldatlar yetişib bir neçə atəş açmaqla erməniləri sakit etdilər. Bir az keçdikdən sonra tərəddüd tamam kəsilib hər kəs öz tərəfində bir müdhiş sakitlik içində dolanırdı. Saat 2 radələrində yenə müsəlman tərəfinə ermənilər şiddətli atəş açdılar. Bu vaxt bütün erməni məhəllələrindən atəş açılıb aramsız olaraq güllə yağdırıldı. Uca yerlərdən, təpə üstlərindən, pəncərələrdən müsəlmanlara qarşı güllə yağmaqda idi. Yerdə durub səmaya nəzər salan bir insan göydən alovlu güllə yağır söyləsə idi, əsla xəta eləməzdi, zənnindəyəm. Bütün gecə, səhər açılana kimi beləcə atəş açılmışdı. Bu atəşlərə əsla cavab verilməyib müsəlmanlar aram tutmuşdu. Zira, hamısı ruhdan düşmüş və ya tədarüksüz, ən başlıcası müharibə görmədiklərindən çaşqın halda quruyub qalmışdılar. Bu vaxt İrəvanda lazımlı-lazımsız 20 tüfəng, az miqdarda patron var idi. Tüfənglər əksəriyyətlə ovçu tüfəngi olub müsəlmanların Nuh babasından yadigar qalmış bir sıra antikvardan sayılırdı. Bu halda erməni atəşlərinə hökumət tərəfindən əsla maneçilik olmayıb, iğtişaşa dair də bir tədbir edilmədi. Ermənilər ürəkləri istədiyi qədər atəş açır və hücum edirdilər. Bunlara mane olan yox idi. Saat 12-yə yaxın yenə erməni tərəfindən atəş açılıb təzədən hər tərəfi bir qorxu, bir vəlvələ bürüdü. Həqiqətdə müharibə görməmiş adamların həlak olmaları yaxınlaşırdı.

Balacaların, arvad-uşaqların zəif səsləri müsəlman kişilərini son dərəcə çaşdırıb onları mənən sarsıdırdı. Bu vaxtda arvad-uşaq, qoca-cavan, əyan, xan, rəiyyət-hamısı öz canının hayına qalmışdı.

O hal bir hal idi ki, nə millətin dərdi, nə mədəniyyətin fikri, nə də mülk və dövlətin xəyalı qəlbə təsir edirdi. Bu atışma əsnasında müsəlmanlarda cavab verməyə əsla taqət yox idi. Erməni hissəsində evləri olub təhlükəli vəziyyətdə qalan müsəlmanların hər dəqiqə imdad diləyən səsləri eşidilirdisə də, müsəlmanlarda qüvvə olmadığına görə onları fəlakət burulğanından qurtarmaq iqtidarında deyildilər. Nəhayət, onların əleyhinə açılan bombaların da cəhənnəm makinələrinin dumanları onların başı üstündə durub ara-sıra ildırım çaxar kimi güllələrin qırmızı alovları buludları bir kənar edib insanların gözünü qamaşdırırdı.Bu bəla odunu müsəlmanların başı üstə gözü ilə görən bir əfsər soldatları ilə məzlumların

fəryadına çatır. Qırğından sağ-salamat çıxan bu biçarələri bir təhər qoşun mühafizəsiylə müsəlman hissəsinə keçirirlər. Bu atışmada sədaqət qurbanı olan və ermənilərə inanıb təhlükəli məhəllədə qalın islamlardan 11 kişi və qadın qətl olunmuşdu: dörd qadın, iki uşaq, 5 kişi. Əsarət və həqarətdən qurtarmış islamların neysan yağışı kimi tökülən göz yaşları insanı bir müsibət seli içində qərq etmək istəyirdi. Həqiqətdə bu halı müşahidə edən islamlara qeyrət və qürur o dərəcə sıxıntı verirdi ki, təsəvvürə gəlmir. Bu vaxtda əsla dirilik arzusunda olmayıb, müvəqqəti olaraq onlarda milli bir hiss oyanırdı.

Ətrafdan gələn könüllü əsgərlərin yığılıb toplanması ilə İrəvan müsəlmanları mənən də gücləndirilirdi. İslamiyyət naminə əlinə hərbi silah keçən kürd, iranlı və hər başqa millətdən olan hər kəs bura yığılmaqda idi. Bu toplanışı görən islam könüllü əsgərləri bu gecə (hər nə olar-olar) ermənilərin üstünə yürüş etməyi qərarlaşdılar. Müsəlman rəis və böyükləri bu milli təşəbbüsdən xəbərdar olunca öyüd-nəsihətlərlə onları ermənilərə qarşı yürüş xəyalından daşındırmağa çalışırdı. Bu vaxtda yenə otuz-qırx evdən ibarət islam əhalisi erməni hissəsində qalmaqda idi.

Müsəlmanlar iğtişaşın beşinci günü hökumətdən mühafizə qoşunu alıb islamları arabalarla müsəlmanların ümumi hissəsinə köçürdülər. Bu gündən başlayıb yenə tək-tək o tərəf bu tərəfə güllə atışması baş verirdi. Bəzi yerlərdə sipərlər düzəldilib, sipərlərdən erməni müsəlmanı, müsəlman ermənini görən kimi hədəf edirdi. Bu sipər atışmasında ermənidən çox tələf olurdu. Halbuki, erməni hərbçilərinin əksəri əsgəri xidmətini qurtarmış saldatlar idi. Daşnaksütyun döyüşçülərinə gəldikdə, ən son zamankı hərbi silahla silahlanmışdılar. Ermənilərin hər bir atəşi müsəlmanların qəlbini heyrətə salırdı. Müsəlmanlar isə, hər yerindən duran, silahlı və silahsız könüllü əsgərlər olduğundan onlarda kifayət qədər beşaçılan və mauzer tüfənglər yox idi... Bununla bərabər, islam dəstələrində bir sıra kənardan gəlmə qiymətli nişançılar da vardı. Ermənilərin bu atışmalarda artıq tələf olmaları islam camaatına çox təəccüblü gəlirdi. Zira, ermənilər müharibə əsnasında bal mumundan qayrılmış müqəvva kimi olub püf edən kimi məhv olurdular. Məlum olduğu kimi, ermənilərdə səbat və mətanət və ürəklərinin təvəri yox idi. Zira, İrəvan müharibəsinə yığılmış erməni əsgərlərinin əksəriyyəti Bakı döyüşlərindən, Naxçıvan məğlubiyyətindən can qurtarıb qaçan əsgərlərdən olduqlarına görə mənən büsbütün pozulmuşdular.

Bu bir də ondan irəli gəlirdi ki, bu müharibələrdə erməni əsgərləri araq-çaxır, bu kimi spirtli içkilər içməklə, lovğalıq edərək, ara-sıra çıxıb bir güllə boşaldıb erməni saqilərinə "bir islam vurdum" deyib, bir rumka

konyak tələb etməkdə idilər. Bu səbəbə ermənilərin gülləbəri büsbütün boşa gedib erməniləri tamaşaçı millətlər yanında bir məsxərə nümunəsi qayırdılar ki, indi də dillərdə İrəvan müharibəsi deyilir.

Müxtəsər, səngər atışması bu qərar ilə keçib Naxçıvanda da sülh barışıq bərpa olaraq, bu xəbər müsəlman və erməniyə məlum edildi. Hökumətimiz də yuxudan gözlərini açıb yavaş-yavaş o tərəf bu tərəfini qaşıya-qaşıya millətin halına bir baxıb da tuluqrafla Şeyxül-islamı, İrəvan qazısını, eyni zamanda yepiskopunu şəhərə dəvət etdi. Onlar da may ayının otuz birində şəhərə təşrif gətirdilər.

1905-ci ilin 31 may xəbərləri. Mayın 31-də sülh və barışığı bərpa edən erməni-müsəlmanın hörmətli qonaqları təşrif gətirməklə şəhəri zinətləndirib rəislər və məhəlli böyüklər tərəfindən qarşılandıqdan sonra Abbasquluxan İrəvanski cənabının evini qonaq olmaqla şərəfləndirdilər.

Müsəlmanların azı bu hissədə olub, çoxu o biri hissədə idilər. Bu vaxt aralıqda get-gəl kəsilmişdi. Bazarın əksərisi erməni hissəsində olduğundan alış-veriş bazardan kəsilib məhz məhəllələr-ordubazar şəklinə keçmişdi.

1905-ci il, 1 iyun. İyun ayının birində şeyxül-islam və yepiskop cənabları bulvara təşrif gətirib orada olan camaata moizə və nəsihətlər etdilər. Bundan sonra müvəqqəti bir sülh olaraq camaat bazara gəlib alış-verişə başladılar. Bağda qalmış bir neçə bağban şəhərə gətirildi. Bazar-dükan təzədən bağlanıb get-gəl tamamilə kəsildi. Şəhər tamamilə qorxu içində idi və batması qəti müəyyən olunmuş gəmilər kimi lənger vururdu. Müsəlmanlara məxsus yerlərdə bir neçə erməni anbarı talanıb, erməni hissəsində olan müsəlman yurdlarının da əşyaları ermənilərin qənimətinə keçdi. Bu müvəqqəti sülhdən sonra İrəvanda sülh-barışıq bərpa olaraq, nəhayət, ermənilərin komitələri tərəfindən müsəlman kəndlərinə hücum etmək əmri verildi.

*Son xəbərlər*. İrəvan mahalında iğtişaş qoparmaq üçün şəhərdən erməni sərkərdələri, baş komandanları təyin edilib hər mənsəb sahibi öz bölüyü (diviziyası) ilə təyin edildiyi yerə getməkdə idi. Bu günlərdə yenə İrəvanda qorxu və müharibə ehtimalı müsəlmanların qəlbində qalmaqda idi. Gah-gah, ara-sıra o tərəf bu tərəfdən xəfif (İrəvandan alınan məlumatlardan məlum olur ki, İrəvan əyanları oldularsa da, hərb elmindən xəbərdar olduqlarından müsəlmanları bir sıra nöqtələrdə çalışdırdılar. Belə ki, fənd ilə hücum etmək istədiklərindən müsəlmanları məşğul etmək üçün xəfif tüfəng atəşləri başlamışdılar. Bu isə müharibə meydanlarında sınaqdan çıxmış başlıca fəndlərdəndir ki, bir komandan düşmənin bir hissəsinə hücum etmək istəyirsə, düşmənin başqa bir tərəfində xəfif tüfəng

atəşinə başlar ki, onu bir parə təşəbbüslərdən məhrum qılsın) güllə atılırdı. Ona görə müsəlmanlar bir əlahiddə xəyala düşə bilməyib öz haylarında idilər. Digər tərəfdən müsəlmanların taleləri dönük olduğundan aralarında bir-birinə böyük zərər vuran dil birliyinin olmaması mərəzi də baş qaldırmışdı. İrəvan rəisləri və əyanları bu vaxtlarda camaatı firqəyə (partiyalara) bölüb hər kəs özünə rəhbər mövqe qazanmaq fikrində idi. Buna görə İrəvanda böyük çəkişmə baş verib camaatı işdən və tədbirdən qoydu. Bu səbəbdəndir ki, şeyxül-islam cənabları aşağıda yazılmış sözləri kəmali-nifrətlə rəis və əyanların üzünə oxudu: "CAMAAT! BİZ BU ŞƏHƏRƏ GƏLMİŞİK İKİ ƏDAVƏTLİ MİLLƏTİ BARIŞDIRIB SÜLH EDƏK, NƏİNKİ RƏHBƏRLİK VƏ FİRQƏBAZLIQ ÜSTƏ ÇƏKİŞƏN ƏYANLARI! EYB OLSUN İRƏVAN ƏYANLARINA, EYB" (İrəvandan alınan məlumatlardan məlum olur ki, İrəvan əyanları hələ də babalarından qalan özlərindən razı qalma xəstəliyinə tutulmuşdular. Ermənilər bunları məhv etmək xəyalında olanda bunlar da quru bəylik iddiasında idilər. Babalarının tarix səhifələrində buraxdıqları fənalıqları yaşadan və uzun müddət qoruyub saxlayan heyvanlara ar olsun!).

Bu məclisdə qubernator yanına getməyə və sair milli işlərə başçılıq üçün rəis seçildikdə hər kəs öz qəbilə başçısını qabağa çəkib, heç bir işə yaramadığı halda camaata başçı rəis etmək xəyalında idilər. Bunların hamısı həmişə özünü camaata bacarıqlı tanıtmış, ağalıq fikrində olan xam xəyalların təhrikiylə idi (Hörmətli müxbirim! İrəvanda hər kəs öz qəbilə başçısını ortaya çəkib xalqa rəis etmək xəyalına düşməsindən çox da darılma. Zirə islam aləminin hər guşəsinə baxılsa belə çirkin təbiətli adamlara çox rast gələrsən. Bu isə insanlıq elminin hələ də islamlarda olmamasındandır. Bizdəki bu xasiyyətlər 11-ci əsrə təsadüf edən bir sıra pisliklərə bənzəyir. Bunlara darılma. Bizim bu kiçik şəhərimiz Ordubad da bu dərdə mübtəladır).

Bir tərəfdən vətən və millətin mühafizəsinin fikri, digər tərəfdən əyanların böylə-böylə camaatı ələ salıb oynatması, boş-boş şeylərlə ədavət toxumu əkmələri gözüaçıq adamları nəhayət dərəcədə çiyrəndirdi. Bu günlərdə İrəvana xəbər yetişdi ki, ermənilər mahalda müsəlmanları mühasirə edib qırmaqdadırlar.

Camaat bu xəbəri alınca nəhayət çaşıb, hamını dərin bir yas, bir naümidlik əhatə etmişdi. Zira, özləri müharibədə daha açıq düşmənin mühasirəsi altında, hər tərəf qüvvətli erməni kəndləri ilə əhatə olduğundan xalqa bir böyük tənhalıq və dəhşət üz vermişdi. İrəvanın cənub tərəfindən şəhərə gedib-gələn vardısa da, o ətrafda da iğtişaş baş verdiyindən gediş-gəliş tamamilə kəsilmişdi. Yəni zavallı islam kəndləri də öz haylarına

qaldılar. Belə ki, hamısı vuruşma vəziyyətində yaşayırdılar. Yaşayırdılarsa da, on minlərcə ermənilərin məlumatlı müharibə görmüş dəstələrinin qarşısında bir ovuc müharibə, hərb görməmiş, maarifsiz islam kəndliləri qalmışdı (Sahibsiz islamların halına ağlanmalıdır). Şəhərdə ermənilər ara-sıra xəfif tüfəng atəşilə müsəlman imarətlərini hədələyirdilər. Müsəlmanlar da ümumən canlarından keçib bütünlüklə tələf olmalarını yəqin edirdilər. Hamının üzünə əcəl və ölüm tozu qonmuşdu, guya "bu bir bəla imiş", deyib nəzir-niyaz verməklə onun aradan qalxacağını gözləyirdilər (Nəzir və niyaz bəlanı rədd edər, bu haqda mübahisə etməyə dəyməz. Ancaq bica təvəkkül, bimöve ümid, əvvəldən başqa bir səmər verməz zənnindəyik). İMKANLI ADAMLAR BAŞQA YERLƏRƏ MÜMKÜN QƏDƏR TEZ KÖÇMƏLƏRİNİ ARZU VƏ MARAQ EDİR, YARAMAZLAR CANINI, MALINI VƏTƏNİNDƏN ÜSTÜN TUTMAQDA İDİLƏR. "TƏKİ BİZ ÇOCUQLARIMIZI, HƏRƏMLƏRİMİZİ HƏLAK OLMA BURULĞANINDAN QURTARAQ, İMKANSIZLAR QALIB DÜŞMƏN ƏSİRİ OLSUNLAR"-XƏYAL EDƏN QANSIZLAR ÖZLƏRİNƏ İNSAN VƏ İSLAM ADI VERMƏKDƏN ƏSLA ÇƏKİNMİRDİLƏR.

BƏLİ, İRƏVANDA RƏİSLƏR ARASINDA BELƏ ÇƏKİŞMƏ BAŞ VERDİYİ VAXT ARTIQ MAHALDA QANLAR SEL KİMİ AXIB, GÜNAHSIZ KƏSİLƏN İSLAM BAŞLARINI QAN ÇALALARINDA FIRLADIB ZİRVƏDƏN ZİRVƏLƏRƏ ATIRDILAR.

QURANLAR YANDIQDA İRƏVANDA ÖZÜNÜ QURAN ƏHLİ HESAB EDƏN CAMAAT FİRQƏBAZLIĞA ÇALIŞIRDI. MAHALDA İSLAM MƏNBƏLƏRİ YANDIQDA İRƏVANDA AXŞAMA KİMİ AĞZINI MİNBƏRƏ TUTUB İŞ-GÜCDƏN QALAN VƏ BİR KÖMƏK GÖRMƏYƏN CAMAAT ƏLLƏRİNİ APARIB ÜRƏKLƏRİNİ OVUŞDURMAQDA İDİLƏR.

MÜXTƏSƏR, İRƏVAN MAHALI BİR YANAR DAĞA, VULKANA DÖNÜB NƏCİB İSLAM MİLLƏTİNİ YANDIRMAQDA VƏ BOĞMAQDA İDİ.

İrəvanın şərq tərəfi, Qırxbulaq mahalı adlanan tərəfdə üç hissə erməni, bir hissə fəqir, məzlum islam tayfası olduğundan iyun ayının birinci günü qovqa və iğtişaş meydan bulub ən əvvəl 20 evdən ibarət olan Gözəcik faciəsi baş verdi, qonşu Tirjabat erməni kəndindən neçə hücum başlandığını sıra ilə hamısını oxuculara ərz və təqdim edirik.

Kədərli Gözəcik hadisəsi. 1905-ci ilin 31 iyununda axşama bir az qalmış ermənilər Gözəcik kəndinin ətrafını kəsib şiddətli atəşə başlayırlar. Müsəlmanlar bütünlüklə silahları olmadığından ailələrini götürüb arası

yarım verst məsafədə olan Mənkus adlı islam kəndinə pənah aparırlar. Ermənilərə gəldikdə islamları təqib halında Mənkus kəndinə də hücum etmək istəyirdilər. Bu qədər ki, kəndin ağası Hümmət bəy Hüseynzadə şəhərə köçdüyündən kənddə 50 yaşında bir qoca böyük qalmışdı.

Bu qoca, NOVRUZ KAZIM oğlu camaatın erməni qabağından qaçdığını görüb uca bir yerə qalxıb, "camaat, hara qaçırsınız" deyə aşağıdakı nitqi söyləmişdir:

-Oğlanlar, hara qaçırsınız? İstəyirsiniz bu qaçmaqla bizi, Qafqaz müsəlmanlarını başqa millətlərin yanında başıaşağı edəsiniz?! Məgər, bu qaçmaqla ermənilər sizi boşlayacaqlar?! Xeyr! Xeyr! Bunların qabağından qaçdıqca daha da cürətli olub bizə və bizim ailəmizə heç bir əsrdə insanlara rəva görülməmiş hörmətsizliklər yetirəcəklər.

Məgər, bunlar haman ermənilər deyil ki, bir il əvvəl mən barmağıma hərəkət verəndə az qalırdılar Qırxbulaq mahalından çıxıb qaçsınlar. İndi sizə nə olubdur ki, aciz arvadlara qoşulub qoyun sürüsü kimi bunların qabağından qaçırsınız. Siz qaçırsınız, qaçın! Mən tənha bu erməni alaylarının qarşısında müdafiə mövqeyində durub can verməyəcəm. Müsəlmanlar! Hər millət gərəkdir öz şən və heysiyyətinə layiq bir tərzdə dünyadan getsin.

Məhəmməd peyğəmbərin şəriətinə, millət və islamiyyətinə əsasən, Allahın bəyəndiyi niyyət və təşəbbüslərə nəzərən düşmən qabağından qaçmaqla can vermək qəbahətli və rəva görünməyən hərəkətlərdəndir. Bilirsiniz ki, bizim bu məzaristanımızda yatan babalarımızın sümükləri çıxarılıb kənar kənddə yandırıldıqdan sonra onların məzarları yerində Ermənistan təşkil ediləcəkdir. Mən axirətdə məsum olmaq üçün müdafiəyə qalxıb qüvvəm çatdığı qədər çalışacağam,-deyib, sözünü qurtardı. Qeyrətli vətənpərvər Novruz KİŞİNİN sözünə baxmayıb hamısı qaçmaqda idilər.

Vətənpərvər Novruz KİŞİ (Əfv et məni, ey ustad! Əlimi saxlaya bilmədim. O vaxt ağalarımız ağa, bəylərimiz bəy olsaydı, satqınlıq edib xalqı başsız qoymasaydılar çox məsələlər onda həll olunar, bu günə qalmazdı. Xalq yaxşı deyib: Yaxşı ağanın həyətinə daş atıb, bağ-bostanına mal-qara buraxmazlar. Ona görə də diqqətsizlik ucundan buraxılan səhvi-Kazımı Novruzla, həmçinin ağa sözünü KİŞİ ilə əvəz etdim, həm də kişi sözünü böyük hərflərlə yazdım. Ey xalqımızın torpaq, yurd üstündə şəhid getmiş mərd oğlu! Allah sənə min rəhmət eləsin! Qoy sənin itgin düşmüş məzarın nurla dolsun. Amin!-(red.) kəndi boşlamadıqda bir azdan ermənilər tərəfindən nişana alınır. Qohumları Novruz KİŞİNİ mühasirədən xilas etməyə gəlsələr də, düşmənin çoxluğundan qeyrətli qocanı qurtarmaq mümkün olmur.

Bu sözlərin hamısı bir erməninin dilindən eşidilmişdir. Bir az sonra ermənilər yenə hücuma keçirlər. Novruz KİŞİ onlardan birini də öldürüb qalanlarını qaçmağa məcbur edir. Gülləsi qurtaran Novruz KİŞİ həyəcanlı halda tüfənginə saçma doldurarkən ermənilər hücum edir, evin qapısını odlayıb onu diri əsir alırlar. Kəndin əksər yerlərini odlayıb, məscidi, minbəri, müqəddəs kitabları və Novruz KİŞİNİN evini də odlayıb onu əli bağlı Tijrabat adlı erməni kəndinə aparırlar. Orada min cəfa və əziyyətlə başını kəsirlər. Ermənininin dediyinə görə, Novruz KİŞİNİN başını kəndin keşişi Ayrapet kəsmişdir. Zira, Gözəcikdə Novruz KİŞİNİN vurduğu ermənilərin birisi keşişin oğlu imiş. Beləliklə, Novruz KİŞİNİN başını "min beş yüz müsəlman sərkərdəsinin başıdır" deyə əvvəlcə Aleksandropol, sonra isə Bakı şəhərinə göndərmişlər.

2 İyun xəbərləri. İyun ayının ikisində müsəlmanların o vaxta qədər pənahgahı olan Mənkus kəndinə hücum edilir. Bu dəfə erməni alaylarının sayı 10 minə çatmış bir toplu qüvvədən ibarət idi. Hər dəfə də beş min tüfəngdən kənd üstünə atəş açılırdı. Kənd müsəlmanlarının çoxu silahsız olduqlarından fürsət düşdükcə ailələrinin əlindən tutub qaçırdı. Kənd tamam boşaldıqdan sonra, yerindən tərpənə bilməyən 80 yaşlı əlil bir qoca erməni əlinə düşüb şəhid olmuşdur. Deyildiyinə görə, onu təndir şişi ilə öldürmüşlər. Gözəcik müharibəsində, ətrafda müsəlmanlar köməyə çağırdığı vaxt, 15 fərsəx aralı, mahalı Qaladibi kəndindən olan kənd ağası Cahanbəxş bəy iki nəfər kürd atlısı da yanında Xonkus kəndində imiş. Bu vaxtda üç nəfər də tüfəngini götürüb kəndin şimal-şərq tərəfində uca bir dağa çəkilib qadınları təqibə başlayan erməni dəstələrinə yüksək qalaların üstündən atəş açırmışlar. Bu atəşdə erməni dəstəsindən ikisini vurub qətlə yetirirlər. Beləliklə, arvad-uşaqlar qaçıb 15 fərsəx məsafədə olan Təzəkəndə doluşurlar. On iki dağılmış islam köylərinin hamısı bu kənddə toplanmışdılar.

1905-ci il 3 iyun. İyun ayının 3-də yüz əlli evli və aralıqda qalanı Güllücə adlı islam kəndinə ermənilər tərəfindən hücum başlanır...

Müharibənin başlanması. İyun ayının 3-də sübh zamanı Güllücə kəndinin şimal tərəfində yerləşən 14 mara kənddən ki, hər biri dörd yüz evə yaxındır, 10 minə qədər könüllü erməni əsgəri cəm olub və cənub tərəfdə uca dağ dalındakı beş yüz evli Başkeni adlı erməni kəndindən hücum edib Güllücə kəndini nişana almaqla güllə yağdırırdılar. Ermənilərin məqsədi müsəlmanları özlərinə əlaltı etmək, yaxud onları məhv edib çoxdan bəri arzusunda olduqları istiqlaliyyəti əldə etmək imiş. Buna görə bütün məmləkət erməniləri əldə silah müsəlmanlar əleyhinə qiyam etmişdilər. Güllücədə olan islam əhalisi silahsız olduqlarına görə qaçıb

kəndi ermənilərin işğalına verirlər. Camaat artıq kənddən uzaqlaşandan sonra, sərvəti və dövləti ilə məşhur olan Məşədi Qənbər, Mahmud, Hacı Hüseyn və başqaları 15 nəfər mallarını mühafizə üçün kənddə qalıb silah götürməklə səkkiz ermənini qətl edirlər. Nəhayət, ermənilər Mahmudu öldürüb, kənd içində sahibsiz buraxılmış bir qadını da səkkiz güllə yarasıyla qətl və edam edirlər. Qalan müsəlmanlar qaçıb verstyarım məsafədə olan Tutya, Damagirməz, Kamal adlı islam kəndlərinə pənah aparırlar. Bu qaçhaqaçda hamıdan dala qalmış Mir Süleyman Seyid Mustafa oğlu adlısı at ilə qaçarkən ermənilər vurub atını öldürür, o isə bir erməni öldürməklə canını qurtara bilmişdir.

4 iyun xəbərləri. Ayın 4-də aralıqda qalmış 150 evli Kamal kəndi mövqelərini təhlükədə gördüklərindən arvad-uşaqlarını götürüb kəndə hücum edilməmiş, cənub tərəf düzlərlə Damagirməz kəndinə qaçırlar. Bu kəndlərin də camaatı onlara qoşulub 20 verst məsafədə olan, yuxarıda adı çəkilən Təzəkəndə pənah aparırlar.

Bu kənddə 18 gün ağır ehtiyac içində gün keçirəndən sonra İrəvanda bir də sülh edilib ətrafa qoşun göndərildiyi kimi, Güllücə kəndində də bir rota soldat qoyuldu. Bundan sonra müsəlmanlar yerlərinə qayıtdılar.

## EÇMİƏDZİN, ÜÇ KİLSƏ HADİSƏLƏRİ

*(Xüsusi məktublardan)*

İrəvan iğtişaşlarında məlum oldu ki, müsəlmanlar hərb fənninə yaxşı bələd deyillər və bundan əlavə, hamılıqla döyüş silahından məhrum olduqlarından mahalda ermənilərin təcavüzünə məruz qalan camaata əsla bir köməkdə bulunmadılar. Buna görə ermənilər qol-qanad açıb Qırxbulaq mahalına hücuma keçib müsəlmanları son dərəcə pərişan etdilər.

Digər tərəfdən Üç kilsə müsəlmanlarını qətl-qarətə başlayıb, coğrafi ərazinin namünasibliyi ucundan islamlara misli görünməmiş cəfalar edilmişdir. Dağılmış kəndlərin kədərli əhvalatları aşağıda olduğu kimi sıra ilə nəql edilir.

Eçmiədzinin coğrafi vəziyyəti. Eçmiədzin mahalı dediyimiz məşhur Xanavəng çayı ilə Anpur suyu arasında geniş bir ərazini tutan gözəl seyrangahları ilə, bağçaları ilə məşhur olan bir yerdir. Şimalında Ələyiz dağları, Abaran ölkələri, böyük Ermənistan adlanan Aleksandropol, Pənbək, şoragöl vilayətləridir. Qərbi Anpur suyu, şərqi ilə Xanavəng çayı, İrəvan vilayətləridir. Cənubunda "Üç kilsə" deyilən qədim erməni məbədgahı və erməni mərkəzi yerləşir.

1905-ci il ermənilərin müsəlmanlar əleyhinə qiyamları və yaxud əsgər

toplanışı. İyun ayının 3-də Abaran ölkəsindən Şoragöl, Pənbək, Aleksandropol ermənilәri bir yerə yığışıb Uşu adlı islam kəndinə hücuma keçdilər. Həmin ayın üçüncü günü İlançalan erməni kəndi ilə Uşu kəndi arasında hər tərəfdən istehkamlar qurulub saat 9 radələrində müharibə başlanır. 8 saat şiddətli müharibədən sonra ermənilər davam gətirməyib bir çox tələfatdan sonra qaçmağa məcbur olurlar. Sağ qalıb qaçanlar əlacsızlıqdan özlərini Xanəvəng çayına vurur, bir neçəsi suya batdıqdan sonra o biri sahilə keçirlər. Bu müharibədə müsəlman cavanlarının atdığı güllələrin birisi də boşa keçməyib ermənilərin köksünə dəydiyindən çoxları dava meydanında sərilib qalmışdı. İyun ayının dördündə ermənilərin dəstələri son dərəcədə pozğun və müharibəyə hazır olmadıqlarını düşünüb davanı təxirə saldılar. "Bu müsəlmanları belə az qüvvələrlə məğlub etmək olmaz" deyə yenə ətrafdan əsgər yığmağa başladılar. Hər saatda piyada və süvari halında müsəlmanların gözü önündə, hər erməni dəstəsi (firqələri) gəlib öz hissələrinə birləşdilər. Müsəlmanların isə hər tərəfdən yolları kəsildiyindən bir nəfər də olsa köməyinə gələn yox idi. Müharibədən qabaq ermənilər bütün yolları kəsdiyindən heç tərəfdən get-gəl mümkün deyildi. Hər tərəfi bağladıqlarından hücumlarını ancaq şimal tərəfdən icra edirdilər.

İyun ayının 5-ci günü. Ayın beşində müharibəni ermənilər başlayıb bir neçə döyüş keçirdikdən sonra məğlub olub istehkamlarına çəkildilər. Bu müharibədə müsəlmandan 2 nəfər qətl olub bir nəfər də yaralandı. Bu halı gördükdə ermənilər 6 və 7-ci gün müharibəni dayandırıb yenə əsgərlər toplamağa və əsgəri nöqsanlarını düzəltməyə çalışırlar. Ancaq hər tərəfdən səngərlərə mühafizə əsgərləri qoyulmuşdu.

İyun ayının 9-dakı hadisələr. Bu gün hər tərəfdən müharibə başlanıb. Bu müharibədə ermənilər məhz sürətli atəş açan beşaçılan tüfənglərdən istifadə edirdilər. Ona görə müsəlmanlarda olan az-çox berdanka tüfənglərin gülləri düşmən mövqeyinə təsir etmirdi. Bu səbəbdən müsəlmanlar səngərləri boşlamayıb davam etdiyindən artıq tələfatlara düçar olurdular. Digər tərəfdən müsəlmanların patronları və sair hərbi ləvazimatları qurtarmaqda idi. Müharibə səhərdən axşama kimi davam etdi. Müsəlmanlar yavaş-yavaş istehkamları tərk edib Uşu kəndinə çəkildilər. Müsəlmanlar artıq müharibəni mənasız bilsələr də, yenə "gözümüz baxa-baxa kəndi düşmənə buraxmarıq"-deyib döyüşə girişdilər. Bu vaxtda arvad-uşağı məscidə yığıb özləri vuruşmada idilər ki, aşağıda təfsilatı ilə verilir.

Uşu daxilində müharibə. Axşama iki saat qalmış erməni bölükləri (diviziyaları) hər tərəfdən hücuma başladılar. Ermənilər kəndə yaxınlaşdıqda bir qoca erməni keşişinin başı üstündə hərbi bayraq müharibəyə məxsus

mahnılar oxuyurdular. Erməni keşişi böyük məharətlə kənd içində əlində xaç erməni piyada bölüklərinin qarşısında durub onları hərbə ruhlandırırdı.

BU MÜHARİBƏLƏRDƏ ERMƏNİLƏRİN ŞAN-ŞÖHRƏTİNƏ ZİYAN VURAN BİR İŞ VARDISA, O DA MÜHARİBƏ VAXTINDA SÜDƏMƏR KÖRPƏLƏRİ, QOCA QARILARI ÖLDÜRMƏK İDİ. Ermənilərin hücumunu görən Paşa Budaq oğlu məscid qapısına gəlib arvad-uşağı məsciddən çıxarıb yolsuz keçidlə, dağlarla aparıb yüksək yaylaqlarda Sürməli kürd tayfalarının himayəsinə tapşırır. Bu vaxt axşama bir saatdan da az qalmışdı ki, kənd içində müharibə başlandı. Axşam alaqaranlıqda davam edən xəncər müharibəsində müsəlmanlardan dörd nəfər: iki əlil kişi, iki qoca şəhid oldu. Müsəlmanlar bu müharibədə xəncərlə, ermənilər tüfənglə müharibə edirdilər. Ona görə bu müharibədə 180 nəfər erməni tələf olub bir o qədər də yaralandı. Erməninin çoxluğundan, demək olar ki, bir nəfər müsəlmanın qarşısına 15 nəfər erməni çıxırdı. Ona görə də müsəlmanlar artıq kənddə durmağı münasib bilməyib kəndi boşaltdılar. Ermənilər hər tərəfdən kəndə od vurdular. Bir sıra müqəddəs əşyalar, Quran kitabı, başqa bu kimi əşyalar da yandırıldı. Müsəlmanların zərəri iki yüz min manat təxmin edilirdi. 9 iyunda aşağıda adları qeyd edilən kəndlər dağıdılıb məşhur Təkyə adlı islam kəndi üzərinə hücum başlanır. Dağılmış kəndlər bunlardır: Pərsi, Nazrəvan, Kiçikkənd, Kötüklü, Qoşabulaq, Anpur çayının sahilində İrgu, Əngirsək kimi 7 məşhur kənddən ibarətdir.

1905-ci ilin 9 iyununda baş verən Təkyə müharibəsi. İyun ayının doqquzuncu günü saat 12 radələrində məşhur Təkyə adlı islam kəndinə hücum oldu. Müsəlmanlar tamamilə silahsız, ermənilər isə mükəmməl silahlı olduqlarından müsəlmanlar kəndi boşlayıb, arvad-uşaqlarını götürüb yüksək təpələr başına pənah apardılar. Axund Məhəmməd Əli Mirzə Əbdül-Hüseyn Qazızadə cənablarının böyük imarətlərinə od vurulub iki yüz cild Quran və müqəddəs kitabları da yandırıldı. O cənabın kitabxanası və Qazı idarəsinə məxsus kitablar eləcə məhv edildi. Qazının xidmətçisi yüksək qayalardan baxdığı vaxt Quranları ermənilər süngülərə keçirib məşəl kimi yandırırmışlar. Əvvəlcə islamların gizləndiyini güman edib məscidə o qədər güllə vurmuşdular ki, divarlar bal şanı kimi dəlik-dəlik olmuşdu. Sonra məscidin minbərini və sair müqəddəs əşyaları da odlamışdılar. İYUN AYININ 10-DA EÇMİƏDZİNDƏ 9 MƏŞHUR İSLAM KƏNDİ DAĞIDILDI, HÖKUMƏT İSƏ HEÇ BİR TƏDBİR GÖRMƏDİ (Mənə hər yerdən məktublar gəlir. Bəzi yerlərdə hökumət etinasızlıq göstərdiyi kimi, bu mahalda da etinasız rəftar edib bir çarə qılmadı. Ümid edirəm ki, hər iki millət bunun mənasını gözəlcə başa düşür).

## CƏBRAYIL-QARYAGİN HADİSƏLƏRİ

*1905-ci ilin iyun ayının 13-dən başlayan Gəncə quberniyası Cəbrayıl-Qaryagin hadisələrindən bəhs edir*

Mənim "İrşad" qəzeti vasitəsi ilə yazıb erməni-müsəlman hadisələrinə dair məlumat istədiyimdən sonra Mirzə Camal Yusifzadənin göndərdiyi jurnaldan və bir para məxsusi məktublardan iqtibas olunub redaktə edildikdən sonra dərc edilmişdir.

Mülahizə, yaxud düşüncələrim. Oxucuların məlumatı olsun ki, hər tərəfdən mənim əlimə gəlib çatmış məlumatların bir çoxunda ermənilərin istiqlaliyyəti-idarə muxtariyyəti tələblərindən uzun-uzadıya bəhs açılır.

Bu Cəbrayıl hadisələrinə gəldikdə, bu qarışıq söhbətləri büsbütün sübuta yetirib bir çox dəqiq məlumatlar verməklə oxucuları bir sıra şübhəli fikirlərdən azad edir.

Mənə qalarsa, ermənilərin bu hərəkətlərinə və imkan xaricində olan istəklərinə boş bir xəyal, xeyri olmayan bir fikirdən başqa bir söz deməyəcəyəm. Zira, erməni milləti bir para mövqedə var qüvvəsini islamlara vurub, çox da çalışdılar, çalışıb da məğlub oldular. Bunu da nəzərə almalıyıq ki, islamlarda nə hərbi qüvvə, nə odlu silah, nə də müharibə və nizam görmüş əsgər var idi. Digər tərəfdən hökumət məmurlarının bəzi məsələlərdə onlara etdikləri köməyini bir kənarda qoyub da, özlərinin 20 ildən yığdıqları tədarüklərini nəzər-diqqətə aldıqda ermənilərdə böyük yaramazlıq meydana çıxır. Belə işlərə qoşulmuş ermənilərin Rusiya, yainki Türkiyə əleyhinə baş qaldırmaları bir uşaq fikridir, zənnindəyəm.

**Məqsədin ərzi**. 1905-ci ilin iyun ayının 13-də 2 nəfər müsəlləh erməni daşnaksütyun əsgəri Qacar kəndinin sakini Əhməd Kərbəlayı Qasım oğlunun evinə gəlib bu sözləri söyləmişlər:

"Biz iki nəfər daşnaksütyun firqəsindən olub iki möhtərəm şəxsin aşağıda yazılmış sözlərini siz müsəlman camaatına çatdırmaq üçün gəlmişik. Daşnaksütyun firəqəsinin səlahiyyətli adamları sizi iyun ayının 16-da məşhur Ağ oğlan monastrına dəvət edirlər. Əlbəttə, adları aşağıda qeyd edilmiş kəndlərə xəbər verilib. Deyilən vaxtda hamınız ora gəlsəniz lazımi sözlər vardır, sizə söyləyəcəklər. Həmən kəndlər: Divanəli, Yağlıvənd, Dilağarda, Veysəlli kəndlərindən ibarətdir.

İyun ayının 16-da həmin kəndlərin camaatı əksəriyyətlə monastıra yığılıb ermənilərin iştirakı ilə bir mitinq keçirdilər.

Yığıncağın təsviri. Erməni və müsəlmanların iştirakı ilə "Ağ oğlan" monastrında yığıncaq edilir. Yığıncaq monastrın həyətində olub, bir çox stollar, stullar düzülmüşdü. Fəqət yığıncağın mərkəzində üç bəzəkli kürsü

qoyulduğundan qabaqca adları qeyd edilmiş erməni başçılarının kürsüsü olduğu meydana çıxırdı. Bir azdan sonra möhtərəm şəxslər yığıncağa daxil olub mərkəzdə qərar tutdular. Bundan iki dəqiqə sonra, yəni rəsmi təqdimat qurtaran kimi yığıncağa Baxşı adlı bir erməni daxil olub aşağıda yazılmış sözlərini sona yetirməmiş ermənilər onun susmasına işarə etdilər: "Camaat! Sizin mahalınıza, kəndlərinizə üç nəfər möhtərəm şəxs qonaq gəlmişdir. Mən isə çartazlı Baxşı adlı bir nəfərəm ki, əsl adım-ismim Aşotdur ki, bu möhtərəm şəxslərə kitabbaşı və mütərcim xidmətini ifa edirəm. Bu orta kürsüdə əyləşən çox hörmətli bir vücuddur ki..." Söz bura yetişəndə ermənilər qışqırıq salıb, "sus, sus" deməklə onu susdurdular. Sonra sağ tərəfdəki kürsüdə əyləşmiş möhtərəm şəxs çox vüqar və əzəmətlə qalxıb bu nitqi söylədi:

*NİTQİN MƏTNİ*: "Camaat! Biz erməni-müsəlman və bütün qafqazlılara lazımdır ki, hər bir mətləbə bir məsəl gətirib, tainki bu tövrlə camaatımıza bir söz başa salaq. Zira, bizdə, xüsusən siz müsəlmanlarda əsla elm-mərifət (!) nuru yoxdur. Əlbəttə, insanda elm-mərifət nuru olsa, bu nur ilə sözün əsl mənasını, yəni nədən ibarət olacağını anlar. Buna görə, məsələsiz mətləb bizə iş vermiyor. Mən bu sözümü istinasız olaraq erməni və müsəlmanlara deyirəm. İndi bilirsiniz ki, biz qafqazlılar rus millətinin qapazları və zülm-sitəm boyunduruğunun altında yaşayıb, kefləri istədiyi qədər əllərindən və dillərindən gələni bizlərə edirlər. Bizə çox zülm və insafsızlıq etmişlər. Bizlərin insan hüququnu payimal və istibdad təpikləri altına alaraq, bizim həqiqi və məxsusi həyatımızı əlimizdən çıxarmışlar!

Biz erməni milləti neçə vaxtdan bəri milli hüququmuzu və idarə istiqlaliyyətimizi tələb etmək təmənnasındayıq. Nəhayət, bizim düşmənimiz olan Rusiya səltənəti böyük cüssəli bir fil mənziləsindədir. Bizlər və sizlər, daha doğrusu rus olmayan başqa xalqlar aciz olub həmişə zalım hökumətin, o qəvicüssə filin qorxusundan küncə qısılıb, ac-yalavac sızıldamaqda idik. Amma, Allah-taalaya minlərcə şükr olsun ki, bizdən də aciz olan Yaponiya milçəkləri bu zalım filə o qədər zərbə vurdu ki, bizim arzumuzun sonuna yetişdi. Həmən milçək zalım fili o qədər o yan bu yana qovaladı ki, axırda arxası üstə dərin bir xəndəyə-kanala yıxıldı. İndi haydı, qardaşlar, gəlin əl-ələ verək, həmin filin ətini parça-parça edib məhv eyləyək.

Bəlkə bu filin ətini-qanını məhv etməklə uzun illərdən bəri qəflət içində yaşamış millətlərin də üzünə ədalət nuru düşə və səlamətlik görə, haydı, qardaşlar, haydı!"-deyib sözünü qurtardı. Sonra sol tərəfdə oturan möhtərəm şəxs təntənə ilə ayağa qalxıb bu nitqi söylədi:

2-Cİ NİTQİN MƏTNİ: "Camaat! Biz erməni milləti çoxdan bəri bu

xəyalda idik ki, Qafqazda bir qazan, yəni xörək bişirək qab asıb onun içində ədalət, müsavat xörəklərini bişirib sizi və bir neçə tayfaları da bu xörəyə şərik edək. İndi, həman qazan hazırdır və onu qoymağa bir sepayə-üç ayaqlı lazımdır ki, onun üstündə qazan dursun.

Həman sepayənin birisi ermənilər, birisi də gürcülərdir. İndi lazımdır üç ayaqlının, yəni sacayağının bir ayağı da siz müsəlmanlar olasınız. Əlbəttə, lazımdır müsəlman qardaşlarımız bizim sözümüzə baxıb sacayağının üçüncü ayağı olsunlar. Biz bu sahədə müsəlmanlara ümidvarıq-deyib sözünü tamam etdi. Sonra orta stulda təmkinlə oturan üçüncü şəxs əzəmətlə ayağa qalxdı, bu nitqi söyləyib, dəfələrlə camaatı sorğu-suala tutub fikrini öyrəndi.

3-CÜ NİTQİN MƏTNİ: "Ey min illər ilə mehriban qonşuluq edən nəcib müsəlmanlar! Aya, eşidibsiniz neçə vaxt bundan əvvəllər Üç kilsə-Eçmiədzində nə qədər hərbi sursatımız hökumət tərəfindən ələ keçirilirdi?!" "Müsəlmanlardan: "Bəli! Bəli!" "Aya, eşidibsiniz Şuşada bizim nə qədər odlu silahlarımız qəbristanda və sair yerlərdə tutuldu?!". Müsəlmanlardan: "Bəli! Bəli!" Bəs bu sözlərdən məlum olur ki, bizlər bu gərəkli şeyləri tədarük etmişik, nəki özümüzə, bəlkə sizlərə də kifayət verən qədərdədir. Əgər, sizlərdə himmət və qeyrət olsa, nə qədər silah və pul lazım olsa bizdə hazırdır. Yüz əziyyətlə cəm etdiyimiz sursatı, hərbi ləvazimatı sizlə bərabər məsrəf edərik. Yoxsa ki, əksinə həman hərbi silahlar sizə qarşı işlənib bəlaların hamısı sizə toxunacaqdır. Əlbəttə, deyilən işlərə sizdən yardım olmasa, bəla ildırımları sizi odlayıb əziz vətəninizi xarabalığa döndərəcəkdir. Doğma evləriniz də məzarlığa çevriləcəkdir. Bu məzarıstanın da qəmli guşələrində dəfn olunan siz və övladlarınız olacaqlar"-deyib əyləşdi. Bundan sonra islamlar tərəfindən etiraz edilib məclis sona yetdi (Mən möhtərəm müxbirimin sözlərini həqiqət bilib mitinqdən çıxışların mətnini dəyişmədən dərc etdim. Çünki mənim bu əsərim milli və şəxsi qərəzlikdən uzaq olub, hər kəsin yazısını tənqid süzgəcindən keçirdikdən sonra dərc edirəm. Möhtərəm şəxs nitqində müsəlmanları hədələdiyinə cavab olaraq "Əfəndim, Cəbrayıl müsəlmanları da bal mumundan qayrılmamışdır. Əlbəttə, onların da iki əli var. Ancaq bizə qalarsa, biz ümumi sülhün arzusundayıq").

Ermənilərin nitqinə islamların etirazı. Erməni millətçiləri nitqlərini qurtarandan sonra müsəlmanlara hədələyici sözlər də söylədilər. Buna görə belə rəva görülməyən fikirlər müsəlmanların könlünə yatmayıb etiraz əlaməti olaraq adları aşağıda deyilən Qacar kəndinin sakinləri ayağa qalxdılar və ən əvvəl Qasımzadə Molla Əbdürrəhim, Tapdıq Talıbxanov bu sözləri dedilər:

"Biz müsəlmanları siz ermənilər yaxşı tanımayıbsınız! Bizim heç vaxt belə hədələrdən qorxumuz yoxdur. Əlbəttə, biz müsəlman milləti sizin əsgərləriniz deyilik! Bizim sizin azuqə və silahlarınıza ehtiyacımız yoxdur. Zira, bizim hərəkət xəyalımız olsa, azuqə əskik deyil. BİZ YATMIŞIQ Kİ, BİZƏ AZUQƏ VERİB PADŞAHIMIZIN ÜZÜNƏ AĞ EDƏSİNİZ?! BİZİM TƏRİQƏTİMİZ HƏR HALDA, BU İŞLƏRİN ƏKSİNİ TÖVSİYƏ EDİR" -deyib, sözlərini bitirdilər. Bu halda bütün müsəlmanlar qalxıb "biz bu işlərə şərik deyilik",-deməklə monastırdan çıxmaq istəyirlər...

Bu halda erməni rəislərinin birisi ayağa durub,-Müsəlmanlar, dayanınız! Dayanınız! Bir sözüm də var, deyib qurtarım, sonra gediniz". Müsəlmanlar dayandılar. Erməni söylədi: "Bilin və xəbərdar olun! Biz üç nəfər erməni rəisindən başqa yenə komitə məmurları vardır ki, bu sözləri sizə sifariş etmişlər. Hərgah yığıncaqda danışılan sözləri müsəlmanlar qəbul etməsə, daşnaksütyunun cəza qoşunu tərəfindən artıq təhlükələrə tuş olmalıdırlar. Müsəlmanlardan ("Eyb etməz, eyb etməz!")"-sədası ucalmaqla məclis dağıldı.

*İğtişaş xəbərləri.* Yuxarıda qeyd edilmiş yığıncaqdan sonra erməni millətçilərinin söylədiyi bəla ildırımları Şuşa üstünə düşdü. Məlum olduğu kimi, ermənilər bir zərbə müsəlmanlara vurduqda iki zərbə də özləri yedi. Belə ki, həman kənddə ermənilərin darmadağın olmağına az qalmışdı. Keçici xəstəlik hər tərəfə sirayət edib bir çox evləri xaraba qoydu. Bu iğtişaş axırda Cəbrayıl uyezdinə də sirayət edib, var-dövlətlə məşhur olan 25 evdən ibarət Divanəli kəndi ermənilərin hücumuna qurban oldu. Ermənilər Divanəli kəndinə hücum etdikdə müsəlmanlarda sərbəst və mətanət olmadığından ailələrini götürüb, əşyalarını qoyub qaçdılar. Ermənilər isə tez-tələsik qarətdənç sonra kəndi oda tutdular. Qiymətli dam-daşları söküb ağaclarını Süst adlı erməni kəndinə daşıdılar. İndiyə qədər həmən kəndin əhalisi çıl-çılpaq olaraq dilənçi kimi düzləri dolanmaqda oldular. Vəhşilər müsəlman bağlarının ağacların da doğrayıb ermənilərə verdilər. Bu növ ilə həmən kənddə müsəlmanların sakin olması üçün bir məişət yeri qoymayıb, kəndi dağıtmaq üçün bir çox tədbirlər gördülər.

Veysəlli kəndi faciəsinə dair. Divanəli kəndi dağıdılandan sonra ermənilər Veysəlli kəndini dağıtmaq üçün kəndin qonşuluğunda Çartaz (Çartaz 950 evdən ibarət varlı erməni kəndidir) ermənilərini silahlandırıb başqa erməni kəndlərinin yardımı ilə Veysəlli üstünə hücuma başladılar. Ermənilər ümumi bir qüvvə ilə hər tərəfdən kəndi nişana alıb güllə yağdırmağa başlayınca müsəlmanlar da hərbi qüvvələrinin az olmasına baxmayaraq onlara qarşı çıxırlar. Bir az döyüşdən sonra ermənilərdən 15 nəfər öldürüb özlərindən bir nəfər şəhid olmaqla kəndi boşlayıb çıxmağa

məcbur olurlar.

Erməni qonşular kəndi dağıdıb hər tərəfini yandırdılar, kənardan durub tamaşa edən bir müsəlmanın mülahizəsinə görə il uzunu bir evdə çörək yeyib çay içmiş erməni qonşu həmən evi hamıdan qabaq yandırmağa səy göstərirmiş. Bu kənddə müsəlmanların ziyanı həddən çox idi.

Qacar hadisələri. Kədərli veysəlli hadisəsindən sonra erməni daşnaksütyunları yüz əlli evdən ibarət Qacar kəndinə hücuma başladılar.

Qacar kəndi hadisəsi həqiqətdə bütün kəndlərdən fərqli olmalıdır. Günəşin çıxmasına üç saat qalmış daşnaksütyun firqəsinin generalı Aslan bəy (Aslan bəyin adı əvvəllər Sokrat olub Canaxçı bəyzadələrindəndi) Məlikşahnəzərovun komandasında olan əfsərlərin başçılığı altında olan kəndləri silah altına çağırıb Qacar kəndinə hücum etdilər.

Ermənilərin Qacar kəndində müharibə edən qüvvələri. Çartaz sakini aşot öz əsgərlərilə, Çıxadüz sakini Bəylər bəy, öz əsgərlərilə, Mavas kəndinin sakini Sancan bəy öz bölükləri ilə Cəbrayıl uyezdinin polkovniki Çırağuz kəndinin sakini Hadrut bölükləri ilə, Saqo adlı erməni komandanı Zəngəzur polkları ilə ümumi qərargah yerinə-Qacarın iki verst məsafəsində qərb tərəfdə yerləşən Vəbaycan adlı mövqeyə toplaşırlar. Həmin yerdə əsgəri ehtiyacları təkmil edərək Qacar üstə hücum üçün ümumi hərbi şura çağırılıb, şuranın aşağıdakı qərarı ilə bölük komandalarına lazımi tərtibat verilir.

Müharibə tədarükatı, yaxud hərb planı. Qacar kəndinin şimal tərəfində yerləşən Xəzəz dağı Məlikşah Nəzərov bölüyünə, cənub tərəfdəki Ocaqlı dağı İşxanov bölüyünə, hər iki dağların qərb tərəfini bir-birinə birləşdirərək mühasirəyə almaq Saqo adlı Zəngəzur komandanına tapşırılır. Yuxarıda qeyd edilmiş komandanlar gecə vaxtı məlum mövqelərdə yerlərini tutub baş komandan Sokratın işarəsinə müntəzir durdular.

Müharibənin başlanması. Sübh çağına üç saat qalmış böyük komandan müşir-marşal Sokrat tərəfindən musiqi ilə müharibə əmri verilib hər tərəfdən Qacar kəndinə beşaçılan tüfənglərdən yağmur kimi güllə yağdırıldı. Bu halda kənddə yuxunun istirahətli və şirin bir zamanında olan camaat hövlank qalxıb kəndi səs və küy içində görürlər. Beşiklərdə istirahət edən cocuqlar da anasının döşünü boşlayıb ixtiyarsız ağlamağa başladılar. Həqiqətən arvad-uşağın nalələri, çocuqların ixtiyarsız inciltiləri, heyvanatın bağırtısı kənddə bir qiyamət qoparmışdı. Bununla bərabər, erməni başçılarının imansız sədaları bu səslərə üstün gəlmək istəyirdi.

Yanan çıraqlar qorxunun şiddətindən söndürülüb, çırağı axşamdan keçmiş evlərdə təzədən çıraq yandırılıb, bu gurultuların nə kimi bir şey olması haqda kənddə yaşayan min nəfər əhalinin darıxmış ürəyindən min

cür fikir, min cür qorxu baş qaldırırdı. Camaat bir-birinə qarışmış kimi qonşuya qaçır, kimisi sahibini oyadır, kimisi də özünü itirib qorxunun şiddətindən divarda çəkilən nəqşlər kimi quruyub qalmışdı. Digər tərəfdən kənddə olan islam könüllüləri-qeyrət və şücaət qanı ilə yoğrulmuş islam cavanları əsla özlərini itirməyib kəndin üç tərəfində səngərlər tərtib verməklə, tək-tək hər bölüyə qarşı çıxıb onlara cavab verməyə başladılar. Arvad-uşaqlar da evdə davam gətirə bilməyib səngərlərə pənah gətirmişdilər. Altı saat qızğın müharibədən sonra kəndin müdafiə sədlərindən kənar olan 55 ev qarət edilib yandırıldı. Bu vaxt müsəlman qadınlarını əsarətə almaq fikri ilə müsəlman sədlərinə ümumi hücum başlandı. Bərəkət versin, islam əsgərlərinin qeyrətinə qarşı dura bilməyib ağır tələfat ilə mövqeylərinə çəkilməyə məcbur oldular. Müsəlmanlar bu vaxt böyük qətiyyət göstərib sədlərdən çıxıb düşmən üzərinə atılırdılar. Bu halda başqa müsəlman kəndləri işdən xəbərdar olub atına minib kömək üçün Qacar hərb meydanına yürüş edirdilər. Əvvəlcə kömək üçün gələn Yağlıvənd sakini Həsənəli bəy Əsgərxanov cənabları idi. 20 müsəlləh suvari ilə Xəzəz dağına yetişib Məlikşah Nəzərov bölüyünə yaxınlaşıb şiddətli atəş açar. Həsənəli bəy süvariləri düşmənin qüvvətindən çəkinməyərək hər dəqiqə yürüş etməklə ermənilləri sədlərdən çıxarıb Xəzəz dağının təpəsini işğal etdi. Dağın təpəsinə çatar-çatmaz süvarilərinə lazımi göstərişlər verib yenə müharibəyə başladı. Müsəlmanlara gəldikdə ermənilərin mühasirə xəttinə baxmayaraq sədlərdən bayıra atılıb sivirmə xəncərlə bəxtə-bəxt hücuma başlamışdılar.

Yuxarıda adı çəkilən Aşot adlı erməni əfsəri öz bölüyünün bir alayı ilə səngərdə qətl edildi. Müsəlmanların gözləri qızıb müharibə elədilərsə də, yenə hər yerdən müsəlmanlar köməyə gəlməkdə idilər. Müsəlman könüllülərinin sayı hər saat artmağa başlamışdı. Bu vaxt ermənilər də ümumi hücuma başlayıb müsəlmanları sıxışdırmağa çalışırdılar. Ocaqlı dağından İşxanovun süvariləri də müharibədə iştirak etmək üçün kəndə atəş yağdırırdı.

Müsəlmanların qüvvəti artmağa başladığından sədd dalından müharibə etmək qadağan olub hər tərəfdən yürüş edib erməni dəstələrinin içinə qarışdılar.

Dörd saat tamam erməni-müsəlman bir-birinə qarışıb müharibə etdi. Dörd saat davam edən süngü və xəncər müharibəsində ermənilərin mənəvi qüvvələri tükənib yavaş-yavaş geri çəkilməyə başladılar. Müsəlman cavanlarına gəldikdə ermənilərin geri gedən yollarını kəsib, bir çox tələfat verdikdən sonra ermənilərin qaçanlarını yenə müsəlman süvariləri təqibə başladılar. Müsəlmanların təqibi halında ermənilər dümdar (quyruq-

aryerqard) buraxıb on verst yol müharibə olundu. Müsəlmanlar geri dönərkən Əfşar adlı erməni kəndini büsbütün çapıb dağıdaraq, üç nəfər də erməni əsir aldılar. Geri çəkilmiş erməni komandaları əsgərlərinin ehtiyacını yenə təkmil edərək üç min qüvvə ilə dübarə Qacar kəndinə hücum etmək üçün aşağıda yazılmış şərtləri qoydular.

Əvvəla, Qacarda olan kişiləri qırıb, qadınlarını əsarətə alıb ermənilərə paylasınlar.

2-Bu əsgərdən bir nəfər qalana kimi müharibədən geri durmayıb təlaş etmək.

Bərəkət versin ki, ermənilər yenə mərama nail olmayaraq, məğlub oldular. Qacar müharibəsində müsəlmanlara mal zərəri 90 minə qədər olub, can tələfatı isə 12 nəfərdir. Ermənilərdən 150 nəfər hərb meydanında qətl olunmuş 200-ə qədəri, yaralansa da, hamısı xidmət yerlərində olmuşlar. Hətta bəzi ermənilərin sözünə görə ermənidən tələfat 253 nəfərə yaxın idi.

Cəbrayıl və Qaryagin uyezdinin son hadisələri. Kədərli Bakı faciəsindən sonra Qaryagində erməni və müsəlman arasında xalis bir məhəbbət başlənməkdə idi. Bu ətrafda erməni ilə müsəlmanın vuruşmasına məhəbbətin gündən-günə artmağa başlamasından meydan qalmamışdı, deyilsə idi, daha doğru olardı. Amma bu, müsəlmanları müdafiə xəyallarından və milli hisslərdən məhrum etmək istəyi ilə zahiri bir məhəbbət imiş ki, müsəlmanlara qarşı izhar edilirdi, bu işlərə aid bir çox məlumatlar vardır ki, sübuta ehtiyacı yoxdur. Belə ki, Şuşa şəhərinin əvvəlinci faciəsindən sonra Şuşa əhli Mürsəl HacıQulu oğlu Qaryagində Qarabulaq bazarında bir qonaqlıq edib, məhəlli hökumət məmurlarını və bir çox əyan və tacir qismindən də dəvət etmişdi. O cümlədən İsfəndiyar bəy Vəzirov və Ağa bəy İşxanov da dəvət edilmişdi.

Ağa bəy erməni süvari olaraq İsfəndiyar bəyə rast gəlib "Mürsələ vədəli olmusan, bəs hara gedirsən?"-söylədikdə, "vaxtında gələcəyəm"-cavabını verib keçmişdir. Axşam zamanı İsfəndiyar bəy dəvət olunduğu yerə-qonaqlığa gedərkən yolda Qriş adlı davaçının dükanına girir və Qrişadan bu sualları eşidir:

-A bəy! Nə üçün pristav mirzəsi İsrail Teroqanesovdan sual etmədin ki, Ağa bəy hara gedir?!

İsfəndiyar bəy:

-Mən özüm onu gedəndə gördüm, -buyurunca, Qrişa:

-Yox, çox təvəqqe edirəm gedib bir sual edəsiniz"-söyləyir.

İsfəndiyar bəy:

-Çox gözəl, sən ki, bilirsən, söylə, daha İsraildən sual etmək nəyə

lazım?-dedikdə, Qrişa təkrar olaraq:

-İsraildən sual ediniz-söyləyir.

Bu sorğu-sualdan sonra İsfəndiyar bəy öz-özünə düşünür: "Ey dili-qafil, olmaya Ağa bəy erməni komandanı olduğuna görə bir təşəbbüs üstünə getmişdir,-deyə düşünüb İsraildən məsələni öyrənmək üçün səbrsizlik göstərir. Onun:

-İsrail, Ağa bəy hara getmişdir!-sualına:

-Ağa bəy atından yıxılıb qolu-qıçı sınmış. Çırağuz kəndinə aparılmışdır,-cavabını almışdır. Müxtəsər, İsfəndiyar bəy bir şəkkə düşsə də tərəddüd içində Mürsəlin qonaqlığına gedir.

İğtişaş xəbərləri. Mürsəl adlının qonaqlığından bir gün sonra bazarda alış-veriş edən ermənilər dükanlarını yığışdırıb qeyri-təbii surətdə tələm-tələsik qaçhaqaç salırlar. Səbəbi sual olunduqda cavab verməyib qaçmağa davam edirlər. Çox sonra məlum olur ki, Şuşada müharibə başlanmışdır. Müsəlmanlar bir xəbər öyrənmək məqsədi ilə şəhərə vurduqları teleqrama "müharibə-filan yoxdur" cavabını alırlar. Müsəlmanlar bir neçə gün keçmiş, ermənilər yenə bazara qayıdıb alış-verişə məşğul olurlar. Məqsədləri isə müharibə təhlükəsi gözləndiyi üçün dükanlarını ağır-yüngül etmək imiş.

Xülasə, bir gün məlum oldu ki, bazarda üç nəfərdən başqa erməni qalmamışdır.

Bu işlərdən müsəlmanlara şəkk hasil olub teleqram kantorundan əhval tutunca Şuşada qızğın müharibə olduğu aşkar oldu. Bu xəbər yayılar-yayılmaz müsəlmanlar hər tərəfdən Şıxlı kəndinə yığılıb bu işlər üçün ümumi bir şura edildi. Şurada olan Şuşa əhli və sair camaat "gərək şəhərə gedək"-deyə, atlarına minib yola çıxdılar. Az-çox yol getmiş ikən Cəbrayıl və Qaryagin camaatı hərbi silahlarla silahlanıb yola çıxaraq Şuşa əhli ilə Ağdam yolu getməyə başladılar. Cəbrayıl əhli 300 süvari qüvvə ilə Molla Nəsrəddin yolu ilə irəliləyib Şuşa uyezdinin Cəbrayıl və Qaryaginlə qonşu Şeyxməli adlı kəndə toplaşırlar. Bir neçə mülahizə ilə həmin gecə kənddə qalıb hər tərəfə kəşf qolları çıxarırlar və məlum olur ki, Ağa bəy İşxanovun atından yıxılması yalan imiş. O, çoxlu əsgər toplayıb Nur Məhəmməd dəyirmanı adlı geniş bir düzdə hərbi təlim keçməkdədir.

Müsəlmanlar bu xəbəri alınca "Bu erməniləri burada qoyub, şəhərə getməyin adı yoxdur" deyib, Ağa bəyin hərbi qüvvəsini öyrənmək üçün ora üst-başını dəyişmiş bir neçə adam göndərirlər.

Müharibə məktubları. Şeyxməli kəndində toplanmış islam süvariləri Ağa bəyin dəstəsinin Nur Məhəmməd dəyirmanı adlı geniş mənzərəli bir

düzdə mövqey tutaraq təlim etmək xəbərini aldılar. Lakin qüvvəsini öyrənmək istədilərsə də, casuslardan başqa bir məlumat əldə edə bilmədilər. Bu səbəbdən hər tərəfdən kəşf qolları çıxarıb Ağa bəyin komandası altında düşmənin 1000 nəfərə qədər süvari və piyadası olduğu yəqin edildi.

Müsəlmanlar Şeyxməli kəndində əsgərlərinin sayını götür-qoy edib 500 süvariyə üç yüz piyada könüllü əsgər də daxil edib, səkkiz yüz qüvvə ilə Ağa bəylə müharibəyə girişməyə qərar verdilər. Müsəlman əsgərləri səfər halına qoyulub müharibə üçün ovçu dəstələri çıxardılar. Müsəlmanların ovçu əsgərləri bir güllə məsafəsinə yaxınlaşar-yaxınlaşmaz düşmən mövqeyini atəş ilə döyməyə başladılar. Bu halda müsəlman piyada könüllü əsgərləri yol açaraq düşmənin sağ tərəfini gülləyə tutmaqla yürüşə başladılar. Sol tərəfdən isə müsəlmanlar bir piyada dəstə ilə ermənilər şiddətlə hədələyirdi.

Ermənilər isə qoşunlarını hissələrə bölməyib bir komandanın işarəsi ilə bir yerdə toplanmış halda müharibə etdiklərindən, müsəlman piyadaları ovçu sədləri düzəltməklə düşmənin ümumi qüvvəsini sıxışdırıb hədələyirdi. Digər tərəfdən piyadaların arxasından müsəlman suvariləri atəş açıb erməni süvarilərini çevrəmə halına qoyaraq piyadalarından ayırırdı. Sübhdən axşama dörd saat qalana kimi qanlı müharibə olub erməniləri qaçmağa məcbur etdilər. Müsəlman böyük komandaları ermənilərin qaçmalarını görüncə piyada əsgərləri işarət ilə geri çəkib ümum süvari qüvvəsi ilə düşməni təqibə başladılar. Ermənilər qaçdıqlarından əsgərlərin nizamları pozulmuş, elə buna görə də dümdar dəstələri (aryerqard) buraxa bilməyib çox tələfat verirdilər. Ermənilər geri çəkilib Düdükçü adlı ermənilərə mənsub bir kəndə tökülüşdülər. Bunu görən müsəlman ovçu piyadaları kəndin mühüm mövqelərini tutaraq atəş açdılar. Müsəlman süvariləri dəxi müharibəyə başlayınca ermənilər 10 nəfər tələfatla kəndi boşlayıb qaçmağa üz qoydular. Bu vaxt axşam yaxınlaşdığından həm də hərb meydanı son dərəcə maneəli, daşlıq və sair keçidlər olduğundan erməni qaçqın dəstələrini təqib etməyib kəndi dağıdıb qarət etdilər. Ermənilərin böyük komandanı İşxanov özünün süvar olduğu atla və bir neçə də sair at qənimət kimi ələ keçirildi. Qaranlıq düşən kimi müsəlman əsgərləri hərb meydanında kifayət qədər mühafizə dəstəsi və kəşf qolları qoydular və qənimətlərini də götürüb ordugaha qayıtdılar.

Çəmənli müharibəsi. Sübh zamanı müsəlmanların gəzmə əsgərləri ermənilərin yığılıb Çəmənli adlı müsəlman kəndinə hücum etdiyini xəbər verdilər. Müsəlmanlar dünənki hərb meydanını mühafizə qoşununa tapşırıb, özləri nizami bir qüvvə ilə Çəmənli kəndinə yürüşə başlayırlar. Bu vaxtda ermənilər Haxulu adlı erməni kəndindən Çəmənli əleyhinə

hərəkətə başlayıb yürüş edirdilər. Müsəlmanlar vəziyyətlərini götür-qoy edib əsgərlərini üç komanda altında bölərək üç tərəfdən ermənilərin qarşısına çıxırlar. Bu müharibədə müsəlman piyadaları nəhayət fədakarlıqla çalışıb düşmənin geri çəkilmək yolunu kəsməklə erməniləri sıxışdırırdılar. Ermənilər ağır bir hala düşərək böyük bir müharibədən sonra Haxulu kəndinə çəkilməyə məcbur oldularsa da, döyüş meydanından bir verst kənarda xüsusi nizamla dayanmış müsəlman süvariləri tərəfindən şiddətlə təqib edilirdi. Müsəlmanlar hər tərəfdən Haxulu kəndini atəşə tutub erməniləri həman kənddən də qaçmağa məcbur etdilər. Bu müharibədə ermənilərin tələfatı çox olsa da, qaranlıq düşdüyündən layiqincə öyrənmək mümkün olmadı. Müsəlmanlardan isə bir nəfər-Cəbrayıl Cəfərqulu oğlu yaralanıb orduya çatınca millət naminə şəhid oldu. Müsəlmanlar həmən məhələ də mühafizə dəstəsi qoyub qayıtdılar.

Ağbulaq müharibəsi. Çəmənli müharibəsinin ertəsi gün yenə sübh zamanı ermənilərin təzədən Ağbulaq adlı erməni kəndində toplaşıb, Çəmənli kəndinə dübarə hücum edəcək xəbəri kəşfiyyat tərəfindən xəbər verilir. Müsəlmanlar bu xəbəri alınca əskərin ehtiyaclarını təkmil edərək xüsusi nizam ilə Çəmənli müharibəsinə atlanırlar. İndiyə qədər millət arasında misli görünməmiş dava varsa da, o da yalnız Ağbulaq müharibəsidir, demək olar. Bu müharibədə ermənilər çox yanıxlı müharibə etdiklərindən müsəlmanlar dəxi ümumi hücuma başlayıb o gün axşama qədər qanlı vuruş oldu. Sonra ermənilər son dərəcə pərişan halda öz qərargahlarına-Ağbulaq kəndinə dolub imarətlər arxasında sipər düzəltməklə müharibəyə girişdilər. Müsəlmanlar isə dörd tərəfdən kəndi atəşə tutub axırda ermənilərə çoxlu tələfat verməklə kəndi boşaltmağa məcbur etdilər. Müsəlmanlar kəndi dağıdıb qarət etdilər. Ermənilər, necə ki, başqa yerlərdə, yenə tələfatlarını gizlədirdilər. Ancaq müsəlman əsgərləri öz qabaqlarına yıxılıb can verən erməniləri ölmüş hesab edirdilər. Sübhdən axşama qədər baş verən müharibədə müsəlmanlar zərərsiz, dillərində "şükrani-Məhəmmədət" ordularına qayıtdılar...

Böyük Arış müharibəsi. Ağbulaq müharibəsinin ertəsi ermənilər iki yüz əlli evdən ibarət Xırmancığ adlı erməni kəndinə yığılıb hər tərəfdən könüllü əsgər toplayıb qüvvələrini iki min beş yüzə qədər artırmışdılar. Ermənilər əsgərlərin hərbi ehtiyaclarını düzəldərək bu dəfə müsəlmanları ağır məğlubiyyətə uğradıb yenə bir şöhrət qazanmaq arzusunda idilər.

Xırmancıq kəndi dörd tərəfdən maneəli və keçilməz dağlarla əhatə olunduğundan bu kəndi almaq üçün, heç olmasa 10000 qoşun və bir-iki ay mühasirə tədarükü olmalı idi.

Ermənilərin bu kəndə yığılmaqdan məqsədi qonşuluqda olan Arış

adlı müsəlman kəndini dağıdıb, müsəlmanlar üstünə gələrsə, Xırmancığa dolub özlərini qorumaq fikri idi.

Bu kəndə heç bir tərəfdən əsgər yeritmək mümkün deyildi. Zira, hər tərəfi dağlıq idi və yalnız bir tərəfdən tək atlı keçməyə imkan vardı. Çox yerləri var ki, tək atlı keçməyə də imkan yoxdur. Müsəlmanların kəşfiyyatçıları ermənilərin əhval və hərəkətindən layiqincə məlumat əldə edib baş komandana çatdırmaqda idilər.

Bu səbəbdən müsəlmanlar əvvəlki qüvvələrini bərpa edib döyüş şəkli alaraq ermənilərdən əvvəl qüvvələrini Şeyxməli və sair ümumi qərargahlardan çağırıb Arış kəndində bir yerə cəm olmağa başlayırlar ki, aşağıdakı üsul ilə müharibəyə başlasınlar.

Müharibə məktubları, yaxud hərb meydanından xəbərlər. Müsəlman əsgərinin baş komandanları bu Xırmancıq müharibəsində düşmənin qüvvəsindən lazımınca xəbərdar olduğundan əsgərlərinə səbat və mətinlik üçün bir çox nitqlər oxuyub hər cür təşviqatda bulunurdular. Əsgərlərin isə bədənlərindəki qeyrət qanı cuşa gəlib şöhrətli qəhrəmanların əsgər övladları olduqlarını komandanlarına bildirirdilər. Bu vaxt müsəlmanların mühafizə dəstələri vasitəsi ilə ermənilərin sübhə bir saat qalmış Xırmancıqdan hərəkət etmələri böyük komandana yetişir. Bu halda müsəlman baş komandanı bölük komandanlarına lazımi göstərişlərini verib kəndin ətrafındakı səngərlərdə münasib mövqe tutmaq üçün göndərilirlər. Onlara hər dəqiqədə erməni əsgərlərinin hansı mövqeyə yetişməsi xəbəri də verilirdi. Əsgərlər ümumən müharibəyə hazırlaşdıqları vaxt əsgərlərin böyük komandanı atına minərək onlara bu nitqi söyləmişdir:

"Övladlarım! Mən, hər halda erməni ilə müsəlmanların işi bu məqama yetişdirməsinə təəssüflər edirəm. Bununla birlikdə bu əfsusların bizə, yaxud ermənilərə heç bir faydası yoxdur. Zira, indilik biz onlarla üz-üzə gəlib vuruşmağa məcbur olmuşuq. Bu saatda bizlərə heç bir iş fayda verməz. Yalnız xəncər-patron köməyə gələr. Bəli! Sülh vaxtı sülh etmək, müharibə vaxtı mərdanəlik göstərmək lazımdır. İndi görürsünüz ermənilər bizim nə qədər kəndlərimizi dağıdıb, nə qədər gəlin-qızlarımızı əsarətə alıb, olmazın təhqirlərə düçar və mübtəla etmişlər. Ancaq heç vaxt darıxmayın! Bu əsarət, bu təhqir sizə çox acı olsa da, darıxmayın? Hamınız eşidəsiniz ki, Kərbəla meydanında Hüseyn ibn Əli Əleyhüssəlam bir ovuc yaxın adamları ilə Yezidin (lənətüllah) yüz minlərcə cani dəstələrinə qabaq-qarşı durmuşdu.

Hürriyyətin, o qeyrət mücəssəməsinin Kərbəla meydanında olan fədakarlığı həqiqətin gözünü pərdələməyib Yezid vələdəz-zinayə taət əli uzatmaqdan ötrü deyil idi?! Bəli, itaət etməyib övlad və pak adamlarına

əsarət rəva görən yalnız o həzrətdir. Amma biz ilə o həzrətin böyük bir təfavütü vardır. O isə budur: O həzrətin bacıları, hərəmləri, qızları peyğəmbər nəvəsi Əli ibn Əbu Talib gəlinləri olduqlarından Yezid qoşununda o cürət olmazdı ki, təhqirlə onlara əl uzatsınlar. Amma bilərsiniz, qardaşlar, hərəmlərimiz erməni əlinə düşsə, nə olar?!

(Bu vaxt əsgərlərdən şiddətli ağlamaq səsləri ucalır). Yenə nitqə davam edilir:

Bizim şəraitdə müdafiə məsələsi vacibdir. Ona görə də qorxunu, ağciyərliyi qəlbinizə qoymayasınız. Qorxu-hürkü millət və vətən fədakarlığı qarşısında qəbahətli və rəva görülməyən hərəkətlərdəndir. Ona görə qorxu və hürküyə qəlbimizdə yer olmamalıdır. Qorxu insaniyyət və islamiyyətə ziddir. Düşmən xəncərindən qorxan gözümüz-ölümü, əziz saxladığımız dövlət və sərvətimiz-talanı, hifzinə çalışmadığımız hərəmlər-bacılarımız əsarət və təhqir görəcəklər. Ölmək və qəbrə getmək (yataqda, biyabanda, dəryada), yainki düşmən xəncərlərinin altında da olsa birdir. Orası aydındır ki, ölüm birdəfəlikdir. Bizim bu müharibədə müzəffər olduğumuz biləks qan çalalarına qərq olduğumuz, əlbət ki, tarix səhifələrinə düzülüb millət istiqbalına və vətən övladına yadigar qalacaqdır.

Bizim Xırmancıq daşlarına çilənən qeyrət qanımız heç zaman silinməyəcəkdir. Bizim islamiyyət adını daimi yaşatmaq üçün şahid olduğumuzu övladlarımıza gösətərəcəkdir. Əlbəttə, müharibəni buraxıb istəkli hərəmlər, isti otaqlar ağuşunda doğransaq övladlarımız qiyamətə qədər bizə lənət deyəcəkdir. Qabağımızdakı Xırmancıq müharibəsini özgə davalara bənzətməyəsiniz. Hərəkətsiz durub düşmənə arxa çevirməyəsiniz. Ar olsun o əsgərə ki, düşmən xəncərini arxasından qəbul edə. Müharibədə insafınızı itirməyib silah işlətməyən körpələrə, qoca kişilərə rəhm ediniz!

Körpə uşaqlara, erməni hərəmlərinə heç zaman təhqirlə əl uzadıb, əzab-əziyyət rəva görməyəsiniz! O halda kəramətli peyğəmbərimizdən xəcalətli olarıq,-deyib, tüfənginə bir patron qoyub: -Haydı qardaşlar! Düşmən yaxınlaşdı" -deyib sözünü bitirdi.

Bu vaxt ermənilər də bir güllə məsafəsinə yaxınlaşınca atəşə başladılar. Müsəlman əsgərləri ən əvvəl sədlər arxasından atəş açıb düşmənin hərəkət nizamını hədələyirdilər. Müharibə başlayınca ermənilər hərb meydanını sıx bir məhəldə saxladıqlarından müsəlman bölük komandanları öz piyadalarına sədlərdən çıxmaq əmrini verdilər. Piyada alayları sağ və sol tərəfdən sədlərdən çıxıb ovçu sədləri qurmaqla düşmənin hər iki tərəfini sıxışdırdılar.

Ermənilər bu halı hiss edincə qüvvələrini üç hissəyə bölərək müsəlman piyadalarını atəşə tutdular. Müsəlman bölük komandanları bu hərəkəti

görüncə piyada dəstələrini ehtiyat olaraq, dörd yüz piyada ilə gücləndirirlər. Bu vaxt ermənilər müharibədən büsbütün hərb elmindən xəbərsiz olduqlarını aləmə bildirdilər. Belə ki, müsəlmanların tez-tez sədlər düzəldib arxasından düşmənə atəş açan ovçu piyadalarının qarşısına süvari bölükləri çıxarmaq istədilər. Müsəlmanlar ermənilərin bu naşı hərəkətlərini görüb mərkəzdən açılan şiddətli atəşlə onlara böyük tələfat verirdi. Ermənilər səhvlərini anlayıb süvari bölüklərinin yerinə piyada dəstələri göndərənə kimi, islam əsgərləri hamılıqla "ya Allah, ya Allah" deyib sədlərdən çıxıb düşmənin qabaq mövqelərini tutdular. Ermənilər müharibə nizamını tamam itirib çaşqın bir vəziyyətə düşdülər, müsəlmanlar fürsəti fövtə verməyib düşmənin geri çəkilmə yolunu kəsmək üçün daha iki yüz piyada əsgər göndərdilər. Ermənilər bunu duyunca müharibədən əl götürüb qaçmağa başladılar. Qaçmaq vəziyyətində iyirmi-otuz süvari dəstəsi dümdar (quyruq-aryerqard) buraxılarsa da, yolun maneəli və keçilməz yerlərində atlarını buraxıb özləri qaçmaqla canlarını qurtarmağa məcbur olurdular. Müsəlmanlar isə yolların dağlıq olduğunu bilib piyadalarla düşməni təqib edirdilər.

Ermənilər atlarını və ordularını dar keçidlərdən keçirib kənd içində toplayınca müsəlman ovçu piyadaları ahu kimi dırmaşıb dörd tərəfdən kəndi nişan aldılar. Ermənilər qüvvələrini toplamağa imkan tapmadılar və son dərəcə pərişan bir halda kəndi boşlayıb getməyə məcbur oldular.

Müsəlmanlar kəndi tutduqdan sonra qarət edib yandırdılar. Ermənilərin bu müharibədə tələfatları həddən artıq olsa da, məlum edilməyibdir. Kənd tamam yandıqdan sonra müsəlmanlar qənimətlərini götürüb geri qayıdarkən yolda pusquda durmuş bir erməni bölüyünə rast gəlib atışmaya başladılar. Bu atışmada düşmənlər münasib mövqe tutduqlarından müsəlmanlardan 16 nəfər şəhid edildi. Bu müharibədən sonra üç-dörd gün sakit keçdi. Sonra hökumət bir az gözünü açıb uyezd rəisi tərəfindən qazı cənablarına sülh işarəsi verildi. Ağsaqqallar yığılıb sülhə razılıq verdikdən sonra rəis də teleqramla erməniləri sülh üçün Güzlək kəndinə dəvət etdi. Sabahı gün rəis müsəlman ağsaqqallarını götürüb Güzlək müsəlman kəndi ilə qonşu olan və erməni mahalı Hadrut və Xunbabat yuvası ilə üç verst məsafədə yerləşən Kürd Mahmudadlı kəndə gedir.

Bu vaxtda rəis Hadruta getdiyindən, müsəlman ağsaqqalları Kürd Mahmud kəndində müsəlman qəhrəmanları ilə ağsaqqalların qadağanına görə evlərdə əyləşmişdilər. SABİQ HADRUT İKİNCİ SAHƏSİNİN PRİSTAVI DAVİDOV O SAHƏNİN STRAJNİKLƏRİ İLƏ BİR BÖLÜK ERMƏNİ GÖTÜRÜB ARIŞ KƏNDİNƏ HÜCUM EDİRLƏR. KƏNDİN BİR TƏRƏFİNİ ODLAYIB ARADAN ÇIXIRLAR. İKİ-

ÜÇ SAATDAN SONRA MÜSƏLMANLAR SARACIQ KƏNDİNƏ SÜLH ÜÇÜN RƏİS HÜZURUNA DƏVƏT EDİLİRLƏR. BU ÜSUL İLƏ ERMƏNİ-MÜSƏLMAN SARACIĞA YIĞILIB SÜLH VƏ BARIŞIĞI BƏRPA EDİB DAĞILIRLAR.

Qışlaq müharibəsi. Erməni kəndi Surlidən bir at qaçıb Qışlaq adlı müsəlman kəndinin mallarına qarışır. Ermənilər:

-"Ey qoymayın, müsəlmanlar bizim malımızı apardılar", -deyib bir dəstə könüllü əsgərlə Qışlaq kəndinə hücum edirlər və bütün mallarını yığıb aparmadıqda islamlar xəbərdar olub ermənilərə qarşı çıxırlar. Ermənilərin qüvvələri çox olduğundan müsəlmanlar Süleyman adlı kəndə pənah aparıb birlikdə düşməni təqib edirlərsə də, yollar keçilməz olduğundan müsəlmanlar məğlub olub, Qışlaq kəndi də yandırılır. Yeddi-səkkiz min manat zərər dəydiyi təxmin edilir. Dağılan müsəlmanlar diri-diri səfil dolanmaq istəməyib özlərini Dolanlar adlı erməni kəndinə vurub müharibəyə başlayırlar. Başqa müsəlmanlar da köməyə gəldiyindən ermənilər məğlub olur, 10 nəfər tələfat verib qaçırlar. Kəndi tutan müsəlmanların hərbi tədarükləri qurtardığından bir neçə biqeyrət müsəlman ermənilərə:-"BİR SAAT MÜHARİBƏ EDİNİZ, MÜSƏLMANLAR ÖZLƏRİ QAÇACAQLAR"-deməklə, onlara mənəvi güc verirlər. Müsəlmanlar isə patronun yoxluğundan geri çəkilməli olurlar.

Məzrəə müharibəsi. Ertəsi gün ermənilər yığılıb Məzrəə kəndinə hücum edirlər. Məzrəə camaatı dağa köçdüklərindən kənddə doqquz evdən ibarət mühafizəçi qalmışdı. Kənddəki kişilər bir neçə saat müharibə etdikdən sonra 6 nəfər şəhid, bir qoca kişi də əsir verdilər. Ermənilərdən isə 6 nəfər qətl olunmuşdu. Ətrafdan bir çox müsəlmanlar köməyə çatıb davaya başlayırlar. Müharibə iki gün davam edir. Bu vaxt Əhmədli sakini Tatar Həsən adlı bir nəfərin oğlu ölüb, müsəlmanlar da kəndi boşlayıb arvadları götürüb qaçırlar.

Ermənilər isə kəndi qarət edib odlayırlar. Gizli qalmasın ki, Məzrəə kəndinin dörd tərəfi erməni kəndlərindən ibarət idi. Müsəlmanlara lazımi qədər kömək gəlmədiyindən islamlar məğlub oldular. Onu da deyək ki, bu mahalın müharibəsi mart ayından başlayıb ikinci Şuşa faciəsinə qədər davam etmişdir.

Son xəbərlər. Axırıncı Şuşa faciəsi baş verdikdən beş gün keçmiş hər tərəfə iğtişaş xəbərləri yayıldı. Hər tərəfdə camaat şəhərə getmək üçün toplaşıb səfər tədarüklərini görməkdə idilər. Digər tərəfdən Şuşa əhlindən 50 nəfər süvari Ağdam tərəfdən gəlib bir yerdə şəhərə getmək üçün toplaşmışdılar. Dörd yüzə qədər atlı cəngavər Molla Nəsrəddin yolu ilə şəhərə getdikləri zaman Xoşəndam adlı yerdə ermənilər hasardan çıxıb

onları atəşə tuturlar. Müsəlmanlar da siyirmə xəncər müharibəyə girişib ermənilərı at döyüşündə Əfşar adlı erməni kəndinə qovub kənd içində üç saat vuruşurlar. Ermənilər Əfşar kəndində davam gətirə bilməyib qaçmağa başlayırlar.

Döyüşdən sonra şəhərə köməyə getməyə qərar verilsə də, iki müsəlman bir-birilə dava salıb biri digərini öldürdüyündən süvarilərin dağılmasına bais olur. Şuşa əhvalatı geniş yazıldığından burada təkrarına ehtiyac görülmədi.

Son məktublar. Şuşa əhvalatından sonra Cəbrayıl və Qaryaginin Qaradağlı adlanan kəndin malları çölə çıxan vaxt ermənilər tökülüb əllərindən alırlar. Bu zaman kənd camaatı bundan xəbər tutub ermənilərlə atışır və bir neçə ermənini tələf edirlər. Bu ermənilərin qaçıb dağılmasına səbəb olur. Lakin ölənlərin arasında bir nəfər erməni millətçisi varmış. Ermənilər bundan son dərəcə qəzəblənib pristav Davidovu göndərirlər ki, gərək qatili tutub erməni əlinə verəsiniz.

Ermənilərin pristavı Davidovun tədbiri. Pristav məsləhət görür ki, "mən gedib Qaradağlı camaatını söhbətə tutaram, siz isə gəlib bostanlarda gizlənərsiniz. Mən bir bəhanə ilə həmən oğlanı sizin yanınıza göndərərəm. Orada atəşə tutub öldürərsiniz". Müxtəsər, həmən üsulla cənab pristav oğlanı pusqu yerinə göndərdikdə ermənilər atəşə tutub onu yaralayırlar. Binəva bir növ ilə özünü kəndə salır. Camaatın xəbərdar olduğunu bilib ermənilər də qaçıb aradan çıxırlar. Ertəsi gün ermənilər yığılıb Qaradağlı kəndinə hücum edirlər. Ermənilər çox olduğundan müsəlmanlar davam gətirə bilməyib kənddən qaçmaqla on beş evli Yuxarı Güzlək kəndini də dağıdıb talan edirlər.

Hadisələrin icmalı. Əvvəlcə ermənilər müharibəyə başlayıb Cəbrayıl və Qaryagin uyezdində Veysəlli, Divanəli kəndlərini dağıdırlar. Bu müharibədə ermənilərin də bir sıra kəndləri dağıdıldı. Əfşar, Düdükçü, Haxulu, Ağbulaq, Xırmancıq, Dolanlar, Xoşəndam belə kəndlərdəndir. Onlardan insan tələfatı da az olmayıbdır.

Müsəlmanlar yaylağa köçdüklərinə görə iki qışlaq dağılmışdır. Bu uyezdə ermənilərin məğlubiyyətinə Şuşa şəhəri ümdə səbəb olmuşdur. Zira ermənilər ümumi-qüvvələrini yığıb müsəlmanları dağıtmaq üçün toplanmışdılar. Digər tərəfdən Cəbrayıl müsəlmanları müharibədə kamil ustad mərtəbəsində olduqlarından erməniləri son dərəcə sarsıtdılar. Hökumət isə göz açıb bu mahalda sülh-barışığı bərpa etmədi. Zira onun da Şuşada böyük tədarükləri var idi. Qalaşçanov son faciədə hökumət qoşunlarını ermənilərə kömək üçün Şuşada saxlayır, mahalda isə sülhü bərpa etmək üçün bir nəfər də olsun hökumət qoşunu tapılmırdı.

## AĞRILI ŞUŞA HADİSƏLƏRİ, YAXUD AVAMLIQ BƏLASI

*Gəncə quberniyası Şuşa uyezdində 1905-ci ilin 16 avqust tarixində qəflətən baş verən faciələrin təfsili*

Keçmişdə, yaxud indiki Şuşa ermənilərinin hal və hərəkatı, əhval və güzəranına baxılsa onların əksəriyyətinin gələcək tədarükündə olduqları meydana çıxar.

Onların böyük bir müharibəyə, müdhiş bir təşəbbüsə qoşulmaq niyyətləri ap-açıq özünü göstərməkdə idi. Hər ay, hər gün onların hərbi ləvazimat toplamaq üçün göstərdikləri səylər gözdən yayınmırdı.

Şuşa islamları isə ermənilərin son dərəcə şücaətsiz və mərdlikdən uzaq olduqlarına görə onların müsəlman əleyhinə qiyam qaldıracaqlarına inanmazdılar. İslamların fikrincə "ermənilər ara-sıra ticarətdən başqa bir şeyə yaramazlar, onlarda silah götürəcək bir gənc yoxdur" -deyib beləcə qəflət və etinasızlıqlarla öz işləri arxasınca getməkdə idilər.

Şuşa islamlarını beləcə müasir işlərdən xəbərsiz təsvir etməkdə özümü oxucuların nifrinlərinə hədəf olmuş hesab edirəm. Zira, yaranışından son dərəcə şücaətli və mərdanə olan bu nəcib milləti müasir işlərdən xəbərsiz hesab etmək nifrinlərə layiq olmaq deyil, bəs nədir?! Mən Şuşa əhvalatını yazıb göndərmiş möhtərəm müxbirin sözünü təsdiq edib yazıya aldıqdan sonra öz tərəfimdən də bir neçə səmimi söz deməyi lazım bildim.

Hörmətli müxbirimin Şuşa islamları barəsində olan müdrik hisslərinin tənqidinə ehtiyac yoxdursa da, o ətraf müsəlman camaatında olan ürək saflığını və bu ürək saflığından irəli gələn əsilzadə sükunətlərini qəflət hesab etməkdə böyük bir səhvə yol vermişdir-deməkdən də özümü saxlaya bilmədim.

Digər tərəfdən Şuşa əhlinin xəbərsizliyi barədə bir neçə söz yazıb müxbir cənablarının haqqında etdiyimiz tənqiddən əmələ gələn təsir atəşinin üstünə su səpmək kimi bir hərəkətdə də bulunuram. Şuşa islamlarının qafil olmaları barəsindəki bu kiçik qeydlərimi yazıb hörmətli oxucuların diqqətinə çatdırıram.

Qafqaz qitəsində ağrılı erməni-müsəlman hadisələri baş verməzdən əvvəl islamlar ancaq uzaqdan-uzağa bu himmətcə artıq sayca az olan ermənilərin hər həftə başı bir hökumət torpağında qovğa qoparacaqlarını jurnallar və sair məlumat vərəqləri vasitəsilə oxumaqda idilər.

Türkiyənin İstanbul şəhərində olan erməni qırğını-Sasun, Zeytun faciələrini islamlar eşidib "bu, ermənilərin taqsırı deyil, Türkiyənin fanatizmindən irəli gələn ümumi bir qətldir" deyirdilər.

Bu sadədil islamları bu xəyallara, bu aldanışlara vadar edən məhz

ermənilərin sülh və asayiş üçün Qafqaz islamlarına göstərdikləri zahiri məhəbbət idi. Digər tərəfdən müsəlmanların babasından qalmış "ermənidən pəhləvan çıxmaz" kimi mənasız məsəli xələflərini irsən yanlış bir yola salmışdı.

Zaman dolandı, illərin təbii inkişafından islamlar gözlərini açıb bəzi nöqtələrlə, məsələn, Rusiyada ermənilərin gecə-gündüz ara vermədən tədarüklərini görüb, təəccüb və heyrət barmaqlarını ağızlarına basıb bir az fikrə getdilər. Bu halət Şuşa islamlarında da göründüyündən ermənilər dərhal Türkiyədə, İranda onları bir sıra mənfəətli işlərə çatdıran, müsəlmanı aldadan yağlı dillərini işə salmağa başladılar. Əvvəlcə bizim bu tədarüklərimiz islam, yaxud sair millətlərin əleyhinə olmayıb Rusiyada mütləq bir azadlıq-avtonomiya idarə muxtariyyəti təşkil etmək həvəsidir", -başladılar. Müsəlmanlar da bu cəfəngiyatla inanıb öz işləri ilə məşğul idilər. Əcəba!!

Mülahizə yaxud intibahnamə. Şuşa müsəlmanları ermənilərin çürük avtonomiya xəyallarına aldanıb tədarük və müdafiədən məhrum qaldıqları üçün ermənilərin avtonomiya qazanmaq uğrunda mübarizəsinin necə olacağını yazmaq və camaata bildirmək xeyirsiz olmaz! Erməni milləti Qafqazda bir milli heyət, yaxud bir avtonomiya təşkil etdikdə baxaq görək bu muxtariyyətdə ümum Qafqaz millətləri bərabər təmsil olunacaq? Yaxud başqa tayfalarla ermənilər bir hüquqda, bir ixtiyarda sayılacaqlar? Xeyr! Xeyr! Ermənilərin bu idarəni təşkil etməkdə qəsdləri bir Ermənistan təşkil etmək kimi-qeyri mümkün bir xəyal idi. Erməni milləti idarə muxtariyyətinə malik olduqda Qafqazın başqa millətləri məhkum bulunmağa məcbur olacaqdılar. Görən islamlar məhkumiyyəti qəbul edəcəkdilərmi?! Yaxud bizdən güclü, tərəqqi yoluna bizdən daha əvvəl çıxmış gürcü qardaşlar məhkum sayılmaq həqarətini qəbul edəcəkdilərmi?!

Söz yoxdur ki, nə bizim, nə də gürcülərin erməni mənəmliyi qarşısında məhkum millətə çevrilməyə nə hövsələmiz, nə də həvəsimiz vardır. Belə olduqda bizim və gürcülərin ermənilərə qarşı hazırlaşması hər halda vacib idi. Baxalım! Baxalım! Rusiya mütləqiyyəti də ermənilərin bu ağlasığmaz fikirlərinə sükutla baxacaqdı? Ermənilərin atdıqları daşlara dözəcəkdi?

Xeyr! Xeyr! Hər tərəfdən atılan daşları rədd edəcək və nə qədər zəif olsa da, onlara lazımi cavab verəcəkdi. Bu atılan daşları rədd etdikdə Qafqaz millətlərinin birinə dəymək və təsadüf etmək ehtimalı da gün kimi aşkar idi. "Çomaq curluya dəyər" məsəlində deyildiyi kimi, bu daşların biz islamlara dəyəcəyinin isbata ehtiyacı yoxdur. Yəni, Rusiya hökuməti bilavasitə ermənilərə qarşı durmaqdan çəkinib Qafqaz millətlərindən birini onlarla üz-üzə qoyacaqdır. O millət isə bizlər, yəni

biz islam millətiyik, zira Qafqazda yaşayan bütün millətlərdən maarifcə, bilikcə geridə qalmışıq. Yuxarıda deyilən sözlərimizə sübut olaraq ümum Qafqaz, bəlkə bəzi Rusiya mətbuatında "bu işlərə səbəb hökumətdir"- deyib, sözdə davam etmələridir. Bizsə təkcə hökuməti yox, ermənilər və onların vəhşi partiyalarını məsul tutmalıyıq. Bunların hamısını nəzərə aldıqda müsəlmanların hazırlaşması, zəruri vaxtda bəzi hörmətsizliklərdən qorunması lazım və bəlkə də başlıca vəzifəsi idi. Müsəlmanlar əsla bunları fikirləşmədilər. Nəticədə də Bakı və Naxçıvan hadisələri baş verdi. Bəzi müsəlman vilayətləri gözlərini açdıqları kimi, Şuşa islamları da gözünü açmağa başladılar. Bu vəziyyəti görən ermənilər yenə yağlı dillərini işə salıb dedilər:

-"Canım, biz min il bir vətəndə qardaşlıq edən millətik. Bizimnə işimiz var, Bakıda, Naxçıvanda müharibə olub, biz yenə qardaşıq". Müxtəsər belə-belə sözlər təzə-təzə gözlərini açan milləti yatıran kimi oldu. Bununla yanaşı ermənilər bəzi islam kəndlərinə zülm əli uzadıb, o tərəf bu tərəfə əllərinə düşən islamları qarət edib öldürməyə başladılar. Bu tövr ilə 1905-ci il avqust ayının 8-də gecə saat iki radələrində ermənilərlə müsəlmanlar arasındakı küçənin küncündə şəhər fanarlarını yandıran bir iranlı müsəlmanı öldürməklə ermənilərlə müsəlmanlar arasına yeni müharibə toxumları səpilir.

İğtişaşa dair ağrılı məlumatlar, yaxud islamların müvəffəqiyyəti. Yuxarıda göstərdiyimiz vaxtda və yerdə ermənilər bir iranlının üstünə tökülüb onu öldürürlər. İranlının son nəfəsində fəryadına yetişən olsa da, canilər onları atəşə tutub aradan çıxa bilirlər. Ermənilərin bu vəhşi hərəkəti müsəlmanları son dərəcə həyəcana salsa da sülh tərəfdarları sakitliyi bərpa edib çaxnaşmalara imkan vermədilər. Yenə bu günlərdə Vəng adlandırılan erməni kəndində üç yüzdən çox erməni quldur dəstəsi köçəri karvanlara hücum edib, islamları qətl və qarət etmişlər. Bu xəbər də islamlara acı təsir etmiş, çaxnaşma olacağı ehtimalı yaransa da, yenə sülh komissiyası bunun qarşısını ala bilmişdi. Avqustun 16-sı sübh saat doqquzda, müsəlman hissəsinə bitişik erməni məzarıstanında kazaklar bir nəfər ermənini tərkisilah etmək istəsə də, o əmrə tabe olmayıb müqavimət göstərdiyinə görə öldürülür. Ermənin kazak tərəfindən qətl olmasına şəhadət verən olsa da, "günahkar müsəlmanlardır" -deyib iğtişaş qoparmaq üçün bir növ bəhanə tapırlar. Başlayırlar küçələrdə və bazarda iğtişaş qoparmağa. Bu vaxt erməni xəfiyyə cəmiyyəti tərəfindən diş həkimi Maşoryans bir xüsusi hazırlıqda camaat arasına çıxıb iğtişaşa dair nitqlər oxuyur. O cümlədən deyir ki, "bu saatda təzə xəbər çıxıbdır ki, şəhər kənarında müsəlman kəndi olan Zarıslıda 4 nəfər ermənini

məzlum surətdə öldürmüşlər. Ermənilər bu xəbəri alar-almaz iğtişaşa başlayırlar. Bu vaxt erməni kilsəsindən çalınan həzin zəng səsləri erməniləri hamılıqla kilsəyə yığdı.

Fəqət bir qətl xəbərini gətirən Maşoryans və yoldaşları-Atabəyov və Dolxanov tez atlara minib İrəvan qapısı adlanan məhəllə çaparlar ki, həmən Zarıslı kəndində olmuş ermənilərdən xəbər bilib şəhərə qayıtsınlar. Bir azdan sonra kilsəyə yığılmış ermənilər evlərinə gedib, silahlanıb dükanlarına qayıdaraq iğtişaşın başlanmasını gözləyirlər. Bu vaxt xəbər gətirmək üçün getmiş adamlar atdan yıxılıb yaralanmış bir nəfər ermənini atına mindirib qanı axa-axa şəhərə gətirirlər. Və hər küncdə və hər meydanda ki, erməni izdihamı görüb "görürsünüz müsəlmanlar, bizə nə edirlər" deyib iğtişaş işarəsini verib keçirlər. Bu vəziyyəti müşahidə edən ermənilər çox həyəcana gəlib erməni bazarı ilə keçən Qara adlı bir müsəlmanı öldürürlər.

Bu iğtişaş atəşi şəhərin hər tərəfinə yayılıb, bir nəfər iranlı hambalın (!)ölümünə səbəb olur. Bu hadisələrdən sonra bazardakı ermənilər aranı qarışdırıb erməni bazarında olan bixəbər müsəlmanları qırıb kəsməyə başlayırlar. Yuxarıda yazılmış Zarıslı faciəsinin müfəttişi Xosrov bəy Fuladova da vəzifəsini yerinə yetirdiyi vaxt güllə atırlar. Həmin gün ermənilərin arasında olan müsəlmanların əksəriyyəti ya qətl olunur, ya da yaralanır. Əvvəlcədən düzəldilmiş səngər və sığınacaqlardan, həm də erməni kilsəsindən islamların başına yağmur kimi güllə yağırdı. Yol ilə gedən islamları yüksək yerlərdən vurmağa təşəbbüs olunurdu. Bu ürək ağrıdan hadisəni seyr edən islamlar erməniləri islam bazarında qətl edib və bir neçəsini təhlükəsizlikləri naminə evlərinə aparırlar. Müharibə başlanan kimi Köçərli erməni məhəlləsinə qonşu olan məhəlləyə hücum başlanır. Bu hücum əsnasında öz qonşusu olan bir erməni Abbas bəy adlı bir müsəlmanın oğlunu, qardaşını, qardaşının bir neçə xidmətçisini qətl edir. Bundan sonra həmən məhəllə camaatını qətl və evlərini oda tuturlar. Əvvəlinci gün müsəlmanlar heyrət və tərəddüd içərisində ancaq müdafiə olunurlar. Ermənilər isə getdikcə ifrata varıb əllərindən gəldiyi qədər müsəlmanlara əziyyət verir, müharibəni bir an belə dayandırmaq istəmirdilər. Müharibə başlanan kimi 15 nəfər erməni əsgəri tüfəngləri ilə kazarmadan qaçıb ermənilərə köməyə gəldilər.

1905-ci ilin 17 avqust hadisələri. Sübh tezdən ermənilər qəddar hərəkətlərində davam edib Köçərli məhəlləsindən 8 evi yandırıb əhalisini qətlə yetirdilər. Xəlfəli adlanan məhəllədə, erməni hissəsinin başında yenə 10 evin müsəlmanların qətl-qarət edilməsi xəbəri kədərli bir surətdə yetişdi. Xəyanət qurbanı olan məzlum müsəlman əhalisinə kömək üçün

kazarmadan bir qədər saldat göndərildi. Ermənilər soldatların ikisini güllə ilə vurmaqla geri qaytarıb müsəlmanları qorumağa mane oldular.

Qəddar ermənilərin belə təcavüz və ədalarını görən islam cavanları artıq ruhani və rəislərin nəsihətlərinə baxmayıb ermənilərə qarşı ümumi hücuma başlayırlar. Müsəlmanların hücumu erməniləri bir dəhşət və heyrət içində qoymaqda idi. Zira, müsəlmanlar işğal etdikləri yerləri tamamilə yandırırdılar. Ermənilər son çapda olan hərbi silahlarla silahlansalar da onlarda müsəlmanların hücumuna bir an belə dözüm və səbat görünmədi. Ermənilərin tələfatı ermənilərin özlərini dəhşətə salıb oradan uzaqlaşdırırdı. Sübhdən axşama kimi qanlı müharibədə əldə etdiyi qələbə ilə bərabər islam tayfasının şücaət və mərdliyi başqa millətləri çaşdırıb afərindən və tərifdən başqa bir söz deyə bilmirdilər.

Ermənilər Port-Artur misalında olan səngərlərini daha saxlaya bilməyib boşaltmağa məcbur olurdular. Ermənilərin bu qaçhaqaçını hiss edən islamlar Allahın mərhəmətinə arxalanıb erməniləri təqib etməyə başladılar. Ermənilər səngərlərdən çıxıb qaçmaq istərkən etdikləri islam könüllülərinin zərbələri altında səngərlərin qabağına tökülüb can verirdilər.

Bu mənzərə elə vəhşi və dəhşətli idi ki, gəl görəsəŋ. Səngərlər qabağında qorxusundan bağrı çatlayıb ölən ermənilərin sayı az qalırdı güllə və xəncərlə ölənlərin sayından çox olsun. Bu müharibədə iştirak edən müsəlmanların könüllü əsgərləri min nəfər idisə ermənilər on qat artıq bir əsgəri qüvvəyə malik idilər. Bu zaman ermənilərin hamısı səngərləri boşlayıb qaçmağa üz qoyduqda islamlar onları təqib etməyi bir dəqiqədə təxirə salmayıb başlarının üstünü kəsdirdilər. Müsəlmanların qəlbində ermənilərə qarşı əsla rəhm yox idi. Zira, ən əvvəl sülh üçün onlara çox yalvarmışdılar. Nəticəsi olmamışdı.

1905-ci ilin avqust hadisələri.1. Bu gün ermənilər dağılmış qüvvələrini bərpa edib yenidən müharibəyə girişdilər. Bu gün də mənən büsbütün darmadağın edilmiş ermənilər müqavimət göstərə bilməyib çoxlu tələfatlar verdilər. Müsəlmanlar güc gəlib erməni hissələrini aldılar və dörd tərəfdən atəş vurub yandırdılar. Hər tərəfdə ələ keçən ermənilər qətl edilirdilər. Bu gün ermənilərin məğlubiyyəti son həddə yetişdi. Zira, ermənilər çox təlaş edib keçən günkü məğlubiyyətin əvəzini çıxmaq istəsələr də ağır tələfata məruz qalıb öz hissələrini də müsəlmanlara verdilər.

1905-ci ilin 18 avqust hadisələri. (Bu gün elə bir qanlı müharibə olmuşdur ki, əhvalatın ətraflı təsvirinə müxbirin vaxtı olmayıb hadisələri icmal şəklində yazmışdır. Şuşanın 18 avqust günü qanlı gün adlandırıldığından məlum olur ki, bu gündə islamlar necə mərdanəliklə müharibə etmişlər. Bu günün müharibəsində bir nəfər məscidin minarəsinə

çıxıb bu səda ilə camaata xitab edirmiş: "Camaat! Vay olsun o müsəlmanın halına ki, bu gündə ermənidən bir dinar mal qarət edə və onların namusuna toxunub müsəlmanların ayaqları altında qalan xanımlarına əl uzada") Müsəlmanlar müharibənin dördüncü günü ermənilərə qalib gəlib birinci növbədə onların mağaza və imarətlərini yandırıb dağıtdılar. O cümlədən Xandəmirovun teatrı, qız məktəbi, Mirovoy Sudyanındəftərxanası və nə qədər məşhur imarətlər yandırılmışdı. Bu gün ermənilərdə görünən halət əsla keçmiş müharibələrdə görünməmişdi. Ermənilər bu gün son dərəcə qorxaqlıqla qoyun sürüsü kimi müsəlmanların qabağından qaçıb kazarmalara pənah aparmağı özlərinə qənimət sayırdılar.

Bu gün müsəlmanlardan dörd qat artıq olan müsəlləh ermənilər əksəriyyətlə biyabanlara dağılmağa başlamışdılar. Heybətli Hayıstan gəncləri arxasında bürdə, dörd qatlar patron əllərində, beşaçılan çiynində kazarmada saldatların çarpayıları altına soxulub bir dəqiqəlik həyatı o müdhiş sıxıntıdan üstün tuturdular. O gün erməni bölüklərinin hamısı qaçıb, səngərlərdə yalnız qaçmağa qadir olmayan beş-on nəfər qoca qoymuşdular. Onlar isə müsəlmanlar tərəfindən əmniyyətə alındılar. Zira, komandanlar qoca və körpə çocuqlara qarşı hərbi silah işlətməməyi müsəlmanlara qabaqcadan tövsiyə etmişdilər.

Bu gün müsəlman qələbəsinin şiddətli zamanında erməni arximandriti və qubernator Baranovski məscidin həyatinə təşrif gətirdilər. Arximandrit bu dillər ilə müsəlmanlara yalvarmağa başladı:

-Amandır müsəlmanlar! Şuşada ermənilər müqəssir olsalar da, daha erməni qalmadı. İndi bir ovuc əlsiz-ayaqsız erməni qalıbdır, onlara rəhm ediniz!-deyib, ağlaya-ağlaya sülh təklifi etdi. Müsəlmanlar sülh sözünü eşidən kimi güllə atmağı dayandırıb sakit oldular. Ermənilər isə dinc durmayaraq evinə qayıdan zaman qubernatoru atəşə tutdular. Həmən gün müsəlmanlar axşama qədər sakit olub heç bir təcavüzə yol vermədilər.

1905-ci ilin 20 avqust hadisələri. Bu gün ermənilər müsəlmanların sakit oturmasını nəzərə almayıb yenə hallarında, atəşlərində davam etdilər. Bu işlər, bu qanunsuzluqlar müsəlman könüllülərinə ağır gələrək ümumi hücuma başladılar. Bu hücumlarda islamlar hər nə olar deyib üz bürümə erməni meydanına yürüş etdilər. Bu vəziyyəti görən ermənilər öz təhlükəsizliklərini mülahizə edincə bir neçə bomba və top atdılarsa da, təbii halətdən çıxmış islam gəncləri heç bir qorxu bilmədən irəli cumdular. Bu vəziyyət ermənilərin Şuşada məhv olacağına bir an qalmışdı ki, on ikiyə işlədi. Bu vaxt erməni ruhaniləri, hökumət məmurları və soldatlar əllərində kilsə bayraqları və incili-şərif, başlarında xaçlar, musiqi ilə məscidə daxil oldular. O saat bayraqların birisini məscidin minarəsinə

vurdular ki, ermənilər sülh olmasını bilib atəşi kəssinlər. Məscidin içində naçalnik və başqa hökumət məmurları ağlayıb ermənilərin günahlarını bağışlamaq üçün müsəlmanlara çox yalvardılar. Müsəlmanlar onların barışıq təklifini yenə qəbul edib evlərinə getdikləri yerdə erməni sığınacağından güllə atıb bir müsəlmanı həlak etdilər. Müsəlmanlar səbr edib yenə sülh şərtlərini pozmaq istəmədilər. O gün axşama qədər erməni evlərindən şiddətlə güllə atılmaqda idi.

1905-ci il 21 avqust hadisələri. Bu gün müsəlmanlar evlərində saxladıqları erməniləri aparıb sağ-salamat ermənilərə tapşırdılar. Ermənilər də ancaq beş-altı nəfər müsəlmanı salamat buraxdılar. Bu barışıqdan sonra realni məktəbin təmirində işləyən 17 nəfər iranlı fəhləsinin başını kəsib müsəlmanları yenə pərişan etdilər. Bu qədər vicdansız, bu qədər qəddar ermənilərə müsəlmanlar yenə cavab verməyərək sülhü qoruyub saxlamağı üstün tutdular. Müharibədən sonra sülh zamanı məlum oldu ki, müsəlman hissəsindəki erməni dükanların hamısı salamat qalmışdı. Amma müsəlmanların erməni hissəsindəki dükanları tamam qarət edilib, dağıdılmışdı. Bu müharibədə müsəlmandan yaralı və qətl olmuş yüzdən çox olmazdı. Ermənilər hər yerdə tələfatlarını gizlətdikləri kimi, Şuşada da gizlətmək istəsələr də, müsəlman könüllüləri meyidləri saydıqlarından gizləyə bilmədilər.

Bu müharibələrdə müsəlmanlardan 20 ev yandırıldı. Ermənilərdən də xeyli ev və dükan yanıb pamal edilmişdi.

Beləliklə, avqustun 16-da baş verən müharibə, avqustun 21-də sülh elan edilməsi ilə sona yetdi. Bu müharibələrdə erməni soldatları millətlərinə yaxından kömək etdilər. Hökumət isə bitərəf qaldı.

## İKİNCİ ŞUŞA FACİƏSİ, YAXUD QALAŞÇAPOVUN HİYLƏSİ

***1906-cı il 12 iyulda Gəncə quberniyasının Şuşa şəhərində Qalaşçapovun hiyləsi ilə həyata keçirilən kədərli hadisələrin təfsilatı***

Niyyətin ifadəsi. Gəncə quberniyası Şuşa uyezdində erməni-müsəlman hadisələri baş verəndən bu faciələrə kimi bir çox general-qubernator təyin edildiyi kimi, axırıncı faciəyə bir az qalmış general Qalaşçapov yenidən Şuşa uyezdinə təyin edildi. Demək olar ki, hər ay başı Şuşada bir idarə üsulu təşkil edilib mövqeyi-tamaşaya qoyulurdu.

Şuşa uyezdinə təyin edilmiş generallar-Taqaşvili, Fleyşer, Qalaşçapovdan ibarətdir ki, bunların hər biri son dərəcədə eyş-işrətlə məşğul olur, özlərinə əziyyət verib başqa bir iş görməyə qətiyyən girişməzdilər. Daha açıq bir tövrilə tərəflərin razılığını almaq və müxtəlif

fikirlərlə onları ələ gətirməkdə idilər.

General Qalaşçapov isə zahirən sadə və safdil görünsə də, daxilən hiyləgər və qəddar olduğu gün kimi aşkar idi. Bu zat əvvəlcə təyinən Qarabağa gedəndə "ermənilər məni öldürəcəklər, barı xəncər və tapança ilə öldürsünlər. Zira, mən bombadan qorxuram" kimi sözləri camaat içində təkrar-təkrar söyləməkdə idi.

İlk dəfə Şuşaya gələndə müsəlman məhləsində qaldığı üçün islamların diqqətini öz tərəfinə cəlb etmiş idi. Və bir neçə dəfə erməni-müsəlman işində saxtakarlıq etdiyindən Şuşadan geri çağrılmışdı. Zira, bu vaxt hökumət bir az gözünü açıb Qafqazı tarazlıq halında sağ-salamat saxlamaq xəyalında idi.

Bu səbəbdəndir ki, Qalaşçapov geri çağırılıb yerinə Alftan təyin edildi. Belə olduqda mahir Qalaşçapov çox ustalıqla ermənilərin razılığı ilə erməni və müsəlman vəkillərindən bir parça razılıq məktubu alıb Tiflisə yola düşür. Alftan isə hər iki tərəfi bir gözdə gördüyündən bəzi yerlərdə vəhşilik edən erməni kəndlərinə cərimə, tənbih və cəza tətbiq etməkdə idi.

Erməni millətinə belə bir adamın qətiyyən xeyir verməyəcəyi aydın olduqda, ermənilər yeni hiylələrə əl atdılar. Ən əvvəl erməni keşişi Aşot Şuşa erməni xanımlarının şirin dillərindən bir ərizə yazdırıb ülyahəzrət imperatoriçəyə və qarfinaya Vorontsovaya göndərib, özü də Tiflisdə erməni müsəlman vəkillərinin gözünə torpaq atmaqla Qalaşçapovun ikinci dəfə Şuşaya göndərilməsi üçün razılıq kağızı əldə etdi. Belə-belə işlər ilə başlayırlar adil olan general Alftanı olmayan cəbr və zülmkarlıqlarla hökumətə nişan verməyə. Başlayırlar... "ay qoymayın kəndlərdə xırda qızlar, qoca övrətlər qalmadı ki, Alftan bihörmət etdirməsin"-deyib bağırmağa. Ermənilər açıq-açığa "hərgah Qalaşçapov Şuşaya təyin olub, Alftan və onun həmfikirləri podpolkovnik Vevren, uyezdin naçalniki Frelix və başqaları oradan getməsə, erməni milləti Şuşada əldən gedəcəkdir"-söyləməkdə idilər.

Cənab canişin həzrətləri bunlara baxıb öz müavini general Malamanı və bir neçə müstəntiq göndərib bir çox istintaqdan sonra adları yuxarıda çəkilmiş ədalətli şəxslərin bir təqsiri üzə çıxmadıqda, Gəncə quberniyasını iki general-qubernatorun ixtiyarına vermək məcburiyyətində qaldılar. Bundan sonra quberniyanın yarısı hörmətli general Alftana, digər hissəsi insanlığın qatili Qalaşçapova tapşırıldı.

General Qalaşçapov iki dəfədir ki, Qarabağa gedib Cavanşirə, Zəngəzur və Cəbrayıla əsla bir nəzər də olsa baxmayıb yalnız Şuşa uyezdinə diqqət yetirməkdə idi.

Qalaşçapovun təşəbbüsləri. Qalaşçapov ikinci dəfə Şuşaya gəldikdə bağda olan dörd nəfər müsəlmanı meyvə apardıqları vaxt Əsgəranda öldürdülər. Və yenə neçə nəfər müsəlmanı bağlarında su bağladıqları zaman öldürdülər. Müsəlmanlar şikayət üçün polisəyə töküldükdə Qalaşçapov da hazır dayanmışdı. General adil-adilanə şikayətçilərə aşağıdakı sözləri demişdir:

-Yoldan, yəni camaatın gediş-gəliş sahəsindən kənar işlər mənim ixtiyarımdan yuxarıdır.

Bu sözü söyləyib yenə öz mənzilinə qayıdır. Bundan bir qədər sonra Yevlaxdan Şuşaya gələn neçə nəfər erməni məliklərini müsəlman quldurları qətl edib, qalanını əsarətə aldıqlarından həmən saat şücaətli Qalaşçapov Şıxlar kəndindən 2000 manat cərimə aldırdı. Yenə Gorus uyezdinə qaçaqlar bir nəfər erməni pristavı öldürdüklərindən Şuşa müsəlmanlarının əslzadəsi olan Nəcəfqulu ağanı bir yığın ermənilərin şeytançılığı ilə üç aylıq həbsə salınmasına hökm edər.

Bu vaxt ermənilər Əsgəran yolunu bağlayıb şəhərlə mahalın əlaqəsini tamam kəsirlər. Bu da ondan ötrü imiş ki, hər tərəfdən ermənilərə kömək gəlsin, müsəlmanlara isə əsla bir əl tutma yolu qalmasın.

Müharibə xəbərləri.Əsgəran yolu ermənilər tərəfindən bağlandığından islamların kömək yerləri ancaq qərb tərəfdə yerləşən Zarıslı kəndi və sair müsəlman köyləridir ki, onları da neçə dəfə dağıtmaq üçün top-qoşun göndərilsə də, yaxşı müdafiə olunduqlarından top-tüfəngli qoşun məyus halda şəhərə qayıtdı.

Axırıncı müharibə. Qalanın qoşun tərəfindən topa tutulması. GeneralQalaşçapovun müsəlmanlara iblis münasibəti bəslədiyini anlayan ermənilər hər an bir bəhanə axtarırdılar ki, generalı müsəlmanların üstünə ayaqlandırsınlar.

Bu barədə bir sıra hoqqalar çıxardılar. Bəzi hallarda məqsədlərinə nail olsalar da, bəzilərində müsəlmanların bir növ gözü açıqlığından məqsədlərinə çatmırdılar. Nəhayət, 1906-cı ilin iyul ayının 12-də bir neçə gün bundan əvvəl ölmüş erməni meyidini generala nişan verib, "budur bu saat sənin qonşuluğunda müsəlmanlar qətlə yetirmişlər,"-deməklə general cənabları bir bəhanə axtardığından dərinə getməyib Köçərli məhəlləsini topa tutmaq əmrini verdi.

Ayın on ikisində bir tərəfdən kazak dəstələri və piyada rus qoşunu, digər tərəfdən ətrafdan yığılmış (10000) on minə yaxın erməni könüllü əsgəri, bir tərəfdən də müharibədən qabaq şəhərdə nizam altında saxlanmış erməni bölükləri və qaçaqları müsəlmanlara sarı hücuma başladılar. Beş gün ərzində erməni sərhəddində olan bütün müsəlman evləri yandırılıb

top zərbələri ilə dağıdıldı.

Hər tərəfdən ümidləri üzülən müsəlman könüllü cavanları da Rüstəm kimi müharibə etməkdə idilər. Rus qoşunu ilə ermənilər birdən hücum etməyə və rus batareyalarından müsəlmanların tərəfinə mərmi atmağa və şrapnel tökməyə başladılar . Müsəlmanların səngərləri belə atəşlərə cavab verə bilməsələr də belə atəşlər onların mənəvi qüvvələrinə əsla xələl yetişdirmədi, onlar bir addım da geri durmayıb, qoşunun və düşmənin mövqeyini sürətlə atan tüfənglərilə döyməyə başladılar.

Bu zaman ermənilərin tələfatı həddən çox idi. Zira, öz qüvvələrinə qürrələnib hər saat sığınacaqlardan çıxıb islam səngərlərinə yürüş edirdilər. İslam əsgərləri isə mərdliklə onları qarşılayıb bir qədəm də olsa, müharibədən geri durmur, erməni dəstələrini pərişan edirdilər. Ermənilərin bu vəziyyətini görən general Qalaşçapov ümum ştablarda olan rus qoşunlarının müharibəyə qoşulmasını əmr edir. Beşinci gün müsəlmanlar üstünə ümumi hücum başlanır.

Bu hücumlarda islam səngərlərinə toplarla yanaşı hər dəfə beş min, altı min tüfəngdən atəş açılırdı. Buna görə də müsəlmanlar müharibə edə-edə ən axırıncı sığınacaqlarına çəkilib müharibəni davam etdirirdilər. Bu zaman müsəlman əsgər komandanlarından birisi camaatı döyüşə ruhlandırıb erməniləri və kazakları islam səngərlərindən çıxarmağa başlayırlar. Bu vaxt müsəlmanların yetmiş yaşında olan qocalarından tutmuş yeddi yaşlı cocuqlarına kimi silah götürüb düşmən mövqelərinə yürüşə qoşuldular. Ermənilər və kazaklar müsəlmanların sel kimi yürüş edib yağmur kimi güllə yağdırmalarına tab gətirməyib geri çəkilməyə məcbur oldular.

Müsəlmanlar qova-qova erməniləri evlərinə, kazakları ştablarına, yeri məlum olmayan bəzi erməni könüllülərini isə çölə-biyabana dağıtdılar. Müharibə meydanında qalan yalnız islam şəhidləri, bir də müsəlman könüllüləri idi ki, o künc, bu küncdən düşmənləri tapıb qətl etməkdə idilər. Ermənilər nə qədər meyid apardılarsa da qaçarkən payız yarpağı kimi tökülən erməni cəmdəkləri islam könüllülərinin ayaqları altında qalmışdı.

General Qalaşçapov islamları belə qalib görüb daha evdən eşiyə çıxmadı. O, elə bir vəziyyətdə idi ki, uca bir təpənin üstündə durub müharibə meydanına-vuruşmaya tamaşa edirdi. Müsəlmanlar güc gəlib ermənilərin bir neçə böyük evlərini atəşə tutmuşdular. Evlər yanıb qurtardı, ancaq şiddətli yağış yağdığından yanğının başqa yerlərə keçməsi qorxusu yoxdu.

Müharibənin altıncı günü-ayın 18-də general Qalaşçapov hər iki

tərəfdən bir neçə vəkillər götürüb müsəlman hissəsinin fikrini öyrənməyə gəlir. Söhbət zamanı "Bir quru barışıqdan ötrü işi bu məqama çıxardınız"-deyib ağlayır (General Qalaşçapovun söhbəti zamanı saxtakarlıqla dəsmalı gözünə tutması, Xacə Hafiz, Şirazi mərhumun "Xod koşteyi Hafizra, xod təziyə midari" (tərcüməsi: Hafizi özün öldürdün, özün də yasın saxlayırsan) sözlərini yada saldı).

*1906, 18 iyul*

***Son xəbərlər.*** Bunların hamısından sonra bu qədər top və bomba ilə, xüsusən hökumət qoşunu ilə və minlərcə daşnaksütyun dəstələrinin müqabilində müsəlmanların evlərinə və mallarına dəyən ziyan çox olsa da, insan tələfatı ermənilərdən birə on az olmuşdur.

Müsəlmandan tələf olan otuz nəfər müharibəyə bitərəf, əlsiz-ayaqsız camaat idi. Ermənininin tələfatı tez gizlədildiyinə görə məlum olmadı. Amma Xan kəndində olan rusların sözlərinə görə şəhərdən dörd yüzə qədər erməni ölüləri arabalarda xaricə daşınırdı. Şəhərdə gizlədilmiş erməni ölüsünün sayı məlum olmadı.

Ermənilərə yaxından kömək edən kazaklardan da bir neçəsi öldürüldü. 18 iyulda sülh, barışıq bərpa olaraq, müharibə vaxtında islamların mərdanəliyi ermənilərə və hökumət qoşununa da məlum oldu. Ermənilər axırıncı müharibəni etməzdilər. Zira, bu dəfə hökumət qoşununa arxayın idilər. Bunu ağıllarına gətirməzdilər ki, müsəlmanlar "soldat gəldi qaç" məsələsini unudub öz hüquqlarını hər dəqiqə qorumağa hazırdırlar. Ümid ki, erməni qonşular bundan sonra hökumətə və onun siyasətbazlarına aldanmayıb öz səhifələrinə belə bir pərişanlıqlarıyla qara xətt çəkdirməyəcəklər. Qalaşçapov cənabları isə ölüm badəsini içənə kimi peşimanlıq acısı onun ağzından getməyəcəkdir.

Xalqımız bunu da unutmayacaq ki, Şuşanın ikinci müharibəsində müsəlmanların yeddi yaşından yetmiş yaşına qədər qocaları silah işlədib erməniləri müqavimətdən aciz qoyurdular. Müharibə əsnasında övrətlər də sığınacaqlara, səngərlərə hərbi sursat daşıyırdılar. İllər uzunu gün üzü görməyən xanım-bacılar arxalarında səngərlərə çörək və su daşıyıb islam əsgərlərinə kömək göstərdiklərinə görə dünyanın alqışlarını qazandılar. Allah belə bacılardan razı olsun. Ancaq bunların evlərdə oturub əsgər oğullar doğub, kəmali-ədəblə tərbiyə etmələri üçün Allah taaladan bir çox təmənnada bulunuruq. "Əsgər anası əsgər olar" deyib dünyadan köçən babalarımıza min rəhmət oxuyub sözümü sona yetirirəm.

# QƏFLƏTƏN BAŞ VERƏN İKİNCİ BAKI FACİƏLƏRİ

Avqustun 20-də şənbə günü gündüz saat beş yarımda şəhərdə müdafiəedici könüllü islam cavanları olmayan vaxt qəfildən müsəlmanlara hücum edilir.

Bu axırıncı hadisədə müsəlmanlardan çoxlu tələfat oldusa da, hamısı hamballar və bəzi iranlı fəhlə və arabaçılar idi. Bu müharibəyə müsəlmanların əvvəlcədən xəbərdarlığı olmayıb və əlavə olaraq ermənilərin fevralın altısında olan məğlubiyyətlərini özlərinin əbədi qələbəsi hesab etmişlər, zənnindəyəm. Zira, müsəlmanların ermənilərə pislik etmək xəyalları olsa idi, hamı bir nəfər kimi yaylaqlara köçüb şəhəri hambal və arabaçıların öhdəsinə buraxmazdılar. Ermənilər isə müsəlmanlar şəhərdə olan vaxt əsla müharibəyə cürət edə bilməzdilər.

Bunu sübut etməyə ehtiyac yoxdur. Hamımız-bizlər, yainki ermənilər də düşünmüşlər ki, Bakıda ermənilərin büsbütün fevral faciəsində mənəvi qüvvələri pozulmuşdu. İndiyə qədər ermənilər ehtiyaclarını bərpa edə bilməmişdilər. Buna görə müsəlmanlarla heç vaxt davaya çıxmağa qadir deyildilər.

Ermənilərin 20 avqust əməlləri özlərinə böyük bir nemət kimi görünürdü. Bu xəyal və bu hərəkət də onların qəlbinə birdən-birə girib müsəlmanlara qarşı gecə basqını etmək xəyalına salmışdı. Şəhər isə büsbütünlüklə boş və mühafizəsiz imiş.

İğtişaşın təfsilatı. İkinci Bakı faciəsindən bir neçə gün qabaq konkalarda xidmət edən işçilər tətil etmişdilər. Bu tətilə səbəb işçilərin öz vəziyyətlərindən narazılıqları idi. Hökumət isə onlarla razılığa gəlmək əvəzinə, yerlərinə soldat qoyub konkaları işə salmış, onları, yəni tətil etmiş işçiləri daha da acışdırmışdı.

Tətil etmiş işçilərin və onların kargüzarlarının çoxu erməni idi. Onlar hökumətin bu əməlindən narazı olub, şənbə günü konkanı gülləyə basırlar. Bu gülləbazlıq əsnasında konkada olan soldatlar və bir neçə müsəlman sərnişinlər həlak olur və yaralanırlar.

Fürsətdən istifadə üçün intizarda olan erməni kilsəsində həzin-həzin zəng çalınır. Ermənilər cavanları dükanların qabağında əllərini bir-birinə vurmaqla erməni dükançılarına qarışıqlıq salmaq işarəsi verirlər. Dükançılar isə bunun ardınca müsəlmanları atəşə tutur, hər tərəfdə ələ keçən, yollarda kəsbkarlıq edib su daşıyan, arabaçılıq kimi işlərlə məşğul olan camaatı qırıb kəsməyə başladılar.

Bu vaxt ermənilər hər yerdə heç nədən xəbəri olmayan müsəlmanlara qarşı hərbi qiyam etmişdilər. Evlərdən, pəncərələrdən müsəlmanlara

yağmur kimi güllə yağdırılırdı. Bu atəş vəziyyətində ermənilər fərq qoymadan ruslara və gürcülərə də atmaqda idilər. Bunu da deməliyik ki, ermənilər fevral hadisələrinin intiqamını almaq istəyirmişlər.

4-cü sahənin pristavı Jegintinin iğtişaşa dair verdiyi məlumatlar. Ermənilər iğtişaşa əvvəlcə kilsədən zəng çalındıqda kilsənin yanında-parapetdə başladılar. Bir neçə dəqiqədən sonra erməni pəncərələrindən müsəlmanların üstünə aramsız olaraq tüfəng-tapança gülləsi yağdırılırdı. Bəzi yerlərdə ermənilər müsəlman evlərinə və dükanlarına hücum edib qətl-qarət törədirdilər.

Ermənilər hökumətin qadağanına baxmayıb gecə sahibsiz qalmış evlərə od vurur, anbarlarını dağıtmaqla vəhşi hərəkətlərdə bulunurdular. Müsəlmanlar isə onlara cavab verə bilmirdilər. Zira, onların hərbi hazırlığı və silahı yox idi. Aşağıda adları yazılmış erməni evlərindən güllə atılırdı. Mixaylovun erməni xeyriyyə cəmiyyəti evindən, Osipovun, Yegizarovun, Avakovun, Mayılovun, Antonovun, Adamovun evlərindən, gecə olduqda isə Mikayılovun, Yegizarovun, Antonovun və erməni xeyriyyə cəmiyyəti otaqlarından qoşuna və polis işçilərinə tapança və tüfəngdən atəş açılırdı. Yenə həmən pristavın ərz-halına görə bu işlərin hamısının səbəbi ermənilərin milli ədavətləridir. Və ermənilər bu işə çoxdan hazırlaşırmışlar.

*Bakı polis rəisi cənab Eyzbaşın yazılı məlumatı.* Əvvəlinci Labinski polkunun üçüncü yüzlük sotiyay kazakları və altıncı nömrə toplar ki, yanğı alayının yanında sakinidirlər və ayın 21-də Qala tərəfinə gedən ətrafda yaşayan ermənilər kazakların və topların yerlərinə güllə yağdırmışlar. Lakin mənzildə olan on altı kazak və top xadimləri 82-ci Dağıstan polkunun köməyilə ermənilərə cavab vermişlər. Mənzilin şüşələri, divarları və tövləsi güllələrin şiddətindən bal şanı kimi olmuşdu. Xainlərin gülləsi həyətin içinə yağış kimi tökülürdü.

Əfsərlərin, komandirin otağının qab-qaşığı dağılmışdır. Komandirin dediyinə görə soldatlar olan ev şiddətlə gülləyə tutulurmuş. Bu atışmada soldatlara və otaqlarına 284 tüfəng yeddi tapança gülləsi atılıbdır. Polis rəisinin hökmü ilə güllə atılan qapıları sındırıb içəri girdikdə ermənilərin hamısı qaçıb getmişdi. Orada olan rusların şəhadətinə görə, çoxlu erməni var imiş ki, hamısı da güllə yağdırırlarmış. Axtarış əsnasında iki tapança, altı xəncər, yüz patron, üç beşaçılan tüfəng ələ keçirilmişdir. Polis rəisi qayıdan zaman yağıların bəzisi ona güllə atmışlar. Xoşbəxtlikdən özünə yox, yerə dəymişdir.

21 avqust xəbərləri. Bakının üçüncü sahəsinin məhəllə nəzarətçiləri həmrəy olaraq elan edirlər ki, avqustun 21-də axşam saat beşdə Krasnovodski küçəsində yerləşən Bağırovun evindən onlara neçə tüfəng gülləsi atılmış,

ancaq heç kəsə dəyməmişdir.

Avqustun 25-də həmin evin Suraxanski küçəsinə baxan balkonun qapısı arasından da onlara neçə tüfəng gülləsi atılmışdır. Atışma zamanı bir türk yaralanmışdır. İkinci dəfə qapılardan tüfəng atılan zaman soldatlar həmən evi güllərbaran etməyə başlayırlar. Nəticəsi məlum deyil, Ancaq güllərbarandan sonra yenə həmən evdən güllə atəşi davam edirdi. Məhəllə nəzarətçiləri sözün axırında deyirlər ki, Bağırovun evi gəlib gedən polis qulluqçularına və qoşun əhlinə bir tələ olmuşdur.

Pristav Jegintinin məlumatı. 15 avqustda Dağıstan polkunun bir rota soldatı unter-zabiti Texmiçenkonun komandası altında 4-cü Bakı polis sahəsinə 47 nəfər erməni gətirib bildirdi ki, həmən ermənilər Kudikovun evinə yığılıb oradan faytonla və piyada gedən hökumət məmurlarına və camaata güllə atırmışlar. Buna görə Dağıstan polkunun kapitanı Dubrovinin hökmünə əsasən onlar həmən evə daxil olub ki, yoxlama apararaq orada yığılan müqəssirləri ələ keçirsinlər. Yoxlama əsnasında neçə berdanka, revalver və bir qədər də patron tapılır. Ələ keçən silahların hamısı sahə pristavına təhvil verilir.

Həmin polkun baş unter-zabiti yarım rota soldatla kapitan İnozemsevin hökmünə əsasən iğtişaşçıları ələ keçirmək üçün Varşapetovun və Məhəmmədrza Rəsulbəyovun maqazinini küçədə yerləşən evlərində axtarış keçiriblər. Zira, həmən evlərdən yol keçən camaata hədsiz güllə atırlarmış. Ələ keçən adamlardan çoxlu tüfəng və tapança tutulmuşdur və adı yuxarıda çəkilən kapitana təhvil verilmişdir.

Ələ keçənlərin sayı 61 nəfərdir ki, həbsxanada yer olmadığından zindanban onları qəbul etməmişdir.

Liman naçalnikinin elanı. Bakı dəniz limanının naçalniki keçən gün təcili olaraq Bakı qalabəyisinə elan edir ki, avqustun 24-də Liman idarəsinin gözətçisi Savili Muxnatkin ona bildirmişdir ki, Merkuri və Milyutinski küçələrində yerləşən Adamovun evinin balkonundan həmən günün sübh çağı saat altının yarısında tapançadan dörd dəfə atəş açmışlar. Ancaq təsadüfi xoşbəxtlikdən heç kimə zərər dəyməmişdir. Və həmən gözətçi göstərib sübut edə bilər ki, həmən balkondan atəş açmışlar. Atəş edən caniləri üzbəüz durub göstərə də bilər. Və həmən işə şahid durmaqla da sübuta yetirər. Saat 11-də həmən evin bağlı qapısının şəbəkəsindən yol keçən müsəlmanlara iki dəfə tüfəng atmışlar. Şənbə günü avqustun 20-də həmən evin altında olan Sergeyev qardaşlarının Mirzəyansın, Parutçiyevin maqazinlərindən və həmçinin Sasun işrətxanasından artıq tüfəng atılırdı. Və həmçinin avqustun 20-də Afşarovun maqazinin qarşısında yerləşən evdən tüfəng atılırdı. Afşarovun maqazini yerləşən

evin qaravulçusu bir nəfər fanarçını qətl etmişdi. Port felşeri Laktenov gözətçi Muxnatkin və dənizçilik məktəbinin kargüzarı bu qətlə şəhadət edə bilərlər. Poçt-teleqram kontorunun dalında yerləşən Birjovoy küçəsində olan erməni evlərindən atılan tüfənglərdən neçə nəfər müsəlman qətlə yetişibdir. Həmən evlərdən qaravulçu soldatlara da güllə atmışlar. Buna görə həmən evlər soldatlar tərəfindən əhatə olunub, ancaq evə daxil olmaq mümkün olmamışdı. Növbətçi zabitin hökmünə əsasən qonşu evlərin balkonundan həmən yerə güllə yağdırılıb, nəticədə 6 nəfər erməni və bir nəfər də gürcü qətl edilir.

Pristav Jegintinin lazımi yerə verdiyi məlumat. Avqust ayının 20-də günortadan beş saat keçmiş ermənilər öz yaşadıqları evlərin açıq pəncərələrindən və akoşkalarından tüfəng və tapança ilə küçədən keçən adamlara atəş açırdılar. Bu atışma əsnasında Morskoy, Torqovı küçələrində, Səfərəliyevin evi qarşısında bir rus, Stanislavski küçəsində bir müsəlman faytonçusu qətl edilmişlər. Balaxanı küçəsində bir müsəlman işgəncə ilə qətl edilmiş və Mixaylovski xəstəxanasına gətirilmişdir.

Avqustun 21-də sübh tezdən başlamaqla günortadan üç saat keçənə kimi atışma olur. Üçdən sonra atışma o qədər də çox deyildi. Ermənilər öz iqamətgahlarının pəncərələrindən və evlərinin darvazasından küçələrdə piyada, ya atlı gəlib keçən müsəlmanlara atəş açırdılar.

Bu vaxt 4 müsəlman qətlə yetirilmişdir. Üç müsəlman da yaralanmışdır. Ermənilərdən isə bir nəfər qətl olunmuş, iki nəfər yaralanmışdır.

Yaralılar Mixaylovski xəstəxanasına göndərilmişdir. Şəxsiyyəti məlum olmayan müsəlman cənazələri qəbiristana göndərilmişdir. Tüfəng atılan şübhəli evlərin sahibi təyin və təhqiq edilmişdir.

Avqustun 22-də gecə ermənilər həyət tərəfdən iranlı müsəlman baqqal dükanlarını yarıb talan və qarət etmişlər. Həmin dükanlar bunlardır:

1. Balaxanı və Kaspi küçələrinin tinində Dövlətovun evində Ağadadaş Bəxtiyevin dükanı.

2. Telefonnı küçəsi ilə Kaspi küçəsinin tinində Zeynalovun evində Seyid Dadaş oğlunun dükanı.

3. Balaxanı küçəsində Əliyevin evində adı məlum olmayan bir iranlının dükanı.

4. Telefonnı küçəsində Dadaşovun evində Məşədi Mustafa oğlunun dükanı.

5. Böyük Morskoy küçəsində Səfərəliyevin evində Cəfər Nəsrullayevin dükanı.

Əllərində əşya tutulan ermənilərin adları məhəllə polisinə məlum edilmişdir.

6. Avqustun 24-də saat 11-də Aşurbəy küçəsində 28 nəfər iğtişaşçı Şahnəzərovun 11 nömrəli evini özülünə qədər tamamilə dağıdıb qarət etmişlər. Fitnəkarlar həbs olunmuşlar.

7. Yenə həmən küçədə Aleksandr Terasayevin 125 nömrəli evinə od vurub tamam yandırmışlar.

8. Ayın 24-də sübh çağı saat yeddidə Böyük Morskoy və Gimnaziya küçələrinin tinində -səkidə cüzi həyat əsəri görünən iki nəfər yaralı tapılmışdır.

9. Suraxanı və Bazar küçələrinin tinində Yuri Antonoviç adlı bir rus qətl edilmişdir.

10. Birinci Kantapin küçəsindəki 29 nömrəli evin qarşısında 55, ya 60 yaşında olan bir müsəlman qətl və şəhid olunmuşdur.

11. Bağırovun bağçasında Bağırovun evi yaxınlığından keçən Primorski sahəsinin 207 nömrəli qorodovoyu Həsənova evin balkonunda duran üç erməni atəş açıb onu yaralamışlar.

Avqustun 20-dən 25-ə qədər baş verən hadisələrə dair dördüncü məhəllə pristavının verdiyi məlumat. Karantinni küçəsində 121 nömrəli Filiposyans qardaşları evinin dördüncü mərtəbəsindən avqustun 20-dən 24-nə kimi gəlib gedən camaatı fərq qoymadan atəşə tuturdular. Ona görə də avqustun 24-ündə saat 11-də bu evə qoşun tərəfindən 3 dəfə top atılıb, evin 4-cü mərtəbəsinin içini və divarlarını dağıtmışdır. Bundan sonra həmən evdən daha güllə atmadılar.

Keçən günlərdə dördüncü sahədə belə faciələr də görünmüşdür.

Avqustun 26-da gecə saat onda iki nəfər cani erməni Telefonnı küçəsində olan Ter-Petrosovun evində Cəfər Mirbabayevin oğlunun dükanını çöldən sındırıb gedəndə pristav müavini Lazarev ilə hərbi polisin yaxınlaşdığını görüb onlara güllə atmağa başlayıblar. Caninin birisi qaçıb gizlənmiş, amma o birisi Artyom Semyonov tutulmuşdur.

Avqustun 26-da dördüncü sahənin xidmətkarı Nikolay Akopovu tutublar. O, öz erməni yoldaşları ilə birlikdə Balaxanıdan gələn Əhməd Bağırovun arabasını qarət etmək istəyirmiş. Avqustun 26-da Balaxanski küçəsində Mikayılovun evindən ermənilər Fərid Əbdül Zeynal oğluna iyirmi beş güllə atıb yaralamışlar. Ermənilərdən biri-Sergey Nalbəndov həbs edilibdir. Bakının ümdə zərəri Balaxanı adlanan neft mədənlərində təxmin edilir. Avqustun 20-dən başlamış sentyabrın 10-a kimi Bakıda və ətrafında bir çox cinayətlər baş vermişdir. Hər şeyin qiyməti birə üç artdığı üçün fəqir camaat və gəlmələr çox böyük ehtiyac və zillət içərisində yaşayırdılar.

Sentyabrın 10-da qraf Voronsov-Daşkov həzrətləri sülh və barışığı

bərpa etmək üçün Bakıya gəlmişdir. Sülh 1905-ci il sentyabrın 14-də çaharşənbə günü sərdar Voronsov-Daşkovun rəhbərliyi altında bərpa edilir.

Sülhün şərtləri. 1905-ci il sentyabrın 14-nə təsadüf edən çaharşənbə günü saat 12 radələrində min nəfərdən artıq müsəlman və ermənidən ibarət bir dəstə, hər millət öz nəciblərinin və ruhanilərinin iştirakı ilə sülh və barışıq üçün Dumski meydanına gəldilər. Dəstə son dərəcə şadlıq və razılıqla ruhanilərdən sülh və barışıq üzrə yaşamaq təklifini qəbul edirdilər.Camaatı sülhə dəvət edən quberniya qazisi Mir Məhəmmədkərim ağa Mir Cəfərzadə cənabları idi.

Bundan sonra erməni keşişi ilə general-qubernator S. A. Fadeyev cənabları camaata nəsihətlər etdilər. Camaat dəstə ilə Parapetə və oradan musiqi sədaları altında dəstə ilə Kolyubiyakinski küçəsindən Morskoy və Telefonnı küçələrinə getdilər. Sonra Stanislavski, Balaxanski küçələrinə, Quba meydanına qayıtdılar. Bu meydanda bir neçə dəstə dayanmışdı. Bu vaxt ruhanilər və əsilzadələr təsirli nitqlər söyləyib camaatı sülhə təşviq və dəvət etməkdə idilər. Dəstənin qabağında faytona minmiş halda general-leytenant Fadeevlə qubernator Lileyev gedirdilər. Şəhər əhalisinə gəldikdə, bu dəstələri sevinc və şadlıqla istiqbal edirdilər. Küçə və taxtapuşlar adamlarla dolu idi. Ermənilərlə müsəlmanlar əl-ələ verib gülə-gülə küçələrdə sel kimi axmaqda idilər. Belə bir insan qələbəliyini görən adam "heyrətdə qalmadım" deyərsə, yəqin özündən xəbərsiz bir xəyal imiş. Hər tərəfdə bir şadlıq, hər kəsdə bir sevinc duyulurdu. Quba meydanında sülh üçün çalışan musiqilərin sədası taxtapuşlara, oradan balkonlara, balkonlardan da səmaya yüksəlirdi.

Camaat şadlığından general faytonunun atlarını əlləri üstə aparırdılar. Faytonu təntənəli surətdə evinə qədər müşayiət etdilər.

General-qubernator faytondan qalxıb bu nitqi söylədi:

-Camaat! Bu gün mənim ömrümün ən səadətli bir günüdür. Mən bu günü əsla unutmaram. Həzərat! Siz dəxi bu təntənəli günü xəyalınızdan çıxarmayasınız və daim sülh barışıq üzrə yaşayasınız!

Bundan sonra qubernator camaatla görüşüb evinə daxil olur. Sonra sülh xəbərini camaata çatdırmaq üçün bir neçə nəfər mahala göndərilir. Gedənlər keşiş və şəhər idarə rəisi Kamil bəy Səfərəliyev, Bakıqalabəyisi Paruçik Eyzbaş cənablarıdır. Bu cür sülh olunması camaatı artıq dərəcədə sakit və rahat edib şəhərin əvvəlki qaydası ilə alış-veriş və nırxları yerində qərarlaşdırıldı. Allah bu sülhü əbədi etsin.

# VƏTƏN FƏRYADNAMƏSİ

*"Həyat", №53-67*

*1905-ci il avqust ayının 29-da erməni-müsəlman toqquşması nəticəsində Batum şəhərində erməni komitəsi tərəfindən öldürülmüş böyük şəhidimiz Məhəmmədqulu bəy Kəngərlinin tərcümeyi-halından və vəfat tarixindən bəhs edir. Qəzet və sair məktublardan əslən iqtibas və islah olunub tarixin üslub və məsləkinə müvafiq bir dilə çevrilmişdir...*

## İZAH

1905-ci il miladi. Avqust ayının 29-da Batum şəhərində məşhur Məhəmmədqulu bəy Kəngərlinin erməni komitəsi tərəfindən göndərilən vəhşi terrorçular əlində şəhid edildiyini eşidib ağlamayan qafqazlı bir müsəlman yox kimidir, zənn edirəm. Məhz millət və insaniyyət uğrunda can verməyə hazır olan əziz bir vücudun tərcümeyi-halını yazıb millətə, övladlarına yadigar saxlamaq təşəbbüsü ilə "Həyat" ("Həyat" qəzeti-gündəlik ictimai-siyasi, iqtisadi və ədəbi qəzet. Bakıda "Kaspi" mətbəəsində Azərbaycan dilində nəşr edilmişdir (7 iyun 1905-3 sentyabr 1906). Naşiri Ə. Topçubaşov, redaktorları Ə. Ağayev və Ə. Hüseynzadə olmuşdur) adlı nəşri dayandırılmış bir qəzetin 71-ci nömrəsində "Şüa" imzası ilə dərc etmişlər. Mən isə "Şüa" cənablarının arxasınca onun məqaləsindən, mərhumun özü ilə münasibətdə olmuş dostlarımdan alınan məktublardan iqtibas edərək bir vətən fəryadnaməsi olaraq bu sadə səhifələrimdə dərc etməklə yazımı zənətə mindirdim.

Millətimizin bütün maarifpərvərləri bunu etiraf edirlər ki, İrəvan quberniyasında indiyə qədər qeyrət və cavan-mərdlik adına layiq olan əziz bir vücudi olmuşsa da, o da Məhəmmədqulu bəy cənabları idi. Mərhum Məhəmmədqulu bəy millətinin uğrunda Fransanın "feleşiyeləri" qədər xidmət etmişdir desəm yenə az söyləmiş olaram. Bunu etiraf etməliyəm ki, başqa millətlərdə belə böyük kimsələrin heykəli tökülüb zamandan-zamana, əsrdən-əsrə yadigar buraxılır. Əfsus ki, fitri qüdrətin nadir yetişdiyi o millət şəhidinin adına bir yadigar, bir abidə (Böyük bir adamın və ya ali iş və ya bir hadisənin xatirəsini xələflərlə çatdırmaq məqsədiylə inşa olunan memarlıq və ya heykəltaraşlıq əsəri abidə adlanır. Abidə kəlməsi birinci dəfə olaraq müəllim Naci Əfəndi tərəfindən bu mənada tam sərrastlıqla çəkilmiş və hamı tərəfindən qəbul olunmuşdur. Ruhi-paki şad olsun!) qoyulmamışdır. Bu səbəbdən mən xoşbəxtin bu dəyərsiz tarixçəsi özünü məqami-iftixara çıxarmaq məqsədilə o mərhumun qanlı tərcümeyi-halını ağuş həsrətinə alaraq millət və vətən övladına bir müsibət nümunəsi kimi hifz etmək istəyir.

## TƏRCÜMEYİ-HAL, YAXUD VƏFAT TARİXİ

Mərhum Məhəmmədqulu bəy İrəvan quberniyası Naxçıvan şəhərində 1864-cü ildə təvəllüd edib. Atası Naxçıvan bəyzadələrindən mayor Şəfi ağadır. Ən birincisi, ən əsaslı təhsilini, daha dəqiq desək, ilk təlim-tərbiyəsini atasından almışdır. İkinci təhsil olan ibtidai dərsini xüsusi müəllimdən almışdır.

Ən birinci, təbii məktəb olan ev tərbiyəsini lazımınca qurtarıb, xaricdə oxuyacaq yaşa çatan vaxt atasının silkinə daxil olaraq Tiflis hərbi məktəbinə-kadetski korpusuna daxil olur. Sonra təhsilini davam etdirmək üçün Peterburq hərbi Mixaylovski ali topçu məktəbinə keçir. Burada 1882-ci ildə unter-zabit rütbəsini alır. 1884-cü ildə alim topçu məktəbini müvəffəqiyyətlə qurtarıb zabitlik rütbəsinə yüksəlir.

Xeyli vaxt zabitlik rütbəsində olub millətə, dövlətə, vətənə hüsni-xidmət göstəribdir. İlahi istedadı və insani ləyaqəti sayəsində hamının hörmətini qazandı. Bacarıq və qabiliyyətinə görə ştabs-kapitan mənsəbinə keçirildi. Millət və vətənə bir an xidmətdən geri qalmadı. 1893-cü ilə qədər əsgəri qulluqda xidmət eylədi. Dövlət və vətənə bayraq və qılıncla göstərdiyi xidmətləri bir az da elm və qələm ilə göstərmək fikrinə düşdü.

Ştabs-kapitan rütbəsində istefa verib vətənə qayıtdı. Bir-iki il vətənində, doğulduğu yerdə-Naxçıvanda qaldıqdan sonra İrəvan şəhərinə getdi. Canından əziz sevdiyi millətini görüb ən çox nələrə möhtac olduğunu öyrəndi. Bildi ki, İrəvan quberniyasının müsəlmanları dilsizlikdən, elmsizlikdən, dövlətin, qanuni hökumət məmurlarının hüquqlarını bilmədiklərindən hər an bir müsibətdən digər bəlaya düçar olurlar. Bildi ki, ən əvvəl bacarıqlı bir vəkil (advokat) olub, millətə xidmətə buradan başlamaq lazımdır. Bu arzu ilə bütün qüdrət və qeyrətini sərf edib vəkillik imtahanına hazırlaşdı. Az vaxt içində qanuni şəkildə vəkillik ixtiyarını aldı. Bir az əvvəl nə cür mükəmməl bir topçu zabiti idisə də, indi də bacarıqlı, məharətli bir vəkil idi. Demək ki, qılınc ilə qələmi birləşdirdi. Fəzl və qeyrəti, sidq və nəcabəti sayəsində az vaxtda çox şöhrət qazandı. Peterburqdakı adlı-sanlı vəkillərə müraciət edəcək adamlar mərhumun qüdrətli nitqindən, hüquqi məlumatından istifadə etməyə başladılar. İş və iqtidar söz vəd olaraq qalmadı. Tez vaxtda əməklə meydana çıxdı. Böyük şəhid İrəvanda şöhrətli, diplomlu böyük-böyük vəkillərin qarşısında öhdəsinə götürdüyü böyük və çətin işləri həmişə müvəffəqiyyətlə həll edirdi. Fəzl və bacarığına əlavə edilən alicənablığı, millətpərvərliyi, rəhmdilliyi mərhumun adını hər kəsin ürəyində yer etdirdi. Bir çox vəkillər kimi pula, dövlətə əsla tamah etməyib, özü mənən və cismən nəcib və nəcibzadə olduğunu biruzə verirdi. Könlü tox, niyyəti ali, ümidi

böyük, fikri geniş idi. Nitqinin gücündə, ağıl və kamalda nə mərtəbə nümunəyə layiq idisə də, qeyrət və düşüncələrində səy və ciddi-cəhddə, millət qeyrətlilikdə o dərəcə təqdirəlayiq idi. Hər gün evinə bir çox fəqir, yoxsul müsəlmanlar gəlib ərz-hallarını pulsuz yazdırırdılar. Dərdlərinə pulsuz dərman alardılar. Bu qədər məşğuliyyəti olsa da, camaatın elə bir işi olmazdı ki, mərhumun həmin işin mərkəzində olmasın. Elə bir gün olmazdı ki, milləti üçün bir xeyirli işin tədbiri ilə məşğul olmasın. Bu səbəb ilədir ki, ülvi məqsədli şəhid belə ciddi, əhəmiyyətli bir xidmətlə məşğul ola-ola millət övladlarının tərbiyə və təhsilini əsla yaddan çıxarmazdı. Millətin salamatlığını və tərəqqisini düşünür, birinci qapı, on birinci vasitə zəmanənin tələbinə görə açılacaq məktəb olduğunu bilirdi. Axırda vəkillik işinin ağırlığına baxmayaraq Qafqazda birinci dəfə müsəlman leyli məktəbi-pansion açdı. Zabitliyi, vəkilliyi ilə bərabər pedaqoq silkinə də girdi. Ömürlərini müəllimlikdə çürüdüb Qafqazın bu qədər böyük şəhərlərində bir müsəlman pansionu aça bilməyən müəllimlərə ən ibrətbəxş bir nümunə, bir müəllim oldu. Pansionunu az vaxtda tərəqqi dərəcəsinin ən üst mərtəbəsinə çıxardı. Günlərinin bütün saatlarını gah vəkillikdə, gah məktəb müfəttişliyində, gah millət müşavirəliyində keçirərdi. Axırda həmin ilin keçmiş mart ayında İrəvan müsəlmanlarına vəkalətən Peterburqa getməyi lazım bildi.

Bu əhəmiyyətli və bu böyük iş qeyrətli və bilikli bir ağıl sahibinə möhtac olduğundan o mərhuma həvalə olunması üçün qərar verildi. Bu xüsusda elə bir şəxs gərək idi ki, bu nazik və məsuliyyətli işi öhdəsinə götürüb vəzifəsini layiqi ilə ifa edə idi. İranlılara bu barədə əsla zəhmət olmadı. Zira gözlərinin qabağında dağ kimi səbatlı, arslan kimi cəsur, Xızr kimi sirrlər açan, həqiqət kimi zəhmətkeş Məhəmmədqulu bəy var idi. Zavallı cavan!.. Mərhum ümumi camaatın ittifaq və seçkisi ilə bir neçə yoldaşla Peterburqa getdi.

Millətin hər növ ehtiyacını şəxsən kəramətli canişin qraf Voronsov cənabına söyləyib, daxiliyyə vəzifəsinə ərz-hal etdi. Biçarə millətin hüququnu hökumət idarələrində mühafizəyə ixtiyar sahibi olmaq üçün dili və qələmi ilə çalışdı. Məqsədi hər halda müsəlmanların hüququnu başqa qonşuları və ermənilərlə bərabər səviyyədə etmək idi. Mərhumun ali xahişi məhz Qafqaziyada təkcə rəhbərlik və böyüklük edən ermənilərə xoş gəlmədi. Ölüm kağızları yazdılar. Öldürmək, şəhid etmək xəyalına düşdülər. Mərhumu Peterburqdan gələndən sonra gözləyirdilər ki, hər tövr olsa öldürsünlər. Mərhum işin bu cəhətini də başa düşmüşdü. Lakin bir neçə araqarışdıran erməninin divar dalına girib alçaqlar kimi onu öldürəcəklərindən qorxmadı. Bu işləri bilə-bilə yenə vəkilliyinə, məktəbinə

davam etmək istərdi. Lakin bir kimsədən kömək, dadına çatan görmədi. Axırda çarəsiz məktəbi dağıdıb, vəkilliyi də boşlayıb Parisə getməyə, oradan millətinə özgə yolla xidmət etməyə məcbur oldu.

O millət aşiqi, o qeyrət sahibi istərdi ki, bacısı oğlu Heydəri və başqalarını Parisə aparmaqla qafqazlılara bir təlim-tərbiyə qapısı da açsın. İstərdi ki, Qafqazdan tələbə getməyə vasitə olub bir dairə içində sığınıb qalan müsəlmanlara o elm və hünər mənbəyi olan Fransa dövlətinin paytaxtı Paris şəhərini tanıtdırsın. Elə bu fikirlərlə də avqustun 25-də İrəvanı tərk edib Tiflisə getdi. Orada lazımi işlərini görüb bacısı oğlu Heydər ağa ilə Batuma yollandı ki, gəmi ilə Parisə getsin. Batumda gəmi biletini alıb bir saat sonra yola düşməsinə intizar oldu. Bu arada dostlarına açıq məktub yazmaq istədi. Bir dükandan bir qədər açıq məktub alıb, bəzi dostlarına aşağıdakı məzmunda kağızlar yazdı: "Batumdayıq. Bilet aldıq. Bir saat sonra firəng gəmisinə minib Parisə yollanırıq. Vətənim, millətim, heç vaxt yadımdan çıxmayacaqdır. Xidmət məkan və yer ilən deyil, insanın özüylədir...". Bu axırıncı məktubunu poçta qutusuna buraxıb, oradan yemək yeməyə gedəcəkdi ki, erməni komitəsi tərəfindən göndərilmiş üç nəfər alçaq erməni gizləndikləri divarın dalından çıxıb qəflətən o millət fədakarını xəncərlə parça-parça doğrayıb qaçdılar. Yüz illərcə İrəvan quberniyasının təkcə yetirdiyi, qafqazlıların fəxr edəcəyi bu qeyrət mücəssəməsi, bu millət gözünün işığı hələ 41 yaşında ikən bir neçə xain alçağın xəncəri ilə doğrandı.

Cənnətlik şəhidin mübarək doğranmış bədəni iki gün Batumda qaldıqdan sonra sentyabrın birində Batum müsəlmanlarının, İran konsulunun və başqa bəyzadələrin iştirakı və bacısı oğlu Heydərin (Mərhum Məhəmmədqulu bəyin özü ilə Parisə apardığı bacısı oğlu Heydər ağa ilə şəhərimizdə şəxsən görüşüb kiçikliyində bir sağlam düşüncə sahibi olduğunu layiqincə düşündüm. Ən ağıllı, ən həlim bir cavan olduğundan onu dayısının xatirəsi münasibətilə oxuculara təqdim edirəm) müşayiəti ilə Tiflisə göndərildi. Tiflis camaatı mərhumun cənazəsini çox böyük ehtiramla təntənəli surətdə vağzalda qarşıladılar. Oradan böyük dəstə ilə məscidə aparıb sentyabrın 2-də öz doğma bacısının yanında torpağa və əbədi mənzilinə təslim etdilər. Mərhum Məhəmmədqulu bəyin xalis və doğru müsəlman olduğu son nəfəsində zəncərlər altında dediyi bu sözlərlə qoy hamıya məlum olsun. Başından bir neçə yara aldıqdan sonra yıxılır, sonra qalxıb divara söykənib "allahu-məsəlli, əla Məhəmmədən və ali Məhəmməd. Əşhədü ən la ilahə illəllah. Əşhədü ənnə Məhəmmədən rəsulüllah. Xüdavəndə, şəhid ol, əziz millətimə bir an da xidmətdən geri durmadım", dedikdə qatillər ürəyinin başından bir xəncər vurub qana

qəltan edib yerə saldılar. Allah onun bacısı oğluna, qardaşına, bütün başqa müsəlmanlara qəlb mətanəti, mərhəmət əta buyursun!

## ERMƏNİLƏRİN CAVANŞİR UYEZDİNDƏKİ XAM XƏYALLARI

Ermənilərin, necə ki, məlumdur, ən əsas fikirləri müsəlmanları Gəncə quberniyasından çıxarıb yerində Ermənistan təşkil etmək idi. Bu, Cavanşir hadisəsinin və aşağıdakı yazılmış sözlərimizin hər biri ermənilərin bu fikirlərinin sübutuna kifayətdir. Buna bir şahid də Tərtər dərəsindəki bütün müsəlman kəndlərinin ermənilər tərəfindən dağıdılmasıdır. Və Xaçın dərəsindəki köylərin də dağıdılması bu işlər üçün bir şahid misalındadır. Ermənilərin xəyalı bu kəndləri dağıdıb öz xeyirləri üçün bir şose yolu da salmaq imiş ki, Gəncədən Şuşaya qədər dağlarla bu yolun salınması üçün komitə tərəfindən ermənilərə tapşırılıb. Komitə həmin yolun xərci üçün də 60 min manat pul təyin etmişdi. Keçən martın əvvəllərində həmin şosse çəkilərək Kolanlı kəndindən keçməli idi. Bu yolun düzəldilməsi Şuşanın Qalaşçapov tərəfindən dağıdılmasına təsadüf etdiyindən onun yerinə general Bauver gəldiyindən müsəlmanların şikayətinə əsasən həmən şossenin salınması qadağan olunub. Kolanlı camaatı da yerlərinə göndərilmişdi. Bu camaat ikinci sahədə avara gəzdiklərindən general Bauver onları mühafizə altında apartdırıb öz yerlərinə sakin etdirdi. İndi də həmən yolun nişanələri Kolanlı kəndində qalır. Budur ki, ermənilər Cavanşir uyezdi haqda olan fikirlərinə əməl etmək üçün nə qədər çalışdılar, çoxlu qənimət apardılar, çoxlu da islam kəndi dağıtdılar. Axırda, 1906-cı ilin yanvar ayının 1-də Papravaid müharibəsində bütünlüklə məğlub olub nə qədər ki, qənimət aparmışdılar bir o qədər də qənimət dava meydanında qoyub qaçdılar. Arzularına çatmayıb, büsbütün Şuşada və başqa uyezdlərdə siyasətləri içində də məhv oldular.

*CAVANŞİR HADİSƏLƏRİ*. Gəncə quberniyasının Cavanşir uyezdində 1905-1906-cı illərdə qəflətən baş verən erməni-müsəlman faciələrindən bəhs edir.

Əvvəlcə İrşad qəzeti vasitəsilə bu faciələrə dair ətrafdan məlumat tələb etdiyimizdən Baxış bəy Yusifbəyov cənablarının göndərdiyi rusca bir jurnaldan tərcümə və iqtibas olunmuşdur və bəzi yerlərində tənqid olunduğu kimi, bəzi yerlərinə münasib mətləblər də daxil edilmişdir.

O ətrafın idarə bölgüsü və imtiyazlı sakinləri barəsində müqəddimə. Cavanşir uyezdi üç polis sahəsinə bölünərək idarə olunmaqdadır.

1 və 2-ci sahələrdə Həsənqaya, Sərv, Yarımca, Sistula, Kaxrılar

köylərini çıxdıqdan sonra yerdə qalan köylər islamlara məxsusdur. Bu iki sahə bir-birinə ilhaq və bir-birinə tabe edilib ən nüfuzlu, ən qüdrətli camaatı islamlardan ibarətdir. Bununla bərabər müsəlmanlar çox olduğuna görə bu iki sahədə əsla vuruşma, yaxud bir ümumi hərəkət, bir cinayət də üzə çıxıb baş vermədi. İnsaniyyətpərvər müsəlmanlar aciz erməni qonşularına gündən-günə artan məhəbbətə başlayıb millətimizin tarix səhifələrini baş ucalığı gətirən bir məqama qaldırdılar.

3-cü sahə isə Dağbasar köylərindən ibarət olub əksəriyyətlə varlı və sərvət sahibi olan ermənilərin əlində idi. Bu sahədə islam köyləri fəqət Dəmirli, Hacıqərvənd, Çıraqlı, Ümidli, İmarət, Qərvənd, Xaçın çayı boyunca Şəxavənd, Köynəpay, Əliağalı, Sırxavənd, İsmayılbəyli kimi dağlıq köylərindən ibarətdir ki, Kolanlar adlandırılmışdır.

Ermənilərin xəfiyyə cəmiyyətinin çox hissəsi bu kəndlərin ələ keçirilməsi uğrunda çalışırdılar. Hər halda ermənilərin gələcək xəyallarına baxılarsa da, onlara elə bir yol lazım idi ki, İrəvan, Şuşa, Zəngəzur və Gəncə ermənilərini bir-birilə əlaqələndirə bilsin. Yəni İrəvandan, yaxud Şuşadan tüfəngini çiyninə salan bir erməni soldatı yol üstü erməni kəndindən başqa bir yerdə görünmədən getdiyi yerə çata bilsin. Yuxarıda qeyd edilmiş islam köylərinin coğrafi mövqeyinə baxılarsa ermənilərin büsbütün əməllərinə möhkəm bir sədd kimidir. Ona görədir ki, ermənilər var qüvvələrini bu zavallı islam köylərinə vurmaq üçün hər an tədarükdə idilər. Gündən-günə daşnaksütyunlar inqilab sularını islam köylərinin özülünə bağlayıb dağıtmaq həvəsilə müxtəlif hiylələrə əl atırdılar.

Onların fikirləri bu iki dərədə müsəlmanları qırıb yerlərində Ermənistan təşkil etmək imiş. Bu köylər dağıdıldıqda yuxarıda deyilən üç uyezd erməni əlinə düşəcəkdi. Ermənilər bu fikirlərlə başladılar mehriban qonşuları ilə pis rəftarda olmağa.

1905-ci ilin avqust ayında meydana çıxmış Qarabağ və Şuşa inqilabı çaxnaşmasından istifadə edib Cavanşir uyezdinin erməniləri yavaş-yavaş hərəkətə gələrək öz həmyerliləri olan islam köylülərini imkan düşdükcə söyüb bihörmət etməklə ermənilik adına onlarda nifrət oyatdılar.

Yeri düşdükdə ara bir soyğunçuluğa da əl aparıb insanlıqdan kənar işlərə yol verirdilər. Yüz illərlə ermənilərdən "Allah saxlasın" eşidən islamlar bu açıq, birdən-birə söyüş və irzü namusa toxunan əsas əməlləri eşitdikdə, yaxud illər uzunu qaranlıq gecələrdə evlərində mehman olduqları erməni girvələrindən qarət və qətl görüncə, çaş-baş qalıb gahdan bir hökumətə ərz-hal verməkdən başqa əllərindən ayrı bir iş gəlməzdi. Bu kədərli vəziyyət, ədavət hər iki millətin arasında qərar tutub böyük və təhlükəli müsibətlərə çevrilməkdə idi. Bu vaxt ermənilərlə müsəlmanlar

arasında gediş-gəliş tamamilə kəsilmiş, erməni köyləri hərbi ştablar kimi, daşnaksütyun cövlangahı olmuşdu.

**Ermənilərin iğtişaşa dair iqdimatı.** Ermənilər müharibə tədarüklərini yerbəyer edəndən sonra birinci, ikinci sahədəki erməni köylülərini köçürüb üçüncü sahədə tökməyə başladılar. Bu minval ilə Sərv kəndindən başqa köylərin hamısı üçüncü sahədə yerləşir. Deməк olar ki, üçüncü sahə bir hərb meydanı şəklini almışdı. Bu sahə, demək olar ki, Rusiyanın Maqadan şəhəri, Türkiyənin Səlanik bələdiyyəsi, Yaponiyanın Tokiyosu, yunanların Atinası misallı müharibə üçün əsgər və hərbi sursat doldurulmuş bir yerə bənzəyirdi.

Bunların hamısından sonra ermənilər islam köyləri ilə qonşu olan erməni köylərində istehkamlar düzəldib dörd tərəfdə sığnacaqlar və səngərlər inşa etməyə başlayırlar. Qüvvətli bir dövlətin müharibə vaxtı düzəltdiyi istehkamlar kimi, erməni səngərləri də elə bir nizamla qurulurdu. Bizim müsəlmanlar isə ermənilərin işinə barmaqarası, lağlağı bir nəzərlə baxıb meydanlarda düzəltdikləri qorunma yerlərini çocuqlar yazısına bənzədirdilər. Bizim əlimizə yetişmiş məlumatlara əsasən, islamların hal və hərəkətinə nə qədər heyrət və həsrətlə əfsuslar edilsə, yenə azdır. Ermənilərin sürətlə atan tüfəng almasını görüb, görüb də babadan qalma Qara Mahmud Lahıc çapında çaxmaqlı tüfənglərini də ermənilərə münasib qiymətə satan əcayiblərə islam adı verməkdə özümü böyük bir xətaya salmış hesab edirəm. Zira Cavanşir müsəlmanlarının belə arsız hərəkətlərini görən ermənilər odlu silah əldə etmək üçün daha da açıqdan açığa hərəkət etməkdə idilər (Cavanşir adında nə var?! Anlaya bilmirəm?!) .

**İğtişaş xəbərləri.** 1905-ci ilin 26 sentyabr tarixində odlu silah daşıyan bir dəstə daşnaksütyun vəhşiləri Əsəd adlı bir nəfər müsəlmanı öldürürlər. Bu xəbər məlum olduqda camaata çox pis təsir bağışlayıb onları təqib üçün bir çox fikirdə bulundular. Belə ki, həmən gündə ermənilərdən bir neçə yük barıt, tüfəng və İsveçrədən göndərilmiş bəzi odlu silahlar aldılar. Məhəllə polis çinovnikləri cinayət yerinə gedib aşağıdakı əşyaları götürdülər.

İstintaq zamanı müəyyən oldu ki, içi bomba və barıtla dolu iki yeşik şagird dəftərləri kənd müəllimləri-Andriyans, Mirzayans, Sabah Sahakyans adlı şəxslərə yetişməli imiş. Bundan başqa, qlava Mirzə Zaxarbəyovun sərəncamına göndərilən üç nəfər həbsə alındılar. Bir neçə gün keçəndən sonra ermənilər Hacı Kəravənd sakini, altmış yaşlı Hümmət bəy Paşa bəy oğlu bir qocanı əsir alıb özləri ilə apardılar. Polisin çox saylı təklifi ilə əsiri geri vermək onlara bildirildisə də, qəbul edilmədiyi təqdirdə müsəlmanların milli hərəkatı olacağını ehtimal edərək cənab general qubernator cəza qoşunu göndəriləcəyini bildirdikdə Hümmət bəyi geri

vermək məsələsini ermənilər qəbul edirlər. Baxalım, Hümmət bəy necə geri qaytarıldı? Təəssüf ki, yüz kazakdan ibarət cəza qoşunu ancaq məzlum Hümmət bəyin bir neçə gün bundan əvvəl qan içində xeyli müddət gizlədilmiş cənazəsini islamlara qaytardılar. Yenə bu vaxtlarda Sırxanvənd sakinləri-Abbasqulu və İman Həsənxan oğlu meşəyə getdikləri zaman ermənilər tərəfindən qətl olunub sonra yandırılmışlar. Cinayət yerində yalnız kəsilmiş başları qoca atalarına bir müsibət əmanəti kimi qoyulmuşdu. Qoca, zavallı balalarının kəsik başlarını götürüb evlərinə-analarına oğul yadigarı kimi gətirmişdi. Bu günlərdə Qafqazda Zemstvo təşkili üçün uyezd məşvərətxanasına vəkil seçkisi üçün Tərtərə yığılan camaata cavanlarının başını nişan verib imdad istəyən qocanı bir sıra biqeyrət Cavanşir bəyləri camaat arasına girməyə də qoymadı.

Ah! Bu Cavanşir və bu familyada nə var imiş? Ermənilərin bu vəhşi hərəkətlərinə qarşı müsəlmanlarda səbr və dözüm tükənsə də, yenə öz şəxsi mənfəəti sayəsində quş uçuran bəylər bu fəqir, bu məzlum camaatı yatırdıb ermənilərin zərbəsi altına verməkdə idilər (Bunlara da ikinci erməni deyilməli). Çətinliklə də olsa müsəlmanlar bir növlə səbr etsələr də, bu səbrin hökumətin bir çarə tapması üçün olduğundan, hökumət isə çarə aramadığından, müsəlmanlar çox pərişan olurdular. Bu pərişanlığa bais həmçinin Sırxanvənd kəndinin ermənilər tərəfindən qətl və qarət edilməsi xəbəridir. Bu xəbər yayılar-yayılmaz həmən mahala gedən yüz kazak zabiti camaatı dağılmış və kəndləri dağılmış, yandırılmış görürlər. Məzlum camaatdan aşağıdakı məlumatı öyrənirlər.

Sırxanvənd hadisələri. 1905-ci ilin 3 oktyabr tarixində sübh zamanı meşə içindən həzin bir şeypur səsi eşidilir. Ardınca meşədən güclü piyada dəstələri çıxır, arxadan piyada və atlılar hərbi bayraqlarla kəndə yaxınlaşırlar. Dəstələr kəndə yaxınlaşıb əhəmiyyətli təpələri və mövqeləri işğal edib kəndi atəşə tuturlar.

Atəş səsindən hürkən islamlar ailələrini götürüb meşələrə qaçdıqda dörd yüz nəfər atlı erməni onları təqib edib tələfata uğradırlar.

Bu atlılar Hamazasp (Hamazasp Qarabağın bir sıra müharibələrində yaxından iştirak edib olmazın vəhşiliklər göstərdiyinə görə daşnaksütyun komitəsi ona general rütbəsi vermişdir.) adlı ermənininin komandası altında kəndi büsbütün dağıdırlar. Bir az zamanda Sırxanvənd, kəndi islam cəsədləri ilə dolub qandan çoxlu çalalar əmələ gəlmişdi. Az bir vaxt ərzində Sırxanvənd ona qonşu olan Əliağalı köyləri qarət edilib dağıdıldı. Məşhur mülkədar İsmayıl bəy və Cavad ağa Cavanşirin imarətləri də qarətdən sonra yandırıldı. Vəhşi yırtıcılar südəmər körpələri beşiyi ilə odlayıb, bəzən də anasının qucağından alıb divarlara vurmaqla para-

para edir, süngülərə keçirirdilər.

Bu xəbərin uyezd islamlarına nə dərəcədə pis təsir etdiyi təsəvvür xaricindədir. Əhvalatdan bir gün sonra bu ağrılı xəbər Tərtər qəsəbəsinə yetişir. General Taqaşvili sülh üçün iddiaçı olan millətləri Tərtərə dəvət etsə də, islamlardan çox adam gəlir, ancaq ermənilərdən bir nəfər də barışıq üçün Tərtərə ayaq basmadı. Müsəlmanlar yuxarıda yazılmış faciədə talan olmuş kəndlər barəsində qubernatora şikayət etdiklərindən müqəssirləri axtarmaq üçün üç yüz kazak göndərildi. Kazaklar gediş-gəliş yolu ilə getməyib yolsuz-izsiz yerlərlə getdiklərindən Hamazasp və onun əsgərlərindən bir nəfər də olsa ələ keçirə bilmədilər. Əlbəttə, ələ keçmələri mümkün deyildi. Zira, hər erməni kəndi onları gizlətmək üçün komitəyə söz vermişdi. Müsəlmanlar yenə hökumətin bir iş görəcəyinə əmin olub bir tədbir görmədilər. Hökumət isə məzlum kəndliləri bəylərin zülmü altına verməklə, əsasən üçüncü sahədə yaşayan aldadılmış müsəlmanlar erməni vəhşiliyinin qurbanı olurdular.

Belə qarışıqlıq içində bir aydan artıq güzaran keçirən uyezd kəndlilərinin müsəlmanları ara-sıra şikayətlər verməkdə idilər. Zira o yan, bu yanda yüngül cinayətlər tez-tez baş verməkdə idi. Əlbəttə onların hamısını bura daxil etmək imkan xaricindədir. Bu aralıqda Pivovarov Şuşa uyezd naçalniki vəzifəsinə təyin edilib naçalnik Fliqbel işdən azad edildi (Naçalnik Pivovarov bir böyük adam olub, bir çox evlər dağıdan cinayətlərdə bulunub, Şuşada və başqa yerlərdə ermənilərə üz görənlik etdiyindən müsəlmanlar onun Cavanşir uyezdinə təyin edilməsindən çox narazı idilər. Naçalnik Pivovarov erməni partiyalarını dost tutduğu kimi, zalim Daşnaksütyun partiyasına bir həqiqi məhəbbət, bir səmimiyyət göstərməkdə idi. Bunlara görə, biçarə kəndlilər və Şuşa tacirləri general-qubernatora ərizələr verib onun xidmətdən xaric olmasını tələb etsələr də, xahişləri qəbul olunmadı. Zira, biqeyrət bəylər qubernatora ərizələr verib Pivovarovun xidmətdə qalmasını tələb edirdilər. Bunlara səbəb dəxi Pivovarovun onlarla həmstul və həmpiyalə olmasıdır, zənnindəyəm. Bu da Cavanşir familiyası. Cənab qubernator da bəylərin qəlbini sındırmamaq üçün Pivovarovun xidmətdə qalmasını lazım bilir).

1905-ci il 30 noyabr hadisələri, yaxud Pivovarovun idarə üsulu. Noyabr ayının axırında Hacıqərvənd sakini məşhur Qoçaq Əsgərxan adlı bir şəxs əmisinin ailəsini yaylaqdan gətirmək üçün 20 nəfər silahlı islamla gedərkən ermənilər xəbər tutub Tərtərin Sərsəng körpüsünün yanında yolu kəsirlər.

Cənab Pivovarov şikayətçi müsəlmanların işinə heç bir tədbir görməyərək onları vəhşi ermənilərin öhdəsinə buraxmışdı. Bu vaxtlarda

Cavanşir uyezdinin hər tərəfində sülh-barışıq pozulub, hər tərəfdə iğtişaşlar baş verirdi. Yollarda gediş-gəliş kəsilmiş, səhərdən axşama, axşamdan səhərə kimi Cavanşirin karvanlarla dolu olan işlək yolları bir sükunət, bir cansız səhra şəklinə düşmüşdü.

O gediş-gəlişi kəsilməyən yollarda şeytanlardan, bir də erməni yol kəsənlərindən başqa bir insan görünmürdü.

Kəndlər bir-birindən əlaqəni kəsdiklərindən ərzağa möhtac olan kəndlərə üç ay ərzində heç nə gəlmədiyindən aclıq və digər tərəfdən can qorxusu islamları öz-özünə dəhşətə salırdı.

Cavanşir bəyləri isə naçalnik Pivovarovla hər gün bir ziyafətxanada keyf çəkməkdə, gün keçirməkdə idilər.

1905 miladi ili, 25 noyabr.

1905-ci ilin 27 noyabrında baş verən Dəmirli faciəsi. 27 noyabrda daşnaksütyun orduları, hər tərəfdən cəm olub Madagiz Çaylı, Namis və sair köylülərindən təşkil olunmuş bir könüllü ordu da onlara qoşulub sübh vaxtı Dəmirli kəndini mühasirə etdilər. Bu Dəmirli kəndi üç tərəfdən erməni köyləri ilə əhatə olunub yalnız kəndin qərb tərəfi Çıraqlı adlı islam köyünə bitişik idi. Ermənilər əvvəlcə üç tərəfdən kəndə hücum edib mühüm mövqeləri tuturlar. Kəndin işğalı zamanı qabağa çıxan dörd çobanı öldürməklə min beş yüz qoyun ələ keçirib erməni göylərinə göndərirlər. Sonra da kəndin imarətləri beşatılan tüfənglərlə atəşə tutulur. Bu vaxt kənddə ancaq dörd nəfər kişi var imiş. Xəmirləri qeyrət qanı ilə yoğrulmuş silahlı kişilər kəndin münasib mövqelərində qərar tutub, on min camaatın qarşısında dörd nəfər kimsəsiz islam axşama qədər kəndi mühafizə edirlər. Qalan camaat isə ailələrini götürüb düzlərə və Çıraqlı kəndinə dağılmağa davam edirlər.

Dörd nəfər silahlı adam axşama qədər kəndi mühafizə edir, patronları və hərbi ləvazimatları tükəndiyindən qaçıb canlarını qurtarırlar. Ermənilər qiymətli əşyalarını qarət etdikdən sonra kəndi odlayıb yandırırlar.

Dəmirli camaatının sərvət və dövləti demək olar ki, bütün uyezd kəndlərindən üstün idi. Camaatının əksəri beş yüz qoyun sahibi imiş. Kənd camaatı əliboş Çıraqlı kəndinə pənah aparandan sonra uyezdin naçalniki yüz kazakla gəlib kəndi od içində tapır. İki min miqdarında talan edilmiş qoyundan ancaq 500 baş tapıb sahiblərinə qaytarır.

Bu müharibədə müsəlmandan can tələfatı 8 nəfər, ermənidən isə 40 nəfərə qədər olmuşdur. Uyezd naçalnikinə şikayət etdikləri kimi, qarət olunan müsəlman malları erməni kəndlərində necə ki, var üzə çıxıb, qarətçiləri də adı ilə məlum olsa da, polis belə işlərə əsla cavab verməyib narahatlıq da keçirmədi.

Belə vəhşi hərəkətlərə polisin fikir verməməsi həqiqətdə canilərə şərik çıxması kimi nəzərə gəlirdi. Həqiqət gözü ilə bu işlərə diqqət edilsə yenə haqq polisin tərəfindədir.

Zira, erməni terrorları polisə bir dəqiqə də olsa, düz və ədalətlə iş görməyə macal verməzdi. Digər tərəfdən qarınqulu, nəfsini güdən polis məmurları ermənilərin puluna aldanıb məzlum müsəlmanların fəryadlarına baxmaq və eşitmək belə istəməzdilər. Məzlum müsəlmanlara gəldikdə nə terrorları, nə də ermənilərə qarşı hərb tədarükləri, nə də tamahkar polis məmurlarını doyuracaq qədərində pulları, nə də ermənilərin idarə rəisləri kimi rəisləri və bəyləri var idi.

MÜSƏLMANLARIN İSƏ TERROR TƏDBİRİ ƏVƏZİNƏ BÖLÜK MƏZLUMU HƏRB SİLAHI YERİNƏ QƏDİM PİLTƏ İLƏ AÇILAN TÜFƏNGLƏRİ, PUL YERİNƏ HÖKUMƏT MƏMURLARININ LAQEYDLİYİNDƏN PEYDA OLAN CİYƏN QANI, QEYRƏTLİ RƏİSLƏR YERİNƏ İBLİS XİSLƏTLİ ARSIZ BƏYLƏRİ VARDI. Bundan ötrüdür ki, müsəlman hər yerdə əzilməkdə, ailəsinin əlindən tutub o kəndə, bu kəndə qaçmaqda idi. Hər gündə bir faciəni eşidib qəmli-qəmli "ah!"-deyib dizlərini qucaqlayan müsəlmanları Kolanılı müsəlmanlarının dağılması artıq dərəcədə pərişan və heyrətdə qoymuşdu.

Bunları nəzərə alan müsəlmanlar ümumi bir şura edib bu işləri müzakirəyə qoymaq üçün bir çox təşəbbüslərdə olsalar da, bəylərin həyasızlığından bir nəticə alınmadı.

Cavanşir müsəlmanlarının şurada deyiləcək ehtiyacları, yaxud nəticəsiz təşəbbüsləri. Cavanşir müsəlmanları ermənilərin hər yerdə təcavüzlərini görüb özlərinin nəhayət dərəcədə silahlı olduqlarından aşağıda yazılmış bəndləri icra etmək üçün ümumi bir şura keçirirlər. Şurada danışılan bəndlər bunlardan ibarətdir:

1. Müsəlmanlar özləri üçün bir qədər sürətli atan tüfəng və sair silahlar alsınlar.

2. Müsəlmanlar artıq müdafiə vəziyyətində qalmayıb, hücuma keçsinlər və erməniləri qovmağa başlasınlar.

3. Müsəlmanlar harda müharibə olsa malla, canla ora gedib vuruşmağa borclu olsunlar.

Bəylərin müsəlman şurasını dağıtması, yaxud 31 noyabrda baş verən Çıraqlı və Hacıqərvənd xəbərləri. 1905-ci il. Cavanşir bəyləri müsəlmanların şurasından xəbərdar olub, bir çoxunu hədə ilə dağıdıb, onları birləşməyə və ermənilərə qarşı təcavüzə başlamağa imkan verməyib, yenə əvvəlki hallarda qalmağa vadar edirlər. Bu vaxt 31 noyabr yetişib Hacıqərvənd və Çıraqlı faciələri baş verdi.

Necə ki, yuxarıda deyilib yazılmışdı, bu kənd ki, Çıraqlı və Hacıqərvənd kəndlərindən ibarətdir, bütün silahlı adamları Əsgər xanın əmisi ailəsini yaylaqdan qaytarmaq üçün getmişdilər. Ermənilər bundan istifadə edərək bir neçə daşnaksütyun və könüllü əsgərlərdən ibarət bir ordu ilə noyabrın 31-də sübh zamanı həmin kəndləri mühasirəyə alıb atəşə tuturlar. Silahsız camaat kəndləri müdafiəyə qadir olmadıqlarından bir çox atışmadan sonra övrət-uşaqları götürüb Pürxud kəndinə çəkilirlər.

Bu kəndlərdə tələf olan islamların sayı 10 nəfər, ermənilərdən olan 100 nəfərə qədərdir. Çıraqlı və Hacıqərvənd kəndlərinin qətl-qarət xəbəri əvvəlinci və ikinci sahəyə yetişən kimi iki yüz atlıdan ibarət bir müsəlman dəstəsi imdada gəldikləri vaxt yolda tökülüb Çaylı adlı erməni kəndini, o cümlədən yüz böyük imarət dağıtsalar da, islamların qarət olunmuş mallarını geri almağa müvəffəq olmadılar. Zira, o zaman erməni dəstələri sovuşub getmişdilər.

Qeyd: Hörmətli müxbirimiz Yusifbəyov cənablarına!

Hörmətli cənab! Siz göndərdiyiniz Cavanşir faciələrinə bir neçə yerdən əlimizə keçən məlumatlardan əlavə etdiyim kimi, burada da bir neçə əlavə söz deməkdə özümü ixtiyarlı və üzrlü hesab edirəm.

Əzizim! Siz öz Cavanşir bəylərinizi bu qədər tərif etməkdə yəqin ki, camaatı onların ləyaqətli rəftarından xəbərdar etmək istəyirsiniz? Əfəndim! Qafqazın hər nöqtəsində ki, erməni-müsəlman faciəsi zühur etmiş, o yerlərin rəisləri son dərəcə soyuq hərəkət edib, millətin barəsində nəhayət dərəcədə xəyanətlər də etmişlər, çox olub, böyüklərdən qeyrət sahibləri çıxmışdır. Bununla bərabər, qeyrəti olmayanların qələbəsi olmuşdur. Sizin də yazılarınızdan məlum olur ki, Cavanşir bəyləri biqeyrətlik mərtəbəsinin axırına qədər əl aparmışlar.

Onları tərif etməkdə çox da tələş eyləmə! Cavanşir bəylərindən bir neçəsi də Zəngəzurda otururlar. O cənablar da millətin halını çox pərişan etdilər. Bir neçə dəfə "İrşad" vasitəsilə onlara intibahnamə yazdımsa da, özlərinə layiq də cavablar aldım. Mənim zənnimcə yer üzündə mərhum Əhməd bəy Cavanşirdən başqa Gəncə quberniyasında Cavanşir familiyasını daşıyan bir zati-qeyrət qalmamışdır. İncimə, əziz qardaşım!

Hacıqərvənd və Çıraqlı kəndlərinin axır halları. Bu kəndlər dağıldıqdan sonra cənab naçalnik Pivovarova xəbər göndərirlər. Cənab Pivovarov müavinini göndərir ki, "beş kazak ilə get, hərgah müsəlmanların şikayəti doğrusa həll et. Pivovarovun islam qatili olan Smorodski "beş kazakla getmək olmaz, zira iş təhlükəlidir" deyib yarı yoldan geri qayıdır. Budur polisin islamlara etdiyi kömək. Budur onun müsəlmanlarla rəftarı?!

Müxtəsər, Çıraqlı və Hacıqərvənd yanıb qurtarır. Camaat Pürxud

kəndinə toplanıb oranın da ermənilər tərəfindən əhatə olduğunu düşünüb, kəndi dübarə boşaldıb, ikinci sahədə olan müsəlmanların yanına daşınırlar. Ermənilər həmən kəndi də qarət edib sonra yandırırlar. Bunlardan məlum olur ki, oktyabr ayının üçündən başlayıb dekabr ayına qədər Dəmirli, Çıraqlı, Hacıqərvənd və Pürxud kəndləri yanıb qurtardı. Bu vaxt Tərtər dərəsində Ümidli kəndindən başqa bir islam kəndi qalmadı. Bu kənddə uyezdin müsəlman sakini olan hissəsinin qırx verstliyində olub hər tərəfdən erməni kəndləri ilə əhatə edilmişdir.

Məlum olsun ki, Ümidli kəndinin faciəsi bütün kəndlərin faciəsindən ağrılı və yandırıcıdır. Ümidli kəndi camaatına ermənilərdən olunan əziyyətlər indiyə qədər bir xalqa, bir millətə edilməmişdir. Heç bir tarixdə insandan insana bir belə zülm-sitəmin rəva göründüyü yazılmamışdır, zənnindəyəm. Ümidlilər məzlum oldular. Ümidlilər kimi dağılan, malı, canı tələf olan Qafqazda görünməmişdir.

*Ümidli kəndinin kədərli halı.* Ümidli camaatı yuxarıda adı çəkilən kəndlərin ermənilər tərəfindən dağıldığını görüb, onlar da köçüb getmək həvəsinə düşdülər. Bu xəyal ilə İsmayıl adlı kəndxudalarını Tərtərə-uyezd naçalnikinin yanına göndərib onların mühafizəsi altında köçüb getməsi üçün kazak istəsə də, cənab Pivovarov min cür üzr gətirib mühafizə qoşunu vermədi. Kəndxuda:

-Bundan sonra müsəlmanların Ümidlidə oturacağı müşküldür: desə də, cənab naçalnik cavab vermir. Kəndxuda məyus halda Ümidli kəndinə qayıdır. Ümidli camatı öz aralarında götür-qoy edib bəxtə bəxt, hər nə olursa köçüb getməyə qərar verirlər.

Ümidli camaatının köçüb getmələri və qətl olmaları. Ümidli camaatı mühafizə qoşunundan naümid olandan sonra 1905-ci il dekabr ayının 26-da qiymətli əşyalarını arabaya yığıb qaramal və sürülərini götürüb, ailələrinin əlindən yapışıb yola çıxırlar. Heyvalı adlanan erməni kəndinin yanından keçdikdə Abram bəy (Abram Həsən Cəlalov Ranik adlı erməni kəndinin kəndxudası imiş ki, Şuşa müharibəsində ermənilərə azuqə yetişdirməkdə İsmayıl adlı kəndxuda onlara nə qədər buğda, şəkər, neft və sair ləvazimat verib imiş ki, o yaxşılığa xatircəm olub qırx evdən ibarət Ümidli camaatını qan dəryasında boğdurmuşdur. Yaxşılıq edənlərin aqibətini hər yerdə belə gördüm) Həsən Cəlalov bunlara rast gəlib gecə vaxtı onların yol getməsini eyb edib, gecəni Heyvalıda qalıb sübhdə getmələrini təvəqqe etdi. Bədbəxt, sadədil İsmayıl kəndxuda erməninin şeytan dilinə inanıb Heyvalıda qalmağı camaata məsləhət görür və cənub Heyvalı kəndinin yanında düşür, arabaları və yüklərin də düşürürlər. Gecə soyuq olduğundan bir az atəş yaxıb qızındıqları vaxt pusquda olan

bir dəstə daşnaksütyun vəhşilərinin şeypur sədası eşidilir.

Bu şeypur sədası eşidilsə də, İsmayıl kəndxudanın ağlına bir şey gəlmir. Zira, öz etdiyi yaxşılıqlarına xatircəm idi. Bu halda daşnaksütyunlar Ümidli camaatının dörd tərəfini mühasirə edib atəşə tuturlar.

Bu halı görən əliboş camaat bir-birinə qarışıb nə edəcəklərini bilmirlər. Əvvəlcə kişiləri, övrətlərin bir hissəsini saxlayıb, bir hissəsini də öldürürlər.

Bu qarışıqlıqda həmən insanların sallaxanasından ancaq 30 nəfər canını qurtarmışdır ki, bu sözləri nəql eyləyirlər. Ermənilər hamilə övrətlərin xəncər ilə qarnını paralayanda məsum çocuqların qanlı başları eşiyə çıxırmış. Müsəlmanın xanım övrətləri, qızları erməni vəhşilərinin əlində qalıb o tərəf bu tərəfə qaçmaqda idilər. Qaçanların dediyinə görə, bir neçə övrəti diri saxlamışlar.

Qeyd: Hörmətli müxbirimizin göndərdiyi Cavanşir əhvalatının arasında ürək sıxan Ümidli faciəsini layiqincə oxuyub istifadə edə bilmədim. Zira, bəzi sətrləri, guya su tökülüb, bütünlüklə qaralanmışdı. Ona görə Ümidli əhvalatı müxtəsərcə yazılır.

Mənim zənnimcə, bu səhifələrə su tökülməyibdir. Ancaq hörmətli müxbir Ümidlidə alçaldılan xanım-bacıların faciəli hallarına davam gətirə bilməyib bu müsibət vərəqlərini ağlaya-ağlaya yazdığından böyləcə qaralmışdır. Mən isə o səhifələrin üstündən ağlaya-ağlaya keçib hörmətli oxucuların da ağlamasına razı olmadım.

MÜLAHİZƏ. Bəşər tarixinə nəzər salsaq görərik ki, indiyə qədər heç bir xalq qadın tayfasına bu qədər cəfa etməmişdir ki, ermənilər Ümidli camaatına etdilər. Bir ananın qabağında üç-dörd balasını qurban edib, balalar əl-ayaq çaldıqda, ananı gözləri yaş ilə dolu bir halda bihörmət etmək insafmıdır?!

Budurmu erməni mədəniyyəti!? Bu xəbis rəftarla istiqlaliyyət həvəsində olan bir millətin axırı nə olacaqdır, xəyalındayam. 150-yə qədər övrət və kişini doğrayıb bir-biri üstə qalayıb atəş ilə yaxmaq mədəniyyətli bir millətə yaraşandırmı?

Necə ki, mən əvvəlcə, bizim tarixin bitərəf olduğunu yazmışdım, yenə yazmaqdayam. Bununla belə ermənilərin bu tövr həddən artıq olan cəfalarına qarşı qələm və hissiyyatda bitərəflik nişanəsi görülmür.

Bircə Cavanşirdə olan məzlumiyyət layiqincə yazılsa idi, islamların məzlumiyyətini isbat üçün kifayət edərdi, zənnindəyəm. Ancaq biz həmişə sülhün arzukeşi olduğumuzdan bir para əhvalatları yazmayıb örtülü qoyduq. Ancaq burasını yazmaq istəyirik ki, hər yerdə olduğu kimi Cavanşir bəyləri və polis qulluqçuları ermənilərin hər nöqtədə planlarının həyata keçirilməsində onlara böyük kömək göstərmişlər.

Bunu-xalqın qəlbinə müsibət dağı kimi çəkən belə bir vəziyyəti bizim tariximiz heç vaxt gizlətməyəcəkdir.

Yazıb, tarix edib, millətin gələcəyi üçün bir vətən və millət, həm də bir məzlumiyyət yadigaranəsi kimi qoyacaqdır.

Əvət, qoyacaqdır.

Həqiqətən, o zamanlar ki, ermənilər Həsənqaya, Yarımca və Sistola kəndlərinin ermənisini köçürüb üçüncü sahəyə apardılar, o vaxt bəylər də qeyrət edib Ümidli müsəlmanlarını köçürüb islam çox olan yerdə sakin etdirsəydilər, əsla bu faciələr baş verməzdi. O vaxtlar bir nəfər qeyrətli, bir nəfər islam qanı olan bəylərdən demədilər ki, cənab Pivovarov, Ümidli camaatını mühafizə altında bir yerə köçürün ki, tələf olmasınlar. Belə bir adam tapılmadı. At belində gəzən, əl quşu pərvaz etdirən bəylərdə qeyrət qanı olsa idi, Ümidli kəndinin altı aylıq gəlinləri, 12 yaşında qızları Hayıstan vəhşilərinin əlində qalmazdı. Ya peyğəmbər, baş qaldır məzarından!!!... Baş götürünüz, ricət ediniz, baxınız sizin nəcib ümmətinizin adı ilə nə qədər binamuslar törənmişdir ki, əsla islamiyyətdən xəbərləri yox imiş.

Nəticə. Ümidli kəndi ilə bərabər o vaxt dağılan kəndlər bunlardır: Ümidli, İmarət Qərvənd kəndləri. Yetişən məlumatlara görə Ümidli kəndində ölənlərdən başqa, bu kəndlərdə can tələfatı yoxdur. Mal zərəri isə həddən artıqdır. Bunlardan sonra ermənilər Tərtər dərəsindəki bütün islam göylərini dağıdıb, sonra Xaçın dərəsinə keçirlər.

Yanvar xəbərləri. 1906-cı ilin başlanğıcı. Yanvar ayında erməni dəstələri hər tərəfdən yığılıb Xaçın dərəsindəki Şıxavənd kəndinə tökülürlər. Bir çox atışmadan sonra camaatı kənddən çıxarıb, qətl-qarətdən sonra məscid və minbəri odlayıb bu iki dərədə milli amallarına bir xatimə çəkirlər. Bununla yenə rahat olmayıb öz vəhşi hərəkətlərində davam edirlər. Bu dəfə ermənilər müsəlmanların Dağbasar kəndlərini dağıtmaq fikrilə Papravənd kəndinə hücum etmək üçün qəti qərara gəlirlər. Üçüncü sahədə ermənilərin planı Dağbasar kəndlərini dağıdıb yavaş-yavaş aşağı kəndlərə yürüş etmək idi. Papravənd kəndi zəngin və sərvətli olduğu kimi, bir çox müharibə edici cavanları da var idi. Bu kənd erməni sərhəddində yerləşən yaraşıqlı bir kənddir.

Papravənd müharibəsi. Papravənd kəndi müharibə üçün yararlı cavanlara malik olduğundan ermənilər bu kəndi başqa Cavanşir kəndlərinə bərabər tutmayaraq çoxlu əsgər tədarükündə idilər. Ona görə çoxlu əsgərin yığılıb toplanmasından sonra onları məşhur erməni komandanı Hamazaspın rəhbərliyi altına verib 1906-cı il yanvarın birinci günü Papravənd kəndinə hücuma başladılar. Bir gün axşama qədər şiddətli

müharibə olur. Mühasirədə olan islamlarla daşnaksütyun və erməni könüllüləri arasında bir günlük şiddətli müharibədə ermənilər məğlub olaraq pərişan halda axşam Ağdərə adlanan erməni kəndinə çəkilirlər. Bu əhvalat ətraf müsəlmanlarına yetişən kimi, hər tərəfdən imdad gəlməyə başlamışdılar. Müsəlmanlar əvvəlcə kəndin mühafizə qoşununu artırıb hər tərəfə kəşfiyyat qolları çıxarırlar. Sabah yanvarın ikisində ermənilər də qüvvələrini bərpa edib hücuma başladılar. Həmən gün atışma çox şiddətli oldu. Erməni tərəfindən ara-sıra top da atılırdı. Erməni əsirinin dediyinə görə, həmən gün müsəlmanların üstünə ermənilər 15000 patron atmışlar. Ermənilər həmin günkü müharibədə hərb elminin hər nöqtəsinə əl atsalar da, müsəlmanların müharibə meydanında mahir olduqlarından yenə müvəffəqiyyət qazana bilməyib axşam müsəlman cavanlarının mühasirə xəttini yarıb qaçmağa üz qoyan bir çox tələfatla geri çəkilməyə məcbur olurlar. Bu halda erməni bölüklərini təqibə başlayırlar. Erməniləri can qorxusu pərişan etdiyindən bütün hərbi ləvazimatlarını töküb qaçmaqda idilər. Erməni əsgərlərinin son dərəcə pərişan olmaları bundan bilinir ki, əsgərlər yüngül olsun deyə çiyinlərindəki arxalıqları da yerə atıb qaçırdılar. Tökülən əşyaların içində hərb meydanınťn xəritəsi və Hamazaspa yazılmış məktublar, müharibəyə dair jurnallar da var idi. Bundan başqa bir araba patron, nə qədər xəncər və beşaçılan tüfənglər müharibə meydanında tökülüb qalmışdı. Bu müharibədə yararlılar içində yararsız olub, qorxusundan can vermiş nizami əsgərlər də vardı. Ermənilərin yaralı əsgərləri onları təqib edən islam könüllü atlılarının ayaqları altında qalmışlar. Müsəlman əlinə keçən bütün erməni əsgərləri Ümidli kəndinin şəhidləri əvəzinə qətl edildi. Bu müharibədə ermənilərdən 120 nəfəri ölmüş, iki yüzü ağır yaralanmış, müsəlmanlardan isə 15-i ölmüş, bir qədər də yaralanmışdı. BU PAPRAVƏND MÜHARİBƏSİNDƏ MÜSƏLMANLAR BİR AZ GÖZLƏRİNİ AÇIB ANLADILAR Kİ, ERMƏNİ MİLLƏTİNƏ YALVARMAQLA YERİNDƏ OTURMAZ, ONLARA QARŞI HƏRBİ SİLAH İŞLƏTMƏK LAZIMDIR.

Hadisələrin icmalı. Cavanşir uyezdində müsəlmanlar əksəriyyətlə məğlub olub bir çox mal və can tələfatı vermişdir. Bu işlərin hamısı bəylərin qeyrətsizliyindən və naçalnik Pivovarovun ermənilərin tərəfini saxladığından müsəlmanların əksəriyyətlə silahsız olduqlarından baş vermişdi. Əsas səbəb isə Cavanşir bəyləri olmuşdur.

## AĞRILI GƏNCƏ HADİSƏLƏRİ

1905-ci il noyabr ayının birindən başlanmış hadisələri Əli Əkbər bəy Rəfibəyov cənabının topladığı rusca bir jurnaldan və sair məktublardan

tərcümə etdim.

İndiyə qədər Qafqazın bəzi nöqtələrində erməni-müsəlman hadisələri baş verib, hamısından da Allahın köməyi ilə nəzər saldıqda Gəncə hadisələri onlardan çox təəccüblüdür. Mənim əlimə məlumat yetişmişdir. Bu məlumatlara diqqətlə nəzər salıb, Gəncə hadisələri ilə başdan-başa tanış oldum. Bundan əlavə Gəncə hadisələrinə dair Alıbəyov cənablarının təkəbbürlü səyi ilə toplanmış rusca əsəri də gözdən keçirdim. Hörmətli Alıbəyov Gəncədə müsəlmanları nöqsanlı tutur. Möhtərəm müxbirimiz Əli Əkbər bəy Rəfibəyovun topladığı məlumatı, eyni zamanda hadisələrin içində olan erməni pristavı Qamsaraqanın 1905-ci il 26 sentyabr tarixli 8221 nömrəli və yenə onun 8048 nömrəli raportlarına nəzər saldıqda müsəlmanların nə qədər məzlum, nə qədər iğtişaşdan xəbərsiz olduqları meydana çıxır. Çıxır ki, Alıbəyov kimi mühərririn də əsərində nə qədər səhvlər olduğunu aləmə bildirir.

Bu işləri insaflı olan erməni və müsəlman inkar edə bilməz ki, Gəncədə daşnaksütyunlar nə qədər iğtişaşa müdaxilə etdilər. Mənim bu tariximin məsləki yol versə idi, yaxud özlüyümdən bitərəf bulunmasaydım, ermənilərin narəva hərəkətlərini bir az izah edib oxucuları xəbərdar edərdim. Və Alıbəyov cənablarının da yazdığı əsərin bir neçə sətrini tərcümə edib, kimlərin günahkar olduğunu müsəlmanlara və o cənabın özünə nişan verərdim. Bu qədər var ki, mənim məslək və əqidəm bunların heç birisinə yol vermədiyi kimi, bu hadisələrin baş verməsində də mən təəssüflər edənlərdənəm.

Hadisələr. 1905-ci il noyabr ayının 18-də Gəncə uyezdi İoxana kəndinin sakini Bayram Məşədi Məhəmmədli oğlu, Mehrəli Zeynal oğlu, Əmrah Həsən oğlu, Mirzə Məhəmməd Əli oğlu gündüz saat 6-7 radələrində erməni hissəsi Kolanı yolu ilə evlərinə üç at yükü buğda apardıqları vaxt erməni bağlarının arxasından üstlərinə şiddətlə güllə yağdırılır.

Bu gülləbaran əsnasında Bayram Məhəmmədəli oğlu, Mehrəli Zeynal oğlu öldürülür, yoldaşları isə şəhərə qaçaraq polisə xəbər verirlər. Yoldaşlardan Bayram Həsən oğlu gülləbaran zamanı malları ölənlərin yanında buraxıb yolun yuxarı səmtinə qaçarsa da, ermənilər onu öldürmək qəsdilə təqib edirlər.

Bərəkət versin ki, bir dəstə erməni və müsəlman kömürçülər iki islamın qan içində düşən bədənlərini görüncə Molla Cəlilli məhəlləsinə qayıdaraq faciəli vəziyyəti işarə vurub, araba aparıb cəsədlərini gətirməyi onlara tövsiyə edirlər. Bu ağrılı xəbəri Molla Cəlilli camatı alınca Salman Mehdi oğlu və Kərbəlayı Məhəmməd İbrahim oğlunun başçılığı və iştirakı ilə bir dəstə müsəlman cənazələri götürmək üçün yollanırlar. Camaat

cənazələr düşən yerə yaxınlaşdıqda pristav Qamsaraqan müavini Əbil bəy Qapanlinski, şəhər müstəntiqi Leya Oqter, bir neçə də qaradovoylardan ibarət bir dəstə polisi cinayət yerində hazır görürlər.

Qətlə yetənlərin arkadaşları istintaq olunduqda qatillərin Gəncə sakini Qrişa Santeryansın oğlu Avetis Avetisov, Qriqor Tiyunovun özləri və yoldaşlarından ibarət olduğu meydana çıxır. Protokol tərtib ediləndən sonra faytonlara minərək şəhərə qayıdırlar, Molla Cəlilli müsəlman əhalisinə gəldikdə Əbil bəy Qapanlinskinin razılığı ilə ermənilərə düçar olmamaqdan ötrü düz yolla getməyib bağlar arasında getməyə başlayırlar. Lakin pusquda duran ermənilər onlara atəş açırlar. Şiddətli atəş Yerivant Yegyayevin bağından edilirmiş. Atəşin istiqamətinə uyğun olaraq müsəlmanlar öz məhəllələrinin cənub-şərq tərəfinə çəkilib atəşdən sovuşmağa məcbur olurlar. Güllələrin bütün şəhərə əks edən dəhşətli şırıltısından erməni bağlarından yüzə qədər daşnaksütyun döyüşçüsü əldə silah üzə çıxır. Ermənilərin müsəlmanlar üstünə açılan atəşini görən daşnaksütyun döyüşçüləri beş-beş, on-on ətrafda mövqe tutmaqla müsəlmanları atəşə basırlar. Bu vaxt atəşin yağmur kimi yağan güllələrinin sədasını Molla Cəlillilər eşidincə qardaşlarını düşməndən xilas etmək üçün ayaqlanıb hərəkət edirlərsə də, erməni komandirlərinin nizam altında tərbiyə almış əfsərlər olduğundan, bundan əlavə hərbi hazırlıqları olmadığından müsəlmanlar müharibəsiz evlərinə qayıdırlar.

Pristav Qamsaraqan (Qamsaraqan erməni məshəbindədir) işin bu dərəcədə ağır hal almasını görüncə nəhayət polismeysterə xəbər verir. Polismeyster Həsən bəy isə sabiq general-qubernator Taqaşvili cənabına bu atışmaların hamısı barəsində ərz-hal göndərir. General bunun ardınca komandir sotnı Orlovun komandası altında əlli kazak göndərib bu münaqişələri yatırtmaq üçün qəti əmrini verir. Kazaklar hadisə yerinə yaxınlaşır-yaxınlaşmaz əhəmiyyətli sığınacaqlarda mövqe tutmuş ermənilərdən üstlərinə atəş açılır, qaradovoy Möhsün adlı islamın sözünə əsasən pristav Qamsaraqan Ter-Yapramov və başqa erməniləri əvvəlinci sahəyə göndərib ermənilərin hamılıqla yığışıb ikinci sahədə müharibə etmələrini xəbər verir. Necə ki, müsəlmanların bir çoxları görə-görə, əvvəlinci sahənin erməniləri qeyri-təbii surətdə dükanlarını bağlayıb ikinci sahəyə yürüş edirdilər...

Bu vaxtda Qamsaraqanın göndərdiyi ermənilər hər tərəfə xəbər verib Hacı Məhəmməd Hüseyn Rəfiyevin mağazasının qarşısında bir neçə tapança gülləsi buraxmaqla islamları hərbə dəvət edirlər.

Bu hadisəyə dair məlumat verənlər Kərbəlayı Əli Baltaçı oğlu və başqa məlum zatlardır. Ermənilərin əvvəlcədən dükanlarda hərbi silah

gizlədikləri və yaxud müharibəyə çoxdan bəri tədarükdə olduqları haqda aşağıda yazılmış məlumatların sübuta ehtiyacı yoxdur. Bunların hamısından başqa, erməni pristavı Qamsaraqanın hadisələri əvvəlinci səhifəsində yazdığım kimi, məhəlli-aidinə verdiyi 1905-ci il 26 noyabr tarixli 8221 nömrəli məlumatında yuxarıda qeyd edilmiş Molla Cəlilli sakinlərinin şəhadətindən komandir sotnı Orlovun və pristav müavini Əbilbəyin, qubernski upravleniyanın üzvlərinin və padşahlıq əmlak çinoviklərinin şəhadətlərindən belə məlum olur ki, müharibəni ermənilər saat 9 radələrində başlayıb, saat 11-ə on beş dəqiqə işləmiş islam məhəlləsinə də sirayət etmişdir. Birinci hissədə vaxta qədər atışma olmadı. Zira ermənilər atışa-atışa ikinci hissəyə qaçırlar. (Möhtərəm mühərririmiz ermənilərin qaçmasının üstündən pərdəli keçmişdirsə də, bizə məxsusi yetişən məktublarda belə əhvalat da yazılmışdır. Ermənilərin geri çəkilmə əsnasında olan can qorxuları o qədər artmağa başlamışdı ki, müharibə halında olan bir geri çəkilməni həqarətli bir qaçhaqaça çevirdi). Ermənilər qaçmağa başladıqda müsəlmanlar hərbi ləvazimatları olmadığına görə onları təqib etməyib sakit oturdular. Bir az vaxtda atışmanın səsi şəhərin hər tərəfinə sirayət etdiyindən bazarda müxtəlif tayfalardan ibarət olan çoxlu camaat yığılmaqda idi ki, qədəri müəyyən deyildi. Bu vaxtda cəm olanların milliyyəti bunlardan ibarət olsa gərəkdir: əvvəlcə, orada olanların əksəri kəndli olub, gürcü-libaslarını dəyişmiş halda, ləzgi camaat bazar-dükanı qarət edəndə erməni, ya müsəlman və yainki başqa millətin dükanına təfavüt qoymayıb qarət və talan etməkdə idilər. Qətl-qarət əsnasında rus övrətləri və çinovniklərdən başqa camaat hamılıqla qətl-qarət və yandırmağa əl açmışdılar. Noyabrın 19, 20, 21-də havaya güllələr atılırdısa da, heç bir tərəfə xəsarət olmadı. Bu aralıqda sərdarın müavini general Malamanın səyi ilə bir müvəqqəti sülh edilib, ermənilər atəşi kəsməyə söz verdilər.

23 noyabr xəbərləri. Ermənilər müharibəni kəsmək üçün general Malamaya söz vermişdilərsə də, yenə noyabrın 23-ü gecəsi islamlara qəflətən gecə basqını xəyalına düşürlər.

Belə alçaq xəyallar ilə müqəddəs yol götürən islamlara qarşı kəşf qolu göndərib onların nə tədarükdə olduqlarını bilmək istərlər.

Ermənilərin kəşf qolları-12 nəfərdən ibarət bir dəstə Qanjinko çayını (Gəncə çayını) keçərkən, fürsət tapmaq üçün Gəncə sakini Tağı Ağahüseyn oğlunun dəyirmanında gizlənirlər. Yerdə qalan erməni dəstələri isə çayın erməni sahilində, kəşf qolları qayıdıb məlumat verincəyə qədər hərbə intizar otururlar.

Bərəkət versin ki, müsəlmanların mühafizə dəstəsi erməniləri layiqincə görüb onların dar bir keçidə qaça bilmələri üçün qeyri-qabil bir yerə

girmələrini gözləyirlər. Ermənilər dəyirmana girdikdə müsəlman mühafizə dəstələri münasib bir yerdə mövqe tutub düşmənin olduğu yeri güllə ilə döyməyə başladılar. Ermənilər bir neçə tüfəngdən cavab versələr də müsəlman mühafizələri sipərlərdən çıxıb hücuma başlayınca ermənilər əl-ayaqlarını itirib Qanjinko (Gəncə) suyuna tökülüb o biri sahilə keçirlər. Bundan sonra tərəflər arasında qanlı atışma başlanır. Gecə saat üçdən alaqaranlığa qədər davam etdi. Gecənin qaranlığında tüfəng səsləri, bomba sədaları eşidilməsəydi, havadan qırmızı yağmur yağır, xəyal edilərdi. Hər tərəfdən böyük tələfatlar nəzərə gəlirdi. Fəqət tələfatın çoxu ermənilər tərəfində olduğu, erməni dəstələrinin dağınıq və pərişan bir halda hərbə girişdiyindən məlum olurdu. Ancaq tələfat heç bir tərəfdən müəyyən deyildi. Zira, o hal elə bir hal idi ki, erməni, yainki müsəlman güllə şırıltısından dönüb yanında müharibə edən yoldaşına baxmağa belə macal və cürət etmirdi. Hər kəs canını, daha əziz həyatını ancaq əlində olan tüfənglərin qəbzəsinə, maşnasına həvalə etmişdi.

24 noyabr xəbərləri, yaxud daimi sülh. Noyabrın 23-də baş verən atışmadan sonra yüksək mənsəbli ən səxavətli sərdarın müavini general Malama cənabları hər iki tərəfin vəkillərini sülh üçün körpüyə yığılıb gəlmələrini təvəqqe etdi.

Ayın 24-də camaat körpüyə yığılıb sülh üçün intizar otururlar. Ən əvvəl şeyxül-islam cənabları tərəfindən təsirli bir nitq söylənib, sonra erməni arximandriti tərəfindən zahirdə sülhəbənzər bir xitabə oxundu. Sonra fəxri vətəndaşların tərəfindən sülhə müdaxilə edib sülh şərtləri sırası ilə oxunur.

1. Ayın 18-dən 24-ə qədər baş verən müharibədə əsarətə keçmiş camaatın mübadiləsi.

2. Əsirləri mübadilə üçün hər iki tərəfdən vəkillər seçilməsi.

Üstdə qeyd edilmiş əsirlər mübadiləsi məsələsindən ötrü vəkillər təyin edilib iş başına göndərilibdir. Əvvəlinci dəstədə əsirləri təhvilə götürməyə gedənlər: Andriyans bəy Serebrakov üç müsəlman ilə, ikinci dəstədə Verdiyev Abbas Hüseyn oğlu, Əli Əlinəği oğlu adlanan müsəlmanlar ilə, üçüncü dəstədə Hacı Molla Nəcəfquluzadə, Məşədi Rzaqulu Zeynal oğlu, ləzgi Səfər Məhəmməd Mustafa oğlu. Əsirləri, erməni cənazəsini müsəlman məhləsində təhvil almağa gedən şəxslərin adları:

1-ci dəstədə Hacı Sultan Qocayev, Əbil bəy Qapanlinski, beş nəfər erməni ilə ki, Atans və başqalarıdır. 2-ci dəstədə yenə pristav və müavini, Həsən bəy Fətəlibəyov üç nəfər erməni ilə ki, adları məlum adamlardır.

Müxtəsər bu tövr ilə vəkillər öz vəzifələrini ifa üçün getdikdə sülh camaatı da öz evlərinə dağılırlar. Bu vaxtda Nağı Ağahüseyn oğlunun

dəyirmanı qarşısında düşən erməni cənazələrini götürməyə gedən Həsən bəy Fətəlibəyovu atəşə tuturlar. Ermənilərin xəyalınca "cənazələri gizlədirlər"- deyib atəş açırdılar. Bu vaxt hər tərəfdə cənazə və əsirləri təhvilə alan müsəlmanları bombardman edirdilər.

Bu işlərdən məlum olurdu ki, ermənilər hələ sülh xəbərini eşitməmişlər və yainki eşidib əməl etmək istəməmişlər. Bu vaxt Verdiyevin dəstəsində gedən üç müsəlmanı öldürürlər. Faytonçular Məhəmmədəli Mirzə oğlu qaçmaqla özünü xilas etmişdir. Bu xəbər yayılan kimi müsəlman məhəlləsinə gedən ermənilərə hücum edirlər və digər tərəfdən, vağzaldan gələn ermənilərə də həmlə edirlər. Bu vuruşmada müsəlmanlardan 8 nəfər qətl olur, o cümlədən qubernski məclisin üzvü Axund Molla Nəcəfquluzadə cənabları da, Allah ona rəhmət eləsin. Müsəlmanlardan yalnız Serebrankovun dəstəsində gedənlər salamat qalırlar. Müsəlman hissəsində yenə bu miqdarda erməni tələf edilmişdi. Cinayət yerində sərilmiş erməni cənazələrinin yanında tapılan iki ədəd bomba sərdarın müavini yüksək mənsəbli general Malamaya təqdim edilir.

Ümumi sülhün pozulması, yaxud ermənilərin cavabı. Ermənilər bu sülh pozulandan sonra hökumət adamlarına və müsəlmanlara bir çox bəhanədə bulundular. Bir parası, "biz bu xəbəri hələ ermənilərimizə xəbər verməmişdik, ona görə bu cinayət üz verdi",-söyləməkdə idilər. Bir parası "bu sülhü Hiçaqistlər komitəsi bağladığından, daşnaksütyun komitəsi çalışıb pozdu",-söyləyirdilər. (Hiçak (Qnçak)-erməni xırda burjua partiyası. 1887-ci ildə bir qrup erməni tələbəsi tərəfindən yaradılıb. Özünün eyni adlı çap orqanı da olub. 1905-1907-ci illər inqilabından sonra mürtəce millətçi sima almışdır. Geniş kütləları öz arxasınca aparmaq üçün erməni sosial-demokrat partiyası adını qəbul etsə də, ümumi fəhlə hərəkatına böyük ziyan vurduğundan tezliklə nüfuzunu itirmiş və Sovet hakimiyyəti qurulduqdan sonra bütünlüklə xaricə (ABŞ-a) mühacirat etmişlər. (B. S. Ə. c. II. səh. 558).

Müsəlmanlar isə bu sözlərə istər-istəməz inanmaqda və susmağa məcbur olmaqda idilər. DÖVLƏT ADAMLARINA GƏLDİKDƏ BU XƏBƏRƏ İNANAR-İNANMAZ YENƏ BİR SÜLH MƏCLİSİNİN TƏDARÜKÜNDƏ İDİLƏR.

Bu hadisələrin hamısından sonra bir neçə sülh məclisində hazır olmuş bitərəf hökumət qulluqçuları işə müdaxilə edib, bir sülh məclisi təşkil etdilərsə də, yenə həmən məclisə çox rəğbətsiz gəlməkdə idilər. Belə ki, axırda gəlməklərini tamamilə kəsdilər. Fəqət, müsəlmanlar safdil olub, hər əsrdə sülh və barışığın arzusunda olduqlarından kəmalirəğbət ilə sülhə iqdam edirdilər.

Bu məclis quberski idarəsinin üzvü Mixaylovun sədrliyi altında açılıb əsirləri dəyişmək məsələsi kəmalincə həll edildi. Və əsirlər məsələsindən ötrü yenə iki heyət təşkil edildi, birisi mirovoy sudya Çernits və Andriyans bəy Serebrakov və digəri qubernski idarəsinin üzvü Mixaylov, Əli Əkbər bəy Rəfibəyovdan və Əli Əsgər Xasməmmədovdan ibarət idi. Əvvəlinci heyətin səyi ilə ayın 24-də Andriyans bəylə tutulmuş üç nəfər müsəlman, ikinci heyətin səyilə isə Xocayev adlı bir erməni qaytarıldı. Müsəlmanların əlinə düşmüş gürcü əsirləri isə əvvəlcədən azad edilmişdi. Onların hamısı qarət əsnasında əsir edilmişdilər.

Bu vaxt müsəlman əlinə əsir düşüb xidmətçisi ilə hifz edilmiş bir erməni xanımı ermənilərə qaytarıldısa da ermənilər bir neçə səbəbə görə qəbul etmədilər. Ermənilər əlinə əsir düşmüş müsəlmanların bir çoxunu əvvəlcədən, yaxud sonradan tələf edib buraxmadılar.

Təzə bir sülh, yeni bir general-qubernator. Gəncəyə yeni təyin edilmiş general-qubernator Flişer cənabları ermənilərin keçmiş sülhlərə rəğbətsizliklərini görüb təzə bir sülhverici heyətin təşkilinə əmr verdi. Bu əmri-müqəddəsdən sonra on iki nəfər hərbi zabitlərin iştirakı ilə hər tərəfdən on iki vəkil olmaq şərti ilə polkovnik İsayeviçin sədrliyi altında sülh müqavilələri yazılmağa başlandı.

Sülhün şərtləri. Hərgah bir tərəfin vəkilləri bir məsələnin həllində aciz qalırsa, yaxud bir qərəzə görə işi təxir edirsə, bu məsələnin həlli on iki nəfər hərbi zabitə həvalə edilməliydi. Bunlardan sonra bir çox şərtlər dəxi elan edildi. Bu qarışıq qəmisyənin davamınca şəhərdə sakitlik bir növ bərpa və daimi edildi. Sonra adı qeyd olunan heyət işlərin əncamında nöqsana yol verdiklərindən vəkillər də öz vəzifəsini ifadə qüsurlu olduqlarından ötrü camaat da əvvəlki halətinə buraxıldı. Bu vaxtda hökumət də çalışıb Gəncədə və ümum quberniyada idarəsini şücaət və igidliklə məşhur olan generallar təyinilə özlüyündə gücləndirdi. O cümlədən general Alftanı ümum quberniyaya, general Levitskini Qazax uyezdinə, insanlığın qatili Qalaşçapovu Şuşa uyezdinə təyin etdi. Tərəfləri sakit etmək üçün generallar dəxi təsirli tədbirlər qəbul edib bir sıra əməllərdə bulundular.

İşin sübutu, yaxud ümumi intibah. Bu hadisələrdə qeyd edilmişdir ki, müharibəni ermənilər saat 9-da başlayıb-iki saatdan sonra müsəlman məlhəsinə də sirayət etmişdir. Bunları neçə yerdə bir sıra sübutlarla yazmışıq, yenə insafən ermənilər, müsəlmanlar noyabrın 18-də qəflətən bizə hücum etdilər kimi iftixarları deməkdən əsla çəkinmirlər. Bu səbəbdən hörmətli müxbir aşağıda yazılmış sübutları da əlavə edib öz əziz millətini erməni iftirasından qurtarmaq və işi sübut etmək istəmişdir. Ermənilərin

söylədiyi kimi, müsəlmanların əvvəlcədən qırğın fikri olsa idi, vağzal yolundakı üç minə qədər ermənidən biri də salamat qurtarmazdı. Zira, ermənilər hər tərəfdən öz hissələrinə keçmək istəsə idilər, labüd erməni-müsəlman arasında sərhəd olan daşnaksütyun vəhşilərinin Gəncədə müsəlmanlara verdiyi xəsarətləri icmalən yazmaqdan çəkinməyəcəyəm.

1. Noyabrın 8-də beş daşnaksütyun Bəhmənli sakini Abbas Həsən oğlunu Dərəbağın bağında öldürmüşlər.

2. Qoşa çinar adlanan erməni hissəsində heç bir səbəb olmadan Əmir Aslan Əli Paşa oğlunu, Cabbar Hüseyn oğlunu, Rüstəm İsmayıl oğlunu, Rza Cəbrayıl oğlunu və Molla Cəlilli kəndinin başqa sakinlərini gülləbaran ediblər. Canilər isə Avatis Oqanesov, palaqçı Qrişa, Vaso Amospirov və başqalarından ibarət idi.

3. Kazaklar bədəni başsız, qolları dalından bağlanmış bir iranlının cənazəsini tapır. Ermənilər tərəfindən həlak edilib. General Malamaya dəxi bu barədə məlumat verilir. Yenə Məşədi Sadıq adlı bir müsəlmanın ermənilər tərəfindən doğranmış bədəni tapılır.

4. Noyabr ayının on ikisində ermənilər Amospirovun dəyirmançısı Kərbəlayi Fərəc Həsən oğlunu öldürmüşlər. Canilər isə daşnaksütyunlar imiş. Yuxarıda nişan verdiyimiz erməni pristavı Qamsarqanın 8048 nömrəli raportunda lazımi yerinə xəbər verilmişdir.

5. Noyabrın on altısında Azad kəndinin yuxarısında Böyük Kaloniya küçəsində Zurnabatdan gələn iki nəfər Qasım Böyükkişi oğlu və başqa adsız bir Bəhmənli sakinini tutub, qollarını bağlayıb arxaları üstə qoyublar, ov üçün ətrafa getdikdə biçarələr yüz müsibətilə açılıb qaçmışlar. Bu barədə polisə xəbər verilmişdir.

6. Noyabrın on səkkizində ermənilər Tağanlı kəndinin sakini Bayram Məşədi Məhəmmədəli oğlunu öldürürlər, necə ki, hadisələrin əvvəlində deyilmişdir. Bunlardan məlum olur ki, ermənilər indiyə kimi 30 nəfər silahsız və günahsız müsəlman öldürmüşlər ki, hamısı təfsilatı ilə yazılmışdır. Necə ki, surəti uyezd idarəsində vardır. Şəhərdə müsəlmanlar ermənilərin hər cür vəhşiyanə hərəkətlərinə dözdülər. Çünki müsəlmanlar yəqin etmişdilər ki, axırda belə hərəkətlər acı-acı meyvələr verib səbəbkarının məcazını alışdıracaqdır. Və ermənilərin də bu hərəkətlərinin səbəbi heç kəsə naməlum deyildi. Zira, onların hərbi ləvazimatlarına, hər yerdə əsgərlərin yığılıb toplanmasına diqqət yetirdikdə onların gələcək tədarükündə olub hökumət əleyhinə olan böyük bir qiyamları məlum və aydın olurdu. Bu halda ki, islamda bir günlük də olsa tədarük və hərbi ləvazimat olmasın, onlar necə erməniləri qırmaq xəyalına düşər?!

Hər cür tədarük və silahdan bibəhrə olan məzlum islam millətinə bu

qədər iftiranı əql əhli deyərmi?! Ermənilərin bir sıra fikirlərini bizim yazmağımız artıqdır. Zira Qazax uyezdinin general-qubernatoru general Levitski sərdara vurduğu teleqrafları bu işlərə gözəl sübutdur. Onu da deyək ki, daşnaksütyunların bu hərəkəti barədə "Kaspi" qəzetinin 9 mart tarixli 54-cü nömrəsində yazılıbdır. Həmin yazı Levitskinin imzasıyla vurulan teleqrafnamənin eynidir. ("Kaspi" qəzeti-ictimai-siyasi, ədəbi qəzet. 1881-ci ilin yanvarından 1919-cu ilin martınadək böyük millət hamisi H. Z. Tağıyevin vəsaiti ilə Bakıda rus dilində nəşr olunmuşdur).

## TİFLİS FACİƏLƏRİ HAQQINDA

Ümum qəzetlərin yazdığına görə, Qafqazın hər guşəsində iğtişaş və ziddiyyət törədən erməni bölükləri və rəiyyətləri dövlət və camaat yanında müqəssir hesab edilib Tiflisə yığılmağa məcbur olurdular.

Bu camaat barəsində Tiflis qəzetləri də cürbəcür xəbərlər verməkdə idi ki, hamısını da əziz oxucular oxuyublar.

Belə xəbərlər qəzetlərdə dərc olunduqda Tiflisdə camaat arasında da erməni-müsəlman vuruşması xəbəri yayılmaqda idi. Biçarə müsəlman tayfası Tiflisdə çox az və gücsüz olduqlarından son dərəcə pərişan və heyrətdə qalmışdılar. O zamanlar Tiflisdə islamların ticarət işləri olduqca tənəzzülə uğrayıb pis bir vəziyyət kəsb etmişdi. İslamların bu halını Tiflis general-qubernatoru götür-qoy edib 1905-ci il 25 oktyabr tarixli aşağıdakı məzmunda bir elannamə buraxır ki, "guya şəhərdə şayiələr buraxılmış ki, erməni-müsəlman arasında böyük iğtişaş olacaqdır. Bu səbəbdən özümə borc bilirəm ki, xəbər verəm, baş verəcək iğtişaşı dəf etməkdən ötrü lazımi tədbirlər görmüşəm. Polisə əmr verib fərq qoyulmadan bütün əhalinin malını və canını mühafizə etməyin onların borcu olduğunu bildirmişəm.

25 oktyabr 1905-ci il. İmza: qubernator Jbilyay" Bu cür elanlara baxmayaraq,daşnaksütyunlar gündən-günə belə xəbərləri şəhərə buraxmaqla biçarə müsəlmanları iş-gücdən qoyurdular. Nəhayət müsəlman başçıları millətin halını düşünüb aşağıdakı məzmunda bir intibahnamə buraxırlar... "Tiflis əhalisinə. Tiflis şəhərində əsassız şayiələr buraxmışlar ki, guya müsəlmanlarla ermənilər arasında münaqişə və müharibə olacaqdır. Bu səbəbdən Tiflisdə erməni və müsəlman qardaşlarımıza bu intibahnaməni təqdim edib təvəqqe edirik ki, belə mənasız xəbərlərə qulaq verməsinlər. Bu şeytanətamiz şayiələri buraxan iftiraçıları axtarıb tapsınlar. Fitnə-fəsad törədənlər indiyə qədər nahaq tökülüb vətənimizi qızardan erməni-müsəlman qanına kifayət etməyib gözəl və yaraşıqlı Tiflis şəhərini də xarab etmək həvəsindədirlər. Ümid ki, Tiflis müsəlman və erməniləri o qədər vəhşi deyillər ki, nahaq yerə qan töküb yüz illərdən bəri olan

qardaşlıq etdiyi kəslərlə çarpışıb xəsarətə düçar etsinlər. Gizli qalmasın ki, belə xəbərləri əclaf kəslər buraxırlar ki, camaatın müsibətli zamanında daraşıb qarət və talan etsinlər.

1905-ci il 2 noyabr. Müxtəsər belə-belə işlərlə müsəlmanları sakitləşdirib ermənilərі də öz safdil olmalarından xəbərdar edirdilər. Digər tərəfdən belə işlərə baxmayaraq, ermənilər hər səmtdən Tiflisə əsgər gətirib min cür hiylələrlə müsəlmanları müharibəyə çağırırdılar. Bu tövr ilə noyabrın 20-nə qədər bir sıra əhəmiyyətsiz hadisələr olsa da, burada vaxtımız olmadığından, yaxud belə işlərin yazılması ilə oxucuların dərd-sərini artırmaq istəməyib ancaq noyabrın 20-də baş verən hadisəni yazmaqla kifayətlənirəm.

Hadisələr. 1905-ci il 20 noyabr axşam saat 9-da şəhərin müsəlman hissəsində atışma baş verib saat yarıma qədər davam edir. Bu atışma əsnasında müsəlmanlar və ermənilər tərəfindən çoxlu tələfat olsa da bilinmir. Atışma Xarpux və Alavar adlanan yerlərdəki evlərdən baş verirdi... Bu atışma sonrakı gün yenə başlandı ki, nə qədər məlumatımız var, hamısını sıra ilə yazıb təqdim edirik.

1905-ci ilin 21 noyabr xəbərləri. Bu gün təzədən hər tərəfdə erməni-müsəlman arasında atışma baş verib çox şiddətlə davam edilirdi. 6,7 bəzən 5 və 8-ci sahələrdə tam şiddətdə müharibə başlanıb müsəlmanlardan ermənilərə və ermənilərdən müsəlmanlara aramsız olaraq tüfəng və tapançadan atəşlər açılırdı. Şiddətli atışma günortaya qədər davam etdi. Fəqət tərəflər açıq surətdə bir-birini nişana alırdılar.

Atışmanın səbəbi və hansı tərəfdən başlandığı bir kəsə məlum və aydın deyildi. Saat 12-yə yaxın dəstələr Qalavinski prospektində yerləşən Kursinin və Nikolayevski küçəsində Ter-Sarkisovun silah mağazalarını sındırıb, içində olan bütün silahları qarət etdilər. Bu vaxt qoşun gəldi, atışma sakit olar-olmaz və barışıq üzrə komissiya üzvləri ilə bərabər şəhər rəisi, hər iki millətin ruhaniləri və savadlı, arif adamları Alavara gedib həm erməni, həm də müsəlman camaatını sakit etməyə başladılar. Müsəlmanlar ermənilərdən şikayət edib ən əvvəl müsəlmanlara Alavardan güllə atıldığını bəyan etdilər. Ermənilər isə "müsəlman tərəfindən atılmış" deyə şikayət etməkdə idilər.

Hər iki tərəfdə sınmış şüşələrin və atılmış güllələrin nişanələri qalırdı. Gündüz saat üçdə dəmiryol işçiləri tətil edib sülh üçün mitinq keçirdilər.

Mitinqin təfsilatı. 1905-ci ilin 21 noyabrında gündüz saat üçdə dəmiryol işçiləri tətil edib, sosial-demokrat partiyası rəhbərliyi ilə ağ bayraqlar qaldırıb Naxalovkadan Ağçal küçəsilə müsəlman hissəsinə tərəf rəvan oldular. Onların məqsədi iki milləti barışdarmaq idi. Vorontsovun

abidə və heykəlinin yanında general-mayor Rılski tərəfindən dayandırıldı. Və bu mitinq və hərəkətin nəticələrini fikirləşərək dağılmalarını tövsiyə etdi. Bununla bərabər bu böyük kütlə öz müqəddəs niyyətlərini birbəbir deməkdən ötrü Qafqaz canişini Vorontsov-Daşkov həzrətlərindən izn istədilər. Cənab canişin isə izn verib müqəddəs niyyətlərlə ictimai hərəkət iştirakçılarını şad etdi.

Bundan sonra dəstələr hərəkətə başlayıb Vorontsov meydanından Saldat bazarına və erməni bazarları ilə Şeytan bazara və Qarpız meydanına tərəf yollandılar.

Bu dəstələrin qabağında Tiflis qubernatoru Rauş Fon-ter Aunberq gedirdi. Dəstə getdikcə çoxalırdı. Qarpız meydanında natiqlər nitqlər söyləyərək hər iki tərəfi sülhə çağırırdılar. Natiqlərin bir neçəsi "bu iğtişaşa səbəb camaatı buna təşviq edənlərdir"-deyib mitinqlər söyləyirdilər. Qubernator isə bu bəyanatın əsassız olduğunu açıq və adi bir nitqlə camaata izhar etdi. Nəhayət ki, ermənilərlə müsəlmanları barışdırdılar.

İğtişaşa dair xəbərlər. İğtişaşın birinci günlərində Mixaylov xəstəxanasının morquna 12 meyid gətirildi. Onların biri erməni övrəti, digəri erməni kişisi, 10 nəfər isə islam şəhidləri idi. Birinin isə şəxsiyyəti məlum deyildi. Cərrahi əməliyyatına buraxılanlar isə on iki nəfər olub üçü erməni, 5 müsəlman, 4 nəfəri gürcü idi. Mixaylov xəstəxanasında müalicədə bulunan şəxslərin adları məlum olsa da, adlarının deyilməsi məsləhət görülmədi.

1905-ci il 24 noyabr hadisələri. Noyabrın 24-də atışma təkrar başlanıb hər tərəfdən bir çox tələfatlar verildi. Bu atışmada Mixaylov xəstəxanasına gətirilən yaralılar bunlardır: 13 nəfər erməni, 2 nəfər müsəlman. Bunlardan başqa, hərbi xəstəxanaya gətirilmişlər bunlardır: erməni və müsəlmandan 6 nəfərdir. Noyabrın 25-də də Mixaylov xəstəxanasına Arşaq Qarapetovla Əziz oğlu və dörd nəfər erməni cəsədi gətirdilər. O günlərdə Mirzə Axundovun baqqal dükanı da qarət edildi.

29 noyabr xəbərləri. Bu gün bağırsaq zavodunun sahibi Sərkis iki nəfər silahlı erməni göndərib müsəlman qonşusunun bağırsaq zavodunu yandırtdırır. Bunu görən və eşidən maarifpərvər gürcülər Sərkisə həmin zavodu tikdirib sahibinə qaytarmasını, əks halda zor gücü ilə tikdirəcəklərini dəxi bəyan edirlər. Bu tövr ilə Tiflis iğtişaşlarına son qoyuldu. Ara-sıra xırda-para hadisələr baş verdisə də, milli hərəkətə dəxli olmadığından şərhi lazım görülmədi.

Hadisələrin icmalı. 1905-ci il, Tiflisdə ermənilərlə müsəlmanlar arasındakı vuruşmaya 20 noyabrda təşəbbüs göstərilmişdir. Müharibənin səbəbi bizə məlum deyilsə də, ermənilərin hər tərəfdən Tiflisə yığılıb

müsəlmanların qüvvələrini əskik görüb onları pərişan etmək istəmələridir.

Müharibə zamanı bir neçə erməni mağazaları qarət olundu. Müsəlmandan isə Sərkis adlı ermənin təhrikilə bir bağırsaq zavodu yandırılıb, bir baqqal dükanı qarət edildi. Müharibə şəhərin 6,7, bəzən 5,8-ci sahələrində baş verib bir çox atışmadan sonra erməniləri son dərəcə zəif saldı. Demək ki, müharibə noyabrın 20-dən başlayıb 29-a kimi davam etdi.

Bu müharibələrdə 24 nəfər erməni qətl olunmuş və bir bu qədər də yaralanmışdı. Müsəlmandan isə 15 qətl və yaralı olmuşdur. Sosial-demokrat partiyası tərəfindən sülh bərpa olunub müharibəyə son qoyulmuşdur.

## NOYABRIN 28-DƏ BAŞLAMIŞ ERMƏNİ-MÜSƏLMAN HADİSƏLƏRİ QAZAX UYEZDİ

Qazax uyezdinin əvvəlinci sahəsində erməni müsəlman kəndlərinin bir-birinə qonşu olan kəndlilərin halına baxdıqda müsəlmanlar son dərəcə imkansız və zəif kəndlərdən ibarət idi.

Buna görə də müsəlmanlar ermənilərin rəftarını başqa tərzdə görüb əvvəlcədən daşınıb güclü olan müsəlman kəndlərinə yerləşmişdilər. Həmən kəndlər Sofulu və Çaxmaqlı və sair kəndlərdən ibarət idi. Köçmüş islam kəndlərinin yurdlarını sahibsiz görmüş erməni qonşular yuxarıda adları çəkilən kəndləri talan və yağma edərək yandırıb, kəndlərin mühafizəsinə qoyulmuş bir neçə adamı da qətl və əsir alırlar. Bu ağrılı xəbəri almış islam köylüləri dəxi tab gətirməyərək camaatı köçmüş Pipis adlı erməni kəndini yandırırlar. Bu hadisələr ardınca 1906-cı il yanvarın 22-ə təsadüf edən Qurban bayramında Qızılhacılı camaatı bayram namazının duası ilə qurban kəsdikləri vaxt erməni dəstələri tökülüb kəndi gülləbaran etməklə iki islamı qətl, bir qoca əlil islamı, iki həddi-buluğa çatmamış qızı anaları ilə birlikdə əsir alıb kəndi də yandırıb talan edirlər. İslamlar bu halı görüncə bayram mərasimini buraxıb başqa kəndlərə qaçırlar. Atışma sədasına Dəmirçilər kəndinə səyahətə getmiş İsrafil bəy Nuri bəyin müşayiətilə yarısı odlanmış kəndin imdadına gəlməklə erməniləri tüfəng atəşilə qaçmağa məcbur edirlər. Ermənilərin qonşuluq və vətəndaşlıq hüququna riayətsizliyini eşidən müsəlmanlarda bir az intibah əmələ gəlir, hər tərəfdən müsəlman könüllü əsgərləri hücuma keçib Əskipara adlı kənddə böyük müharibəyə başlayırlar. Bu müharibədə müsəlmandan 4 nəfər qətl olunur. Ermənilər dəxi 80 nəfər tələfat verib bir çox cəbbəxana, hərbi ləvazimatlarını qoyub qaçmağa məcbur olurlar.

Əskipara müharibəsinə başçılıq edən islam atlıları gündüz müharibə, gecələr isə müsəlmanları balaca kəndlərdən böyük islam kəndlərinə köçürürdülər. Bu dəfə köçən kəndlər Əskipara, Ayrım, Fərəhli, Bağanis və sairlərdir. Bu ayda dəxi elə bir hadisə olmayıb, ancaq Karvansara ermənilərinin təcavüzlərini yatırtmaq üçün gedən 30 kazak dəstəsinə sursat verilməyərək geri qaytarılır. Bu səbəbdən yanvarın 31-də polkovnik və yanında olan bir neçə kazak dəstəsi Karvansaraya yollanır.

Bu aralıqda Zəyəm mahalında erməni-müsəlman vuruşması elan edildi. Belə ki, Çardaxlı adlı erməni kəndinin sakinləri müsəlman kəndlərinə hücum etdikləri vaxt aralıqda yerləşən İrmaşlı və Ayıblı müsəlman kəndlərinin mühafizə dəstələrinə rast gələrək böyük müharibə başlanır. Qonşuluqda bulunan islam kəndlərindən mühafizəçilər köməyə gəldikdə erməni dəstələri davam gətirməyib qaçmağa üz qoyurlar. Müsəlmanlardan bir nəfər öldürülür. Ermənilər isə bir çox tələfat verdikdən sonra, on beş nəfərin meyidini müharibə meydanında qoyub qaçırlar. Qazax uyezdində bir çox kəndlər dağılıb yansa da, indiyə qədər məşhur olanı 12 kənddir: Əlibəyli, Hacallı, Kazımlı Köhnəqışlaq, Yaradullu, Həqbəli, Sofulu, Cəfərli, Çaxmaqlı, Qızılhacılı, Xeyimli, Bağanis Ayrım.

Qazax uyezdində üç dəfə müharibə olmuşdur. Birisi Əlibəyli davası ki, ermənilərin tələfatı barədə məlumat yoxdur. Müsəlmanlardan da tələfat olmayıbdır. Ancaq sakitlik üçün gəlmiş kazakların iki nəfərini ermənilər öldürmüşlər. İkincisi Tatlı müharibəsidir. Bu müharibə bütün günü davam edir və iki nəfər müsəlmanın həlakı ilə başa çatır. Ermənilərin tələfatı isə əlli nəfərə kimi təxmin edilirdi. 3-cü Əskipara müharibəsidir ki, onda müsəlmanların tələfatı 4 nəfər, ermənilərin tələfatı 80 nəfərə yaxındır. Bu üç müharibədən sonra Qazax uyezdi hökumət qüvvəsi tərəfindən nəzarət altına alınır və bir növ sakitlik yaranır, Fevral ayının beşinci günü Qazaxda dükanlar və evlər qoşun tərəfindən axtarıldıqda kazaklar və draqunlar müsəlmanlara çox böyük zərər vururlar. Belə ki, bir evi təftiş üçün 50 nəfər saldat girib, hər nə tövr olursa-olsun əllərinə keçən ev əmlakını oğurlamaqda idilər. Saldat ayağı düşmüş evlərdə sınmamış lampa və bu kimi əşyalar qalmamışdı.

Qazaxda və ətrafında olan müsəlmanların hərbi yaraqlarını nə ki, var yığıb onları bıçağa belə həsrət qoyurdular. Ermənilər isə bu vaxta kimi nə tüfəng, nə də top vermişdilər.

Qazax uyezdinin hadisələri barədə əlimdə bir sıra məlumatlar vardır. Fəqət, ən əvvəl bu hadisələri hansı tərəfin camaatı başladığını lazımi qaydada məlum edilmədiyindən aşağıda yazılmış məktubun dərcini lüzumlu gördüm. Erməni müsəlman hadisələri hər tərəfdə baş verdikcə

Qazax müsəlmanları daim qonşuları ilə sülh və sazişə gəlmək arzusunda idilər. Ermənilər isə zahirən sülh tərəfdarı olsalar da, gizlində boçka ilə tüfəng və sair fitnəkar hərbi silah tədarük edirdilər.

Ermənilərin belə hərəkətləri müsəlmanları bəzi fikirlərə saldı. Bir tərəfdən də erməni dükançıları öz dükanlarında olan mallarını dağ kəndlərinə və müdafiəsi möhkəm olan Dilcan və Karvansara tərəfə aparmaqda idilər. İslamların ağır günlərində Şəmsəddin pristavı erməni Mesrop bəy bir neçə islam libasında olan ermənilərlə gəlib Qazağa çatdıqda tüfənglərinə patron qoyub, yaxına gedən müsəlmanlara atmağa başlayırlar. Müsəlmanlar da təbii ki, onların atəşinə cavab verməklə bir qədər atışma olur. Bir azdan sonra Mesrop və atlılar qaçırlar. Bu qayda ilə qazaxlılarla ədavətin əsasını qoyurlar. Odur ki, yuxarıda deyilən üç böyük müharibəyə meydan verilib, ermənilərə nə qədər can və müsəlmanlara da çoxlu mal zərəri yetişir. Əlimə yetişən məlumatlar müsəlmanların işdən kənar olmaları və xəbərsizliyi səbəbindən bu qədər xəsarətlərə düşəcəklərinə tam bir sübut ola bilir. Belə ki, müharibədən əvvəl ermənilərin Tatlı kəndinin rəisi Arsen Arsenov və keşiş Kiniqor Yaradullu Kərbəlayı Novruz Məhəmməd oğlu və başqalarının evinə gəlib müsəlmanları xam salmaqdan ötrü sülh və barışıqdan söz açıb hər yerdə müharibə olsa da "biz bu çayda müharibə başlamayaq"-deyib yalançı mehribançılıqlar edirlər.

Müsəlmanlar isə belə sözlərə inanmaqla öz istirahətlərində idilər. Bunlara sübut üçün Qazax tərəfindən 600 nəfər müsəlman könüllü atlısı ermənilərin hərbi mərkəzi olan Tatlı kəndini dağıtmağa getdikdə müsəlmanlar Qurani-şərifi qabağa çıxarıb "bizim qonşulara rəhm eyləyin" deməklərini nəzərə qoymaq olar. Ermənilərin dəxi fitnəkarlığı üçün dörd gün həmən hadisədən sonra Yaradullu kəndinə gəlib-"bax, biz sizlə dost olduğumuz üçün xəbər veririk. Əgər istəyirsiniz salamat qalasınız, bu gecə bu kəndlərdən yığışıb gedin! Axırda başqa yerlərdən gəlmiş ermənilərin sizə zərəri yetişər" sözlərini sübut kimi demək olar. Belə sifarişlərdən sonra islamlar gecə daşınıb islam kəndlərinə dolmuşdular. Sabah həmən "dost" ermənilər Yaradullu kəndinin arabaçılarının qabağını kəsib 5 nəfərini öldürür, 9 nəfərini isə əsir aparırlar. Və müsəlmanların 9 vaqona qədər arpa və buğdasını yollarda qarət edib kəndlərini bütünlüklə yandırırlar. Bu müharibələrin ən dəhşətlisi Qaraqoyunlu müharibəsidir ki, ermənilər 300-ə qədər tələfat verib daha hərbə girişməyə qüvvələri qalmamışdı. Bunu da deməliyik ki, bu müharibələrdə müsəlmanların əlində hərbi silah lazımi miqdarında olsaydı, Qazax mahalında ermənilərin yalnız məğlub adları qalacaqdı.

Qazax uyezdində ermənilәri xoşbəxt edən bir nöqtə varsa, o da hökumət və polis qulluqçularının əksəriyyətlə erməni olmasıdır. Belə ki, müharibə vaxtında neçə dəfə strajniklər tüfənglərini götürüb və ya satıb öz evlərinə-ermənilərə kömək üçün getmişdilər. Onlardan biri Sevan Tumanovdur. Atalı kəndinin sakini Bəşir adlının 15 nəfərə kimi qonşularını qırıb səkkiz yüz baş malını aparması da məşhurdur. Belə ki, həmən strajniklər qayıdıb yenə öz xidmət yerlərində qulluq etməkdə idilər.

Qeyd: Qafqaz müsəlmanlarının bu qafil, ermənilərin istiqlaliyyət xəyalına qurban olduqlarını görüncə 1898-ci ildə Krid (Aralıq dənizində Kipr yaxınlığında yerləşən ada adıdır) müsəlmanlarının vəziyyəti adamın gözləri önündə canlanır. Kridlilərin Zafski, Axladina, Vuri, Nasiya, Balyupçi kəndlərinin hadisələri necə müdhiş isə Qafqazda islam köylülərinin də halı eləcədir.

Ah, qərib müsəlman!

Hadisələrin icmalı. Qazax uyezdinin hadisələri 1905-ci ilin 29 noyabrında başlanıb. Müsəlmanlar müasir işlərdən xəbərsiz olduqlarına görə böyük xəsarətlər gördülər. Qazax uyezdində hökumət məmurları, xüsusilə polis qulluqçularının əksəriyyəti erməni olduğundan müsəlmanlara artıq zərərlər vermişlər. Qazax uyezdində üç böyük və müdhiş müharibələr də zühur etmişdir.

1. Əlibəyli müharibəsi.

2. Tatlı müharibəsidir ki, bir gün davam etdiyindən müsəlmandan tələfat 2 nəfər, ermənidən isə 50 nəfər ölmüş, bu qədər də yaralanmışdır. Bu müharibədə iki mühafizəçi kazak da ermənilər əlində öldürülmüşdür.

3. Əskipara müharibəsidir ki, müsəlman tələfatı 4, ermənilərin tələfatı 80 nəfər, silah altda olan bir qədər də yaralanmışdır. Tələfatın çoxu ermənilərdəndir. Bu müharibələrə səbəb Şəmsəddin pristavı Mesrop olmuşdur. Ermənilərin strajnikləri bu müharibədə ermənilərə böyük köməklik etdilər. Qazax uyezdində məşhur on qəryə dağılmışdır ki, hadisələrin təfsili vaxtı adları çəkilmişdir. Bunlardan başqa da bir çox qəryələr dağılıb yandırılmışdır.

## TİFLİS SÜLH DANIŞIQLARI

1906-cı il fevral ayının 20-də Tiflis şəhərində Qafqazın səxavətli canişini cənab baş komandan Voronsov-Daşkov həzrətlərinin səy və alicənabanə ciddi-cəhdləri sayəsində Yaşıl zal adlı humayun sarayda təşkil olunmuş erməni-müsəlman sülh məclisinin bəyanından və tərəflərin danışıqlarından bəhs edilir.

Məclisin məramı və əsl məqsədi. Məclisin məramı Qafqaz

müsəlmanlarını qan dəryasından çıxarıb müharibə və hadisələrin baş verməsi səbəblərini təftiş edib sonra hər iki millətin dərd və vəziyyətinə baxıb çarə axtarmağa və bir daha belə hadisələrə yol verməmək üçün hökuməti bir sıra lazımlı tədbirlər görməyə vadar etməkdir.

Hökumət tərəfindən bu məclisə tam nəzarət yetirən şəxslər: Qafqaz canişini cənab Voronsov-Daşkov, Tiflis, İrəvan, Gəncə qubernatorları, canişin həzrətlərinin müavinləri, cənab Krım Soltanı Gəray, general Malama, general Şirnikin, kargüzar Peterson cənabları.

İslam nümayəndələri: Bakıdan cənab Əhməd bəy Ağayev, Kərbalayı İsrafil Hacıyev, Əlimərdan bəy Topçubaşov, Tiflisdən hörmətli Məhəmməd ağa Vəkilov, doktor Qarabəyov, Gəncədən Əliəkbər bəy Xasməmmədov, Ədil xan Ziyadxanov və başqaları.

Erməni vəkilləri: "Müşak" qəzetəsinin müdiri Kalantar, Tiflisdən: Xatisov, Samson Artyunov, Bakıdan: Xatisov, Muşeksyan, doktor Stepanov, Arekelyan, Taqiyanusov, Ter-Avanesov, arximandrit Muradyan və başqaları.

Məqsədin ərzi. Yuxarıda qeyd edilmiş sülh məclisinin qurulmasına ən səxavətli sərdar tərəfindən fevral ayının 15-nə fərman verilmişdisə də, erməni vəkillərinin nədənsə vaxtında gəlmədiklərindən məclisin başlanması ancaq fevralın 20-də gündüz saat birdə baş tutmuşdur. Göstərilən vaxt erməni və müsəlman vəkilləri canişin həzrətlərinin əmirinə əsasən Humayun sarayına toplanırlar. Vəkillər sarayı yaşıl zalında toplanıb. Bir az intizardan sonra canişin həzrətləri böyük dəbdəbə ilə məclisə təşrif gətirir. Məclisi açdıqdan sonra mərhəmət göstərib sonra bu nitqi söyləyir:

-Camaat!

Bir ildir ki, sizin bu əziz vətəniniz olan Qafqaz bu qədər bəlalara mübtəla olub. Hökumət hər binagüzarlıq etsə də, xeyirli bir nəticə vermədi. Lakin Qafqazın və sizin rahatlığınız üçün gərək bu bəlalar aradan götürülsün. Erməni-müsəlman iğtişaşı ancaq quldurlara və iğtişaşçı dəstələrin xeyrinədir. İndi mən sizi buraya cəm etmişəm ki, siz özünüz bu işlərə çarə arayasınız. Lakin mən sizdən təvəqqe edirəm ki, öz müzakirələrinizdə keçmişdən danışmayıb təqsir kimdə olduğu məsələsini bir kənar edəsiniz",-deyib sözünü sona çatdırır. Vəkillər razılıqlarını bildirdikdən sonra canişin həzrətləri çıxıb öz sarayına yollandı.

Məclis cənab Malamanın sədrliyi altında başlanıb, məsələlər müzakirə olunur. Bu məclislərdə ən əhəmiyyətli, keşməkeşli olan məsələlər iki mühüm maddədən ibarət idi. Onların biri müsəlmanların yaylağa köçməsi, o biri də ermənilərin terror və s. ziyan gətirən qatil dəstələrinin aradan götürülməsi məsələsi idi.

Bunlardan başqa bir sıra başqa danışıqlar varsa da, onları yazmaqla oxucuları dərd-sərə salmağı lüzumsuz gördüm.

Köç məsələsi ilə bağlı olan danışıqlar. Beşinci məclis fevralın 25-də müsəlmanların proqramında göstərilən köç məsələsinin müzakirəsi ilə başlanır. "Müşak" erməni qəzetinin müdiri Kalantar belə bir nitq söyləyir:

Qafqazda köç məsələsi ən ümdə məsələlərdən biridir. Çünki yalnız köçərilərə deyil, bütün əhaliyə aid məsələdir. Köç zamanı əhalinin çox hissəsi hərəkətə gəlib bir-birilə görüşür, keçmişin sakitlik və dinclik zamanında belə əhali köç vaxtı bir-birilə toqquşurdular.

Bir halda ki, erməni ilə müsəlman ədavətli düşüblər, belə toqquşmaların olacağı və böyük dərəcədə baş verəcəyi şəksizdir.

Bu nöqteyi-nəzərdən sülhün bərpası üçün gərək ən azı bu eldə qadağan olunsun ki, heç kəs köç eyləməsin. Eyni zamanda, bu məsələni bir qat daha vüsətləndirmək lazımdır. Zira köç məsələsi bir tək Qafqaza xas məsələ deyil, bu məsələ Avropada da vardır. Məsələn, İsveçrədə, Tirolda (Tirol-Avropada, Alplarda tarixi bir vilayətin adı), Alpisidə. Lakin Avropa ilə bizim fərqimiz çoxdur. Avropada köçərilər cəmi cümlətanı bir neçə saatlıq yol gedirlər və köçən ancaq çobanlar və mal aparanlardır. Bizdə köçərilər əksər vaxtlar həftələrlə yol gedirlər. Məsələn, Cavad uyezdindən Zəngəzura və Noy Bayəzid uyezdinə gedirlər. Və bu yolun uzunu iki yüz verstdən artıqdır. Bu köçərilər öz yollarında istər-istəməz gərək erməni kəndlərindən keçsinlər və hətta müsəlmanlar və ermənilər keçmişdə bir-birilə dost olduqları halda oğurluq, otlaq, yanğı və s. işlərdən ötrü yenə bir-birilə incik olurdular. Hökumət isə bu incikliyi aradan qaldırmaq üçün heç bir ciddi binaküzarlıq etmirdi. Doğrudur, köçəri məsələsi hələ 1905-ci ildən qalxıb və hökumət də etina edib, İrəvan general qubernatoru binagüzarlıqlar etmişdi ki, köçərilər köçməsin, bu hökmə əncam olunmadı və yenə Gəncə qubernatoru həmən vaxtlarda hökumətdən izi tələb etmişdi ki, köçəriləri hərəkətə gəlməyə qoymayıb arandan saxlasın. 1861-ci ildə canişin tərəfindən köçərilər barəsində bir nizamnamə tərtib olunmuşdu. Lakin bu nizamnamə kafi dərəcədə olmayıb bir nəticə vermədi.

Yenə bu axırlarda köç məsələsinə dair bir çox vaxtdan sonra Gəncə quberniyasında bir neçə nizamnamələr tərtib olundu. Bu nizam ibarətdir; baytarların köçəri mallarına nəzarət etməsindən. Baytarlar köçərilərlə çox pis rəftar edirdilər. Məqsəd də köçəriləri köçmədən bezikdirmək idi.

Lakin alınmadı. Və indi də köç edirlər. Bu tədbirlərin nəticə verməmələrinə səbəb o oldu ki, əsl tədbir əmələ gəlmədi.

Lazım idi ki, əvvəl camaat qışlaqda bir cür olaydı ki, camaat orada

güzəran edəydi və bu barədə hökumət heç bir tədbir görmədi. Osmanlı dövləti öz köçəriləri üçün daha çox binagüzarlıqlar edib nəinki rus dövləti. Osmanlıda 1841-ci ildə dövlət tərəfindən tədbirlər olub kürd camaatını yavaş-yavaş köç məsələsindən əl çəkdirirlər. Köçərilik özözündə insanın çox alçaq və səfil dərəcədə olmağına dəlalət edər. Ancaq qeyri-mədəni tayfalar köçəri olurlar. Və müsəlmanların köçəri olması bütün Qafqaz əhalisinə zərərdir. Gərək çalışaq ki, onlar bu tövr dirilikdən əl çəksinlər və oturaq olub kənd təsərrüfatı və sənətlə məşğul olsunlar. Hal-hazırda müsəlmanların özlərində bu işə meyl görünür, bəzi yerlərdə ki, pambıq və düyü əkirlər, əhali yavaş-yavaş oturaq olur, çox yerlərdə ancaq adətə görə köçməkdədirlər. Bir halətdə ki, köçməyə ehtiyac əsla qalmayıbdır, lazımdır ki, dövlət və hökumət öz tərəflərindən kömək və binagüzarlıqlar edib köçəriləri oturaq etsinlər. Əks təqdirdə Qafqazın mədəniyyətcə tərəqqi etməsi müşküldür. Bu ilə gəldikdə labüdən hökumət köç etməyi qadağan etsin. Lazımdır ki, düşmənçilik edən bu iki milləti ayırıb arasında maneə olmaq ki, bir qədər bir-birlərini görməyib bu ədavəti yaddan çıxartsınlar. Yoxsa ki, toqquşma olar. Biz bu sözləri ermənilərin xatirəsi üçün söyləməyib müsəlmanların da xeyrinə danışırıq. Xırda uşaqları ilə, mallarla köç edən camaat dağlarda naçar və məəttəl qalırlar. Hərgah, bir iş düşsə, heç bir şey əllərindən gəlməz. Biz, erməni vəkilləri sülhün xatirəsi üçün təvəqqe edirik təcili olaraq bu il köç məsələsi dayandırılsın.

MÜƏLLİF TƏRƏFİNDƏN: Cənab Kalantarovun belə bitərəfanə və münsüfanə danışmasını görüb oxucuların daha da bu yazıçının qəlbindən bixəbər olmaları üçün bir neçə söz əlavə edirəm. Cənab Kalantarın köç məsələsini dayandırmağa çalışdığı hamıya məlumdur. Zira, erməni kəndləri hər quberniyada dağların meşəlik və yaylağa yaxın yerlərində düşüb suların təmizini içməkdədirlər. Müsəlmanların halına gəldikdə, hər yerdə düzlərdə və alçaq yerlərdədirlər. Cənab Kalantarın niyyəti ermənilərin malları, qoyunları yatıb, pisliklərini sulara töküb, aşağıdakı müsəlmanlar da yayın istisində həmən sulardan içib yavaş-yavaş qırılıb qurtarmasıdır. Bəli! Erməni qonşuların bizə xeyirli sözləri belə olar. Sonra cənab Kalantar köç məsələsində Osmanlı hökumətini ortaya çəkib bir az tərif edir. Əlbəttə, cənab redaktorun haqqı da vardır. Zira, Osmanlıda 1844-cü ildə olan köç məsələsi yenə də erməni düzəltməsindən başqa bir şey deyil. Sonra cənab Kalantar sözünün axırında bu iki millətin bir-birindən ayrılmalarını tövsiyə edir. Cənab redaktor bu fikrində Cənab Bahadırovla şərik olsa gərəkdir.

Necə ki, bu iki milləti bir-birindən ayrılmaları barədə Cavanşir və

sair hadisələrin təsvirində kifayət qədər məlumat vermişik.

Cənab Kalantara Əhməd bəy Ağayevin cavabı. Cənab Kalantarın buyurduqları, camaata dair elmin ki, ibarət olsun ictimai və millət tərəqqisi elmlərindən təlim etdiyi həqiqətlərə tamamilə ziddir. Dünyada bütün insanlar öz tərəqqilərində üç mərhələdən keçirlər:

-Əvvəlinci mərhələ ov mərhələsidir ki, insanlar ov ilə məişət edirlər.

-İkinci mərhələ köçərilik və mal bəsləmək dərəcəsidir.

-Üçüncü mərhələ mədənilik, yəni şəhərdə sakin olub sənət və əkinçiliklə güzəran keçirməkdir.

Bu üç mərhələni keçmək bütün tayfalar üçün çarəsizdir.

Heç bir iş, heç bir fərman ilə insanları bu mərhələlərin birisindən o birisinə birdən-birə aparmaq olmaz. Gərək zaman keçdikcə və zəmanənin tələbi ilə özləri bu mərhələləri təbdil etsinlər. Bu ümumi və təbii bir qaydadır. Əks halda hökumətin və dövlətin köçəriləri mədəni etmək və ya mədəniləri köçəri etmək ona bənzər ki, hökumət və dövlət şimaldan əsən küləyi qərbə döndərmək fikrinə düşə...

Milyonlarca adam süd, pendir və ət ilə yun və bu kimi heyvan məhsulatlarıyla dolanırlar. Bunlara birdən-birə "köç etmədən əl çək" buyuran cənab Kalantar bunlar nə yeyib dolansınlar məsələsini əsla düşünmür. Gör və gör ki, cənab Kalantar bu qədər müsəlmanı bir neçə dağ ermənisinin xatirinə acından öldürməyə hazırdır.

Köç olmasın demək asandır, yol, məişət göstərmək çətindir. Heç cənab Kalantar bu köçərilərin arasında olubmu? O görübdürmü ki, yay fəsli olanda bütün canlı heyvanlar, insanlar, inək və qoyunlar, hamını ağızlarını dağ səmtinə tutub mələyirlər?! Hamını qəribə bir vəziyyət alıb şüursuz olaraq dağ tərəfinə aparır.

Bu cəhalətin önünü almaq insanın qüvvət və gücündən yuxarı bir şeydir. Qışlaqlar cəhənnəmə dönür, sular, çaylar quruyur, ot kökündən kəsilir, milyonlarca həşərat baş qaldırıb hər yerdə bir qanlı şey görürsə ilan kimi çalırlar. Malyariya adlanan qızdırma mallara və insanlara təfavüt etmədən sirayət edib, canlarını alır. Cənab Kalantar köçəriləri bu bəlalara düçarmı etmək istəyir? Belə isə, əcəb rəhmdir! Əcəb insaniyyətpərvərlikdir. Əvvəl gərək bu qışlaqların fikrinə düşmək, əvvəl gərək hökumət su gətirib ağac, meşə yetirib, belə işlər vasitəsilə abadlıq etmək, sonra köçərilərə təklif edə ki, köçmək qadağandır. Yoxsa ki, quru fərman heç bir nəticə verməz və köçərilər heç bir nəticə vermədikdə köçəcəkdir. Çünki, hər bir fərman, hər bir hökm ki, təbiət qanunlarından xaric olan insanların ömrünü, dolanacağını zaye edə, puç və əmələ gəlməyən bir fərmandır. İndi yay fəslində bu cür cəhənnəmə dönən

qışlaqlar qədimdən abad və gözəl vilayətlər idi...

Bu vilayətlərin o vaxt abad olması dövlətinin əhali barəsində gördüyü qayğıdandı. Hökumət bu vilayətlərdə kəhrizlər vasitəsilə sular gətirib vilayəti abad etmiş idi və xalq da mədəni olub ticarət və sənət, əkinçiliklə yaşayırdılar. İndi isə hökumət əsla bu yerlərə etina etməyir, əsla bir iş görməyir ki, bu yerləri sakin olmağa yararlı etsin. Buralarda ancaq köçəri olmaq olar. Hökumətin nə haqqı və nə ixtiyarı var ki, birdən-birə hökm edə ki, köçməyin. Belə rəva görülməyən fərmana heç kəs itaət edəmməz. Və bu cür biz müsəlmanlar bir böyük tənbeh kimi baxırıq ki, günahsız və müqəssir olmayan tayfaya edilir. Ermənilərə xoş gəlmək üçün bu da əsla sülhə yardım edə bilməz.

Söz bura yetişəndə cənab Əhməd bəyin başı gicəlib oturur yerə, onu aparırlar sarayın bir otağına, bir az keçdikdə özünə gəlib məclisə daxil olur (Cənab Əhməd bəy Ağayevin milləti uğrunda bu qədər ciddi-cəhdlər çalışdığını görüncə onun nə dərəcədə millətsevər olduğu hamıya məlum olar. Burasını da söyləyirəm ki, Əhməd bəy cənablarının bu qədər çalışmağına millətimizdən bir çox razılıq edildisə də, yenə haqqınca olmayıb yüzdən bir haqqı riayət edilmədi. Bu isə hələ də millətimiz arasında bir parə gecəquşlarının (yarasaların) vücudiləridir.

Cənab Əhməd bəy halətsiz olduqda Qarabəy Qarabəyov cənabları nitqə davam edir:

-Lazım olan bəyanatı cənab Əhməd bəy Ağayev verdi. Mən ancaq onu əlavə edirəm ki, köçəriliyi qadağan etməzdən əvvəl gərək hökumət qışlaqları o hala gətirsin ki, yay fəsli oralarda dolanmaq mümkün olsun. Və əgər indidən qadağan edilsə, erməni-müsəlman məsələsi alovlanıb Qafqazı odlayacaqdır.

İBRAHİM AĞA VƏKİLOV:-Qafqaziyada heyvan saxlayan yalnız müsəlmanlar deyil, bəlkə başqa tayfalar da saxlayırlar. Amma başqa tayfalar, o cümlədən ermənilər oturaqdırlar. Ona görə onlara köçmək lazım deyil. Hərgah müsəlman köçməsə, özləri və malları tələf olur.

SƏRKİSYAN:-İsti və susuzluq bir bəhanə deyil. Çünki başqa tayfalar qışlaqlarda yaşayıb köç etməyirlər və öz işlərini gözəl aparırlar. Mən belə güman edirəm ki, aranda qalan müsəlmanlar heyvan saxlamağın xeyrini görməyib mallarını dağ əhalisinə satarlar və əkinçiliklə məşğul olarlar. Müsəlmanların başçıları gərək bu barədə camaata nəsihət etsinlər.

MƏHƏMMƏD BƏY ŞAHMALIYEV:-Məndən irəlidə danışan Kalantar, cənab Ağayev köç məsələsini bəyan etdilər. Cənab Kalantar hökumətin nəzərini bildirib belə məlum etdi ki, hökumət köçü qadağan etdisə də, bu məsələnin axırını bir yerə yetirmədi. Cənab Ağayevin

xitabından belə anlaşıldı ki, müsəlman tayfasının köçmək məsələsi tarixə və elmə müvafiq bir adətdir. Bu adət vaxt olar ki, müsəlman tayfasının arasından götürülüb rədd olar, daha bu barədə hökumətin fərmanı lazım deyil. Mənim əqidəmə görə, bu cür xitabələr məsələnin ancaq bir tərəfin açırlar, amma məsələnin o biri tərəfi də vardır. O biri tərəfi də odur ki, heyvan saxlamaq yalnız müsəlman tayfasının adəti deyil, Dağıstan, Zaqatala, Samur, Teyvant və s. yerlərin əhalisi də bu işlə məşğuldurlar. Maldarlıqdan xeyir götürürlər. Nəinki bu yerlərin işlərin əhalisi, bəlkə onların qonşuları da palas və sair əşya toxuyurlar. O halda çörəkdən düşəcəklər, və hazırkı hal əhalinin diriliyinə baisdir. Bəs mənim təvəqqəm məclisdən budur ki, köçmənin asan olması ətrafında danışılsın, nəinki qadağan olması barədə. Şəksiz köç vaxtı bu iki millətin bir-birilə toqquşması mümkündür. Ona görə də biz və hökumət gərək elə danışaq ki, ehdəmizə verilmiş vəzifəni başa çatdıraq.

HACIYEV:-Biz buraya yığılmamışıq ki, gözəl natiqlik qabiliyyəti ilə nitq söyləyib İsveçrə, yainki Avropanı göstərib onların idarə üsulunu nəzərə çəkək. Əlbəttə, Avropa kimi olmaq yaxşıdır. Amma bizim təklifimiz müvafiq qərardadları göstərməkdir. Budur bir aydan sonra köç vaxtı olacaq. Biz gərək məsələni açmağa çalışaq və bir fikir çəkək.

MƏCLİSİN SƏDRİ GENERAL MALAMANIN MÜRACİƏTİ:-Ağalar, belə görürəm ki, mətləb bu qərar ilə danışılsa, biz çox sözlər eşidəcəyik. Amma xahiş edirəm ki, qərardadlar məlum olsun.

PETERSON: Cənab canişinin bu məsələyə xüsusi diqqəti var. Ancaq bu məclisdə danışılan sözlər məhz nəzəri məna daşıyır, nəinki əməli.

MALAMANIN KÖÇ MƏSƏLƏSİNƏ DAİR SON SÖZÜ:-Köç məsələsini pozmaq əsla mümkün deyil. Bir millət ki, bir sənəti adət edib, onu təbii adətən ancaq tədriclə başqa sənətə vadar etmək lazımdır.

Bundan sonra Ziyadxanov, Topçubaşov, ən axırda işin keçməyini görüb Xatisov şərakətən xitab etdilər. Və ən axırda General Malama bu qətnaməni oxuyub məclisə yekun vurdu:

-Əvvəla, bu il köçəri əhalinin köçməsinə mane olmasınlar. Və ikincisi, iki məclis təşkil edib, birincisi, builki köç məsələsini, digəri gələcək üçün bu məsələni müzakirə etsin. Bu qərar ilə ki, köçəri camaat yavaş-yavaş oturaq həyata keçsinlər.

Məclis burada sona yetib müsəlmanların köç məsələsinə mane olmağa daha imkan qalmayır.

ERMƏNİ-MÜSƏLMAN SÜLHÜNÜN CANİŞİN SARAYINDA 26 FEVRALA TƏSADÜF EDƏN 6-cı YIĞINCAĞI:-Bu məclis general Malamanın sədrliyi ilə başlanır. Ən əvvəl köç məsələsinin həlli xüsusunda

bir çox söhbətlər olsa da sonra müsəlman proqramının yeddinci maddəsinin müzakirəsinə keçilir. Həmin maddə budur: "Gərək elə şərait yaradılsın ki, qulluqçu öz vəzifəsini ifa edərkən heç kəsdən qorxmayıb rahatlıqla iş görsün".

GENERAL MALAMA:-Kim istəyər bu barədə danışsın?!

Bir neçə dəqiqədən sonra sakit olmuş camaatın arasından cənab Əhməd bəy Ağayev ayağa qalxıb aşağıdakı nitqi söyləyir:

-Budur neçə ildir ki, biz Qafqaz camaatı bir qəribə vəziyyətə düşmüşük ki, bir dəstə hamını qorxu altında saxlayıb heç kəsə fürsət vermirlər ki, nə öz fikrini, nə də öz işlərini, necə ki, lazımdır, izhar etsinlər. Camaat işinə müdaxilə edən şəxslər və qulluqçular həmişə qorxu içərisindədirlər. Əgər bir kəs cürət edib öz fikrini açıq-açığa danışsa yainki bir qulluqçu cürət edib öz insafına görə iş görsə, həmən saat möhürlü kağızlar gəlib, qətl fərmanı yetişər. Belə dolanmaq olmaz! Buna bir axır qoymaq gərəkdir. Qulluqçulardan və sahibmənsəblərdən bəziləri o qədər alçaq, o qədər rəzil oldular ki, bu qorxu kağızlarından vahimə edib insaflarından və ixtiyarlarından keçirlər. Və qorxu kağızlarını mülahizə edib kağızları göndərən tərəfə meyl edib, müqabil tərəfə bilə-bilə ədalətsizlik və amansızlıq edirlər. Əgər işlər belə gedirsə, əsla dolanmaq olmaz. Bu hərəkətlərə terror deyib eləcə təmiz çıxarırlar. Lakin terrora müəyyən dərəcəyə qədər dözmək olar. Bir dövlətdə ki, danışmağa və yazmağa izn vermirlər, insanları zülm və zorakılıqdan azad edib, insaniyyətə xidmət etmək qəsdilə qəddarlar və zalımlar əleyhinə terror mümkündür. Lakin terror bu dərəcəyə keçdikdə səbr ediləsi və dözüləsi deyil.

Bir adamı, bir qulluqçunu öz millətinə xidmət etməyə və ya öz insafına görə iş görməyə qorxudub vicdansızlığa, ədalətsizliyə dəvət edən terror davam edərsə, bizim vilayətdə nə azadlıq, nə hürriyyət, nə ədalət, nə də bərabərlik əmələ gələ bilər. Hal-hazırda qulluqçuların çoxu, bəlkə hamısı boyunlarını alçaqcasına terror dəstələrinin qabağında əyib, ancaq onlara xoş gələn işlər tutub bu tərəfə hər cür cövr, zülm, sitəm, sonsuz cəfa etməkdədir.

Biz müsəlmanlar bu halətdə davam etməyəcəyik və aşkar deyirik ki, hərgah işlər elə gedərsə, nə qədər Qafqazda bir elə terror dəstələri hökm edərsə, Qafqazda asayiş və təhlükəsizlik bərpa olunmayacaqdır. Biz heç kəsin barəsində şeytançılıq etmərik. Ancaq sülhün xatirəsi üçün məclisin diqqətini bu nöqtəyə cəlb edərik və deyərik ki, Qafqazda olan mənsəb sahibləri və hakimlərin çoxu erməni terrorundan qorxub ədalət və insaf ilə iş görmürlər. Asayiş və dinclik olması üçün hər nə təşəbbüs və tədbir görülsə, bu qulluqçular qorxularından bir əlac etməyib ancaq bir tərəfə

zülm və cəbr edəcəklər və buna görə də heç vaxt asayiş olmayacaqdır.

CANİŞİN DƏFTƏRXANASININ MÜDİRİ PETERSON:-İndi belə sözlərin yeri deyil. Burada gərək bu məsələ əsla müzakirə olunmasın (ermənilər şiddətlə əl çalırlar).

ƏHMƏD BƏY AĞAYEV:-Cənab Piterson əfv etsinlər. Bu məclis elə bu cür sözlərin yeridir.

Bizi bura çağırıblar öz dərdlərimizi, mülahizələrimizi açıq-açığa deyib, saf-sadiqanə danışaq, bəlkə bu, bəzilərinə xoş gəlmir. Bu xoş gəlməyin bizə əsla dəxli yoxdur və bizim məsələni müzakirə etməkdən əsas qəsdimiz odur ki, həmən o mənsəb sahibləri ki, öz andlarını, öz insaf və vicdanlarını, mərdanəliklərini yaddan çıxarıb, qorxu kağızının vahiməsindən başlarını itaət astanasına qoyublar, onların əməllərini, rəzalətlərini, alçaqlıqlarını bütün Rusiyaya məlum və aşkar edək. Bəlkə bundan sonra qulluqçular özlərinə gəlib kişiliklərini aşkar etsinlər.

KƏRBƏLAYI İSRAFİL HACIYEV:-Bilmirəm bu nə istisnalardır ki, erməni millətinə məxsusdur?! Xristian olub rus ilə həmmillət olmaları, mədəni və dövlətli olmaqları bəs deyil, gərək bir terrorları da olsun!! Bizim də terrorlarımız ola bilər. Biz də mauzer tüfəngləri saxlayıb, bomba ata bilərik, biz də ermənilərdən yaxşı mənsəb sahiblərini, qubernator da öldürə bilərik. LAKİN BİZ BUNLARIN HEÇ BİRİSİNİ ETMİRİK, ÇÜNKİ BU BİR RƏZİL VƏ ALÇAQ, SƏLTƏNƏTƏ LAYİQ OLMAYAN İŞLƏRDİR.

Bu məsələni müzakirə etməkdən qəsdimiz ancaq hökuməti vadar etməkdir ki, öz vəzifəsini, öz işini, öz ədalətini qorxusuz, vahiməsiz, layiqincə yerinə yetirsin. Əgər elə etməsə biz də terrora keçməyə məcbur olarıq.

Bu danışıqlarda iştirak edən Əhməd bəy Ağayevin, Kərbəlayı İsrafil Hacıyevin terror, yəni camaat işində vəzifədar olan adamları, dövlət qulluqçularını və mənsəb sahiblərini nəhayət dərəcədə ölüm kağızları ilə vahiməyə salmaq büsatından danışdıqları camaata çox təsir etdi. Erməni vəkilləri də həm-həmə etməyə başladılar.

"NODAR" QƏZETƏSİNİN MÜDİRİ İSPANDARYAN:-Biz ermənilər gedirik, biz burada qalıb belə danoslara qulaq asa bilmərik!..

KƏRBƏLAYI İSRAFİL HACIYEV:-Gedirsiniz, gedin?! Sizə yalvaran yoxdur.

TAĞIYANOSOV:-Xeyr! Xeyr! Mən yoldaşım İspandarovla razı deyiləm. Gərək biz burada qalıb müsəlman yoldaşlarımızın dediklərini eşidək. Biz də onlar kimi istəmirik ki, bizim vilayətdə terror olsun və hökumət kişiləri bu terrorun qorxusundan ədalət və insafdan keçib bir

kəsə və ya bir tərəfə cəza və zülm etsinlər. Lakin təvəqqe edirəm ki, müsəlmanlar sözü elə desinlər ki, biz anlayaq.

ŞAHMALIYEV:-Siz ermənilər görürsünüz ki, biz buraya hökumətə mədh və tərif üçün gəlməmişik, biz açıq deməyə gəlmişik ki, dövlət adamları terrordan qorxub erməni tərəfini müdafiə edirlər. Belə vəziyyətə səbr və davam etmək olmaz.

Bundan əlavə, belə işlər bizim də camaatı xarab edir. Bizim də camaatımız bu fikirdədir ki, hökumət və dövlət kişilərini qorxu və hədə ilə vahiməyə salsınlar, bəlkə bundan sonra onlar insafla iş görsünlər. Biz bunu deməyi borc bilirik ki, nə qədər terror var, sülh mümkün deyil.

ARTYUNOV:-Biz buraya sülhdən ötrü cəm olmuşuq və müsəlmanların bu məsələsini qaldırmaları sülhə əsla kömək eləməz. Harada və nə vaxt hökumət adamları terrordan qorxub müsəlmanlara cəbr ediblər? Öz tərəfimdən mən elə bir iş görməmişəm. Biz gərək burada danosçuluq etməyək. Biz jandarma deyilik. Jandarmalar özgə yerlərdədir. Buna görə gərək bu məsələ barəsində əsaslı danışıq olsun.

ƏLİMƏRDAN BƏY TOPÇUBAŞOV:-Biz gözlərimizi bağlayıb kor ola bilmərik. Bizi bu məsələni qaldırmağa bizim vəziyyətimiz vadar edir. Vətənəmizdə elə bir vəziyyət yaranıb ki, hökumət kişiləri öz insaf və ədalətlərinə iş görə bilmirlər. Əlbəttə, böyük yerlərdə hədə və qorxu kağızlarına etina etmirlər. Lakin vilayətlərdə kiçik qulluqçular belə kağızlardan qorxub işlərini insaf üzrə apara bilmirlər. Onların təqsiri nədir?

Onlara deyəndə ki, niyə belə iş görürsünüz? Cavab verirlər ki, qorxuruq, külfətimiz var!

Biz də ancaq onu deyirik ki, vəziyyət elə olsun ki, bu cür qulluqçular qorxmayıb daha insafsızlıqlarına son qoysunlar.

KALANTAR:-Biz ermənilər müsəlmanların sözlərini əsla anlamırıq. Gah qoşundan, gah qəzetdən, gah hökumətdən şikayət, gah da erməni əsgərlərinin götürülməsini tələb edirlər.

Gah bəzi firqələrin götürülməsini deyib terrordan və firqədən qorxurlar. Biz də çox deyə bilərik, lakin demirik. Çünki yaxşı adamlar (?) bəzi şeylər barəsində əsla gərək danışmasınlar. Çünki bu cür məsələlərin işə dəxli yoxdur. Keçək əsl mətləbə.

GENERAL MALAMA:-Keçək! Keçək!

ƏDİL XAN ZİYADXANOV:-Xeyr! Gərək məsələ həll olunsun. Biz bura sülhdən ötrü yığılmışıq. Rəsmi danışmaqla sülh olmaz. Hər kəs gərək ürəyindəkini zikr etsin. Erməni vəkilləri casus, danosçu deyirlər. Biz belə iftiralardan qorxmuruq. Sidq və səfa ilə sülhə gəlib də biz

özümüzə borc hesab edirik ki, sülhə mane olan səbəblərin hamısını gözlərə göstərək. O səbəblərdən birisi də terrordur. Ermənilər bizə deyirlər ki, terroru götürməkdən ötrü çarə göstərin. Biz çarə göstərə bilmərik. Gərək çarəni özü arasın. Biz ancaq səbəbləri göstəririk. Əgər bundan sonra da hökumət çarə etməsə, bizim camaat ən azı öz insafı yanında pak olar.

İRƏVANDAN ERMƏNİ VƏKİLİ:-Müsəlmanların da dəstə və firqələri var. Məgər dəli Əlinin dəstəsi xalqı və hökuməti vahiməyə salmır? Müsəlmanlar da gərək bu dəstəni götürsünlər.

ƏHMƏD BƏY AĞAYEV:-Biz terror məsələsini qalxızdıqda ancaq sülhü, asayişi nəzərə almışıq. Çünki müsəlman camaatının əqidəsincə nə qədər ki, Qafqazda terror var, bir o qədər sülh olmayacaq. Biz labüd və naçar gərək camaatımızın əqidəsini burada açıq və aşkar izhar edək. Lakin bizə danosçu və casus deyirlər, qoy desinlər. Külli aləmə məlumdur, kimdir casus, kimdir danosçu. Bir də məndən soruşurlar ki, nə dərəcəyə qədər terrora səbr etmək və dözmək olar?

Mən bu suala əvvəlinci nitqimdə açıq və aşkar cavab verdim və dedim, bir hökumətdə ki, yazıya, danışığa ixtiyar verməyirlər, terrora dözmək olar. Və əvvəldə o dərəcəyə kimi ki, o terrorun qəsdi ümumi əhaliyə və insaniyyətə xidmət ola. Məsələn, o vaxt ki, Qafqazda terror camaatı və vilayəti qəddar və zalım hakimdən azad edirdi, o vaxt ki, paymal olunmuş hüquq və ixtiyaratı geri alırdı, bizim hamımız "belə terrora yardım ediniz"-deyirdik. Lakin bir az keçdikdən sonra terror bu dərəcəni keçib, bir ayrı rəng götürdü və ancaq bir tərəfin, bir partiyanın xeyrini güdməyə başladı. Qulluqçuları, camaat kişilərini qorxu ilə vadar etdi ki, öz insaf və ədalət yollarından dönüb, ancaq bir partiyaya və bir tərəfə yararlı iş görsünlər. Bu halətə davam və səbr etmək olmaz. Bu halətə əsla sülh ola bilməz. Məsələn, biz buraya cəm olub sülh üçün cürbəcür fikir və tədbirlər edirik. Bu fikirləri, bu tədbirləri əncama gətirmək vəzifəsini vilayət hakimlərinin boynunda olacaqdır.

Əgər bu hakimlər terrordan qorxsalar, əncama gətirə bilərlərmi? Əncama gətirsələr də həmişə terror gələn tərəfə tərəf saxlayıb digər tərəfi zülm və cəfa altında qoyacaqlar.

Aşkardır ki, bu biri tərəf də narazı qalıb həmişə düşmən və ədalətli olacaqdır. Və sülh də olmayacaqdır. Budur bizim mülahizələrimiz bu məsələni qaldırmaqda. Biz deyirik ki, əgər doğrudan doğruya sülh istəyirsiniz, başqa təşəbbüslərlə bərabər gərək terroru da götürəsiniz. Buna cavabında bizə deyirlər ki, siz daşnaksütyundan danışırsınız. Bizim əsla fikrimizdə daşnaksütyun yox idi. Biz deyirik ki, terror götürülsün.

Lakin ermənilərin xəyalına daşnaksütyun gəlir. Görünür ki, daşnaksütyunun bu terrorla əlaqəsi vardır. Lakin yenə təkrar edirəm ki, bizim daşnaksütyun ilə işimiz yoxdur. Yoxdur! Çünki keçən gün cənab Xatisov öz bəlağətli və fəsahətli çıxışında aşkar dedi ki, BU DAŞNAKSÜTYUN RUSİYANIN BÖYÜK ŞƏXSLƏRİNİN. GENERALLARININ VƏ HƏTTA QAFQAZ CANİŞİNİ HƏZRƏTLƏRİNİN FİKİR VƏ ƏQİDƏLƏRİNƏ QULLUQ EDİR VƏ ON BEŞ İLDİR Kİ, TƏŞKİL OLUNUB VƏ ONUN QOŞUNU, XƏZİNƏSİ, SOLDATI DA VARDIR. Biz müsəlman vəkilləri bunu eşidəndə təəccüb və heyrət barmağımızı dişimizə tutub öz-özümüzə fikir etdik: İndi ki, belədir, indi ki, bir müsəllah partiya on beş ildən bəri təşkil olunub və hökumət adamları bunu bilib də, nəinki əlac etməyir, bəlkə onunla həməqidədirlər, bizim istər hökumətdən, istər ermənilərdən belə partiyanın götürülməyini təmənna etməyimiz faydasızdır. Biz ancaq özümüz öz əlacımızı edək. Bizim də gərək mükəmməl və müsəllah partiyalarımız olsun. Bizim də gərək daşnaksütyunlarımız olsun. Bir hökumət ki, bir tərəfdən belə işlərə dözür, gərək o biri tərəfdən də dözə, yoxsa ki, hərc-mərc olar.

GENERAL-MALAMA:-Xeyr! Xeyr! Dövlət ciddi olaraq qət edib ki, belə partiyaların-istər daşnaksütyun, istər sair partiya olsun, aradan götürülməsi üçün ciddi tədbirlər görsün və həmin partiyaların hamısı puç olacaqdır.

Müsəlman vəkilləri: "Afərin! Afərin!".

KƏRBƏLAYI İSRAFİL HACIYEV:-Biz istəyirik ki, hökumət bizə açıq desin ki, gərək mümkündürmü bir səltənətdə başqa bir səltənət də olsun!

Mümkünmüdür tabe bir tayfa özü üçün partiyalar yaradıb qoşun hazır etsin?! Deyirlər ki, Fransada, İngiltərədə, belə dəstələr vardır. Əgər Rusiyada da mümkün isə bizə də xəbər versinlər və biz çıxaq gedək. Çünki BİZ BACARA BİLMƏRİK. BİR TƏRƏFDƏN RƏSMİ HÖKUMƏT VƏ BİR TƏRƏFDƏN DƏ BAŞQA BİR TAYFANIN FƏRMANINA, HÖKMÜNƏ İTAƏT EDƏK. ƏGƏR İŞ BELƏ İSƏ DESİNLƏR, BİZ DƏ ÇARƏ ARAYAQ.

ARTYUNOV:-Müsəlman vəkillərinin rəftarına nəzər yetirirəm, bizə hücum edib müttəhim edirlər. Biz isə müdafiə mövqeyində durmuşuq.

ƏDİL XAN ZİYADXANOV:-Biz heç kəsə hücum etmirik. Biz ancaq sülhü düşünüb doğru və açıq danışırıq.

GENERAL MALAMA:-Müzakirə bəsdir. Terror barəsində belə, qətnamə edək ki, hökumət ciddi təşəbbüs edib, torroru aradan götürsün və müsəlləh partiyaları dağıtsın.

Məclis bu qətnaməni səs çoxluğu ilə qəbul etdi.

Əlavə: Ermənilərin bu məclisə yığılmaqda məqsədləri sülh olmayıb, bəlkə hökumət məmurlarının yanında müsəlmanları sözlə məğlub edib, onlardan böyük xəsarətlər tələb etmək xəyalında idilər. Belə ki, general Malamanın hüzurunda xəsarətdən ötrü ermənilər çox səs-küy çıxardılar. Necə ki, Xatisov, Artyunov, Arakelyan səkkizinci məclisdə zərər barəsində bir çox nitqlər söylədilər. Hökumət isə belə işin, daha açıq ermənilərin bu xam xəyallarının mümkün olmadığını bilib dəfələrlə "biz keçmişə əl vurmaq istəmirik" söyləmişlər.

ERMƏNİLƏRİN SÜLH MƏCLİSİ HAQQINDA OLAN XƏYALLARI VƏ MÜSƏLMANLAR HAQQINDA OLAN TƏŞƏBBÜSLƏRİ BARƏSİNDƏ YAZILAN MƏQALƏLƏRDƏN BİR HİSSƏ

1906-cı il 12 fevral tarixdə Tiflisdə erməni dilində buraxılan "Arac" qəzetinin 2-ci nömrəsində dərc olunmuş bir məqaləni yuxarıda adları çəkilən ermənilərin sülh məclisinə başqa bir təmənna ilə gəlmələrinə sübut kimi verirəm. Budur həmin məqalə:

## "İCTİMAİ SÜLH VƏ SÜNNİ MÜSƏLMANLAR"

Bəlkə bir ildir ki, erməni-müsəlman qiylü-qalları davam edir, kəndləri, şəhərləri yandırıb viran edirlər. Kişilər, övrətlər və çoluq-çocuqlar qırılırlar. Acından ölürlər. Bir sağ vilayət, üç-dörd gen-bol quberniya yanıb cəhənnəmə bənzəyir.

Bu yerlərdə qanlı tufanlar gah böyük, gah xırda viranedici cərəyanlarını cari etməkdədir və indiyədək heç kəs bilməyir ki, bu illərin sonu haçan olacaq? Qan tökən, xanimanlar viran edən qurğu haçan dayanacaq? Bizim əziz vətənimizi cəhənnəmə döndərən qiylü-qalları haçan sakit edəcəklər?... Bu qanlı həqiqətləri, ah-naləni biz çox tez-tez eşidirik: "Barışıq! Barışıq!" Bu barışığı əmələ gətirən və gətirmək üçün hər iki düşmən öz ruhanilərinin və nəciblərinin çalışmağı ilə yığıncaqlar keçirib sülh komissiyaları yaradır və nida edirlər, çağırırlar, öpüşürlər. Lakin barışıq öpüşü çaxnaşma öpüşü olur. Təzədən tufan qopur. Təzədən silahların sədası gəlir. Günahsız şəhidlərin nalə və qışqırığı qanlı hadisələr öz cərəyanları ilə yeni-yeni ərazilərdə yayılmaqda, bu kənddən o kəndə, bu şəhərdən o şəhərə keçməkdə davam edir.

Bunlardan sonra, indi Qafqaz canişininin sərəncamı ilə təzədən komissiya yaradılır, bu təfavüt ilə ki, bu komissiya çox böyük və ümum-Qafqaza dair olacaq. Əlbəttə, aşkardır ki, bu komissiyanın sərəncamının əksinə bir söz demək mümkün deyil. Amma bu vaxtı ki, komissiyanı əmələ gətirən yollar dəyişir. O vaxt hər bir gözəl bina bütün nişanəsini və

binasını itirir. Bütün nişanələrdən və ətrafları tutan şərtlərdən görünür ki, bu gözlənən komissiyanın indiyədək olmuş komissiyalar ilə heç bir fərqi olmayacaqdır.

Əlalxüsus ki, müsəlmanların tərəfindən bu komissiyada yalnız müsəlman camaatı tərəfindən seçilmiş adamlar deyil, bəlkə şanlı başçılar, bəylər, xanlar, ağalar (??) və panislamist ideoloqlar da iştirak edəcəklər. O şəxslər ki, onların qoçaqlığı və çalışmağı ilə müsəlman hücumları baş verdi, bunların hamısından əlavə, bu məsələnin bir başqa səbəbi, bir əks tərəfi də vardır ki, hərgah dərindən fikir etsək, nəticəsi çox zərərli olar. Komissiyada ermənilərin və şiə müsəlmanların vəkillərindən savayı sünni (?) müsəlmanların da vəkilləri iştirak edəcəklər. Komissiyanın bu tövr təşkil olunmasının əksinə biz protest edirik və axı nə səbəbə ibtidadan təftiş olunmalı məsələyə elə bir forma verilibdir ki, guya erməni-müsəlman iğtişaşları əsl milli və dini düşmənçilikdən əmələ gəlib və ümumrusiya hərəkətlərinin bir hissəsi hesab olunmayır. Və guya bu iğtişaşların nəticəsi, yalnız ermənilər ilə müsəlmanlara təsir edir, nəinki ümumqafqaza, erməni-müsəlman hadisəsi baş verən torpaqlar inqilaba hərəkət edən Rusiyanın qoltuğunda bir müvəqqəti Vandəti (Vandət-Ehtimal ki, Vandeya nəzərdə tutulur. Fransada Atlantik okeanı sahilində yerləşən departamentin adıdır. XVIII əsrin axırları XIX əsrin əvvəllərində Vandeya mürtəce qiyamlarının mərkəzi olmuşdur. Bütün bunlar tarixdə Vandeya müharibələri adı ilə məşhurdur) təşkil ediblər və Vandəti sakit etmək üçün bütün tayfaların vəkillərini çox ixtiyarları ilə şuraya yığmaq mühüm idi. Böyük-nəinki bir-birinə düşmən olanları və habelə komissiyada böyük tayfaların-rusların və gürcülərin vəkilləri iştirak etməyirlər. Bundan sonra, bir sual da qabağa gəlir. Bu sünni müsəlmanlara nə üçün, nə səbəbə əziyyət olunur. Hərgah zənn edirlər ki, onlar da şiələr ilə bahəm necə ki, məhəmmədilər ermənilərlə düşməndirlər, bu zənn binasından səhvdir. Çünki sünni müsəlmanlar demək olar ki, həmişə və hər yerdə bitərəfanə qalıb şiələrin talançı hücumlarında iştirak etməyiblər.

Bəzi vaxtlar işə qarışıblarsa, da, onu da insaniyyət və ədalət hisslərinin səbəbinə edibdilər. Hərgah zənn edirlər ki, ermənilər bütün Qafqaz müsəlmanlarının əleyhinə davalar qaldırırlar; bu zənn də səhvdir və həqiqətdən uzaqdır. Ermənilər yüz illərlə qəlbində düşmənçilik məqsədi saxlayıb müsəlman xalqı ilə dirilik aparıbdır. Və indi də onlar ürək ağrısı ilə öz qonşularına yaraq qaldırırlar. O da məhz özlərini mühafizə etmək üçün. Ermənilər nəinki sünnilərlə, bəlkə şiələrin də sakitləri ilə dava etməyirlər və etmək də istəməyirlər. Dava edən erməni qüvvələri daşnaksütyun adlı inqilabçı erməni partiyalarının bayrağı altında həmişə

mötəbər barışıq üçün səy ediblər. Hər yerdə sözlə və işlə tayfaların mehriban olduğuna dair məqsədlərini təbliğ ediblər. Bunların hamısından sonra bir böyük ədalətsizlikdir ki, erməni vəkillərinə qabaq-qarşı gətirilib sünni müsəlmanları şiələrlə bərabər əyləşdirirlər. Hərgah onlar iştirak edəcəklər, necə ki, sülh verən münsiflər, o vaxt lazımdır ki, onlarla bir yerdə başqa qonşularımız-ruslar, gürcülər də olsunlar. Xeyr, hərgah onların iştirak etmələrinin o məsələ ilə əlaqəsi var ki, onlar da necə ki, məhəmmədi əleyhüssəlamlar ermənilərə düşməndirlər, o vaxt bu ehtimal necə ki, yuxarıda dedik, əsassızdır və düz deyil. Hərgah müsəlmanların intiriqaları həmişəki qaydaları ilə komissiyanı birhəm etməsələr, erməni vəkillərinə lazımdır ki, komissiyanın birinci məclisində bu böyük müxəlləfatı (nedarozumenie) nəzər və etibara alıb işıqlandırsınlar.

*İmzası: Y. T."*

## AĞRILI QATAR HADİSƏLƏRİ

1906-cı ilin 29 iyulunda Zəngəzurun beşinci sahəsində (məxsusi məktublardan iqtibas olunmuşdur) baş vermiş Qatar kəndinin faciələrindən bəhs edir.

İltibah, yaxud ibtida. Necə ki, oxucuya Şəbadək hadisələrinin əvvəllərində bu barədə geniş məlumat verilmişdir, yenə təkrar olaraq bir neçə kəlmə yazmağı lazım bilirəm. Məlum ola ki, ermənilərin beşinci sahəyə malik olmaları üçün erməni xəfiyyə cəmiyyəti bir çox arzularda bulunurdular. Məsələn, İrəvandan Naxçıvana qədər yol üstə yerləşən islam kəndlərini dağıtmaqla İrəvan ermənilərini Naxçıvanda hazır olan əsgəri qüvvələrlə birləşdirmək.

Naxçıvandan Zəngəzura kimi yol boyunda olan göyləri dağıdıb Zəngəzur könüllüləri ilə Naxçıvandakı əsgəri qüvvəni bitişdirmək kimi alçaq xəyallar.

Buna görə əvvəl beşinci sahənin açarı misalında olan Oxçu-Şəbadək kəndlərini dağıtmaq üçün Şuşadan məğlubiyyətə uğrayıb, Cavanşir və Cəbrayıla dağılmış əsgəri qüvvəni bərpa edib mis mədənlərilə məşhur Qatar kəndi yaxınlığındakı Barabatum, Çəkədək adlı erməni kəndlərinə yığılıb toplanmağa başlamışdılar. Bu əsgər yığımından erməni xəfiyyə cəmiyyətinin əsl məqsədi Qatarda yaşayan müsəlmanların mənəvi qüvvələrini pozub Oxçu-Şabadək faciələrində bulunmağa imkan verməmək idi. Halbuki, bu təşəbbüslərə iqdam etməkdən ötrü Mirzə Aram bəy adlı ermənini bu ətrafa yığılmış qüvvəyə başçı və komanda edib təşəbbüsə addım atması qəti əmri verilmişdi.

Aram bəyin təşəbbüsü. 1906-cı il 29 iyulda Mirzə Aram bəyin

fitvasıyla Ulxu elinin nücəba və bəyzadələrindən olan Camal bəy Qaraçəmən kəndinin sakini möhtərəm zati xidmətçisi Səfyar bəyi alış-veriş bəhanəsiylə mədən bazarına dəvət edirlər.

Zavallı Səfyar xəbərsiz olduğundan silahsız atına minərək Mədən bazarına gələrkən mədən bağlarında pusqu etmiş daşnaksütyun qatilləri tərəfindən vəhşicəsinə öldürülür. Bu xəbər yayılar-yayılmaz ətraf müsəlmanları hücum edib. Mədən bazarında bir nəfər erməni öldürüb, bir boş mis mədənini də yandırırlar.

Bu gurultular bir an içində Qapan dərəsinin bir-birinə yaxın olan kəndlərinə vəlvələ salıb hər tərəfdən erməni könüllüləri və erməni hərbi dəstələri hərəkət edib mədəndəki islam dükan-bazarını odlayıb yarım milyona qədər zərər vururlar. Malları qarət olunan məzlum Ordubad tacirləri Qatar kəndinə qaçırlar. O yerin faciəsi baş verdikdə, fərari halında Oxçu-Şəbadək enişlərinə gəlib çatan altı nəfərdən ibarət fərari dəstəsi ermənilər əlində qətl olurlar. İyul ayının 29-da Mədən bazarı dağıldıqdan sonra Karxana adlı kənd ermənilər tərəfindən nişanə alınıb atəş ilə döyülməyə başlandı.

Karxana xəbərləri. Mədən bazarı dağılandan sonra, 1906-cı il iyulun 29-da saat on iki radələrində Karxana kəndinə hücum edilir. Hər tərəfdən kəndi atəşə tuturlar. Karxana müsəlmanları ən fağır, ən kasıb və bu səbəbdən də tez atan silahları olmadığından kəndi bir neçə dəqiqə mühafizə etsələr də ermənilərin hər dəfədə beş min tüfəngdən açılan atəşlərinə tab gətirməyərək dağ-daşa, kolluqlara dağılmağa məcbur olurlar. Erməni camaatı daş diblərindən, kol aralarından müsəlmanları bir-bir tapıb əsir alır, yainki qətlə yetirirdilər. Bu vaxt bir daşın arxasında 30-a qədər övrət-uşaq və bir neçə hərbi silahını əldən vermiş kişi tayfası gizlənmişdilər. Bu pünhan olmuş övrətlərin arasında (Tahir adlı ordubadlı sahibi müharibədə vəfat etmişdi), Pakizə xanım adlanan cavan bir övrətin döşündə Firuzə adlı südəmər bir qızı var imiş. Məsum qız açılan güllələrin sədasından anasının döşündən dartınıb qeyri ixtiyar qorxudan ağlamaqda idi. Bu çocuğun ağlamaq sədasını ermənilər eşidib gəlib hamısını həlak edirlər, ehtimal ki, çocuğu orada olan kişilər ağlaya-ağlaya anasının qucağından alıb qətl etməklə (?) səsini kəsirlər. Karxana kəndindən bir o qədər can salamat qurtarmamışdı.

Beş kəndin dağılması. Karxana camaatının bütünlüklə qətlindən sonra ermənilər həmən gün saat üç radələrində aşağıda yazılmış kəndləri dağıtdılar. Dağılan kəndlər hərbə hazır olmadıqlarından kəndi müharibəsiz boşaltmışdılar.

Dağılan kəndlərimiz Lov, Xələc, Saldaşlı, İncəvar, Daşnov kəndlərindən

ibarətdir. Bu kəndlərin qılıncdan qalan müsəlmanları Qatar kəndinə pənah gətirdilər. Ermənilər onları təqib edib kəndi nişana aldılar ki, Qatar islamlarının cəngavər olduqlarından həmin gün ermənilərə sığınacaqlardan çıxmağa əsla meydan verilmədi.

Qatar müharibəsi. Avqust ayının 1-də saat 12 radələrində ermənilər hər tərəfdən Qatar kəndini mühasirəyə alıb atəşə tutdular. Bu halda mirovoy posrednik pristav Saxarov və bir neçə strajnik kənd içində hazır imişlər. Atışma hər saat şiddət edirdi. Şiddətli atəş vaxtı pristavın yanında olan Cəlil adlı bir ləzgi strajniki "cənab pristav, sizdə heç rəhm-mürüvvət yoxdurmu? Siz baxırsınız, islamları gülləbaran edirlər. Olmazmı ki, kəndin kənarında olan kazaklara buyurasan, islamları mühafizə etsinlər"-dedikdə "mən müsəlmanları mühafizə edə bilmərəm. Görmürsən ermənilər necə canalıcı güllə atırlar"-cavabını vermişdir. Ermənilər hər tərəfdən kəndi müharibə ilə viran etmək istəsələr də islamların qüvvəsindən xəbərdar olmadıqlarından cürət edib kəndə yaxınlaşa bilmirdilər. O səbəbdən pristav Saxarov ilə götür-qoy edib müsəlmanların qüvvəsini öyrənmək üçün Saxarovun razılıq və məsləhəti ilə 50 nəfər kazak və bir uryadnik göndərilir. Kazaklar kənd içinə varıb islamları əksəriyyətlə silahlı görüb "SİZ EVLƏRİNİZDƏ RAHAT OTURUNUZ, ERMƏNİLƏRİN GÜLLƏLƏRİNƏ QƏTİYYƏN CAVAB VERMƏYİNİZ. ƏLBƏTTƏ, HÖKUMƏT ÖZÜ SONRADAN ONLARI TƏNBİH EDİB CƏZALANDIRACAQDIR"-deməklə onları aldatmışdılar (1904-cü ildən indiyə qədər nəşr olunan islam qəzetlərinin hər guşəsinə baxdıqda kəndli islamlar hər tərəfdə pristavlar və uyezd naçalnikləri əlindən dad-fəryad etməkdədirlər. Belə ki, Qatar islamlarının da məğlubiyyətinə ümdə səbəb pristav Saxarov olmuşdur. Ümid ki, Saxarovun yuxarıda zikr etdiyi "mən müsəlmanları hifz edə bilmirəm, görmürsən ermənilər necə can alıcı güllə atırlar"-kəlmələri müsəlmanların xəyalından qiyamətə qədər çıxmayacaqdır.). Kazak əsgərləri kəndin hər tərəfinə yayılıb, islamların qüvvəsini öyrəndikdən sonra Saxarovun yanına qayıtdılar. Kazaklar gedən vaxt Qatar kəndinə dolmuş bəzi köçəri qəbilələrin rəisi Qatardan hökumət mühafizəsi ilə camaatını götürüb qaçmasını Saxarova sifariş etsə də, nəzərə alınmayıb. Saxarovun əqidəsincə, Qatarda qalıb qətl olmaları məqsədə daha müvafiq görünür. Kazaklar kənddə olan hazırlığı (Müharibə zamanında düşmən ordusuna qarşı duran bir əsgəri qüvvə nə qədər güclü, nə qədər tədarüklü olursa-olsun, bu qüvvəni bilincəyə qədər xəfif tüfəng atəşinə başlar. Düşmənin qarşısında bir gün axşama qədər müharibə edib axşamlar rahat olan bir qüvvədən gecə olanda kəşf qolları çıxarırlar. Yəni hər tərəfə ordunun qüvvəsinə baxmış əlli, ya artıq-əskik süvari dəstələri

göndərirlər ki, düşmənin hər tərəfini gəzib qüvvələrini yoxlasınlar. Bu tövr ilə düşmənin qüvvəsini bilərlər. Yaxud libasların dəyişmiş casuslar və yainki əsir düşmüş əsgərlər vasitəsilə düşmənin ətraf sipərlərdə olan qüvvəsini dəqiq öyrənib baş komandana teleqram yainki, məktublar vasitəsilə xəbər verirlər.

Böyük komandan isə düşmənin bu qüvvəsinə üstün gələcək qədər də əsgər göndərib düşmənin qüvvəli olan sipərlərinə qarşı yürüş icra edər və həmçinin düşmənin qüvvəsiz sipərləri qarşısında olan artıq əsgərləri edərləri də lazımi mövqelərə göndərib, müxtəsər böyük komandanına bir vəchlə lazımi göstərişlər verər. Qatar ermənilərinin də fikirləri bu qəbilədən imiş.) ermənilərə xəbər verəndən sonra, hər tərəfdən şiddətli hücuma başlanır. Bu hücumlarda pristav Saxarov mirovoy posredniki götürüb kazak dəstələrilə Barabatum adlanan erməni kəndinə çəkilir. Pristav kəndin bir yüksək təpəsinə çıxıb durbinlə hərb meydanını gözdən keçirən zaman "pəh, pəh ermənilər nə gözəl yürüşlər edirlər" söylədiyi yanında olan süvaridən eşidilmişdir. Əvvəlinci hücumlarda müsəlmanlar belə dəhşətli müharibələri görmədiklərindən müdafiəyə az-az iqdam etdilər. Digər tərəfdən erməni dəstələrində olan kəsrət müsəlmanları hər halda dəhşətə və qorxuya salırdı. Digər tərəfdən Qatarın hər səmti erməni kəndləri olduğundan hər tüfəngini götürən erməni könüllüsü 10 dəqiqədə hərb meydanına çata bilərdi. Həqiqətən Qatarın coğrafi-mövqeyinə baxılsa bu kənd islamlarının şücaət və igidlikləri tərifə layiqdir.

Qatar kəndi hər tərəfdən erməni köylülərilə əhatə olunduğundan bir tərəfə çıxmaq, yaxud yardım etmək yolu kəsilmişdi. Digər tərəfdən Mədən bazarında olan poçt kontorundan müsəlmanlara kömək olasıdır ki, onu da müharibədən qabaq Saxarov pristavın razılığı ilə yığışdırıb Barabatum adlı erməni kəndinə aparmışlar. Bundan məlum olur ki, Qatar camaatının hər tərəfdən ümidləri kəsilib mühasirə halında qalmışdılar. Qatar kəndində 9 gün bu növ ilə şiddətli atışma oldusa da, müsəlmanların rəşadət və şücaətləri sayəsində ermənilər kəndin işğalına müvəffəq ola bilmədilər. Qatar kəndinə hücum edən ermənilərin sayı (8000) səkkiz min nəfərə qədər olduğu axırıncı günlərdə müsəlmanlara yəqin olduğundan məzlum camaatın ümidləri büsbütün kəsilib məzlum qəlbləri də əksəriyyətilə parçalandı. Bu halı mülahizə edən camaat bir parça kağız yazdırıb iyirmi beş rüblə qasidə verməklə Zəngilan nücəba və bəylərindən yardım istəsələr də (Möhtərəm müxbirin dediyi kimi, Zəngilan tərəfindən heç olmazsa 20 süvari gəlib Barabatum adlı erməni kəndinin daşdan güllənbaran edib, erməniləri o tərəfə məşğul etsəydi, o halda Qatar müsəlmanları əl-ayağını yığışdırıb müharibə xəttini yarar, o tərəfə, bu tərəfə hücuma keçib bəlanı

dəf edərdi. Nə fayda ki, onlarda bir qeyrət görünmədi.) "bizdən sizə kömək olmaz, başınıza çarə qılınız"-ki, boş cavabını alınca islamların ruh düşkünlüyü bir az da artır.

Bunu da söyləməliyik ki, Qatar müharibəsində müsəlmanlara ümdə zərbələr Məlik Azaryansın mis mədənlərində işləyən iranlı müsəlman işçilərindən toxunurdu. Bu rəhmsizlər arxalarında neft, dinamit daşıyıb "ya Əli" qışqıra-qışqıra kənd içinə girdikdə müsəlmanlar "bizə sursat daşıyırlar"-deyə düşünüb onları kəndə buraxırdılar. Mürüvvətsiz iranlılar həmən nefti damlara vurub yandırdıqları kimi, dinamiti daş binalara taxıb havaya uçurdardılar.

Ayın doqquzuncu gecəsi, səkkizinci günün saat 12 radələrində ermənilər hər tərəfdən kəndə yaxınlaşıb işğal etmək istədikdə müsəlman könüllüləri də sığınacaqlardan çıxıb düşmən üzərinə atıldılar. Müsəlmanlar yəqin etmişdilər ki, kəndin işini bitirmək istəyirlər. Ona görə də ölümlərini yəqin edən islam cavanları "sipər dalında ölüncə düşmən qabağında ölmək yaxşıdır" deyib ürəkdən müharibəyə qoşulur, hər dəqiqə sığınacaqdan çıxıb erməniləri püskürdürdülər. Bu halət ilə axşama qədər müharibə davam etdi. Axşam alaqaranlıqda onlar hər tərəfdən mühafizə dəstələri buraxmaqla sığınacaqlarına və ordugahlarına çəkildilər. Bu vaxtda islamların dönük taleləri yavaş-yavaş özünü göstərir, islam könüllüləri arasında, nədənsə, bir soyuqluq, bir ittifaqsızlıq peyda olurdu. Olub da həmən gecə ümum-islam sığınacaqları, istehkamları boşlayıb kənd içində qəflət yuxusuna uydular. Hətta o gecə kəndin ətrafında əvvəlki kimi mühafizə də buraxılmadı. Bu səbəbdən ermənilər kəndin əhəmiyyətli mövqelərini gecə ikən aldılar. Bununla da Qatar kəndinin taleyi həll olundu.

Ermənilər kəndi elə əhatə etmişdilər ki, bir tərəfə doğru quş uçmağa boş məkan qalmamışdı (Xələc kəndində pünhan olub avqustun 9-cu gecəsi Qatara daxil olmaq istəmiş bir məzlum müsəlmanın mülahizəsi: Mədən bazarından keçib Qatar kəndinə çatdıqda mənə bir qəribə aləm nümayan oldu. Kəndin üstü bir duman, bir tüstü mücəssəm durmuşdu. Əsla bir tərəfdə çıraq işığı, ya od və yainki kibrit parıltısı da görünmürdü. O, halda heyvanatın, həşəratın, hətta insanların da sədası kəsilib kəndi o qaranlıq, o zülmanı gecədə müdhiş bir sükunət qaplamışdı. Ara-sıra qaranlığın içindən südəmər çocuqların ağlamasına oxşar bir səda eşidilib kənd əhlini əsasən oyaq olduğunu anladırdı. Gahdan bir ağlaşma, vidabazlıq cigərsuz ağlama sədaları gəlib məni özümdən bixəbər qoyurdu. Bu ağlamağın faciəli sədaları qaranlıq gecədə vaqe olan təbii bir sükunətdən hasil olan səs-küyə qarışıb dağlara qədər küdurət əks-sədası olurdu.

Kəndin ətrafında yerləşən silsilə dağlar bir yas məclisi kimi guya hər bucaqda minlərcə oğlu ölmüş validələr dizlərini qucub beylə nalə qılırdılar. Çox qulaq verdim isə də sabahın əsarətini hal-hazırda nəzərdə mücəssəm qalıb ağlaşan anaların ürək ağrıdan sədaları məni çaşdırıb qoydu. Mən bir təəccüb və heyrət, daha qorxu və dəhşətin keşməkeşilə biixtiyar gedirdim. Nərələrə? Bilmədim! Ancaq mən gedirdimsə də, qorxu və hürkü məni könlümə qədər təqib edirdi. Nagah, mühafizəsiz buraxılmış olan müsəlman istehkamlarına təsadüf etdim. İndi də boş su qabları, boş patron qabları bir-biri üstə tökülmüşdü. Bu halda, səngərin daşlarından çıxan barıt qoxuları dimağımı alışdırıb qoyurdu. Uzaqdan ermənilərin kəndi işğal üçün hücumlarını görüncə dağlar ilə Kəllədağ kəndinə qaçmağa başladım).

Sübhə bir saat qalmış ermənilər fövqəladə bir şəkildə kəndi atəşə tutdular. Bu müharibədə Barabatumda olan kazak dəstələri də ermənilərə kömək edirmişlər. Bu axırıncı müharibədə də ermənilər müharibəni başlamaqla qüvvələrini dörd tərəfə bölüb yürüşlər icra etdilər. Hər dəstənin qabağında bir qədər İran fəhləsi açıq-açığa neft və dinamit daşıyan damlara od vurmaq istəyirdilər (Qəribə gələsi bir söz var isə o da İran fəhlələrinin hər yerdə erməni əlində qətl olub yenə hər yerdə ermənilərə kömək etməsidir. Bəli! "Düşməni-dana beh az dusti-nadan" söyləyən şairin ruhu şad! (Tərcüməsi: "Ağıllı düşmən, ağılsız dostan yaxşıdır"-B. Ə.). Bu müharibədə məğlubiyyətin gözü qabağına gətirən Qatar camaatı şanlı müvəffəqiyyətlər qazandılar. Belə ki, ermənilərin dəstələri hər saatda pərişan olub arxalarındakı ehtiyat əsgərləri ilə qüvvətləndirilirdi. Bu vaxtda ermənilər tələfatın çoxluğuna baxmayaraq ayaq üstü yürüşlər edib kəndin qarşısında və içində olan müsəlmanlarla döyüşə girişirdilər. Kəndin içində qanlı müharibə başlanıb erməni və müsəlman bir-birlərinin üzərinə xəncər və tüfəng işlətdilər. Kəndin içində də ermənilərin ikrah doğuran hərbi alətləri bir-birinə dəyməsindən yaranan şıqqıltılar müsəlman könüllülərinin "Ya Allah! Ya Allah" sədaları, damların üstündən müharibəyə baxan anaların fəğanı bir-birinə qarışıb kənddə bir qiyamət qoparmışdı, gəl görəsən. Tüfənglərdən səmaya qalxan tüstülər atların və piyada əsgərlərin yürüşündən əmələ gələn qanlı tozu, yandırılan evlərin dumanları zavallı kəndin üstündə bəla buludları kimi mücəssəm durmuşdu. Bu buludların altında birisi milli istəyinə çatmaq hərisliyi ilə gözü qızmış, digəri isə əziz canından keçmiş millətlər bir-birinə qarışıb bahar yağmurunun yerə çırpıb yerdən qaldırdığı, bir-birilə baş-ayaq qalxıb düşmən qətrələri kimi bir-biri ilə çırpışmada idilər. Sübhdən axşama kimi qanlı müharibə oldu. Erməni-müsəlman bir-birinə qarışıb müharibə etdilər. Kənd büsbütün

yanıb qurtarsa da, müsəlmanlar kənddən çıxmadılar. "Hər halda çıxıb səhralarda çır-çılpaq avara gəzincə, baba yurdunda ölüb qalmaq səadətdir"-deyib müharibə edirdilər. Ermənilər axşama yaxın bomba atmağa başlayıb müsəlmanları qorxutdularsa da, dam-daşlara xəsarət verib, amma müsəlmanları kənddən çıxarıb qovmağa müvəffəq olmadılar. Axşam alaqaranlıqda ermənilər gedəndən sonra kənddə qalmağın qeyri-mümkün olduğunu qət edən camaat əhli-əyalını götürüb Kəllədağ kəndinə yollandılar.

Hadisələrin icmalı. Bu Qatar müharibəsini təşkil edən erməni başçısı Aram bəy olub müsəlmana bir çox zərərlər vurdular. Müharibə 1906-cı il 29 iyulda başlayıb avqust ayının 9-da xitam bulmuşdu. Bu müharibədə ermənilərə açıq-açığa İran fəhlələri yardım edirdilər. İran fəhləsinin rəisləri Qaradağ ölkəsində Astamal kəndinin sakini Süleyman adlı bir nəfər ermənilərə çox kömək etmişdir. Kənd büsbütün yandısa da, müsəlmanlar kənddən çıxmadılar. Ermənilər kənd dağılandan sonra qayıdıb Oxçu-Şəbadək müharibəsinə başladılar.

## ZƏNGƏZURDA OXÇU-ŞƏBADƏK, YAXUD QAPAN DƏRƏSİ HADİSƏLƏRİNƏ DAİR

Erməni xəfiyyə cəmiyyətlərinin Gəncə quberniyasındakı siyasət meydanı ancaq Şuşa şəhəri ola bilərdi. Zira, erməni xəfiyyə cəmiyyətləri Şuşa şəhərində müsəlmanlara müxtəlif zülmlər edərək əziyyət verir, islam köylülərinə görünməmiş cəfalar, insaniyyətə yaraşmayan vəhşiliklərlə əzablar yağdırmaqda idilər. Elə-belə hərəkətlər çox baş veribdir. İnsaniyyətin ən əvvəlinci şərti səbr olduğunu düşünən islamlar belə işlərə qonşuluğun məhəbbətli münasibətinin pozulmaması nöqteyi-nəzərindən baxmaqda idilər. Ermənilər isə "Böyük Rusiya inqilabı söndü, biz işləri sona çatdıra bilmədik" deyərək Şuşada necə olursa-olsun islamları hərbə çağırırdılar.

İslam camaatı ermənilərin əyri xəyalda olub şəhərin bir sıra nöqtələrində qovğa qoparacaqlarını görüncə qabağa çıxdılar. Çıxıb da şücaət və igidliyi qanında olan Şuşa camaatı erməniləri cəzalandırmaqdan əsla çəkinmədilər.

Açıq-açığa ermənilər məğlub oldular. Hər tərəfə gizli bir halda məğlubiyyət teleqramları vuruldu. Erməni xəfiyyə cəmiyyəti siyasətbazları da pərişan bir hala düşdülər. İşi belə görüb Zəngəzura üz tutub əsgər toplamaq üçün Hayıstana-İrəvan, Abaran, Aleksandropol diyarına əmrnamələr göndərildi. Açıq-açığa Zəngəzuru əsgəri ləvazimat və hərbə dair planlar göndərilirdi. Zəngəzurda gözlənilən müharibələrə ermənilər mümkün qədər ləvazimat daşımaq üçün Şuşa şəhərini münasib saymırdılar. Çünki o ətrafda ermənilərin məğlubiyyətindən sonra ora odlu silah göndərmək asan məsələ deyildi.

Buna görə İrəvandan əsgər və sair ləvazimat gətirmək üçün ermənilər ən son nəfəsə qədər çalışmaqda idilər.

Zira, bu vaxtlar İrəvandan yol boyunca Zəngəzura qədər erməni nüfuzu bir az icra olacaq kimi idi. Bunları mülahizə edən erməni başçıları İrəvandan Zəngəzura qədər yol üstlərində yerləşən islam köylərinə təzyiq göstərmək üçün erməni əsgər komandalarına qəti əmr verməkdə idilər. Bundan sonra İrəvandan Zəngəzura bir qalibiyyət yolu açmağa təşəbbüs edilib, yol üstlərində, dağ keçidlərində olan kəndlərə zülm əli uzanmağa başlandı. Bir çox kəndlər dağıdıldı, bir çox evlər yıxıldı.

Xanlıqlar, İtqıranlar darmadağın olaraq Naxçıvan mahalı, Cəhri qəsəbəsi faciəsi qəflətən baş verdi. Və burada hökumət qoşunu ilə ermənilərin əlbir olmaları aşkara çıxdı. Digər tərəfdən dağ keçidlərindən Zəngəzura aşmaq üçün Dirlis, Unus, Pəzməri adlı islam köylərini dağıda bilməyərək onları yalnız mənəvi sarsıntıya məruz qoydular.

Yuxarıda adı çəkilən köylərin terrorundan sonra Zəngəzuru bir nişana almış məqamında duran Oxçu, Şabadək, Purdavud, Atqız köyləri ermənilərin həyati-milliyyətlərini dəhşətə salmağa (terrora) başlamış idi. Zira, Oxçu və ətraf köylərin islamları ən cəsur, ən şücaətli adamlar olduğundan əlavə bir-birinə bağlı köylərin camaatı islamın ən müqəddəs əsəri olan ittifaq üzrə yaşamaqda idilər.

Demək olar ki, bu köylər Zəngəzur ölkəsinin açarı sayılırdı. Bunların hamısını ermənilər öz casusları və mühəndisləri vasitəsilə müayinə ilə tədqiq etdikdən sonra bu köyləri alıb dağıdacaq dərəcədə hərbi qüvvə toplamağa girişmişdilər. Ermənilərin Qapan dərəsində toplanmış qüvvəsi müharibəni başlamaqla gedişi haqqında ardıcıl olaraq məlumat verirdi. İrəvandan açılmış erməni haqqında qələbə yolu ilə gətirilmiş könüllülərdən başqa Aleksandropol, İrəvan, Abaran, Şuragül ölkələrinin nizami alayları çağırılıb Ağulis, Kəlaği, Dəmqurt adlı erməni köylərində müharibəni intizarən manevralar edilirdi. Digər tərəfdən, Şuşada məğlub edilib Ağdam ətrafında yığılmış müntəzəm erməni əsgərlərinin hərbi ehtiyacları təkmil edilib mənəvi qüvvəsi sarsıdılmış könüllülər dəyişdirilərək mis mədəni olan Qatar tərəfə göndərilirdi ki, orada olan islamların hissiyyat və candan keçməyə hazır olan təxəyyülatını cəlb edərək Oxçuya kömək halından düşürsün (Bu əhvalata Qatar hadisələrində geniş yer verilmişdir). Bu Şuşa əsgərləri iyul ayının 20-də mədən ətrafına yığılıb Aram bəy Nehrəmov adlı erməni komandanına tapşırılır. Bunlardan məlum olur ki, erməni əsgərləri iki mühüm nöqtəyə toplaşmışlar. Birisi mis mədəni ətrafına, digəri Ordubadın dörd-beş verstliyində yerləşən Ağulis və ətraf erməni köylərinə. 1906-cı il avqust ayının 4-də Ağulis ordusunun baş

komandanı olan Aşota İrəvandan, olduğu kəndlərdən hərəkət edərək Oxçu-Şəbadəkin qonşuluğunda olan Panuslu, Girdikan köylərində toplaşmaq əmri məktub vasitəsilə verilir. Həmən ayın 7-də Ağulis ordusu Panusluda toplanır. Qatarda mədən ətrafında toplaşmış ordunun komandanlığına həmən Panusluda toplanmaq əmri Şuşa mərkəzi komandanlığından verilsə də Qatar müharibəsi təhlükəli hal aldığından Panuslu kəndinə ancaq ayın 8-də çata bilir. Hər iki ordu bir yerə toplaşınca hərbə dair olan əksəri ehtiyacları təkmil edərək, 1906-cı il avqust ayının doqquzunda adı çəkilən dörd islam köylərinin xalqı bixəbər olduqları halda köylər ermənilər tərəfindən nişana alınaraq daşların təpəsində istehkamlar qurulmağa başlanır.

Oxucu-Şəbadək vuruşları, yaxud hərb meydanı. 1906-cı il avqust ayının 9-da dörd islam köyünün camaatı öz kənd təsərrüfat işləri ilə məşğul olduqları vaxt dağların təpəsində istehkamlar qurmaqla məşğul olan əsgərləri görürlər, ancaq onların erməni olduqlarını bilmirlər. Camaat arasında cürbəcür fikirlər yarandığından məsələni öyrənmək üçün bir neçə yerə adamlar göndərilir. Nümayəndələr qaraltının qarşısında yüksək təpələr başına hərbi bayraqlar sancıldığını görüb “hökumət qoşunudur”-deyib ehtiyatsız halda yollarına davam edirlər. Bir güllə məsafəsinə yaxınlaşar-yaxınlaşmaz ermənilərin qabaq qurğularından üstlərinə atəş açılır. Atəş əsnasında istehkam quranların erməni olduğunu bilib hər kəs öz evinə qaçır, ən köhnə üsuldan olan silahlarıyla silahlanıb düşməni qarşılamağa çıxırlar.

Ermənilər isə ən müasir silahlarla silahlandıqlarından, bir də müsəlmanlar, əsasən, meşəlikdə əkinçiliklə məşğul olduğundan, kəndi yaxşı mühafizəyə qadir deyildilər. Buna görə də ən əhəmiyyətli mövqeləri düşmən tutur. Az-çox kənddə hazır olan kişi tayfalarını isə qadınların nalə və fəryadı çaşbaş qoyurdu. Digər tərəfdən heyvan bağırtısından başqa bir səs eşitməyən balalar, xırda çocuqlar müharibənin ən şiddətli vaxtında düşmən mövqelərindən çalınan şeypurların ürək parçalayan sədasından validələrinin məməsindən dartınıb beşiklərdən qiyamət gününü xatırladan bir səda ilə aləmi doldururdular. Yağmur kimi hər iki tərəfdən açılan güllələrin şırıltısından hərbi musiqinin canalan sədasından köylərin çocuqları və heyvanatı bir-birinə dəyişmişdi, sanki bu zavallı köylərdə İsrafil şeypuru çalınmış kimi insanlar bir-birinə qarışmışdılar.

Erməni mauzerlərindən çıxan atəşlərin şaqqıltısı, müsəlman könüllülərinin ayaq üstü erməni səngərlərinə qışqıra-qışqıra hücum etmək sədaları Oxçu-Şəbadək dağlar silsiləsinə əks edərək yüksək qayaların zirvələrindən gurultudan başqa bir səda eşidilməzdi. Bu halda ümum

ermәni sәngәrlәrindәn aramsız atәş açılırdı. Bundan әlavә, müsәlmanların tәrәfindәn açılan güllәlәrin hәdәfә dәymәdiyindәn ermәnilәr cürәtli halda ara-sıra qurğularından xuruc (Xuruc-müdafiә halında olan әsgәrlәr münasib bildikdә sipәr, yәni sәngәr dalından çıxıb düşmәnin üzәrinә atılmasına deyilir) halına girişmәkdә idilәr. Müsәlman könüllülәri isә ermәnilәrin şiddәtli atәşinin tәsirinә baxmayaraq hәr halda irәliyә yürüş etmәkdә idilәr.

İslamların bu igidlik vә mәtanәtini görüncә ermәni sәngәrlәrindәn bir neçә cәhәnnәm makinası buraxılıb dörd köyün müsәlmanlarını son dәrәcә sarsıtsalar da әsgәrә komanda edәn möhtәrәm kәslәrin nәsihәtlәri, ruh verәn tәşviqatı sayәsindә islam әsgәrlәrinin ara-sıra ziyan dәymiş mәnәvi qüvvәlәri güclәndirilib anbaan düşmәn qarşısına irәli aparılırdı. Böyük vә dәhşәtli hadisә әsnasında müsәlmanlar әtraf köylәrә kömәk üçün adamlar göndәrsәlәr dә, bütün keçidlәr ermәni әlindә olduğundan bir nәfәr dә olsa, kömәk üçün hәrәkәt edә bilmәmişdir. O sәbәbdәndir ki, Oxçu islamları tәk tәnha dörd gün tam müqavimәtlә müharibә etdikdәn sonra ermәnilәr mәğlub olub, o әtrafda yerlәşәn Gicәlan adlı ermәni köyünә çәkilib istehkam qurmaqla hәrbә girişirdilәr. Müsәlmanlar ermәnilәrin qaçdıqlarını duyub tәqib halında Gicәlan kәndindә qanlı bir müharibә başlanır. Bir gün axşama qәdәr qanlı müharibәdә ermәnilәr mәğlub edilib hәrb meydanı-Gicәlan kәndi dağıdılır.

Oxçunun aqibәti, yaxud islamların mәğlubiyyәti. 1906. 14 avqust. 1906-cı il 13 avqustda xitam bulmuş Gicәlan müharibәsindә ermәnilәr çox pis vәziyyәtә düşmüşdülәr. Ermәni komandaları müharibәnin ikinci günü, yәni hәmin ayın 11-dә tәhlükәni görüncә, Qatarda buraxılmış ehtiyat әsgәrlәrini hәrb meydanına apararaq, bunlardan әlavә әtraf ermәni köylәrinә adamlar göndәrib imkan olduğu qәdәr könüllü әsgәr tәlәb etmәkdә idilәr. Buna görә ayın on dördündә adları aşağıda qeyd edilmiş göylәrdәn ermәnilәrә kömәk gәlmәkdә idi. Lәyc, Tәşqin, Vәng, Karlur, Meğri, Әsәdazur, Qırçıvan, Әkәrәk, Bәhrvar, Ucanabus, Qurasәn, hamısı beşinci sahәdәn. Ğabürc, Çәmәn, Bux köylәrindәn. Üçüncü sahәdәn-Oxadüz, Raxdaxana, Noraşen, Xotanan, Üsәrәng, Sahadur, Çin, Mәlәk, Çit köylәrindәn. Ermәnilәrin bu toplu qüvvәsi ayın on dördündә Panuslu,Girdәkan vә bir dә Gicәlan köyünün әtrafına mövqe tutaraq gecәynәn Oxçu-Şәbadәk dağlarını işğal edirlәr. Dörd gün әrzindә baş verәn döyüşlәrdә son dәrәcәdә yorğun düşәn islam könüllülәri Molla Hәsәn Әfәndinin evinә yığılıb hәrbi, yaxud hәrbә başlamamış geri çәkilmәni müzakirәyә qoydular. Camaat tәrәfindәn bir çox nitqlәr söylәndi. Hәtta övrәt tayfalarından pәrdә dalında oturmuş olduqları halda bir çox yanğılı

sözlər deyilirdi. Bir çox adamlar hərbə üstünlük verib, bir çox adamlar müharibəsiz geri çəkilməni məsləhət sanırdılar. Ən axırda kəndlərin imamı olan şəhidi-səid Molla Həsən Əfəndi əsasına söykənərək nitqi söylədi. Biz isə həman nitqi islahən tariximizin üslubuna müvafiq bir dilə çevirdik.

-Camaat! Dörd tərəfimizdə vaqe olan yüksək qayalara on dörd gecəlik nurlu ayın ən sevimli, ən dilrüba ziyası sərilmişdir.

Bu ziyalıların qarşısında meşələrimizin ağacları kimi titrək və hərəkətdə olan qaraltıların hamısı ermənilərin müdafiə təpəsinə sancılmış hərbi bayraqlardır. Diqqət ilə baxınız!

Ətrafımızdan çəkilmiş, evlərimizi nişana da almış, o hasara bənzəyən qaraltı erməni dəstələri və Hayıstan vəhşiləridir ki, sabah bu vaxtda bizim evlərimizə od vuracaqlar. Oğlanlarım, müharibəni tərk etsək, hərbə girişsək də yenə həlakətimiz dəqiqədir. Bizim övrətlərimizin, cocuqlarımızın barəsində ermənilərin qəlbində zərrə qədər də mərhəmət yoxdur, zənnindəyəm. Bu gecə göylərin mühafizəsinə diqqət ediniz. Sabah olcaq ermənilər hücum edəcəklər. Siz isə hücuma qadir deyilsiniz, ancaq müdafiə halında qalarsınız. Son dərəcəyə qədər çalışınız, məğlubiyyəti hiss edincə hamınız birdən qaçmayasınız. Zira o halda düşmən sizi təqib edər. Bir çox tələfat verər. Əlbəttə, qaçış zamanı işə yarayan və bacarıqlı cavanlardan bir dəstə dümdar (Mərhum Molla Həsən Əfəndinin nitqində diqqətə layiq bir çox sözlər olduğu kimi, dümdar kəlməsi də mərhumun bir qüvvəli və bir çox müharibələrdə olmuş bir komandan olduğunu bildirir. Zira, dümdar təbir olunan gəlmə ordu komandanlıqlarında olan hərb elminin ən xeyirli bir nöqtəsidir. Bir ordu qaçmağa məcbur olursa qaçma vaxtı dümdar buraxır ki, düşməni məşğul edib düşmənə heç bir qənimət qoymayıb ordunu geri çəkə bilsin. Ordu geri çəkiləndən sonra dümdar dəxi birdən çəkilib düşməni ona xeyirli təqibdən məhrum qoyar) (quyruq) buraxaraq arxadan ailələrinizi götürüb meşəyə-dağ ətəklərinə pənah apararsınız.

Molla Həsən Əfəndinin müraciəti bu yerə yetişəndə camaat arasından və övrətlər içindən yanıqlı bir fəqan naləsi ucaldı. Yenə Molla Əfəndi sözünə davam etdi:

-Camaat! Ağlamaq, övrətlər ilə səs-səsə verib növhə və zarı başlamaq heç bir fayda verməz. Ancaq kişinin mənəvi qüvvəsini tükədib düşmənin qabağına əli-qolu qurumuş bir süstlük içində qoyar. İndi götürünüz silahlarınızı, nəzərdən keçiriniz!-deyib sözə fatehə çəkib yenə Quran oxumağa məşğul oldu.

Bu sözlərdən sonra camaat tüfənglərini sayıb bir neçə berdanka

tüfəng və kifayət qədər olmayan bir neçə yüz də patron qalmışdı. Yerdə qalan tüfənglərin çoxu dörd gün fasiləsiz davam edən atışmada sıradan çıxmışdı. Tədarükün tükəndiyini görən camatın mənəvi qüvvələri bütünlüklə xarab olur, övladının əlindən tutan Pürdavud kəndinin yuxarı səmtində qiblə ilə qarşı olan Saqqarsuya daşınırlar. Saqqarsuyun ətrafında daşların arxasını sığınacaq edirlər. Ağlaşma səsi daşların təpəsindən ermənilərin sığınacaqlarında-səngərlərində əks-səda verirdi. Molla Həsən Əfəndi də öz ailəsilə Saqqarsuya çəkilir. Kəndlərin içində qalan ancaq dünya malına həris olanlar, bir də qaçmağa halı olmayan və sahibləri evdə olmayıb, yaxud qocalıqdan gözləri işıqdan məhrum qadın tayfaları idilər ki, sübh olacaq hamısı qətl olunub, kənd içində bir-birinin üstünə tökülmüşdülər.

Ağrılı Saqqarsu hadisələri. Saqqarsuda sığınaq etmiş müsəlman camaatının başı üstündən sübh çağı bir dəstə "ya Əli, ya Əli" fəryadlarıyla müsəlmanlara sarı gəldiyindən avam və çaşmış müsəlmanlar "bu gələn qoşun islam qoşunudur" deyə güman edib ağlaya-ağlaya onların qarşısına çıxırlar. Gələn dəstə isə ermənilər imiş, müsəlmanları qırıb kəsməyə başlayırlar. Bu vaxtda dörd islam köylərində də qırğın baş verdiyindən Saqqarsuyun başına qədər fəryad, nalə sədasının müsibətli şəkildə əks etdiyini qaçıb Ordubada, gəlmiş kənd əhli olduğu kimi nağıl edirdi. Saqqarsuda sığınaq etmiş camaat qırılıb, qaçıb qurtardıqdan sonra Molla Həsən Əfəndinin başında, yanında bir çox övrət Quran əlində ermənilərin qabağına çıxıb, Quran xatiri üçün rəhm istəyib ağlasalar da, Quran, bəlkə İncili mübarəki də tanımayan qansızlar hamısını vəhşiliklə öldürürlər. Molla Həsən Əfəndinin yanından götürülmüş bir neçə müqəddəs kitabları və Quranları odlayıb məşəl kimi süngülər ucuna taxılmaq kimi bədayinliklər də ermənilərdən alçaq bir surutdə əncama yetmişdi. Sağ qalan islam və islamələr qarlar içində, xəstə-xəstə yolunu itirmiş qoyun sürüsü kimi bir çox dolandıqdan sonra çır-çılpaq Ordubada və mahal köylərinə pənah aparmışdılar. Ordubad camaatı isə son dərəcə qonaqpərvər olduqlarından, xüsusən başları belə müsibət çəkmiş bu adamlara xüsusi qayğı göstərdilər.

Oxçu fəlakət qurbanlarının Ordubad şəhərindəki halları. Oxçu-Şəbadək fəlakət qurbanlarının Ordubad şəhərinə ağlaya-ağlaya pənah gətirməsi şəhər camaatına çox qəmli təsir göstərdi. Camaatın istirahəti üçün məxsusi yerlər, məkanlar ayrılıb. Müsibət qurbanlarına qalması üçün otaqlar verdilər. Ən əvvəl yaralılar üçün cərrah və dava hazır edib, müalicəsinə başlanıldı. Onlara imkan daxilində əmanət olaraq evlərdən ev əşyaları da verilib gündən-günə rahatlanmış bir hala təbdil edilirdilər. Bunlardan sonra, onların adından hökumətə bir gündə yüzə qədər ərizə və teleqramlar göndərildi. Xudavəndi-aləmin qüdrətindən sərvəti və

dövləti bol olan bu kiçik şəhərdə bir günün içində onların əsas ehtiyaclarına əncam verilib, ancaq sonra dağlarda qalan camatın halına yetişmək, şəhərə gətirmək və yaralıları dağda bağlayıb huşa gətirəndən sonra şəhərə endirmək, ölənləri dəfn etmək kimi müxtəlif işlər üçün təşəbbüslər görülür, şəhər və mahal camaatından mükəmməl bir dəstə təşkil edilib cərrahi işlər üçün kafi miqdarınca götürüb, azuqə və yaralı daşımaq üçün minik heyvanları hazır edib, ölənləri dəfn üçün kəfən və sair ləvazimat və bir neçə çadır tədarük edib 1906-cı il avqust ayının 16-da axşam zamanı dəstələr olduğu yerlərindən məqsədləri istiqamətində hərəkət edirlər.

Ordubadlıların Qapan dərəsinə əvvəlinci səfərləri. Qapan dərəsi Oxçu-Şəbadək hərb meydanına göndərilmək üçün ayın 16-da Nügədi adlı islam köyündə gündüz saat səkkizdə cəm olub Ordubaddan səfər ləvazimatı yetişənə qədər kənddə qalıb 12 radələrində səfər ləvazimatı yetişib, əlahiddə minik ilə Ayı çanqılı adlı uca dağa göndərilmək üçün təhvil verilir. Saat ikidə səfər ləvazimatı lazımi yerinə bir dəstə mühafizəçiylə hərəkət etdikdə müsafirlər də bir neçə saat istirahət üçün yuxarıda adı çəkilən köydə dayanacaq edirlər. İstirahətdən sonra axşam saat səkkizdə kəşf qolları buraxıb yola çıxırlar. Bu dəstə 1906-cı il 17 avqust gündüz saat dörd radələrində Saqqarsuya yetişib, əvvəlcədən miniklər və bir dəstə mühafizəçiylə göndərilmiş çadırları qurulmuş və isidilmiş görüncə dəstələr razılıq ilə bir neçə dəqiqə istirahətdən sonra, daha aram tutmayaraq ətrafı dolanıb o yaxınlıqda baş vermiş ümumi qətli mülahizə etməyə başladılar. Bu vaxta axşama saat yarım qalmışdı. Hər tərəfə baxırdın qar ilə yağış bərabərlikdə yağıb, hər tərəfdən yeyin bir hal ilə bir-birinə toxunan küləklər çadırların mıxlarını yerdən qalxızıb insanların üzünə çırpırdı (Bu əhvalat müxbirlərin dilindən və yazısından eşidilməyib. Fəqət eyni həqiqət ilə baxılıb təhlil edildikdən sonra bu tarixə yazılmışdır. Oxçu-Şəbadək hadisələrini kifayət qədər yazmaq bir çox vaxt və belə tarixə möhtacdır. Buna görə də bu qədər məlumat verməklə kifayətlənirik). Get-gedə şiddətlə yağan sulu qarı peydərpey əsən küləklər tüfəng saçması kimi adamın üzünə çırpırdı.

O elə şiddətli bir hal əmələ gətirmişdi ki, nə oturmaq, nə də bir yerə getmək mümkün deyildi. Qapan dərəsinin şiddətli küləkləri Şəbadək dağlarının zirvələrində toplar kimi guruldayıb hər saatda qarşımızda qardan yüksək təpələr ucaldırdı. Yarım saat içində hava dörd-beş rəngə düşürdü. Ordubaddan uca dağa qədər yaralıların sayı-hesabı yoxdusa da yaraları bağlandıqdan sonra şəhərə göndərilirdi.

Havanın pisliyinə baxmayaraq bir neçə bələdçi götürüb ətrafı öyrənmək üçün əzm edildi. Saqqarsuyun ətrafında bir qan çalası

göründüyündən o tərəfə gedildi. Soyuğun şiddətindən qanın üzü buz bağlamışdı. Bununla belə daşın bir tərəfindən damcı-damcı qan sızırdı. Bu halı gördükdə camaatı böyük bir təəccüb və heyrət içində buraxırdı. Daşın arasında 62 nəfər övrət və uşaq cənazəsi bir-biri üstə qalaq-qalaq tökülmüşdü. Bu halı görən camaat çox ağlayıb çadırlarda olan camaata da xəbər verdilər. Camaat övrətlərin bu halını mülahizə üçün bir yerə yığılıb çox ağladılar. Az sonra qadın cəsədlərinin arasından bir sızıltı eşidildi. Çox diqqət ilə baxdıqdan sonra iki qıçlarından yaralanıb bihuş düşmüş bir övrətin həyat ilə ölüm arasındakı ağır halından nümayan olan bir ah-zarın vücudu meydana çıxdı. Zavallı bacı çadırımıza gətiriləndən sonra huşa gəldi. Ağlar ikən bu sözləri söylədi:

"Molla Həsən Əfəndinin yanında olan biz övrət tayfaları o mərhumun doğrandığını görüb qaçaraq bu daşın arasına pənah gətirdik. Molla Həsən Əfəndinin işini qurtarandan sonra bir dəstə erməni yetişib bu qətl olmuşları bu hala qoydu. Mənim də bədənimin yarısı eşikdə qalmışdı. Zira, daşın içində camaat çox olduğundan mənim bədənimə yer olmamışdı. Ona görə bir neçə erməni yetişib mənim çöldə qalan qıçlarımı doğramağa başladı. Bu halda bir erməni sahib-mənsəbi əlində qılınc yetişib məni öldürməyə mane oldu (?) və bu sözləri mənə söyləyib keçdi:

-Bizim Qafqazda müsəlmanlarla müharibəmiz vardır. Fəqət, bu müharibələr sünni camaatıyla olmayıb, şiələr ilədir. Ancaq, siz sünni camaatının başına gələn bu qədər vəziyyətlər Osmanlıda Osmanlı sultanının ermənilərin başına gətirdiyi müsibətlər xatiri üçün əmələ gəlir. Bu qırğının cümləsini Osmanlı tərəfindən bilməlisiniz. Siz övrətlərə nə qədər cəfalar edilsə, Osmanlıda Sasun, Zeytun, Van diyarlarında hökumət cəfasından islamların əsarəti altına düşüb islam məzhəbini qəbul edən erməni xanımlarının yarı mükafatı da olmayıbdır".

Məzkur övrəti yaranın şiddətli olduğundan şəhərə yox, Pəzməri adlanan islam köyünə göndərildi. Həmən gecəni Saqqarsuda sabah eylədik.

Ayın 18-də sübh zamanı namazından sonra camaatın sığınaq etdiyi meşəyə girdik. Bir az getdikdən sonra 25 yaşlarında bir övrət, bir də cavan oğlan cənazəsi göründü. Bələdçinin rəvayətindən, zövc və mövcəsi imiş ki, bir yerdə doğranmışlar. Buradan köçərək Molla Həsən Əfəndinin şəhadətgahına yaxınlaşdıq. Bədəni, canamazı və s. müqəddəs əşyaları yandırılmışdı. Həsən Əfəndinin qətl yerindən bir az şimala qarşı bir palas parçası göründüsə də, camaatı büsbütün ağlatdı. Zira, palası kənar etdikdə 15 nəfər üzlərində çiçək, yəni abilə əlaməti sönməmiş körpə cocuqların kəsilmiş başları və bir para bir-birinə qarışmış bədənlər

göründü. Cənub səmtdə həddən artıq övrət-uşaq bədənləri tökülmüşdü. Küləyin şiddətindən yüksək təpələrdə olan qarlar yığılıb cənazələrin üstə tökülmüşdü. Amma, yenə bədənlərində son nəfəsi olan qətl olmuş bacıların qətrələnən məzlum qanlarından qarlar uzaqdan bahar laləlari kimi qızarıb, insanı özünə cəlb edirdi. Bunları dəfn etmək üçün daş-torpaq mümkün olmadığından, meşənin yarpaqları və budaqlar ilə dəfn edildilər. Sığınaqdan aşağı tərəfə gedib Pürdavud kəndinə daxil olduq. Ən əvvəl İmam Rza həzrətlərinin möhtərəm qardaşı Sultan Davud həzrətlərinin ziyarəti üçün rövzəsinə tərəf yollandıq. Rövzədən yalnız bir quru günbəzdən başqa heç nə qalmayıb. Bütün əşyası yandırılmışdı. Bələdçinin rəvayətinə görə, quranları bir-bir odlayıb pəncərələrdən eşiyə atırlarmış. Avropaya mədəniyyət dərsi vermək iddiasında olan ermənilər burada bir sıra təəssüblər də izhar etmişdilər. Belə ki, İstambuldan 1901-ci ildə Molla Həsən Əfəndiyə hədiyyə göndərilmiş bir nüsxə, dünya məşhurlarının təsviri ki, var imiş, Həsən Əfəndi rövzəyə vəqf etmiş idi.

Ermənilər məhz o nüsxədə həzrəti-Məhəmməd əleyhüssəlam və həzrəti-Ömər rəziyüllah (Həzrəti-Məhəmməd əleyhüssəlam və həzrəti-Ömər rəziyullah-həzrəti-Məhəmməd-ona salam olsun və həzrəti-Ömər-Allah ondan razı olsun) xatiri üçün həmən nüsxəni də yandırmışdılar. Müxtəsər, ziyarətdən sonra soyuğun şiddətindən Pürdavudda tab gətirə bilməyib Oxçu kəndinə keçdik. Üzümə açılan bu qəmli mənzərədən nə qədər yazılsa, yenə də qurtarmaz, zənnindəyəm.

Kəndin kənarına baxırdım. Saya-hesaba gəlməyən heyvan bədənləri bir-birinin üstünə tökülüb, birisi ölmüş, birisi əl-ayaq çalır: birisinin qarnı eşiyə tökülüb, insanı çaşdırıb qoyurdu. Hər nəzər baxdıqda Makedon müharibə meydanı. Ryaoyan (Lyaoyan yaxınlığında olan müharibə-1904-cü il rus-yapon müharibəsində olan Lyaoyan döyüşü nəzərdə tutulur. Bu döyüşdə rus ordusu məğlub olmuşdu. (Ətraflı məlumat üçün bax: S. İ. Ə. c. 8 səh. 868-870).Yaxınlıqdaolan qanlı təpələr misalında hər ağıl sahibini bihuş qoyurdu. Yaxud Türkiyə ilə Yunanıstan arasında, Velistan müharibə meydanında yunanlıların bir-biri üstünə təpələr kimi qalaqlanmış bədənləri insanın nəzərində canlanırdı. Bir tərəfdə dağlar ətəyində üzlərində abilə əlamətləri olan balalar, sanki qanlı daşlar üzərində qırmızı bələkli beşiyə çəkilmişlər.

Bir tərəfdə bir imarətin hələ də tüstüsü kəsilməmiş olduğundan ora tərəf gedib bir cavan bədəni tapdıq. Cəsədin baş tərəfində parça-parça olmuş bir yaşlı qoca övrət bədəni vardı. Bələdçilərin dediklərinə görə, bu cavan oğlan müharibə vaxtı yaralandığından anası qoyub getməmiş, bu səbəbdən də oğlunun yanında doğranmışdır. Biz Oxçu kəndinə varid

olduğumuz vaxt ermənilər ölənlərini daşıyıb Panuslu, Girdəkan köylərinə aparmaqda idilər.

Erməni cənazələrinin vaxtında aparılmayıb bu qədər yubanması məhz soyuğun şiddət kəsb etməsindən imiş. Oxçu çayının kənarında iki nəfər erməni cənazəsi olduğunu bizə xəbər verdilər. Həmən saatda, hansı vilayət camaatı olduqlarından bir əlamət bilmək üçün cənazələrə baxmaq üçün o tərəfə getdik.

Ermənilərin birisi 30 ya 25 yaşlarında bir cavan olub, ikincisi 50 ya 45 yaşlarında idi. Əvvəlincisindən bir parça qana bulaşmış kağız, o birisindən də bir dəstə paketsiz kağız tapıldı. O kağızın birisi-başı rusca olaraq Meqri kəndində Vaçiyans vasitəsilə Hadrut Daşnaksütyun partiyasında Saakyansa yetişməli imiş. Kağızın tərcüməsi bu sözlərdən ibarət idi:

"Sevgili oğlum! Bu günlərdə kiçik qardaşın və Eçmiyəzdin üçüncü daşnaksütyun partiyasına yazılıb, Osmanlı daxilindən göndərildi. Təlaşınızı millət uğrunda bir dəqiqə əsirgəməyiniz! Millət uğrunda vurduğunuz qılıncların hər birisi bir dəstə gül olub Türkiyədə Ermənistan yolunda can verən mücahidlərin məzarına sancılır. Ananız naxoş olmuşdu. Sizin salamat xəbər... (məktubun burasını qan zay etdiyindən oxunmadı) Sonra kağız bu kəlmələrlə oxunmağa başlandı). ...Əlbəttə, hazırki ayın iyirmisindən yerbəyer ediləcəkdir. Bacınız Oskuyey iki cocuq birdən doğdu. Millətimiz yolunda bunlar da iki əsgər hesab edilməlidir".

Kağız yazılar Zeytun vilayətindən. İmza yerində T.Q.Əzizyan, İkinci kağız yazılmışdır. İranda Qaradağın Sərdov köyündən, Hadrutda Qarapet Vartanyansa yetişcək imiş. Ünvan budur: "Bu kağız yazılır Qarapet Vartanyansın məhəbbətlisi Varvar tərəfindən. Bu gün Nerses Təbrizdən gəldi.

Məhəmməd Əli Mirzənin Şah tərəfindən aldığı hökm üzərinə ermənilərə etdiyi məhəbbəti gözəlcə nağıl eyləyir. İranın havası bu günlər ermənilərə çox müsaidəlidir.

Nersesin deməyinə görə, İran müsəlmanları Qafqaz işlərindən bitərəfdir. Belə məlum olur ki, bu tərəfdə olan xanların da qədim xəyalı qalmamışdır. Evdə azuqəmiz çox artıqdır. Heç nigaran qalmayasınız. Amma bu qədər var ki, soyuq şiddət etməmiş qayıdasınız! Əlbəttə, Şuşa səmtinə getməyəsiniz.

Bizim qonşu kəndlərin camatından Şuşada bir çox adamlar tələf olmuşdur...

*İmza: Varvar."*

Oxçu kəndini gəzdikdən sonra Şəbadək, Atqız köylərinə keçdik.

Tələfatın çoxu Atqız kəndindədir. Camaatını dəfn etmək meşə yarpaqları ilə mümkün oldu.

Nədənsə ermənilərdən bizə qarşı bir əziyyət edilmədi. Mal zərəri bir milyon qədərindədir. Bu kəndlərin müharibəsi 1906-cı il doqquz avqustda başlanıb 15 avqustda başa çatmışdır.

Müsəlmanların tələfatı 200-ə qədərdir. Nüfuz dəftərləri olmadığından tələfat dürüst təyin edilmədi. İyun ayının əvvəlindən başlamış avqust ayının axırına qədər Zəngəzurda bu kəndlər dağılmışdır ki, hamısı və burada olan hadisələr haqqında, yeri düşdükcə məlumat verilmişdir.

Xələc, Karxana, Qatar, İncəvar, Çöllü, Yeməzli, Saldaşlı, Mollalar, Batuman, Oxçu, Şəbadək, Atqız, Pürdavud, Zürul, Guman, İyilli, Sənalı, Minənəvur, Fərcan, Qalaboynu, Əcəbli, Buğacıq. Bunların hamısı islam köyləridir ki, ermənilər tərəfindən talan edilmişdir.

Ordubadlıların ikinci Oxçu-Şəbadək səfərləri və müharibə xəbərləri. Oxçu-Şəbadəyin fəlakət qurbanları Ordubad və mahal kəndlərinə dağıldıqlarından camaatda böyük bir həyəcan əmələ gəlmişdi. Belə ki, şəhər camaatı bir gündə hər iki quberniyanın general-qubernatorlarına 100-ə qədər teleqramlar vurub müsibətzədələrin hallarını bəyan etdilər. Bu qədər bir-biri ardınca vurulan teleqramdan sonra şəhərə bir rota draqun süvarisi gəlib general-qubernatorun hökmünə əsasən camaatı bir yerə yığıb mühafizə altında məkanlarına; yəni dağılmış köylərinə apardılar. Saqqarsuyu aşar-aşmaz ermənilər tərəfindən bir neçə güllə atılıb süvarilərin gözü qabağında iki nəfər müsəlmanı qətl etmişdilər.

Bu barədə rota əfsərləri öz naçalniklərinə teleqram etdikləri kimi bütün Qafqaz qəzetlərində oxunurdu. Bu tərz ilə hər kəs gizlin, ya aşkar, öz doğma yurdlarına, köylərinə getdikdə güllələrlə geri qayıtmağa məcbur edilirdilər. Necə ki, Oxçu hadisələrinin əvvəlində ərz və təqdim edilmişdi, ermənilər öz siyasətlərinə əsasən Oxçu-Şəbadəkə malik olduqlarından komitələri tərəfindən bu kəndləri bir də müsəlmanlara qaytarmamaq üçün qəti əmr almışdılar. Digər tərəfdən, müharibədə yorğun düşən erməni əsgərlərini azad edib yerlərinə yeni əsgəri qüvvələr göndərmişdilər. Zira, ermənilər Oxçu-Şəbadək üstündə yenə müharibə olacağını yəqin etmişdilər. Ermənilərin əsas qorxusu Sultanov və Cavanşir bəylərindən idi. Onlardan isə milli bir hərəkət, islami bir oyanış görmədiklərindən arxayın olub, Xaçının imarətlərini dağıdır, əkinlərini biçib yaxın köylərə daşıyırdılar.

Bütün ətrafın erməni əlinə keçdiyi aydın olduğundan Oxçunun şəhərə tökülmüş bikəsləri şəhər camatının ürəklərini parçalayırdı. Xüsusilə qabaqda qış olduğundan şəhərdə sakin olmuş o qədər camaata vüsət

verəcək isti otaqlar lazım olduğundan və əlavə erməni-müsəlman hadisəsi münasibətilə Qarabağ ilə şəhərin əlaqəsi kəsildiyindən, camaatın və şəhərin ticarət işləri çox tənəzzül etmişdi. O qədər ac-susuz adamı yedirəcək dərəcədə camaatda azuqə yox idi. Bir tərəfdən də dağ kəndlərində-yanacağın bol mahalında pərvəriş tapmış camaatı putu bir manata kömür almaqla qızdırmaq, rahat etmək çox müşkül məsələ idi. Digər tərəfdən az-çox qaramalı-qoyunu olan oxçuların şəhərdə mal saxlaması çox çətindi. Zira, şəhər yerində bir o qədər qaramalı yerləşdirəcək tövlə və yurd olmadığından əlavə, yem və ot şəhər yerində son dərəcə az olduğundan qışda hər nə qədər ki, qaramal var idi, hamısının qırılacağı yəqin idi.

Bunlara görə camaatın bir parası vətənlərinə getmək üçün nəhayət dərəcədə biixtiyar olmuşdular. Və bu barədə şəhər camatına bir təşəbbüs üçün daimən yalvarmaqda idilər. Bütün bunlarla bərabər şəhər camatı gündən-günə onlara məhəbbəti artırıb getməklərinə razı olmadıqları üçün, hər kəsin iki otağı var isə də, birisini qonağa vermişdi. Ancaq burasını da deməliyik ki, Oxçu camaatının vətənlərinə təbii məhəbbətləri gündən-günə daha da artmaqda idi.

Oxçu camaatının belə səbrsiz hərarətlərinə qarşı şəhər və mahal camaatı arasında müxtəlif fikirlər yarandığından ümumi bir şuraya təşəbbüs edildi. Bir neçə şura olandan sonra camaatı necə olursa-olsun öz yerlərində sakin etdirməyə qərar verildi. Çox saylı şuraların nəticəsi olaraq ən əvvəl Oxçu və sair fəlakətzədə köylərin camaatına səfərə və vətənlərinə qayıtmaq üçün tədarük görmələri xəbər verildi. Zira, camaatın bir parasının qaramalı və qoyunları vardı. Digər tərəfdən erməni xəfiyyə cəmiyyətlərinin Oxçu-Şəbadək ölkəsini tutmaq üçün milli hərisliyi artmaqda idi. Və bu hərislik də şəhər camaatının oxçuları vətənlərində sakin etdirmək kimi Allaha xoş gedən bir fikrinə gündən-günə çətinlik törədirdi.

Bunların hamısından sonra Ordubad və mahal camaatı bir an da olsa öz fikirlərindən daşınmayıb anbaan, dəqiqə-dəqiqə tədbirlər aramaqda idilər. Oxçuları yerlərində sakin etdirmək üçün əvvəlcə hökuməti vasitə eləmək istəsələr də o zamanlar Zəngəzur iğtişaşının şiddətli hal kəsb etməsi və böyük Rusiya inqilabının ən təlatümlü bir vaxtına təsadüf etdiyindən hökumətdə o qədər güc yox idi ki, ermənilərin islah və cəzasına girişsin. Bu qarışıq vəziyyəti nəzərə aldıqda camatın öz qüdrət və şücaəti ilə iş görmək lazım gəlirdi. Odur ki, Ordubad camaatı ermənilərin tənbih və cəzasını öz öhdələrinə götürüb ifasına çalışmaqda idilər ki, Panuslu, Girdəkan ermənilərini yerlərində oturtmaq üçün səfər tədarükünə başlamağa qərar verildi.

Panuslu, Girdəkan hərb meydanına gedən ordunun səfər üçün

yığılması, yaxud səfər planı. Bir tayfa, yaxud bir millət müharibə məcburiyyətində qalırsa, ən əvvəl hərb meydanının coğrafi mövqeyinə görə səfər planı tutur. Bu məntəqənin mövqeyi nəzərə alındıqdan sonra ən əvvəl məlum məntəqəni hədəfə almaq qüvvətinə qadir olacaq bir əsgəri qüvvənin cəm olması və göndərilməsi üçün qeyrət edilir. Bunları öyrəndikdən sonra bu əsgəri qüvvənin haradan çağırıb, harada toplanacağı üçün müəyyən bir vaxt təyin edilir. Əmgərin hərbi ləvazimatı da əsgəri silah almasından əvvəl toplanacağı yerə, yaxud hərb olacağı mövqedə bulunan qonşu kəndlərə daşıyıb məxsusi artellər idarəsinə tapşırılır.

Bunlara əsasən Ordubaddan Panuslu-Girdəkan hərb meydanına göndərilən əsgərin hərbi ləvazimatı müharibə baş verməzdən dörd gün əvvəl Saqqarsuya lazımi vaxtında göndərmək üçün yaxın islam köylərində toplanmışdı. Əsgərlər də olduğu yerlərdən hərəkət edib 1906-cı il sentyabr ayının 15-də Saqqarsuda toplanmaq əmrini aldıqdan sonra bu gün saat on iki radələrində Saqqarsu başında uca dağa toplanmış idilər. Həmin gün axşama qədər ordunu təşkil etməklə yanaşı ətrafa kəşf qolları da göndərildi. Axşama kimi Saqqarsuda toplanmış könüllü əsgərin miqdarı 800 sürətli atan silahlarla silahlanmış cavanlardan başqa, min nəfərə yaxın Oxçu-Şəbadək camaatı və sair öz xərcilə gəlmiş və çağırılmamış gələn könüllü camaatdan ibarət idi. Əsgərlərin sayı 1800 nəfərdi. Sentyabrın 15-də gecə saat yeddidə Saqqarsuya toplanmış camaat arasında hərbi şura məşvərət edib bura cəm olmuş əsgəri qüvvə ordu komandanı adlanan bir zatın komandası altına verilir. Ordu komandanı tərəfindən isə bölük komandanı adı ilə üç komandan təyin edilib hər birisinə 100 nəfər olmaq şərti ilə nizami əsgər tapşırılır. Bu gecədə baş komandanlıqdan hərbə dair lazımi göstərişlər tərtib olunub bölük komandanlarına tapşırılır.

Bölük komandanlarına gəldikdə əsgərlər arasında onbaşı adıyla 10 nəfər möhtərəm şəxsə hərbə dair baş komandanlıqdan verilmiş layihəni təqdim edir. Gecə saat 9 radələrində əvvəlinci bölük kəşf qolu çıxarmaqla Saqqarsudan hərəkət edib Şəbadək kəndinin başından aşıb dağılmış Atqız kəndindən keçərək dağlar ətəkləriylə Girdəkan kəndinin aşağı tərəfinə göndərildi. Bunlara ayın 16-da sübhə bir saat qalmış müharibəyə girişmək üçün qəti əmr verildi. Bunların arxasından ehtiyat olaraq əlli nəfər atlı dəstəsi də göndərildi. Saat 10-da ikinci bölük Saqqarsudan hərəkət edib Pürdavud kəndinin içindən keçib Oxçu yolu ilə gedib Panuslu kəndinin qarşısında və üst tərəfində istehkam qurmaqla məşğul olmaq, sübhə bir saat qalmış müharibəyə girişmək tapşırığını aldı. Bu ehtiyat əsgərindən daima Girdəkan ehtiyat əsgəriylə rabitədə bulunmaq üçün xüsusi atlılar təyin edildilər. Üçüncü bölük saat on ikidə hərəkət edib

Saqqarsudan uca dağdan başlamış xəritədə göstərilmiş Lec və Təştin dağlar silsiləsini nişana alıb Meğri və sair erməni köylərindən köməyə gələn ermənilərin yollarını kəsmək və lazım gələrsə, müharibəyə qoşulması üçün onlara lazımi göstərişlər verildi. Bunlara dəxi ehtiyat olaraq camaatdan 5 yüz nəfər könüllü ayrıldı.

Bu bölüklərin hərəkətindən sonra baş komandan tərəfindən ümumi qərargah olan Saqqarsudan hərəkət etməklə Şəbadək kəndindən bir qol-ordu (korpus) təşkil etmək üçün saat birdə bir zatın komandasına 150 süvari, iki yüz piyada könüllü əsgər verilib göndərilir. Əlli nəfər nizami əsgər dəxi bu göndərilmiş üç bölüyün arasında məlumat əldə etmək üçün təyin edildikdən sonra, iki yüz Oxçu-Şəbadək camaatından əsgəri mövqelərə azuqə və hərbi sursat daşımaq üçün göndərilir. Bu əsgərlərin hamısına hərbi tapşırıqlar veriləndən sonra baş komandan yenə ümumi qərargaha-Saqqarsuya qayıdır. Girdəkan və Panuslu bölüklərinə yardımda bulunmaq əmri baş komandan tərəfindən saat üç radələrində Şəbadəkdə yerləşən qol ordu (korpus) komandanlığına yetişir. Və 25 süvari əsgər bölüklər arasında poçta olaraq hərbi xəbərləri qol-ordu komandanlığı vasitəsilə ümumi qərərgaha yetirmək üçün hökm sadir olur. Göndərilmiş bölüklər saat üç radələrində tapşırılan təpələri və bir sıra zirvələri tutub istehkam düzəltməklə məşğul və hər bölük kəşf qolları çıxarıb Panuslu və Girdəkan kəndlərindən məlumat almaqla sübhə bir saat qalmış müharibəyə başlayırlar.

1906-cı il 16 sentyabr. Bu gün sübhə bir saat qalmış Girdəkan kəndini nişana götürmək tapşırığı almış bölük komandanlığının döyüş əmri ilə kəndi kəmali-şiddətlə atəşə tuturlar. Bu bölük müharibəyə başladıqdan dörd-beş dəqiqə sonra Panuslu yaxınlığında olan bölük də davaya qoşulur. Bu iki erməni kəndində erməni qoşunu çox olduğundan müharibə başlar-başlamaz kəndin kənarlarındakı istehkamlara dolub oradan islam əsgərlərini atəşə tuturlar. Müsəlman səngərlərindən şeypur-balaban çalındığı əsnada erməni kəndləri elə bir sükuta qərq olmuşdular ki, bu kəndlərdə insan olması ehtimalı belə edilməzdi. Ancaq erməni kəndinin kənarlarında olan mövqelərdən aramsız açılan güllələrin səsi eşidilirdi. Bu qayda ilə dörd saat şiddətli müharibə edildikdən sonra bir dəstə erməni hücuma keçib islam əsgərinin hərəkət xəttinə girib Girdəkan və Panusluda olan bölüklərin rabitəsini kəsməyə təşəbbüs etdilərsə də, komandanlıqdan Atqız kəndində ehtiyatda saxlanan bir dəstənin hücumuyla dəf edilir. Beş saat şiddətli müharibədə həştad nəfər tüfəng götürmüş erməni əsgərləri həlak olur.

Ermənilərin müqavimətə malik belə sabit qüvvələrinin olduğunu

müsəlman bölük komandanları götüy-qoy edincə, onlar ehtiyat əsgərlərini də hərbə çağırıb saat 10 radələrində qanlı bir müharibə başlanır. Bu müharibədə islam əsgərləri ayağa durub erməni mövqelərinə yürüş edirlər. Ermənilər isə məğlub olaraq evlərə və kilsəyə girir, lakin tam şiddətlə müharibəni davam etdirirlər. Müsəlman əsgərləri isə yavaş-yavaş kəndlərə yaxınlaşırlar. Bu vaxt bölük komandanlığı tərəfindən kilsəyə güllə atmaq qadağan edilir. Fəqət, kilsə müşahidəyə alınır. Saat on ikiyə qədər şiddətlə keçən müharibədə ermənilər məğlub olur, müsəlmanlar kəndləri azad edirlər. Saat bir radələrində Gığı dərəsinə getmiş birinci bölüyün kəşf qolları beş yüz nəfər hökumət qoşunu gəldiyini bölük komandanına xəbər verir. Bu xəbəri alar-almaz birinci bölük heyəti işarət şeypurlarıyla geri çağrılıb ikinci bölüyə qoşulur. Bu vaxt birinci, ikinci bölüyün ovçu əsgərləri kəndlərin kənarından bir neçə evi odlamaqda idilər. Ümumi qərargahdan onların geri çağrılması üçün bölük komandanlarına əmrlər verilir.

Zira, Teştin tərəfindəki müdafiə qoşunundan Zəngəzur uyezd-naçalnikinin beş yüz kazakla gəldiyi xəbər verilmişdi. Bu vaxt hər iki kəndin darmadağın olmasına çox az qalmışdı. Hər tərəfdən tərk etmə xəbərləri verilib, əsgərlər ümumi qərargah olan Saqqarsuya qayıdırlar. Bir saat keçmiş hər iki tərəfdən gələn hökumət qoşunu kəndlərə yetişir. Bu işlərin hamısı ümumi qərargahdan durbinlə müayinə edilirdi.

Ayın 17-də sübh zamanı hər kəs Saqqarsudan hərəkət edərək öz evinə qayıdır, Oxçu-Şəbadək camaatı dəxi hökumət qoşununun gəldiyindən öz dağılmış köylərində sakin olurlar.

Oxçuluların kəndlərinə qayıtmaları. 1906-cı il 16 sentyabrda Panuslu-Girdəkan ermənilərini müsəlmanlar məğlub etdiklərindən o tərəf erməniləri də əvvəlki hərisliklərindən əl çəkib oxçululara əziyyət vermək fikrindən tamamilə əl götürürlər. Hökumətin də başı ayılıb o tərəflərə kazak və mühafizə qoşunu qoyduğundan camaat bir az rahat buraxılmışdı. Erməni xəfiyyə cəmiyyəti siyasətin baş tutmadığını gördükdən sonra Oxçu-Şəbadəyə sahib olmaq hərisliyindən əl çəkdilər. Zira, onlara Panuslu-Girdəkan müharibəsində yetişən məğlubiyyət bir intibah sırğası kimi qulaqlarından asılmışdı. Ona görə Oxçu-Şəbadək camaatı evlərinə daşınıb, dörd-beş evin camaatı bir otağa yığılıb ətrafdan gələn ianə və ehsanlar ilə gün keçirməyə başladılar. Ordubad və mahal camaatının da bu dərəcədə olan qeyrətləri milli səhifələrimizə qızılı qələm ilə qırmızı bir xətt çəkib onu bəzədi və qiymətə mindirdi. Allah onları hər iki cahanda xoşbəxt buyursun. Amin!

# İKI ÇOCUĞUN AVROPAYA SƏYAHƏTİ

1907-ci sənəyi-miladi oktyabr ayının 22-sinə təsadüf edirdi. Bu gün Tehranda ikmali-təhsil edərək "Darülfünuni-Nasiriyyə"dən şəhadətnamə əxz ilə Ordubad şəhərinə qayıtmağımın beş sənəsi tamam olurdu. Bu münasibətlə məsləkdaşım Salman bəy şəhər qiraətxanasında bir ziyafət, bir yadigaranə güşad edərək (təşkil edərək) Səidlərini minnətdar buyurmuşdular.

Filhəqiqə (həqiqətən) qiraətxana zalında icma edən (toplaşan) gənclər yüz nəfəri mütəcaviz idisə, məslək və əqidəcə yekdil-yekxəyal daha açıq müsavat aləmində, yaxud ömür içində ən qiymətli bir ömür etməyə başlamışdıq. Saat 12-yə yaxın ixvanıma (qardaşlarıma) çay və qəhvə təqdim edilib, bədə (sonra) Tehranda müqim, darülfünunda bir yerdə oxuduğumuz yoldaşlarımdan bu günün münasibəti ilə çəkilən teleqrafnamələri Salman bəy tərəfindən oxunmağa başlandı.

Ən əvvəl kiçik qardaşım Mirzə Məmmədhüseyn xan Tehrani, İsfəndiyar xan Şirazi və sairlərin müfəssəl teleqrafları oxunub, kafəsinin haqqında yoldaşlarım tərəfindən lazımı təşəkkür və rizaməndi yazıldı.

Bu arada məktəb yoldaşlarımın təsviri-maarifməndləri qarşımızda ramkalarda olduğundan təsvirlərə və Səidə xitabən nazikanə və ədibanə tərzdə nitqlər oxunurdu. İctimaya çay və şirni daxil olaraq ruhpərvər və dilnavaz müsahibə və mübahisə dərmiyan olurdu. Mən isə keçmişin xatirəsi ilə oynayaraq dodaqlarımdan beş sənəki işlər, yəni çocuqluq sözləri, darülfünun xatirələri tökülürdü. Özva (vəziyyət) dəyişilib elmi və fənni (texniki) söhbətlər dərmiyan olurdusa da, mənim dilimdə "Mirzə Məmmədhüseyn xan" ismindən başqa söz görünməyirdi.

Gah-gah "Ah, çocuqluğun qiymətli günləri, nə tez keçdin?!" kəlməsi dodaqlarımdan tökülüb, hazirunu (hazır olanları) bir əlahiddə nəşə, bir başqa fərəhə sövq edirdi.

Filvaqe (həqiqətən) mənim üçün bu saatlar nə qədər qəmnak və müəlləmsə (kədərliidisə) də, hazır olanlara dəxi böyük seyrgah imiş.

Zamani-halda şəhər qiraətxanasındasa yenə keçmiş ilə iştiğal edib, soyuq-soyuq ahlar çəkməkdə idim. Keçmişin təcəssüsü ilə gözlərim qiraətxananın nizamnamələrindəsə də, "Darülfünuni-Nasiriyyə"dəyəm.

Müəllimim Qurbanəli xanın, yainki müsio "Dandulo"nun sualına cavab olaraq divardakı xəritədən qitələri göstərmək istərəm hesab edirdim.

Qarşımda olan yoldaşlarımın rəsmləri gözümdə elə bir təcəssüm edirdi ki, darülfünunda sandaliyyələr üstə çocuqlar ilə olan mübahisəyi-elmiyyələr də qəlbimdən keçirdi. Yoldaşlarım anbaan sərfi-şirni edirdilərsə də, mən

mazinin (keçmişin) bəxtiyar günlərini, darülfünun xatirələrini acı-acı aqular kimi hiss edib dərxatir edirdim (xatırlayırdım). Daha doğrusu, rəfiqlərimin müfariqəti (ayrı düşməsi) üçün gözlərimdən yaş tökmək, ağlamaq istəyirdim.

Bu aralıqda Rzayevin fabrikası başına qoyulmuş böyük saat uca səs ilə saat ikini çalmaqda idi ki, qiraətxananın xadimi də sərasimə (həyəcanlı) qapıları açıb içəri daxil oldu. Damağıma Tehran darülfünunu, Mirzə Məmmədhüseyn xanın ətirli havası toxundu. Zənnimcə, on səkkiz günlük uzaq məsafədə olan Tehran bələdəsi ilə (şəhəri ilə) Araz çayı kənarında gain zindani-cəhalət olan Ordubad şəhəri bir-birinə müttəsil oldu. Bu vaxt poçta xadimi Mirzə Məmmədhüseyn xandan sifarişli olaraq bir məktub gətirdi. Filhal (dərhal) hissiyyati-hazirəm digərgün olduğundan məktubu açmaq istəmədimsə də hazır olanların xahişi üzünə məktubun açılmasına məcbur oldum. Amma özümdə keçmişin xatirəsi ilə bir gəlugirlik hasil olduğundan məktubu rəfiqim Salman bəyə verib oxumasını təvəqqe etdim.

Məktubun eyni-surətidir:

Ordubad şəhərində bəradərim Məmməd Səidə!

4 oktyabr 1907-sənəyi-miladi.

Mehriban yoldaş! Bu gün darülfünundan qurtardığımızın beşinci sənəsinə 18 gün qalmışdır. Sənənin başında bu münasibət ilə Tehranda olan yoldaşların məiyyətində bir yadigaranə ziyafət güşad edib, indi yaxın yerlərdə olan məktəb yoldaşlarıma ziyafət üçün dəvətnamələr göndəririk. Sizin hazır olmağınızı nə qədər istəyiriksə də, qeyri-mümkündür.

Bəli, mümkünsüzdür. Bəli, iki saat bundan müqəddəm (əvvəl) İsfəndiyar xan da Şirazdan Tehrana varid olub. Yanımda hazırdır. Bu saat da kağızı poçta salıb ikimiz də "Topxana" meydanı tamaşasına getməliyik.

Şah Əbdüləzim mövqifində bizimlə vida edib Ordubada yollandığınız vaxtda alınmış fotoqrafınız da yanımızda hazırdır. Rəsminizdən ətrinizi alırıq. Amma bir böyük təfavüt vardır. O isə 21 yaşınızda alınmış rəsminizdir ki, indi 26 sinninə (yaşına) çatıbsınız.

Məktəbdə, o darülürfani-alidə keçirdiyimiz günlərin, daha o qiymətdar sənələrin xatiratı könlümdə o dərəcədə nəqşpəzir (həkk) olmuşdur ki, tərifi mümkün deyil.

Yadındadır, təhsilimizin üçüncü sənəsi sentyabr ayında müəllim bizə nə dərs deyirdi?

Yadındamı, o halda sən mənim qulağıma nə söyləyirdin?

Darülfünunda müəllim əfəndi madam "Dasdu" nam Fransa ədibəsinin bir para ədəbiyyatını mənə tərcümə etdirib və siz məşhur Fenelenun "Şəbabiyyət və həyat səriüzzavaldır" ünvanlı kəlamını qalxıb oxuyandan sonra, - təhsildən sonra hər tövr olsa Yevropaya gedəcəyəm, - söylədiyin xəyalındadırmı?

Xəyalınız var, "Bismillah!".

Ziyafəti bitirəndən sonra İsfəndiyar xanın məiyyəti ilə Yevropaya səyahətə getməliyik.

Xəyalınızda varsa gözlərəm. Biləks (əksinə), sənsiz Yevropa səyahətinə gedərsəm də, hicranzədə yoldaşımız Məmməd Səidi fəramuş etməyərək həftəbaşı ümum səyahətimizə dair məktublar ilə dərxatir etməyi vəd edirik.

Kağızlarınızda müsahibin ədəmi-müvafiqətindən şikva (giley) etməyinizdə bizi nəhayət qəmgin edirsiniz. Ona cəhət çox arzu edirəm ki, Tehranda olasınız. Zira bu sənə məktəb yoldaşlarımızın cümləsi Tehrandadır.

Məşrutə namına hər gün bir təşəbbüs, hər saat bir ictimada (toplantıda) oluruq. Məlumunuz ola ki, Tehrandan bu axırıncı məktubdur. Bir də məktubumu Yevropadan gözləyəsiniz.

Baqi cənabi-həqqə əmanət ol!

Kiçik yoldaşınız Məhəmmədhüseyn Tehranlı

"Təzə həyat", 4 mart 1908, №52, səh.3

*Birinci məktub. Berlindən*

Hörmətli bəradərim!

Tehrandan göndərdiyim 4 oktyabr tarixli məktubum ümid ki, indiyə qədər vasili-dəsti-cənabanəniz olmuşdur.

Bu məktubda İsfəndiyar xan Şirazlının məiyyəti ilə Yevropaya səyahətə gedəcəyimizi Sizə məlum etmişdim.

Məlumunuz olsun ki, 18 noyabrda Yevropanın məhdi-tərəqqisi (inkişaf etmiş) olan Berlin şəhərinə vasil olub "Sentralni otel"də iqamət edirik.

Yevropalıların, xüsusən almanların böyük bir diqqətini mövcib olacaq yerləri, məşğul olacaq mövqeləri varsa, o da mehmanxanarlardır. Almanların milli qeyrət tərəfdarı və vətəndust (vətənpərvər) olmaları buradan qiyas edilsin ki, almanların öz lisanlarından başqa sair dil ilə danışmağa əsla rəğbətləri yoxdur.

Səid əfəndi, biz iranlılar indiyə qədər insanın belə pürqiymət (qiymətli) olduğunu bilməmişdik. Yevropada insanların istirahət vücudu üçün nələr qayırıb və nə təşəbbüsdə olduqları şayani-təqdirdir (diqqətə layiqdir).

Bu mehmanxanada müstəqil bir aləm bərpa olub. Bir mehmanxanada 600 (altı yüz) mənzil, hər dildə söyləşməyə müqtədir qulluqçular saxlanmışdır. Bizim islamlar (müsəlmanlar) arasında məmul olan "Əl-qərib kəl-əma" kəlməyi-vahiyyəsini pozmaq niyyəti ilə mehmanxanaların cümləsində (hamısında) rəhnümalar şəhəri gəzdirib, göstərməyə məxsus adamlar vardır. Səidimizi arzu edəcək bir yer varsa, o da mehmanxananın özünəməxsus qiraətxanasıdır

ki, küreyi-ərzin (Yer kürəsinin) hər nöqtəsində nəşr edilmiş övraqi-həvadis (hadisələr vərəqələri, qəzetlər) və jurnallardan burada hazırdır.

Mehmanxananın özünəməxsus kitabxanasını da gəzib, kitablara tamaşa etdik. Zənnimcə, bütün İranda olan kitabları bir tərəfə qoyduqda yenə bu mehmanxananın kitabxanasının bir şkafını doldurmaz. Kitablar içində hər dildə kitab olub, müsafirlərin baxmaları üçün də müsaidə verilir.

Siz çox axtarıb tapa bilmədiyiniz Viktor Hüqonun iki qitə, birisi "Övraqi-xəzan", o biri "Səfillər" adında kitablarını götürüb oxumaqdayıq.

İsfəndiyar xan daima "Xurşidi-məğribara" ünvanlı kəlamını oxuyur.

Ara-sıra Sizi daima ağladan bu bəndləri də oxuyur:

"Lakin mən alam və əkdari-dəhrin bari-təqətfərsası altında səri-dərdnakimı əvvəlkindən daha ziyadə bükərək ömrgüzar oluram".

Əfəndim!

Məlum ola ki, acizlər bu kəlamın dilsuz ibarəsilə mütəəssir olmayıb, Sizi dər-xatir etməklə (yad etməklə) bir hüzn, bir kədərə bulanırıq.

Məlumunuz ola ki, həmin bu Yevropa Tehran darülfünunda oxuduğumuz Yevropa deyil. Bunların dünənki tərəqqiləri bu günə qiyas edilməyərək hər dəqiqə tərəqqi yoluna çox cəsarətlə addım atmışdılar. Bizim İranda qol-qıç qüvvəti ilə görülən işlər Yevropada elm və sənət gücü ilə işlənir.

Yevropa çox görməlidir. Əfsus ki, Siz görməyibsiniz.

Mehmanxananın içində poçta və teleqram kontoru hazır olduğundan bizim Tehran kimi beş verst yol gedib kağızı poçta vermək ehtiyac deyil. Mehmanxanalarda müsafirlərin ibrət qazanması üçün gündə iki dəfə teatr verilir. İranlılara Berlində vüzəradan (nazirlərdən) başlamış arabaçılara qədər ehtiram (hörmət) qoyurlar. Hətta bağçalardakı övrətlər də "bizim yeni dostlarımızsınız" deyib bizimlə dolanıb, söhbət etməyi çox sevirlər.

Bağçaların səhnələrində gözəl və cavan nemsə qızları çıxıb ən nazikanə və dilnəvazanə tərzdə oxuduqlarından Yevropada "Hürriyyəti-nisvan"ın dərəcəyi-ifrata uğramasını görüb dilgir olduq.

Sizi arzu edəcək bir yer varsa, o da türklərin Germaniyada azacıq nüfuzlu olduğu üçündür. Biz isə öz-özümüzlə türkcə danışdığımızdan almanlar bizi ziyadə sevirlər. Bizə türkcəni təlim etdikdə yəqin ki, bu saatları mülahizə edirmişsən.

Bu məktub Sizə vasil olan kimi kəndi əhvalınızla bir qitə rəsminizi də alıb göndərərsiniz.

Tehranda oxuduğunuz fotoqraf əməlinə (işinə) məharət yetirməyinizi bildirmək üçün təsvirinizi göndərməkdə müzayiqə etməyəsən.

Yanımızda olan uşaqlıq rəsminizi odamızda bizimlə tanış olan "Destail" adında bir fransız qızı sandaliyamız üstə görən kimi; "Mən iranlı qiyafətini

çox istəyirəm" deyib götürdü. Əvəzində dəxi təsvirini də məktub arasında Sizə göndəririk. Təsviriniz məktəbin rəsmi qiyafətində olduğundan filhəqiqə çox sevimlisiniz.

Qardaş! Kağızın cavabını və rəsminizi Belqiyada Brüssel şəhərində "Roayal" küçəsində birinci nömrə "Manjel" nam mehmanxana müdirinə göndərərsiniz.

Xeyirxahınız:
Məhəmmədhüseyn xan Tehranlı
"Təzə həyat", 5 mart 1908, №53, səh.2

### *İkinci məktub*

25 noyabr 1907-ci sənəyi-miladi.
Berlindən Ordubada.
Hörmətli bəradərim Məmməd Səidə!
Əziz yoldaşım! Hörmətli Səidimizə!

18 noyabr tarixli məktubda mehmanxanamızın əhval və özvaından (vəziyyətindən) yazdımsa da, yüzdən biri deyilmədi. Deyilsə əsla mübaliğə edilməsin.

Berlində qaldıqca almanların çox gözəl xasiyyətlərini mülahizə edirik (müşahidə edirik). O cümlədən almanların gecələri sair yevropalılar kimi yuxusuz qalıb, gündüzləri saat 10-a qədər yatmağı istəmədikləridir ki, islam dinində ən bəyənilmiş sübhxizlik (səhər tezdən oyanma) xasiyyəti bunlardadır.

Gəldiyimizin ikinci günü Berlinin ən müzəyyən (bəzədilmiş, zinətli), ən məşhur caddələrindən olan "Unterden London" caddəsini seyr etməyə başladıq. Bu küçə təmiz və səfalı olduğundan müsafirlər, tamaşaçılar ilə doludur. Caddənin zinəti ətrafda bina edilmiş imarətlərin almanların memarlıq sənətinin əsas mədəniyyətə bina qoyduqlarını bildirir. Caddənin iki tərəfində düzülmüş ağaclara baxdıqda ağ kağızın iki tərəfinə yaşıl cızıq və cədvəl çəkilmişdir.

Küçənin tamaşası, hər anda o tərəf-bu tərəfə məsrur edən zabitlərin və polis məmurlarının hüsni-qiyafəti, həqiqətən, insanı şaşdırıb qoyurdu.

Padşahın sarayı bu küçədə olduğundan sair tamaşaçılara qoşulub, Tehrandakı "Şəms ül-imarə"-mizin nasıl əsfəl (acınacaqlı) halda olduğunu mülahizə edib (müşahidə edərək) heyrət barmağımızı dişimizə tutmaqda idik.

Çır-çılpaq sümüyə heyvan dərisi tapa bilməyən vəhşilərin bir tərəqqiyatını (inkişafını) mülahizəyə alanda quruyub qalırıq.

Ümumi mühacirət əsnasında Yevropaya dilsiz-kamalsız gələn hunların bugünkü fövqəladə tərəqqiyyatını görüncə cənabi-həqqin (Allahın) insanlara

bəxş etdiyi zehn və fərasətin dərəcəyi-ikmala çatmasını yavaş-yavaş düşünürük. Xar və xəsdən (çör-çöpdən) yuva qayırıb içinə girən hun tayfasının xələfləri bugünkü gündə Berlin kimi mədəniyyət məhdi (beşiyi) olan bir şəhəri mərkəz ittixaz edib (seçib), 25 dağınıq hökumətləri başına cəm edib (toplayıb) dünyaya ağalıq etməkdədirlər. Bir başı Anadolu, bir başı Kaşğəri qitəsi (bölgəsi), bir tərəfdən Sind nəhrinə (çayına) qədər, bir ayrı tərəfdən İraqi-əcəm (İran), daha bir hissə Yevropanı təhti-təsərrüfünə alan İran qəhrəmanlarının xələflərini 250 min nüfuslu (cəmiyyəti) Tehran bələdəsinə (şəhərinə) çəkildikdə görüncə iranlı olan ağlamazmı, qardaş?!

İnsandakı amaldan bir şey qurtulmaz, - dediyiniz bizi indi intibaha uğradır.

Berlin küçələri nəhayət təmiz olduğundan maəda (başqa), hər tərəfə səyahət qəsdi ilə ötüb gedən nemsə qızlarından çıxan müəttər səslər insanı səfaya sövq edir.

Caddələr elektrik ziyası ilə tənvir edildiyindən qırx qədəm (addım) kənarda səyahət edən nemsə xanımlarının kirpiklərini də asanlıqla görmək olurdu. Küçələrdə faytonların, tramvayların, arabaçıların həddi-həsri yoxsa da, cümləsinin (hamısının) əllərində jurnal və bir də qəzet oxumaqda gördük.

Səid əfəndi! Məlumunuz olsun ki, Berlində tamaşa etdiyimiz tamaşaxanaların, sənət və məktəblərin tərifini kəmakan yazmaq istəsəm əqəllən (ən azı) üç ay Berlində qalmaq icab edər. Binaən ileyh (buna görə) gələn məktubda Berlinin ümumi vəziyyətini yazmaqla səni xəbərdar edəcəyəm.

Bu məktubda (məktubla) göndərdiyim dörd qitə (ədəd) rəsmlərin ikisini götürüb, ikisini də Tehranda rəfiqiniz, millət vəkili Seyid Həsən Tağızadəyə göndərərsən. Bir də o cənaba məlum edərsən ki, tapşırdığınız kitabları tezliklə də göndərəcəyəm.

Cümlədən sonra məlum edirəm ki, Berlinin havası İsfəndiyar xan ilə saziş etməyib. İki gündür xəfif baş ağrısına tutulmuşdur.

Məktubun cavabını Parijdə "Şanzelize Montan" küçəsində "Montan" mehmanxanası müdiri adına göndərərsiniz.

Bu məktubun cavabında əhvali-beytiyyə (ailə üzvlərinin vəziyyəti) və məişətiniz haqqında məlumat verməyinizi də təmənna edirəm.

Baği gözlərindən öpürəm.

Məhəmmədhüseyn xan Tehranlı,

İsfəndiyar xan Şirazlı.

"Təzə həyat", 6 mart 1908, №53, səh.3

2 dekabr 1907

Hörmətli əfəndim!

25 noyabr tarixli məktubumda Berlin şəhərinin əhval və ümumi vəziyyətini yazmağımı vəd etdiyimdən bu gün vədəmə vəfa etmək istəyirəm. Ancaq siz də vədənizə vəfa edib, bizim məktubların cavabını göndəriniz.

Qardaşım, məlumunuz ola ki, Berlin şəhərindən layiqincə Sizə məlumat vermək istəsəm "Min bir gecə" hekayəsi kimi bir divan yazmaq lazım gəlir. Fəqət Sizə ərz edirəm ki, Berlin şəhərinin binalarının cisaməti (əzəməti) dünya memarlıq sənətinin gözəlliyi ilə şöhrət və mübahat qazanmışdır. Təsisati-elmiyyənin (elmi müəssisələrin) ikmal dərəcəsinə yetməsi, caddələrin vüsət və zinəti, ədəbiyyat və mətbuatının gündən-günə parlaq və müşəşə bir hal kəsb etməsi, sənaət və ticarətinin tərəqqisi ilə Paris və Londondan və başqa cümlə cahana təvəffüq (üstünlük) etmişdir.

Bağışlarsınız, türkcə gözəl yaza bilmirəm.

Bizimlə müsafirətdə (səfərdə) olan zəvatın (şəxslərin) dediyindən Berlində olan elmi tərəqqilər, sənəti və ticarəti sair Yevropa paytaxtlarına qiyas etmək olmaz. Bütün elmi və fənni (texniki) işlərdə məharət yetirmiş bir alim Berlinə gələrsə, almanlar kimi mütərəqqi (inkişaf etmiş), mədəni bir millət bütün dünyada görülməz, söyləyəcəyi bədihidir (şübhəsizdir).

Almanların cisamət və şücaətlərinə daha açıq qiyafəti-əskəriyyələrinə baxıldıqda bunların bir seyfi-bürran (iti, kəsici qılınc) sahibi olduqları meydana çıxır.

Almanların rəftar və güftarına, hərəkat və manevrlərinə baxıldıqda müharibə meydanlarından müzəffəranə çıxan bir qövmə bənzəyirlər.

Ədib və şairlərinin hər yerdə şöhrətə nail olacağından, mətbuatlarının bir fövqəladə tərəqqidə (inkişafda) olduğundan bütün cahani-bəşəriyyətə elm ilə, qələm ilə kölgə salmaq xəyalındadırlar.

Bəli, qələm ilə seyfi (qılıncı) birləşdirib ümumun qarşısına çıxmaq cəsarətinə malik olan bir millət varsa ancaq almanlardır.

Bizimlə səyahət edən almanlar; bizim millətin yüzdə səksən hissəsi oxuyur, həm də yazır, söyləyib.

Bizi övladi-vətənimizin halı və istiqbalı (gələcəyi) ağladır.

Qiraətxana və kitabxanalarda oxunan jurnal və kitablardan məlum olduğu üzrə Almaniyada çıxan hükəma (alim) və üdəbanın (ədiblərin) kafəsinə Paris və London ərbabi-qələmləri tərcüman olmaqla özlərini müşərrəf (şərəfli) qılmalıdırlar.

Tehranda darülfünuni-"Nasiriyyə"də oxuduğumuz kimi, almanlar "Nişe" və "Hegrel" və "Şelling" kimi dahilərin təlaş (səy) və elmi axtarışları ilə

qəflət yuxusundan oyanıb ümumyevropaya ayinəyi-cahannüma kimi qoymuşdur.

Almanların ülumi-əqayidi, elmi-şəriəti o dərəcədə tövsi edilmişdir (inkişaf etmişdir) ki, bir neçə zatın himmət və mərdanəliyi ilə elmi-ədyan (dini elmlər) o dərəcə nəşr və təşrih edilmişdir ki, yüz yaşında qocalar deyil, səkkiz yaşında təbliqatlı alman balaları da elmi-şəriətin nə olduğunu beşikdən ana qucağına atılan kimi düşünmüşdülər.

Almanların rəy və əqidəsincə, hər məzhəb öz şəriətini paydar etməyə tərəqqi edir. Həqiqətən, almanların bu sözləri islam millətinə bir ibrət dərsidir.

Almanların öz məzhəblərinə deyil, sair məzhəblərə də bələd olmaları buradan anlaşılır ki, hər saatda (müsəlmanlar bir il şəriətləri ilə rəftar etsələr dünyaya malik olarlar) söyləməkdədirlər.

Berlinin Elmi-hüquq Akademiyası, Dillər darülmaarifi, elmi-asari-qədimə cəmiyyəti həştad nəfər fərasətli və dirayətli müəllimlərin öhdəsinə verilib. Hökumət və millətin də milyonlarca pulu kamali-məmnuniyyətlə bu yollarda sərf edilməkdədir.

Berlinin bu kimi ülumatı nə Londonda, nə Parisdə bu əla dərəcəni ittixaz etməmişdir.

Bundan maəda (başqa), məsbuq üz-zikr (adı çəkilən) müəllimlər hər dəqiqə elmin təcdid və təshili barəsində çalışmaqla bütün dünyada əngüştnümayi-iftixar olmuşdular.

Ülumi-tibbə gəldikdə dünyamızda heç bir darülmaarif Almaniyanı təqib edə bilməmişdir (keçə bilməmişdir).

Berlinin Botanika bağçası, təşrihxanası dünyanı heyrətdə qoyduğu kimi, sair Yevropa millətlərini də qibtə məqamına gətiribdir.

Berlində bir nümunə təşrih dairəsi də məqami-vücuda qoyulmuşdur ki, almanlar üçün başlıca nafe bir əsasdır.

Berlinin elmi-heyvanat muzesi bəşəriyyətin nə payədə (dərəcədə) müdəbbir və müqtədir olduğunu daha Xüdavəndi-zülcalalın bəşəriyyət başında olan hikməti-baliğəsini insanlara isbat etmişdir.

Berlində elmi-mədəniyyat o payədə (dərəcədə) isbati-vücud etmişdir ki, almanları kürreyi-ərzdə bir dağ yoxdur ki, bizim mühəndislərin müayinəsinə təsadüf etməsin, iddiasına mütəcasir qalmışdır.

Burasını da Səidə söyləməliyik ki, Berlin darülfünunlarında o qədər də əcnəbi tələbəsi görə bilmədik. Buna səbəb isə, Almaniya dilinin fransız dili kimi ümumun qəbuluna məzhər olmamasıdır.

Darülfünunlarda Osmanlı-türk tələbələri görünürsə də, Germaniya ilə Osmanlının həmticarət olmasından naşidir.

Türklərin çox məhbub ül-qulub tayfa olduqlarını almanlar da söyləyirlər.

Burasını da söyləməli ki, Alman darülfünunlarında o qədər qələbəlik olmayıb, müəllimlər öz vətən və məzhəb övladlarını müstərihən təlim və tədris etməkdədirlər.

Biz darülfünun səyahətinə getdikdə müəllimləri uşaqlarına o qədər nəvazişli və məhəbbətli gördük ki, İsfəndiyar xan bu müəllimlər kişi qiyafətində olmasaydılar uşaqların məhəbbətli analarıdır söylərdim, dedi.

Əzizim Səid! Burada "Darülfünuni -Nasiriyyə" müəllim müavini Fətülla xanın da hüsni-xülqini dəryad etməlidir (yada salmalıdır).

"Təzə həyat", 7 mart 1908, №55, səh.2

- 0 -

Binəva bizlər uşaqlıq baharından nə hissə aldıq?!

Müxtəsər, Berlin darülfünunlarından təhsili-maarif edən cavanların miqdarı azsa da, idarəli və qanmış şagirdlərin miqdarı cümlə Yevropaya təfəvvüq etmişdir (üstündür).

Yuxarıda söylənmiş və gələcəkdə söyləyəcəyim darülmaariflərdən başqa Berlində yenə bir para rəsmi və qeyri-rəsmi məktəblər və darülmüəlliminlər vardır ki, cümləsi təqdirə şayandır.

Alman uşaqları ana döşünə o qədər məhəbbətli olmayıb, məktəblərə və müəllimxanalara məhəbbətli görünürlər. Həqiqətən bir islam (müsəlman) balası anasını alqışladığı kimi, alman balaları da müəllimxana və məktəbləri alqışlayırlar.

Berlində, daha ümumgermaniyada yeddi sinnində balasını məktəbə verməyən ata hökumətcə məsul və müqəssir tutulur.

Burada yeddi deyil, iyirmi yeddi sinninə çatıb yenə Tehran küçələrində biədəbanə müəlləq vuran müsəlman uşaqlarını dəryad edirəm (yada salıram).

Almaniya torpağı çox bərəkəli və məhsuldar olduğundan maəda (başqa) maşınların, ziraət alətlərinin bərəkət və sayəsilə Almaniya milləti nəhayət dərəcədə faydamənd olurlar.

Bundan maəda, almanların iddiasına görə yalnız Prusiya qitəsində (bölgəsində) maşınlarda və mədən ocaqlarında yanmaq üçün on min ilə yetərlik daş kömür mövcuddur.

Almanlar vətən və millətlərinə lazım olmayan sözləri danışmayıb, ancaq danışıqları millət və vətənə aiddir.

Muzey və qəhvəxana, yainki teatrolarda almanların danışdığı bir söz varsa məclisi-məbusanın hərgünkü qərardadı, yaxud sair hökumətlərdən Germaniya əlinə verilən imtiyazların söhbət və mübahisəsidir.

Və yainki təzə meydana gəlmiş bir alətin, bir maşının tərifidir ki, danışmaqdadırlar.

Fərasətli almanlar bir makinanı Amerikada görüb dilləri ilə elə təlqin və əda edirlər ki, deyirsən həmin alətin müxtəre edəni özüdür.

Berlinə məmaliki-əcnəbiyyədən bu gün bir makina, yaxud bir aləti-hərb gəlirsə, sabah yüzdən artıq ustad tərəfindən həmin alətin yüz müqabili qayrılıb intişar üçün (yayılmaq üçün) hökumət və məqami-aidinə təqdim edilir.

Almanların mətbuata və onun məhsulu olan jurnal və qəzetlərə olan məhəbbətləri buradan məlum olsun ki, bir almanlının çantasında dörd-beş jurnal və qəzet görünməzsə, insan da sayılmaz.

Almaniyada kömür mədənlərinin tamaşasına getdiyimiz vaxt bizi daha da almanların cövhəri-mədəniyyətləri şaşdırıb qoydu.

Saat birə yaxın kömür mədənində işləyən əmələ və fəhlələr istirahət üçün çıxdıqda bir əlində qəhvə fincanı, o biri əlində qəzet, yainki bir parça jurnal oxumaqda gördük. Yollarda işləyən arabaçılara qədər qabaqlarında övraqi-həvadis (hadisələr əxbarı) mürur etməkdədirlər.

Ayrı bir aləti-hərbiyyə (hərbi sürsat) fabrikasına getdiyimiz vaxt diqqət və fərasətli bir şagirdə təsadüf etdik. Məzkur şagird əlindəki priskuranta baxaraq Amerikada qayrılmış bir tapançaya baxırdı. Mahir şagird cümlə diqqətini, bütün hissiyyatını gözlərinə daşıyıb, tapançanı müayinə edirdi. Bir az sonra dəftərini çıxarıb tapançanın nə sistemdə olub, neçə vintli olduğunu yazıb, yenə işinə başlayınca bizi heyrətdə qoydu. Bizim zənnimizcə, bəxtiyar almanların elm və sənətə olan rəğbətləri Yevropanın heç nöqtəsində görünməyir.

Berlinə vüsulumuzda (çatdıqda) küçələrdə, məsirələrdə cavan uşaqlar görməyib, Xüdavəndа, yalnız bir belə əzəmətli şəhərdə qocalar yaşayırlar? - söyləyib, heyran-heyran gəzməkdə idik. Bu fikir ilə bazar gününə qədər dolanıb Berlndə bir başqa aləm gördük. Bulvarlara çıxınca uşaqlar və cavanlar əllərində kitabçalar, övraqi-həvadis oxuya-oxuya səyahət etməkdə gördük. Ara-sıra müəllimlər ağaclar kölgəsində beş-on nəfər tələbə yığıb onlar üçün tarixi və coğrafi bəhslər açmışdılar.

Berlində hər kimsədən bu uşaqlar indiyə qədər harada olurdularsa, soruşduqda uşaqların cümləsi özlərinə məxsus məktəblərdə olurlar cavabını aldıq. Alıb da qüdrəti-cəlilənin (tanrının) almanlara bəxş etdiyi calal və əzəmətin ikmala yetməsini anladıq.

Müsəlmanların da səfil-səfilanə yaşadıqlarını dərxatir etməklə (yada salmaqla) acı-acı göz yaşları cari etdik (axıtdıq).

"Təzə həyat", 10 mart 1908, №56, səh.2

Almanların fövqəladə tərəqqilərini görüb övladi-vətənin bugünkü səfalətinə baxıb iki cavan iranlı məhzun və məğmum (qəmli-kədərli) dolanmaqdayıq.

Bizim bu məhzuniyyətimizdən naşi otağımıza qulluq edən bir nemsə oğlu:

Əfəndilərim, iranlılar şad bir millətdir. Sizin bu qədər məhzuniyyətinizə baxmış, iranizadə olduğunuza da şübhələnirəm. Söyləyib bizi daha da pərişan edir.

Səid əfəndim! Almanların bir çox adətləri islamlara (müsəlmanlara) hökm olunduğu kimi çox xoşətvardır. Almanlar gecələri ləhv-ləb ilə (əyyaşlıqla) keçirib, gündüzləri yatmağı sevməzlər.

Bir alman sübh (səhər) durub şəriətləri iqtizasınca ibadət edib, günün ziyası insan gözünü qamaşdırmamış özünə məxsus kəsbi-kar başına (işinə) getməzsə, alman milləti arasında çox həqirədd olunar (hesab olunar).

Filvaqe (həqiqətən) almanlar ən həkim, ən zəki bir tayfadan hesab olunduqları üçün özlərinə hər məmləkətdə şan və şöhrət qazanmışdılar.

Berlində elmi tərəqqilərə xidmət üçün mütəəddid (müxtəlif) cəmiyyətlər təşkil edilmişdir ki, cümləsi Yevropada kamali-əzəmət və mübahat ilə yad olunmaqdadır.

Berlində elmi-tibbin və sair elmlərin nəşrinə (yayılmasına) ibrazi-həmiyyət edən cəmiyyətlərin vücudundan (olmasından) başqa "Təbiət dostu" təsmiyə edilmiş (adlandırılmış) cəmiyyətin təbiətin sirlərini kəşf edəcək himmətləri (təşəbbüsləri) ümumun nəzəri-təhsin və afərinini özlərinə cəlb və cəzb etmişlər.

Berlində "İnsaniyyət dostu" cəmiyyəti namında (adında) təşkil olan bir heyəti-müttəfiqənin sayəsində almanlar çox müttəhid və müttəfiq olmuşdular. Bu cəmiyyət sayəsindədir ki, iyirmi beş hökumət arxa-arxaya verib öz vətənləri və vətən övladlarını mühafizə üçün amadə (hazır) durmuşdular.

"Berlin cəmiyyəti" ayrı bir heyət milli dillərinin ədəbi tərəqqisinə (inkişafına) xidmət üçün mühüm bir vəzifə ilə müvəzzəf olurlar.

"Şirkəti-sənaiyyə əndər ülum" olan bir heyət elmin sənətə təfərrü edən şöbələrini açıb, almanlar içində nəşr etməkdədirlər.

Almanların Berlində nəzəri cəlb edəcək bir cəmiyyətləri varsa, o da Coğrafiya cəmiyyəti-müttəfiqəsidir (Birləşmiş coğrafiya cəmiyyətidir) ki, kürəyi-ərzin (yer kürəsinin) hər nöqtəsindən, hətta daşlardan, urmanlardan, irmaqlardan da məlumat yığmaq üçün uzaq məmləkətlərə adamlar və mühəndislər göndərmişdilər.

"Coğrafiya cəmiyyəti" yalnız coğrafiyanın deyil, heyvanat elmi, nəbatat elmi, mədəniyyət elmi, dəxi bir çox elmlər haqqında məlumat əxz etməkdədirlər. Berlində və bütün Almaniyada elm və sənət o qədər tərəqqi (inkişaf) etmişdir

ki, yer üzündə toxunmuş və əmələ gəlmiş məlbusat (paltarlar, geyimlər) və mənsucatın (parçaların) maşınları bu məmləkətdə meydani-vücud və füruşa (satışa) qoyulmuşdur.

Berlində elmsiz kimsələrin nə qədər sərvət, nə qədər müknəti olursa-olsun, yenə ziyafətxana, matəmkədələrdə, yainki teatr və muzeylərdə və yainki camaat xeyri üçün qurulmuş darüşşuralarda bir mübtədi biçiz məktəb şagirdi qədər nüfuzu qalmamışdır. Bir az izah edək.

Berlində bir nəfər pul axtaran varsa, yüz nəfər də elm və insaniyyət axtaran vardır ki, gündən-günə insaniyyətpərvərlik rəvac tapmaqdadır (yayılmaqdadır).

Almanlarca elmsiz və sənətsiz kişinin millət və vətəninə məzərrətindən (zərərindən) başqa mənfəəti olmaz, deyib elmsizləri görmək, söhbət və laqqırtısına qulaq vermək də istəməzlər. Bundan naşidir ki, iki alman uşağı küçədə bir-birilə məqami-ədavətə gəldikdə tərəfi-müqabilə:

Get elmsiz oğlu elmsiz! -deməklə qayət iqzab (qəzəb) və münfəil edər.

Bundan qiyas olunsun ki, bizim keçən İran idarəyi-mütləqə və müstəbidəsində elmsiz insanın nüfuzlu olması deyil, məqami-vizarətə qədər (nazir olmağa qədər) süud etdikdə millətə nə günə (necə) xəsarətlər irad və iras etdirmişdilər.

Berlində füqəra və xəstələrə müalicə etmək üçün bir çox xəstəxanalar olduğu kimi, bir çox da yetimxanalar vardır ki, almanların yetim qalmışlarını saxlayıb və tərbiyə etməkdədirlər.

Yetimxanalarda alman yetimlərinə o qədər nəvaziş (məhəbbət) olunur ki, bir uşaq ata-anası yanında çox əziz və möhtərəm saxlandıqda məktəb yoldaşları zərifanə;

Yoldaş, sən yetim olacaqmışsan, nə üçün atalı olubsan? - deyə zərbülməsəl qoymuşlar.

Berlində "Salamat cəmiyyəti" adında olan heyət füqəra uşaqlarını məccanən (pulsuz) oxutmaq üçün bir para məktəblər açmışlar.

Bundan başqa, Berlin kilsələri füqərapərvər adını da almışlar.

Berlin camaatı çox səngin (ağır), çox mütəkəbbir, amma müsahib olub, nə özgənin üstünə gülüb, nə də başqasını güldürməyi sevərlər.

Demək ki, bir alman ilə bir il müsahib olursan yenə gülmək halında onun bir dəfə də dişlərini görə bilməzsən, söyləsəm əsla şübhə edilməsin, Səidim!

Berlində sair Yevropaya nisbət ümumi iffət (paklıq) nəhayət dərəcə iştihara çatmışdır.

Səid əfəndim! Berlinin fövqəladə tərəqqilərini yazmaqla, oxumaqla başa gəlməz.

Dördüncü məktubu Belgiya mərkəzi-idarəsi (paytaxtı) Brüsseldən gözləyəsiniz. Əvvəlinci, ikinci məktubumda yazılan əmanət və xahişləri əmələ

gətirərsiniz.

Baqi ehtiram: Məhəmmədhüseyn xan.

Qeyd: Bu saat atamdan Bürusseldə bir ay qalıb tomojna və dəmiryol pul üsuluna vüquf yetirmək üçün müfəssəl (geniş) bir teleqram aldım. Məktubunuzu gözlərəm.

*"Təzə həyat", 12 mart 1908, №57, səh.2*

### Dördüncü məktub. Brüsseldən

16 dekabr 1907

Hörmətli bəradərim (qardaşım) Səid!

Əfəndim, bu gün on dörd günə təsadüf edir ki, Sizə bir məktub göndərməmişik. Buna cəhət isə 3 dekabrda Berlindən hərəkətən (yola düşərkən) on bir gün müddəti Maqdeburg, Manhaym, Buxem, Kölün şəhərlərində səyahət üçün qaldığımızdır.

Məzkur şəhərlərdə Berlinə və yainki sair Yevropa şəhərlərinə nisbətən bir əhəmiyyət görmədiyimizdən əhvalat yazmaq istəmədim.

Məzkur şəhərlər səfalı və gəzməlisə də, bir tağım dilgirliyə tutulduğumuzdan təhrir (yazmaq) və təhvili-kəlama (uzun-uzadı danışmağa) cürət edə bilmədim. Bir saat müqəddəm (əvvəl) Brüsselə varid olub, "Manjel" mehmanxanası müdirindən məktubunuz olmamasını bilib, nəhayət (çox) qəmgin oldum. Sizin Ordubadda olub-olmadığınıza, yainki bir qəza olub məktuba cavab verməyə fürsət tapa bilmədiyinizə də mütərəddid qaldım. Daha açıq məktuba cavab olmadığı başında bir qəmli xəyalata uğradım. Behər surət (hər halda) çantadan kağız çıxarıb bu məktubu təhrirə başladım. Başlayıb da otağımızın işarət sədası gəlincə çölə çıxıb poçta xadimindən bir parça zakaznoy (sifarişli) məktubunuzu alıb qəmginlik arasında qayət dərəcədə şadman oldum. Məktubu açınca iki qitə fotoqrafınızı ziyarət etdim.

Birisi indiki qiyafətiniz olduğundan necə ki, varsınız. Digəri qarabağlı qiyafətində olduğundan daha da məhzuziyyətimizi mövcib oldu.

Əfəndim, gözlərindən tökülən asari-məhəbbət, sima və qiyafətinizdən görünən sədaqət səni başlıca Səidə bənzədirsə də, Tehrandakı Səidimizə bənzəmirsən, deyilsə əsla mübaliğə edilməz.

Zənnimcə, dəhrin bari-alamı, daha yoldaşların zamani-fərağı zərbələri ilə təziq edilmişsiniz ki, belə qəmgin bir haldasınız. Səidsən. Amma Səiddən bir yadigar kimi görünürsən.

Ah! Təsvirinizdə hər baxışda yoldaşlarınıza min dürlü nigaran və natəvanlıq bəxş edirsən.

Biz ömrümüzün ən müsaidəli vaxtı olan uşaqlıq əyyamını səninlə bir

yerdə keçirdiyimizdən daima səni istərik.

Filvaqe (həqiqətən) insan olub, qəlb (ürək) çürüyüb torpaq olmamış sədaqət və söhbət binası dağılmaz. Bu sayədəndir ki, səni xəyalımızdan çıxarmış olaq. Səndəmi bizi dərxatir edirsən?!

Səninlə keçirdiyimiz səkkiz il uşaqlıq əyyamının hər dəqiqəsini səksən il əziz ömürə mübadilə etməm.

Məktubla göndərdiyiniz iki əsəri-qiymətdarınız, birisi "Qəflət", o biri "Vətən və hürriyyət" adında olaraq vasili-dəsti-acizanəmiz oldu (çatdı). Bu əsərlərə dair (Bax, cənabi-xan! Minbəd (bundan sonra) Səidinizi bikitab hesab etməyəsiniz. Hazırda iki kitab lətifəsi bizi ziyadəsilə məsrur (sevindirdi) və mübtəhic (həyəcanlı) etdi.

Bu lətifəyə nəzirə olaraq:

Əfəndim, biz iranlılar, iranzadələr qəflət içində nəşvü nüma etmişik. Xanəyi-ehsan abadan! Qəflətimiz var idi, birini də Səid göndərdi - deməkdən çəkinməyəcəyəm.

"Vətən və hürriyyət"inizə gəldikdə Avropada hürriyyət çox və ucuz olduğundan qalsın. Bunu da İranda açıb oxuyarıq. Söyləməklə iktifa edəcəyəm (kifayətlənirəm).

Bunların cümləsindən sonra çox arzu olunur ki, mərhum Hacı Əminüddövlə hali-həyatda olub Səidin əsərlərini görəydi.

Yadındadırmı ki, məktəbin ikinci il imtahanında İran xüsusunda oxuduğumuz bir nitqdan dolayı Hacı Əminüddövlə Sizə bir saat bəxş edəndən (hədiyyə edəndən) sonra nə söylədi?

Xəyalındadırmı ki, sən saatı qəbul etmədikdə Hacı Əminüddövlə:

Oğlum, İranda tərbiyə alıb iranizadə kimi dost olmağınıza qızıl saat deyil, canımı versəm, yenə azdır söylədimi?!

Məktubunuzun bir neçə sətiri "Halımdan şikayət" ünvanı təhtində (altında) olduğundan nəhayət qəmgin oldum. Amma anlaya bilmirəm şikayətiniz nədən və kimdəndir?

Daha nə üçün belə əfsürdəxatir olmuşsunuz?

Yəqin ki, müsahibin yoxluğu, zəmanənin məslək və əqidənizcə ədəmi-müvafiqəti Sizi büsbütün şaşdırıb qoymuşdur.

Qəm və ələminizə şərik olmaq niyyəti ilə övdətimizə bizimlə bərabər Tehrana getməyi xahiş edirəm.

Bu kağızın cavabını Avstriyanın "Meran" şəhərində "Meranrəhuf" mehmanxanasına göndərərsiniz.

Baqı gözlərindən öpürəm, əziz qardaşım.

Məhəmmədhüseyn xan Tehranlı

"Təzə həyat", 13 mart 1908, №58, səh.2

30 dekabr 1907-ci sənayi-miladi.

Səid əfəndim!

Bu gün 14 gündür Brüsseldəyik. Brüssel şəhəri ən dilgüşa (ürəkaçan) bir ölkədirsə də, qabaqda olan Parijin səyahəti həvəsi bizi nəhayət (çox) biaram edibdir. Brüsseldə bizim dörd gün qalıb Parijə getmək xəyalımızı atamdan Berlində aldığım "Brüsseldə bir ay qalınız!" teleqrafı pozub, bir ay qalmağa məcbur etdi. Atamın bu teleqrafdan məqsədi burada tamojna və dəmiryol işlərinə baxəbər olmağımız üçündür. Zira atamın xəyalı hərgah dövlət və millətimiz ixtiyar verərsə, bir birləşmiş şirkətin müavinəti ilə Tehrandan kənar şəhərlərə bir dəmir yol çəkdirməkdir.

Tamojna ümurundan (işlərindən) məqsədi beljiklərin bizim vətənimizi çapıb Belgiya məmalikinə daşımalarına bir sədd çəkməkdir.

Əfəndim! Beljikləri İranda tamojna və sair işlər başından qaldırmaq murad olduqda beljiklərcə iş bilmək lazımdırmı, ya yox?!

Burasını məlum edirəm ki, Belgiya məmaliki kiçik və nüfusca (cəmiyyətcə) azdırsa da, himməti-ticarət və sənətcə çox artıq tərəqqi eləyibdir.

Brüssel şəhəri Yevropa şəhərlərinə nisbət düz məkanda düşməyib, dam-daşlar, uca imarətlər kamali-intizam ilə yoxuşlarda bir-biri üstünə qalanmışdır ki, gecə Brüsselə tamaşa edən bir müsafir: "Budur, ulduzlar göydən Bürussel şəhərinə tökülür" deyib, böht və heyrət içində qalır.

Brüsseldə ən görməli məkan və küçə "Roayal", yəni Kral küçəsidir ki, şəhərin ən münasib, ən görüşlüsü imarətləri, əcnəbi sifaətxanaları bu tərəfdədir. Brüsseldə tamaşa etməli bir yer varsa, o da Konqre (Konqres) meydanıdır ki, bu meydanda Kral "Loopold"un abidəsi (heykəli) qoyulmuşdur.

Heykəlgüzarlıq cümlə Yevropada mütədavil olduğu kimi, Belgiyada nəhayət tərəqqi edibdir. Vaqeədə (həqiqətən) heykəlgüzarlıq bir şeydir ki, hər kəs baxar: "Mənim də dünyada bir yadigarım qalsın!" - deyib, millət yolunda çalışmağa cüstəcü etməyə başlayır.

Belgiyalılar çox işçi, çox çalışqan olduqlarından hətta bulvar və küçələrdə onları sairlər kimi məstanə (şən) və səfilanə getməkdə görə bilmədik. Fəqət cümləsi od parçası kimi o tərəf-bu tərəfə çalmaqada, ətrafı müayinə etməkdə mülahizə edirdik.

Belgiya xalqının bir qismi Hollanda, bir qismi köhnə fransız dili ilə danışırlar ki, hökumətin rəsmi dili fransızca olduğundan ölçü və çəki və pul hesabı da fransızca işlənir.

Belgiya məmaliki Berlinə nisbət çox ucuzluq olub, ancaq məmuriyyət xüsusunda Berlincə tərəqqi etməyibdir. Ancaq elm və ticarətcə Belgiya xalqı dünyaya güzgü misalındadırlar. Belgiyalılar qanadlı quş kimi dünyanın hər

tərəfinə uçub abadanlığa çalışmaqdadırlar. Belgiyalılar dünyanın hər tərəfində dəmir yollar, tıramvaylar, elektrik, qaz əməliyyatı icra etməkdədirlər.

Cümlədən artıq Belgiyada şirkət məsələsi tərəqqi edibdir. Şirkətdən nəfbərdar olmaq (qazanc əldə etmək) bütün Yevropada işlənirsə də, beljiklər axırına qədər çıxmışlar. Belgiyada az sərmayəli adamlar bir yerə yığılıb milyardçılara bərabər ticarət açmışlar. Belgiyalıların elm və sənət sayəsində bütün dünyadan hissədar və nəfyab olduqlarını yalnız dəmiryol mövqiflərində (dayanacaqlarında) duran dəqiq bir tamaşaçı görə bilər. Dəmiryol mövqiflərindən baxılırsa, dünyanın hər tərəfindən ehtiyaclı adamlar gəlib, dəmiryol və sair əməliyyat üçün Belgiya mühəndislərini öz vətənlərinə daşımaqdadırlar. Bundandır ki, Belgiya qitəsi bir neçə məmuriyyət kəsb eləməyibdir. Yəni Beljik əhli indilik hər tərəfdən vətənlərinə pul cəlb edirlər. Pul qazanmaqdan, xaricdən pul yığmaqdan baş açıb vətənlərini təmirə hələ üz qoymayıblar. Çox durəndiş (uzaqgörən) bir zat olursa, bəsirətlə tamaşa edərsə, Belgiyanın gələcəyini parlaq və müşəşə surətdə görə bilər.

Belgiya millətinə baxdıqda siz türklərin bir zərbülməsəli yadıma düşür. Türklərin "Hazırına şahsan" məsəli belgiyalılar üçündür ki, hər yerdə yağlı loğma olsa beljiklər başına çökmüşlər. Bu barədə bizim İranda olan beljikləri nişan verməklə iktifa etməlidir (kifayətlənməlidir).

Bu gün bir qəribə hala təsadüf etdim ki, eynən sizə yazıram.

Bu gün mehmanxana müdiri mənzilimizdə çay içdiyi halda Rzaqulu xan Təbrizi tərəfindən bir qitə məktub, bir neçə nömrə də "Azərbaycan" nam jurnalını poçta xadimi gətirdi. İsfəndiyar xan ən əvvəl jurnalın 20-ci nömrəsini açıb bir beljik təsvirini göstərdi. Beljik Rəşt məbərindən keçir. Vətəninə getməyə hər əlində bir çanta. Hər çantada on milyon pul Belgiyaya apardığı halda fotoqrafını almışdılar. Mehmanxananın müdiri; "Ən əvvəl Beljik İrana xeyirxahdır" - deyib, durduğu üçün İsfəndiyar xan təsviri açıb:

Bax! Beljiklər İrana belə xeyirxahdır"- deyib müdirə tərcümə etdi.

Biçarə müdir bu halı görüncə:

Kim pulu istəməz? Hökumətdə fərasət gərək" – deyib, eşiyə çıxdı.

Brüsseldə camaatın ümdə diqqəti mətbuata olduğu buradan qiyas edilsin ki, Brüsseldə Kral kitabxanasında tamaşa etdiyimiz kitabları Berlində görə bilmədik. Belgiya camaatı nisbətən zəif, fransızlara müşabeh (oxşar) bir tayfadır.

Belgiya xanımları Germaniya xanımlarına nisbət ismət və iffət üzrə yaşayırlar ki, çox dirayət və fərasətli balalar doğmuşdular.

Germaniyada Berlin şəhərində ərə getməmiş cavan qızların bağlarda, parklarda tək-tək çıxıb təğənni etmələrini (oxumaqlarını) gördük. Brüsseldə isə bu kimi qızların təğənni etməsi deyil, hətta özlərinə bəzək vurub, başlarını

sığallayıb, naz və qınc ilə gəzməklərin də görə bilmədik. Bundan məlum olur Belgiya xanımları alman xanımlarından iffətlisə də, onlardan dilrüba surətdə gəzib, hər baxdıqca insanı səfaya sövq edirlər. Belgiya xanımları ərə getməmiş üstlərinə yaşıl və qızıl nəsb edərsə, yoldaşları yanında çox nöqsanlı və həqir tutulurlar.

Belgiya qızlarının başlarında sadə bir şapka olub, cümləsinin sima və qiyafətindən iffət və məsumiyyət nümayan olmaqdadır (görsənir).

Belgiyada, Brüsseldə bizi şad edəcək bir maddə varsa, fəqət övrətlərin üləma və qüləma (qələm sahibləri) dərəcəyi-əlaya çatmasıdır.

Dünən gecə ümumun təfərrücgahı olan (gəzinti yeri olan) bir meşədə mən və İsfəndiyar xan bir zeytun ağacı kölgəsində iki nəfərlik bir sandaliyə üstə oturub, müsahibi ilə laqqırtı edənlərə tamaşa edirdik. Qarşımızda oturan bir cavan Belgiya xanımı dörd yaşında uşağını iki qıçları arasında alıb uşağına tarixi söhbətlər etməkdə idi. Cavan xanım əvvəlcə Prusiya ilə fransızların davasını uşağına icmalən söyləyib, cavabında uşağından bir söz eşidir kimi nazikanə (incə) surətdə təbəssüm edirdi. Sonra elmli xanım uşağına Misirdə, Hindistanda İngiltərənin istibdadını açınca:,Bala:

Ana, onların uşaqları bəs necə yaşayırlar?

Deyincə anası uşağı şirin-şirin ağuşuna (qucağına) çəkincə bizi böht və heyrət içində qoydu.

Baqi ehtirami-tam.

Məktubu Parijdən gözləyərsiniz!

Məhəmmədhüseyn xan

"Təzə həyat", 14 mart 1908, №59, səh.3

### *Altıncı məktub. Parijdən*

15 yanvar 1908-ci sənəyi-miladi.

Möhtərəm yoldaş! Parijdə daha ən səfalı, ən dilgüşa (ürəkaçan) mövqeindənədd olunan (hesab olunan) "Şanzelize"yə yaxın "Muftan" küçəsində "Muftan" nam mehmanxanadayız. Mehmanxana müdirindən 16 dekabr tarixli məktubunuzu alıb oxuyunca pək məsrur oldum (sevindim). Məktubda fransızların Mərakeşə dair olan pay amallarını bilib, məlumat verməyimi yazıbsınız.

Əfəndim, biz Parijə bir neçə saatdır vasil olub, cümlə tamaşagahlarda, cümlə insan keçidlərində bir parça Fas xəritəsi, xəritənin başında Fransa generalı "Deryud"-un təsvirini mülahizə edirik. Fransızların dilində Fas-Marokko işlərindən başqa bir söhbət gətirilmədiyindən Fas qitəsi bu günlərdə Fransa müstəmləkatına təliq və tənzim ediləcəkdir. Belə isə aləmi-islama nə qədər həqarət üz göstərməsi bədihidir.

İkinci, əfəndim, məktubunda yazırsan ki, Berlindən 25 noyabr tarixli

məktubunuzu alıb, uşaqlıqdakı amal və arzularımdan büsbütün məhrum qaldığımı indi düşünüb, öz halət, öz qəflətimə ağlaya-ağlaya bu kağızı yazıram.

Əzizim Səid! Mən sənin Yevropa səyahətinə olan məhəbbətinin bu dərəcə əlaya ucaldığını lazımınca düşünmədim. Yoxsa hər tövr olsaydı səni də məiyyətimdə (yanımda, birgə) Yevropaya gətirmişdim. İsfəndiyar xan Berlində düçar olduğu baş ağrısının şiddət etdiyi üçün, doğrusu, Parijdə qalmaq həvəsindən düşmüşdür. Sizin yazdığınız kimi, Parijdən hərəkətən Avstriyanın "Meran" şəhərinə gedib, İsfəndiyar xanın təğyiri-hava etməsi üçün bir neçə gün qalacağıq. Və əlavə Seyid Həsən Tağızadənin barəsində yazdığınız əhvalatlardan ziyadəsi ilə məmnun oldum. Və həmçinin rəsmləri göndərib, kitablar xüsusunda o cənaba məlumat verdiyiniz üçün də təşəkkürüm ziyadədir. Fəqət İranda, daha açıq bizim xaraba Tehrandakı camaatın Abbas ağa mərhum barəsində olan dəni (alçaq) fikirləri bizi nəhayət qəmgin və mütəəssir etdi.

Məlum olur ki, Tehranda gündən-günə "Fanatizma" şiddət etmişdir.

Əfəndim, filvaqe (həqiqətən) biz Tehranda bundan şad dolanırdıq. Zira İranda övraqi-həvadis olmadığından ancaq Tehranda olan qüssələri çəkirdik. Parijdə isə İranın hər nöqtəsindən əhvalat cəm edib (toplayıb) ruznamə (qəzet) və jurnallarda dərc edirlər. Biz isə oxuyub nə qədər qəmgin oluruq. Yəqin et ki, bu günlər Şeyx Fəzlülla və Şeyx Səlim və Mir Haşimlərin İranda oynadığı rolları Parij teatrlarında mövqeyi-tamaşaya qoyacaqlar. Bu saatda bizim yanımızda hazır olan bir firəng oğlu həmin zavatı (şəxsləri) birdən-birə yaxşı tərif edir.

Məktubun axırında yazırsınız:

Əfəndim xan, Berlin küçələrinin səfasına baxıb, Tehran küçələrində olan heyvanat cəmdəklərini nəzərə çək. Sizin İrana əvvəlcə elm və insaniyyət gərəkdir. Küçələrin də təmizliyi elm başındadır.

Bu sözlərə cavabən bizim də elmli olub avropalıları təqib etməyə, fransızlar kimi müdəbbirlik və milyardlarca pulun lüzumu dərpişdir (qarşıdadır).

Əfəndim, avropalılar ki, belə göz açmışlar xırda hökumətlərin, xüsusən təvanasız (bacarıqsız) İranın tərəqqisi müşkildir (çətindir).

Parijdə bizim bir çox görməli işlərimiz vardır ki, İsfəndiyar xanın naxoş olması mane olmuşdur.

Parijdə oxuyan İran tələbələri öz yoldaşları ilə bizi görmək üçün bu saatda otağımıza gəldiyindən naşi məktubu müxtəsər edirəm. Zənnimcə, sair Yevropa şəhərlərinə nisbətən Parijdə bizim üçün səfalı keçəcəkdir. Yer kürəsinin hər tərəfindən təhsil üçün Parijə gəlmiş minlərcə tələbənin içində 50 nəfər də iranlı oğlunu təhsildə görüb, necə şad və səfayab olmarıq?

Fransız tələbələrinin dediyinə baxmış, İran tələbələri artıq çalışqan və elmə rağibdirlər.

Məktubun cavabını aşağıdakı Viyana-Fransua Jozef rixtimində (limanında) "Metropol" mehmanxanasına göndərərsiniz.

Baqı cənabi-haqqa əmanət ol!

Məhəmmədhüseyn xan

"Təzə həyat", 16 mart 1908, №60, səh.2

### *Yeddinci məktub. Parisdən*

28 yanvar 1908-ci sənəyi-miladi.

Möhtərəm əfəndim!

Bu gün on üç gündür Parisdə səyahət edirik. Bu müddətdə Sizə məktub göndərmədiyimizə səbəb əhvalatı bir yerli şəxsə və müfəssələn Sizə məlum etmək məqsədimdir.

Parisin övzasını (vəziyyətini) 50 il Parisdə oturub səyahət edən bir kişi yenə layiqincə yazıb qurtara bilməz. Məhaza (bununla belə) Sizi xəbərdar etmək üçün icmalən bu kitabçanı təqdim edirəm.

Məlumunuz ola ki, on üç gün zərfində Parijdə məlumat alıb, bu əzim (böyük) şəhərin əhval və ümumi vəziyyətini yazdım. Bu böyük şəhər Fransanın şimal-qərbində "Sen" nəhrinin (çayının) iki sahilində bina edilib, Şərqdən qərbə doğru imtidad edilmişdir.

Uzunluğu 850, genişi 300061 metrə təxmin edilir ki, bir uca yerdən baxdıqda insan böht və heyrət içində qalır. Parijin yerli səkənəsi (sakinləri) bir milyondan mütəcaviz (artıq) olub, tələbə və tacirlər və müsafirlər ilə üç milyona yetişmişdir.

Paris şəhəri küçələrinin gözəlliyi və elmi təsisatlarının bərəkəti ilə cümlə Yevropa paytaxtlarına təfəvvüq etmişdir ki, dünyanın hər güşəsindən özünə tələbə və müsafir cəlb etmişdir.

Fransız milləti dünyanın cümlə millətləri arasında şöhrəti-faiqə qazanmış bir millətdir ki, cümlə məxluqu elmi, füyuzatı ilə feyzyab etmişdilər. Parij şəhərinin ən dilrüba bir məsirəsi varsa, o da yalnız "Sen" nəhri sahilidir. Necə ki, burasını cümlə səyyahlar düşünmüşdür ki, Yevropanın məşhur şəhərləri, ticarətgah olan bələdələri, bütün böyük paraxodlar (gəmilər) bu görücü nəhrlər sahilində bina edilmişdir.

Bizim darülfünunda müəllimdən eşidib və yainki gördüyümüz və gedib görəcəyimiz də Berlində məşhur "Spərə" nəhri, Parijdə "Sen" nəhri, Viyanada "Duna" nəhri, Londərədə "Temza" nəhri məşhurdur.

Avropaca bir paytaxt arasından nəhr (çay) keçməzsə, o şəhərin ticarətcə və siyasətcə bir əhəmiyyəti olmaz. Bundandır ki, "Sen" nəhri Parijə artıqca

zinət və şöhrət vermişdir.

Parijin havası mötədil olduğundan İsfəndiyar xanın naxoşluğu səhətə üz (doğru) tutmuşdursa da, Merana getmək həvəsindən düşməmişik. İndilik Parijin havası santiqrad hesabı ilə on altı dərəcəyə tənəzzül etmişdir.

Paris ilə Berlin arasında bizcə böyük təfavüt qoyulur.

Məsələn, Berlində ticarət və elmi-sənətdən başqa bir söz eşitmədiksə də, Parij camaatının zövqü-səfaya olan məhəbbətləri ağıla heyranlıq və hissiyyata ləzzət verir.

Məsələn, Berlində camaatı başlıca elm və sənətin tərəqqisi üçün daima bir dərin fikirdə qütəvər gördük. Parijdə isə ən fağır bir adamın günlük və iradətinin bir qismi zövqü-səfaya xərc olunmaqda mülahizə edirik.

Səid əfəndim, Berlində cümlənin axtardığı və arzu etdiyi elm, sənət, bir də ticarətdir. Parijdə isə ümumun tələb etdiyi şey hürriyyət və ümumi hürriyyətdir.

Parij xalqı hər xəyala məbni isə ümumin qüssəsi üçün sinəsini açar. Berlində isə özlərinə aid olmayan bir işə sinə açmaq deyil, eşitmək də istəməzlər.

Parij xalqı daima gülərüzlü olduğu halda, Berlin camaatında daima bir fikir, bir xəyal üzrə yaşadıqları mülahizə olunar. Bizim zənnimizcə, dünyada pul qazanmaq üçün evindən çıxan kişi Yevropanın hər səmtinə (tərəfinə) gedərsə getsin, amma pul sərf edib dünyanın nədən ibarət olduğunu bilmək istəyən kişi Parijə gəlməlidir.

Səidim! Parisin zövqü-səfasını bu qədər təriflənməkdən şübhələnmə! Məhaza (bununla belə), Parij şəhəri dünyamızın bir ümumi mədrəsəsi yerinə keçmişdir. Firənglərin elmi və fənni-füyuzatından feyzyab olmaq üçün yer kürəsinin hər tərəfindən müsafirlər və tələbələr bu şəhərə yığılmışdılar.

Burasını cümlə millətlər düşünmüşdür ki, bütün elmləri ərəblərdən sonra ingilislər təhiyyə edib, Berlində bir gözəl surətə təhvil edilib, fransızlar da bu elmləri öz lisanlarına (dillərinə) tərcümə etməklə sühulət və zinətə salmışdılar. Bəli, indilik demək olar ki, bütün aləmi-bəşəriyyəti feyzdar və kamkar etmişdilər.

Keçmişdə elmin anası yunanlılar idisə, indi isə həqiqətən fransızlara ikinci yunani-qədim söyləməlidir.

Fransada sair elmlərin təhiyyəsi başında çalışdıqları kimi, hüquq elmini də təzədən tövsi eləmişdilər (inkişaf etdirmişlər).

Müxtəsər, söyləməlidir ki, bugünkü gündə bir dil, bir kitab yoxdur ki, Parijdə uşaqlara təlim və tədris edilməsin. Beş qitənin şəhərləri deyil, 6-7 evli kənddə də bir nafe (lazımlı) kitab yazılmışdırsa, fransızlar onu əldə etməklə tərcümə edib, övladlarına verməkdədirlər.

Elm və fənlər, sənət və ticarət başında çalışan birləşmiş heyət Berlində olduğu kimi hökuməti dərhal buraxıb siyasət işində çalışmağa vadar etmişdilər.

A bay! Millətin hər bir ehtiyacını bir birləşmiş cəmiyyət öhdəsinə alıb ifa və bəca etməkdədirlər (yerinə yetirməkdədirlər).

Berlin elmi-cəmiyyətlərinə baxmış Parijdə ziraət cəmiyyətinin ittifaq və ittihadı təqdirə şayandır.

Fransızların etiqadınca milli sərvətin birinci xəzinəsi ziraətdir. Deyib "Ziraət cəmiyyəti"nə ziyadəcə əhəmiyyət vermişlər.

Fransız milləti zatən paxıl olmayaraq, məktəblərində, sənətxanalarında təlim alan dost və düşmən uşaqlarına fərq qoymadan tərbiyə və təlim etməklə cümlənin təhsinini (rəğbətini) qazanmışdılar.

Parisdə "Sənət cəmiyyəti"nin səy və təlaşı ilə bütün şəhərlərdə bir nəfər bikar (işsiz) və sənətsiz insan tapılmaz kimidir.

Məhəmmədhüseyn xan

"Təzə həyat", 17 mart 1908, №61, səh.2

\- 0 -

Parisdə dilə, əxlaqa və tarixə dair o qədər əsərlər, o qədər rəsmlər tədarük və tərsim edilmişdir ki, gündən-günə Fransa mətbuatının cavanlanmasına böyük isbatdır.

Fransızlar ümumi dilçiliyin təftişində o qədər çalışmışdılar ki, kürəyi-ərzdə iki min dərəcəsinə çatmış qədər təkəllüm edilən dillər haqqında məlumati-nafiə kəsb və əxz etmişlər. İndiyə qədər bircə tək İncili 358 dilə tərcümə edib, məccani (pulsuz) olaraq hər tərəfə dağıtmışlar.

Fransız millətinin artmağına ümdə (əsas) köməkçi ancaq bu işi ittixaz etmişlər. İslamlar (müsəlmanlar) öz Quranlarının həqiqi mənasını bilməyib də, tərəqqi etsinlər. Baxalım necə tərəqqi?!

Parijdə kor və kar kimsələr üçün hərflərin şəkilini təşkil edib, elm oxudurlar. Müsəlman da elmsiz qalmış. Şəhla gözlü cavanlarımıza bir ibrət daha!

Berlində olduğu kimi, Parijdə də füqəra və qeyrilərə tədavi üçün pulsuz və pullu xəstəxanalar vardır ki, cümlə cahanda mübahat ilə yad və dərxatir olunsa yerindədir.

Sədəqəyə möhtac olanlar üçün "Sədəqə cəmiyyəti" vardır ki, sədəqəni bir xəzinəyə cəm edib, müstəhəq kimsələrə dağıtmaqda əsla qüsur etmirlər.

Sədəqə alan kimsənin özündən başqa bir kəs bilmir ki, bu kişi sədəqəyə möhtacdır. Nə gözəl qanun!

Bundan naşidir ki, (buna görədir ki,) Parijdə on üç gün dolanıb bir nəfər

olsa da sail (dilənçi), əl açan görə bilmədik. Bizim müsəlmanlara gəldikdə pulları cümlə millətlərin pulundan ziyadə sərf edilir. Nərəyə?!

Hənuz (hələlik) söyləməyə əsrimiz etməyir. Deməkdən başqa cürət yoxdur. Ancaq burasını deməlidir ki, millətin bu qədər pulu sərf olunduqdan sonra yenə Tehran küçələrində sail qorxusundan ayaq götürmək mümkün deyil.

Parijdə yoldan çıxanları yola gətirmək, bədəqidə, fəna, məsləksiz və bədrəftarda olanları islahedici cəmiyyətlər vardır ki, hər birisi öz millətlərinə özlərincə böyük xidmətlər əda edirlər. Fransızlar ağacdan, daşdan adam töküb, fransız adını verirlər ki, cəmiyyətləri (əhalisi) artsın. Bizim mollanümalara gəldikdə bir nəfər elmsizlik, yainki (yaxud) səhv üzərinə bir xəlaf söz danışıb, sonra tövbə edərsə, yenə bir təzə məzhəb ilə adlandırıb, zövrən və cəbrən islamiyyətdən xaric edərlər. Budur ki, biçarə islam milləti, naxələf kimsələr yetmiş yerə bölünmüşlər. Yazıq millət!

Fransa camaatı dillərinə elə asanlıq vermişlər ki, hər yerə gedilsə orada firəng dili söyləməkdə bir çox adamlar görmək olar. Bu səbəbə mətbuatları daxildə sərf edilən miqdarın bir neçə mislini xaricdə rəğbət bulmuşdur. Bu sayədəndir ki, Fransa mətbuatı cümlədən ziyadə şöhrəti-kamilə qazanmışdır. Budur ki, Səid bəradərimə ən əvvəl Parij mətbuatından məlumat vermək istəyirəm.

Əfəndim, Fransada mətbuat aləmindən layiqincə məlumat kəsb edə bilmədiksə də, rəhnümalarından, yaxud öz dillərindən eşitdiyimizə görə, Fransada 6736 cür qəzet, jurnal nəşr və təb edilməkdədir. Bunlardan 4051 cürəsi vilayətlərdə, 2685-i Parij şəhərində nəşr olunmaqdadır. Bu sonrakıların içində 154-ü siyasi, 200-ü maliyyə işlərinə aid, 117-si modaya aid, 91-i fənni, 69-u ziraətə aid, 16-sı övrət məsələsinə dair, 215-i təbabətə dairdir. Bunların hər dəfə nəşr etdikləri, yəni hər növbədə çıxardıqları nömrələr yüz mindən başlayıb bir milyona qədər satıb pul olanı vardır.

Həftədə bir dəfə nəşr edilən kiçik bir qəzet hər dəfəsində üç yüz min nömrə satıb, pula yetirəndə, baxın firənglərdə tərəqqi nə dərəcəyə çatmışdır.

Fransada hürriyyəti-din, hürriyyəti-mətbuat, musavati-hüquq büsbütün paydar olduğundan mətbuat dəxi bir fövqəladə tərəqqiyə üz tutmuşdur. Fransızların fənn (texnika) və üluma olan rəğbətləri cümlə Yevropada, bəlkə bütün Yer kürəsində yaşayan kafə (bütün) insanda yoxdur. Ancaq Berlinə baxmış fransızlarda bir əxlaq pozğunluğu da mülahizə etdik ki, bunun da əhalinin artmağına bir çox sədəməsi var imiş.

Fransa ədəbiyyatı çox tərəqqi qıldığından cümlə millətin ədibləri bu ədəbiyyata vaqif olmaqla özlərini bəxtiyarədd edirlər.

Fransada ixtiraat və hər sənə çıxardıqları moda şeylər dünyanın hər

tərəfinə yayılıb. Fransaya bu sayədən bütün dünyanın qızıl-gümüşü cəm olmaqdadır. Bu il əcayib bir sənətə məşğul olan bir sənətkar gələn il özgə bir sənət icad və ixtira etmək istər.

Fransızların zövqi-səfaya və təmizliyə olan məhəbbətlərini isbata yetirən küçələri və bir çox təsisatlarıdır. Onların cümləsindən "Şanzalize" küçəsidir ki, tamaşaçı və səyyahlar ilə doludur. Dünyanın o başından çıxan bir səyyah "Şanzalize" deyib Parijə yürüməkdədir.

Bu küçənin boyu yeddi yüz metrə, genişliyi dörd yüz əlli metrə qədərdir. Küçənin bir başında səfası ağıllara heyrət verəcək "Konkurd" və o biri başında olan "Atual" meydanındakı "Taği-zəfər" fransızların mədəniyyətə olan xidmətlərini insanlara göstərməkdədir. Bunlardan başqa, dəxi "Kapusini" caddəsi, "İtalyan" bulvarı, "Runnovel", "Sivastapol" bulvarını da Sizə yazmalıyam. Bunların tərifini yazmaqla bu bir neçə səhifə deyil, bir divanda göndərilsə yenə qurtarmaz, zənnindəyəm.

Parijin ən sevməli, ən tamaşalı yerlərindən biri də "Eyfel" qülləsidir ki, qübbə səmaya çəkilib. Hər baxdıqca insanın qəlbindən fransızlar haqqında nələr xütur edir (keçir).

Bu qüllənin banisini və nə üçün bina olunduğunu "Darülfünuni-Nasiriyyə" müəllimi Sizə layiqincə əda etdiyindən burada təkrara lüzum görülmədi. Ancaq burasını söyləyirəm ki, işbu bürcün təpəsindən baxıldıqda "Sen" nəhrində cövlan edən (hərəkət edən) böyük paraxodlar bir xonça misalında görünürlər.

Qüllənin başında olan dükanlardan açıq məktublar və qüllənin surəti üstündə olan kağızlar satılır.

Parisdə muzeylərin, teatrların, Kral saraylarının və sair elmi təsisatların tamaşalarını yazacaq olarsam, əqəllən Parijdə iki il qalmaq lazım gəlir. Buna görə Parijin böyük kitabxanasından bir neçə kəlmə məlumat vermək istəyirəm.

Parijin "Viyoyen" küçəsində olan böyük kitabxananı ziyarət və tamaşa etdikdə fransızların elm və maarifə olan xidmətlərini görüb təhsin oxuduq. Bu kimi dövlətli bir kitabxana kürəyi-ərzdə (Yer kürəsində) yoxdur, deyilsə əsla mübaliğə edilməz. Bu kitabların fehristini (kataloqunu) yazmaq üçün bir komissiyanın otuz beş (35) ildən bəri çalışdığını bir fransız oğlandan eşitdik. Fəqət hənuz tamam olmamışdır, deyib sözünə xatimə çəkincə bizi böht və heyrət içində qoydu. Fehristə baxmış bütün kitabxanada üç (3) milyon basma kitab, iki (2) milyon da başqa əsərlər vardır. Buna görə də bir kitabxanada beş milyon kitab görən bir iranlı oğlu necə çaşmaz? Bu əsərlər müəlləd olaraq (cildlənərək) şüşə şkaflar içinə düzülmüşdür ki, müsafirlərin kafəsinə tamaşa üçün müsaidə verilmişdir.

Bunların cümləsindən sonra Parijdə "Sarbon" darülfünunu, "Kollej de Frans" və "İnstitu de frans" ali məktəb binaları dünyaya əngüştnüma olduğunu da yazmaq istəyirəm.

"Sarbon" darülfünununda bir neçə nəfər tehranlı tələbə olduğundan bizə içəri daxil olmağa izn verilib, müdir tərəfindən kamali-ehtiramla qəbul olunduq.

Ən əvvəl bizim nə üçün Parijə gəldiyimizi fransızca soruşub, yenə fransızca gəzmək və İrana maarif qapısı açıb, Parij məktəbləri ilə rabitədə bulunmaq cavabını bizdən alınca xoşhal olaraq bir neçə sualatda bulundu. Ən əvvəl harada və hansı darülfünunda elm təhsil edəcəyimizi soruşunca, Tehranda darülfünuni -"Nasiriyyə"də təhsili-elm elədik, - cavabını alıb, birdən-birə oturduğu kürsidən sərasimə qalxıb, müəlliminiz Qurbanəli xandırmı? Deyə soruşdu. Bizdən "Bəli" cavabını eşidərkən gözlərindən yaş tökməyə başladı. Biz müdiri bu halda görüncə ziyadə təəccübləndiksə də, müdir tərəfindən: "Oğlanlarım, təəccüb etməyin! Mən uşaqlıq günümü Parijdə Qurbanəli xanın məiyyətində keçirdim", cavabına nail olaraq sakit olduq.

Səid əfəndim! Bu münasibətlə biz də səni ağlaya-ağlaya yad edirik.

"Sarbon" darülfünunda on bir (11) min tələbə olub, içində fünun, ədəbiyyat, dini hikmət dərsləri təlim edilir. Darülfünunun özünə məxsus kitabxanasında yüz min kitab olduğu müayinə və tamaşa edildi. Darülfünunun özünə məxsus alat və ədəvati-fənniyyəsi (texniki avadanlığı), havi bir hikmətxanası, mükəmməl bir kimyaxanasını da müdir cənabları bizə nişan verdi. Filvaqe (həqiqətən), fransızların cümləsi məhbubül-qülubsa da müdir cənabları ən safdil, ən müsahib bir adamdır.

"Kollej de Frans" məktəbi ən əvvəl Fransa kralı birinci Fransua tərəfindən təsis edilib, 1530 sənəyi-miladiyyəsini yalnız yunan vilayəti Fransa dillərini təhsil edilmək üçün təsis edilmişdi. Fəqət vüsət tapa-tapa bir darülmaarif surətini kəsb etmişdir. Burada dərslər tamamilə ücrətsizdir (pulsuzdur).

Bu ali mədrəsədə və başqa məktəblərdə hər növ fünuna dair qırx növ dərslər oxunur.

"İnstitu de frans"a gəldikdə şöbələrə münqəsim olaraq, cümləsində 200 nəfər əza (üzvlər) olub ki, hər birisi Fransanın məşahir üləma və üdəbasındandır (alim və ədiblərindəndir). Burada dəxi Fransada Akademiya təsmiyə edilir. Bu Akademiyada əza (üzv) olan bir adam hər növ ülumda dərəcəyi-ikmala çatmış olduğu müdirləri tərəfindən bizə söylənildi.

Parijdə fransızların ən mühüm, ən əvvəlinci istədikləri "Panteon" deyilən məqbəri-məşahirdir. Panteon böyük və cəsim (əzəmətli) bir binadır ki, bura əvvəllər məbədgah olub. Fransanın "İxtilali-Kəbir" zamanında buranı məbədlikdən çıxarıb, vətənə, millətə ən böyük xidmət edən məşahir üçün məqbər

ittixaz edilmişdir. Və üzərinə: "Böyük adamlara vətən minnətdardır" yazıldığı İsfəndiyar xan tərəfindən oxundu. Burada gördüyümüz tabut və əşyaların tərifini yazarsam bir ay vaxt istər. Buraları seyr və tamaşa üçün bilet almaq lazım gəlir. Burada dəfn olan zatların (şəxslərin) cümləsindən mərmər tabutlarda Viktor Hüqo, Jan Jak Russo, Volter, Maramirbu, Laqranj kimi böyük kimsələrdir.

Parijin görməli yerlərindən biri də "Boloniya" meşəsi idi ki, tamaşa etdik. Bu saatda yanımızda hazır olan İran tələbələrinin başçılarından Səfər xan, Rüstəm bəy, Haşım xan Sizə və Sizin yoldaşınız Salman bəyə ərzi-salami-xüluskaranə təqdim edirlər. Cümləsinin kartoçkasını (şəkillərini) məktub içində göndərdiyimdən adbaad yazmağı artıq hesab edirəm.

Bu gün Parijdə oxuduğum bir teleqramda İran heyəti-vüzərası (nazirlər heyəti) tamamilə istefa vermişsə də, millət vəkilləri qəbul etməmişdir.

İran xüsusunda müfəssəl bir məktubla İstanbulda "Rum eli" mehmanxanasında rəfiqinizi yadbud edəsiniz. Sabah Parijdən hərəkətən (hərəkət edərək) Merana gedəcəyik.

Məhəmmədhüseyn xan

"Təzə həyat", 18 mart 1908, №62, səh.2-3

### *Səkkizinci məktub. Merandan*

6 fevral 1908-ci sənəyi-miladi

Hörmətli bəradərim Səidə!

Bu gün iki günə çatıbdır ki, Meran şəhərindəyik. Filvaqe (həqiqətən),Meran şəhəri ən səfalı, ən mötədil bir məkan olub, Avstriyanın Tirol qitəsində Alp nam gözəllik ilə məşhur olan dağların ağuşuna sıxılmışdır. Bu şəhərdə salamat insanlar üçün zövqi-səfa müyəssərsə, səyahətçiləri hamısı naxoşdurlar. Buranın havası çox müsaid olduğundan "Qanazlığı" "Asma", "Şiş" və əsəb xəstəliklərinə düçar olan adamlar tədavi (müalicə) üçün hamısı buraya yığılmışdır.

Səidim! Merana vasil olan kimi (çatdıqda) İsfəndiyar xanı müalicə üçün təbiblərə nişan verdim. İsfəndiyar xanın bir xəstəliyi olmadığından yüngül başa sürtmə dərmanlar verib, üç gündən artıq Meranda qalmamağımızı məsləhət gördü. Zira burada olanların çoxu naxoş və naümid adamlardır. Şəhərin səfası artıqsa da, naxoş və saralmış adamları gördükdə insan, həqiqətən, özlüyündən naümid olur. Buna görə sabah buradan çıxmaq və Vianaya yollanmaq həvəsindəyik.

Baqi davami-səhətinizdir
Məhəmmədhüseyn xan

*Doqquzuncu məktub. Vyanadan*

12 fevral 1908-ci sənəyi-miladi.

Hörmətli Səidim!

Vyana şəhərinə vasil olub (çatıb), mehmanxana müdirindən bir parça məktubunuzu alıb, ziyarət etdim. Məktubun əvvəlində (Bağışla bəradər! naxoş olduğuma cəhət məktubu icmalən yazdım) kəlmələrindən ziyadəsilə qəmgin olub, bir yəsinagəhanə düçar omuş kimi məktubun ardını oxumağa cürət edə bilmədim.

Əcəba, Sizdə bu məhzuniyyət, bu nəqahət (kefsizlik) haradan nəşət edir? Hər halda qəlbiniz mükəddərsə də, Sizi məşğul etmək üçün Vyananın vəziyyətini yazmaq istəyirəm.

Məlumunuz olsun ki, sair Yevropa şəhərlərinə nisbət Vyana şəhəri qayət səfalı bir şəhir (məşhur) şəhərdir. Bu şəhər Vyana namında kiçik bir nəhr ilə Duna əzim nəhrindən münşəib olan bir şöbənin nöqtəyi-ictimaındadır.

Vyana şəhəri geniş və vəsi bir düzün ortasında olub, Duna nəhrindən başqa cəhətlərini (tərəflərini) səfalı və şöhrətli təpələr əhatə etmişdir.

Vyana bir çox müəssisat ilə müftəxər olub (iftixar edərək) ki, cümləsi elmə, fənnə, ticarət və sənətə dairdir.

Vyana darülmaarifi 1355 sənəyi-miladisində təsis edilib, 1849-cu sənəsində tənzim və təslih edilmişdir.

Darülfünun tamaşasını "Ringstras" caddəsində Avstriya Məclisi-məbusan ilə birlikdə ziyarət və tamaşa elədik. Etdikdə avstriyalıların istedadi-xudadadına (Allah tərəfindən verilmiş istedad) əhsənlər söylədik.

Darülfünunda altı mindən ziyadə tələbə olub, üç yüz qırx yeddi müdərris və müəllim var. Elmi-tibb, elmi-heyət, elmi-hikmət, elmi-nəbatat, kimya və təşrih və dini elmlər təlim və tədris edilir.

Vyananın kitabxanası Berlin kitabxanasını təfəvvüq edib (üstələyib), Parij kitabxanasını da təqib etməkdədir.

Vyana İmperator kitabxanasını tamaşa edən bir müsafir kitabxana icadının Yevropada nə üçün qabağa getdiyini düşünür.

Vyana cəmiyyəti-elmiyyəsi arasında ülumi-mütənəvviə cəmiyyəti millətlərinə artıq xidmətlər etmişdir.

Vyanada xeyrat və mübərrat təsisatı çoxsa da, xəstəxanayi-ümumi bunların cümləsini geridə qoymuşdur. Bu xəstəxanada üç min çarpayı, üç yüzdən artıq təbib (həkim) vardır.

Avstriyada sair Yevropa şəhərlərində görmədiyimiz bir iş gördüksə, o da övrətlərin doğmaları üçün inşa edilmiş xəstəxanadır.

Həqiqətən, belə bir əsas Vyana xalqına böyük bir istirahət olmuşdur ki, uşaqların doğulan zamanda naqabil (bacarıqsız) qabilələrin (mamaların) əlində şikəst olmasına bir sədd çəkmişdilər.

Vyanada kor-karlara məxsus ali məktəblərin çoxunu gəzib, cümlə Yevropa paytaxtlarına faiq dərəcədə gördük.

Bəninövi-bəşərə (insanlara) ən dana (bilikli) adamlardan başlamış, ən əsfəl (aşağı, bacarıqsız) dərəcədə olan adamlara da lazım bütün şeylər Vyanada işlənməkdədir.

Bunların cümləsindən başqa, Yevropada Berlin və Parij mallarında görülən mətanət Avstriya mallarında görülməz, söyləməlidir.

Vyanada bulvarda gəzən səyyahlara vaxt-bivaxt əsən küləklər ziyadəcə əcz varid edir.

Avstriya bulvarları qayət gəzməlisə də, Vyananın "Fransua Jozef" rıxtımında (limanında) səyyahlar üçün xoş və xürrəm keçirmiş.

Avstriya kişiləri bir tənasüb əndamda olub, xəvatin (xatunlar) və qızların üzündən ali bir nəcabət və iffət tökülməkdədir.

Vyanada başlıca tamaşa ediləcək yerlərdən birisi də "Hufburq" nam imperator sarayı olub. Bir para cavahirat və sair görməyə şayan (layiq) əşyalar nümayiş edilir.

Həqiqətən nəsaraların (xaçpərəstlərin) bir para etiqadları şayani-təqdir işdir. Bunların cümləsindən həzrəti-İsa əleyhissəlam səlb etdikləri vaxt sinəsinə sancılan bir qədim xəncər və sair alatlar saxlanmışdır ki, mislini (tayını) bütün Yevropada görə bilmədik.

Vyananın "Prater" adlanan meşəsini tamaşa etdikdə Parijin "Boloniya" meşəsini büsbütün lövhi-xəyaldan məhv etdik (unutduq). Bu meşənin caddələri saf və təmiz olduğu kimi, tərbiyə edilməmiş, ustad əli dəyməmiş bir ağac, bir budaq qalmamışdır.

Vyanada "Vindik" ismində bağça hazırlanmışdır ki, İtaliyanın səfası ilə məşhur olan "Vindik" timsalını göstərmişlər. Dörd tərəfindən kanallar açıb, tamaşaçıları qayıqlar ilə gəzdirirlər. Aralarda, yəni məsnui (süni) adalarda restoranlar və qəhvəxanalar inşa edilmişdir.

Avstriyalıların ağıllara heyrət verəcək himmətləri bizi də heyran qoymuşdur. Nasıl heyrətdə qalmarıq ki, zirəng nəsaralar dünya içində dünya yaratmışlar.

Vyanada avstriyalılar heyvanat və nəbatat elmləri barəsində sair Yevropa millətlərindən geridə qalmamışlar.

Vyanada böyük binanı nəhayət dost tutduqlarından belə binalar Vyanada çox artıbdır. Vyanada elə bina vardır ki, içində on min nəfər iskan edənlər (sakin olanlar) da vardır.

Belə-belə yazıları yazmaqla naxoş vaxtınızda başağrısı verməkdən çəkindim.

Baqi ehtirami-tam.

Məhəmmədhüseyn xan

"Təzə həyat", 20 mart 1908, №63, səh.2

18 fevral 1908-ci sənəyi-miladi.

Möhtərəm Səid!

İstanbul şəhərinə, yəni məqərri-xilafəti-islam (Müsəlmanların xilafət mərkəzi) və Osmaniyəyə dörd gündür varid olub, o gündən bəri bizi bir hüzn, bir kədər çulğalamışdır.

İstanbul şəhəri rumlardan qalma məşhur bir şəhər olub, müəssisinin (banisinin) ismilə "Konstantinopol" (Qüstəntəniyyə) adlanmışdır.

Coğrafi mövqeyinin əhəmiyyəti, şəhərin nizafəti və şöhrəti sair Yevropa paytaxtlarını təfəvvüq etmişdir (üstələmişdir).

İstanbul şəhəri Qara dəniz ilə Mərmərə dənizi arasındakı boğazın iki sahilində bina olunmuş, üç cəhətdən (tərəfdən) mürəkkəbdir. Bir milyondan artıq əhalisi olduğu bəzi jurnallarda oxunur. Müsafir və tüccarları ilə iki milyon əhaliyə havi bir əzim şəhərdir ki, indilik aləmi-islama mərcə və məlcə sayılır.

Birinci qism əsl şəhər olub, Qüstəntiniyyə xəlici (körfəzi) Qızıl buynuz təsmiyə edilmiş liman ilə Mərmərə dənizi arasında yeddi təpə üstündə bina edilmiş yeddi cameyi-şərif səyyahların təhsinini qazanmışdır.

İkinci qism Qəltə bəy oğludur. Xəlicin (körfəzin) şimal cəhətində (tərəfində) əsl şəhərə iki nəhəng körpü ilə tutuşan Padşah sarayı "Ulduz köşkü" bu tərəfdədir.

Üçüncü qism boğazın Anadolu sahilinə bina edilmiş Üsküdar şəhəridir ki, ab-havası ilə səyyahları tənəzzühəyə etməkdədir.

İstanbul şəhəri sair Yevropa paytaxtlarına bənzərsə də, yenə böyük bir təfavütü vardır. O da ancaq hər kəsin öz milli qiyafətində gəzməsidir ki, İstanbul şəhərini insan sərgisinə oxşadır. İstanbul caddələrində Avropa paytaxtlarına şibahət (oxşar) varsa da, fəqət "Babi-ali" caddəsidir. Bu caddədə türk məhkəmələri, kitabxana, mətbəə və mağazalardır.

İstanbulda bir çox nəhəng binalar vardır ki, Berlin, Brüssel və Parij binalarına sinəyi-iftixar vermişdir. Çox təəssüf ki, Berlində və sair yerlərdə belə binaların bütün fabrika millət məclislərindən ibarət olduğu halda, İstanbulda belə binaların cümləsi məscidlər və qədim üsulu təqib edən təkyələrdir.

İstanbulda və cüvarda (ətrafda) səkkiz yüz cameyi-şərif olduğunu rəhnümada oxuduq. Amma millətə nafe bir fabrika-zavod görə bilmədik.

İstanbulda məhkəmələr başında olan bandirələrdən məlum olur ki, burada İslam hökuməti vardır. Amma İstanbulda hər dövlət öz poçtası ilə əşya daşıdığına baxınca, burada hökumət yoxdur nəzərə gəlir.

İstanbulda küçələrdə hər tərəfdə jandarma və zabitlər göründüyündən

sultan millətdən həras edir (qorxur) kimi görünür. Budur ki, camaatın gözün və ağzın bağlamışdır. Buna şahid mehmanxanamızda xadim olan cavan türk oğlundan Osmanlı üsuli-idarəsini xəbər aldıqda:

Əfəndim, məni əfv et! Bu barədə laqqırtıya malik və qadir deyiləm, söylədi. Nə üçün dedikdə: "Mehmanxanamızın qarşısındakı kürsilərin üstündə oturan zabitlərin gözləri bizim ağzımıza tikilmişdir", - cavabını aldım.

Səid əfəndim, həqiqətən Türkiyə üsuli-idarəsi türklərə cəhənnəm əzabını dünyada çəkdirir. Bununla belə, İstanbul şəhəri dünyamızda əngüştnüma olub, gözəlliyi ilə məşhurdur.

Camelərin yanında bir qəhvə dükanı tikilmişdir ki, Berlin şəhərinin teatrları, Parisin heyvanat bağçası, Vyananın "Prater" meşəsi, Brüssel şəhərinin dəmiryol mövqifi (dayanacağı) kimi qələbəlikdir.

Osmanlı hökuməti məmləkətinə və mədaxilinə baxmış, çox əsgər ziri-silahda saxlayır.

Osmanlı əsgərləri çalışqan olduğu kimi surət və simalarından bir məhabət, bir şücaət görsənir. Zabit və ofiserlərə gəldikdə söhbətə və laqqırtıya mayil olub, tənbəl-tənbəl axşama qədər qəhvəxanalarda oturmağa və vaxt keçirməyə adət etmişdilər.

Osmanlı məktəblərinin birincisi olan "Məktəbi-Sultaniyyə"ni tamaşa etdik. Orada əksər dərslər fransızca olduğunu müdir cənablarından xəbər aldıq. Bu məktəbdə hər millətdən minə qədər şagird olub, yeyib-içmələrinin də orada olduğunu da bildik.

Bu məktəbdə əqayid, ərəbcə-farsca fiqh, kitabət, bəlağəti-Osmaniyyə, əxlaq, tərbiyə, tarixi-Osmani, hüsni-xətt, üsuli-tərcümə, hifzi-səhhət, hesab, coğrafiya, rəsm, tarix, həndəsə, tarixi-təbii, kosmoqrafiya, hikmət, kimya, məadin, üsuli-dəftəri, cəbr, müsəlləsat (triqonametriya), istənilən dillər: rumca, ingiliscə, almanca, italyanca, latıncadır.

Osmanlıda bu məktəb Yevropa məktəblərinə müqabil duracaq iqtidarına malikdir.

Bundan başqa "Məktəbi-mülkiyyəyi-ədadi" bizi şadlandıracaq dərəcədədir.

Türkiyədə fərəhəfza (sevindirici) olan bir yer varsa, ancaq məktəblərdir.

Türkiyə hökuməti sair islam hökumətləri kimi övrətləri, qızları elmdən məhrum qoymayıb, qızlar üçün gecə-gündüz və sənaye məktəbləri də açdırmışdır.

İstanbulun hərbiyyə məktəbi Yevropa hərbi məktəblərindən əsla geridə qalmamışdır. Osmanlının hərbiyyə məktəbi bir çox təlimli komandanlar yetişdirməkdədir ki, burasını bəhsə lüzum yoxdur.

Bəhriyyə (dənizçilik) məktəbinə gəldikdə ingilis bəhriyyəsi üsulunu

təqib edirmiş (davam edirmiş).

Sözü müxtəsər söyləməliyəm ki, Yevropada nə vardırsa Türkiyədə də mövcuddur. Amma Yevropada feln (işlə) olduğu kimi, hənuz Türkiyədə sözlə söylənilir. Bu isə idarəyi-müstəbidənin zülmündəndir ki, camaat öz sənət və iqtidarını zühura gətirməyə meydan tapmır.

İstanbulda 45 (qırx beş) ədəd kitabxana olub, cümləsi yüz min kitaba malikdir. Türkiyə kitabxanalarının belə tənəzzülə bais hürriyyəti-mətbuatın qapalı olmasından naşidir.

Bu axırıncı məktubumdur ki, Sizə yazdım. Fevralın 20-də İstanbuldan hərəkət edəcəyik. Məzkur ayın sonunda Culfa dəmiryol dayanacağında Tehrana məiyyətinizlə getmək üçün kiçik qardaşlarınızın intizarını çəkərsiniz.

Baqi davami-səhhət və izdiyadi-himmətinizdir.

Məhəmmədhüseyn xan, İsfəndiyar xan.

Məmməd Səid Ordubadi, "Təzə həyat", 21 mart 1908, №64, səh.2

QƏFLƏT

*Türkcə mənzum bir əsərdir.*
*Yazanı: Məmməd Hacıağa zadə (oğlu),*
*mütəxəllis be Səid Ordubadi*
*"Qeyrət" mətbəəsi heyəti;*
*1324 hicri = 1906 miladi*

## BİR-İKİ SÖZ

Bugünkü halımızda camaatı oxumağa həvəsləndirməyin ən gödək yolu, bizcə, açıq dil ilə yazılan kiçik-kiçik faydalı kitablardır. Bu cür kitabları camaat arasında nəşr etmək üçün qonşu millətlərin hamısında məxsus cəmiyyətlər, çapxanalar, kitabxanalar vardır.

Belə faydalı və vacibli cəmiyyətlərin bizdə də olması üçün əlimizdən gəldiyi qədər çalışdıq. Bir çox yerlərə müraciət etdik. Lakin axırda cəmiyyət təşkili haqqındakı ümidimizin boşa çıxdığın görüb, çar-naçar öz tək əlimizdən gələn işə başlamağa məcbur olduq. Və məsləkimizdən naümid olmayıb, camaata faydalı və açıq dil ilə yazılan xırda əsərləri kamali-məmnuniyyətlə qəbul edib, öz xərcimizlə çap edib, nəşr etməyi fağır və çarəsizliyimizə baxmayıb, öhdəmizə götürürük.

"Qəflət" nəşri-savad qəsdilə çıxardığımız əsərlərin əvvəlincisidir. Ümid ki, bundan sonra həmiyyətli yazıçılarımızın, tacirlərimizin köməyi ilə bu kimi əsərlərin çoxlu nəşrinə müvəffəq olaq.

*"Qeyrət" heyəti namına:*
*Ömər Faiq Nemanzadə*

## BİSMİLLAH TAALA!

Mərg xoş, qəflətara zinəfəs olmaqdansa,
Tayiri-ömrə xəbərsiz qəfəs olmaqdansa.
Buluram kəndi həyatıma müqəddəm əcəli,
Qonşudan elmü maarifdə pəs olmaqdansa.
Batasan, xoşdu cəvahir kimi dərya suyuna,
Ləbi-dəryada çıxan xarü xəs olmaqdansa.
Razıyam güşəyi-zəhmətdə qalam həşrə kimi,
Dolanan dağ-daşı, balsız məgəs olmaqdansa.
Şakir ol, ac-susuz ömr elə, get hürr yaşa,
Hər cəfakara gedib mültəməs olmaqdansa.
Göstər ey arifü kamil, kəs həlakətdə riza,
Düşmən oğlu sənə fəryadrəs olmaqdansa.
Dilini bağla, tut ahəstə yeriş naqə kimi,
Çağıran Xızrını bangi-cərəs olmaqdansa.
Yaxşıdır taxteyi-tabuta süvar olsa kişi,

Töhməti-xalqa mənləmiş fərəs olmaqdansa.
Sirrini söyləmə məxluqə, apar qəbirə Səid,
Dağ başından yoxa yox gəlmə səs olmaqdansa.

## XABİ-QƏFLƏT

Dur ey qafil yatan könlüm, oyan bu xabi-qəflətdən,
Sənə yoxdur səmər hərgiz bu bica istirahətdən.
Təmamən xəlq olub bidar avazi-müəzzindən,
Dur ey aludəyi-qəflət, göz aç bir dəm kəsalətdən.
Ülüvvüləbsar olan sübh olmamış bidar olur bişək,
Deyil insani-kamil, durmayan xabi-cəhalətdən.
Gözün varsa hürriyyət ziyasından götür hissə,
Yaşa insanca, insanlar tək azad ol əsarətdən.
Təlaş əyyamı, hürriyyət zamanı, iş məqamıdır,
Mənə söylə görüm kim müştərih olmuş səfalətdən?
Nə yatdın ey müsafir, sübh açıldı, karvan köçdü,
Uzun, tək, purxətər mənzil, səmər yoxdur bu rahətdən.
Demə mən şir idim, həm mən şübaət arslanı idim,
Tökərlər başına elm ilə bu xaki-məzəllətdən.
Qarışqa elmdən dərk etsə, baxmaz zuri-bazuyə,
Bir alim kimsə xövf etməz bir aləm zurü qüvvətdən.
Gər olsa əksəriyyətlə camaat hakimə məhkum,
Bir hikmət alimi xövf etməz ali bir hökumətdən.
Ərəbdən aləmi tutdu şübaət şəmsi-aləm tək,
Xəbərdar oldu hər səhraneşin əmri-riyasətdən.
Üzün göstərdi gün tək xalqa, axır gün kimi batdı,
Bu gün yox bir əsər namı, dünənki bir əyalətdən.
Əzəldən yağdılar beş qitəyə elm ilə baran tək,
Vəli sonra "Nifaq" onları boş qıldı siyasətdən.
Ziyalı pişvalardan sonra elmin də bünyanı,
Fəna bir hala düşdü, dərmiyan olmuş ədavətdən.
Gər elm olsa, qoyub getməzdilər İspaniya mülkün,
Oda baxmazdılar ərbabi-fikri nari-həsrətdən.
Sevilya[1] şəhərinə möhnət yağar əlqəsr bamından
Həman qəsri bulur ispanyollar növi-zinətdən.
Kilsə şəklin almış "Qürtəbə"[2] şəhərində bir came,
Ümumən milləti-islama bir heykəldi ibrətdən.

*1. Ərəbcə "Əşbəliyyə" İspaniyanın Sevilya şəhərində ərəblərin boşladığı bir qəsrdir.*
*2. Ərəblərdən sonra bir böyük məbədi ispaniyalılar kilsə etmişdilər.*

Qalır "Qrenada"da bisahib "Əl-Həmra"[1], "Əl-Beyza".
Müsəmmadır ərəb sultanına məxsus imarətdən.
Yetib bielmlikdən min müsibət sinfi-islama,
Təfavüt eyləməz şahü gədadan, ya rəiyyətdən.
Könül, dərk eylə elm, elm ilədir asayişi-kövneyn,
Əgər elm olmasa, çıxmaz səadət bu həqarətdən.
Əzizim, sən vəzir oldun, özün bielm bitməgin,
Verərsən milləti badi-fənayə boş vəzarətdən.
Yəqinən kordur aləmdə hər bielm olan gözlü,
Cahanı gəzməmiş görmək olur dərs kitabətdən.
Neçunki elmlə nəqşə çəkiblər kürəyi-ərzə,
Gəlir çox iş zühura belə elmü bu məharətdən.
Bu az sinnimdə yüz miskini mən gördüm zəlalətdə,
Kənara çəkdi elm ilə özün bəhri-zəlalətdən.
Gər olsa dövləti, etsə ticarət bir nəfər bielm,
Min il ömr eyləsə, görməz səmər belə ticarətdən.
Çətindir zindəganlıq, müxtəsər bielm olan şəxsə,
Səmər yox elmsiz dünyada, hərgiz malü dövlətdən.
O kəs kim, elmdən bibəhrədir, bilmə yəqin əhli,
Nişanə görməsən bielmdə rəsmi-sədaqətdən.
Əzizim, elmlə imanı tapmaq tez olur mümkün,
Vəli imanı yalqız tapsaq, olmaz boş ibadətdən.
Gərək elm ilə insanoğlu qardaş, həqşünas olsun,
Xudanı bil Xuda, ondan sonra dəm vur itaətdən.
Xudanı görməyib bir kimsə, lakin elmlə tapmış,
Deməm bielmlər agəh deyillər dərsi-vəhdətdən.
Əzizim, "Sənəti-kamil" olur insana sərmayə,
Qoca vaxtında insanı qılar asudə zəhmətdən.
Məni biəql bil, biəqldən tək-tək çıxar xoş söz,
Xoş işdir əmri-sənət səltənətdən, bil qənimətdən.
Gedər sənət sən ilə hər məkana, səltənət getməz,
Ola gər sənət ilə səltənət, başla qənaətdən.
Xaraba yerlər elmü sənət ilə oldu Yevropa,
Amerika oldu vəhşilər məkanı, elmə xidmətdən.
Alır bir pud çuqundan indi Alman əhli yüz rubla,
Vəli bizlər ucuz verrik, giran alıq camaətdən.
Fransaya gedərkən bax bir Eyfel* bürcünə memar,

*1. İspaniyada Qrenada bələdəsində ərəblərdən qalma məşhur "Əl-Həmra" və "Əl-Beyza" sarayları indiyə kimi şəhəri təzyin etməkdədir.*
** Paris şəhərində Eyfel adlı bir mühəndisin Sen nəhri sahilində bina etdiyi məşhur bir qüllədir.*

Deyil mənzurumuz bu sözləri yazmaqda midhətdən.
Çox adamlar gəzib dünyanı, heç isti-soyuq bilməz,
Necə bir şüşə bəs adlandı "Mizanül-hərarət"dən.
Sənə mümkün deyil saz eyləmək yer üzrə ərradə,
Balon tərtib olub seyrü səmavat içrə sənətdən.
Deyin ol şairə çox da çürütmə Qeysi, Fərhadı,
Olar səhranişin olmuşdular eyni-səfahətdən.
Səni həqq, əl çək ol bikəslərin əzəm rəmi-mindən,
Bu xalqı bəndə çəkmə, qıl həzər ruzi-qiymətdən.
Min ildir etməz məxluqu ləğviyyat ilə məşğul,
Necə bu milləti-biçarə çıxsın ziri-töhmətdən?
Sizə məşğul olub, qılsın ibadət, yaki, qəm çəksin?
Qəzəl bazarı keçdi, düşdü şahbeyt qiymətdən.
Dəxi tərif qılma dilbərin zülfi-pərişanın,
Pərişan eylədiz islamı, xali qaldı behcətdən.
Mənə göstərmə bundan sonra yarın çeşmi-şəhlasın,
Solub gülüzlülər gülşəndə, gül düşdü təravətdən.
Düşüb gözlərdən ey biçarə, yarın qədi-mövzunu,
Qiyamət olsa da, əl çəkməzsiz bu sərv qamətdən.
Politikanı tapıb həmsayələr, fəsx etdilər nazı,
Biz axşama kimi söhbət edək nazü nəzakətdən.
Keçən il bir sənəm gördüm, deyib bir ildə vəsf etmə!
Çək əl bu hərzəlikdən, qıl həzər ruzi-qiyamətdən.
Bu əsrin aşiqi yeksər olublar aşiqi-sənət,
Nədir "Leyla", nədir "Şirin", əl çək bu hekayətdən.
Demə "Bülbül" adın, bülbül kimi dünyada yox tənbəl,
Yazın güllər yanında lal olar, qış gəlsə üsrətdən.
Demə "Gül", gül solur axırda, gül övraqi-hikmətdir,
Əcəb güllər dərərsən, yad qılsan dərsi-hikmətdən.
Gülüstanı görərsən, gər nəzər qılsan təvarixə,
Ki, heç mövsümdə xali olmaz ol gülzari-nüzhətdən.
O bülbül ki, deyəllər quş deyil, biçarə səhvin var,
O tifl dərsxandır, ari olmuş hər qəbahətdən.
Züleyxanı mənə vermə nişan, bir də işim yoxdur,
Onu kim bilmədi, Yusifi qurtardı çahi-zülmətdən.
Tutum ki, Vamiqi-biçarə pabənd oldu Üzrayə,
Bəradər, bir qəpik çıxmaz bu izhari-məhəbbətdən.
Məhəbbət riştəsi axırda simsiz teleqram oldu,
Verər bir gündə məşriqdən xəbər, hər bir təriqətdən.

Yadında vardı keçmişlərdə "Teyyül-ərz" eşitmişdin,
Dəmiryol bir günə seyr eyləyir on gün məsafətdən.
Bəsirətdən demə axır, bəsirət oldu bir eynək,*
Görüllər bağlı sandığın için, ol babəsirətdən.
* * *
Çəməndir məktəbi-aliyyələr ətfali-islama,
Müəllimlər əgər əl çəkməsə təlimü diqqətdən.
Amandır ey müəllim, rəhm qıl, Quranı xar etmə!
Nə bilsin kudəki-şeş salə təlimi-qiraətdən.
Əzəl şəri məsail öyrədib, ondan sora Quran,
Necə Quran verərsən bir kəsə, bilməz təharətdən?
Özün əbcəd bilib, şagirdə öyrətmə rəsaildən,
Məcaz əhli olan bicadı dəm vursa həqiqətdən.
Necə təhsil qıldız, görmədi dünyada bir kimsə,
Yəqin bu elmi Siz dərk eylədiz elmi-qiyafətdən.
Belə məlum olur elmi-hüsuli var cənabızda,
Bizi məhrum qılmaq ruzi-məhşərdə şəfaətdən.
Aman ol gün peyğəmbər cəm edər bu ümmətin yeksər,
Deyər: Molla, ver ol pulları kim, aldın bu ümmətdən.
Sizə dünyada heç bir kimsə yoxdur imtahan tutsun,
Qiyamətdə keçərsiz cümlə mizani-ədalətdən.
Səni həqq, çox müəttəl qoyma bu əbnayi-islamı,
Biz indi bildik elmiz yox, bu iş bədtərdir sirqətdən.
Gər elmin yoxdursa insaf qıl, molla,
Tərəqqi şöhrəti indi çıxıb hər bir vilayətdən.
Könül, bir huşa gəl, bica yerə ömri-cavan getdi,
Rəfiqi boşla, əl çək yardan, seyrü-səyahətdən.
Bura dünyadı, çoxları çıxarmış yerdən eyvanə,
Vəli çoxları da salmış yerə eyvan rüfətdən.
Çox aşiqlər gəzər asudəxatir öz həbibi ilə,
Görürsən axırı məcnun olurlar dərdi-firqətdən.
Dur ey müslim, göz ac, durdu sən ilə yatmış həmsayə,
Yolu nisf etdi yoldaşın, usan bir bu bətalətdən.
Belə yatmaqda mənzurun nədir ey binəva millət?
Hanı məktəblərin, nə oldu dilin, tutdun rəzalətdən?
Kimə oldun ümid, atdın kənara elmi bilmərrə?
Hanı səndə olan əvvəlki qüvvət, həm mətanətdən?
Hanı ol vaxtın ey millət, olurdun şöhrəyi-aləm?

**Rutkin şüası.*

Nə üçün çıxmazsan ey biçarə, indi künci-izlətdən?
İki gözdən baxan indi gərək hər yanı seyr etsin,
Camaət aləmə malik olublar məhz himmətdən.
Biri çıxmış havada seyr edər yüz min xəyal ilə,
Kimi dağlarda hər cür axtarırlar mədəniyyətdən.
Birisi qüvvəyi-əqliyyəsilə yer üzün ölçüb,
Kimisi əlli il fikr eyləyir bu əsli-fırqətdən.
Birisi durbin ilə baxır Şəmsi-Xüdavəndə,
Biri Germaniyada fikr edər bir tazə saətdən.
Birisi aləmi heyran qoyur səs maşinası ilə,
Əgər fikr eyləsən qurtarmazsan dəryayi-heyrətdən.
Hanı İsgəndərü Dara ki, ləşgər çəkdi zülmata?
Elektir çıxdı, məhv oldu qaranlıq adı zülmətdən.
Gedirdi kuhi-Qafa, su üzündən olmadı mümkün,
Uzaqdır bu sözüm İsgəndərin şənində şöhrətən.
Deyin görsün necə cövlan edər bu cəngi kəştilər,
Yəqinən görsə bu minaları, durmaz xəcalətdən.
Hanı Rüstəm ki, cəng eylərdi daim bir kəman ilə?
Bu səhra topların görsə, danışmaz bir də heybətdən.
Əgər Rüstəmdi, bir getsin, dolansın Şərqi-əqsani,
Necə görsün dağı-dağ üstə qoymuşlar həmiyyətdən.
"Hüseyn Kürdü"nü min il söyləsin biar dərvişlər,
Gözüz çıxsın, əbəsdir, əl çəkin bu boş rəvayətdən!
O qədri pəhləvanlıqdan dediz, aləm olub vəhşi,
Keçənlər keçdi, indi kimdə vardır bu şücaətdən?
Səid, fürsəti fövt etmə, yaz bu mətləbi yeksər,
Özün təsdiq edərsən, gər desəm əbnayi-millətdən.

* * *

Ey milləti-biçarə, qəmin çarəsi olmaz,
Qəflət qəmi bir kasadı, həşrə kimi dolmaz.
Hər millət edər ərsəyi-təlimdə cövlan,
Avarədi hər karidən əbnayi-müsəlman.
Asayişimiz, sənətimiz qəflətimizdir,
Qəflət yuxusu əldə olan sənətimizdir.
Yox bizdə ibadət ki, olaq həqqə müqərrib,
Dərs almağa tutduq, bəli bir şivəyi-məktəb.
Ol gün ki, nə elm adı var idi, nə kitabət,
Nə məktəb adın bir kəs eşitmişdi, nə sənət.
Kim vasitəyi-elmdi, kim hikmətə məzhər?

Kim ağlı salıb dillərə, etmişdi münəvvər?
Aya kimə peyğəmbər idi Əhmədi-mürsəl?
Bais nədi, cəhl oldu bizə belə müdəlləl?
Bilməm niyə düşdük belə bəs haldan-hala?
Möhnətlərə bu milləti kim qıldı həvalə?
Parlaq günü kim zor ilə çəkdirdi səhabə?
Tar eylədi dünyanı, verib bizləri xabə.
Bir halda bizdən hamı əxz eyləyə təlim,
İndi niyə cəhli edələr bizlərə təslim?
Kim saldı bizi çöllərə, döndərdi cünuna?
Bu milləti kim qıldı uzaq elmü fünuna?
Heç kimsə bizi qılmadı bu dərdə giriftar,
Qəflət bizi bu dərdü qəmə eylədi vadar.
Qəflət özü hər millətə bir günə ilişdi,
Lakin bizə bir özgə təriq ilə girişdi.
Hər qövmə baxın, getdi ki, alsın ələ mətlub,
Fəhm etdilər təzvirlərin, etdilər məğlub.
Hər millətə kim eylədi izhari-məhəbbət,
Əsla ona aldanmayıb, etməzdilər hörmət.
Hər ölkəyə qoyduqca qədəm, etdilər ixrac,
Dünyanı gəzib, oldu müsəlmanlara sərtac.
Hər milləti dindirdi, görüb işdə mükəmməl,
Dünyada baxıb, tapmadı heç millətə mədxəl.
Axırda bizi çəngələyib, vermədi fürsət,
Hər ləhzə məhəbbət qılıb, andırdı sədaqət.
Əvvəl bizi tərqib qılıb yatmağa gündüz,
Söylərdi göz açmın yuxudan, batmasa ulduz.
Söylərdi müsəlmana; nə lazımdı ticarət?
Sənət nədir, hər ləhzə verir cana əziyyət.
Sənət kişinin dildəki xoş zövqi-səfadır,
Sənət özü baş tapsa əgər, dərdü bəladır.
Sənət nədi, bir işdə üç ay fikrə cümursan,
Bir taxtanın üstündə yüz həngamə qurursan.
Dünyanı tutub qalmayacaqsan, evi bərbad,
Bir loğma çörək tap, yegilən, ta ki, dolan şad.
Pul qalsa bu gündən sabaha cibdə xətadır,
Ləzzət qalacaq şəxsə, xoş iş seyrü səfadır.
Başın böyük olduqca böyükraqdı bəlası,
Bidar ol əzizim, bu pulun yoxdu vəfası.

Pulsuz kişi hər yerdə yata, əmnü amandır,
Pul sahibi sandığa da girsə, nigərandır.
Bikarda xaliq eləyib neməti təkmil,
"Şah işləməz, acından ölər?" yaxşıca təmsil.
Dövlətlilərin daim olur başı bəlada,
Təkmil edib asudəliyi tanrı gədada.
Bikar olan hər şəhərdə əngüştnümadır,
Hər kimsə ağız ləzzətini bilsə, gədadır.
Yüz il edərəm başla-canla gədalıq,
Milyon verələr, eyləmərəm bir gün ağalıq.
Müşkildi bu dövlətlilərin əmri-maaşı,
Asudə içməzlər gecə bir qaşıq aşı.
İnsafdı xalqa deyəsən gəl mənə işlə?
Bir növ salışdır işini, işləmə, dişlə.
Ağıl əhli bu nalayıq olan işləri tutmaz,
Bikar gəzənlər sözümü hərgiz unutmaz.
Bikarda gər həşrə kimi sikkə tapılmaz,
Tacirdə də çox vaxt əvvəlki kimi bir qəpik olmaz.
Bəs hər ikisi indi bu cür oldu bərabər,
Bilməm nədən ötrü bəs olur çidə bu işlər?
Dünyada qəmi qismət ediblər neçə payə,
Vermişlər yüzün tacirə, bir hissə gədayə.
Sizlərdə əbəsdir uşağı məktəbə qoymaq,
Məktəb bu deyil, bəlkə budur ömrü qurtarmaq.
Beş yaşda uşaqlar nə qanırlar nədi təhsil,
Biçarə əbəs bir yerədir elmdə təcil.
Bu mirzə*lərin dərsi mənim başıma dəysin,
Siz anlamazsız, mirzə bu dərsin verir əksin.
Əvvəl uşağa fərzdi adabi-qəbahət,
Nabaliğ uşaqlara verir elmi-himaqət.
Bu elm deyil, bəlkə bu miftahdı cəhlə,
Fərz eyləgilən sən bu müdərrisləri fəhlə.
Ay başını gözlər ki, uşaqdan pulun alsın,
Bunlara nə var, qoy bu müsəlman dalı qalsın.
Quranı qələt qurtar, axunda gətir xələt,
Bunlar nə bilir Xaliq edər sizlərə lənət.
Qardaş, buların başı çıxar çay-çilovdan,
Bunlar nə bilir elm nədir, ya nədi Quran.

*Düşmənin nəsihət verməsi insanı huşyar edər. Qəflət düşmənimizdə olsa, yenə dediyi sözləri xoşdur.

Bunlardı sizi eyləyən afaqda tənbəl,
Axır qoyacaq sizləri dinarə mətəl.

* * *

Hər dərd çəkən kimsələr, hər arif olanlar,
Etməzlər məzəmmət məni şerim oxuyanlar.
Hərçənd çox etdim bu kitabda cəsarət,
Təqsir deyil məndə, xəyalımdadı rəğbət.
Öz başıma mən eyləmədim bu sözü təkrar,
Təbim bu məqalata məni eylədi vadar.
İnsaf, mürüvvət qılın ey əhli-qərəzlər,
Yox zərrə qərəz məndə, riyasızdı bu sözlər.
Hər kəs ki, müsəlmanda ərbabi-qərəzdir,
Onlar da məni yəqindir ki, qərəz məhz mərəzdir.
Bu sözləri yazmaqda nədir bizdə təmənna?
Qəflət danışarmı, olar insan kimi güya?
Qəflətdə danışmaqlığa taqət görülübmü?
Ya bircə nəfər şəxslə söhbət görülübmü?
Biz qəflətə dil verdik, edib nitqdə mahir,
Qəflət biz ilən oldu bu aləmlərə zahir.
Biz qəflətə pirayə qılıb xalqa tanıtdıq,
Qafilliyə bərk-bərk yapışıb ağlı unutduq.
Qəflətdə söz olmaz, bizi aldatmağa lakin,
Qəflət özü bir şeydi ki, hər qəlbdə sakin.
Qəflət olur hər ləhzədə ağıl ilə həmavaz,
Bir qəlbdə çün hər ikisi fikrinə dəmsaz.
Hər kəs edə öz fikrinə təmkin ilə xidmət,
Ağıl onda yəqin verməyəcək qəflətə fürsət.
Hər kəsdə ki, ağıl etdiyinə olmasa talib,
Ondan sora ağlına olur qəfləti qalib.
Vay ol kəsə kim, ağlı olur qəflətə məğlub,
Daim görəcək zilləti öz boynuna mərkub.
İnsanda olan ağılda var yaxşı sifətlər,
Qəflətdə əzizim, görülüb çox yaman işlər.
Ağıl indiyədək eylədi çox evləri abad,
Qəflətdi edən xanəyi-milliyyəni bərbad.
Ağıl istəyir olsun kişi hər anda rahət,
Qəflət də xəyalında qoyub verməyə zillət.
Çox kimsəni bu ağıl qılıb aləmə sultan,
Çox padşəhi qoydu bu qəflətdə pərişan.

Ağıl eylədi aləmləri abad, qılıb şad,
Qəflət dağıdan ev olurmu həşrədək abad?
Ağıl ilə verilmişdi bu beş qitəyə vüsət,
Qəflətdə qoyub çoxları bir ölkəyə həsrət.
Ağıl ilə tutub aləmi xurşidi-şəriət,
Qəflət üzünü açdı, tutub aləmi zülmət.
Ağıl eylədi aləmləri sultanlara qismət,
Çoxları da bihissə qoyub məhz bu qəflət.
Xaliq verə yol qəflətə, gər bağü cinanə,
Süddən ağ olan kövsəri tez döndərər qanə.
Cənnətdə ola qəflətin asayişi məqdur,
İzn olsa, hamı qəsri-zərəfşanı yatırdır.

* * *

Qardaşlar, ataq qəfləti bilmərrə kənarə,
Bir az da bu qəflət qala, olmaz daxı çarə.
Gör bir necə işrət günümüz oldu müsibət,
Gülzari-vətən oldu müsəlmanlara qürbət.
Var bizdə nə bir dərs, nə bir elmü sənaye,
Etdik bu cavan ömrümüzü cəhl ilə zaye.
Əfsus ki, bu ömri-cavan getdi fənayə,
Saldıq özümüz başımızı dərdü bəlayə.
Hər bir iş olur dəhrdə biz millətə məstur,
Bikarlıq etdi bizi yüz tövr ilə rəncur.
Bizdə var idi əvvəli hər elmdən asar,
Bais nədi, bizdən də müqəddəm olub əğyar.
Hər bir işimiz getdi, qalıb qəlbdə həsrət,
Avarə qoyan bizləri qəflətdi, bu qəflət.
Heyhat, tərəqqi bizə də görsənə haşa,
Biz indi bu aləmdə varıq əhli-tamaşa.
Əğyarlar elm ilə bizə qıldı təfaxür,
Səhrayi-qəmə edilə islamı müsafir.
Ol qədr bu viranə evi etmədik islah,
Axırda yetişdi yədi-biganəyə miftah.
Əğyarlar açmışlar könül mülkünə mənzər,
Dil xanəsi dəryada sınıq kəştiyə bənzər.
Səd heyf ki, bu çərxi-dəni vermədi fürsət,
Sözdən götürəm pərdəni, kəşf olsun həqiqət.
İnsaf elə, nə etsin bu müsibətzədə millət?
Kim verdi bu biçarələrə bircə nəsihət?

Hər kəs ki, dura, ağzın aça, eyləyə söhbət,
Ol saat atallar ona yüz tərz ilə töhmət.
Hər kəsdə ki, baş tapsalar bərcayi-mədaxil,
Cəbrəyil tək ol saat olurlar ona nazil.
Xam görsələr, dərhal tutub bir səri-riştə,
Məhşərdə atallar onu rizvani-behiştə.
Hər kimsə salamında bir az eyləsə təxir,
Bağlarlar o biçarəyə yüz ayəyi-təkfir.
Əbnayi-müsəlman hərə bir güşədə qalmış,
Biçarə bu millət iki yüz səmtə bölünmüş.
Bir qismi qoyub adını cadügərü sahir,
Güya ki, budur hər bir ümuratda mahir.
Ağlını unutmuş, hamısı oldular cindar,
Etdilər hamı tayifeyi-cinni giriftar.
Bir qismi də "Dilsuz" kitabın cümlə qılıb əzbər,
Hər yerdə qoyub adını ağayi-süxənvər.
Bir qismi olub səfhəyi-afaqda bibak,
Bir qisminə nemət yaranıb şirəyi-tiryak.
Bir qisminə rahatdı keçə dəhrdə hər cür,
Bir qisminə həmsöhbət olur həzrəti-vafur.
Bir qismi yığar butə, qayırmaqla əksir,
Bir hissəsi divanə olub, qabili-zəncir.
Bir qisminə bir kəlməni tapşır, sala məstur,
Bir gündə edər səfhəyi-afaqda məşhur.
Bir qisminə milyon verəsən, axşama qalmaz,
Bir qismi də şah olsa, yenə əslin itirməz.
Bir qisminə şəkər kimi şirin gələr əfyun,
Bir qismi də mehtərdi, biri sahibi-əfsun.
Bir qismi namaz qılmağa afaqda möhtac,
Söylər nə təriq ilədi keyfiyyəti-merac.
Çox yazma Səid, elədin xalqı pərişan,
Olunmaz bu mərəzlər əbədən qabili-dərman.
Dərd əhli görə bunları, fərz eylər həqiqət,
Bidərd camaat görə, söylərlər zarafat.
Səd heyf ki, xak olsa da bu söz, bu kitabət,
Bişəkk qalacaq dildəki həsrət beqiyamət.

Son

# VƏTƏN VƏ HÜRRİYYƏT

*Tiflis – 1907*

*"Qeyrət" nəşriyyatı*

## İFADƏYİ-MƏRAM

Şu keçən əyyami-müzlim bəs ki istibdadmış,
Bizdən əksəndaz olan əflakə boş fəryadmış.

* * *

Eyləyin fəryad, bidar olsun ərvahi-vətən,
Millətin viranə mülkündə quraq ta əncümən.
Səslənir şimdi Cavadxan* xaki-paki-Gəncədən,
Arxadaşlar, belə istibdada tuş olmaq nədən?
Şu keçən əyyami-müzlim bəs ki istibdadmış,
Bizdən əksəndaz olan əflakə boş fəryadmış.

* * *

Şamilin** ətvarına layiq gərək ad eyləmək,
Həzrəti-peyğəmbərin idnində dilşad eyləmək.
Qafqazın viransərasın yeni icad eyləmək,
Milləti qeydi-əsarətdən bir azad eyləmək.
Şu keçən əyyami-müzlim bəs ki istibdadmış,
Bizdən əksəndaz olan əflakə boş fəryadmış.

* * *

Baş verib, azad olunmaqla durub bünyadımız,
Göstərib bu rahi-pakı bizlərə əcdadımız.
Şeyx Şamildir bu kar üzrə bizim ustadımız,
Arxadaşlar, millətə çatsın gərək imdadımız.
Şu keçən əyyami-müzlim bəs ki istibdadmış,
Bizdən əksəndaz olan əflakə boş fəryadmış.

* * *

Baş götürmək taki, insanlar tək olsun sayəmiz,
Qırmızı qan olsun hürriyyət üçün pirayəmiz.
Ölməyi lay-lay desin gəhvarə içrə dayəmiz,
Gör nə icraatlar etməkdədir həmsayəmiz.
Şu keçən əyyami-müzlim bəs ki istibdadmış,
Bizdən əksəndaz olan əflakə boş fəryadmış.

---

**Cavadxan məşhur Gəncə xanı adlanan bir zat idi. Şimdiki Gəncə quberniyası məzkur xanın idarəsində idi. Birinci Aleksandrın əsrində Sisiyanov adlı generalın təhti-komandasında Rusiya dövləti qoşun göndərib oğlu Hüseynqulu xanı özü ilə bərabər qətlə yetirib, Gəncəni dəxi fəth eləmişdilər. 1804-cü ildə.*

***Şeyx Şamil Dağıstan ölkəsində istiqbal və hürriyyətini hifz edici bir cəngavər idi. Rusiya ilə 25 il müharibədən sonra Qonib qalasında Rusiyaya təslim olub, Peterburqa göndərilib, Qaloqa şəhərndə sakin idi. 1871-ci ildə Mədinəyi-münəvvirədə vəfat etdi.*

* * *

Bu Vətən uğrunda canlar qoydu hər bir qəhrəman,
Qəhrəmanların məzarı üstə qurmaq imtahan.
Cüstəcu etmək, qübar ilən bulansın asiman,
Millətə lazım deyil viranə dönmüş asiyan.
Şu keçən əyyami-müzlim bəs ki istibdadmış,
Bizdən əksəndaz olan əflakə boş fəryadmış.

* * *

Müstəbidlərdən müsavat üzrə almaq ixtiyar,
Əl-ələ vermək, Vətən uğrunda olmaq cannisar.
Göz baxır islamə, andırmaq gərək isbati-kar,
Eyləmək bu millətin əvvəlki şanın paydar.
Şu keçən əyyami-müzlim bəs ki istibdadmış,
Bizdən əksəndaz olan əflakə boş fəryadmış.

* * *

Arif insanlar gərək bilsinlər hürriyyət nədir?
Rəsmi-hürriyyət nasıldır, qeyrəti-millət nədir?
Ey Səidi-Ordubadi, səndə bu qəflət nədir?
Gər sən insan olsan, insanlıqda bu zillət nədir?
Şu keçən əyyami-müzlim bəs ki istibdadmış,
Bizdən əksəndaz olan əflakə boş fəryadmış.

* * *

## QEYRƏTİ-MİLLƏT

Əshabına bir gün dedi loğmani-həqiqət,
Etdi məni hübbülvətənim mələi-hikmət.
Bildim vətənim qədrini, etdim də sədaqət,
Çünki çatar insana sədaqətlə şərafət.
Hübbülvətən övladıma məndəndi vəsiyyət,
İnsanlara fərz olmalıdır qeyrəti-millət.

* * *

İnsan oluban bil nədi qüdsiyyəti-insan,
Mənsəb hardadır, ya ki, nədir mənbəi-iman.
Hübbülvətən olmaz, gedər iman ilə ərkan,
Ondan sonra bilməz nə ki, heyvanmısan, insan.
İnsan olan etsin gərək həmnövinə xidmət,
İnsanlara fərz olmalıdır qeyrəti-millət.

* * *

Baş ver Vətən uğrunda ki, əbnayi-vətənsən,
Baş verməsən insan, nə ki, bir zağü zəğənsən.
Ey ol kişisən ki, Vətən alamı çəkəsən,
Əhsən sənə, sən millətə nüzhətli çəmənsən.
Olsun gərək hər fərd yaranmışda həmiyyət,
İnsanlara fərz olmalıdır qeyrəti-millət.

* * *

Loğmana dedi bir kişi ki, arifi-kamil,
Bu ağıl ki, var məndə, nədir bundakı hasil?
Bu növi cavab aldı ki; ağıl olmasa zayil,
İnsan eyləməz qeyrəti-millətdə təğafül.
Ağıl olmasa, olmaz təni-insanidə qeyrət,
İnsanlara fərz olmalıdır qeyrəti-millət.

* * *

Başdan keçib, ölməklə Vətən qədrini bilmək,
Ölmək deyil, əlbəttə, odur bir də dirilmək.
Bu tərz ilə düşmənlər ayağında əzilmək,
Tarixdə müstəqbəl üçün ibrət edilmək.
Ölmək budu, bişəkk, əgər olsan da səlamət,
İnsanlara fərz olmalıdır qeyrəti-millət.

* * *

Elmü ədəbə, qeyrətə ol şövqlə məhrəm,
Gör bir necə olmuş Vətənin məclisi-matəm.
İslama işıq günlər olubdur şəbi-müzlim,
Baş ver, Vətən uğrunda təlaş eylə dəmadəm.
Yatma dəxi, bil fürsəti hər ləhzə qənimət,
İnsanlara fərz olmalıdır qeyrəti-millət.

* * *

Yatdıq nə qədər naz ilə, şimdisə ayılmaq,
Başdan keçib, heysiyyəti-milliyyə qazanmaq.
Can ilə təlaş eyləyibən qana boyanmaq,
Bir əmri-müqəddəsdi Vətən qeydinə qalmaq.
Qoy qanını töksünlər, qıl isbati-şəhadət,
İnsanlara fərz olmalıdır qeyrəti-millət.

* * *

Baş verməyən insanın hüququatı verilməz,
Yüz kimsə əgər ölməsə, min kimsə dirilməz.
Millətdə tifaq olmasa asayiş edilməz,
Əfsus ola bir millətə, öz qədrini bilməz.

Bilməz nədi qeyrət, nədi millət, nədi himmət,
İnsanlara fərz olmalıdır qeyrəti-millət.

* * *

Olduqca ləgədkubi-cəfa, sanma qəzadır,
Hər iş ki var, insanın öz ağlında bəcadır.
Biqeydi-vətən kimsənə möhtaci-davadır,
Biz millətə hər qəm yetə, söylər ki, bəladır.
Su gəldi bizi basdı, qılıb qərqi-cəhalət,
İnsanlara fərz olmalıdır qeyrəti-millət.

* * *

Boş məsiyət ilə yüyürüb darə asılma!
Həmnövini bica yerə töhmətzadə qılma!
Yum ağzını, boş süfrə kimi xalqa açılma!
Övraqi-təvarixə həqarətlə yazılma!
Bəsdir dəxi, bu mərtəbə zillət, bu həqarət,
İnsanlara fərz olmalıdır qeyrəti-millət.

* * *

Dünyada təkapu ilə tap rahi-fəzilət[1],
İnsanı fəzilətdi qılan sövqi-səadət.
Olsun gərək insanda fəzilətlə həmiyyət,
Xoş gəlməsə bir iş sənə, ey piri-həqiqət.
Əğyara rəva görmə həman iş ola qismət,
İnsanlara fərz olmalıdır qeyrəti-millət.

* * *

Get elm oxu, ol zümrəyi-insanidə əfzəl,
Fəzl ilə səadət evinə tap, gələ mədxəl.
Elm ilə olursan bəşəriyyətdə mükəmməl,
Getmiş vətənin ruhu, qalıb bir quru heykəl.
Tariximizə qıl nəzər, al təzə bir ibrət,
İnsanlara fərz olmalıdır qeyrəti-millət.

* * *

Bu rahda çox kimsələr ad eylədi, getdi[2],
Zindanlara düşdüsə də, hürriyyətə yetdi.
Hürriyyəti insanlar əsarətlə yeritdi,
Öldü özü, ölməklə hamı haqqı diriltdi.

*1.Bu bəndi məşhur Fransa şairi Viktor Huqodan tərcümə ilə nəzm etdik.*
*2. Hürriyyət uğrunda zindana düşənlərin sərsilsiləsi Bunivar nam cavan idi. Məzkur cenevrəli olub, müstəbid Sava dokası tərəfindən 1530-cu ildən 1536-cı ilə qədər Şelyon nam həbsxanada qalmışdır. Əsarətlə qaldığı Şelyon statusundan hürriyyətlə qurtulub, kəndi vətənini dəxi hürriyyət içində gördü.*

Yatmaq ilə verməzlər müsavatü ədalət,
İnsanlara fərz olmalıdır qeyrəti-millət.
* * *
Ver səs-səsə, səssizlərə hərgiz çörək olmaz,
Heç tifil də bizlər kimi gəhvarədə yatmaz.
Fəryadın ucalmazsa hökumət səni saymaz,
İnsanda təlaş olmasa, hürriyyət alınmaz.
Verməz səmər əsla bu bətalət, bu kəsalət,
İnsanlara fərz olmalıdır qeyrəti-millət.
* * *
Bax, dövri-cədid olmağa təcdidi-həyat et!
Ölmüş vətənə bax, baxıb ehyayi-məmat et!
Göstər üzünü aləmə, təzkari-sifat et!
Təzkari-sifat üzrə durub, səbrü səbat et!
Gəl nitqə, dil aç, etgilən ibrazi-şücaət,
İnsanlara fərz olmalıdır qeyrəti-millət.
* * *
İnsafıdı, bica yerə pamali-qəm olmaq,
Həmnövdən adabi-maariflə kəm olmaq.
Ənzari-miləldən düşüb axır ədəm olmaq,
Həm əssənəyi-qərbə girib müttəhim olmaq.
Daşlarmı edər bunca qəmü möhnətə taqət?
İnsanlara fərz olmalıdır qeyrəti-millət.
* * *
İnsanda əgər olsa təcəllayi-kəmalat,
Məyublər öz eybin edəmməz ona isbat.
Var olsa əgər bizdə ülumü ədəbiyyat,
Şamil olar əhvalımıza feyzi-müsavat.
Hər ləhzə Səid, eylə bu əfradı kitabət,
İnsanlara fərz olmalıdır qeyrəti-millət.
* * *

## VƏTƏNİMİZƏ BİR NEÇƏ SÖZ

Bahar oldu, ey sinəyi-dağlı çəmən,
Göz aç qəmdən, ey xaki-paki-vətən.
Çıxıb gün, sabah oldu, dur xabdan,
Çəkil sahilə, sarı girdabdan.
Açarmı lisani-ədəb bülbülün?
Bahar oldu, nə oldu, bəs açmaz gülün?

Han, ol gün ki, nüzhətli gülzar idin,
Mətai-maariflə pərgar idin.
Gedər qış, açar gül, gələr növbahar,
Açar bağ ara laləyi-dağdar.
Nə üçün ey Vətən, sən bahar etmədin?
Baxıb bağa, bir ləhzə ar etmədin?
Açar qönçələr surəti-safını,
Oxur qönçənin bülbül övsafını.
Nə üçün səndə var daimi bir xəzan?
Haçan gül açarsan sən ey bustan?
Görürsənmi baş qaldırar şaxsar?
Olar nəstərən bağa xidmətgüzar.
Əzəl bir gülüstan idin binəzir,
Cahan səndən indisə ibrətpəzir.
Düşər bağa nilufərin sayəsi,
Olur yasəmən susənin dayəsi.
Məgər sən deyildin səfalı çəmən?
Məgər səndə yox süsənü nəstərən?
Açıb nərgisi-məst şəhla gözün,
Qızıl gül həyadan qızardır üzün.
Göz aç, sən də alqışla bu işrəti,
Verər bülbül elani-hürriyyəti.
Dəmadəm əsər zanbağın baydağı,
Səfi-bidi-məcnun qurar rövnəqi.
Eşitcək bu elanı kəbki-dəri,
Deyir mərhəba, nur alır gözləri.
Alar qümri Məşrutə təlimini,
Bənövşə verər dərs təzimini.
Girər bağa tutu quşu bavüqar,
Oxur nitqlər, parlamenti açar.
Qurar intixabatı əhli-çəmən,
Durub sədri-məclis olar yasəmən.
Olar rəsmi-talar güli-paydar,
Hamı yerdə icrayi-kari-bahar.
Çıxam yüz bahara, görəm yüz çəmən,
Gözüm səndədir, səndə, ah ey Vətən!
Kim etdi səni dərd ilə həmkənar?
Kim etdi çəməngahını kuhsar?
Mənə söylə, bu hala qaldın nədən?

Olursan ləgədkubi-zağü-zəğən.
Nə gəldi sənə ey cavanbəxti-ərus?
Nə üçün oldu məkus fərri-Kiyus?
Qəzalarmı yoldu gülüstanını?
Şəbistan kim etdi dəbistanını?
Nər gördün axır sən ey rəhgüzər?
Edirdin səlatinə rahi-səfər.
Gəhi tarümar etdi İran səni,
Gəhi basladı ali-Osman səni.
Olan dəmdə hər zihəvəs tacdar,
Qılardı səni fəthi-əvvəl qərar.
Verərdin sən əğyara, ey xaki-pir,
Nə qədər həyadidə qızlar əsir.*
Zamanlarca alama amacdın,
Ərəblər əmudilə taracdın.
Yanıb səndə nəyərani-Teymuri-ləng,
Batı xanü Çingiz salari-cəng.
Gəhi səndə övc etdi başdan minar,
Məgər cümlə səyyadə sənsən şikar?
Gəhi ziri-fərmani-Harun idin,
Ülumi-ədalətlə məşhun idin.
Edib səndə milyon xəlayiq zaval,
Adın qalsa, xoşdur məhəlli-qital.
Səni rahi-cəng etdi birahlar,
Fənalaşdı eşqinlə yüz şahlar.
Ayaqlarda qalxdı qübarın sənin,
Xəzansız solub laləzarın sənin.
Bu gün dilgüşa bir gülüstan idin,
Sabah xuni-mehmanla əlvan idin.
Qalardı adın gah mehmanpərəst,
Edərdin gəhi əhdü peyman şikəst.
Sənə aləm olduqda atəşfəşan,
O atəşdə odlandı pirü cavan.
Edirdilə daim səni çak-çak,
Boyanmışdın alamə ey xaki-pak.
Tutum ey gülüstani-köhənsal idin,
Nedim ki, cəfalarla pamal idin.

**15-ci əsrdə Qafqazı həm osmanlılar, həm iranlılar sədəməyə düçar etdirdilər. İldə Qara dənizin sahilinin hər güşəsində əsir satardılar. Əsirlər isə Qafqaz xanımları idi.*

Uzun müddət oldu çırağın xəmuş,
Cəfalarla millətlərin qarapuş.
Demə tutdu gülzarını xarlar,
Kənarında yatmş fədakarlar.
Nə üçün çıxdı yaddan dəlirani-pir?
Cavadxan cəngavəri-şirgir.
Dur ey mərdi-agəhdil, zişüur,
Adın qaldı dillərdə ta nəfxi-Sur.
Səadətlə öldün, dirildin müdam,
Səadətlə tövəmsən ey niknam.
Səni qıldı hürriyyətin parə-par,
Qəbul etmədin şöhrəti-müstəar.
Zamanında hüşyarü bidardın,
Fəridü vəhidü fədakardın.
Hüququndan əl çəkmədin, mərhəba!
Qılıncdır[1] dedin kar üçün intəha.
Özün paksan, pakmış niyyətin,
Qərar içrə bağidi hürriyyətin.
Olubsan fəqət ruyi-dünyada sən,
Behişti-bərrin içrə azadə sən.
Bir oğlunla can verdin, oldun fəda,
Sənə mərhəbalar, sənə mərhəba!
Sən açdın da bazari-hürriyyəti,
Ölüb də, diriltdin də milliyyəti.
Əcəb adlar etdin sən ey Əşkbus,
Sənə fəxrdir şimdi tarixi-rus.
Bu millətdə bağidi səndən nişan,
Bax əbnayi-nakama ey kamran.
Durub ol bu əxlafi-pakə dəlil,
Alıb cami-hürriyyət, et əssəbil!
Olub xalq biganə hürriyyətə,
Vətən döndü bir güşəyi-qəflətə.
Tutur millətin güşəyi-inziva,
Hanı münzəvi xalqa bir rəhnüma?
Dağıldıq cəhalətlə, yox səbrü tab,
Göz aç, bir də islah üçün qıl şitab.
Çıxar qəbirdən dişrə hürriyyəti,

*1. Son dəfə olaraq rus generalı Sisiyanov Cavadxana sülh təklifini etdikdə belə cavab aldı: Mənim nəşimi qala fövqində doğranmış görərsən, nəinki sülh edib Rusiya dövlətinə əl uzadanda. Dekabrın 29-da 1830-cu ildə.*

Əlә al yatan beydәqi-millәti.
Məzarından aç xalq üçün şahrah,
Vətən zülm taracıdır, ol pənah.
Sizindir bu məmur müstəmləkat,
Vətən yandı, millətdə yoxdur səbat.
Varsa xəyalında hübbülvətən,
Vətən ki, dağıldı, təqafül nədən?
Səni yordu cismindəki yaralar,
Var indi sənin kimi sədparalar.
Vətən kuhsarına qıl bir nəzər,
Tökür milləti-pakın əşki-bəsər.
Hökumət cəfası ilə qan ağlayır,
Sənə yoxsa millət əza saxlayır?
Qalıb çarəsiz tifli-biçarələr,
Tökülmüş zənani-şikəmparələr.
Düşüb mürği-milliyyə pərvazdan,
Axır qanlar ümmanə Qafqazdan.
Səni parə-parə etdi Şəmşiri-tiz,
Bina qıldın əsrində bir rəstaxiz.
Fəğan etmə zəhmətindən, ey kamkar,
Sənə yaradır mayəyi-iftixar.
Əzəl əkdin hürriyyətin danəsin,
Sonra nuş edib mərg peymanəsin.
Açır şimdi hürriyyətin qönçəsi,
Çıxar xaki-pakında bülbül səsi.
Vətən nami-hürriyyətə oldu ram,
Buyur, qılsın əxlafi-pakın qiyam.
Qəmaludə əyyamın itmamıdı,
Siz axtardığız karın həngamıdı.
Gedibdi, bahar oldu, açdı çəmən,
Maarif gülü ilə bəzənmiş Vətən.
Oxur hər diyar içrə bir əndəlib,
Edir ərzi-didar qövmi-nəcib.
Uçar millətin təzə bülbülləri,
Gedib axtarır Şeyx Şamilləri.
Deyir: Ey Vətən, piri-kamil hanı?
Dağıstanara Şeyx Şamil hanı?
Hanı səndə ol piri-fərxəndəxu?
Otuz ilə qılan rəzm üçün cüstəcu.

Hanı ol şeyxi-dindar, pak etiqad?
Hanı ol xosrovi-paki-zietimad?
Hanı ol şeyxi-namavəri-bimisal?
Hanı ol qaziyü hamiyi-xoşxisal?
Hanı ol fili-məsti-diyari-qital?
Edən bir əl ilə otuz il cidal?
Dur ey şeyxi-arif, bu nə xabdır?
Qaranlıq Vətən gör nə məhtabdır.
Cəzaküllah, aləmdə ad eylədin,
Təvarixi-millini şad eylədin.
Həmiyyəti-sədaqətlə oldun imam,
Otuz ildə qıldın vəfanı tamam.
Sənə mərhəba, saxladın qövlünü,
Özünlə apardın əsir oğlunu.
Gər oldusa cəng içrə oğlun şikar,
Uşaqlıqda andırdı isbati-kar.
Vəfa görmədin yoxsa əvandan,
Əsarətlə getdin Dağıstandan.
Sənə oldu mədfən diyari-Hicaz,
Hicaz içrə tutdu Sizi xabi-naz.
Demə kim, sənə oldu qürbət məzar,
Mücahid-mücahidlə, yar ilə yar.
Vətəndən sənə xoşdu ol xoş diyar,
Peyəmbərlə oldun əcəb həmcüvar.
Çıxıbmı könüldən əsarət qəmi?
Yəqin çıxsa, məhv olmaz ümmət qəmi.
"Qaluqayə" məmur edildikdə sən,
Var idi xəyalında hübbülvətən.
Şikayətlərin dildə pünhan idi,
Xəyalın Vətən tək pərişan idi.
Apardın xəyali-qəməfzaları,
Rəsula dedin cümlə şikvaları?
Görüşdün Rəsul ilə ey nikraz?
Peyğəmbər sənə oldu mehmannəvaz?
Dedinmi, hüququmda padar idim,
Ricali-Dağıstana salar idim.
Dedinmi ki, hürriyyətə ram idim?
Məhəlli-xətərnakə zərğam idim.
Dedinmi, vəfa qılmadı yarlar?

Qitalı atıb qaçdı ənsarlar.
Dedinmi, dağıldı müsahiblərim?
Mənə xain adlandı nayiblərim.
Gedib ərz et, ey Əhməd ül-mürsəlin,
Olan dadiyü hamiyi-rahi-din.
Dur ey peyki-həqq, xatəm ül-ənbiya,
Olub millətin bir-birindən cüda.
Bir az vaxta mərdani-kəjdüm xəyal,
Qoyur dinü-millətdə bir infisal.
Bizim cümləmiz bir müsəlman idik,
Bir ayində, bir əhli-Quran idik.
Bir əl kimi bir təndə beş qardaşıq,
Bir ümmət, bir islam, bir yoldaşıq.
Birik cümlə, gər varsa nöqsanımız,
Neçünki birik, birdi Quranımız.
Nədir şiə, sünni nə ayindədir?
Bir olduqda qardaş, bu məbhəs nədir?
Gər olsa müsəlmanımızda tifaq,
Atanmazlar islama səngi-şəqaq.
Oyan ya peyəmbər, hanı ümmətin?
Hanı ümmət üstə olan niyyətin.
Fəna hala düşdü vəsiyyətlərin,
Səni yada salmır bu ümmətlərin.
Necə gör dağıtdılar bu gülşəni,
Çıxardırmı yadından ümmət səni?
Necə gör rəvac aldı cövrü-cəfa,
Dağıldı sədaqət, tükəndi vəfa.
Səriətdi Siz qoyduğunuz yadigar,
Edilmiş nə tövr ilə gör tarümar.
Rəiyyətdə yox ağıl, elm, vüqar,
Özün dami-qəflətdən etsin kənar.
Əzildi, qurtardı fağır ümmətin,
Yetiş dadə, ya Əhməd ül-mürsəlin!
Bu əlvati-birəhm, alimnüma,
Salan dəmdə təsbih, şalü əba.
Çəkər milləti dara təzvir ilən,
Rəsəd bənd edər qəmli zəncir ilən.
Ülül elmlər dilə şöhrət şüar,
Tutub cümləsi şöhrəti-müstəar.

Qənilər kərəmsizdi, millət fəğir,
Yorulduq, cəfalardan olduqda sir.
Bu aləmdə gülməz fəğirin üzü,
Yalandır fəğirin sədaqət sözü.
Baxıb ümməti-pakə, göstər əlac,
Bu zülmətsəra içrə yandır sirac.
Durub ver ülumata pirayələr,
Necə gör bizi keçdi həmsayələr.
O kəslər ki, var idi möhtacımız,
Olur şimdi elm ilə sər tacımız.
Gedib şani-millət, vüqar oldu fövt,
Gərəkdir bu islamə ehyayi-mövt.
Hanı nazpərvər olan millətin?
Hanı aləmə fəxr edən ümmətin?
Edilmiş bənayi-şəriət zəbun,
Vəsiyyətlərin də qalır vajgün.
Bir az vaxt məhv oldu əmr ilə nəhy,
Hamı gözləyir şimdi Cəbrəyili-vəhy.
O kəslər ki, qıldı bizi tarümar,
Qoyur şimdi adın şəriətmədar.
Hanı pişvayani-fərmanrəvay?
Əli şahi-mərdan, Xeybərgüşay.
Əbubəkri-sədiq həmrahi-qar,
Ömər ibn Xəttab züliktibar.
Hanı İbn Əffani-zünuri-pak?
O şəxsi-vətənpərvəri-sinəçak.
Hanı ey Vətən, zülkərəm xanlar?
Neçün soldu bağ-gülüstanlar?
Pənahxan neçün düşdü əndişədən?
Ki, baş qovzamır qələyi-Şişədən.
Göz aç qəbirdən, ey həmiyyətli xan!
Şücaətli ixlafə qur imtahan.
Hanı ol gün ki, verməzdin İrana bac?
Olurdun bərazəndəyi-təxtü tac.
Hünərməndlər şimdi eylərmi xab?
Necə gör olub "Əskəran"ın xarab.
Hanı İbrahim xan əhli-vəfay?
Hara getdi Şamxalü Adil gəray?
Səida, dəxi qoyma əldən qələm,

Qələm əldə, candan keçib, ol ədəm.
Be ibrət nəzər kon suyu-rəftəgan,
Ki, fərda şəvi ibrəti-digəran.[1]

* * *

*1804-cü ildə Rusiya ilə məşhur Gəncə qəhrəmanı Cavadxan müharibə etdikdən sonra Cavadxanı oğlu Hüseynqulu xan ilə bərabər top üzərində olaraq ruslar parça-parça etdilər. Müharibədən sonra rus generalı knyaz Sisiyanov Cavadxanın parça-parça nəşini yaralıların içindən tapdırıb, mütəntən (təntənəli) surətdə dəfn etdirdi. Aşağıda yazılmış nitqi Cavadxanın baş övrəti Bəyimxanım Cavadxanı tabuta qoyanda oxumuşdur. Biz bu nitqi rus tarixində görməyib, ancaq İrandan əlimizə çatan farsi lisanında yazma bir məcmuədən tərcümə etmişik ana dilimizə müvafiq.*

*İki fərağa düşən ər və övrətin lisanına oxşar bir libasa geyindirib, məzkur vəfalı övrətin ərindən artıq hürriyyətpərəst olduğunu nişan verməyə mütəcasir oldum (cəsarət etdim).*

***Səid***

## NİTQİN SURƏTİ

Kədərəngiz bir qaranlığa malik olan tabutun bu qara taxtaları mənə bir günəşin zamani-qürubunu andırır. Bu günəş sirəti-bir qəhrəmanmış, həm bir mücəssəmi-həmiyyət.

Ah, bu qəyur qəhrəman yalnız bir həftə müqəddəm kəndi talari-hökumətində təvəqqüf etmiş idi.

Daha nələr deyim. Bu əndəlibi-hürriyyət əsarətin bir hali-əsəf iştimalını eşitdi. Qanadlanıb dilxahı üzrə talarından əcəlin bir meydani-fəlakət nişanınamı düşdü?

Bəli! Son dəfə olaraq nuş etdiyi mağəri-həyatından əsarətin damağ alışdıran qoxusunu hiss etdi. Edib də talarından cənggaha, daha getdikcə əcəlin bir çərxi-tizruy olan atəşbar toplara oturub, nəhayət üzünü çevirərək məqərri-sülhi-əbədi olan bu qaranlıq tabuta qondu.

Məsud qəhrəman! Sağəri-şəhadəti mərdanə nuş etdin. Mərhəba!

Düşmənlərin tiği-canşikarı ştiklərin bihədd zəxmləri, topların sədayi-biamanı səni amansız bir tabutun gedər-gəlməz atına süvar etdi.

Bəli! Niyyəti-hürriyyətsiriştin səni bir məqami-müqəddəsə isal etdirdi.

Ey zair! Dünyayi-fanini ziyarət etməkdən mənzurun beş günlük bir fanilikdə üç günlük bir hürriyyət qazanmaq idi. Şimdisə hürriyyəti-əbədiyyətə vasil oldun.

*1. Getmişlərə ibrət gözü ilə bax ki, sabah sən də bu dünyanı tərk edəndə başqalarına ibrət olasan.*

Ey qəhrəman! Sən indi cənnətin qərin səfasındasan. Vətən uğrunda etdiyin fədakarlıqlar, qazandığın niknamlar hər tərəfdən gözəl mələklər surətində səni istiqbal edirlər.

Ey vah! Ardınca şitaban olduğun hürriyyət bir nami-şəhadətlə həmağuş olaraq səni səndən ziyadə istiqbal etdi. Axtardığın peyda oldu. Lakin bir çoxları napədid etdin.

Əcəba! O isə bizlərik. Arxamızdakı libasi-matəmi çıxarmarıq. Zira səninlə bir mələk surət cavabımda ləhədnişin olur.

Ax zavallı cavan!

Bu qan dənizlərində əl-ayaq çalarkən ürəklər çırpınması ilə bu taxteyi-tabuta sıçradın. Şimdi sahili-səlamətə gedirsənmi? Get! Heç bir əsrdə məsləki-həqiqin olan hürriyyətin bu sədayi-dilnişini əfradi-millətin qulaqlarından çıxmayacaqdır. Xatircəm get!

İftixarlı adın millətin xatirindən ta beqiyamət (qiyamətədək) silinməyəcəkdir. Tabutun bu qaranlıq bacalarından məzarın bu soyuq torpaqlarına çəkidə olan hürriyyətin hüznavər qanları əsla napədid olmayacaqdır. Zira bu qanlar bir qəhrəmanın Vətən uğrunda olan cannisarlıqlarını cənabi-həqqə isbat edəcəkdir.

Ey bu cəngavərlərin amali-hürriyyət iştimali şamiənəvazınız olan hürriyyətpərvərani-cahan, zamani-irtihalını daxi görüb ibrət alınız!

Ey hürriyyət, sən necə aləmrübasan!

Dünənləri bu qəhrəmanın hücumlarına qarşı duramayan bu rus ordularını bu gün bu qəhrəmanın məzarı üzrə başları açıq qara baydaqlarla saxlayırsan.

Əfsus, baxtın müsaidəsizliyi!

**Səid**

MÜNDƏRİCAT

Böyük ədəbiyyat nəhəngi *(İsa Həbibbəyli)* ........ 3
Həyatım və mühitim ........ 21
Qanlı sənələr ........ 152
İki çocuğun Avropaya səyahəti ........ 277
Qəflət ........ 308
Vətən və hürriyyyət ........ 320

**Məmməd Səid Ordubadi**
*Həyatım və mühitim*

*Kompyuter tərtibatı*
Abbas Əliyev
Ziya Məmmədov

Yığılmağa verilmiş 20.10.2012.
Çapa imzalanmış 05.11.2012.
Formatı 70X100 1/16 "Tayms" qarnituru.
Ofset çap üsulu. Ofset kağızı. Həcmi 21,0 ç.v.
Sifariş № 1138 Tiraj 300 nüsxə.

"Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyi.
Naxçıvan şəhəri, Təbriz küçəsi, 1